*Fuad MƏMMƏDOV*

# KULTUROLOGİYA

*EFFEKTİVLİ HƏYAT VƏ FƏALİYYƏTƏ APARAN YOL KİMİ*



71
M51

*"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası*

*Fuad Məmmədov*

# KULTUROLOGIYA

## EFFEKTIVLI HƏYAT VƏ FƏALIYYƏTƏ APARAN YOL KIMI.

113785

**tariflər, düsturlar, mədəniyyət müddaaları, ayrı-ayrı məqalə, məruzə və çıxışlar**

**Bakı, «Çıraq»,2008**

**Kitab "Simurg" Azərbaycan Mədəniyyət Assosasiyasının rəyasət heyyətinin qərarı ilə çap olunub.**

Elmi redaktor və müqəddimənin müəllifi:
akademik **Fuad Qasımzadə**

Elmi rəyçilər: akademik **Maqsud Əliyev,** MEA-nın müxbir üzvü, professor **Nizami Cəfərov,** professor **Solmina Dadaşova,** professor **Nəriman Həsənzadə.**

Tərcüməçi: pedaqoqika elmləri namizədi **Vəfa Mehdiyeva**

**F.T.Məmmədov.** Kulturologiya effektivli həyat və fəaliyyətə aparan yol kimi. - Bakı, «Çıraq» nəşriyyatı, 2008. səh.400

Bu kitab orta məktəb, gimnaziya və litsey şagirdləri, ali məktəb tələbələri, müəllimlər, alimlər, siyasətçilər, dövlət idarəçiliyi sahəsidə işləyənlər, mədəniyyət menecerləri, qeyri dövlət təşkilatlarının rəhbərləri, qadın və gənclər təşkilatları, bələdiyyə, həmkarlar, sahibkarlar və eləcə də geniş oxucu kütləsi üçün nəzərədə tutulmuşdur.

**F $\frac{0201000000}{067}$ 2008**

**İSBN 5-87459-245-8**

**© "Çıraq" nəşriyyatı, 2008**

**Dünya mədəniyyəti müdafiə edərsə,**
**mədəniyyət dünyanı xilas edər.**

## KULTUROLOGİYANIN PİRAMİDASI

**Kulturologiyanın piramidası insan, cəmiyyət və dövlətin inkişafı üçün yeni imkanlar açan sistemli kulturoloji təhlilin universal məntiqi pillələridir.**



ASSOCIATION
OF CULTURE
OF AZERBAIJAN
SIMURG

*Association of culture of Azerbaijan*
*"SIMURG"*

*Fuad Mammadov*

# *CULTUROLOGY*
## *as a way to effective life activity*

**definitions, formulas, concepts of culture**

**articles, reports, speeches**

**Baku, «Çıraq»,2008**

*Nənəm – Qeysər xanım Kaşıyeva,*
*anam – Ləyya xanım Kəsəmənli-Seyidbəyli*
*və atam – Teyyub Məmmədova ithaf edirəm*

# MÜNDƏRİCAT


- *Müqəddimə*....13
- *Müəllifdən*....23

## I HİSSƏ. MƏDƏNİYYƏTİN TƏRİFLƏRİ, DÜSTURLARI, MÜDDAALARI.

### I—ci bölmə. Kulturologiya elm və tədris fənni kimi.

- ***Kulturologiya anlayışı və predmeti***
- Kulturologiya mədəniyyət haqqinda elm kimi....33
- Kulturologiyanın predmeti....35
- Kulturologiyanın elmi apparatı....36
- ***Mədəniyyət anlayışları***
- Mədəniyyət anlayışlarının əsas mənaları....37
- Ruhi (əqli və mənəvi) mədəniyyət....37
- Ruhi mədəniyyətin komponentləri....38
- Maddi mədəniyyət....39
- Maddi mədəniyyətin kəmponentləri....39
- Mədəniyyət və antimədəniyyət....40
- Mədəniyyət həyat və fəaliyyət texnologiyaları kimi....41
- Kontekstual (mətnlə bağlı) mədəniyyət....41
- Həyat tərzi....43
- Bədii mədəniyyət və mədəni irs....43
- ***Sosial mədəniyyət***
- Müasir cəmiyyətin sosial mədəniyyəti....44
- Soial mədəniyyətin sistemyaradıcı komponentləri....45
- Mədəniyyətin sosial kapitalı....46
- ***Mədəniyyət istehsalının funksiyaları və mexanizmləri***
- Mədəniyyətin və kulturologiyanın funksiyaları....47
- Kulturogenez (mədəniyyətin genezisi) ....48
- Mədəniyyətin "şaqulisi" və "üfuqisi" ....49
- "Ruhi istehsalat" sistemləri....50
- Mədəniyyətin sinergetikası....51

- ***Şəxsiyyət mədəniyyəti***
  - Şəxsiyyətin formalaşması amilləri.....53
  - Şəxsiyyətin yaradıcı təfəkkürünün səviyyələri və növləri.....54
  - Mədəni qavramamazlıq və diletantizm.....56
  - Insan inkişafı indeksi.....56
- ***Mədəniyyət, etnos, millət***
  - Mədəniyyətin etnik-milli göstəriciləri.....57
- ***Mədəni dəyərlər***
  - Mədəni dəyərlər.....57
  - Mədəni dəyərlərin formalaşması prosesi.....59
  - Mədəni dəyərlərin təbəqələşməsi.....60
  - Etik mədəniyyətin üstün dəyərləri.....60
  - Şərq və Qərbin mədəni inkişafının xüsusiyyətləri.....61
  - ***Etik mədəniyyət.***
  - Etik mədəniyyət.....62
  - Etik müddaalar.....64
  - Xeyir və Şər.....64
  - Davranış mədəniyyəti və intizam.....66
  - Intizamın forma və vasitələri.....66
  - Dostluq və etibarın əsasında olan keyfiyyət və şərtlər.....67
  - Burjua əxlaqının yaxşılıqları.....67
- ***Hüquqi mədəniyyət***
  - Hüquqi mədəniyyət.....68
  - Hüquq və əxlaq.....72
- ***Elitar və kütlə mədəniyyəti***
  - Mədəniyyətin yaradıcıları.....75
  - Elitar mədəniyyət.....75
  - Elitar mədəniyyətin ocaqları və institutları.....76
  - Kütlə mədəniyyəti.....76
  - Kütlə mədəniyyətinin əsas institutları və sahələri.....77
- ***Mədəniyyətin tarixi tipləri***
  - Mədəniyyətin tarixi tipləri.....80
  - Dünya mədəniyyətinin tarixi dövrləşdirilməsi.....81

- Mədəniyyətin tarixi, sosial və siyasi növ müxtəliflikləri....................81

**_Mədəni tərəqqi və mədəni inqlablar_**

- Mədəni tərəqqi və mədəni tənəzzül................................................82
- Antik dünyada mədəniyyət anlayışına üç yanaşma...........................83
- Sosial-mədəni inqlablar.................................................................84
- Sivilizasiya anlayışı.......................................................................88

**_Sivilizasiyalar_**

- Sivilizasiya haqqında təsəvvürlərin inkişafı.....................................89
- Ilk sivilizasiyaların əlamətləri..........................................................90
- Lokal-tarixi sivilizasiyaların səciyyəvi xüsusiyyətləri........................91

**_Mədəniyyət inkişaf dinamikası və mədəniyyətin təhlili_**

- Mədəniyyət inkişafı dinamikasının təhlili..........................................91
- Mədəniyyətin təhlilinin əsas üsulları və prinsipləri...........................92
- Kulturologiya metodologiyasının məqsədləri, mahiyyəti və imkanları..........................................................................................93

**_Kulturoloji təhsil_**

- Kulturoloji təhsil: mahiiyət, missiya, səviyyələr..............................94
- Kulturoloji təhsilin imkanları və gözlənilən nəticələri.......................95
- Sistemli kulturoloji təhsilin müqaisəli üstünlükləri............................96

**_Mədəniyyət siyasəti_**

- Sosial-mədəni siyasətin mühüm problemləri....................................98

**_Mədəniyyət anlayışına elmi yanaşmalar_**

- L.A. Uaytın mədəniyyət müddaası..................................................99
- A. Maslounun mədəniyyət və insan müddaası.................................101
- Mədəniyyət anlayışına L.E. Kertmanın elmi yanaşmaları.................102
- Mədəniyyət müddaalarının M.B. Eşiç tərəfindən sistemləşdirilməsi. ....................................................................................103
- Mədəniyyət müddaalarının Q.A.Antipov və A.N. Koçerqin tərəfindən sistemləşdirilməsi ........................................................104
- Mədəniyyət anlayışına yanaşmaların V.S. Polikarpov tarafindən sistemləşdirilməsi ........................................................105
- Mədəniyyət anlayışına dünyə alimlərinin yanaşmaları.....................105

**_Kulturoloji simvollar, rəmzlər və rəqmlər_**

- Dünya xalqlarının mifologiyası ilə bağlı olan kulturoloji simvollar, rəmzlər və rəqmlər....107
- Dünya quruluşu və təşkil olunmasının antik prinsipləri....119

**Ikinci bölmə. Demokratiya və vətəndaş cəmiyyəti mədəniyyəti.**

*Dəmokratik mədəniyyət*
- Demokratiya mədəniyyəti: mahiyyət, prinsiplər, dəyərlər, normalar. ....120
- Vətəndaş cəmiyyəti mədəniyyəti....124

*Insan hüquqları və mədəniyyət hüquqları*
- Insan hüquqları, demokratiya mədəniyyətinin mühüm beynəlxalq institutu kimi....129
- Mədəniyyət hüquqları....130
- Sülh mədəniyyəti....132

*Sülh mədəniyyəti və münaqişələrin aradan götürülməsi*
- Dünyada sülh mədəniyyətinin qurulması şərtləri....132
- Sülh mədəniyyətinin qurulması üçün tələb olunan keyfiyyətlər.....133
- Zorakılığ növləri....134
- Sülh mədəniyyəti və münaqişələrin həlli yolları....134

*Gender mədəniyyəti*
- Gender mədəniyyəti....136
- Gender nəzəriyyəsi və gender siyasəti....137

**Üçüncü bölmə. Idarəetmə mədəniyyəti.**

*Idarəetmə elmi*
- İdarəçiliyin elmi prinsipləri və komponentləri....139
- Təşkilat mədəniyyətinin növləri....140

*Dövlətin idarəolunması*
- Effektivli dövlət idarəetmə sisteminin qurulmasının əsas şərtləri....142
- Demokratik idarəetmənin əsas prinsipləri....144
- Demokratik idarəetmənin formaları və vəzifələri....144
- Dövlətin idarəolunmasının üç mərkəzi problemi....145
- Dövlətin idarəolunmasının elmi vəzifələri....145

- Dövlətin idarəolunmasının praktiki vəzifələrinin əsas növləri........145
- Dövlətin idarəolunması sisteminin əsas səviyyələri........................146

o *Sosial idarəetmə*

- Vətəndaş cəmiyyətində idarəetmənin əsas prinsipləri....................146
- Vətəndaş cəmiyyəti inkişafının idarəetmə porblemləri.................146
- Bələdiyyə idarəetməsi..............................................................147
- Yerli özünüidarəetmə orqanlarında idarəçilik mədəniyyətinin əsas prinsipləri..............................................................148
- Bələdiyyə idarəetməsinin funksiyaları, formaları, resursları və modelləri..............................................................149
- Qeyrihökumət təşkilatları fəaliyyətinin strateji planlaşdırılması...150
- Qeyrihökumət təşkilatlarında fandrayzinq......................................151
- Yoxsulluqla mübarizə proseslərinin idarə olunması........................153
- Yoxsulluğu aradan qaldırılmasına yönəlmiş kulturoloji seminar və treninqlərin təxmini mövzuları, planı, vəzifələri və tələbləri.......154

o *Monitorinq*

- Monitorinqin məqsədi və vəzifələri..............................................159
- Monitorinqin aparılması qaydası..................................................160

o *İqtisadiyyatın inkişafının idarəolunması.*

- Müəssisənin idarəolunması sənəti. ABŞ təcrübəsi. ..........................162
- "Yapon iqtisadi möcüzəsinin" əldə olunmasına kömək etmiş xüsusiyyətlər..............................................................165
- Yaponiya və ABŞ idarəetmə sistemləriin müqaisəli göstəriciləri.....167
- Marketinq..............................................................................167


**Dördüncü bölmə. Müəllifin elmi müddaalari, işləmələri və praktiki tövsiyyələri.**


o ***Mədəniyyət və kulturologiya anlayışları***

- Mədəniyyət anlayışı..................................................................168
- Mədəniyyət sosial sistem kimi.....................................................169
- Iqtisadiyyat mədəniyyətin sosial institutu kimi..............................170
- Kulturologiya anlayışı

- Mədəniyyətin effektivliyi düsturu.....171

**_Mədəniyyətin effektivliyi düsturu_**

- Mədəniyyətin faydalı iş əmsalı və entropiyası.....173

**_Mədəni insan düsturu_**

- Mədəni insan düsturu.....174
- Şəxsiyyət mədəniyyətinin keyfiyyət növləri və pillələri.....175
- Insanın həyat təminatının maddi və ruhi komponentləri.....176

**_Xoşbəxtlik düsturu_**

- Xoşbəxtlik düsturu.....176
- Pula alına bilməz həyatın üç dəyəri.....178

**_Mədəniyyət inkişafının amilləri_**

- Mədəniyyət inkişafının obyektiv-tarixi amilləri.....180
- Cəmiyyətin sosial-mədəni tərəqqisini təmin edən amilər.....180
- Mədəni qeyrimüntəzəmlik.....181

**_İnsan fəaliyyətinin effektivliyi_**

- Istehsalat effektivliyi düsturu.....181

**_Idarəetmə effektivliyi_**

- Idarəetmə effektivliyi düsturu.....182
- Demokratik idarəetmə effektivliyi cəmləri.....183
- Idarəetmə uğuru düsturu.....184

**_Mədəniyyət siyasəti_**

- Mütərəqqi sosial-mədəni siyasətin əsas vəzifələri.....185
- Mütərəqqi sosial-mədəni siyasətin əsas üstünlükləri.....186
- Sosial-mədəni inkişafın üstünlüklərinin müəyyən edilməsi.....186
- Mədəniyyət üzrə dövlət şurasının təxmini tərkibi.....187

**_Azərbaycan mədəniyyətinin dövrləşməsi_**

- Azərbaycan mədəniyyətinin inkişafı dövrləri.....188

**_Azərbaycanın modernləşməsi_**

- Azərbaycanın məkanda və zamanda inkişafı.....189
- Azərbaycan mədəniyyətinin modernləşməsinə dair tövsiyyələr.....190

**_Azərbaycanda vətəndaş cəmiyyətinin idarəolunması_**

- Azərbaycanda vətəndaş cəmiyyəti.....193
- Vətəndaş cəmiyyətiin inkişafının idarəolunması problemləri.....194

**_Azərbaycanda kulturoloji təhsil_**

- Dünya mədəniyyəti beynəlxalq universiteti layihəsindən iqtibaslar....196
- *Mədəniyyətin tarixi və nəzəriyyəsi sahəsində elmi dərəcə iddiaçılarına tövsiyyələr*..........202
- ***Mədəniyyət və qloballaşma***
- Qloballaşma şəraitində beynəlxalq sosial-mədəni siyasətin vəzifələrinin görünüşü..........203
- ***Kulturologiyanın metodologiyası***
- Kulturologiyanın metodologiyası..........204
- ***kulturologiyanın piramidası***


## II HİSSƏ. AYRI-AYRI MƏQALƏLƏR, MƏRUZƏLƏR, ÇIXIŞLAR.


1. Kulturologiya insan texnologiyaları və imkanları haqqında elm kimi...208
2. Dünya mədəniyyəti və elminin inkişafı tarixindən..........230
3. Dünya mədəniyyəti və Azərbaycan cəmiyyəti: müqaisəli təhlil, problemlər və onların həlli yolları..........259
4. Mədəniyyət siyasəti məsələsinə dair..........272
5. Vətəndaş cəmiyyətində mədəniyyət siyasətinin fərmalaşdırılmasına elmi yanaşma haqqında..........280
6. Demokratik Azərbaycanda mədəniyyət inkişafının idarəolunmasına yeni yanaşma haqqında..........291
7. Qloballaşma şəraitində ruhi mədəniyyətin həyat və fəaliyyətin fəlsəfəsi və texnologiyası kimi görünüşü haqqında. ..........305
8. Mədəniyyət sivilizasiyanın yaradıcı amili kimi, kamilliyə, sulhə və çiçəklənməyə aparan yol kimi. ..........319
9. YUNESKO, mədəni dəyərlər və kulturoloji təhsil. ..........328
10. Azərbaycan mədəniyyəti dünya sivilizasiyası kontekstində..........336
11. Azərbaycan Respublikasında ruhi mədəniyyətin inkişafı problemləri, üstünlükləri və texnologiyaları haqqında..........343
12. Azərbaycan mədəniyyətinin modernləşdirməsinin aktual problemləri haqqında..........373
13. Dünya mədəniyyəti və azərbaycanlıların özünüdərki..........389
14. XX əsrin əvvəllərində Azərbaycanda siyasi mədəniyyət haqqında...393
15. Mədəniyyət anlayışına elmi yanaşma və azərbaycan dilində kulturoloji terminologiya haqqında. ..........397
16. *Tövsiyyə olunan ədəbiyyat*..........399

# GİRİŞ

Dünya sivilizasiya tarixinin müasir mərhələsində şəxsiyyət, cəmiyyət və dövlətin həyatında kulturologiyanın əhəmiyyəti dönmədən artmaqdadır. İnsanın həyat fəaliyyətinin təkmilləşlməsi, qloballaşmadan yaranan yeni tələblər, dövlət və cəmiyyətin inkişafı, yeni texnologiyalardan düzgün istifadə üçün şəxsiyyət və liderlərin hazırlanmasına olan ehtiyac siyasi, sosial-iqtisadi və beynəlxalq proseslərin sistemli kulturoloji təhlilinə xüsusi ehtiyac yaratmış, bu isə, öz növbəsində humanitar elmlərin qovşağında yaranan bu sintezli elm sahəsinin əhəmiyyətinin artmasına səbəb olmuşdur.Kulturoloji tədqiqat, təhsil və maarifçilik olmadan balanslaşdırılmış siyasət və effektli dövlət idarəçiliyi, rəqabətqabiliyyətli iqtisadiyyat və yüksək sosial etika, beynəlxalq münasibətlər və dünyada mədəniyyətin bərqərar olmasını təsəvvür etmək mümkün deyil.Deyilənləri nəzərə alaraq, professor Fuad Məmmədovun "Kulturologiya - effektli həyat fəaliyyətinə doğru gedən yoldur " monoqrafiyası Azərbaycanda elm, təhsil və mədəniyyətin inkişafına qiymətli töhfədir.

Əsərdə mədəniyyətin modernləşdirilməsi və mədəni irsin qorunmasının zəruriliyini qeyd edən müəllif, azərbaycanın qabaqcıl alim və mütəfəkkirlərinin bir neçə nəslinin maarifçilik ideyalarının məntiqi inkişafını nəzərdən keçirir. Tədqiqat M.F.Axundovun, A.A.Bakıxanovun , H.Cavidin, Əhməd Ağa oğlu, Əli bəy Hüseynzadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, S.Vurğun və digər görkəmli ziyalıların ölkədə hökm sürən cəhalətin aradan qaldırılması naminə milli dirçəliş yollarını müəyyənləşdirməkdə mədəniyyət anlamına düzgün yanaşdıqlarını və Azərbaycan xalqının tərəqqipərvər inkişafında mədəniyyətin həlledici rolunu təsdiq edir.

Monoqrafiyada insanın təkmilləşməsi, cəmiyyətin sosial inkişaf və tərəqqisi üçün yeni imkanlar açan bir çox əməli əhəmiyyətli kulturoloji biliklər vardır. Monoqrafiya iki hissədən ibarətdir. Birinci hissədə insan, cəmiyyət və dövlətin həyat fəaliyyəti haqqında düzgün elmi təsəvvürlərin formalaşmasına yardım edən mədəniyyət və kulturoloji konsepsiya,düstur və baza anlayışları verilmişdir. İkinci hissədə insan və cəmiyyətin aktual problemlərindən olan sosial-mədəni siyasət, idarəetmə, vətəndaş cəmiyyəti və demokratiya

mədəniyyətinin həm milli , həm də qlobal miqiyasda geniş kulturoloji təhlilinə həsr olunmuş müxtəlif illərdə yazılan məruzə, məqalə və çıxışlar verilmişdir.

Kitabın birinci hissəsində sistemləşdirilmiş biliklər ensiklopedik xarakter daşıyır. Burada elmə əsaslanan metodologiya daxilində kulturologiyanın predmet və elmi aparatı, insanın həyat fəaliyyətinin müxtəlif sahələri, həyatı təmin edən sistemlər, sosial mədəniyyətin komponentləri, mədəniyyətin yaradılması mexanizmi və funksiyaları, "ruhi istehsal", mədəniyyətin mənşə xüsusiyyətləri , yaradıcı təfəkkürün səviyyə və tipləri mədəniyyətin formalaşma səbəbləri haqqında məlumat verilir. Müəllif tərəfindən intellektual, etik, hüquqi, idarəetmə, elitar, kütləvi mədəniyyət, **ruhi (əqli və mənəvi)** və maddi mədəniyyət, mədəniyyət və anti-mədəniyyət, sülh mədəniyyəti, qender mədəniyyəti, mədəni tərəqqi və mədəni inqilabın xüsusiyyətləri, sivilizasiyanın əlamətləri və mədəniyyətin tarixi tipləri aşkar edilir. Mədəniyyətin milli-etnik xarakteristikası və mədəni dəyərlərə həsr olunmuş bölmədə Şərq və Qərb mədəni inkişafının xüsusiyyətlərinin araşdırılması böyük maraq doğurur. Əsərdə L.A.Uayt, A.Maslou, L.E.Qertman, M.B.Yeşiç, Q.A.Antipova, A.N.Koçergina, V.S.Polikarpovanın mədəniyyət konsepsiyaları nəzərdən keçirilir. Müəllif A.Toynbi, K.Yaspers, O.Şpenqler, H.Hesse, M.Haydegger, İ.Saburo,T.Parsons, Y. Şepanski, E.Giddens, Y.Heyzinq, S.Lemm, K.Levi-Stros, N.Smelzer, P.Sorokina, V.Diltey, G.Zimmel, İ.Herder, F.Nitşe, E.Orteqa-i-Qasseta, E.Qusserl, N.Danilevski, K.Leontyev, N.Trubetskoy, P.Sabitski, L.Qumilyov, M.Kim, M.Kaqan, Y.Lotman və digər görkəmli alimlərin mədəniyyət anlamına yanaşmalarını göstərir.

İnsanın həyat fəaliyyətinin müxtəlif sahələri haqqında məlum ictimai-elmi biliiklərin sintezi və yaradıcılıqla işlənməsi ilə bərabər, müəllif ictimai-mədəni tərəqqinin imkanları, texnologiyaları, xüsusiyyət və mahiyyətini daha yaxşı anlamağa imkan verən şəxsi şərh və təriflərini də yaratmışdır. Onların içərisində mədəniyyətin elmi anlamını və kulturologiyanın "piramidasını" qeyd etmək olar. Müəllif kulturologiya elmində ilk dəfə olaraq, mədəniyyətin, insan fəaliyyətinin, istehsalın, idarəetmənin effektivliyi, mədəniyyətin entropiyası, mədəni insanın səadət düsturu və faydalı iş əmsalını şərh etmişdir. Kitabın yeni biliklər bloku insan həyatını təmin edən ruhi

və maddi komponentlər, mədəni inkişafın obyektiv-tarixi faktorları, Azərbaycanın mədəni inkişaf tarixinin ayrı-ayrı dövrlərinin kulturoloji təhlilinin nəzədən keçirilməsi ilə tamamlanır. Mədəniyyəti bütöv sosial sistem kimi nəzərdən keçirən müəllif, ilk dəfə olaraq, iqtisadiyyatın mahiyyətini mədəniyyətin sosial institutu baxımından aşkarlamış, mədəniyyət sahəsində dövlətin prioritetlərini müəyyənləşdirmiş, ölkə inkişafının keyfiyyət və sürət artımını təmin edən tövsiyələr hazırlamışdır. Müəllif mədəniyyətin öyrənilməsinin əsas prinsip və metodlarını, onun inkişaf dinamikasını göstərən kulturoloji metodologiyanın mahiyyət, məqsəd və imkanlarını təsvir edir, sistemli kulturoloji təhlilə əsaslanan kulturologiya piramidasının məntiqi pillələri baxımından, mürəkkəb sosial-mədəni və siyasi problemlərin həlli yollarını meydana çıxarır. Dövlət və cəmiyyətin aktual problemlərinin tədqiqi əsasında, müəllif, Azərbaycanda mədəniyyətin modernləşdirilməsi, eləcə də qloballaşma şəraitində beynəlxalq sosial-mədəni siyasət üzrə təkliflər hazırlamışdır.

Fuad Məmmədovun dünya mədəniyyətinin fundamental tarixi və nəzəri problemlərinin təhlili üzrə Azərbaycanda və xarici ölkələrdə etdiyi çıxış, məruzə və nəşr olunmuş, dünya mədəniyyətinin fundamental tarixi və nəzəri problemlərinin təhlilinə yönələn elmi məqalələrinin vahid monoqrafiyada toplanması kultirologiya üçün mühüm əhəmiyyət daşıyır. Əsasən kitabın ikinci hissəsində toplanmış bu çıxış və məqalələr insanın inkişafı, sosial-mədəni siyasət, idarəetmə mədəniyyəti və sülh mədəniyyəti məsələlərinə həsr olunmuşdur. Müəllif mədəniyyət siyasəti və mədəniyyətin idarə edilməsinin əsas prinsipləri, demokratik cəmiyyətdə idarəetmə mədəniyyətinin mahiyyəti və texnologiyaları, qlobal idarəetmə mədəniyyətinin xüsusiyyətləri, liderlik problemləri və digər məsələlərə elmi yanaşmanı əsaslandırmışdır. Əsərdə qloballaşma şəraitində həyat fəaliyyəti texnologiyaları və ruhi mədəniyyətin fəlsəfi problem kimi nəzərdən keçirilməsi yenilik xarakteri daşıyır. Adı çəkilən əsərlərdə Şərq və Qərbin elmi-mədəni inkişafı və tarixi nailiyyətlərinin mərhələləri nəzərdən keçirilir. Müəllif, bununla, mədəniyyəti sivilizasiyanın yaradıcı faktoru, kamillik, sülh və tərəqqiyə doğru alternativi olmayan yol olduğunu göstərməyə can atır. Yaratdığı konsepsiya, tərif, düstur və mexanizmlərin mahiyyət və

məntiqi təhlili əsasında, F.Məmmədov ilk dəfə olaraq, kulturologiyanın sabit sosial inkişafdakı zəruri təməl rolunu, effektiv dövlət idarəçiliyindəki strateji əhəmiyyətini və insanın həyat fəaliyyətindəki texnologiya və imkanlarını elmi əsaslarla şərh edir.

F.Məmmədovun, müasir həyatda siyasi mədəniyyətin tərəqqipərvər formalarından biri olan, demokratiya mədəniyyəti və vətəndaş cəmiyyəti, onun mahiyyət, prinsip, dəyər, normalarının təhlili mövzusuna müraciət etməsi əsərin məziyyətlərindəndir. Müəllif xarici ölkələrdə iqtisadi inkişafın idarə edilməsi təcrübəsini nəzərdən keçirərək, demokratik cəmiyyətdə dövlət idarəçiliyinin mahiyyət və xüsusiyyətlərini, yoxsulluqla mübarizə prinsiplərinin idarə edilməsi yollarını göstərmişdir. O, aparıcı dünya ölkələrində istifadə olunan idarəetmə prinsiplərini və mədəniyyətin təşkili tiplərini də araşdırmışdır. Əsərdə, həm də, sosial-mədəni siyasətin mühüm problemləri, bələdiyyə idarəçiliyinin xüsusiyyətləri və qeyri hökumət təşkilatlarının idarə olunması problemləri öz əksini tapmışdır.

F.Məmmədov öz tədqiqatlarında dünya mədəniyyəti və sivilizasiyasının problemlərinə əhəmiyyətli yer verir. Burada, o, yüksək əqli və mənəvi mədəniyyəti yer üzərində insanın, sülhün və həyatın xilası üçün başlıca faktor kimi qiymətləndirir. O, texnogen sivilizasiya şəraitində müxtəlif xalqların dünya mədəniyyəti haqda biliklərinin artırılmasını, mədəniyyətlərarası dialoqun rolunu, xalqlar və dinlərarası harmoniyanın dünya mədəniyyətinin əsasını təşkil etməsini, bəşəriyyətin sabit inkişafı, əməkdaşlıq və birgəyaşayış şəraiti üçün tolerantlığın əsas şərt olmasını xüsusi qeyd edir.

Monoqrafiyada kulturoloji təhsilin mahiyyətinin təhlilinə, məqsəd və məramına, imkanlarına və gözlənilən nəticələrinə xüsusi yer ayrılmışdır. Müəllif universal biliklərə malik şəxsiyyət və liderlərin formalaşdırılma vasitəsi kimi sistemli kulturoloji təhsilin üstün cəhətlərini göstərir. Kulturoloji təhsil və maarifi universal və xüsusi elmi biliklərin cəmiyyətə ötürülməsi, həmçinin potensial, qabiliyyət və istedadı inkişaf etdirmə prosesi kimi nəzərdən keçirən müəllif, ilk dəfə olaraq, YUNESKO səviyyəsində xüsusi beynəlxalq kulturoloji təhsil proqramının hazırlanması və həyata keçirilməsini təklif etmişdir. O, qlobal idarəetmədə uğur əldə edilməsi, sülh mədəniyyəti və qender bərabərliyinin bərqərar olması, yoxsulluğun

və. terrorizmin aradan qaldırılması , bütün dünyada sabit və təhlükəsiz inkişafa nail olmaq üçün belə təhsilin mühümlüyünü əsaslı dəlillərlə sübut edir. Müəllif dünya mədəniyyəti tarixi və nəzəriyyəsinin, fənn kimi, dünyanın bütün orta və ali məktəblərində interaktiv tədrisinin zəruriliyini qeyd edərək, onun şəxsiyyətin harmonik inkişafı və müxtəlif xalqların mədəni dəyərlər sisteminin yaxınlaşmasındakı əhəmiyyətini qeyd edir. Buna əsaslanaraq ,o, YUNESKO tərəfindən , həmin təşkilatın üzvü olan ölkələrdə sistemli və interaktiv kulturoloji təhsilə istiqamətlənmiş xüsusi deklarasiyanın qəbul olunmasının məqsədəuyğunluğu barədə təklif tərtib etmişdir.

Monoqrafiyanın ən qiymətli bölmələrindən biri , dünya sivilizasiyası kontekstində Azərbaycan mədəniyyətinin inkişafı ilə əlaqədar bir çox geniş məsələlərin təhlilinə həsr edilmişdir. Azərbaycanda demokratik mədəniyyətin təşkili və inkişafı tarixi, azərbaycançılıq şüuru, ilk demokratik respublika dövründə siyasi mədəniyyət, Azərbaycanın müasir mədəniyyəti və onun gələcəyi daim müəllifin diqqət mərkəzindədir. tədqiqatçı nəinki mədəniyyət fenomenini düzgün anlamağa, respublikanın proqressiv inkişafı üçün onun imkanlarının formalaşdırılmasında, eləcə də Azərbaycanın müasir ruhi mədəniyyətini obyektiv qiymətləndirilməsində, dövlətin mədəniyyət siyasətinin mahiyyət və prioritetlərinə düzgün baxış yaradılmasında yardımçı plmağa can atır. O, ölkənin tərəqqipərvər inkişafında mədəniyyətin idarə edilməsinin zəruriliyini qeyd edir və onun başlıca məqsəd və metodlarının seçilməsinə can atır. Bu motivasiya onun kulturoloji tədqiqatlarının mahiyyət, istiqamət və metodologiyasına , eləcə də müasir Azərbaycan dövləti və cəmiyyəti inkişafının aktual problemləri və onların obyektiv həllinə elmi və aksioloji yanaşmalara baxışları müəyyənləşdirmişdir.Maraqlıdır ki, Azərbaycanın dinamik və sabit inkişaf modelini yaratmaq üçün müəllif bəşəriyyətin, eləcə də müxtəlif ölkə və xalqların sosial-mədəni təcrübəsindən yaradıcılıqla istifadə etmişdir. O, sənaye və informasiyalı cəmiyyət quruculuğunda dövlətin rəqabət qabiliyyəti və inkişafının yüksək sürət və keyfiyyətinin əsas şərti kimi, dövlət idarəçiliyində kulturoloji yanaşmanın strateji əhəmiyyətini xüsusi qeyd edir. Mədəni irsin qorunmasının zəruriliyini şərtsiz qəbul edərək, o, milli mədəniyyətin fəal modernləşdirilməsinin həyati

113785



M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublikası
KİTABXANASI

əhəmiyyətini xüsusi qeyd etmiş, onu ictimai tərəqqi, milli inkişafın obyektiv tələbləri, dünya sivilizasiyasının qanunauyğunluqları və inkişaf tendensiyalarının başlıca faktoru kimi göstərmişdir. Azərbaycan dilində kulturoloji terminologiyanın hüdudlarını genişləndirən alım, ilk dəfə olaraq elmi tədavülə mənəvi mədəniyyətin intellektual və əxlaqi mədəniyyətlərin birliyini ifadə edən mənasını, "ruhi mədəniyyət" terminini daxil etmişdir.

Müəllifin bir sıra məruzə və məqalələri Müstəqil Azərbaycan Respublikasında demokratik dövlətçilik və vətəndaş cəmiyyəti mədəniyyətinə, mədəni inkişafın idarə edilməsi metodlarının təkmilləşdirilməsinə, beynəlxalq mədəni əlaqələrin genişləndirilməsinə həsr olunmuşdur. Əsərdə, həmçinin, müəllifin mədəniyyət hüququ, azərbaycan dilində kulturoloji terminologiya, kulturoloji elm və təhsilin nəzəri və praktik məsələlərə yanaşması əks olunmuşdur.

Müəllifin 90-cı illərdə nəşr etdirdiyi və hələ keçən əsrin 80-ci illərində formalaşan, Azərbaycanda demokratik cəmiyyət və hüquqi dövlət quruculuğunda mədəniyyətə və onun əhəmiyyətinə həsr olunan erkən məqalə və məruzələrin kitaba daxil edilməməsi təəssüf doğurur.

Bu əsərlərin məziyyətləri ondan ibarətdir ki, F.Məmmədov respublikada ilk dəfə olaraq, Azərbaycanın daha uğurlu gələcəyinin qurulması, təhlükəsiz və sabit inkişafının təmin edilməsi, daxili və xarici siyasətinin effektiv inkişaf strategiyalarının yaradılması və dövlət quruculuğu və idarəedilməsi üçün kulturologiyanın elmi-fəlsəfi, metodoloji və praktik dəyərini göstərmişdir.

Fuad Məmmədovun məqalə, məruzə və çıxışlarında təhlilinin başlıca ("kant") prinsipi olan tənqid həqiqət axtarışı , dünya mədəniyyəti inkişafının pozitiv təcrübəsi, elmi nailiyytlərə əsaslanan insan həyatı və cəmiyyətin inkişafında proqressiv dəyişikliklərə meyl, sosial terapiya ilə motivləşərək, özünü büruzə verir .

Onun sosial-mədəni inkişaf konsepsiyasının əsasını texnogen sivilizasiyanın destruktiv prosesləri və müasir kütləvi mədəniyyətin hakimliyinin aradan qaldırılmasına istiqamətlənən məhsuldar sosial-mədəni siyasəti təmin edən intellektual və etik mədəniyyətin harmoniyası və sintezi, elm, təhsil, etikanın müstəqil və prioritet inkişafı haqqında müddəalar təşkil edir. Müəllif hesab edir ki, idarəetmədə və siyasətdə obyektiv dialektik ziddiyyətlərin kulturoloji baxımdan düzgün və elmi

cəhətdən əsaslandırılmış həlli kommunikativ ictimai praktikanın təkmilləşdirilməsi, cəmiyyətin inteqrasiyası və sabit inkişafı, tərəqqipərvər dəyişikliklər üçün yeni imkanlar açır.O, hərtərəfli insan inkişafına yönələn elitar mədəniyyətin formalaşdırılması və kütləviləşdirilməsi, keçid dövründə azərbaycan cəmiyyəti mədəniyyətindəki böhranların aradan qaldırılması imkanlarını nəzəri şərh etməyə çalışır.

Mədəniyyət anlamına geniş yanaşma, Hegel, Kant fəlsəfəsi və digər görkəmli dünya kulturoloji fikir nailiyyətlərindən istifadə, dünya mədəniyyəti və sivilizasiyasının problem və inkişaf qanunauyğunluqlarının kompleks, sistemli təhlili, müəllifə, müasir Azərbaycanda ictimai tərəqqiyə yönəlmiş elmi əsaslı praktik əhəmiyyətli tövsiyələr tərtib etməyə şərait yaratmışdır.

Tarix elmləri doktoru Fuad Teyyub oğlu Məmmədov Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəetmə Akademiyasının professoru ,"Simurq" Azərbaycan mədəniyyət Assosiasiyasının prezidenti, "İntellektual inkişaf problemi" Beynəlxalq Elmlər Akademiyasının və Rusiya pedaqoji və sosial elmlər Akademiyasının akademikidir. O, Azərbaycan cəmiyyəti və dövlətinin modernləşdirilməsi və sosial inkişafına yönələn tarix, elm və mədəniyyət nəzəriyyəsinə həsr olunmuş 200-dən çox elmi, elmi-pedaqoji məqalə,konsepsiya, layihələrin müəllifi, həmmüəllifi və tərtibçisidir. Onların arasında 2002-ci ildə "Simurq" AKA-da nəşr olunmuş yalnız respublikanın ali məktəblərində deyil, həm də Rusiya, ABŞ, Almaniya, Fransa, Avstriya və digər ölkələrin kitabxanalarında istifadədə olan "Kulturologiya" fundamental əsəri, Azərbaycan mədəniyyət assosiasiyası , Beynəlxalq Dünya Mədəniyyəti Universiteti, Vətəndaş Cəmiyyəti Beynəlxalq Mədəniyyət Forumunun və beynəlxalq ictimaiyyəti marağına səbəb olan digər layihələri qeyd etmək olar.

O, Azərbaycanda lider və şəxsiyyətlərin formalaşdırılmasına yardım edən və dünya mədəniyyəti və sivilizasiyalarının nailiyyətləri və demokratik ölkələrin idarəetmə təcrübəsinin öyrənilməsi əsasında qurulan "İdarəetmə mədəniyyəti" innovativ kulturoloji kursunun respublikada ilk yaradıcısıdır. 90-cı illərin əvvəllərindən etibarən daim fəaliyyətdə olan "Mədəniyyət və cəmiyyət" kulturoloji seminarın elmi rəhbəridir. 1990-2005-ci illərdə müxtəlif məqsədli fokusqruplarla kulturologiya, təşkil və idarəetmə mədəniyyəti, vətəndaş

cəmiyyəti mədəniyyəti və məsuliyyət mədəniyyəti, davamlı insan və sosial inkişaf , QHT üçün III sektor və fandreyzinq problemləri üzrə keçirilən 200-dən artıq respublika və beynəlxalq konfrans, interaktiv seminar və treninqlərin təşkilinə rəhbərlik etmişdir.

F.Məmmədov Rusiya, AFR, Rumıniya, gürcüstan, Yunanıstan, Misir, Türkiyə, Kosta-Rika, Norveç, ABŞ, Tayland, Koreya, Fransa, Macarıstanın ayrı-ayrı səfirlik, dövlət institut və cəmiyyətlərində təşkil edilmiş beynəlxalq konqres, konfrans və simpoziumlarda mədəniyyət tarixi və nəzəriyyəsi, elm və idarəetmə problemləri üzrə elmi məruzə və məlumatlarla çıxış etmişdir. 1991-ci ildə Kosta-Rikada etdiyi çıxışdan sonra, Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri də bu mərkəzi amerika ölkəsi olmuşdur.

2000-ci ildə alim Avropa Şurasının mədəni siyasət üzrə ekspertlər siyahısına daxil edilmişdir.

Tədqiqatçı-kulturoloq kimi, Fuad Məmmədov üçün xarakterik olan cəhət odur ki, o, mədəni hadisə və artefaktları abstrakt izah etmir, əksinə , onların sosial-mədəni inkişaf qanunauyğunluqlarını aşkar etmək üçün sintez və ümumiləşdirmələr aparır, ictimai inkişafda tərəqqipərvər dəyişikliklərin əldə edilməsi üzrə konkret əməli tövsiyələr hazırlayır. Müəllif dövlət və cəmiyyət idarəçiliyi mədəniyyəti və mədəni siyasət, mədəniyyətin inkişaf imkanları və rolu, mədəniyyət anlamına yeni tələb, vəzifə, prinsip və texnologiyalar baxımından öz yeni elmi yanaşmalarını ardıcıl və inandırıcı şəkildə ifadə edir. Alim mədəniyyəti, hər biri öz qanunları ilə inkişaf edən, daxili ziddiyyətləri ilə xarakterizə edilən sosial institut, hadisə və əlamətlərin üzvi bağlılığının sintetik birliyinin kompleksi, vahid sistemi kimi dərk edərək, həqiqəti axtarmağa can atır. O, düşünür ki, bu sosial sistemin və onun inkişaf qanunauyğunluqlarının metodoloji baxımdan düzgün öyrənilməsi bəşəriyyətin tərəqqisi üçün yeni həqiqət, imkan və perspektivlər açır. Bu baxımdan, o, sintez qabiliyyətli Azərbaycan mədəniyyətinin orijinallığını öz mədəniyyətinin tələb və prinsipləri baxımından başqa xalqların mədəni yeniliklərini yaradıcılıqla işləməsi ilə bağlayır.

Kitab bəşəriyyətin inkişafı üçün hüdudsuz imkanlar açan mədəniyyəti yeni anlamda dərk etməyəkömək edir. O, eyni zamanda keçmişin və bu günün kompleks təhlili əsasında müasir azərbaycan

mədəniyyətinin modernləşdirilməsi və müstəqil Azərbaycan Respublikası gələcəyinin düzgün formalaşdırılması yollarını görməyə imkan verir.

Əminliklə demək olar ki, Fuad Məmmədovun "Kulturologiya effektiv həyat fəaliyyətinin yoludur" monoqrafiyası kulturologiyada yeni sözdür. Elmi mövqe və yaradıcı fikrin parlaq ifadəolunduğu, bundan əvvəlki "Kulturologiya" kitabının məntiqi davamı olmaqla, bu monoqrafiya Azərbaycanda kulturoloji tədqiqat və təfəkkür ənənələrinin təşəkkülünü tamamlayır. Bu ənənə üçün xarakterik cəhət "texnoloji təfəkkür" sayıla bilər ki, onun da mahiyyəti aşağıdakından ibarətdir : - fakt, hadisə və proseslərin, insan psixologiyası və həyat fəaliyyətinin mahiyyətini mənimsəməklə, siyasət və idarəetmədə tərəqqipərvər əməli nəticələrin əldə edilməsi.

Kitabda olan kulturoloji biliklərin çox hissəsi bəşəriyyətin inkişafının beynəlxalq sosial-mədəni təcrübəsinin uzun müddət öyrənilməsi, ümumiləşdirilib, sistemləşdirilməsindən yaranan və ilk dəfə istifadə olunan kulturoloji tərif, konsepsiya və düsturlardır. Onlar insan, dövlət və cəmiyyətin yaradıcı imkanları və nailiyyətləri, təşkil və idarəetmə, təfəkkür və yaradıcı fəaliyyət, həyat texnologiyaları, inkişafın qanun, xüsusiyyət və mahiyyəti barədə düzgün təsəvvür yaradılmasına kömək edir.

Kitabın hüquqi dövlət və demokratik cəmiyyət quran müstəqil Azərbaycan Respublikasında idarəetmənin müxtəlif sistem və səviyyələrində, dövlət və ictimai idarəetmə sahələrində lider və şəxsiyyətlərin formalaşdırılması üçün qiymətli elmi və praktik əhəmiyyətə malikdir. O, qloballaşma şəraitində Azərbaycanın xarici dövlətlərlə sülh və əməkdaşlığı, beynəlxalq münasibət mədəniyyətinin inkişafı, informasiyalı cəmiyyət quruculuğu, yeni ictimai münasibətlərin formalaşdırılması, ölkənin modernləşdirilməsi, dövlət quruculuğu və idarəçiliyində düzgün strategiyaların elmi əsasla işlənməsi üçün nəzəri və fəlsəfi baza kimi mühüm və əhəmiyyətlidir.

Professor Fuad Məmmədovun xidməti ondan ibarətdir ki, o, məşhur kulturoloqlardan – Uayt, Yaspers, Toynbi, Şpenqler, Diltey, Hesse, Sorokina, Husserl, Parsons, Saburo, Markuze və digərlərinin nailiyyətlərinin yaradıcı dəyərləndirilməsi əsasında ilk dəfə olaraq, dünya mədəniyyəti və sivilizasiyalarının inkişaf tendensiyası və

xarakteri, kulturoloji elmin müasir inkişaf məntiqini əks etdirən , mədəniyyət və kulturologiyanın yeni elmi təriflərini yaratmışdır. İlk dəfə olaraq, uğurlu gələcəyi təsəvvür etməyə və qurmağa yardım edən, insan inkişafının yeni imkanlarını, texnologiyaları, inkişaf qanunlarını, nailiyyət, tarix, imkan, mahiyyətinin sistemli öyrənilməsinə yardım edən elm kimi, kulturologiya piramidasını müəyyənləşdirmək Fuad Məmmədova nəsib olmuşdur. Müəllif tərəfindən inkişafın məqsəd və metodlarına yeni nəzərlə baxmağa imkan verəbn termin, konsepsiya və təriflərin istifadəsi əsaslandırılmış, mədəniyyəti fərdi, lokal və qlobal səviyyədə tədqiq etmək üçün yeni yanaşmalar təklif edilmişdir. Fuad Məmmədov beynəlxalq inkişaf təcrübəsinin diqqətli tədqiqi əsasında dövlət və ictimai inkişafın model və layihələrinə bir çox elmi mədəni və kulturoloji təriflər vermişdir. O, yerli və xarici mütəxəssislərin bəyəndiyi, Azərbaycan mədəniyyətini yeni inkişaf səviyyəsinə yüksəldə biləcək sosial-mədəni siyasətə aid konkret praktik məsləhətlərini hazırlayıb, dövlətə təqdim etmişdir.

Yeni fənlərarası elm kimi, kulturologiyanın inkişaf prosesində olması, müəllifin ayrı-ayrı mülahizələri ətrafında diskussiya xarakterli fikirlər yarada bilər. Kitabın bəzi hissələrində təkrarların mövcudluğu isə, müxtəlif vaxtlarda nəşr edilmiş məqalə və məruzələrdə konkret mövzuların məntiqinin mənimsənilməsinə yardım kimi izah oluna bilər. Eyni zamanda, əsər kulturologiya elmi, təhsili və maarifində, ümumiyyətlə, Azərbaycan intellektual mədəniyyətinin inkişafına ciddi töhfə və nəzərəçarpan bir hadisədir. Müəllif mədəniyyəti ictimai və beynəlxalq münasibətlərin, siyasi və iqtisadi inkişafın təməli, ictimai tərəqqinin əsas hərəkətverici qüvvəsi və dövlətin sosial kapitalı kimi təqdim edə bilmişdir. Monoqrafiyanın universal xarakterini, dilinin sadə və aydınlığını nəzərə alsaq, onun yuxarı sinif şagirdləri və tələbələr üçün faydalı dərs vəsaiti, eləcə də siyasətçilər, alimlər, mütəxəssislər, diplomatlar və öz ruhi mədəniyyətini təkmilləşdirməyə, elmi dünya görüşünü dərinləşdirməyə və fərdi həyat qabiliyyətini inkişaf etdirməyə can atan sadə vətəndaşlar üçün dəyərli mənbə ola biləcəyinə əmin olmaq olar.

# MÜƏLLİFDƏN

"Homo Sapiens" –in tarix səhnəsinə çıxdığı vaxtdan bu günə qədər, insan həyatının mühafizəsi və daha da yaxşılaşdırılması bəşəriyyətin mədəni həyatının əsasında durur. Bu, hər bir planet sakininin əsas həyat motividir. Buna görə də təhsilli adamlar, xüsusilə də ziyalılar insan səadəti "potensialı"nın yüksəldilməsi , həyatın daimi olaraq yaxşılaşmağa doğru dəyişməsi üzrə məsuliyyəti öz üzərlərinə götürməlidirlər. İnsan həyatında səadətdən mühüm bir şey varmı? Səadətə can atmaq hər bir insanın həyat fəaliyyətinin təbii və əsas stimuludur, özünütəkmilləşdirməyə can atmaq isə - özünü mədəni şəxsiyyət hesab edənlər üçün zəruri səadət şərtidir. Bu sosial qanunauyğunluq şəxsiyyətin xarakterini və prixologiyasını anlamağa imkan verir, insanların təfəkkür və davranışına təsir göstərir, bir çox hallarda insanın maraq, məqsəd və tələbatlarının formalaşma motivlərini izah edir.

Səadət – insan və onun yaxınlarının fiziki və mənəvi sağlamlığı, şəxsiyyətin real arzu və ideallarının həyata keçməsidir.Səadət yalnız uğur deyil. O yalnız maddi rifahla müəyyən olunmur. O, ağıl, mərhəmət, səxavət və insanlara xidmət, daxili gözəllik, məhəbbət, dostluq, sədaqət, həyatsevərlik, öz idealları uğrunda mübarizlik və səmərəli güzəşt bacarığı tələb edir.

Səadətin şərtlərindən biri öz potensialını reallaşdırmaq və cəmiyyətdə layiqli yer tutmaqdır. Deməli, səadətin cəmiyyətdə sosial ədalət və əlverişli mədəni mühitin mövcudluğu ilə əlaqəsi sözsüzdür.Bu isə insandan mədəni irsi keyfiyyət və qabiliyyətlərlə yanaşı, həm də bilik, müdriklik, gərgin əmək, inam və dözüm, azadlıq və mərdlik, vicdan və alicənablıq, iradə və məsuliyyət tələb edir. Səadətin ən mühüm meyarları möhkəm və firavan ailə, sevimli peşə və iş, doğmaların və dostların etimadını doğrultmaq, ətrafdakıların məhəbbət, hörmət, rəğbət və yardımıdır. Səadətin yolu bilik, bacarıq, mənəviyyatlılıq, mütəşəkkillik və yaradıcı fəaliyyəti nəzərdə tutan yüksək mənəxi mədəniyyətdən keçir.

Mədəniyyət – insanların yaradıcı həyat fəaliyyətidir.Bu, bəşəriyyətin nizamsızlıqdan nizamlılığa doğru getdiyi çoxəsrlik fasiləsiz bir yolun rəmzi olan mürəkkəb sosial fenomen və noumendir. Bu, təbiət, cəmiyyət və insanın özünün, sonunda ruhi

(əqli və mənəvi) və maddi dəyərlər və normalar əldə edilən, eləcə də onların istehsal texnologiyaları, qorunması, istehlakı və yayılmasının dərki və dəyişdirilməsindən ibarət olan mürəkkəb tarixi prosesdir. Mədəniyyət "Homo Sapiens" tipli insanın ağılı, hissi və zəhməti ilə yaranmış və yaradılan hər şeyin mahiyyəti, "ikinci", süni təbiət, ətraf aləmin inkişaf və təkmilləşməsidir. Ruhi mədəniyyət insan inkişafının başlıca hərəkətverici qüvvəsidir. Cəmiyyətlə birgə inkişaf edən mədəniyyət, eyni zamanda, əvvəlki dövrlərin irsini, ruhi dəyərlərini, ənənələrini, intellektual mədəniyyət nailiyyətlərini, əmək vərdişlərini, ötən nəsillərin istehsal və yaradıcı təcrübələrini özündə hifs edir. O, eyni zamanda, digər mədəniyyətlərin əldə etdiyi təcrübəni bu və ya digər dərəcədə mənimsəyib, yaradıcı emal edir. Dövlət və cəmiyyətin sosial kapitalı olan mədəniyyətin daxili və xarici mübadiləsi daim onun yeniləşməsi və proqressiv inkişafına səbəb olur.

*Mədəniyyət* - tarixən dəyişən, sosial tələblərlə şərtlənən geniş anlayış olub, konkret tarixi dövrün məhsulu, onun siyasi və iqtisadi təsirinin nəticəsidir. O, insanın şüuru, psixikası və davranışı ilə bağlı olmaqla yanaşı, həm də dövlətin və xalqın maddi prosesləri, tarixi inkişafı ilə sıx əlaqədədir. Hər bir dövr, hər bir xalq və hər bir nəslin öz mədəniyyəti və onun haqqında öz təsəvvürləri var. Mədəniyyət insan şüurunu, fərd, cəmiyyət və dövlətin həyat, məişət və fəaliyyətini, texnologiyaları, istehsal və maddi vasitələri, iqtisadiyyat və siyasət, həyat tərzi, ənənələr, millət və xalqların adətləri və mədəni irsi,milli və bəşəri ruhi dəyərlər, hüquqi, etik və estetik normaları, ictimai və beynəlxalq münasibətləri əhatə edir. Sosial fenomen və noumen olan mədəniyyət həyat və fəaliyyətin müəyyən sahəsində onun keyfiyyətini ifadə edən, kontekstual anlamda da öz əksini tapır. Bunun üçün aşağıdakıları yada salmaq kifayətdir: istehsal, intellektual, siyasi, iqtisadi, etik, hüquqi, tibbi, ekoloji, idarəetmə mədəniyyəti, məişət mədəniyyəti, sülh mədəniyyəti, qender mədəniyyəti, məsuliyyət mədəniyyəti, şəxsiyyət mədəniyyəti və s.

İnsan mədəniyyəti, hər şeydən əvvəl intellekt, zəhmət, iradə və hisslər, cəmiyyətin inkişafının canlı toxuması və özəyidir. Əgər təbiət dünyası sinergetik, yəni özünü idarə edən, özünü təşkil edən və özünü inkişaf etdirən sistem kimi nəzərdən keçirilirsə, insan dünyası – mədəniyyət - insan tərəfindən daim təkmilləşdirilməsi və düzgün

idarəedilməsi tələb olunan şüurlu təşkil, idarə və inkişaf etdirilən sistemdir. Ruhi mədəniyyət insanı hərəkət və fəaliyyətə ruhlandıran ağıl və hiss, şüur və psixi qabiliyyətlərin birliyi olan ruhi vəziyyətlə bərabər, şəxsiyyətin daxili psixi dünyası olan qəlb vəziyyətini də əks etdirir. İnsan şüur və hisslər vasitəsi ilə bilik qazanır, onu əhatə edən həqiqətlər barədə obrazlı təsəvvürlər yaradır. Şəxsiyyətin mədəniyyətinin mühüm göstəricilərindən biri insanın davranışında əks olunan bütün psixi və mənəvi xüsusiyyətlərin məcmusu olan xarakterdir. Xarakter insanın keyfiyyətini, fərqli cəhətlərini, obyektiv həqiqətin onun şüurunda əks olunması ilə əlaqədar xüsusiyyətləri göstərir. Təsadüfi deyil ki, hələ Heraklit demişdir:"İnsanın xasiyyəti onun taleyidir". Buna görə də mədəniyyətin mühüm sosial institutu olan hüququn əhəməyyətini inkar etmədən , etiraf edək ki, qadağa və sərəncamlarla problemləri həll etmək olmaz, insanların şüurunu təhsil, tərbiyə və maarifləndirmə ilə dəyişib, pozitiv xarakter tərbiyə etmək lazımdır. Bu, mədəni inkişafının ən effektiv üsulu olan güclü ruhun - biliklə zəngin **ağıl**, sağlam, gözəl **hiss**lər və möhkəm **irad**ənin formalaşdırılmasıdır.

Mədəniyyətin inkişafında aparıcı qüvvə ziyalılardır. Bu, alim və müəllimlər, incəsənət xadimləri, həkim və ixtiraçılar, dövlət, ictimaiyyət və din xadimləri, hüquqşünas və diplomatlar, həyatlarını xalqın rifahı naminə yaradıcı fəaliyyətə həsr etmiş müxtəlif peşə adamlarıdır. Dünya mədəniyyəti və sivilizasiyanın əsil yaradıcıları məhz bu adamlardır. Müxtəlif dövr və xalqların görkəmli ziyalılarının yaratdığı mədəni abidələr – intellektual, mənəvi-etik, estetik və maddi dəyərlər bütün bəşəriyyətə mxsus olub, dünya sosial-mədəni inkişaf təcrübəsini zənginləşdirmiş, milyonlarla insan və bir çox nəsillər tərəfindən hələ də istifadə olunur. Laki bəşər mədəniyyəti heç də yekcins deyildir. İnsan mədəniyyətindəki fərqlər yalnız mədəni-irsi keyfiyyətlərlə deyil, eləcə də elmi biliklər, təhsil vətərbiyə, elmin texnoloji tətbiqi, həm də müxtəlif xalqlarda və insanlarda eyni olmayan qavrama qabiliyyəti ilə şərtlənir.

İntellektual və etik mədəniyyətin ictimai tərəqqi üçün həlledici əhəmiyyəti var. Maddi rifaha gedən yol intellektual mədəniyyətin – elm və təhsilin prioritet inkişafından keçir, çünki mədəniyyət , hər şeydən əvvəl bilik, inkişaf və rifahdırsa, cəhalət şər və yoxsulluqdur.

İntellektual mədəniyyətin inkişafı üçün sosial şəraitin yaradılma əhəmiyyəti ondadır ki, elm insanı düzgün və təhlükəsiz həyat üçün zəruri olan müdrikliyə doğru aparır. Elm bəşəriyyətə məxsusdur.O, təşkilat, cəmiyyət və dövlətlərin yeni texnologiya ilə effektiv fəaliyyətinin tükənməz mənbəyi, ictimai şüurun proqressiv dəyişikliyinin açarıdır. O, insanın həyat fəaliyyətinin yeni imkanlarına, təbiət və cəmiyyətin yeni inkişaf qanunlarına, həqiqətə yeni yollar açan, intellektual dəyərlər yaradan insan ağlının daimi axtarışıdır. Hər kəsin alim olması heç də vacib deyil, lakin insanın intellektual inkişaf prosesinin özü şəxsiyyət və lider formalaşdırılması, xüsusilə də bəşəriyyətin bu günkü inkişaf mərhələsində cəmiyyətin tərəqqisi üçün praktik dəyərə malikdir.

Səadət anlamında şəxsiyyətin mədəniyyəti əxlaq, intellekt və dəyərlər sistemi, xeyir - şər, xarakter və əqidə haqqındakı təsəvvürlərindən nə qədər asılıdırsa, düzgün mənəvi tərbiyə və təhsilin əhəmiyyəti bir o qədər artır. Bilik və düzgün təfəkkür insan, fakt və hadisələrdən ibarət həqiqətlər haqqında obyektiv təsəvvürlərin formalaşmasını təmin edir. Düzgün təsəvvürlər düzgün arzu və istək yaradır. Düzgün arzu və istək pozitiv nəticələr verən düzgün fəaliyyətlərə aparır. Əksinə olanda, cəhalət , səhv təsəvvürlər və neqativ fəaliyyətlər stress, depressiya və mənəvi böhranla nəticələnir. Depressiya – mənəvi yarazlığı məhv edir və immuniteti azaldır ki, bu da nəinki əsəb və psixi sistemi sıradan çıxarır, eyni zamanda ictimai sağlamlığı sarsıdan ağır somatik xəstəliklərlə nəticələnir. Deməli, şəxsiyyətin intellektual və etik mədəniyyəti artdıqca, onun inkişaf imkanları yüksəlir. Yüksək ruhi mədəniyyətə malik insan isə , dövlətin ruhi xəzinəsi, cəmiyyətin və bəşəriyyətin ictimai kapitalıdır.

Bu əbədi həqiqətin dərk edilməsi mövcud əsərin yaranmasına səbəb olmuşdur . Dünya kulturoloji fikrinin nailiyyətlərinə istinad edən müəllif effektiv dövlət idarəçiliyi , məhsuldar beynəlxalq əməkdaşlıq və sabit insan inkişafının universal hərəkətverici qüvvəsi kimi, ruhi mədəniyyətin mahiyyət və imkanlarını düzgün anlamağa imkan verən yeni kulturoloji biliklərin yaradılması və sistemləşdirilməsinə öz töhfələrini verməyə çalışmışdır.

*Nə üçün mədəniyyət haqqında elm bizim həyatımız üçün belə mühüm və dövlət quruculuğu üçün aktualdır?*

Çünki, o, mədəniyyətin mahiyyətini insanların ruhi və maddi tələblərinin ödənilməsinə yönələn həyat fəaliyyəti kimi aşkarlamağa imkan verir. Mədəniyyətin tarixi və nəzəriyyəsi elə bir tükənməz xəzinədir ki, onun vasitəsi ilə bəşəriyyətin əsrlərlə yaratdığı intellektual və mənəvi sərvətləri mənimsəmək mümkündür. Kulturologiya dünya mədəni nailiyyətlərini obyektiv qiymətləndirməyə,onları bu və ya digər ölkənin milli-mədəni maraqları üzrə yaradıcılıqla bəhrələnməyə imkan verir.Kulturoloji biliklərlə zəngin ağıl və xeyirxah məqsədlərə yönələn iradə insan inkişafının pozitiv faktorudur.

Kulturologiyanın dövlət quruculuğu üçün aktuallığı onunla edilir ki, bu elm insan insan,dövlət və cəmiyyətin effektiv inkişaf texnologiyalarının hazırlanmasına yardım edir. Dünya mədəni inkişafı tarixi qanunauyğunluqlarının elmi təhlili və nəzəri ününiləşdirilməsi yeni kulturoloji biliklərin yaradılmasına imkan verir.Müxtəlif xalq və dövlətlərin qabaqcıl texnoloji, iqtisadi, idarəetmə, hüquqi və ruhi nailiyyətlərini özündə birləşdirən humanitar, texniki və təbiət elmlərin həmçinin beynəlxalq sosial-mədəni təcrübəyə istinad edən kulturologiya ictimai tərəqqi üçün keyfiyyətcə yeni imkanlar açır. Sistemli kulturoloji tədqiqatlar, xüsusilə də riyazi metod və müasir informasiya texnologiyalarının istifadəsi dövlətin daxili və xarici siyasətinin elmi əsaslarla hazırlanıb reallaşdırılması, qloballaşan dünya şəraitində onun rəqabətəqabil olması üçün ən zəruri təməldir.

Yaponiya, Norveç və digər demokratik ölkələrin təcrübəsi Azərbaycan Respublikası üçün ictimai-mədəni inkişafın effektli kulturoloji texnologiya nümunəsi ola bilər. Yaponiyadakı 1867-1868-ci il Meydzi mədəni inqilabı bu ölkənin nisbətən geriqalan (həm iqrisadi, həm də elmi cəhətdən) və yoxsul bir ölkədən zəngin demokratik cəmiyyətə keçməsini təmin etdi. "Yuxarıdan" həyata keçirilən bu inqilab nəticəsində, ölkədə , əsas devizi "yapon ruhu plyus avropa biliyi" olan, "maariflənmiş idarəetmə" tətbiq edildi. Belə bir dövlət siyasəti nəticəsində, yoxsul təbəqənin orta təbəqədən üstün olduğu "piramidal strukturlu" cəmiyyət, qısa tarixi dövr ərzində, firavan və keyfiyyətli həyat sürən orta sinfin üstünlük etdiyi,

"romb strukturlu" cəmiyyətə çevrildi. Mədəni inqilab, Yaponiyada fövqəladə tərəqqinin mühüm faktorları olan: intellektual mədəniyyətin qabaqlayıcı inkişafı, cəmiyyətdə vətənpərvərlik ideyalarının təsdiqi və milli mədəniyyətin demokratikləşməsi üçün zəruri şərtlər yaratdı. Bu yolu seçmiş ölkələrdə yüksək siyasi mədəniyyətin formalaşması, qanunun aliliyinin təsdiqi, vətəndaşlıq şüuru, rifah və həyat keyfiyyətinin inkişafı üçün əlverişli şərait yaranır. Bu təcrübənin bizim ölkədə yaradıcılıqla istifadəsi, aktual siyasi məsələnin həlli kimi, Azərbaycanın milli maraqlarına cavab verir.

Mədəniyyət "piramida"- sının məntiqi pillələri vasitəsi ilə aparılan düzgün sistemli metodoloji təhlil nəinki mədəniyyətin uyğun sahə, xarakter və strukturunu müəyyən etməyə, həm də onun xidmət etdiyi cəmiyyət, dövlət, sosial qrup və siniflərin obyektiv tələb və maraqlarını aşkarlamağa, ictimai inkişafda onun rolunu dəqiqləşdirməyə imkan verir. Kulturologiya bəşəri inkiaf və həyat dialektikasından doğan yeni situasiyalara hazır olmağa, böhranlı məqamları vaxtında müəyyən etməyə və təsirini itirmiş köhnə dövlət, cəmiyyət strukturları ilə yeni dövrün tələbləri arasında olan obyektiv ziddiyyətlərin həllinn tapilmasına yardım edir. Kulturoloji yanaşma ölkə vətəndaşlarının maraq və mədəniyyətlərinin düzgün istiqamətləndirilməsinə, cəmiyyətdə yaranan konfliktlərin həllinə, insan ruhunun təkmilləşməsinə, ictimai və beynəlxalq münasibətlərin harmoniyasına yardım edir.

İnsan, təşkilat və dövlət nəinki real həyatın, onu məruz qoyduğu, dinamik dəyişikliklərinə cavab verməli, o, həm də prosesləri qabalayıb, gələcəyi görməklə, uyğun fəaliyyət göstərməlidir. Bu baxımdan, kulturologiyanın başlıca funksiyası dünyanın sürətlə dəyişdiyi bir dövrdə dövlət və cəmiyyətin sabit inkişafının effektli modelinin sosial-mədəni layihələndirilməsi, gələcəyi Şərq və Qərbin ən əhəmiyyətli sosial nailiyyətlərinin sintezi, dünya mədəniyyəti və sivilizasiyasının keçmiş və indiki inkişaf qanunauyğunluqları əsasında qurmaqdan ibarət olur . Kulturologiyada abstrakt və qarışıq anlayışlar yoxdur. O, insanın inkişafda olan həyat fəaliyyətinin məntiqi konsepsiyaları, tərif, düstur və sxemləri əsasında yaranmışdır. Kulturologiya varlığın əbədi dialektik dəyişikliklərinə uyğun yeni

biliklər, tərəqqipərvər ideyalar və insanların həyat fəaliyyət texnologiyalarını yaradan elm kimi, fənlərarası xarakter daşıdığına görə,o, innovativ və praktik əhəmiyyətlidir.

Kulturologiyada mədəniyyətin öyrənilməsi üçün həm induktiv, həm də deduktiv metodlardan istifadə olunur. İnsan mədəniyyətinin təhlili fərdin psixologiyası, onun idrak və dünyagörüşünün diqqətlə öyrənilməsini, dəyərlər sistemi və idealları, şüur, bilik və mütəşəkkillik səviyyəsi, emosionallığı, həyat şəraiti və obrazı, peşə fəaliyyəti, davranışı, iradəsi, enerjisi, mənəviyyatı, yaradıcı potensialı və məsuliyyət mədəniyyətinin diqqətlə öyrənilməsini nəzərdə tutur. Dövlət və cəmiyyət mədəniyyətinin təhlili siyasət, iqtisadiyyat, sosial həyat, elm, təhsil, hüquq, informasiya, incəsənət, din, həyatı təmin edən sistemlər, idarəetmə, təhlükəsizlik, bölgü və istehlak, şəxsiyyətlərarası, ictimai və beynəlxalq münasibətləri , həmçinin digər sosial institutların diqqətlə öyrənilməsini nəzərdə tutur.Ruhi və maddi istehsal, əmək prosesi, həyat tərzi, dəyərlər sistemi, ideologiya, insanların davranış motivləri, ənənələr. mədəni irs, məişət və incəsənət də kulturologiyanın tədqiqat obyektləridir. Kulturologiyanın universal metodologiyası və tədqiqat prinsipləri mədəniyyət sisteminin bütövlükdə və ya ayrı-ayrı sahələrinin , inkişafın makro- və mikrotarixi proseslərinin tam və hissələrlə öyrənilməsinə imkan verir. Qarşıya qoyulan məqsədlərdən asılı olarq, kulturolojim tədqiqat obyekti, həm fərd, ailə, sosium, cəmiyyət, həm də dövlət və bəşəriyyət ola bilər. Mədəniyyətin təbii coğrafi göstəricilərini aşkar etməyə imkan verən coğrafi metodla bərabər, demoqrafik və psixoqrafik təhlil metodu da sistemli kulturoloji tədqiqatın həyata keçirilməsinə imkan verir. Demoqrafik metod insanların yaşı, cinsi, təhsili, gəlirinin həcmi, ömrünün uzunluğu və digər göstəriciləri haqqında məlumat toplamağa imkian verir. Psixoqrafik metod insanların sosial-mədəni mühiti, mədəni dəyərlər sistemi, həyat tərzi, ənənələri, mədəni-irsi keyfiyyətləri ilə şərtlənən motiv və üstünlüklərin təhlili ilə laqədar olan psixoloji faktor üzərində qurulur.

Kulturologiya universal bilikli ekspertlərin hazırlanmasında mühüm əhəmiyyətə malikdir. Mədəniyyət fenomeninin , onun sosial funksiyalarını, tarixi qanunauyğunluqlarını , insan inkişafı üçün qeyri-

məhdud dəyişdirici imkanlarını düzgün anlamadan dövlət və ictimai həyatın müxtəlif sahələri üçün müasir mütəxəssislərin effektiv hazırlığının reallaşdırılması mümkün deyil. Ölkənin və dünyanın mədəni nailiyyətləri , böhranların diaqnostikası, sosial terapiyası və aradan qaldırılması , insanların həyat fəaliyyətinin kulturoloji texnologiyaları və dövlət idarəçiliyi haqda bilikləri mənimsəmədən yüksək mədəniyyətli siyasətçi və məmurların formalaşdırılması prosesini təsəvvür etmək çətindir.Tədris prosesində kulturologiya elmi nailiyyətlərindən istifadə edilməsi bəşəriyyətin bir çox nəslinin həyat fəaliyyəti, mədəni inkişafın beynəlxalq təcrübəsi haqqında humanist etika və universal elmi biliklərə malik yüksək təhsilli mütəxəssis, şəxsiyyət və liderlərin formalaşdırılmasına yardım edir.İnteraktiv kulturoloji təhsil "boş qabı doldurmağa yox, məşəl yandırmağa " yardım edir, yəni,o, düzgün məntiq formalaşdırmağa, sistemli təhlil və məhsuldar təfəkkürü inkişaf etdirməyə, dünya mədəniyyəti və sivilizasiyasında baş verən dəyişiklikləri və elmin ən yeni nailiyyətləri haqqında bilikləri mənimsəməyə imkan verir.

Beləliklə, bu gün ictimai inkişafın tendensiya və qanunauyğunluqlarının sistemli kulturoloji təhlilini əvvəlcədən aparmadan, düzgün nəticələrin çıxarılması ağılasığmazdır. Buna görə də siyasətçi və məmurlar ciddi kulturoloji hazırlıq keçməli, ölkənin və dünya mədəniyyətinin tarix və nəzəriyyəsini, eləcə də müasir dövlətin idarə edilməsi mədəniyyətinin əsaslarını öyrənməlidir. Bu, fakt və hadisələrin mahiyyəti haqqında düzgün təsəvvürlərin , dövrün xarakterini, insanların psixologiyasını obyektiv anlamağa, innovativ qabiliyyətlərin və lider keyfiyyətlərinin inkiaşfına, yeni imkanlar və onların praktik reallaşdırılması texnologiyalarını görmək bacarığından ibarət kulturoloji təfəkkürün formalaşmasına yardım edir. Sistemli kulturoloji tədqiqatların elmi nəticələri əsasında öz daxili və xarici siyasətini quran dövlətlər, öz ölkələrinin etibarlı təhlükəsizliyini və dinamik inkişafını təmin edən, dünya sivilizasiyasının tələbləribə cavab verən sosial inkişaf texnologiyalarını təkmilləşdirmək qabiliyyətinə malikdirlər. Onlar daha uğurlu gələcək və effektiv idarəetmə imkanları qazanırlar.

Müəllifin kulturoloq kimi formalaşması, bu əsərin metodologiyasının seçimi və hazırlanmasında aşağıdakı müəlliflərin

əsərlərinin öyrənilməsi və onlardan istifadə mühüm əhəmiyyət daşımışdır: E.Teylor, L.Morqan, L.Uayt, A.Maslou, A.Toynbi, O.Şpenqler, M.Beber, İ.Kant, F.Engels, M.Horkhaymer, H.Markuze, T.Adorno, H.Rikkert Y.Habermas, Y.Lippert, K.Yarspers, B.Malinovski, A.Boqdanov, C.Bernal, Lütvi Zadə və digərlərinin əsərləri ilə tövsiyə olunan ədəbiyyat siyahısında tanış olmaq olar. Müəllifə T.Parsons, H.Hesse, V.Diltey, İ.Saburo, E.Orteqa-Hasset, İ.Herder, H.Zimmel, P.Sorokina, Frankfurt məktəbi, "Annallar" məktəbi müəllifləri və digər tanınmış kulturoloq, tarixçi, filosof və sosioloqların mədəniyyət anlamı və onun inkişaf probleminin təhlili daha yaxındır. Əsərin hazırlanmasında N.Konrad, M.Kaqan, L.Gertman, A.Petrov, Q.Volkov, Q.Draç, M.Yepiç, S.Artanovski, A.Blok, V.Polikarpov, A.Markova, İ.Levyaş, Y.Rojdenstvenski, A.Kravçenko, V.Polişşuk, L.Mixaylova, V.Rozin, P.Qureviç, Y.Malyuqa, Q.Antipov, A.Koçerqin, V.Davidoviç, Y.Jdanov, N.Zlobin, V.Mejuyev, M.Kim, V.Masson, və digər rus alimləri. Müəllif üçün aşağıdakı alımlərin ideya və konsepsiyaları elmi maraq doğurmuşdur:A.Veber, D.Bell, A.Merton, M.Mid, E.Munye, M.Baxtin, V.Vernadski, Q.Vernadski, L.Qumilyov, T.Nakane, V.Osvald, T.Şarden, O.Toffler, S.Xantinqton, M.Blok, N.Rerix, V.Muravyov və digər müəlliflərin əsərlərinin öyrənilib istifadəsi əhəmiyyətli dəyərə malik olmuşdur.

Dünya kulturoloji fikir tarixinin öyrənilib ümumiləşdirilməsində, kulturologiya sahəsində ensiklopedik biliklərin formalaşdırılmasında İctimai elmlər üzrə elmi informasiya İnstitutunun, Humanitar elmi-informasiya tədqiqatlar Mərkəzinin , Rusiya Elmlər Akademiyasının Üumi Tarix İnstitutu, Rusiya Federasiyasının ali təhsil müəssisələri müəllimlərinin əvəzedilməz xidməti olmuşdur. Bu kollektivlər tərəfindən S.Y.Levitinin ümumi redaktəsi ilə hazırlanmış kulturologiya ensiklopediyasının materiallarından istifadə müəllif üçün böyük dəyərə malik olmuşdur.

Müəllifin mdəniyyət anlamı və onun insan inkişafındakı əhəmiyyətinə yanaşmasında Azərbaycanın alim, mütəfəkkir və maarifçilərindən N.Gəncəvi, N.Tusi, M.F.Axundov, A.A.Bakıxanov, A.Ağaoğlu, M.Rəsulzadə, A.Hüseynzadə, H.Cavid və bir çox başqalarının əsərləri mühüm metodoloji əhəmiyyət daşımışdır.

Müəllifin kulturoloji dünyagörüşünün formalaşmasında H.V.F.Hegel, İ.Kant, F.Engels, J.J.Russo, F.M.A.Volter, İ.V.Hete, D.Nehru,N.Berdyayev, D.Lixaçov və digər məşhur alim, yazıçı, və maarifçilərin əsərləri qiymətli mənbə olmuşdur.

Əsərin hazırlanmasında, həmçinin, Azərbaycan Respublikası və xarici ölkələrdə nəşr olunan elmi-nəzəri və elmi-maarifçilik jurnallarında çap olunmuş məqalələrdən, çoxsaylı İNTERNET saytlarından istifadə edilmişdir.

Müəllif ümidvardır ki, onun sadə əməyi yuxarıda söylənən aktual problemlərin həllinə müəyyən yardım göstərəcəkdir.

Müəllif akademiklər Fuad Qasımzadə və Maqsud Əliyevə, müxbir üzv Nizami Cəfərova, professorlar Solmina Dadaşova və Nəriman Həsənzadəyə əsərin hazırlanma dövründə verdikləri qiymətli məsləhətlərə görə təşəkkür bildirir.

# I HİSSƏ. MƏDƏNİYYƏTİN TƏRİF, DÜSTUR VƏ KONSEPSİYALARI.

## BİRİNCİ BÖLMƏ. KULTUROLOGİYA ELM VƏ TƏDRİS FƏNNİ KİMİ.

*Kulturologiya anlayışı və onun predmeti*

### KULTUROLOGİYA MƏDƏNİYYƏT HAQQINDA ELM KİMİ

***Kulturologiya – insanın və bəşəriyyətin yaradıcı həyatı və fəaliyyəti haqqında elmdir.O, insanın həyat fəaliyyətinin mahiyyət, xüsusiyyət, tarixi nailiyyəti, inkişaf qanunları, texnologiyaları və dəyişdirici imkanlıarını aşkarlayır. O, idakın elə bir çoxpilləli piramidasıdır ki, onun pillələrini qalxarkən, insan tədricən xüsusi elmi biliklərə titələndikcə, bu gününü pozitiv idarə etmək, dəyişmək, daha yaxşı gələcək qurmaq qabiliyyətlərini dəfələrlə artırıb müdrikliyə yaxınlaşır.*** O, yaradıcı insanın həyat fəaliyyətinin minilliklərlə davam edən vəhşilik, barbarlıq və sivilləşmə dövrü ərzində topladığı yaradıcı həyat təcrübəsini, təşəkkül, təkamül və inkişafı, onun ideologiya, nailiyyət və vasitələrini əks etdirən həm xüsusi tarixi, həm də nəzəri biliklərin elmi ümumiləşdirilməsidir.

Cəmiyyətin inkişafında onun, bir elm sahəsi və tədris fənni kimi, konkret praktik və universal strateji əhəmiyyəti vardır. Çünki, kulturologiya ayrı-ayrı mədəniyyət sahələri və sosial institutların təkamülünə baxışı onların tarixi əlaqələri ilə birgə açıqlayır, mədəni cəmiyyətin sosial sisteminin effektiv inkişafı üçün həyati əhəmiyyəti olan prioritetlərin müəyyən edilməsinə, onların zamanın tələblərinə uyğun dəyişdirilməsinə imkan verir. Sistemli kulturoloji təhlil mədəni hadisələri real həyat dialektikasından qoparılmış, abstrakt təfsir və ideoloji şərh şəklində deyil, dünya sivilizasiyasının tərəqqipərvər tendensiyaları, tarixi qanunauyğunluqlar və milli inkişafın maraq və tələblərindən çıxış edib, real qiymətləndirməyə imkan verir, cəmiyyətin və dövlətin inkişafını düzgün proqnozlaşdırmağa və onu effektiv idarə etməyə şərait yaradır.

KULTUROLOGİYA

MƏDƏNİYYƏT TARİXİ | MƏDƏNİYYƏT NƏZƏRİYYƏSİ

## MƏDƏNİYYƏT TARİXİ

♦ **İbtidai mədəniyyət**
- ♦ **İlk sivilizasiyalar və antik mədəniyyət**
- ♦ **Quldarlıq cəmiyyəti mədəniyyəti**
- ♦ **Feodalizm mədəniyyəti**
- ♦ **İntibah mədəniyyəti**
- ♦ **Yeni dövr mədəniyyəti**
- ♦ **Kapitalizm mədəniyyəti**
- ♦ **Sosializm mədəniyyəti**
- ♦ **Müsir dünya mədəniyyəti**

## MƏDƏNİYYƏT NƏZƏRİYYƏSİ

- ♦ **Mədəniyyət inkişafı tarixi təscrübəsinin elmi-nəzəri ümumiləşdirilməsi**
- ♦ **Mədəni antropologiya**
- ♦ **Sosial antropologiya**
- ♦ **Etnologiya**
- ♦ **Mədəniyyət fəlsəfəsi**
- ♦ **Mədəniyyət sosiologiyası**
- ♦ **Mədəniyyətin psixologiyası**
- ♦ **Mədəniyyətin teologiyası**
- ♦ **Mədəniyyətin sinergetikası**
- ♦ **Sosial-mədəni inkişafın model, layihə və texnologiyalarının hazırlanması**
- ♦ **Mədəniyyətin metodologiyası**

Mədəniyyət nəzəriyyəsi məıdəniyyət inkişafının tarixi qanunauyğunluqları, ontologiya, məntiq, psixologiya, , texnologiyalar, metodologiya, ilahiyyat, sinergetika, və digər elmi parametrlər, hadisə, funksiya və təhlil metodlarının öyrənilməsini nəzərdə tutur.

KULTUROLOGİYANIN PREDMETİ

Kulturologuiyanın predmetini insan həyat və fəaliyyətinin aşağıdakı tarixi, nəzəri problemləri təşkil edir:

- insan inkişafının təşəkkül tarixi və qanunauyğunluqları;
- insanların düşüncəsi və həyat tərzi;
- adət, ənənə və inanclar;
- təhsil, elm və incəsənətin tarix və nəzəriyyəsi;
- həyat fəaliyyətinin fəlsəfə, məntiq, etika və texnologiyaları;
- insan fəaliyyətinin məqsəd və motivləri;
- dini və elmi dünyagörüşün inkişafı;
- mədəniyyətin sosial institut və bütöv sisteminin inkişafı;
- mədəniyyətin sosial institutlarının fəaliyyət mexanizmi və onların qarşılıqlı əlaqələri;
- xalqların və dövlətlərin sosial-mədəni inkişaf təcrübəsi,konkret ölkələrdə onlardan konkret istifadənin imkan və yolları;
- bəşəriyyətin və xalqkarın əsas nailiyyətləri ;
- mədəniyyətin funksiyaları;
- mədəniyyətin müxtəlif sahələrinin və institutlarının inkişaf qanunları;
- dövlət və cəmiyyətin təşəkkülü və inkişaf qanunları;
- bəşər mədəniyyətinin inkişafında görkəmli şəxsiyyətlərin rolu;
- mdəniyyət nümunələrinin yaranma tarixi , yeri, vaxtı, coğrafi və sosial şəraiti;
- milli mədəniyyətlərin komparativ təhlili;
- mədəni müxtəliflik;
- mədəni qeyri bərabərlik, mədəni səbatsızlıq, mədəni biliyin aşağı astanası;

♦ ictimai-sistemlərin mədəniyyəti;

♦ idarəetmə və dövlət quruculuğu mədəniyyəti;

♦ böhranların aradan qaldırılması və mədəni tərəqqiyə çatma yolları;

♦ vətəndaş cəmiyyəti mdəniyyəti;

♦ qlobal cəmiyyət mədəniyyəti;

♦ kulturologiyanın əsas məktəb, istiqamət və nailiyyətləri;

♦ mədəniyyətlərarası dialoqun düzgün inkişafı və dünya mədəniyyətinin bərqərar olması;

♦ sosial-mədəni siyasət;

♦ sosial-mədəni kod və mədəni irs;

♦ mədəniyyətin istehsal, istehlak, mühfizə, mübadiləsi və yeni nəslə translyasiya üsulları;

♦ ruhi və maddi dəyərlərin mahiyyət, quruluş və xüsusiyyətləri;

♦ dünya mədəni nailiyyətlərinin mahiyyət, texnologiya və müqayisəli dəyərləri;

♦ milli mədəniyyətin bu gün və gələcək üçün dəyər və əhəmiyyəti;

♦ informasiyalı cəmiyyətə keçidin şərtləri və s.

## KULTUROLOGİYANIN ELMİ APARATI

Kulturologiyanın inkişafı ictimai, humanitar və təbiət elmlərinin metod və nailiyyətlərinin istifadəsi ilə əlaqədardır. Onlar arasında tarix, fəlsəfə, məntiq, psixologiya, sosiologiya, etika, estetika, etnoqrafiya, dinşünaslıq, arxeologiya, coğrafiya, filologiya, sənətşünaslıq, linqvistika, hermenevtika, semiotika, numizmatika, toponimika, sinergetika, politologiya, iqtisadiyyat, ekologiya, ontologiya, , qnoseologiya, dövlətşünaslıq, hüquqşünaslıq, ölkəşünaslıq, futurologiya, diplomatiya tarixi, inzibati idarəetmə, menecment, qlobalistika, riyaziyyat. informatika və digəır elmlər.

• *Mədəniyyət anlayışı*

## MƏƏDƏNİYYƏT ANLAYIŞININ ƏSAS MAHİYYƏTİ

***Müxtəlif alımlər mədəniyyətin əsas anlayışlarına aşağıdakıları aid edirlər:***

- ehtiram
- təhsil
- tərbiyə
- hasilat
- idrak və dəyişdiricilik
- yaratmaq və taradıcı proses
- inkişaf və təkmilləşmə
- bəzək

***eləcə də:***

- xalqın mənşəyi haqqında mifologiya
- əxlaq və ideologiya
- dil və ədəbiyyat
- şüur
- azadlığın təşəkkülü
- dini, elmi və estetik dünyagörüşlər
- rifah
- mədəni irs
- həyat fəlsəfəsi
- həyat fəaliyyətinin texnologiyaları

## RUHİ MƏDƏNİYYƏT

Insanın intellektual və emosiaonal həyat fəaliyyət sahəsi olmaqla, ruhi istehsalın proses, texnologiya və məhsullarını əhatə edir.

## RUHİ MƏDƏNİYYƏTİN KOMPONENTLƏRİ

- Tərbiyə
- Dövlət
- Diplomatiya
- Ruhi həyat
- Ruhi varlıq
- İdeologiya
- İnformasiya və mətbuat
- İncəsənət
- Mədəni irs
- Mədəni dəyərlər
- Ədəbiyyat
- Beynəlxalq münasibətlər
- Əxlaq
- Elm
- Həyat tərzi
- Təhsil
- İctimai münasibətlər
- Cəmiyyət
- Adət
- Təşkilat
- Siyasət
- Hüquq və qanunvericilik
- Publisistika
- Din
- Ənənələr
- İdarəetmə
- Dil

*Maddi istehsal məhsullarından fərqli olaraq, "ruhi istehsal məhsulları" istehsal prosesində məhv olmur, gələcəkdə mənimsənilib, saysız-hesabsız insanlar və bir çox nəsillər tərəfindən inkişaf etdirilir.*

## MADDİ MƏDƏNİYYƏT

*Əmək prosesi, texnologiyaları və vərdişləri daxil olmaqla, bilavasitə maddi predmetlər istehsalı ilə əlaqədar, insan fəaliyyəti sahəsidir.*

*Ruhi (intellektual, etik və bədii) və maddi istehsalın nəticələrinin praktik təcəssümü olan maddi əşyaların məcmuu.*

## MADDİ MƏDƏNİYYƏTİN KOMPONENTLƏRİ

- Şəhərlər
- Yaşayış yerləri
- Maddi fəaliyyət
- Həyat təminatının maddi sistemi
- Fiziki əmək vərdişləri
- Təchizat və alətlər
- Geyim
- Əmək alətləri və əşyaları
- Maddi mədəniyyət abidələri
- Qida
- Məişət əşyaları
- Sənaye
- İstehsal fəaliyyətinin nəticələri
- Kənd təsərrüfatı
- İstehsal vasitələri
- Texnika, maşın və təchizat
- İqtisadi fəaliyyət texnologiyaları
- Ticarət
- Nəqliyyat
- Fiziki mədəniyyət
- İqtisadiyyat

## MƏDƏNİYYƏT VƏ ANTİ MƏDƏNİYYƏT



## *MƏDƏNİYYƏT HƏYAT FƏALİYYƏTİNİN TEXNOLOGİYASI KİMİ*

***özündə aşağıdakı sosial-sistem və sahələri birləşdirir:***

- elm, təhsil və tərbiyə
- etika və hüquq
- təşkilatlar və idarəetmə
- iqtasadi istehsal və istehlak
- səhiyyət və ekologiya
- ictimai və beynəlxalq münasibətlər
- təhlükəsizlik və müdafiə
- həyat tərzi və həyattəminedici sistemlər
- bayram və dəfn mərasiimləri daxil olmaqla adət və ənənələr
- ailə və nigah institutları
- incəsənət və folklor
- din
- milli mətbəx

## KONTEKSTUAL MƏDƏNİYYƏT

- intellektual mədəniyyət
- etik mədəniyyət
- hüquq mədəniyyəti
- idarəetmə mədəniyyəti
- davranış mədəniyyəti
- nitq mədəniyyəti
- hiss mədəniyyəti
- qadalanma mədəniyyəti
- məsuliyyət mədəniyyəti
- məişət mədəniyyəti
- gender mədəniyyəti
- elmi mədəniyyət

- milli mədəniyyət
- siyasi mədəniyyət
- peşə mədəniyyəti
- istehsal mədəniyyəti
- dövlətçilik mədəniyyəti
- istehlak mədəniyyəti
- fiziki mədəniyyət
- hərbi mədəniyyət
- informasiya mədəniyyəti
- sülh mədəniyyəti
- bədii mədəniyyət
- musiqi mədəniyyəti
- tibbi mədəniyyət
- ekoloji mədəniyyət
- dini mədəniyyət
- biznes mədəniyyəti
- iqtisadi mədəniyyət
- şəxsiyyətlərarası münasibətlər mədəniyyəti
- beynəlxalq münasibətlər mədəniyyəti
- paylama münasibətləri mədəniyyəti
- dinlərarası münasibətlər mədəniyyəti
- maliyyə mədəniyyəti

☺ *Mədəniyyətin kontekstual anlamı insan fəaliyyətinin və ya hər hansı bilik sahəsində əldə edilmiş inkişaf dərəcəsi, səviyyəsi, keyfiyyət xarakteristikasıdır. Bu keyfiyyət insan, millət, cəmiyyət və ya bütövlükdə bəşər həyat fəaliyyətinin müxtəlif sahələrinə tətbiq edilə bilər.*

□ *Mədəniyyətin kontekstual anlamı insan fəaliyyətinin bütün sahələrini əhatə edərək, insan inkişafının ikinci süni təbiəti, göstəricisi, vasitə və məqsədi kimi, mədəniyyətin elmi şərhini təsdiq edir, tamamlayır və konkretləşdirir.*

## HƏYAT TƏRZİ

1. Dil
2. Adət
3. Ənənə
4. Din
5. Etika
6. Hüquq
7. Əmək
8. Məişət
9. İstirahət və əyləncə
10. Davranış
11. İdman məşğələləri
12. Rabitə
13. Ticarət
14. Müdafiə
15. Hüquqmühafizə orqanları
16. Təhlükəsizlik xidməti
17. Nəqliyyat

## BƏDİİ MƏDƏNİYYƏT MƏDƏNİ İRS

- Ədəbiyyat və publisistika
- Musiqi incəsənəti
- Təsviri incəsənət
- Folklor incəsənəti
- Dekorativ-tətbiqi incəsənət
- Teatr incəsənəti
- Kino incəsənəti
- Memarlıq incəsənəti
- Sirk incəsənəti
- Zərgər işi
- Xalça toxuculuğu
- Dizayn
- Mədəniyyət abidələri (şifahi, yazılı, musiqili,bədii, maddi)

• *Sosial mədəniyyət*

## MÜASİR CƏMİYYƏTİN SOSİAL MƏDƏNİYYƏTİ

- Arxiv işi
- Kitabxana işi
- Qender mədəniyyəti
- İntellaktual mədəniyyət
- *Bioloji istehsal mədəniyyəti*
- Məişət mədəniyyəti
- *Ruhi istehsal mədəniyyəti*
- *Maddi istehsal mədəniyyəti* (iqtisadi mədəniyyət)
- Beynəlxalq münasibətlər mədəniyyəti
- Sülh mədəniyyəti
- Təfəkkür mədəniyyəti
- Təhsil mədəniyyəti
- *İctimai münasibətlər mədəniyyəti*
- *Təşkil və idarəetmə mədəniyyəti*
- Qidalanma mədəniyyəti
- Davranış mədəniyyəti
- İstehlak mədəniyyəti
- Həyattəminedici sistemlər mədəniyyətiİrsi mədəniyyət
- Muzey işi
- Elmi mədəniyyət
- Həyat tərzi
- Siyasi mədəniyyət
- Maarifçilik mədəniyyəti
- Peşəkarlıq mədəniyyəti
- Dini mədəniyyət
- Sanitar mədəniyyəti
- Turizm
- İdman və fiziki mədəniyyət
- Bədii mədəniyyət

- Ekoloji mədəniyyət
- Estetik mədəniyyət
- Etik mədəniyyət
- Etnik mədəniyyət
- Milli mədəniyyət
- Dil

## SOSİAL MƏDƏINİYYƏTİN SİSTEM YARADICI KOMPONENTLƏRİ

**Bioloji istehsal sistemi:**

- ailə və nigah, səhiyyə, ekologiya, və fiziki tərbiyə sahələrinin təşkilini əhatə edir. Bu sistemin başlıca funksiyası insanın, bioloji növ kimiqorunması və inkişafına yardım etməkdir.

**Ruhi istehsal sistemi:**

- intellektual, emosional, estetik və mənəvi sahələri əhatə edir. Bu sistemin funksiyası – insanların sosial fərd kimi formalaşdırılması və inkişafını təmin etmək, cəmiyyətin ruhi və maddi fəaliyyətində elmi, etik, hüquqi, estetik və texnoloji əsasların yaradılmasını təmin etməkdir.

**Maddi istehsal sistemi:**

- insan, cəmiyyət və dövlətin həyat fəaliyyətini təmin edən məhsulların yaradılması və təbiətin dəyişdirilməsinə istiqamətlənmişdir.

**Təşkil və idarəetmə sistemləri:**

- cəmiyyətin formalaşdırılması və inkişafı, onun institutlarının həyat fəaliyyətinin koordinasiyası funksiyasını yerinə yetirir.

**❀ İctimai münasibətlər sistemi:**

• cəmiyyətin daxili sosial strukturunu formalaşdırır və onun bütöv sistem kimi fəaliyyətini təmin edir.

Ruhi mədəniyyətə əsaslanan bütün bu sistemlər, onun inkişafının nəticəsi kimi, mədəniyyətin mahiyyətini təcəssüm etdirir. Onlar birlikdə yaradıcı həyat fəaliyyətinin həm prosesi, həm nətəicəsi, həm də üsullarıdır.

## MƏDƏNİYYƏTİN SOSİAL KAPİTALI

1. İnsani
2. Elmi
3. Təhsil
4. Etik
5. Hüquqi
6. Bədii
7. Mədəni irs
8. İnformativ
9. Texnoloji
10. Texniki
11. İdarəedici
12. İnnovativ
13. Dini
14. Maliyyə
15. İqtisadi
16. Hüquqmühafizə
17. Hərbi
18. Siyasi
19. Tibbi
20. Ekoloji
21. Beynəlxalq

• *Mədəniyyət istehsalının funksiya və mexanizmləri*

## MƏDƏNİYYƏT VƏ KULTUROLOGİYANIN FUNKSİYALARI

♔ Elmi – idraki

*Vəzifə* - sosial-mədəni inkişaf və bütövlükdə mədəni-tarixi hərəkatın obyektiv qanunauyğunluqları haqqında elmi biliklərin toplanıb hazırlanması.

*Nəticə* - mədəniyyətin elmi və empirik bilik, bacarıq və təcrübənin birliyindən ibarət olan idraki alt sistemin yaradılması.

♔ İdeoloji

*Vəzifə* - cəmiyyətdə proqressiv humanist dünyagörüşün formalaşdırılması və insanların mənəvi-estetik tərbiyəsi

*Nəticə* - özündə əxlaq, hüquq, adət, mərasim, dini institutları birləşdirən sosiao – normativ alt mədəniyyətin yaradılması.

♔ Praktik

*Vəzifə* -

• ruhi və maddi dəyərlərin, eləcə də onların istehsal texnologiyalarının yaradılması, saxlanması, istifadəsi və ötürülməsi;

• şəxsiyyətlərin formalaşdırılması və həyat fəaliyyətinin effektiv texnologiyalarının yaradılması;

• cəmiyyətin təhlükəsizliyini, rifah və sabit sosial inkişafını təmin edən idarəetmə sistemi və dövlət siyasəti modelinin yaradılması;

• ictimai münasibət proseslərinin tənzimlənməsi.

*Nəticə* - mədəniyyətin, istehsal texnologiyaları, ruhi və maddi sərvətlər, alət və

vasitələrin istehsalı və hasilatı ilə əlaqədar olan, alt sisteminin yaradılması.

♔ Proqnozlaşdırılmış

*Vəzifə* - keyfiyyət, kəmiyyət, struktur, funksional, müqayisəli, genetik, tarixi qanunauyğunluqların sistemli təhlilinə və sosial-mədəni inkişafın reallıqlarına əsaslanan gələcəyin qabaqlanması.

*Nəticə* - qarşıda duran dövr ərzində həyat fəaliyyətinin mümkün istiqamət və nəticələri haqqında elmi təsəvvürlərin yaradılması.

## KULTUROGENEZ

*innovasiyaların təzahürünün üç əsas mənbə, tip və sahəsi.*

• *Kulturogenez* nəsillərin, innovasiyalı həyat fəaliyyətin ideya və vasitə varisliyinə əsaslanan, mədəni irsinin sintez prosesidir.

• Bu prosesdə ənənəvi və yenilikçi mədəniyyət mühüm rol oynayır.

*İnnovasiyaların üç əsas mənbəyi*

♔ konvergent inkişaf (mədəniyyətlərin yaxınlığı və oxşarlığı);
♔ diffuziya (mədəniyyətlərin qarşılıqlı təsiri);
♔ mədəniyyətlərin mənşəyinin eyniliyi.

*Yeniləşmənin üç əsas tipi*

♔ gözlənilməz transformasiya (mutasiya);
♔ stimullaşdırılmış transformasiya;
♔ birbaşa istifadə.

*İnnovatiya təzahürünün üç əsas sahəsi*

♔ texnologiya
♔ adi mədəniyyət
♔ ideologiya

## MƏDƏNİYYƏTİN "ŞAQULİ" VƏ "ÜFÜQİ" GÖSTƏRİCİLƏRİ

*"Şaquli" və "üfüqi" mədəniyyət iki qarşılıqlı əlaqəli göstəricilərdir.*

Mədəniyyətin **"şaquli"** göstəricisi irəli, yeniliyə və qeyri-ənənəviyə hərəkət enerjisini ifadə edən, gələcəyə istiqamətlənmiş ruhi (əqli və mənəvi) həyəcandır.

Mədəniyyətin "şaquli" göstəricisinin hərəkətverici qüvvəsi yenilikçi ruha malik , ətraf aləmi dəyişdirmək və təkmilləşdirməyə motivləşmiş "yaradıcı ziyalılardır".

Yeni ideya ardıcıl olaraq üç mərhələdən keçir:a) inkar; b) tərəddüd;c) təsdiq.N.Bora görə, yeniliyin ictimai şüura təlqin edilməsi ardıcıl olaraq, aşağıdakı psixoloji pillələrdən keçir: 1."Bu ola bilməz" 2." Bunda nə isə var" 3. Sözsüz bu düzdür".Bu üç pilləni keçəndən sonra "şaquli" ardıcıl olaraq, "üfüqiyə" çevrilir. Lakin cəmiyyətdə olan ənənəvi təfəkkür stereotiplərinə görə, birqayda olaraq, yenilik müasirləri tərəfindən layiqincə qiymətləndirilmir, çox halda isə, ona qarşı böyük müqavimətlər göstərilir.

Mədəniyyətin **"üfüqi"** göstəricisi – ziyalıların yaradıcı olmayan, nisbətən konservativ, həmçinin, cəmiyyətin adi stereotip düşüncəli, passiv müşahidəli, mədəni nailiyyətlərin istehlakçıları olan hissəsidir. Mədəniyyətin "üfüqi" göstəricisi mədəni nailiyyətlərin zaman və məkanca mənimsənilməsi, elitar mədəniyyətin kütlələrə ötürülməsi, eləcə də təhsil və maarifləndirmə, mədəni mübadilə və milli mədəniyyətlərin qarşılıqlı zənginləşməsinin nəticəsidir.

Mədəniyyət – yaradıcı proses, sivilizasiya isə - onun əməli ifadəsi kimi qəbul edilərsə, onda "şaquli" və "üfüqi" göstəricilər mədəniyyətin və sivilizasiyanın rəmzləri kimi qəbul edilə bilər.

1867-1868-ci illərdə Yaponiyada "yuxarıdan" həyata keçirilmiş "Meydzi maarifçi hakimiyyəti" adını almış Meydzi mədəni inqilabı mədəniyyətin şaquli göstərəcilərinin üfüqiyə çev rilməsinin effektiv sosial texnologiyasının ən parlaq nümunələrindən biridir.

Bu mədəni inqilab nəticəsində bir neçə onillik ərzində feodal-avtoritar Yaponiya, yoxsul samuray ölkəsindən zəngin bir dövlətə çevrilib, artıq XIX əsrin əvvəllərində dünyada beş inkişaf etmiş sənaye dövlətlərindən biri olmuşdu. Ölkədə köhnə feodal (piramidal) sosial-siyasi sistemdən yeni, demokratik (rombşəkilli) sistemə keçid prosesi başlamışdı.

İkinci dünya müharibəsindən sonra , düzgün sosial-mədəni siyasət nəticəsində, intensiv inkişaf edən Yaponiyada cəmiyyətin demokratikləşməsi həyata keçirilmiş, intellektual mədəniyyət və onunla əlaqədar, istehsalatda yüksək rəqabətqabiliyyətli texnologiyaların prioritetləri təmin edilmiş, bunlar isə birlikdə, cəmiyyətin sosial strukturunda orta sinfin üstünlüyünə və vətəndaşların keyfiyyətli həyatının, eləcə də yüksək rifahının təmin edilməsinə gətirib çıxarmışdır.

## "RUHİ İSTEHSAL" SİSTEMİ

♔ Ruhi dəyərlərin istehsal sisteminə

- həqiqəti mənimsəmə nəticələrinin dörd növ ifadəsi daxildir:

☺ elmi idrak və onun əsasında yaranan ictimai şüur və ideologiya, eləcə də dini və qeyri-elmi şüur növləri və ideologiyalarla bağlı olan *konseptual-nəzəri* ifadə ;

☺ ictimai və şəxsiyyətlərarası münasibətlər və bu münasibətləri idarə edən mənəvi və hüquqi normaların dərk edilməsini nəzərdə tutan *etik* ifadə ;

☺ həqiqətin obrazlı dərki və təsvirini nəzərdə tutan *bədii-estetik* ifadə ;

☺ fərdlərin əmək vərdişləri, adət və şüurunun formalaşması, insanların gündəlik praktik həyat təcrübəsi toplamaları ilə əlaqədar olan *praktik* ifadə.

♔ Ruhi dəyərlərin mühafizə sistemi

- *ruhi dəyərlərin iki tip mühafizə vasitəsi ilə ruhi dəyərlərin saxlanması,*

*toplanması və ötürülməsini təmin edir:*

☺ *Bioloji mühafizə* - bəşəriyyətin yaratdığı xüsusi işarə sistemi ilə ifadə olunan bilik,

təsəvvür, bacarıqların saxlanıldığı insanların canlı yaddaşı;

☺ *Süni mühafizə* - kitabxana, arxiv, muzey, qalereya, kino,-foto,-video,- fonotekalar və

digər işarə sistemlərini toplayıb qoruyan müəssisələr.

♔ Ruhi dəyərlərin təbliği, istehlakı və mənimsənilməsi sistemi

- *həqiqətin ruhi mənimsənilməsinin mədəni dəyərlərdə əks olunmuş nəticələrinin*

*insanlara iki səviyyətdə ötürülməsini təmin edir:*

☺ bilavasitə mikromühit - ailə, əmək kollektivi və digər mikrososiumda səviyyəsində

dəyərlərin *institutdankənar ötürülməsi* yolu ilə;

☺ uşaq məktəbəqədər müəssisələri, bütün növ və səviyyədəki məktəblər, maarif

müəssisələri və təşkilatlar , kütləvi kommunikasiya sistemləri olan mətbuat, kino,

radio, televiziya, audio-video vasitələr, internet səviyyəsində *institusion təhsil*

vətərbiyə vasitəsi ilə.

## MƏDƏNİYYƏTİN SİNERGETİKASI

Mədəniyyətin inkişafında daxili ziddiyyətlərdən öz-özünə yaranan sinergetika proseslərin mühüm əhəmiyyəti var. Mədəniyyətin özünütəşkil proseslərini əks etdirən sinergetika sosial mühitlə sabit qeyri-tarazlıq münasibətində olan mürəkkəb mədəni sistemlərin öz-özünə yaranması və saxlanması mexanizmlərinin fəaliyyəti ilə şərtlənir. O, mədəni inkişafın

gözlənilməzliyindən irəli gələn ziddiyyətli faktorların yaradıcı və yayıcı təsirlərindən çox asılıdır.

Bütöv makrosistem olan mədəniyyət, öz sərbəst hərəkətləri ilə yeni forma və mikrosistemlər yaradan bir çox qarşılıqlı əlaqəli komponentlərdən ibarətdir. Bu mikrosistemlər həm öz aralarında, həm də ətraf mühitlə açıq informasiya, dəyər, enerji, maddələr mübadiləsində olaraq, bir-birinə müəyyən resurslar ötürür.

Mədəniyyətin inkişafı və onun sosiao-mədəni sistemlərinin formalaşması, sabitliyini saxlayan və dəyişdirən əlaqələr, yeniliklər hesabına tənzimlənir. Müxtəlif faktorların təsiri altında daxili əlaqələrin pozulması, kəmiyyət və keyfiyyət dəyişiklikləri nəticəsində yaranan qeyri-sabitlik və böhran vəziyyəti mədəniyyətin dövri özünütəşkil proseslərini stimullaşdırır.

Mədəniyyətin qeyri-sabit sinergetik fazaları insani, sosio, regional və qlobal səviyyədə onun gələcək inkişafının rəngarəng ssenarilərini nəzərdə tutur. Bununla belə, mədəniyyət qlobal sistemlərin ümumi fəaliyyət qanunauyyğunluğuna tabe olaraq, insanın şüurlu yaradıcılığının, xüsusilə də intellektual fəaliyyətinin məqsədyönlü fəaliyyətinin təsiri altındadır. Onun inkişaf istiqaməti siyasi prioritetlər, mədəni siyasət, dövlət idarəçiliyi, hüquqi və etik normalar, maraq və tələbnatların dəyişmə sistemi , eləcə də digər obyektiv və subyektiv faktorlardan asılıdır.

Mədəniyyətin dinamik sabitliyi və mütəmadi olaraq yeniləşib, daha yüksək keyfiyyət səviyyəsinə çatması üçün obyektiv ziddiyyətlər və böhranlar aradan qaldırılmalı, onun tərkib elementlərinin ahəngdarlığı təmin edilməlidir.

Mədəniyyətin sinergetikasının öyrənilməsi, ruhi mədəniyyətin qeyri-entropik faktorlarından - şüur, intellekt, psixikanın mənşəyi və təkamülünün səbəb asılılığını müəyyənləşdirməyə kömək edir.

- *Şəxsiyyətin mədəniyyəti*

## ŞƏXSİYYƏTİN FORMALAŞMASI FAKTORLARI

### I. UNİVERSAL FAKTORLAR

1. Tərbiyə
2. Təhsil
3. Sosial mühit
4. Genetik kod
5. Xarakter

- *Şəxsiyyətin formalaşması üçün mədəni dəyərlər sistemi və milli ənənələrin əhəmiyyəti mühümdür .*
- *Şəxsiyyətlərin mədəniyyətlərinin rəngarəngliyi, müəyyən qədər, Lütvi Zadənin qeyri-səlis məıntiqnin qanunları və bürclərin təsiri ilə şərtlənir.*

### II. ŞƏXSİYYƏTİN AİLƏDƏ FORMALAŞDIRILMASI

#### I. Uğurlu uşaqlar

***a. Valideynlər yaxşı olarsa***

1. Ailədə düzgün tərbiyə
2. Pozitiv genetik kod
3. Yaxçı sosial mühit (kollektiv, cəmiyyət)
4. Şəxsiyyətin güclü xarakteri güclü iradə və düzgün psixologiya
5. Müəllimlərin pozitiv təsiri

***b. Valideynlər pis olarsa***

1. Müəllimin pozitiv təsiri
2. Şəxsi ləyaqət hissi
3. Yüksəlişə meyl
4. Valideyn məzəmmətindən çəkinmə
5. Əlverişli sosial mühit
6. Şəxsiyyətin güclü xarakteri güclü iradə və düzgün psixologiya

## II. Uğursuz uşaqlar

*a. Valideynlər yaxşıdırsa*

1. Əlverişsiz sosial mühit
2. Zəif iradə
3. Qeyri-sabit psixılıgiya
4. Müəllimlərin zəif təsiri
5. Valideynlər arasında pis münasibətlər
6. Valideynlərin diqqətinin azlığı

*b. Valideynlər pisdirsa*

1. İrsiyyətin pisliyi
2. Valideynlərin diqqətinin azlığı
3. Valideynlər arasında pis münasibətlər
4. Əlverişsiz sosial mühit
5. Zəif iradə
6. Qeyri-sabit psixılıgiya
7. Müəllimlərin zəif təsiri

## ŞƏXSİYYƏTİN YARADICI TƏFƏKKÜRÜNÜN SƏVİYYƏ VƏ TİPLƏRİ

1. Məntiqidən qabaqkı
   - ☺ *mifoloji*
   - ☺ *bədii-obrazlı*
   - ☺ *intuitiv*

2. Dünyagörüş*
   - ☺ *fəlsəfi*
   - ☺ *dini*

3. Elmi**
☺*fundamental-nəzəri*
☺ *məntiqi-tarixi*
☺ *metodoloji*

4. Texnoloji
☺ *tətbiqi*
☺ *mühəndis-texniki*
☺ *konstruktor*
☺ *istehsal-iqtisadi*

5. Siyasi
☺ *Dövlət*
☺*İctimai*
☺*Beynəlxalq*

6. İdarəetmə
☺*təşkilati-inzibati*
☺*hüquqi*
☺*etik*

* Lütvi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsinə uyğun olaraq, dünyagörüş səviyyəsi arxaik mifoloji, bədii-obrazlı metodoloji və ya elmi xarakter ala bilər.

* * Elmi səviyyə təfəkkürün ən yüksək pilləsi və tipi olmaqla obrazlı, intuitiv və ya fəlsəfi təfəkkürün mövcudluğunu tələb edir.

Şəxsiyyətin siyasi, idarəetmə və texnoloji təfəkkürünün düzlüyünün mühüm şərti onun təfəkkürünün elmi səviyyəsinə nail olmaqdır.

Effektiv idarəetmə üçün elmi təfəkkür səviyyəsinin əhəmiyyəti böyükdür.

## MƏDƏNİ SƏBATSIZLIQ VƏ DİLETANTİZM

• Mədəniyyətə qarşı səbatsızlıq

☺ insanın təhsil və tərbiyə təcrübəsinin azlığına dəlalət edir,

☺ və ya irsi imkanlar və şəxsi keyfiyyətlərlə şərtlənən istək və qabiliyyətlərlə,

☺ eləcə də, vətəndaşlıq şüuru ilə müəyyən olunur.

• Diletantizm

☺ mədəni dəyərlərə keyfiyyət deyil, kəmiyyət baxımından səthi istehlakçı münasibəti.

## BMT İNKİŞAF PROQRAMINDA QƏBUL EDİLMİŞ İNSAN İNKİŞAFI İNDEKSİ

➢ Əhalinin təhsili

➢ Əhalinin gəlir səviyyəsi

➢ İnsan həyatının uzunluğu

Bu üç göstərici, müəyyən dərəcədə, cəmiyyətin ümumi mədəni inkişaf səviyyəsinin funksiyalarıdır.

☺ ruhi mədəniyyətin əsası olan təhsil ölkənin mədəni siyasətinin ölkənin mədəni siyasətinin düzgünlüyü və effektivliyindən asılıdır.

☺ gəlir səviyyəsi vətəndaşların bilik və bacarığından, eləcə də cəmiyyətin iqtisadi inkişaf səviyyəsi və paylama münasibəti mədəniyyətindən asılıdır.

☺ həyatın uzunluğu əhalinin ümumi mədəni, tibbi və ekoloji bilik, eləcə də ölkənin səhiyyə sisteminin səviyyəsi ilə müəyyən olunur.

• *Mədəniyyət, etnos, millət*

## MƏDƏNİYYƏTİN ETNİK-MİLLİ XARAKTERİSTİKALARI

- İşarə sistemi
- Milli psixologuiya
- Özünüdərk
- Mentalitet
- Mədəni dəyərlər sistemi
- Həyat tərzi – adət, ənənələr
- Ənənəıvi davranış normaları
- Həqiqətin ruhi mənimsənilməsi zamanı toplanmış təcrübə
- Milli incəsənət
- Folklor
- Mədəni irs
- İnanclar, dini etiqad

•*Mədəni dəyərlər*

## MƏDƏNİ DƏYƏRLƏR

- *Mədəni dəyərlər insanın həyat fəaliyyətini tənzimləyən və dövlət siyasətinin ideoloji əsasını təşkil edən sabit mədəni istiqamətlərdir. Ruhi həyatın müxtəlif fakt, hadisə və proseslərinə münasibət ifadə edən ruhi dəyərlər, həm insanın fərdi həyat yolu, həm də insan qruplarının fəaliyyət istiqamətini müəyyənləşdirir.*
- *Mədəniyyətə aid olan dəyişikliklər , hər şeydən əvvəl, dəyərlər səviyyəsində - ideal, etika, təhsil sistemləri, sosial, istehsal və məışət normativləri, hüquq,*

*incəsənət, eləcə də ruhi mədəniyyətin əşyavi təcəssümündə baş verir.*

- *Eyni mədəni dəyərləri hər bir adam müxtəlif cür qiymətləndirir.İnsanın mədəni potensialının inkişafında intellektual və humanist dəyərlərin mühüm əhəmiyyəti var.İctimai nailiyyətlərin qiymətləndirilmə meyarı, ölkənin intellektual potensialı və insana humanist münasibətlə ölçülən, həyat səviyyəsidir.*

  *İbn Sinaya görə, cəmiyyətin rifahı – elmi biliklərə əsaslanan düzgün, səxavət və ləyaqətli siyasətlə əldə edilir.*
- Mədəni dəyərlər aşağıdakılara təsir edir✲:
  - ✓ təfəkkür
  - ✓ psixologiya
  - ✓ dünyagörüş
  - ✓ zəka
  - ✓ motiv
  - ✓ davranış
  - ✓ xasiyyət
  - ✓ adət
  - ✓ taleh

Mədəni dəyərlər sisteminə aşağıdakılar aiddir:

- İntellektual
- Ruhi
- Estetik
- Siyasi
- Dini
- Bədii
- Hüquqi
- İdeoloji
- Maddi

*Mədəni dəyərlər mədəni norma və qaydalardan* onunla fərqlənir ki, birincilər arzu xarakterli, ikincilər isə, sosial sərəncam gücünə malik zəruri fəaliyyətlər tələb edib, normativ sənədlərlə tənzimlənir.

İnsan həyatı prosesində, xüsusilə də sosial-mədəni mühitin dəyişdiyi bir şəraitdə dəyərlərin *yenidən qiymətləndirilməsi* baş verir. İnsanın bilik və təcrübəsinin inkişafı və mədəniyyətinin artması ilə, ətraf aləmin və insanın özünün təkmilləşməsi və dərkedilməsində yeni imkanlar, dünyaya yeni baxış əmələ gəlir.

## MƏDƏNİ DƏYƏRLƏRİN FORMALAŞMA PROSESİ

Mədəni dəyərlərin formalaşması üç səviyyədə baş verir: fərdi, ictimai, dövlət.

- Şəxsiyyətin, müəyyən dəyərlər əsasında üstünlük verdiyi ideya, predmet, həyat tərzi, fəaliyyət növləri üzrə öz fərdi mədəni mühitini formalaşdırması.
- İnsanların qabiliyyət və tələbatlarına uyğun gələn norma və maddi-mənəvi dəyərlərin yaradılması yolu ilə mədəni ictimai mühitin formalaşdırılması.Bura fəlsəfi sistemlər, etik baxışlar, hüquqi normalar, elmi əsərlər, bədii əsərlər, istehsal avadanlıqları, məişət əşyaları və mədəniyyət və sivilizasiyanın digər komponentləri daxildir.
- Cəmiyyətin təhlükəsizliyini və sosial-mədəni tərəqqisini təmin edən, millətin və bütün bəşəriyyətin elmi, ruhi və texnoloji nailiyyətlərini özündə cəmləşdirən dövlət əhəmiyyətli strateji mənəvi dəyərlərin yaradılması.

## MƏDƏNİ DƏYƏRLƏRİN İERARXİYASI

1. Ümumsosioloji (ümuməhəmiyyətli)
   - çox zaman ümumbəşəri ilə üst-üstə düşür.
2. Sinfi
   - müəyyən siniflərin maraqları ilə əlaqədardır
3. Lokal – qrup (ailələr daxil olmaqla)
   - mədəniyyət sahəsində bəzi sosial-tipik üstünlükləri əks etdirir.
4. Fərdi-şəxsi
   - şəxslərin sosial mühitdən seçdikləri və ya fərdi olaraq yaratdıqları ideya və predmetləri əks etdirir.

## ETİK MƏDƏNİYYƏTİN PRİORİTET DƏYƏRLƏRİ

(*statistik göstəricilər əsasında müəyyənləşdirilmişdir*)

**QƏRB**
- Şəxsiyyətə hörmət
- Məsuliyyət
- Düzlük

**ŞƏRQ**
- Böyüyə hörmət
- Sədaqət
- Səbr

**AFRİKA**
- Məhəbbət
- İnam
- Öhdəlik

Əsas cəhəti fərdiyyətçilik olan, novasiyalı və dünyəvi mədəniyyətə malik Qərbdə, intellektual, texnoloji, hüquqi, etik, siyasi, sosial-iqtisadi və ekoloji dəyərlərə üstünlük verilir.

Əsas cəhəti kollektivçilik olan, ənənəvi və dini mədəniyyətə malik Şərqdə, mənəvi (ailə), bədii, sosial-iqtisadi və sahibkarlıq dəyərlərinə üstünlük verilir.

Dünya mədəniyyətinin müasir dövrdəki inkişafının qanunauyğunluqlarından biri odur ki, Qərb və Şərq arasındakı fasiləsiz mədəni mübadilədən ibarət olan dialoq prosesi, dünya mədəniyyətinin demokratikləşməsi və qloballaşması fərdlər, xalqlar və ölkələr arasında mədəni paradiqmaların dəyişməsinə səbəb olur.

## ŞƏRQ VƏ QƏRBİN MƏDƏNİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**Şərq :**

- Mədəniyyət rəmzi - ənənəyə sadiqlik
- Ruhi inkişafın əsası (Hegelə görə) - din
- Şərq sivilizasiyasının əsası - dövlət

Şərq, ilk ənənəvi-konservativ mədəni dayaqların formalaşdığı, dünya sivilizasiyası və insan mədəniyyətinin beşiyi hesab edilir. Mədəniyyətin totalitar və avtoritar tipinə xas olan sosial və dini normalar, əxlaqi və hüquqi standartlar, xalqın dövlətə xidmətinə əsaslanaraq, şah, firon və ya imperatorun şəxsində cəmləşmişdi.

**Qərb :**

- Mədəniyyətin rəmzi - yenilikçilik
- Ruhi inkişafın əsası – fəlsəfə
- Qərb sivilizasiyasının əsası - insan

Insana yönəlmiş qərb mədəniyyətinin ardıcıl inkişafı nəticəsində azad şəxsiyyət və demokratik cəmiyyət formalaşmış, insan inkişafı, texnolojiya və sənayenin tərəqqisi sürətlənmiş, mədəniyyətin müstəqil sosial institutu kimi, elm təşəkkül etmişdir.

• *Etik mədəniyyət*

## ETİK MƏDƏNİYYƏT

Etik mədəniyyət şüur və bilik, mövcud olanlar haqda təsəvvürlər, dəyərlər sistemi, əxlaqi davranış və münasibətlər,eləcə də insanların mənəvi həyat və fəaliyyətinin birliyidir. O, insan və cəmiyyətin ruhi inkişafdakı keyfiyyət və nailiyyətlərinin səviyyəsidir. Etik mədəniyyətin əsasını insanların maraq, tələbat, bilik və xarakterdən ibarət dəyərlər sistemi təşkil edir. Cəmiyyətin etik mədəniyyəti sosial-mədəni inkişaf və dövlət təhlükəsizliyinin mühüm şərtidir. İctimai şüur forması olan etik mədəniyyət insanların irsi keyfiyyət və tərbiyələrindən, eləcə də bütövlükdə cəmiyyətin maddi rifahından asılıdır.

"Etika" sözünün yunan dilindən tərcüməsi adət, xasiyyət və meyl mənasını verir və əxlaq , onun mənşəyi və inkişafı, insan davranışının qayda və normaları, insanların ailəyə, bir-birinə, cəmiyyətə, vətəninə, dövlətə və bəşəriyyətə münasibətdə vəzifələri haqqında təlimdir. Bununla belə, etika iki ölçüdə nəzərdən keçirilir: insan davranışının müəyyən norma və qaydalarının toplusu olan *normativ etika* və əxlaqın fəlsəfi nəzəriyyəsi olan *metaetika* kimi. Bir çox etik təlimlər əxlaqı ya ilahi iradənin təzahürü, ya da insanın özünün yaradıcılığı kimi qiymətləndirirlər.

Nəzəri etika ümumi sosial-mədəni proseslər və cəmiyyətdə əxlaqın rolunu araşdırmaqla yanaşı, həm də ruhi fəaliyyətin, əxlaqi şüur, əxlaqi dəyərlər və əxlaqi münasibətlərin təbiətini (mahiyyətini) tənqidi təhlil edir. Etika elminin əsas vəzifəsi insan və cəmiyyətin mənəvi problemlərini öyrənmək, insanların əxlaqını təkmilləşdirmək, Xeyir və Şər məfhumları, mövcud həqiqətlər, insanların öz mənəvi seçimini düzgün müəyyənləşdirməsi, onlardan doğan arzu və əməllər, həyat və fəaliyyətdə pozitiv nəticələr əldə etmək haqqında düzgün anlayış, təsəvvür və təfəkkür formalaşdırmaqdır. Dünya mədəniyyəttarixi etikanın inkişafını müəyyən edən obyektiv qanunauyğunluqların aşkar edilməsinə imkan verir. O, sübut edir ki, etik normalar uzun müddətli tarixi dövr ərzində formalaşır.Onlar insanların tarixi tələbat və həyati maraqlarını, eləcə də, bir çox nəsillərin dini və dünyəvi təcrübəsini əks etdirir. Bu təcrübə əsasında etika, nəinki mənəvi prinsipləri ümumiləşdirib sistemləşdirir, həm də onu elmi cəhətdən əsaslandırır.

Etika ruhi-nəzəri fəaliyyətin maddi-praktik fəaliyyətdən ayrılması nəticəsində, hələ sinifli quldarlıq cəmiyyəti dövründə, fəlsəfənin bir hissəsi kimi yaranmışdır. Bu termin ilk dəfə elmi leksikona Aristotel tərəfindən, insanların sosial praktik fəaliyyətində kortəbii formalaşıb, gündəlik əxlaqi şüurdan fərqlənən, geniş və yüksək əxlaq təliminin ifadəsi üçün daxil edilmişdi.

Quldarlıq, feodalizm, burjua, sosialist cəmiyyətlərində müxtəlif sosium və fərdlərin etikası da fərqli olmuşdur. O, daim sosial mənşə, dini səviyyə, sinif, qrup və şəxsi maraqlar, həyat tərzi və dəyərlər sistemindən asılı olmuşdur. Təxəyyülə bağlı yüksək aprior prinsiplərin xas olduğu dini etikadan fərqli olaraq, dünyəvi etika – tarixi hadisədir. O, davranış və təfəkkürün məkan və zaman üzrə dəyişən, ictimai quruluş, rəsmi ideologiya, sinfi münasibətlər, dəyərlər, maddi və sosial-siyasi həyat tərzinə uyğunlaşan, olduqca mütəhərrik kateqoriyasıdır. Əxlaqı, hər şəraitdə mütləq olub, əbədi həqiqətlərin məcmusu kimi qəbul edən antik mütəfəkkirlər, onu insanların ruhi və hissi həzzə olan təbii ehtiyacı(Epikur), "rifahın" yüksək hissi ideyası(Platon), təlim və vərdişlə şərtlənən "intellektual", "iradi" və "vətəndaş xeyirxahlığı"(Aristotel) kimi nəzəriyyələrlə ifadə edirdilər. Allaha məhəbbət və ilahi iradəni üstün tutan feodalizm mütəfəkkirləri, insanı və insan idrakını başlıca dəyər kimi qəbul edən İntibah və Maarifçilik dövr filosofları, azadlıq və bərabərlik ideyalarını təbliğ edən burjua cəmiyyəti, sosial ədalət ideyalarına sadiq sosialist cəmiyyəti, insan iradəsi müstəqilliyi ideyalarına istinad edən kapitalist cəmiyyəti öz etik təlimini yaratmışdır.

Etik dünyagörüşün dəyəri ondadır ki, o, həqiqətlər, insan və onun həyatının mənası, insanların ailə, kollektiv və cəmiyyətdəki əxlaq prinsipləri və davranış normaları haqqında aksioloji ideyalar formalaşdırır. Xeyir və Şər meyarlarının qiymətləndirilməsi kontekstində "nə etməli?" sualına cavab axtararaq, bəzi nəzəriyyələr insan təbiətindən yox, əxlaqın sosial xarakterindən çıxış edirlər, digərləri isə, əxlaqın ictimai şüur forması olduğunu unudub, "insan təbiətini" ön plana çəkirlər. Etikanı, fərdlərin ehtiyac və tələbatları ilə xeyirxahlığı arasındakı harmoniya vasitəsi kimi nəzərdən keçirən Kant, mənəviyyatın qorunması üçün allahın mövcudluğu və ruhun əbədiliyinin qəbul edilməsini zəruri hesab edirdi.

## ETİK KONSEPSİYALAR

- Neofreydizm
- Evolyusionizm
- Humanizm
- Utilitarizm
- Praqmatizm
- Neopozitivizm
- Neoprotestabtizm
- Əxlaqi ilahiyyatçılıq
- İntuitivizm
- Neotomizm
- Naturalizm
- Biologizm
- İrrasionalizm
- Ekzistensializm
- Hedonizm
- Evdemonizm

## XEYİRXAHLIQ VƏ ŞƏR

### *XEYİRXAHLIQ*

*Antik etika*

- Mərdlik
- Mülayimlik
- Müdriklik
- Ədalətlilik
-

*Orta əsr xristian etikası*

- Allaha inam
- Allahın rəhminə ümid
- Allaha məhəbbət

İntibah, Maarifçili, Yeni Dövr

- Maddi maraqlar
- Səadət
- Azadlıq
- Cəsarət
- Ağıl
- Şüurlu sosial fəallıq
- İnsanlara xidmət

**ŞƏR**

- Cinayət
- Qətl
- Terrorizm
- Yalan
- Yaltaqlıq
- İkili əxlaq
- Ədalətsizlik
- Satqınlıq
- Vəhşilik
- Despotizm
- Qəddarlıq
- Zorakılıq
- Sərtlik
- Fövqəlkonformizm
- Korrupsiya
- Cahillik
- Paxıllıq
- Cəsarətsizlik
- Bayağılıq
- Qorxaqlıq
- Əxlaqsızlıq
- Narkomaniya
- Alkoqolozm
- Tüfeylilik

- Loğalıq
- Təkəbbür
- Özbaşınalıq
- Xəsislik
- Riyakarlıq
- Pozğunluq

## DAVRANIŞ MƏDƏNİYYƏTİ VƏ İNTİZAM

- Ünsiyyət mədəniyyəti, nəzakət – insanlara hörmət,diqqət, hamıya xeyirxah münasibətin zahiri təzahürü, ehtiyacı olanlara diqqət göstərmək, ədəb, mərifət, riqqət(dərdəşərik), şəfqət.
- Nitq mədəniyyəti
- Məişət mədəniyyəti
- Şəxsi gigiyena
- Təmkin
- Məsuliyyət
- Qida mədəniyyəti
- İstehlak mədəniyyəti
- Estetik zövq
- Davranış tərzi, qamət
- Dostluq və sevgi mədəniyyəti

## *İNTİZAMİN REALLAŞDIRMA FORMA VƏ ÜSULLARI*

- Adətlər
- Ədəb
- Ənənələr
- Normalar
- İctimai vərdişlər
- Zövqlər
- Şəxsiyyət və ya təşkilatın nüfuzu

- İctimai tərbiyə
- İctimai rəy
- Qaydalar
- Məcburiyyət
- Əqidə
- Şəxsi şüurluluq

## DOSTLUQ VƏ İNAMIN ƏSASINI TƏŞKİL EDƏN KEYFİYYƏT VƏ ŞƏRTLƏR

- Səmimiyyət
- Vicdanlılıq
- Düzlük
- Doğruluq
- Vəfalılıq
- Fədakarlıq
- Təmənnasızlıq
- Şəfqətlilik
- Maraq ümumiliyi
- Qarşılıqlı bağlılıq
- Qarşılıqlı yardım, kömək
- Qarşılıqlı anlaşma
- Qarşılıqlı rəğbət
- Qarşılıqlı inam
- Öz mənafeyini qurban vermək
- Məqsəd və prinsiplərdə ruhi birlik

## BURJUA ƏXLAQININ FƏZİLƏTLƏRİ,

*fərdiyatçilik və xüsusi mülkiyyətçilik dəyərlərinə əsaslanır*

- Zəkalılıq və fəalliq
  - *Şəxsi məqsədlərin həyata keçirilməsində*
- Şöhrətpərəstlik
  - *İctimai fəallığın təminatçısı kimi*

- Səy və cəhd
  - *Sərvət və ictimai mövqe əldə edilməsi üçün*
- *Ədalət*
  - *Nemətlərin mübadiləsində ekvivalentlik və qarşılıqlı əlverişlilik nəzərdə tutulur*
- Şəxsiyyətə hörmət
  - *Hər şeydən əvvəl, azad sahibkarlıq və rəqabətdə nəzərdə tutulur*

• ***Hüquqi mədəniyyət***

## HÜQUQ MƏDƏNİYYƏTİ

Hüquq mədəniyyəti və etik mədəniyyət, bir medolyonun iki tərəfi kimi, şəxsiyyətlərarası ictimai və beynəlxalq münasibətlərdə başlıca rol oynayır. Hüquq bu və ya digər davranış normalarının həyata keçirilməsinə sərəncam verib, dövlət idarəçiliyinin əsası olduği bir halda, əxlaq – insanın vicdanı ilə tənzimlənən mənəvi seçimi müəyyənləşdirir.

Mədəni insanın əsas keyfiyyətlərindən biri mütəşəkkillik olub, müəyyən dərəcədə, *şəxsiyyətin hüquqi mədəniyyətini,* nizam-intizama, hüquqa, məsuliyyətə, qanun aliliyinə bağlılığını nəzərdə tutur.

*Hüquqi mədəniyyət* – cəmiyyətdə insanların həyat fəaliyyətinin sosial-hüquqi tənzimləmə funksiyalarını yerinə yetirən norma, dəyər, hüquqi institutlar, proses və formaların məcmuudur. O, şəxsiyyətin azadlığı, hüquq və məsuliyyəti, sosial müdafiəsi, ləyaqətinə hörmətinin birliyini müdafiə edir.

*Cəmiyyətin hüquq mədəniyyəti* ümumi sosial mədəniyyətin bir hissəsi olmaqla, özündə ümumbəşəri və milli dəyərləri təcəssüm etdirir. O, şəxsiyyətin hüquqi vəziyyətinin keyfiyyətini, eləcə də dövlət və cəmiyyətin mütəşəkkillik səviyyəsini əks etdirir.

***Cəmiyyətin hüquq mədəniyyətinin əsas komponentləri*** aşağıdakılardır:

- Hüquq dövlət quruculuğunu ifadə edən normalar sistemi kimi
- Hüquq münasibətləri, ictimai münasibətlərin hüquqla tənzimlənməsi sistemi kimi
- Hüquq idarələri hüquqi nəzarət, hüququn tənzimlənməsi və icrasını təmin edən dövlət orqanları və ictimai təşkilatlar sistemi kimi
- Hüquqi şüur hüquqi həqiqətin ruhi təzahür sistemi kimi
- Hüquqi davranış, həm qanuni, həm də qeyri-qanuni
- Qanunyaradıcı fəaliyyət
- Hüquq elmi
- Hüquqtətbiqedici fəaliyyət
- Qanunilik
- Hüquqi nizam

***Şəxsiyyətin hüquq mədəniyyətinin səviyyəsi*** *üç əsas göstərici ilə ölçülür:*

- **İntellektual** – hüquqi bilik və informasiya ilə şərtlənir;
- **Emosional-psixoloji** – öz təcəssümünü hüquqi əqidədə tapır;
- **Davranış** – öz ifadəsini bilik , əqidə və mövcud qanunlara əsaslanan davranışda tapır.

***Cəmiyyətin hüquq mədəniyyəti səviyyəsinin ənənəvi göstəriciləri aşağıdakılardır:***

- **Qanunvericiliyin sosial əsaslı olması,** normativ aktların məzmununun milli-mədəni ənənələrə, psixologiya, xalqın milli xarakter və idealına, eləcə də cəmiyyətin inkişaf tələblərinə, tərəqqipərvər nailiyyətlərə, dünya inkişafının qanunauyğunluq və tendensiyalarına uyğunluğu;
- **Qanunvericiliyin kamilliyi,** qanun icrasında hüquqi mexanizmlərin işləkliliyini nəzərdə tutur; hüquqi tərif və terminlərin aydınlığı, boşluqların olmaması, qanunun sərbəst şərhini istisna edən, hərfi və məna vahidliyi.

- **Qanunvericiliyin effektivliyi,** mövcud qanunların real gözlənilən sosial nəticələrə uyğunluğu, əhalinin qanunların icrasına şüurlu hazırlığı.

*Hüquqi intizam* vətəndaşların hüquqi əqidəsinin rəsmi hüquq normalarına uyğunluğunu tələb edir.

*Cəmiyyətin hüquqi sistemi* çox halda hüquq elminin yaradıcı nailiyyətləri və siyasi-hüquqi fikrin inkişaf səviyyəsindən, əhalinin dəyişən daxili və xarici tələbatlarına, eləcə də hüquqi təhsil və maarif səviyyəsinə uyğun dövlət və hüquq nəzəriyyəsindən asılıdır. Cəmiyyətin ümumi mədəniyyəti kimi, *hüquq* mədəniyyəti də qiymətləndirmə meyarları və prinsiplərindən asılı olaraq, *yuxarı, orta, aşağı* kimi *təfsir edilə bilər.*Yüksək hüquq mədəniyyəti, hüquqi göstərişlərin gərəkliliyi və məntiqi, ədalətliliyi və səmərəliliyinin dərk edilməsi hüquqi biliklərin əqidəyə çevrilməsinə yardım edir.

*Demokratik dövlətlərdə* dövlətlə hüquq arasında hüquq prioritet sayılır. *Qanunun aliliyi* hamı üçün, ilk növbədə dövlət orqanları üçün başlıca prinsipə çevrilir. Hüquq və hüquqi normalar şəxsiyyətin yüksək hüquqi statusunu, insanın ayrılmaz hüquqlarını, dövlət və sosial idarəetmədə demokratik metodların həyata keçməsini təmin edir.

Demokratiyanın *hüquq mədəniyyəti əlamətlərinə,* hüquqi münasibətlərdə olan subyektlərin hüquq və vəzifələrinin balanslığı və ekvivalenti olaraq, bərabərlik, azadlıq və ədalət aid edilir.

*Vətəndaş cəmiyyətinin hüquq mədəniyyəti* qanunların keyfiyyətini, sosial hüquq intizamının stabilliyini, dövlət və hökumət qarşısında vətəndaşların öz hüquq və vəzifələrini bilmələrini, qanun və hüquqa xalqın dəyər göstəriciləri baxımından hörmətini,hüquqi əsaslandırmalarla və savadlı nitq bacarığını tələb edir. O, həmçinin azadlıq, başqalarına hörmət, öz sözünə, əməlinə və öhdəsinə götürdüyü işlərə şəxsi məsuliyyətini, insanlarda ədalət və qanunçuluq hissinin tərbiyəsini nəzərdə tutur.Bu prosesdə peşəkar hüquqi təhsillə yanaşı, kütləvi informasiya vasitələri və bədii ədəbiyyat da mühüm rol oynayır.

*Demokratiyanın hüquq mədəniyyətinin effektivliyi* aşağıdakı şərtlərlə müəyyənləşdirirlir:

- Hakimiyyətin müxtəlif qanadlarına qarşılıqlı nəzarət tələb edən demokratik sistemin mövcudluğunu.
- Hakimiyyət və cəmiyyət arasında münasibətləri tənzimləyən və aşağıdakı vəzifələri yerinə yetirən ambusman institutunun mövcudluğunu:

- vətəndaşların hüquq müdafiəsi, ərizə və şikayətlərinə baxılması;
- illik və xüsusi məruzələrin hazırlanması;
- insanların hüquq müdafiəsi üzrə qanunvericiliyin təkmilləşdirilməsinə yardım;
- vətəndaşların hüquqi təhsili , maariflənməsi və inkişafına yardım.

Demokkratik dəyər və prinsiplər əsaslanan effektiv sosial və dövlət idarəçiliyi bir sıra hüquqi, etik və idarəetmə mədələlərinin həllini tələb edir:

- vətəndaşlar və qanunun aliliyini təmin etməli olan vəzifəli adamlar tərəfindən qanunvericiliyin və qanunları icra mədəniyyətinin daim təkmilləşdirilməsi;
- inzibati və siyasi baza sənədlərinin şəffaflığı və onların idarəetmə sistemində düzgün istifadəsi;
- ədalətsizlik, hakimiyyətdən sui-istifadə etmə, vəzifəli adamlar tərəfindən proteksionizm, monopolizm və korrupsiya hallarının aradan qaldırılması, paylama münasibətləri mədəniyyətinin inkişaf etdirilməsi;
- ölkə vətəndaşları, eləcə də dövlət strukturları və vətəndaşlar arasında ziddiyyətlər, konflikt və mübahisələrin ambusman institutu vasitəsi ilə hüquqi və etik tənzinlənməsinin yüksək mədəniyyəti;
- dövlət quruculuğu və idarəçiliyi proseslərinin effektivliyinin ictimai monitorinqi proqramlarının işlənməsi və tətbiqi;
- məmurlar və əhali üçün demokratiya, sülh və vətəndaş cəmiyyəti. hüquqi, etik, idarəetmə, istehsal, məişət və gender

mədəniyyəti üzrə daim fəaliyyət göstərən kulturoloji maariflərndirmənin təşkili.

## HÜQUQ VƏ ƏXLAQ

Insanin ən mühüm mədənilik göstəriciləri *mütəşəkkillik və mənəviyyatdır.* Bu göstəricilərdə, digər xarakteristikalarla birlikdə,ruhi mədəniyyətin . ictimai münasibətlərin formalaşdırılmasına təsir göstərən institutlardan *hüquq və əxlaq* da öz əlsini tapmışdır.

İnsanın həyat və fəaliyyətinin, maddi maraq vasitəsi ilə həyata keçirilən iqtisadi tənzimlənmələrdən fərqli olan, hüquq və əxlaq ictimai fikrin təsiri və dövlət məcburiyyəti gücü ilə həyata keçirilir.

İnsan mədəniyyətinin tərkib hissəsi və səmiyyətin insana təsir vasitəsi kimi, **hüquq və əxlaq** müxtəlif vasitələrlə ümumi sosial funksiyanı yerinə yetirir – insanların sosial davranışını tənzimləyir və ona nəzarət edir. Bu halda onlar öz vəzifələrini müxtəlif vasitələrlə yerinə yetirir : birinci halda *məcburiyyət vasitələri*, ikincidə - *cəmiyyətin mənəvi təsir vasitələri ilə,* ictimai rəy, insanın şəxsi əqidəsinin gücü ilə. **Hüquq** *dövlətin, sosial sərəncam xarakterli, rəsmi elan olunan normalarıdır,* **əxlaq** isə, *ictimai şüurda yaşayan, daxili kateqoriyadır.*

İnsanın ruhi tələblər anlayışını düzgün başa düşməsi və real həyatda onlara əməl etməsi, *şəxsiyyətin mənəvi nüfuzunun* formalaşmasını təmin edir. *Ədəb* – insan əməlləri haqda ümumi təsəvvürlərə əsaslanan və cəmiyyətdə qəbul edilən insan davranışı normalarıdır. İnsan davranışının mənəvi dəyər və motivlərinin, vəzifə, əməl və məsuliyyətinin əsasında, həyatın məna və məqsədi haqda təsəvvürləri durur. *İnsanın ruhi şüuru* – onun ailə və yaşadığı sosial mühitdə aldığı mədəni tərbiyənin məhsulu olan əqidə, hiss, meyllər və vicdanıdır. İnsanın ruhi mədəniyyəti maraqların toqquşduğu zaman meydana çıxır. İnsanın ədəbliliyi özünü insan ləyaqətinə hörmətdə, duyğulu, mülayim, xeyirxah və qayğıkeş olmaqda göstərir.

*Hüquq və əxlaq* – tarixi hadisə olmaqla, cəmiyyətin sosial-mədəni, iqtisadi və siyasi təsirlərinə uyğun dəyişir. Dünya mədəniyyətinin inkişaf tarixi göstərir ki, insanın bioloji xarakteri və həyat forması

ardıcıl olaraq insanilәşir, vәhşilikdәn ruhi tәrәqqiyә qәdәr qabaqlayıcı hәrәkәt edir. İnsan әxlaqının humanistlәşmәsi tarixi onun atavizm, hannibalizm, qәddarlıq, mәdәniyyәtlәrarası obyektiv vә subyektiv ziddiyyәtlәrin aradan qaldırılmasında, bәrabәrlik vә әdalәtin tәsdiqi, şәxsiyyәtә hörmәtdә ifadә olunur.

Feodalizm vә ilkin kapitalizm cәmiyyәtindә bәrabәrlik eyni zümrә vә ya eyni sinfi mәdәniyyәt tipi daxilindә başa düşülürdü. Bu, davranış vә siyasәtdә ikili әxlaq vә ikili standartların yaranmasına sәbәb olaraq, insanı cәmiyyәtdәn ayrı salmışdır. Demokratik quruluşlu cәmiyyәtlәrdә bu tendensiyanın qarşısı tәdricәn alınır. Hәm әxlaq, hәm dә hüquq, sabit normalar (qayda vә cәrәncamlar) baxımından, әdalәt vә mütlәq olan haqda xalqın iradәsini vә onun ümumbәşәri tәsәvvürlәrini ifadә edir. Burada, insanın hüquq vә azadlıqlarının müdafiәsi, әhalinin şüurluluğu vә sosial fәallığının artımı demokratiya mәdәniyyәtinin inkişaf faktorlarından biri kimi çıxış edir.

Adamların maraq vә tәlәbatlarının obyektiv mövcudluğuna әsaslanan sosial-mәdәni fәaliyyәt dә, әtraf alәmi dәyişmәyә imkan verәn, iradә azadlığını nәzәrdә tutur. *İradә azadlığı* hәm seçim azadlığını, hәm dә demokratik cәmiyyәtdә insanın mәsuliyyәtini müәyyәn edir. Bu baxımdan, tәbiәt vә cәmiyyәtlә hәmahәng olan şәxsiyyәtin insanlıq vә müdriklik sәviyyәsini sәciyyәlәndirәn, yüksәk ağıl, hiss vә davranış mәdәniyyәtini formalaşdırmaq demokratik dövlәtlәrin mühüm sosial vә siyasi vәzifәsi olur. Şәxsiyyәtin yüksәk mәdәniyyәtinin formalaşdırılması zamanı qabaqlayıcı sosial tәrәqqini tәmin edәn, hәyat fәaliyyәti texnologiyalarının tәkmillәşmәsinә ekspert yardımı, dövlәt siyasәtinә isә praktik tәsir göstәrmәk qabiliyyәtinә malik ziyalıların rolu hәdsiz dәrәcәdә artır. Әlverişli sosial-mәdәni mühitә malik cәmiyyәtlәrdә, icbariliyin tәdricәn insanın ruhi vәzifәsinә keçmәsi üçün, ruhi tәlәbat vә sosial әdalәtin *hәyat qanununa çevrilmәsi* üçün geniş imkanlar açılır.

Ayrı-ayrılıqda hüquq vә әxlaq daxilindә, elәcә dә birlikdә, hüquqla әxlaq arasında elә *obyektiv vә subyektiv ziddiyyәtlәr ola bilәr* ki, qanun vә onun praktik icrası, vicdan vә rәsmi әxlaqın tәlәblәri, vicdan vә hüquqi qanunlar, elәcә dә milli vә bәşәri dәyәrlәr arasındakı ziddiyyәtlәrlә şәrtlәnsin. Bu ziddiyyәtlәrin aradan qaldırılması cәmiyyәtin daxili mәdәniyyәt sәviyyәsi vә düzgün elmi yanaşmadan

o zaman asılı olur ki, şəxsiyyət və cəmiyyətin inkişaf maraqlarına cavab verən mənəvi prinsip, ideal, mədəni-mənəvi dəyərlər prioritet əhəmiyyət daşısın. Əxlaq - insanın vicdanı ilə idarə edilərək, onun xoşməqamlılığını nəzərdə tutursa, hüquq - qoyulan qaydaların sosial səmərəliliyindən çıxış edir. Bəzən əxlaqi səbəblər insanı öz hüquqi vəzifələrini yerinə yetirməsinə mane olur.

Real həyatda olan insan konfliktləri və ideoloji ziddiyyətlərdə əxlaqın rolunu anlamaq üçün, *"qəti" və "şərti" imperativ* anlayışlarına müraciət etmək lazım gəlir.Klassik alman fəlsəfəsinin banisi İmmanuil Kant hesab edirdi ki, millətin mədəniyyətinin mahiyyəti insanın ictimai dəyəri ilə müəyyən olunur. Kant mənəviyyat meyarı olaraq, "qəti imperativ" (şərtsiz hökm) anlayışını irəli sürür. İnsanı inkişafın məqsədi elan edərək, o, "aprior prinsip" əsasında öz "mənəvi qanununu" qurur və hesab edir ki, qəti imperativ ümumi xarakter daşıyaraq, *insanların bərabərliyi prinsipinin* reallaşmasına yardım etməlidir. Qəti imperativdən fərqli olaraq, şərti imperativin fəlsəfəsi makiavellizm fəlsəfəsinə əsaslanaraq (məqsəd vasitəni doğruldur), belə səslənir : "məqsədin vasitəçisi əməldir". Beləliklə, şərti imperativin əsasını fərdi maraqların əkslikləri təşkil edir, bu isə, mənəviyyat meyarı və sosial münasibətlərin ahəngdarlıq əsası kimi, onun rolunu aradan qaldırır. Lakin bəşər tarixi bizə real həyatdakı dəyərlərin maraqlara qurban verilməsi hallarına dair sonsuz nümunələr nümayiş etdirir ki, bu da insanlar və xalqlar arasında konfliktlərə, ümumən isə sosial gərginliyə gətirib çıxarır.

Sosial ziddiyyətlərin səviyyəsinin azaldılması üçün yüksək ruhi mədəniyyətə, müəllif nüfuzundan elmi biliyə və təcrübəyə, şüurluluq və məsuliyyətə doğru hərəkətə nail olmaq, düzgün sosial-mədəni siyasətin yetişdirdiyi cəmiyyətin universal ruhi-mədəni dəyərləri əsasında şəxsiyyətin tam inkişafını nəzərdə tutan "Homo Cultural" tipli yeni insanın formalaşdırılması həyata keçirilməlidir. Yalnız bu zaman şəxsiyyətlə cəmiyyət arasındakı ziddiyyətlər, münasibətlərin harmoniyası ilə əvəz oluna bilər.

Uayt qanununa görə, cəmiyyətdə mədəniyyətin dəyişməsi ilə insanın davranışı da dəyişir.

Bu baxımdan, demokratik cəmiyyətin, əxlaq və hüquq vasitəsi ilə həll edilən, strateji vəzifələrindən biri, ümumi maraqlar əsasında ölkə

vətəndaşlarının mədəni eynilik, birlik və bərabərliyinə nail olmaqla, şəxsiyyət və cəmiyytin məqsəd ümumiliyini nəzərdə tutan ümumi sosial mədəniyyətin formalaşdırılmasıdır.

- *Elitar və kütləvi mədəniyyət*

## MƏDƏNİYYƏTİN YARADICILARI

Mədəniyyət yaradıcılarının subyekti kimi, ziyalıların ayrı-ayrı nümayəndələri və ya onların kollektivləri , eləcə də ümumilikdə xalq kütlələri çıxış edir.Cəmiyyətin ruhi mədəniyyətinin yaradılması mexanizmi iki "təbəqənin" qarşılıqlı təsiri nəticəsində yaranır: xalqın gündəlik şüuru ("aşağı təbəqə") və ziyalıların ("yuxarı təbəqə") həyata keçirdiyi peşəkar ruhi istehsal. Xalqın gündəlik şüuru dil, eləcə də onun maraq və tələbatlarını ifadə edən dəyər istiqamətləri, əxlaqi norma, baxış və ideallar, əlverişli şəraitlə qidalandıran elmi və ideoloji nəzəriyyələr, bədii obrazlar yaradır. Yaradıcı proses olan *mədəni inkişafın hərəkətverici qüvvəsi* ziyalılardır.

## ELITAR MƏDƏNIYYƏT

Elitar mədəniyyət - ziyalılar təbəqəsinin seçilmiş münayəndələrinin və ruhi aristokratizmlə səciyyələnən digər imtiyazlı qrupların mədəniyyətidir.

**Mədəni elita**

- Yüksək etik, estetik, intellektual və dini mədəniyyətlərinin ruhi dəyər və normaları
  ilə yaxın olan ziyalı nümayənləir.
- Sosial-mədəni tərəqqinin başlıca hərəkətverici qüvvəsi missiyasını yerinə yetirən,
  ruhi mədəniyyət sahəsində xüsusi elmi bilikləri ilə seçilən, imtiyazlı ekspertlər.
- İctimai tərəqqiyə təsir edən, mədəniyyətin böhran vəziyyətini aradan qaldırmağa

motivləşmiş, dövrü qabaqlayan modernistlər.

- Cəmiyyətin social-siyasi tələblərindən kənara çıxıb, həyat fəaliyyətinin dəyər və mahiyyət meyarları və özünütənzimləmənin şəxsi mexanizmlərini, "yüksək üslub" paradiqmalarının yaradıcıları və yeni ənənələrin təşəbbüsçüləri.

## ELİTAR MƏDƏNİYYƏT MƏRKƏZLƏRİ VƏ İNSTİTUTLARI

- Elmi müəssisələr
- Ali təhsil müəssisələri
- Dini müəssisələr
- Mason təşkilatları
- Fəlsəfi yığıncaqlar
- Mədəni cəmiyyət və assosiasiyalar
- Ədəbi-bədii strukturlar
- Yaradıcı ittifaq və fondler
- Elmi məktəblər
- Parlament yığıncaqları
- İctimai-siyasi təşkilatlar

## KÜTLƏVİ MƏDƏNİYYƏT

- Kütləvi istehlakçıya istiqamətlənən, başlıca olaraq, əyləncə, istehlak və kommersiya xarakterli kütləvi informasiya vasitələri ilə yayılan mədəniyyət növü.
- Adi istehlakçı zövqünü və təfəkkürünü nəzərdə tutan ruhi və maddi dəyərlərin yayılmasına təsir edir.
- Fərdiləşdirilmiş mədəniyyətdən kütləvi mədəniyyətə keçidlə şərtlənən mahiyyəti əks etdirir, yəni, dünyagörüş və davranış normalarının öyrədəndən öyrənənə şəxsi təcrübə ilə ötürülməsi,
  - elitar mədəni nailiyyətlərin adi mədəniyyət dilinə keçirilərək, cəmiyyətdə çoxaldılması yolu ilə insanların kütləvi mədəniləşdirilməsi.

- Urbanizasiya və sənayeləşmə prosesində təbəqəli cəmiyyətin milliyə çevrilməsi, əhalinin bütövlükdə savadlanması, sənayeləşmədən qabaqkı adi ənənəvi tipli mədəniyyət formalarının tənəzzülü, tirajlaşdırmanın texniki vasitələrinin və informasiya ötürülməsinin inkişafı ilə Yeni Dövrdə qəti şəkildə formalaşan sosial mədəniyyət tipi.
- İnformasiya texnologiyalarının intensiv inkişafı və onun kütləvi istehlakçı şüurunu "istehsalçının" maraqlarına uyğun idarəetmə alətinə çevrilməsi ilə əlaqədar olaraq, kütləvi mədəniyyətin inkişafında yeni mərhələ.
- XX əsrin II yarısında sosial-mədəni modernləşmə və sənayeləşmədən postsənayeləşmə (informasiyalı) cəmiyyətinə keçid şəraitində müasir cəmiyyətin həyatında kütləvi mədəniyyət xüsusi yer tutur.

## *KÜTLƏVİ MƏDƏNİYYƏTİN FƏALİYYƏT SAHƏLƏRİ VƏ ƏSAS İNSTİTUTLARI*

- *"Uşaq submədəniyyəti" sənayesi*

▪ Cəmiyyətdə rəsmi təbliğ edilən baza dəyər anlayışlarının əsasları və mədəniyyətin standart dünyagörüş normalarının uşaqların şüuruna daxil edilməsindən ibarət olan, uşaq tərbiyəsinin universallaşdırılma sistemi.

  - Uşaq və ədəbiyyatı və incəsənəti
  - İstehsal olunan oyun və oyuncaqlar
  - Uşaq təşkilatları, klub və düşərgələr
  - Kollektiv tərbiyə texnologiyaları

- *Kütləvi ümumtəhsil məktəbi*

▪ Şagirdlərin elmi biliklərin əsasları, ətraf aləm haqqında dini və fəlsəfi təsəvvürlərə, insanların kollektiv həyat fəaliyyətinin tarixi sosial-mədəni təcrübəsinin mənimsənilməsi sistemi

- *Kütləvi informasiya vasitələri*

▪ Əhaliyə aktual informasiyanın və ya bu informasiyanın şərhininötürülməsi,

yəni,bu və ya digər problemlər üzrə "sifarişçinin" maraqlarına uyğun
ictimai fikrin formalaşdırılması sistemi.

*Milli (dövlət) ideologiya və təbliğat sistemi*

- Əhalinin siyasi və ideoloji baxışlarının nəzarətini həyata keçirən, onların şüurunu hakim dairələrin marağına uyğun istiqamətləndirən, insanların siyasi səbatlılığını və arzu edilən elektoral davranışını təmin edilməsi üzrə cəmiyyətin mobil hazırlığını təmin edən vətənpərvərlik tərbiyəsi sistemi.

*Kütləvi sosial mifologiya*

- Mürəkkəb mədəni dəyər, fakt və hadisələr arasında səbəb və nəticə əlaqələrinin təhlili əvəzinə, infantil təzahürlü neqativ emosiyalar yaradan, insanları irqi, etno-milli, dini, təşkilat və digər əlamətlərinə görə qarşı-qarşıya qoyub, qarşıdurmaya səbəb olan fantastik izahatlar verən millətçi şovinist ideologiya və sosial demaqogiya.

*Kütləvi siyasi hərəkat*

- Əhalinin böyük hissəsinin hakim və ya müxalifətçi siyasi elita tərəfindən kütləvi siyasi aksiyalara cəlb edilməsi məqsədi ilə keçirilən siyasi-ideoloji, partiya və gənclər təşkilatları, kütləvi-siyasi manifestasiyalar, nümayişlər və siyasi kompaniyalar.

*Kütləvi istehlak ehtiyacının stimullaşdırılması və təşkili ə sistemi*

- İctimai şüurda prestij maraq və tələbatlar, obraz və həyat tərzininin standartlarını formalaşdırmaqla, "Elitar"nümunə formalı modellərin uyğun quymətlə kütləviləşdirilməsi yolu ilə sıravi istehlakçının maraqlarını idarə etmək və onu müxtəlif sosial nemətlərin fasiləsiz istehlakı prosesinə cəlb etməklə həyatının məqsədinə çevirmək..

- Əşya, ideya, xidmət və s. ətrafında marağı yaradan reklam, moda, dəb və digər vasitələrdən istifadə edilməsinə əsaslanır.

*Fərdin fiziki imkanlarının yaxşılaşdırılması və imicinin formalaşdırılması sənayesi*

- İnsanın fiziki imkanlarını hakimiyyətin ideoloji istiqamətinə, gender ehtiyacına və ya aktual dəbə uyğun standartlaşdıran ümumi xidmət sənayesinin xüsusi sahəsi.
    - Kütləvi fiziki hazırlıq hərəkatı
    - Kulturizm
    - Aerobika
    - İdman turizmi
    - Fiziki reabilitasiya üzrə xidmət sənayesi
    - Tibbi xidmət və dərman vasitələri ilə xarici görünüşün dəyişdirilməsi sahəsi və s.sahəsi

*Kütləvi bədii mədəniyyəti əks etdirən asudə vaxt sənayesi*

- Müasir informasiya vasitələrindən istifadə etməklə, əhalinin asudə vaxtının əyləncəliliyini nəzərdə tutan məhsulların istehsalı və tirajlaşdırılması sistemi. Adi mədəniyyətin daşıyıcısı olan geniş kütləni elitar mədəniyyəti anlayıb mənimsəməyə uyğunlaşdırmaq yolu ilə əhalinin inkulturasiya və akkulturasiyasına yardım edir.
    - Macəra, fantastik və "bulvar" ədəbiyyatı
    - Kinonun əyləncəli janrları
    - Təsviri incəsənətdə karikatura və komikslər
    - Operetta
    - Estrada, rok və -pop musiqi
    - Estrada xoreoqrafiyası və səhnəqrafiya
    - Konferans və səhnənin digər qiraət janrları
    - Şou sənayesinin sintetik növləri
    - Bədii kiç

- İncəsənətin müxtəlif növlərində siyasi təşviqat və ideoloji razılaşdırılmış əsərlər
- Peşəkar idman tamaşaları

• *Mədəniyyətin tarixi tipləri*

## MƏDƏNİYYƏTİN TARİXİ TİPLƏRİ

***Mədəniyyət tarixi aşağıdakılarla təqdim olunur:***

♔ İlahi ədəbiyyatda (Avqusyin və Bossyue) xristian tarixinin əhəmiyyətli mərhələləri və ya peyğəmbərlərin xronologiyası kontexstində

♔ Elmi yanaşma bəşəriyyət tarixini iki dövrə bölür:

✓ Müasir insan genotipinin formalaşması ilə əlaqədar olan antropogenez.Antropogenez dövrü 2,5-1,7 milyon ildən 40-50 min il əvvəl olan tarixi zaman kəsiyi ilə qeyd olunur.

✓ "Homo sapiens" tipli insanın sosial inkişafı ilə əlaqədar olan sosiogenez. Morqan və

Engelsin konsepsiyalarına görə sosiogenez və ya insanın mədəni inkişaf dövrü üç dövrə

bölünür: vəhşilik,barbarlıq və sivil dövr.

- Vəhşilik dövrü b.e.ə.8-9-cu minillikdə dulusçuluq dairəsinin kəşf edilməsi və bişmiş qidaya keçidlə tamamlanır.
- Barbarlıq dövrü, şərti olaraq, b.e.ə. IV minilliyin sonunda ilk sivilizasiyaların yaranması ilə tamamlanır.
- Sivil dövr b.e.ə.IV və III minilliyin əvvəllərinə aid olub, Şumer və Misirdə ilk şəhər-dövlətlərin yaranması ilə əlaqədardır.

## DÜNYA MƏDƏNİYYƏTİ TARİXİNİN DÖVRLƏŞDİRİLMƏSİ

1. Ibtidai icma cəmiyyəti mədəniyyəti – b.e.ə.IV minilliyin sonuna qədər:
2. Quldarlıq cəmiyyəti mədəniyyəti (qədim sivilizasiyalar və antik dövr) - b.e.V əsrinə qədər;
3. Feodalizm mədəniyyəti – b.e. XIII əsrinə qədər;
4. İntibah və İslahatlar dövr mədəniyyəti – b.e. XVII əsrinin əvvəlinə qədər;
5. Yeni Dövr Mədəniyyəti və ya burjua cəmiyyəti mədəniyyəti – b.e. XVII – XIX əsrlər;
6. XX və XXI əsrin əvvəllərində müasir dünya mədəniyyəti ( müxtəlif tarixi mədəniyyət tiplərinin sintezi).

## *MƏDƏNİYYƏT NÖVLƏRİNİN TARİXİ, SOSİAL VƏ SİYASİ TİPLƏRİ*

- Ibtidai icma mədəniyyəti
- Quldarlıq mədəniyyəti
- Feodal mədəniyyəti
- Monarxiya mədəniyyəti
- Burjua mədəniyyəti
- Aristokrat mədəniyyəti
- Xalq mədəniyyəti
- Elitar mədəniyyət
- Kütləvi mədəniyyət
- Etnik mədəniyyət
- Milli mədəniyyət
- Dini mədəniyyət
- Dünyəvi mədəniyyət
- Şəhər mədəniyyəti
- Kəndli mədəniyyəti
- Fərdi mədəniyyət
- Korporativ mədəniyyət
- Kapitalist mədəniyyəti

- Sosialist mədəniyyəti
- Sovet mədəniyyəti
- Kommunist mədəniyyəti
- Totalitar mədəniyyət
- Aliqarx mədəniyyəti
- Avtoritar mədəniyyət
- Demokratik mədəniyyət
- Vətəndaş cəmiyyəti mədəniyyəti
- Antik mədəniyyət
- Absolyutizm mədəniyyəti
- İntibah mədəniiyyəti
- Maarifçilik mədəniyyəti
- Bürqer mədəniyyəti

• ***Mədəni tərəqqi və mədəni inqilablar***

## MƏDƏNİ TƏRƏQQİ VƏ MƏDƏNİ TƏNƏZZÜL

Bəşəriyyətin sosial-mədəni inkişafının tarixi prosesi dialektik ziddiyyətlərlə səciyyələnir və mədəni tərəqqi və mədəni tənəzzül hadisələrinin məcmuu kimi çıxış edərək, konkret cəmiyyət və ya sivilizasiyanın proqressiv inkişaf sürətini müəyyənləşdirir.

*Mədəni tərəqqi* nisbətən kamildən daha kamilə doğru istiqamətlənən inkişaf prosesidir. Mədəni tərəqqinin səviyyəsi yaradılan mədəni dəyərlərin kəmiyyət və keyfiyyəti, onların yayılma miqyasları və cəmiyyətdə onların mənimsənilmə dərinliyi ilə ölçülür.Tərəqqinin vəziyyətini həm mədəniyyətin ümumi sistemi, həm də onun ayrı-ayrı alt sistemləri səciyyələndirir. Mədəniyyətin ümumi tərəqqisi onun ayrı-ayrı sahələrinin geriləməsi, hətta tənəzzülü ilə müşayiət oluna bilər ki, bu da təbii prosesin dialektik xarakteri ilə izah olunur. Mədəni proses, tarixən, insanın intellektual fəaliyyəti, inkişafı və nəticələrin istehsalın artırılması üçün istifadə edilməsində özünü göstərir. Bunu insanın effektiv enerji mənbəyi axtarışı sahəsində qazandığı tarixi uğurların nümunəsində aydın görmək olar: insan enerjisi - heyvan enerjisi- su enerjisi - külək enerjisi- faydalı qazıntılarv enerjisi - atom enerjisi - günəş enerjisi.

*Mədəni tənəzzül* təşkilat səviyyəsinin yuxarıdan aşağıya doğru deqradasiyası, enmə səviyyəsi, öz dövrünü yaşamış forma və strukturlara qayıdış prosesi kimi səciyyələnir. Mədəni tənəzzülün klassik nümunəsi kimi, yazı sisteminin itməsi ilə müşayiət olunan Hindistan happar, Yunanıstanda krito-migen kimi qədim sivilizasiyaların çökməsini nümunə göstərmək olar. Belə bir vəziyyətdə xüsusilə sabit və regenerasiya qabiliyyətli icmaların müəyyən mədəni varislik əlamətlərini saxlaması üçün əlverişli şərait yaranır.

"Mədəni tərəqqi", "mədəniyyət böhranı", "mədəniyyətin tənəzzülü", "mədəni inkişafın qeyri-bərabərliyi" kimi anlayışlarla bərabər, kulturologiyada "mədəniyyətliliyin aşağı həddi" ifadəsi də mövcuddur. Bu, insanın həyata, onun gündəlik formalarına passiv müşahidəçi kimi uyğunlaşmasıdır. Amma mədəniyyətin hüquqi mahiyyəti həyat, inkişaf və sosial tərəqqi naminə insanın yaradıcı qabiliyyətlərini reallaşdıran qurucu fəaliyyətidir. Qurucu fəaliyyət və mədəni mübadilə olmadan o məhv olur.

## ANTİK DÜNYADA MƏDƏNİ TƏRƏQQİYƏ ÜÇ YANAŞMA

Mədəni tərəqqi ideyaları antik dövrün avripa tarixi konsepsiyalarında müxtəlif cür əks olunmuşdur.

*Birinci yanaşma* bizim eradan əvvəl birinci minilliyin əvvəlinə aid edilən, hüquq qaydalarının dağıldığı ibtidai demokratizm dövründə qədim yunan mifoloji təfəkkürü üçün səciyyəvi olan ; bəşəriyyətin mədəni inkişafının yaxşıdan pisə enməsi təsəvvürü idi.

Belə ki, Hesiod bəşər tarixini, bir-birini ardıcıl əvəz edən, beş əsrə bölür : qızıl, gümüş, mis, qəhrəmani və dəmir. Hesiodun düşüncəsinə görə bu, *əks işarəli təkamül* olaraq, insanların mənən pozulması, pozğunlaşması və tədricən pisləşməsidir.

I minilliyin ortasında Yunanıstanda yaranmış *stientist təfəkkürün* inkişafı ilə əlaqədar olan ikinci yanaşma, *bəşəriyyətin birbaşa tərəqqisi prinsipi* üzərində qurularaq, bədbin mənzərəni optimizmlə əvəz edir.

♔ Biz belə fəlsəfi baxışı, bəsitlikdən, Prometeyin insan övladına öyrətdiyi, sənət və elmə doğru inkişaf prosesini Esxilin "Zəncirlənmiş

Prometey"-ində görürük. Burada *ilahi mənşəli mədəni qəhrəman* mədəni dəyişikliklərin yaradıcısı kimi çıxış edir.

♔ "İnsan cəmiyyətinin ilkin vəziyyəti haqqında" əsərində, *mədəni nemətləri allah və qəhrəmanların bəxşişi* adlandıran Protaqordan sonra, insan mədəniyyətinin təkamülünə belə bir baxış, Platon fəlsəfəsində də özünü göstərir.

*Üçüncü yanaşma,* e.ə. I minilliyin ortalarında mədəni tərəqqini *insanın özünün yaradıcılığı* kimi nəzərdən keçirən ziddiyyətli baxışları əks etdirir.

♔ E.ə.V əsrdə Ksenofon iddia edirdi ki, allahlar insanlara başlanğıcdan heç nə anlatmır, insanlar yaxşı olanı tədricən axtararıb tapırlar.

♔ Bu ideya qədim yunan filosofu, qədim dünyanın dahi materialisti Demokritin fəlsəfəsində öz ardıcıl inkişafını tapmışdır.Ümumilik kosmos və insan tarixini nəzərdən keçirən *Demokrit zəruri ehtiyac və tələbatı ictimai inkişafın başlıca hərəkətverici qüvvəsi hesab edirdi.*

Demokritin, vəhşi dövrdən onun müasiri olduğu həyat tərzinə qədər, insan təkamülünə aid baxışları tarixçi Diodor tərəfindən şərh edilmiş, sonralar isə Lukretsi Karın "Şeylərin təbiəti haqqında" əsərində öz parlaq ifadəsini tapmışdır. Bu məşhur əsərdə zooqoniya və antropoqoniyadan sonra, ibtidai insanın həyatı və mədəniyyətinin mühüm təzahürləri olan – dil, hüquq və dinin mənşəyi bütün təfsilatı ilə səciyyələndirilmişdir.

## SOSİAL – MƏDƏNİ İNQİLABLAR

*intellektual və mənəvi yeniliklərə əsaslanır*

Qeyri-bərabər inkişafın fasiləsiz dialektikası olan mədəni təkamül prosesində bəşəriyyətin tarixi taleyinə mahiyyət və əhəmiyyətcə təsir göstərən bir çox *mədəni inqilablar* baş verir. Qlobal (minillik) regional və ya lokal səciyyə daşıyan bu inqilablar, hər şeydən əvvəl, *ideoloji, maarifçilik və texnoloji xarakterli* məsələlər qoyur və həll edir. Bunlara - milli maraqlara və zamanın

tələblərinə cavab verən, dünya mədəni təcrübəsini, təhsil şəbəkəsinin inkişafını, xalq kütləsinin tərbiyəsi və maariflənməsini nəzərə alan, şəxsiyyətin elmi dünyagötüşünün formalaşdırılmasına, elm, texnika və texnologiyanın tərəqqisinə şərait yaradan, iqtisadi çiçəklənməni və cəmiyyətin rifahını təmin edən yeni ideologiyanın formalaşdırılması aiddir. Bu vəzifələrin yerinə yetirilməsi dövlət tərəfindən uyğun hüquqi sənədlər, təşkilati tədbirlər və maddi şərtlərlə təmin edilir. Onların, bu və ya digər formada, insan şüuru, intellekti və dühasının məhsulu olması, *mədəni inqilabların əsas xüsusiyyətidir.* Dünya mədəniyyət tarixinə, bu və ya digər intellektual və mənəvi yeniliklərə əsaslanan, paleolitik, aqrar, intellektual, dini-ruhani, iqtisadi, elmi-texniki və digər inqilablar məlumdur.

♔ paleolitik inqilab - 50-40 min il əvvəl:

- antropogenezdən sosiogenezə keçid və "Homo Sapiens" tipli insanın yaranması.

♔ aqrar (neolitik) inqilab - b.e.ə.8-5-min il əvvəl:

yeyinti məhsullarının istehsalı və yığıcılıqdan istehsal iqtisadiyyatına keçid;

- təsərrüfat və sosial təşkilatçılıq və idarəetmə təcrübəsinin toplanması;
- elm rüşeymlərinin sosial institut kimi formalaşması;
- dəyişən sosial-siyasi şəraiti əks etdirən, yeni ideoloji qanunların formalaşması;
- mədəniyyətin epoxal tipini ifadə edən, bəşəri inkişafda keyfiyyətcə yeni mərhələnin tarixi qanunauyğunluğu olan, sivilizasiyanın yaranmasına gətirib çıxaran, fəal kulturogenez prosesinin başlanması.

♔ qlobal sosial-mədəni inqilab - b.e.ə.IV-III min illik:

- bəşəriyyətin ilk sivilizasiyalarının yaranması;
- dünya mədəniyyətinin qızıl fonduna daxil olmuş Şumer, Misir, Çin, hind və s. sivilizasiyalarda yazı sisteminin yaranması;
- informasiya və yazının inkişafı və yazılması;
- sosial mədəniyyət institutlarından sinifli cəmiyyət və dövlətin yaranması;
- hakimiyyətin institutlaşdırılması və sosial iyerarxiyaya əsaslanan dövlət idarəçiliyi sisteminin yaranması;

- təlim və təhsilin təşkili;
- dini baxış kanonları və hüquqi sistemlərin yaranması;
- incəsənət, dini ayin, tibbi fəaliyyət, xarici siyasət, elmdən qabaqkı və s. institutların yaranması;
- metalurgiya, tikinti, istilik texnikası, dulusçuluq istehsalı və iqtisadiyyatın digər sahələrinə texnoloji proseslərin tətbiqi;
- ictimai istehsalın təşkili və idarə edilməsinin davamı – kooperasiya, əməyin bölünməsi və ixtisaslaşma;
- gəmiqayırma və təkərli ekipajların yayılması hesabına daxili və beynəlxalq ünsiyyət vasitələrinin yaxşılaşdırılması;
- əməyin ardıcıl bölünməsi - əqli əməyin fizikidən, sənətkarlığın əkinçilikdən ayrılması;
- ticarət və mübadilənin genişlənməsi;
- təcrübənin toplanması, möhkəmlənməsi və ötürülməsi, onun fərdidən sosiala çevrilməsi;
- yenilikçi mədəniyyətin konservativ üzərində üstünlüyü.

♔ ilk dini-ruhani inqilablar - b.e.ə.II minilliyin sonu:
- Mərkəzi Asiya və Qafqazda zərdüştlüyün təşəkkülü;
- Misirdə Exnatonun dini islahatları;
- Babilistanda monoteizmin yaranması ilə arxaik dini təsəvvürlərin əsaslı şəkildə dəyişməsi və yeni dini sistemlərə keçid.

♔ dəmir inqilabı – b.e.ə. I minillik
- bəşəriyyətin dəmiri kəşf və istifadə etməsi.

♔ intellektual inqilab – I minilliyin ortası:
- arxaik periodun mifoloji təsəvvürlərini əvəz edən, fəlsəfə əsaslı ruhi mədəniyyətin yüksək səviyyəsinin yaranması.

♔ dini-ruhani inqilablar – b.e.ə.I minillik – b.e.I minilliyi:
- buddizm;
- xristianlıq;
- islam

*monoteizmə keçidin sonu.*

♔ elmi inqilab – XVII əsr Avropada:
- elmin sosial institut olaraq təşəkkülü və müasir elmin əsaslarının yaranması.

♔ sosial-mədəni inqilablar – XVII – XX əsrlər Avropa və Asiyada:

- müasir dünyanın mühüm siyasi institutu olan, demokratiyanın əsasını qoyan, burjua-demokratik i nqilablar.

♔ iqtisadi inqilab – XVIII əsrin sonu:
- İngiltərədə buxar mühərriklərinin ixtira edilməsi.

♔ təbiətşünaslıqda inqilab – XIX əsrin sonu-XX əsrin əvvəli:
- fizika sahəsində nüvənin kəşfi.

♔ SSRİ-də mədəni inqilab – XX əsr 20-30-cu illər:
- Sovet İttifaqının keçmiş respublikalarında əhalinin savadsızlığının aradan qaldırılması, ziyalı kadrların hazırlanması, elm, ali təhsil və incəsənətin güclü potensialının hazırlanması.

♔ elmi-texniki inqilab XX əsr 50-ci illər:
- istehsal gücünün keyfiyyət dəyişikliyində elmin aparıcı faktora çevrilməsi.

♔ texnoloji inqilab – XX əsrin ikinci yarısı:
- yüksək texnologiyaların yaradılmasında fundamental tədqiqatların rolunun artması.

♔ informasiya inqilabı – XX əsrin ikinci yarısı:
- sənaye cəmiyyətindən informasiyalı cəmiyyətə keçidin təzahürü olaraq, bəşəriyyətin sosial həyatının və elmi əməyinin geniş şəkildə kompüterləşdirilməsi.

♔ qlobal sosial-mədəni inqilab – XX-XXI əsrlər:
- müxtəlif xalqların sivilizasiya və mədəniyyətlərinin sintezi, qarşılıqlı təsirinin artması;
- iqtisadiyyat, siyasət, təhsil, incəsənət və ticarətdə inteqrasiya prosesləri;
- dünya mədəniyyətindı vahid informasiya mühitinin formalaşması;
- mədəni rəngarəngliyin saxlanması və yeni translokal mədəniyyətlərin yaradılması;
- lokal və qlobal problemlərin həllində beynəlxalq əməkdaşlığın artması.

İntellektual tərəqqiyə əsaslanan sosial-mədəni nailiyyətlər mədəniyyətlərin yeni tarixi tipinin formalaşmasına təsir edərək, dünya mədəniyyətinin gələcək tərəqqisinə zəmin yaratdı.

*•Sivilizasiyalar*

## SİVİLİZASİYA ANLAYIŞI

Antik tarixi konsepsiyalarda mədəni tərəqqi ideyası ana xətt kimi keçirilməsinə baxmayaraq, bu təkamül sırasında sivilizasiyanın formalaşması ilə əlaqədar olan sərhəd dəqiq qeyd olunmurdu. "Sivilizasiya" sözü, "mədəniyyət" sözü kimi, hələ qədim romalılar tərəfindən işlənmşdir. Onlar barbarların bəsit həyat tərzindən üstün olan şəhər həyat tərzini bu terminlə ifadə edirdilər. İ.Kant, O.Şpenqler, A.Toynbi, M.Veber, F.Koneçnı, L.Qumilyov, L.Meçnikaov və digərləri sivilizasiyanın mahiyyətini mədəniyyətdən fərqləndirən əsas cəhətləri göstərmək üçün müxtəlif mülahizələr irəli sürmüşlər. Yaradıcı və qurucu prosesi ifadə edən mədəniyyət anlayışından fərqli olaraq, "sivilizasiya" bəşər tarixinin müxtəlif mərhələlərinə xas olan dağıdıcı və neqativ prosesləri də özündə dialiktik şəkildə əks etdirən tarixi sosial-mədəni birlik anlamında işlənir. Keçən minilliklərin sivilizasiya zirvələrinə aparan tikanlı yollar al qana boyandığı kimi, indiki sivil dünyada da zorakılıq, qəddarlıq və dağıntılar mövcuddur. Bununla belə, cəmiyyətin keyfiyyət vəziyyətini və daxilindəki mədəniyyətlərin tarixi inkişafındakı qeyri-bərabərliyi əks etdirən sivilizasiya, tərəqqi yolunda qabaqlama tendensiyalı hərəkəti ilə bəşəriyyətin mədəni inkişaf prosesinin bütövlüyünü sübut edir.

Sivilizasiya sözünün kökü latın mənşəlidir. Latınca "civis" sözü - "vətəndaşlıq", "şəhər əhalisi", "vətəndaşlar", "icma" mənasını verir. Bu söz avropa elminə və ədəbiyyatına XVIII əsrdə, ümumi mədəni inkişaf səviyyəsinin ifadəsi kimi daxil olmuşdur. O zaman bu anlayışa davranış normaları, tərbiyə, nəzakət də daxil edildiyindən, indi də işlədilən "sivil insan" ifadəsi həmin mənanı saxlamaqdadır. XIX əsrin 20-30-cu illərində "sivilizasiya" anlayışı böyük tarixi hadisələr, xalqların tarixi nailiyyətləri, insan yaradıcılığının sintetik ifadəsi olaraq tətbiq edilirdi.Bu anlayışın yayılması və təsdiq edilməsi üçün fransız tarixçisi F.Qizo, eləcə də H.Boklun Avropa, Fransa və İngilis sivilizasiya tarixinə həsr edilmiş tədqiqatları mühüm rol oynamışdır.

XİX əsrin əvvəllərində F.Qizo sivilizasiyanın etno-tarixi konsepsiyasını yaratmış və göstərməyə çalışmışdır ki, real həyatda insanların sosial-mədəni nailiyyətlərinin cəmi olan vahid ümumbəşəri sivilizasiyalarla yanaşı, ayrı-ayrı ölkə, region və xalqların etno-milli nailiyyətlərini əks etdirən lokal sivilizasiyalar da mövcuddur.

Sivilizasiyaların dövrləşdirilməsinə yanaşmada müxtəlif mövqe nümayiş etdirən alimlərdən - Q.B.F.Hegeli, S.Solovyovu, K.Marksı, K.Yaspersi, M.Veberi, P.Çaadayevi, N.Berdyayevi, R.Henonu, M.Petrovu və s. qeyd etmək olar. Bunların arasında ən geniş yayılmışı K.Yaspersin "məhvər sivilizasiyaları" konsepsiyasıdır ki, burada, o, arxaik dövrün mifoloji təsəvvürünü əvəz edib, fəlsəfənin üstünlüyünə əsaslanan yüksək ruhi mədəniyyətli "məhvər" sivilizasiyaların yaranma tarixini b.e.ə.I minilliyin ortasından hesablanmasını təklif edir.

## *SİVİLİZASİYALAR HAQQINDA TƏSƏVVÜRLƏRİN İNKİŞAFI*

♔ XVIII əsr

☺ əxlaq normaları, tərbiyə və nəzakət daxil olmaqla, mədəni inkişafın ümumi səviyyəsini ifadə edirdi.

♔ XIX əsr

☺ böyük tarixi hadisələr, xalqların tarixi nailiyyətləri, insan yaradıcılığını ifadə edirdi;

☺ bütövlükdə insanların sosial-mədəni nailiyyətlərinin cəmi olan vahid bəşəri sivilizasiyasını ifadə edirdi.

☺ "mədəniyyət" termini ilə eyniləşdirilirdi, insan birliyini ifadə edirdi;dünya mədəniyyəti vahid sivilizasiya kimi mənimsənilirdi;

☺ belə bir müddəa qəbul olunurdu ki, sivilizasiya mədəni inkişafın müəyyən mərhələsində, bəşəriyyətin təkamülünün keyfiyyət göstəricisi kimi formalaşmışdır;

☺ ayrı-ayrı ölkə, xalq və regionların sosial-mədəni inkişafının səviyyə və formasını, etno-mədəni nailiyyət və xüsusiyyətlərini ifadə edən "etno-tarixi" sivilizasiya konsepsiyası qəbul edilmişdi.

♔ XX əsr

☺ sivilizasiyanın "etnoqrafik" konsepsiyası formalaşmağa başladı ki, onun da mahiyyətini hər bir xalqın öz sivilizasiyası olması müddəası təşkil edirdi;

☺ üç əsas yanaşma qəbul edildi:

- unitar
- mərhələli
- lokal-tarixi

## İLK SİVİLİZASİYALARIN ƏLAMƏTLƏRİ

*İLK SİVİLİZASİYALARIN ON ƏLAMƏTİ*

Q.Çaylda görə

- şəhərlər;
- monumental ictimai tikililər;
- vergi və xərac;
- ticarət də daxil olmaqla intensiv iqtisadiyyat;
- peşəkar-sənətkarların ayrılması;
- yazı;
- elmin rüşeymləri;
- inkişaf etmiş incəsənət;
- imtiyazlı siniflər;
- dövlət.

*İLK SİVİLİZASİYALARIN ÜÇ ƏLAMƏTİ*

k.Klakxona görə

- monumental arxitektura;
- şəhərlər;
- yazı.

## LOKAL-TARİXİ SİVİLİZASİYALARIN FƏRQLİ XÜSUSİYYƏTLƏRİ

- təbii-coğrafi şərait;
- cəmiyyətin sosial-mədəni kodu;
- din;
- həyat tərzi;
- elmi-texnoloji inkişafın xarakteri;
- təşkil və idarəetmənin texnologiyaları;
- füquqi sistem;
- etnik-tarixi xüsusiyyətlər.

- ***İnkişaf dinamikası və mədəniyyətin tədqiqi***

## MƏDƏNİYYƏTİN İNKİŞAF DİNAMİKASININ TƏHLİLİ

*Mədəniyyətin inkişaf dinamikası hər bir mədəniyyətdəki universalla konkret-tarixinin, ümumbəşəri ilə milli-spesifikin, ümumi ilə xüsusinin, realla idealın nisbəti ilə şərtlənir.*

*Mədəni-tarixi prosesin dinamikasını öyrəlmək üçün mədəniyyət nəzəri və konkret tarixi baxımdan tədqiq edilməlidir.*

*Nəzəri təhlil - aşağıdakı müddəalara əsaslanır:*

- Mədəniyyətin inkişaf səviyyəsi və istiqaməti sosial mühitin şərtləri, cəmiyyətin mövcud imkanları reallaşdırma üsulları və dərəcəsi ilə müəyyən edilir.
- Mədəniyyətin inkişafı avtomatik yox, insanın yaradıcı fəaliyyəti, onun bilik, bacarıq, mütəşəkkillik və ruhi səviyyəsi ilə əlaqədar baş verir.
- Mədəniyyətin qabaqlayıcı inkişafı, lokal mədəniyyət və onun sahələrinin böhran və tənəzzülü ilə birgə, dünya tarixi-mədəni prosesinin ümumi tendensiyası kimi nəzərdən keçirilir.

*Konkret-tarixi təhlil dörd istiqamətdə qruplaşır:*

- İnsanın konkret tarixi şəraitdə keçən həyat-fəaliyyətinin sosial-mədəni prosesləri.
- İnsanların tarixi dövrün sosial şəraiti və konkret idrak mexanizmlərinin tədqiqi.
- Cəmiyyətin dəyər iyerarxiyasının dəyişməsi və saxlanması üçün istifadə olunan üsulların təhlili.
- Arxaik mədəni dəyər, nümunə və institutların bərpa edilməsi və ya yenilərinin yaradılması prosesinin öyrənilməsi.

## MƏDƏNİYYƏTİ TƏDQİQ ETMƏYİN ƏSAS ÜSUL VƏ PRİNSİPLƏRİ

Kulturologiyanın əsas idrak metodu, mədəniyyəti bütöv sosial sistem kimi, *dialektik əlaqəli tədqiqat prinsiplərin* birliyi əsasında fənlərarası, kompleks öyrənməyə imkan verən sistemli yanaşmadır:

- *müəyyən tarixi dövrdə konkret cəmiyyətin xüsusiyyətlərini və effektivliyini aşkarlamağa imkan verən mədəniyyətin* keyfiyyət təhlili;
- *mədəniyyətin inkişafının fəaliyyət, keyfiyyət və proqnozlaşdırma səciyyəsini qiymətləndirmək üçün zəruri olan* kəmiyyət təhlili;
- *mədəniyyətin ayrı-ayrı sahələri və onların qarşılıqlı əlaqələrinin bütöv mədəniyyət orqanizmində araşdırılmasını nəzərdə tutan* struktur təhlil;
- *mədəniyyətin ekstrosomatik sistemli fəaliyyətini təmin edən praqmatik səciyyələrin , mahiyyətlərin dərk edilməsi ilə əlaqədar olan hadisələrin, mədəniyyətin predmet və hadisələrinin* funksional təhlili;
- *mədəniyyətin inkişafını müəyyən zaman ərzində tədqiq edilməsini nəzərdə tutan* genetik-tarixi təhlil;

♔ *müəyyən coğrafi ərazidə mədəniyyətin vəziyyət və inkişafını nəzərdə tutan* məkani təhlil;

*müxtəlif mədəniyyətlərin ümumi cəhət və səciyyəvi xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verən* müqayisəli təhlil.

## KURTULOGİYANIN METODOLOGİYASININ MƏQSƏD, MAHİYYƏT VƏ İMKANLARI

Mədəniyyəti dərk etməyin elmi metodları haqqında təlim olan kulturologiya:

- insan, cəmiyyət, dövlət və bütövlükdə bəşəriyyətin mədəniyyətinin xüsusiyyətləri, inkişaf qanunlarını və tarixini öyrənib mənimsənilməsinə *yönəlmişdir;*
- başlıca olaraq, tarix, məntiq, dialektika, ontologiya, qnoseologiyanın universal metodik meyarlarına *istinad edir;*
- tarix, fəlsəfə, məntiq, psixologiya, etnoqrafiya, arxeologiya, coğrafiya, dilçilik, sosiologiya, etika, estetika, elmşünaslıq, dinşünaslıq, politologiya, futurologiya və digər elm sahələri və fənlərin fakt, qanun və nailiyyətlərinin, mədəni hadisələrinin kompleks fənlərarası öyrənilməsi və seçilməsini nəzərdə tutan biliklərin analiz və sintezinə *istiqamətlənir;*
- mədəniyyətə elmi əsaslarla yanaşmağa yardım edən, abstrakt-məntiqi və konkret - tarixi builiklərin uyğunlaşdırılması yolu ilə çoxölçülü tarixi proses olan mədəniyyətin bütöv sisteminin kompleks sahələrarası tədqiqini *təmin edir;*
- bəşəriyyətin mədəni təcrübəsi əsasında ətraf aləmin proqressiv dəyişdirilməsi üçün insanı zəruri biliklərlə *silahlandırır.*

● *Kulturoloji təhsil*

## *KULTUROLOJİ TƏHSİL : MAHİYYƏT, VƏZİFƏ VƏ SƏVİYYƏSİ.*

*Kulturoloji təhsilin vəzifəsi* ruhi və maddi mədəniyyətin inkişaf nəzəriyyəsi və praktikası , insanın həyat fəaliyyətinin texnologiyaları sahəsində xüsusi bilik və bacarıqlara malik şəxsiyyət, lider və ekspertlərin formalaşdırılmasıdır.

*Kulturoloji təhsil*

- sosial terapiya və ziddiyyətlərin profilaktikası, şəxsiyyətin ruhi ekologiyasının formalaşdırılması, sülh mədəniyyəti, hüquqi və gender mədəniyyəti, resurs və gəlirin paylanması mədəniyyəti, eləcə də, bəşər təhlükəsizliyinin əldə edilməsinə istiqamətlənən mədəniyyət və maraqların uyğunlaşma prosesinin zəruri əsası kimi *çıxış edir.*
- gənc nəslin potensial istedad və qabiliyyətinin *inkişafının innovasiya prosesidir.*
- aşağıdakı sahələr üzrə universal və xüsusi elmi biliklərin cəmiyyətə ötürülməsi işinə xidmət edir:

- ▫ xalqın mədəniyyət tarixi və bəşəriyyətin həyat fəaliyyətinin texnologiyaları.
- ▫ Etik mədəniyyət
- ▫ Hüquq mədəniyyəti
- ▫ Estetik və bədii mədəniyyət.
- ▫ Ekoloji və tibbi mədəniyyət.
- ▫ Demokratiya və vətəndaş cəmiyyətinin siyasi mədəniyyəti.
- ▫ Sülh mədəniyyəti və gender mədəniyyəti.
- ▫ İqtisadi inkişaf və biznes etikası mədəniyyəti.
- ▫ Ətraf aləmin mühafizəsi mədəniyyəti.
- ▫ Xalqlar-millətlər-dinlərarası münasibət mədəniyyəti.
- ▫ Yoxsulluq, korrupsiya və terrorizmin aradan qaldırılması mədəniyyəti.
- ▫ Məsuliyyət mədəniyyəti.
- ▫ Qidalanma və istehlak mədəniyyəti.
- ▫ Dövlət, sosial və qlobal idarəetmə mədəniyyəti.
- ▫ İnnovasiyalı mədəniyyət.

# KULTUROLOJİ TƏHSİLİN İMKANLARI VƏ GÖZLƏNİLƏN NƏTİCƏLƏR

- BMT və YUNECKO –da qəbul edilmiş beynəlxalq norma və dəyərlər, etik prinsiplərin dünyada təsdiqi.
- Cəmiyyətin həyati maraqlarına cavab verən düzgün sosial-mədəni siyasətin formalaşdırılması.
- Cəmiyyətin sosial-siyasi kapitalı olan - yüksək mədəniyyətli, zəruri bilik və bacarıq səviyyəsinə, məsuliyyət və müstəqilliyə, mənəviyyat və yaradıcı fəaliyyətə malik vətəndaşların formalaşması.
- Sosial və və hümanitar elmlərin metodlarına bəzən tabe olmayan mürəkkəb sosial-siyasi problemləri düzgün konseptual görmək, diaqnoz etmək, strateji planlaşdırmaq və sistemli həll etmək.
- Gələcəyi düzgün görmək.
- Mənəvi insani - şəxsiyyətlərarası, etnik, dini, beynəlxalq münasibətlərin təsdiqi. Ümumbəşəri mədəni dəyərlər əsasında mədəni eyniliyin formalaşması.
- Cəmiyyətdə böhranların aradan qaldırılması və sosial təhlükəsizliyin əldə edilməsi.
- Müharibə, qarşıdurma, terrorizm, zorakılığın struktur və digər formalarının qarşısının alınması.
- Ənənəvi mədəniyyətlərin modernləşdirilməsinin təmin edilməsi.
- Demokratiya və vətəndaş cəmiyyəti mədəniyyətinin inkişafı.
- Sülh mədəniyyətinin inkişafı.
- Mədəni əhalinin qorunması.
- Mədəni müxtəliflik və mədəni özünəməzsusluğun qorunması.İntellektual məddəniyyətin inkişafı.
- İntellektual mədəniyyətin inkişafı.
- Etik mədəniyyətin inkişafı.
- Bədii mədəniyyətin inkişafı.
- İdarəetmə mədəniyyətinin inkişafı.
- İqtisadi mədəniyyətin inkişafı.
- Hüquqi nmədəniyyətin inkişafı.
- Məsuliyyət mədəniyyətinin inkişafı.

- İstehlak mədəniyyətinin inkişafı.
- Siyasi mədəniyyətin inkişafı.
- İnformasiya mədəniyyətinin inkişafı.
- Sahibkarlıq və işgüzar ünsiyyət mədəniyyətinin inkişafı.
- Ekoloji mədəniyyətin inkişafı.
- Gender mədəniyyətinin inkişafı.
- Beynəlxalq əməkdaşlığın inkişafı.
- Sosial mədəniyyətin bərqərqr olması.
- Əhalinin yüksək sosial fəallığına nail olmaq.
- İnnovativ fəaliyyətin inkişafı.
- Düzgün sosial, siyasi və iqtisadi qərarların ekspertizası və elmi təmin edilməsi.
- Sabit texnoloji və sosial-iqtisadi inkişaf.
- Cəmiyyətin həyat keyfiyyəti və maddi rifahının artması.
- Korrupsiyanın azaldılması.
- Yoxsulluğun aradan qaldırılması.
- Əhalinin sağlamlığının qorunması və uzunömürlülüyün artırılması.
- Siyasi stabilliyə nail olunması.
- Müdafiə qabiliyyətinin artırılması.

## *SİSTEMLİ KULTUROLOJİ TƏHSİLİN NİSBİ ÜSTÜNLÜKLƏRİ*

**dövlət, sosial və qlobal idarəetmə sisteminin təkmilləşdirilməsi sahəsində**

*aşağıdakılar üçün yeni imkanlar açır:*

- müasir həyatda sosial və humanitar elmlərin ənənəvi metodlarına tabe olmayan mürəkkəb sosial və humanitar elmlərin metodlarına tabe olmayan mürəkkəb sosial-siyasi problemləri düzgün konseptual görmək, planlaşdırmaq və sistemli həll etmək;
- bəşəriyyətin intellektual və etik inkişafı prosesində YUNESKO-nun aparıcı rolunun canlandırılması;
- BMT və YUNESKO-nun sənədlərində əks olunmuş – azadlıq idealı, bərabərlik, sosial ədalət, və insan hüquqları kimi etik

prinsip, dəyər və beynəlxalq normaların bütün dünyada təsdiq edilməsi;

- bütün dünyada şəxsiyyətə hörmət, ləyaqət və məsuliyyət mədəniyyəti kimi universal dəyərlərin təsdiq edilməsi;
- bəşəriyyətin stabil və təhlükəsiz inkişafı üçün zəruri olan qlobal siyasət və idarəetmənin demokratikləşdirlmə və hümanistləşdirilməsi, mədəniyyət, maraq və dəyərlərin harmoniyasına istiqamətlənən yeni strategiya və modellərin yaradılması;
- xalqların mədəni müxtəliflik, mədəni özünəməxsssusluq və milli irsinin qorunması;
- sülh mədəniyyəti və gender bərabərliyinin, dünya mədəniyyətində destruktiv halların və böhranların aradan qaldırılması, terrorizm, konflikt və zorakılığın bütün formalarının aradan qaldırılması;
- Şərq və Qərb mədəni dəyərlərinin sintezinə, bəşəriyyətin ümumi maraqlarına cavab verən, demokratiyanın universal dəyər prinsipləri əsasında sivilizasiyaların dialoquna və əməkdaşlığına, müxtəlif xalqların mədəniyyət və maraqlarının harmonizasiyası;
- demokratiya və vətəndaş cəmiyyətinin sosial və siyasi mədəniyyətinin inkişafı, beynəlxalq münasibətlər və idarəetmə mədəniyyəti səviyyəsinin yüksəldilməsi;
- iqtisadi mədəniyyət, iştehsal, istehlak və kommunikasiya mədəniyyətinin inkişafı;
- qeyri-hökumət təşkilatları, icma, həmkarlar, bələdiyyə və s. vətəndaş cəmiyuyəti strukturlarının və sosial fəallığın inkişafı;
- milli səviyyədə düzgün siyasi, sosial və iqtisadi qərarların qəbul edilməsi və bununla da:

♔ *milli mdəniyyətlərin ardıcıl modernləşdirilməsi və demokratikləşdirilməsi;*

♔ *konfliktlərin sosial terapiyası və profilaktikası şəxsiyyətin ruhi ekologiyasının, sülh, hüquq mədəniyyətinin formalaşdırılması;*

♔ *korrupsiyanınazaldılması, yoxsulluğun aradan qaldırılması, cəmiyyətin rifahı və sabit inkişaf*

*səviyyəsinin yüksəldilməsi;*

♔ *sosial və ekoloji təhlükəsizlik, ətraf aləmin mühafizəsi səviyyəsinin artırılması.*

- ***Mədəni siyasət***

## SOSİAL-MƏDƏNİ SİYASƏTİN MÜHÜM PROBLEMLƏRİ

- Pozitiv həyat tərzinə istiqamətlənən əsas prinsip və kulturoloji inkişaf konsepsiyasının işlənib hazırlanması.
- Sosial-kulturoloji inkişafın prioritetlərinin və əsas istiqamətlərinin müəyyənləşdirilməsi.
- Sosial-mədəni fəaliyyətin proqram və layihələrinin işlənib hazırlanması.
- Zəruri resursların müəyyənləşdirilməsi (insan, təhsil, elm, maliyyə, iqtisadi, təşkilati hüquqi).
- Geniş profilli yüksək ixtisaslı mütəxəssislərin hazırlanması və onların həyat fəaliyyəti üçün maddi-texniki şəraitin yaradılması.
- Hərtərəfli və xüsusi kulturoloji təhsil, tədqiqat və maarifin təşkili.
- Mütəxəssislərdən məqsədyönlü istifadə, onların yaradıcı fəaliyyət nəticələrinin praktik tətbiqi.
- Sosial mədəniyyətin müxtəlif statuslu subyektlərinin birgə fəaliyyəti və onların əməkdaşlığına, fəaliyyətlərinin koordinasiyasına yardım.
- Ruhi mədəniyyət sisteminin modernləşdirilməsi.
- Mədəniyyət təşkilatları şəbəkəsi və onların fəaliyyətinin effektivliyinin monitorinqi.

• *Mədəniyyət anlayışına elmi yanaşmalar*

## L.A.UAYTIN MƏDƏNİYYƏT KONSEPSİYASI

Kulturologiyanın müstəqil elm kimi formalaşması XX əsrin ortalarında başlamışdır. Ondan əvvəl, insan və insan dünyasını tədqiq edən və kulturologiyanın ilkin nailiyyəti olan - antropologiya, XIX əsrin axırlarında isə sosiumun öyrənilməsi nəticəsində, sosiologiya mövcud olmuşdur. Buna, məkan və zaman daxilində özünəməxsus inkişaf və fəaliyyət qanunauyğunluqları olan, insan mədəniyyətinin bütöv sistemi haqqındakı təsəvvürlər də yardım etmişdir.

Bir elm kimi, kulturologiyanın banisi haqlı olaraq, amerika antropoloqu Lesli Alvin Uayt hesab edilir. Onun 1949-cu ildə nəşr olunmuş "Mədəniyyət haqqında elm" kitabı mədəniyyət və onun qeyri-adi inqilabi dəyişdirici imkanları haqqında keyfiyyətcə yeni, daha yüksək səviyyəli təsəvvürlərin yaranmasına səbəb oldu. O, humanitar biliklər sahəsində yeni ənənələrin formalaşmasına təsir edərək, ictimai elmlərin inkişafına öz zəngin töhfələrini vermişdir.

Uayt *mədəniyyətin,* özünəməxsus prinsip və qanunauyğunluqlarının təsvir olunduğu fenomenlər ardıcıllığından ibarət olması haqqında, *energetik konsepsiyasını* yaratdı. O, mədəni elementlərin qarşılıqlı təsirini və ya bütövlükdə mədəniyyət sistemlərini təhlil edərək, insan mədəniyyətini müxtəlif mədəni ənənələrin məcmuu kimi şərh edir. Bu isə, insan mədəniyyəti inkişafının tarixi qanunauyğunluqlarının diqqətlə nəzərdən keçirilməsinə imkan verir.

Mədəniyyəti bütöv, mütəşəkkil və inteqrativ sistem kimi nəzərdən keçirən Uayt, bir-birinə qeyri-bərabər təsir gücü ilə əlaqədar olan üç altsistem ayırır: texnoloji, sosial və ideoloji.

- Texnoloji (ilkin,əsas,baza) insanın ətraf aləmə uyğunlaşması ilə şərtlənir. Bura əmək alətləri, yaşayış vasitəsi, tikililəri üçün materiallar, mühafizə və hücum vasitələri və s. daxildir.
- İdeolojiyə - ideya, bilik və etiqadlar daxildir.
- Sosiala – kollektiv davranış tipləri daxildir.

Mədəniyyətin artması və inkişafı üçün açar olan texnoloji subsistemlərin fəaliyyəti dinamik və enerji xərcləri ilə əlaqədar olaraq, mədəniyyətin materiya və enerji baxımından izah edilməsinə imkan yaradır. Uayta görə, həyati tələbatların ödənilməsindən ibarət olan, mədəniyyət funksiyası - texnoloji yolla kifayət qədər enerji əldə edib, insanın maraqlarına uyğun istifadə etməkdir.

Uayt mədəniyyətin inkişafının əhalinin il ərzində adam başına işlətdiyi enerjinin miqdarı ilə və ya enerjinin istifadəsinə yardımçı olan əmək alətlərinin (texnologiyaların-F.M.) effektliyinin inkişafı ilə düz mütənasiblik qanunauyğunluğunu meydana çıxarır. Uayt mədəniyyətin inkişafını səciyyələndirən üç universal faktor müəyyən edir: əhalinin adam başına istifadə etdiyi enerjinin miqdarı; insan inkişafı üçün enerji istifadəsinə yardımçı olan texnoloji vasitələrin effektivliyi; insanın tələbatlarının ödənilməsi üçün yaradılmış xidmət və əşyaların həcmi.

Bu faktorların təhlili nəticəsində, o , mədəniyyətin rolunu rifahın inkişafının texnoloji faktoru kimi aşkar edir, mədəniyyətin təkamül qanununu və ya "Uayt qanununu" formulə edir. Bu qanuna görə, tələbatını ödəmək üçün, adam başına düşən məhsul və xidmətlərin miqdarı ilə ölçülən - mədəniyyətin inkişaf səviyyəsi , əhalinin adambaşına istehsal edilmiş enerji və enerjinin istifadəsinə sərf edilən texnoloji vasitələrin effektivliyi ilə müəyyən edilir.

Uayt mədəniyyəti ekstrosomatik (insanın bioloji təbiətindən yüksəkdə duran) "yeni dünya" kimi kəşf etməklə, elmdə yeni addım atdı. Uaytın tədqiqatlarının fundamental nəticələrindən biri o idi ki, insanın mədəniyyəti dəyişdikcə, davranışı da dəyişir $(B = f(C))$. Müəllif əmin idi ki, bu, nə zamansa, elm tarixində Kopernikin heliosentrik nəzəriyyəsi və ya hüceyrənin kəşfi kimi yüksək dəyərləndiriləcəkdir.

Uayt mədəniyyətin tədqiqi üçün, antik müəlliflərin, eləcə də Taylor, Morqan, İbh Həldun, Kant, Herder, Kont və s. alimlərin sosial təkamül nəzəriyyəsinə aid yanaşmalarına istinad edib, özünün, ardıcıl pilləli inkişaf prinsipinə əsaslanan, yeni metodologiyasını yaratdı. O, təkamül, məntiqi və tarixi təhlil prinsiplərini rəhbər tutaraq, bütöv sistem olan mədəniyyətin tədqiqində üç prosesi ayırır:

- Hadisələrin nadir xüsusiyyətlərinin xronoloji ardıcıllığını əks etdirən zamanla bağlı proses.
- Hadisələrin funksional, struktur və zamandan xaric aspektdə təqdim edildiyi formal proses.
- Hadisələrin ümumi xüsusiyyət , universallıqlarını aşkarlamağa imkan verən, proqressiv dəyişən formalarının zaman ardıcıllığı şəklində təqdim edildiyi formal-zamani proses.

Buna uyğun olaraq, o, mədəniyyəti üç üsulla izah etməyi təklif edir: tarixi, funksional, təkamül.

Həyat Uaytın kəşfinin düzgünlüyünü və onun yaratdığı ənənəvi humanitar və sosial elmlərin imkanlarından kənara çıxıb, mürəkkəb elmi və praktik problemlərin keyfiyyətcə yeni səviyyədə həll edilməsinə imkan verən kulturologiya elminin yüksək dəyərini sübut etdi.

Uayt etnologiya, antropologiya, psixologiya və sosiologiya üzrə materialların məntiqi analiz və sintezi əsasında, lokal mədəniyyətlərin komparativ təhlilindən bəşəri mədəniyyətin inkişaf qanunauyğunluqlarının aşkar edilməsinə doğru yol açdı. Amerika aliminin xidməti ondan ibarətdir ki, o, kulturologiyanın predmet sahəsini müəyyənləşdirmiş, mədəniyyət haqqında elm olan "kulturologiya" termininin istifadə edilməsini əsaslandırmış, təkamül prosesini yenidən qiymətləndirmiş, elmi tədavülə mədəniyyətin yeni anlamını gətirmiş və bəşəri mədəniyyətin bütöv sistem kimi tədqiq edilməsinə imkan verən, sistemli yanaşma təklif etmişdir.

## A.MASLOUNUN İNSAN VƏ MƏDƏNİYYƏT KONSEPSİYASI

"Mədəniyyət və insan" haqda humanist konsepsiyanın müəllifi, mədəniyyəti öyrənməyin yeni metodu olan transpersonal psixologiyanın banisi amerika psixoanalitik alimi Avraham Maslou (1908 – 1970) mədəniyyəti insan tələbatı prizmasından təhlil edir.

Lesli Uaytın əsas ideyalarını tamamlayıb inkişaf etdirən A.Maslou, mədəniyyətin kamillik meyarı kimi, onun insan tələbatını ödəməsi və insan potensialının təsdiqi üçün əlverişli şərait yaratması qabiliyyətini müəyyən edir.

Maslou öz konsepsiyasını mədəniyyətin müxtəlif sosial institutlarını anlamaq üçün açar olan universal həyat fəlsəfəsi kimi təqdim etmişdir. Alim xolizm fəlsəfəsini rəhbər tutaraq,tələbatın beş səviyyəsini nəzərdən keçirir:

fizioloji tələblər;

sülh, təhlükəsizlik və özünümühafizəyə olan tələbat;

məhəbbət və birliyə olan tələbat;

özünütəsdiq və etirafa olan tələbat;

özünüaktuallaşdırmaq və yaradıcılıq vasitəsi ilə təkmilləşdirmə tələbatı.

Maslounun işlədiyi "İdeal cəmiyyət" modeli insan şüurunun və sosial mədəniyyət institutlarının humanistcəsinə dəyişdirilməsi ilə insanların özünütəsdiqi, təhlükəsizliyi, qabiliyyətlərin maksimal inkişafı və uyğunluğu prinsipləri üzərində qurulmuşdur.

## L.Y.GERTMANIN MƏDƏNİYYƏT ANLAYIŞINA ELMİ YANAŞMALARI

♔ *Antropoloji yanaşma*

- cəmiyyətin həyatı daxil olmaqla, mədəniyyət anlayışının geniş şərhi ilə səciyyələndirilən və onun ictimai təbiətinin xüsusi qeyd edilməsi ilə fərqləndirilən baxışdan ibarətdir. Antropoloji yanaşmanı avropasentrizmə qarşı mübarizədə yaranıb, mahiyyət etibarı ilə mədəniyyətin istənilən cəmiyyətə xas olmasını özündə əks etdirən "ekvivalent mədəniyyətlər konsepsiyası" adlandırılır. Bu baxımdan, o, relyativist, obyrktivist xarakter daşıyaraq, bəşəriyyətin mədəni tərəqqisi, onun qiymətləndirmə meyarları, mədəniyyətin inkişaf səviyyəsi üzrə məsələləri aradan çıxarır.

♔ *Sosiaoloji yanaşma*

- "mədəniyyət" anlayışına cəmiyyətin bütün həyatını deyil, onun müəyyən tərəfini, bir elementini, hissəsini, başlıca olaraq, ruhi həyatını və məişətini aid edir.

♔ *Fəlsəfi yanaşma*

- abstraksiyanın yüksək səviyyəsi olaraq, "mədəniyyətə" cəmiyyətin sinonimi kimi və ya ictimai inkişafın müəyyən hissəsi, tərəfi kimi

deyil, prosesdən yalnız analitik olaraq ayrılan hadisə kimi baxır. Burada mədəniyyəti "məzmun" və ya " cəmiyyətin ifadəsi" kimi şərh etmək zəruridir.Mədəniyyət anlayışına fəlsəfi yanaşma onu öz ontoloji məzmunundan məhrum edir və onu konkret olaraq öyrənilən tarixi fenomen kimi deyil, bütün ictimai münasibətlərə yayılmış substansiya kimi izah edilir.

## M.B.YEŞİÇ TƏRƏFİNDƏN MƏDƏNİYYƏT KONSEPSİYALARININ SİSTEMLƏŞDİRİLMƏSİ

♔ Konkret-qiymətləndirici
- mədəniyyəti insanlar tərəfindən yaradılmış və yaradılan ruhi və maddi dəyərlərin məcmuu kimi nəzərdən keçirir.

♔ Fəaliyyətyönümlü
- konsepsiya əsasında mədəniyyətin yaranması və inkişafında mühüm faktor olan insan fəaliyyəti durur; insanın özünü də mədəniyyətin öyrənilməsinin konkret sahəsinə daxil edir.

♔ Şəxsiyyət -rəmzi
- mədəniyyəti, ümumilikdə cəmiyyətin mədəni potensialından kənarda, insanın keyfiyyət səciyyəsi, mədəni dəyərləri, mədəni təşkilat və müəssisələr sistemini nəzərdən keçirir.

♔ İcyimai-rəmzi
- mədəniyyəti, inkişafının hər bir mərhələsində cəmiyyətin mədəni səviyyəsi və "mədəniliyi" haqqında fikir yaradan keyfiyyət vəziyyəti kimi başa düşür

♔ İnformativ-işarəvi (semiotik)
- mədəniyyəti işarə və işarə sisteminin və qeyri-irsi informasiyanın məcmuu kimi nəzərdən keçirir.

♔ "Mədəniyyət" və "ruhi istehsal"-ı eyniləşdirən anlayışlar
- mədəniyyəti, əsasən insanın istehsal etdiyi ideya, nəzəriyyə, özü və ətraf aləm haqqında təlim, eləcə də ruhi dəyərlərin paylanması və istehlakı kimi izah edir.

*Q.A.Antipova və A.N.Koçergin tərəfindən*

## MƏDƏNİYYƏT KONSEPSİYASININ SİSTEMLƏŞDİRİLMƏSİ

♔ *Dəyərləndirici (aksioloji)*

- mədəniyyət, həqiqətin mənimsənilməsi prosesində yaradılmış insani dəyərlərin məcmuu, mədəni sərvətlərin yaradılması üzrə nailiyyətlərin keyfiyyət nəticəsi kimi nəzərdən keçirilir. Həqiqətlərin dəyər fenomenləri üzrə mənimsənilməsi, insanı bu və ya digər möhtəşəm vəzifələri yerinə yetirməyə ruhlandırdığına və ruhi fəallığa səbəb olduğuna görə mühüm əhəmiyyət daşıyır. Başqa sözlə, dəyər yanaşması cəmiyyətin mədəni təkmilləşməsində səfərbəredici rol oynayır.

♔ *Elmi (təsviredici)*

- mədəniyyəti, insanın təbiətə, bir-birinə və özünə münasibətlərinin məcmuunda, maddi və ruhi əmək məhsullarında, sosial norma və qurumlar, ruhi dəyərlər sistemində ifadə olunan həyat fəaliyyətinin spesifik inkişaf və təşkil vasitələrində nəzərdə keçirir.

☺ *Elmi və dəyərləndirici yanaşmaların ziddiyyəti ondadır ki, elmi idrak öyrənilən obyektə dəyərləndirici münasibəti aradan qaldırır. İdrakın məqsədi öyrənilən sistemin tabe olduğu və bizim qiymətləndirmədən asılı olmadan işləyən qanunların müəyyən edilməsidir. Elm bu məqsədi reallaşdırarkən, həqiqətlərə yeni baxışlar aşkar edir.*

## V.S.POLİKARPOVUN MƏDƏNİYYƏT ANLAYIŞINA YANAŞMALARININ SİSTEMLƏŞDİRİLMƏSİ

♔ *Sistemli yanaşma*

- mədəniyyəti sosial hadisə və cəmiyyətin universal xüsusiyyəti kimi nəzərdən keçirir. Müəllif ehtimal edir ki, bu yanaşma mədəniyyəti süni surətdə maddi və ruhi mədəniyyətə ayırmaqla, mədəniyyət fenomeninin anlanılmasını məhdudlaşdırır, çünki, yaradıcı proses və mədəniyyətin mürəkkəb daxili quruluşu ilə bağlı problemlər kölgədə qalır.

♔ *Fəaliyyətyönümlü yanaşma*

- mədəniyyəti ya yaradıcı fəaliyyət prosesi, ya da spesifik fəaliyyət üsulu kimi nəzərdən keçirərək, dəyişgən ətraf aləm şəraitində sivilizasiyanın saxlanması və yeniləşməsinə yardım edir. Tədqiqat və lokal mədəniyyət, mədəniyyətin tarixi tipləri, mədəniyyət və sivilizasiya münasibətlərinin əsasını fəaliyyətyönümlü yanaşma təşkil edir.

♔ *Dəyərləndirici ( aksioloji) yanaşma*

- mədəniyyəti, başda insanın özü olmaqla, dəyərlər sistemi kimi nəzərdən keçirir. Mədəni fəaliyyətin məqsədi "Homo Sapiens" saxlanmasıdır. Aksioloji yanaşma onunla fərqlənir ki, o, cənmiyyətin bütün sosial hadisələrini mədəniyyətə aid etməyərək, cəmiyyətin dağıdıcı proseslərini antimədəni adlandırır.

## MƏDƏNİYYƏT ANLAYIŞINA YANAŞMALAR

*H.Hesse* – intellektual, mənəvi və estetik mədəniyyət, klassik mədəni irs və ziyalıların xüsusi yaradıcı rolunun prioritetlərinə əsaslanan, humanist mədəniyyətin səviyyəsi ilə müəyyən edilən sosial sərvətdir.

*A.Toynbi*- yaradıcı azlığın fəaliyyəti ilə şərtlənən lokal sivilizasiyaların rəngarəngliyində təzahür olunan , lakin insan təbiətinə xas olan şüur, iradə, xeyir və şəri fərqləndirmək qabiliyyəti və dindarlığın birliyinə malik sosial fenomendir.

*K.Yaspers*- insanın yaratdığı dil, mənşə və taleh ümumiliyi ilə bağlı olan dəyərlər, həyat formaları, institutlar , təsəvvürlər, etiqadlar dünyasıdır.

*O.Şpenqler* – əsas komponenti din olan mədəniyyətlərin yaranıb məhv olması kimi sonsuz həyatdır.

*M.Haydeqqer* – böhran hadisələrinə aparan texnogen sivilizasiyanın utilitar dəyərlərinin və kütləvi mədəniyyətin əksinə olaraq, insan, dil, yüksək incəsənət və mükəmməl təhsil dəyərlərinə əsaslanan əsil insan varlığıdır.

*İ.Saburo* – tarix və cəmiyyətlə eyniləşdirilən bir çox sosial institutlardan ibarət antropoloji birlikdir.

*T.Parsons* – mədəniyyətin bir hissəsi olan sosial sistemin antropoloji birliyidir.

*Y.Şepanski* – insan fəaliyyətinin maddi və qeyri-maddi məhsullarının aksioloji vəhdətidir.

*E.Hiddens* – ruhi və maddi dəyərlərin aksioloji məcmuudur.

*H.Smelzer* – ruhi dəyər, norma və davranış standartlarının aksioloji məcmuu.

*P.Sorokin* – insan həmrəyliyi etikası və altruist məhəbbətin yardımı ilə bərpa edilən , yeniləşmə yolu ilə inkişaf edən, dəyərlərə əsaslanan sistemdir.

*M.Kim və s.sovet müəllifləri* – ictimai şüurun üç : elmi-nəzəri, bədii-obrazlı və mənəvi , formasına uyğun üç əsas struktur elementinin - elmi, bədii, əxlaqi, mövcud olduğu " mənəvi həyat ".

*M.Kaqan – bütün* sosial-siyasi praktika, onun institut, hadisə və mexanizmləri də daxil olan sosial sistemdir.

*V.Diltey* – təbiət dünyasından fərqli, həyatın özü kimi tarixi mövcudluq vasitəsidir.

*Q.Zimmel* – həyatın, yeni mədəniyyətlərin yaranmasına aparan, dialektik ziddiyyətləri.

*İ.Herder* – insan sivilizasiyasının yaranmasına aparan , mədəniyyətlərin birliyi və varisliliyi ilə şərtlənəın sosial hadisə.

*F.Nitşe* – insan ruhunun reallaşma vasitəsi.

*E.Orteqa-i-Qasset* – mədəniyyətin xilaskarı rolunda çıxış edən kübar elitanın ruhi dəyər səviyyəsi ilə müəyyən olunan sosial sərvət.

*Qusserl* – yalnız əqli deyil, inam, iradə, istək, hisslər ,digər irrasional və görünməyən hadisələri də əhatə edən fenomen.

*N.Danilevski* – etno-milli faktora əsaslanan, xüsusiləşmiş "lokal-tarixi"VII tiplərin mövcudluğu ilə şərtlənən sosial hadisə.

*K.Leontyev* – dini faktor təsirinin üstünlüyünə əsaslanıb, mədəniyyətin qapalı inkişafı ilə səciyyələnən sosial sistemdir.

*N.Trubetskoy, P.Sabitski* – xalqların milli və irqi xüsusiyyətlərinin mənşəyinə görə deyil, sosial-tarixi mühit və coğrafi ərazi ilə şərtlənən polisentrik fenomen ( rus mədəniyyəti Mütləqə inamla, dövlətçilik və insan hüquqlarında isə avtoritar ənənələrə istinad etməklə səciyyələnən pravoslav və türk etikasının sintezi kimi təqdim edilir).

*L.Qumilyov* – coğrafi mühitin həlledici təsiri altında milli mədəniyyətlərin inkişafının təmin edilnəsi və deməli, etnogenezin biosfer və landşaft hadisəsindən ibarət olduğu sistem.

*Y.Heyzinq* – oyun və "oynayan insanın" məhsulu.

*S.Lem* – hər bir sivilizasiyada müxtəlif olan mədəniyyət koduna malik fenomen.

*K.Levi-Stros* – dil mədəniyyətinin əsasını və ağılın qeyri-şüuri strukturunu təşkil edən qeyri-iradi yaradıcılıq.

*Y.Lotman* – özündə fərdi deyil, kollektiv ictimai-sosial nailiyyətləri əks etdirən semiotik hadisə.

- ***Kulturoloji işarə, rəmz və rəqəmlər***

***Dünya xalqlarının əsatirləri ilə əlaqədar olan***
**KULTUROLOJİ RƏMZ VƏ İŞARƏLƏR**

Hələ ilk sivilizasiyalar dövründə insanlar bilik və maariflənməyin əhəmiyyətini başa düşmaş və anlamışlar ki, müəllimlərin müdrikliyi və şagirdlərin ağlı insanların rifahı, inkişafı, onların əməyinin

məhsuldarlığı və fiziki sağlamlığı, onların intellektual və etik təkmilləşməsi yolunda zəruri şərtdir.

Qloballaşma dövründə bu həqiqət daha da aktual olmuşdur. Təhsilli cəmiyyət qanun, etika, məsuliyyət mədəniyyəti, enerji, iradə və vicdanlı əməyə istinad edərsə, şəxsiyyətin harmonik, intellektual, etik və fiziki inkişafı təmin edilər. İnsan düşüncəsinə azadlıq verib, insan ağlını və iradəsini çərçivəyə salan doqmalardan imtina etmək zəruridir. Bu, cahillik, şər, qaranlıq və köləlikdən işığa, həqiqətə, biliyə, müdrikliyə və xeyirxahlığa gedən yoldur. Elm, müdriklik, xeyirxahlıq və düzgün idarəetmə - həqiqətin, rifahın və sabit inkişafın, sülhün və bəşəriyyətin birliyinin açarıdır.

Qədim insanların dünyagörüşünün formalaşmasında əsatir, rəmz və işarələrin tarixi rolu hamıya məlumdur.

Hələ, intellektuallığın hissi mənimsənilməsi emosional həyəcanlanmanın sintezi ilə səciyyələnən əsatirlərdə bəşəriyyətin mədəni inkişaf təcrübəsini əks etdirən elmqabağı, dinqabağı, dünyəvi və dini baxışlar ayrılmaz vəhdətdə idi.Dini mərasimlər vasitəsi ilə ötürülən ezoterik mifoloji idrak bəşəriyyətin ruhi tərəqqisinə təsir göstərdi.

Simvol - varlığı anlamağın daxili müşahidəyə əsaslanan arxaik forması olaraq, real həyatda predmet və qanunların ideallaşdırılmış uyğunluğunun hissi sistemini əks etdirir. Simvollar düşüncəyə güclü təsir göstərdiyinə görə, hələ yazıdanqabaqkı bədii informasiya dövründə (piktoqrafiya), insanların davranış normaları və təfəkkür obrazlarını özündə təsbit edirdi. Bütün həndəsi simvollar özündə dünyanınn mifoloji modelini və mütəşəkkil fəza olan kosmosu təcəssüm etdirirdi.

Artıq ilk sivilizasiyalarda insanlar, intuitiv olaraq, ideya, baxış və dünya görüşlərini müəyyən simvollarla ifadə etməyə can atırdılar.Reallığı simvolik dərk etmə incəsənəti müdriklik əlaməti hesab edilirdi. Əsatirlərin mərasim elementi olan simvollar, bu və ya digər mədəniyyəti, eləcə də həyat fəlsəfəsini anlamaqda insanlara yardım edirdi. Bəşəriyyətin inkişaf təcrübəsi göstərir ki, müasir dövrdə rəmzlərin əsil mahiyyətinin məcaz, mücərrədləşmə, rəmz, reklamlara transformasiyası ictimai rəyin idarə edilməsində sosial vasitə kimi istifadə olunur.

Rəmz və işarələrin, müxtəlif mənbələrdə təsadüf edilən, antinomik və təzadlı izahları simvolik təfəkkürün ziddiyyətləri və rəmzlərin çoxluğu ilə əlaqələndirilir.

Orta əsrlərdə bir çox avropa və asiya mədəniyyətinə daxil olan mifoloji rəmzlərdən ən geniş yayılmışı mifoloji mənbə *Tarodur*. *Taro* - kart oyununun fransızca adıdır. 22 kart, arkan, rəmz biliyin və varlığın yeni səviyyəsinə keçidi ifadə etməklə, (Blavatskayanın fikrincə) keçmişin möhtəşəm sirlərinə cavab tapmağa imkan verir.

Taronun mənşəyini Babilistanda, Misirdə, Hindistanda və Çində axtarmışlar. Avropanın Taro ilə tanışlığını ərəblərə və ya qaraçılara aid edirlər. Onlar Avstriyaya – XII əsrdə, Rumıniya, Fransa, İtaliya və İngiltərəyə isə XIV-XV əsrdə gəlib çıxmışlar.

Qədim müdrikliyin"açarı" hesab edilən Taroda, möcüzəli sirləri açıb, insanı işığa doğru aparan ziya zərrələri toplanmışdır. Əfsanəyə görə, bu, qədim misirdə müdriklik allahı hesab edilən Totun verdiyi universal biliklər kəhkəşanıdır. Taro insanın həyat təcrübəsinin 21 mərhələsi (fazas)ı daxil olmaqla, iki yolunu əhatə edir: şüurlu – "günəş" və təhtəlşüur (intuitiv)- "ay". Kulturoloq Yunq Taroda insanın özünütəsdiqi üçün bir-birini tamamlayan iki yanaşma görürdü : intravert və ekstravert.

## RƏMZ VƏ IŞARƏLƏR

*Dairə* - kamillik, sonsuzluq və əbədilik rəmzi olaraq, səmanı ifadə edir; halə müqəddəsliyi təsvir etmək üçün istifadə olunur. Buddizmdə dairə - həyat təkəri, çərxi-fələk, daimi dəyişikliklərin rəmzidir.

- kosmosu xaosdan fərqləndirən sərhəd, kosmik fəzanın işarəsi;
- sonsuzluq (üzük kimi qıvrılmış bəşəri ilan);
- günəş;
- günəşin hərəkət dairəsini ötürən təkər;
- kurqanlar – dünyanın təşkil olunmasının mərasim modeli;

Orta əsrlərdə Avropada xəritələrdə Yer kürrəsi, Nuhun oğlanlarının sayına uyğun olaraq, üç materikə bölünür (Asiya – Sim, Avropa – İafət, Afrika- Xam) ;

*Üçbucaq* – bərəkət, nigah.

- Ucu aşağı üçbucaq – ilahənin kteik rəmzi, qadın başlanğıcı, su.
- Ucu yuxarı üçbucaq - fallik rəmz, od, kişi başlanğıcı, üççəhətlilik rəmzi.

*Kvadrat* – Yerin rəmzi, sıxlıq, statik kamillik, varlığın dünyəvi və maddi aspekti sabitlik, təhlükəsizlik və etibarlılığı ifadə edir.

*Mandala* ( kvadratla dairənin uyğunluğu) – dünyanın obrazı, antinomiyaların aradan qaldırılması və sintez, diferensiallıq, birlik yolu ilə yüksək intizama nail olmaq uğrunda mübarizənin, ilkin olanla –fəzasız, zamansız mərkəzlə birləşib tamlaşma rəmzi.On Ved bölməsinin rəmzi.

*Sehrli kvadrat* – gizli idrakın aşkar edilməsi vasitəsi hesab edilir; kosmik nizam enerjisini ifadə edən rəqəmlərin daxili harmoniyasının və rəqəmlərlə yeddi planetin arxetipik əlaqəsinin nümayişi.Saturn, Yupiter, Mars, Günəş, və Veneranın kvadratları təbiət fenomenləri ilə uzlaşan müəyyən riyazi prinsipləri nümayiş etdirir.

*Mərkəzində nöqtə olan kvadrat* – mason təşkilatı, Yer, kainat, eləcə də kamil insan həyatının rəmzi.

*Xaç*

- varlığın bütün sahələrinə nüfuzu mümkün edən, əsas mərasim və hadisələrin (Qüdsdə) baş verdiyi mərkəz ideyasını aktuallaşdırır (yerin mərkəzi).

*Xaçın növləri*

- anx – "həyat və rifah", qədim misirdə həyat gücünün rəmzi, Ra, Qora, Osiris və s. allahların əlamətləri. T- şəklində olan ilahi müdrikliyin açarı, dairə - əbədilik rəmzi.
- svastika.

*Svastika*

*Svastika* qədim şərqdə həyat və işıq, xeyirli taleh və rifah rəmzidir (sanskritdə "xoş" + "güzəran"). Günəşlə bağlı ən qədim işarələrdən olmaqla, "günəş quşu"+ "fəsillərin səcdəgahı", Günəşin Yer ətrafında hərəkət göstəricisi və ilin dörd mövsümə bölünməsi kimi izah edilir, eləcə də dünyanın dörd tərəfi ideyasını da əxz edir. Bu işarə

ikitərəfliliyi ilə fərqlənir, in-yan kimi, saat əqrəbi istiqamətində və əksinə hərəkətdən asılı olaraq müxtəlif cür şərh edilir.

Saat əqrəbi istiqamətində hərəkət - kişi, əksinə - qadın enerjisinin rəmzidir. Fəza ölçüləri üzrə, güməş istiqamətində - xeyir, əksinə - şər.

- *Çünəş istiqamətində (soltərəfli ) svastika* ( "addımlayan günəş", narıncı rənglə təsvir olunur) - uzunömürlülük, xoşbəxtlik, əbədi hərəkət və nikbinlik rəmzidir. Aqni allahın hind-ari rəmzi ilə eyniləşdirilir (Aqni kahinləri doğan günəşə sitayiş edərək, onu sağ əlin qaldırılması ilə salamlayırdılar); "Buddanın ürəyi", "xeyirxahlıq" işarəsi.
- *Ay (sağtərəfli) svastika* ( ağ rənglə təsvir edilir) materiya üzərində hakimlik və enerjinin idarə edilməsi işarəsi kimi mənimsənilir.Tibetin qara bon təriqətlərində güc və təcavüz rəmzidir. Hitler Almaniyasında qəbul edilmiş antisemit işarəsi hesab edilir.

Svastika həm Asiyada, həm də xristianlığaqədərki Avropada geniş yayılmışdır.Ona Troya qazıntılarında, məişət əşyalarında, eləcə də Ellin dəfinələrində rast gəlinmişdir. Svastika, həmçinin ezoterik buddizmin rəmzidir. Çində, Lotos Məktəbində sitayiş edilən bütün səcdəgahların işarəsi kimi istifadə edilirdi. İlkin xristianlıqda,o, qammalaşdırılmış xaç kimi məlum olmuş və Genona görə, orta əsrlərin axırlarına qədər xristianlığın əlamətlərindən biri kimi işlənmişdir.

*Pentaqramma* - Solomon ulduzu, qüdrət, ağıl, kamillik və sirr rəmzidir. Magiya, qnostisizm, okkultizm və kabbalada istifadə edilən ən güclü işarə hesab olunur. Şüaların istiqamətindən asılı olaraq, xeyir və ya şəri rəmzləşdirə bilər. Sirli şüalar saçan insanın moson rəmzidir.

*Düzgün beşbucaqlı (pentaqon)* - sağlamlıq, cadugərlərdən qorunma rəmzi, misir allahı Totun , Kesalkoatlın, roma Merkurisinin işarəsi, İsa Məsihin beş yarasının rəmzidir.

*Heksaqram* - David ulduzu, Mikro və makro kosmos, kişi və qadın başlanğıcları arasında ahəng və kosmik vəhdət; xeyirxahlıq nümunəsi, israfçılıq və çatışmazlıq arasında ortaq, xeyirin şərə qarşı

qoyulması; odla suyun birləşməsi, ruhun materiya üzərində qələbəsi, Adəm Kadmonun rəmzi.

*Altıbucaqlı* - kainatın bütövlük rəmzi.

*Heptoqram*

♔ Osiris, Mars və Klio (qədim yunanların şöhrət və tarix ilahəsi) kultları ilə bağlı, dini, sehrli və mistik rəqəm, yeddidəfəlik universum; Pərvərdigarın yaradıcı düşüncəsinin keçilməz materiyaya qədər açılma mərhələləri.

♔ İnsanın varlığını xilasa və azadlığa aparan yeddi dəfəlik təkamülü :

- Üzvi cisim (chat)
- Həyat gücü (ankh)
- Ulduz cismi (ka)
- Heyvani cisim və ya (hati)
- Şüurlu cisim (bai)
- Qəlb (cheubi)
- Ruh (kov)

♔ Materiya aləmində həyat hakimi:

- Ay dövrünün yeddi günü
- Həftənin yeddi günü
- İnsan sifətinin yeddi hissəsi
- Səs düzümünün yeddi notu
- Spektrin yeddi rəngi
- Zərdüştlükdə dünyanın yaranışının yeddi əsası

♔ Zərdüştlükdə dünyanın yeddi xilqəti və yeddi səcdəgahı:

- Axura Məzda - Müdriklik Tanrısı, insanı yaradan və qoruyan
- Aşa Vahişta – Yüksək möminlik, dünyanı tənzimləyən nizam, odu yaradan və qoruyan
- Vohu Manna – Xoş niyyət, heyvanat aləmini yaradan və qoruyan
- Ameretat – Ölümsüzlük, bitki aləminin yaradan və qoruyan.
- Xaurvatat – Bütövlük, suyu yaradan və qoruyan.
- Spenta Armaiti – Müqəddəs möminlik, torpağı yaradan və qoruyan

- Xşatra Vairya –İstəkli hakimiyyət, göy qübbəsini yaradan və qoruyan

♔ Yeddi növ səadət bəxş edən 7 yapon allahı:

- Uzun ömür
- Maddi rifah
- Düzlük
- Həyatdan məmnunluq
- Müdriklik
- Qüvvət

Həmçinin məlumdur :

- Planetlərin yeddi mənası
- Zikkuratın yeddi mərtəbəsi ( mesapatamiya məbədləri), ruhi kamilliyə yüksəlişin rəmzi
- Nuh gəmisinin yeddi cütü
- İohannın yeddi möhürü
- Yeddi cəbrayıl
- axirət heyvanının yeddi başı
- qəzəbin yeddi badəsi

*Səkkizguşəli ulduz :* dünyəvi xeyirxahlıq, rifah və yeni həyatın əbədilik rəmzi; cənnət simvolu. Allahın ulduzlara aid rəmzi Allahın astroloji rəmzi kimi, dünya mədəniyyəti tarixində ilk dəfə Şumerdə yaranmışdır.Burada məhəbbət, məhsuldarlıq, ölkənin mühafizə və rifah ilahəsi olan İnanna bu kulturoloji simvolla təsvir edilirdi. Misirdə Sirius "Sotis" adlanırdı.Ona ulduzların şahı, xoşbəxt ailə və analıq rəmzi, uzaq səfərlərdə yol göstərən ulduz kimi ehtiram edilirdi. Onu "ulduzların anası" , dünyanın hakimi, ilin fəsillərinin yaradıcısı adlandırırdılar. Sirius – külək, su və məhsuldarlıq ilahəsi olan İzidanın ulduzu idi.Buna görə də simasını dəyişərək, gah quşa, gah da əqrəbə çevrilən İzida möhtəşəm qüdrət, mərhəmət və rəhmdillik rəmzi hesab olunurdu. Misirdə ilin əvvəlni 17 iyul tarixində, səmada Sirius görünəndən sonra təbiətin canlanması, Nil çayının qabardığı zaman qeyd edirdilər.

London universitetinin professoru Meri Boysun rekonstruksiyasına görə, Zərdüşt kahinləri dünyanın yaranmasının dualistik tərvirini tərtib edərkən, düşünürdülər ki, allahlar dünyanı 7 mərhələyə yaratmışlar – səma, su, torpaq, bitkilər, heyvanlar, insan,

od. Olumlu, ölümlü yeddiqat yaranışın arxasında baş verən xeyir-şər mübarizəsi xeyirin qələbəsi ilə başa çatmalıdır.Yüksək mənəviyyatlı bu fəlsəfənin əsas prinsiplərindəki varisliyk dünya monoteist dinlərində - iudaizm, xristianlıq və islamda da müşahidə edilir. Sonralar səkkizguşəli ulduzun bədii təcəssümü İntibah dövr italyan rəssamı Andrea Montenyanın "Cadugərlərin sitayişi" əsərində öz əksini tapmışdır. Sonralar isə bu ulduz, bizans ənənələrinə uyğun olaraq, Müqəddəs Məryəmin smolensk və vladimir ikonalarında təsvir edilmişdir. Bəşəri ruhi vəhdəti simvollaşdıran dünyəvi həyat işarəsi olmaqla, o, islam mədəni-dini ənənələrində öz əksini, cənnətdə yeni həyatın ifadəsi kimi tapmışdır. Bu rəmz müasir Azərbaycan Respublikasının bayrağı və gerbinin də əsasını təşkil edir. O, azərbaycan folkloru və təsviri sənətində , daha dəqiq, qədim azərbaycan xalçaları və memarlığında geniş yayılmışdır. Səkkiz guşəli ulduzun mahiyyət mahiyyət sinonimi mifoloji Simürğ quşudur.

*Feniks* (cənnət quşi) – yunan mifologiyasında,təqribən Həbəş mənşəli, assiriyalıları tərəfindən adlandırılan sehrli qartalaoxşar quşdur. Feniks ölümünə yaxın özünü yandırır və külün içərisindən yenidən yaranır. Digər mülahizələrə görə, o, finikiya hökmdarı Agenorun oğlanlarından biri, Kadm, Kilik və Avropanın qardaşı, Sidon şəhərinin banisi, ya da beotiya hökmdarı Aminorun oğludur.

Moson təsəvvürlərinə görə, Feniks – xeyirxahlıq və yenilik rəmzi, qanun, vicdan və kamillik hamisidir. Despotizm, zorakılıq, şər, həsəd, hərislik, qüsur, təkəbbür və qəzəbi inkar edən simvoldur.

*Simürğ* – uzağıgörən qartalaoxşar quşdur. iran və azərbaycan mifologiyasında xoş məram və yenidən yaranma ( "ölülər içərisindən dirilmə"), yeni həyat üçün dirilmə rəmzidir. Qədim avrasiya mifi, müqəddəs dağ və ya səmadan yerə " həyat ağacının" budağını gətirən qartalaoxşar quşla əlaqədardır. Həm Şərq, həm də Qərbdə qəbul edilmiş, kainatda xeyirin, yeninin, əbədi həyatın qələbəsi , ölkədə rifahın və allah mərhəmətinin qədim rəmzi olan səkkizguşəli ulduzun mahiyyət və sinonimlərindən biridir. Simürğ adı avestadakı "mereqxo saeno" quşunun işarəsinə qədər gedir. Dünya ağacında (bütün toxumlar ağacı) yaşayan it başlı və pəncəli, qanadlı, bədəni balıq pulcuqlarından ibarət "quşlar şahı" , fantastik məxluq

(torpaq, dəniz və havada hakimlik rəmzi) olan "senmurv" bizi avesta işarələrinə aparır.

*Sol əl* – qəbalənin xeyirxahlıq və azadlıq rəmzi.

*Sağ əl* – qəbalənin şər və zərurət rəmzi.

*T ("Tau")* – antik Yunanıstanda həyat rəmzidir. Dairəyə alınmış üçqat tau, Yunqa görə, müqəddəslik və universal ruhi mərkəz rəmzidir.

## RƏQƏMLƏR

Rəqəmin rəmzi mənası qəbalə, pifaqor və islam ənənələrinin əsasını təşkil edir.Rəqəmin rəmzi mənası müqəddəs ədəbiyyat və incəsənətdə istifadə olunur.

- Pifaqorçulara görə, rəqəmlər insani və kosmik nizamın ahəngini əks etdirir: tək rəqəmlər – kişi, işıqlı, xeyirxah; cüt rəqəmlər isə - qadın, tünd, qəzəb prinsiplərini ifadə edir.
- Kəbalədə rəqəm və hərflərin mürəkkəb qarşılıqlı əvəzedilməsindən istifadə edilir.
- İslam ənənələri rəqəm incəsənətində bütün elmlərin kökünü, müdrikliyin əsasını, biliyin mənbəyini, mahiyyətlərin dayağını görür.

Dünya mədəniyyətində rəqəmlərin tək və cüt (in, yan) bölgüsünün dual mifoloji təsnifatı universal əhəmiyyətə malikdir.

Kainatın əsas koordinatlarını təsvir edən *müqəddəs rəqəmlər:*

*0 – Sıfır* - hər şeyin yaranması prinsipi ilə, əbədi və ilkin boşluq rəmzi; heç bir xassəsi, hüdudu və həcmi olmayan rəqəm. Xaos və ya Hədsizlik (yunan), "olum-suzluq".

*1+2=3* – kainatın təbəqələri – səma, torpaq, cəhənnəm və onunla bağlı müqəddəslər (qədim hind Trimurtisi , qədim iran Traetaonusu, slavyan Triqlavası).

*4 – Dörd* – Yunqa görə bu, insan ağlı, qavrayışı, bütövlüyü inkişafının arxetipidir. Özündə: 1 – Allah; 2 – Kainata müxalif; 3 – ruhun universal rəmzi; 4 – materiya, zaman, məkan (ilin 4 fəsli, dünyanın dörd tərəfi və s.) simvollarını birləşdirir. Moson təşkilatının rəmzidir.

*5 – Beş* - dünyanın dörd tərəfinin mifləşdirilmiş qoruyucusu (lokapal) və kainatın mərkəzi beş rəqəmini veir. Bu rəqəm də Çin mifologiyasında 5 əsas ünsürü xarakterizə edir.

7 – yeddi – kainatın yeddi əsas koordinatının cəmi (4+3) – kosmik vəhdətin mücəssəməsi :

- zaman – həftənin 7 günü
- ulduzlara aid olan

➢ 7 planet

➢ 7 kərşvər - qədim iranlıların təsəvvüründə dünyanın bölündüyü əyalətlər

➢ Zərdüştlükdə dünyanın yaradılmasının 7 mərhələsi

*8 – səkkiz*

- yeni,əbədi həyat, cənnət; sonsuzluq
- kainatın istiqamətlərinin universal rəqəmi

*9 – doqquz* – allahların qədim misirdəki enneadası – Atum-Ra, Şu, Tefnut, Heb, Nut, Osiris, İsida, Set, Neftid; mələykəliyin 9 mərhələsi və s.

*10 – On* - kamillik rəmzi. (1+2+3+4) – 10 qnostisizmdə bəşəriyyətin tamlığını(pleromu) təşkil edən 10 eon (əbədilik). Bu həm də 10 ehkamdır.

*12 – On iki* - törəmə rəqəm (3X4), 12 ay, bürc işarələri, əhdi-ətiq (qədim) İsrail hissələri , 12 imam. və s.

*13 – On üç* - "Şeytan düjünü".

. Babilistanda, Çində, Yaxın Şərqdə və s. ölkələrdə 13 rəqəminə astroloji şərh baxımından xoşagəlməz münasibət bəslənilirdi.

. Xristian ənənəsində bu rəqəmin əlverişli olmaması Sonuncu Axşam 13 nəfərdən birinin İsa Məsihə xəyanət etməsi ilə əlaqələndirilir.

. Avropada sehrli kvadratla əlaqədar olan iblis rəqəmi kimi mənimsənilir.

Bununla bərabər, bu rəqəmin antinomikliyi şübhəsizdir.

- Mayya dinində 13 rəqəmi müqəddəs olub 13 səma, o qədər də allah, eləcə də həyat mənbəyi olan Günəşin 13 səma qatından ibarət çələngi hesab edilirdi.
- 13 rəqəminin pozitiv mənası qnostik teologiya , etrus dinlərinə mənsubdur.
- Bibliyada (tövrat və incildə) Allahın 13 mühüm keyfiyyəti sadalanır.
- Xristian ənənəsində bu işarə Xristos və 12 apostolla birlikdə əbədilik, yaz xaçının rəmzidir.
- Kəbalə 13-ü cənnətdə möminlik üçün hazırlanmış şəfqətlə əlaqələndirir.
- Yəhudilərin mistik kitabı olan "Zöhər"-də 13 rəqəmi 12 ulduz bürclə şərtlənən bütün dünyanın ilkin prinsipidir.
- Böyük arkanda bu say yaranışın daimi hərəkəti və yeniləşməsini təsvir edir.
- Bu, Günəşin yeni dövrə daxil olmasının və qoç bürcünün işarəsidir.

*14 - On dörd* – Ayın bədrlənmə günlərinin sayı, Dünyanın yaranışının ikiqat rəqəmi.Qədim Babilistanda və Misirdə xüsusən pərəstiş edilirdi. İslamda, qəməri rəmzlərlə əlaqədar olaraq, qaranlıq dünyanı fiziki və mənəvi gözəlliyi ilə işıqlandıran Məhəmməd peyğəmbərin adlarından birinə bərabər tutulur.

*15 - On beş* – Ayın inkişafının apofeozu, 5 günlük həyat və məhəbbəti üç dəfə artırmanın nəticəsi kimi, nəzərdən keçirilir.Babilistan-assuriya ənənələrində məhəbbət allahı İştarın müqəddəs rəqəmi və Babilistanın ali allahı Mardukun işarəsi olan 60 rəqəminin dörddə biri.

- İştarın 15 kahini
- Romada 15 kahin
- İsa Məsih və Müqəddəs Məryəmin əhvalatındakı hadisələrə uyğun, xristian təsbehində muncuqların rəmzi sayı
- İbrahim peyğəmbərdən Solomona, Solomondan Zedekiyaya qədər törənən 15 nəsil.

*16 – On altı* - Bütövlük rəmzi.

- Qədim Yunan və roman sistemində ölçü vahidi.

- Hind dinində insanın bədəninin hissələri, gözəlliyin 16 işarəsini bildirən ən məşhur rəqəm
- Hind və ərəb poeziyasında ölçü vahidini bildirən rəqəm.

*17 – On yeddi –*

- Qədim Misirdə xoşbəxt rəqəm. Misirdə ilin əvvəlni 17 iyul tarixində, səmada Sirius görünəndən sonra təbiətin canlanması, Nil çayının qabardığı zaman qeyd edirdilər. Bu rəqəm Misirin din tarixini və hərbi qələbələri təsvir edir.
- Zərdüşt mədəni abidəsi olan əzəmətli Avesta himnlərindən 17 qat məlumdur.
- Yunan və urartu ənənələri, türk folkloru və Bibliyada 17 rəqəmi əlamətdar rəmzdir.Yunan ənənəsində bu rəqəm incəsənət və ruhi qabiliyyətlərlə əlaqələndirilirdi.
- İslamın sufi ənənələrində 17 – Allahın adındakı hərflərin sayı ilə əlaqəli, maddi aləmin bərqərar olduğu əsas prinsip, şiyələrin namazındakı hərəkətlərin sayı və s.

*18 – On səkkiz -* Kolumbdan əvvəlki dövrdə ölçü vahidi kimi istifadə edilən astral (ulduzlarla bağlı) rəqəmdir, çünki, Ay və Günəş öz orbitinə 18 ildən bir qayıdır. Skandinav mifologiyasında 18 – gizli biliklər rəmzidir.

İudaizmdə - yəhudi dini ayini18 duadan ibarətdir.

İnduizmdə - Mahabharatın 18 kitabı var.

Buddizmdə - çin buddizmində 18 arxat və ya müqəddəs var.

Xristianlıqda 18 rəqəmi – Ali Qanunun İlahi Rifahla yerinə yetməsini ifadə edir.

İslamda :

- Duadan 18 samit ilkin yaranışın başlanğıc nöqtəsi hesab olunur;
- Məhləvi dərvişlərinin Sufi təriqətində 18 mərasim rəmzi.

*19 – On doqquz – Taro –* Yaxın Şərqdə müqəddəs rəqəm.

- Qədim Misrin "Ölülər Kitabı"-nda hər birinin öz allahı olan 19 bədən hissəsi haqqında məlumat verilir. Sonuncu allahın əlavəsi bədəni tamlaşdırıb, müqəddəs 20 rəqəmini əmələ gətirir.

- İslam ənənəsində Allahın mühüm adlarından biri olmaqla, "Bir" sözünün sıra işarəsidir.
- Bəhayilər hər ili 19 aya, hər ayı 19 günə bölürlər.

*20 – İyirmi* – şumerlərin Günəş allahı Şamaşın adı ilə bağlı müqəddəs rəqəm. Xristianlıqda 10 niyyət və 10 reallaşma ehkamlarının cəmi, eləcə də Qanun və Rifah aləmini təmsil edən İncil və Rövrat kitabları sayının cəmidir.

*21 – İyirmi bir* – müqəddəs 3 və 7 rəqəmlərinin hasilindən ibarət kamillik işarəsi. Pifaqorçuların tək rəqəmlər içərisində ən müqəddəs hesab etdikləri rəqəm.

*22 - iyirmi iki* - finikiya və yəhudi əlifbasında hərflərin sayı, planetar təbəqələr və bürc işarələri ilə 3 ana hərfin (A.M.Ş.) uyğunluq rəqəmi. Bu rəqəm həm də aşağıdakıları simvollaşdırır:

- Vişnanın 22 çevrilməsi;
- Tapoda 22 kart (arkan);
- Kəbbalənin həyat ağacındakı 22 yol;
- iudaizmdə yəhudi əlifbasının 22 hərfi, dünya yaranışının 10 təbəqəsi (sefirotlar) ilə birləşərək yaradılanların əsasını təşkil edir.

*40 – Qırx* – Bütövlük ( pleora və çoxluqlar) ideyasını təmsil edir. Müqəddəs Yazıda Yerə endirilən cəzaların sayıdır.

*300 – Üç yüz* – Kəbbalədə yəhudi hərfi olan "Şin" – Allahın Ruhunun rəmzidir.

*666 – Altı yüz altmış altı* - İblis rəmzi.

*888 – Səkkiz yüz səksən səkkiz* - Məsihin rəmzi İudaizmin əsas ehkamlarına uyğun olaraq, 1 – Allah, 2 - Əhdi-əqiqin 2 sarsılmaz lövhəsi, 3 – üç patriarx, 4 – dörd ilahi ana, 5 - Tövratın beş kitabı.

## DÜNYANIN QURULUŞ VƏ TƏŞKİLİNİN ANTİK PRİNSİPLƏRİ

***Dünya quruluşunun başlanğıc prinsipi***

- Anaksimandra görə - apeyron (hüdudsuz təbiət; materiya və həyat)
- Pifaqora görə - rəqəm

♕ Heraklitə görə - od
♕ Anaksaqora görə - həndəsə
♕ Demokritə görə - atomlar

***Dünya quruluşunun təşkiledici prinsipləri***

♕ Heraklitə görə - loqos
♕ Pifaqora görə - harmoniya
♕ Anaksaqora görə - nus ( təbiəti idarə edən kosmik ağıl)
♕ Demokritə görə - zərurət
♕ Empedokla görə - məhəbbət və ədavət

## İKİNCİ BÖLMƏ. DEMOKRATİYA MƏDƏNİYYƏTİ VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ

### *DEMOKRATİYA MƏDƏNİYYƏTİ VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ*

### DEMOKRATİYA MƏDƏNİYYƏTİ: MAHİYYƏT, PRİNSİP, DƏYƏR VƏ NORMALAR.

***Demokratik mədəniyyətin dəyər və prinsipləri***

- Xalq hakimiyyəti
- Qanunun aliliyi
- *Hakimiyyətin bölünməsi*
- *Vətəndaş cəmiyyəti*
- *İnsan hüquqları*
- *Bazar iqtisadiyyatı*
- *Şəxsiyyət azadlığı*
- *Şəxsi və Sosial məsuliyyət*
- *Şəxsi və ictimai maraqların uyğunluğu*

♔ Demokratiya - xalq özünüidarəsində bütün vətəndaşların bərabər olduğu elə bir sistemdir ki, siyasi məsələlər əksər vətəndaşlar tərəfindən, azlığın hüququnun nəzərə alınması və müdafiəsi ilə ilə həll edilir.

♔ Demokratik sistem xalq nümayəndələrinin sağlam düşüncə və öz hərəkətlərinə görə ictimai məsuliyyət əsasında ictimai maraqlara xidmətini nəzərdə tutur.

♔ Siyasi baxımdan, demokratiya birbaşa və nümayəndəli olur. Nümayəndəli demokratiya müasir dünyada ən geniş yayılmışdır. Bu, nəticəsində xalqa hesabat verməli olan hökumət seçilən müntəzəm, azad, düzgün və müsabiqə xarakterli seçkilərdir .

♔ Demokratik dövlətdə hökumət öz xalqına xidmət üçün mövcud olur.Belə hökumət öz vətəndaşlarına mədəniyyət, təhsil, maarif, azad informasiya kimi nemətlərdən istifadə etmək üçün bərabər imkanlar və geniş şərait yaratmalıdır. Xalqın inamını itirmiş hökumət yenisi ilə əvəz edilir.

♔ Demokratiya mədəniyyəti ideya, prinsip, dəyər, sosial institutlar, hüquq və vəzifələr, eləcə də həyat fəaliyyəti texnologiyalarının qarşılıqlı əlaqəli bütöv sistemdir.

♔ Demokratiya mədəniyyəti - ədalətli qanun yaradılması, xalqın sosial-mədəni inkişafı üçün geniş imkanlar yaradan perspektiv və təminat, ölkə vətəndaşlarının milli maraqlarına cavab verən norma və qaydalara könüllü tabeliyini nəzərəd tutur. Demokratiya mədəniyyətinin formalaşdırılması və inkişafı xalqı təmsil edən qanuniləşmiş hökumətin qanunyaratma prosesinin effektivliyindən daha çox asılıdır.

♔ Demokratik mədəniyyət vətəndaş cəmiyyəti inkişafının universal əsası və başlıca hərəkətverici qüvvəsidir.

***Demokratik mədəniyyətin əsas parametrləri:***

- Demokratik siyasi sistem
- Demokratik hüquqi sistem və sosial etika
- demokratik idarəetmə metodları
- Azad informasiya
- Dövlətin mədəniyyət siyasətinin intellektual, hüquqi, və idarəetmə mədəniyyətinin prioritetləri.
- Yüksək texnologiyalara əsaslanan bazar iqtisadiyyatı
- Milli maraqlara avab verən peşəkar, mədəni, humanist meyarlar əsasında rəhbər və ekspertlərin seçilib istifadəsini təmin edən şəffaf, ədalətli və demokratik kadr siyasəti.

- Orta təbəqənin üstünlüyü hesabına cəmiyyətdə sosial-siyasi stabilliyin əldə olunmasına istiqamətlənmiş ədalətli paylama münasibətləri.
- Sülh mədəniyyəti, mədəni mübadilə və dialoq, beynəlxalq əməkdaşlıq.
- Mədəni müxtəliflik və mədəni plüralizm.
- Milli və din azadlıqları maqraqlarının gözlənilməsi.

***Demokratik cəmiyyət nəzərdə tutur :***

- Hadisələrin işıqlandırılması və qiymətləndirilməsində azad və müstəqil KİV-nin obyektiv, vicdanlı, elmi əsaslı yanaşmasını.
- Fikir və informasiya mübadiləsinin azadlığını.
- Xalq qarşısında debat və qərar qəbuletmənin açıqlığını.

***Demokratik idarəetmə siyasi sisteminin aparıcı prinsipləri:***

- *Majoritar seçki prinsipi,* əksər səsləri qazanma nəticəsində namizədin qələbə qazanmasına əsaslanır. O, siyasi sistem olaraq, demokratiyanın əsas prinsiplərindən biridir. Majoritarizm, birqayda olaraq, dövlət hakimiyyətini məhdudlaşdıran, eyni zamanda, azlıqların hüququ və şəxsiyyətlərin fərdi hüququnu təmin edən konstitusiya daxilində fəaliyyət göstərir.Vətəndaşların ən mühüm ayrılmaz hüquqları, müddəalar qanuna zidd olduqda dövlət və ya məhkəmələr tərəfindən belə pozulmayan, konstitusiya tərəfindən təmin edilir.
- *"Saxlama və qarşılaşdırma" sistemi.* Bu sistem hakimiyyət balansını təmin dir. Belə yanaşma, hər hansı bir idarəetmə orqanı, siyasi institut, insanlar qrupu və ya ayrıca şəxsdə hakimiyyət artması halını aradan qaldırır. Xüsusilə, müstəqil məhkəmə sisteminin mövcudluğu, həm qanunverici, həm də icraçı hakimiyyəti öz səlahiyyətləri hüdudlarından kənara çıxmağa imkan verməyərək, qarşılıqlı nəzarətlə bir-birini tarazlaşdırmağa imkan verir. Nəticədə, vətəndaşların hüquqları üçün yaranan, hakimiyyətin bir şəxsiyyət və ya dövlət strukturunun əlində cəməşməsi təhlükəsi aradan qalxır.

***Demokratiya mədəniyyətinin formalaşdırılması üzrə praktik fəaliyyət üçün aşağıdakılar zəruridir:***

- Demokratik mədəniyyətin həyat tərzinə çevrilməsi üçün onun imkan və üstünlüklərini aşkar edən demokratik dəyərlər və təcrübə prinsipləri ilə uşaq və gənclər, eləcə də yaşlı əhali ilə sistemli təlimin təşkili.
- Cəmiyyətin bütün bölmələrində demokratik mədəniyyətin formalaşması və inkişafını təmin edən yeni sosial institutların yaradılması.

*Belə institutların ideoloji vəzifəsi azadlıq və müstəqillik, məsuliyyət, yaradıcılıq, insan hüquqları və digər dəyərlərə əsaslanan yeni insan tərbiyəsi və yeni ictimai münasibətlərin formalaşdırılmasına yardım etməkdir.*

***Demokratik metodlara əsaslanan idarəetmə mədəniyyəti aşağıdakıları nəzərədə tutur:***

- Günün tələblərinə cavab verən həyat fəaliyyətinin effektiv forma, metod və texnologiyalarının tapılması.
- Ziddiyyətlərin düzgün həlli, şəxsi maraqların ictimai, qrup və dövlət maraqları ilə uyğunlaşdırmaq bacarığı.
- Tolerantlıq yaratmaq, güzəştlər tapmaq, müxtəlif adamlar və strukturlarla əməkdaşlıq və işgüzar münasibətlər qurmaq bacarığı.

Demokratik idarəetmənin yüksək mədəniyyəti rəhbərlərin peşəkarlığına və pozitiv mənəvi keyfiyyətlərinə əsaslanarsa, vətəndaşların ictimai-faydalı və rəqabətəqabil yaradıcı fəaliyyəti, qanunun aliliyinin gözlənilməsi və cəmiyyətin mənəvi sağlamlığının qorunması üçün əlverişli şərait yaranar. O, sosial ədalətə, ictimai rifahın inkişafına nail olmaq, terrorizm, anarxiya və dağıdıcı proseslərin aradan qaldırılmasına yardım etməlidir.

*İdarəetmə proseslərinin əksmərkəzləşdirilməsi və qərarın hazırlanıb qəbul edilməsi prosesinə müstəqil ekspertlərdən ibarət geniş dairənin cəlb edilməsi hakimiyyət və məsuliyyətin paylanmasıs və demokratik idarəetmə formaları üçün geniş imkanlar açır.* Sərt dövlət nəzarəti, demokratik ölkələrdə şəxsiyyət və cəmiyyətin

maraqlarının uyğunluğuna yardım edən demokratik tənzimləmə ilə əvəz edilir.

***Demokratiyanın inkişafına mane olan sosial hadisələr və insani keyfiyyətlər :***

- *Cəhalət*
- *Şərəfsizlik*
- *Məsuliyyətsizlik*
- *Korrupsiya*
- *Monopolizm*
- *Yoxsulluq*
- *Qeyri-bərabər paylama münasibətləri*
- *Həsəd*
- *Yaltaqlıq*
- *Riyakarlıq*
- *Yerlibazlıq*

## VƏTƏNDAŞ CƏMİYYƏTİ MƏDƏNİYYƏTİ

*Vətəndaş cəmiyyəti mədəniyyəti – bəşəriyyətin sosial-siyasi mədəniyyətinin şüurlu, proqressiv və humanist forması olub, vətəndaşların sosial fəallığı və özünüidarəsi hesabına ictimai rifahın inkişafını təmin edən həyat fəaliyyətinin yüksək mədəniyyətidir.*

Vətəndaş cəmiyyəti mədəniyyəti - məzmun və dəyər, tarixi-siyasi göstəricilər də daxil olmaqla, demokratik mədəniyyətin konkret ifadələrindən biri olub, geniş anlayışı əhatə edir. Bu, ictimai-siyasi sistem olan demokratiyanın mədəniyyətidir. O, həyat fəaliyyətinin müxtəlif dəyər, norma və texnologiyalarının məcmuudur. Bunların arasında – siyasi, mənəvi, hüquqi, idarəetmə, sosial, milli, dini, məişət və s. dəyərlər vardır.Vətəndaş cəmiyyəti mədəniyyətinin əsasını insanın hüquq və azadlıqları, plüralizm və humanizm prinsipləri təşkil edir. Vətəndaş cəmiyyəti mədəniyyəti - şəxsiyyətin azadlığı və sosial məsuliyyəti, fikir plürializmi, qanuni hökumətə və qanuna, mülkiyyət və şəxsiyyət hüququna hörmətdir.

**Vətəndaş cəmiyyətinin ictimai idealı:**

- Xidmət və mükafat arasında uyğunluq.
- Təhsilli,fəal və mənən kamil şəxslər üçün şəraitin mövcudluğu.
- İnsanın həyat fəaliyyəti üçün ilkin bərabər şəraitin olması.
- Söz, yaradıcılıq və fəaliyyət azadlığı üçün imkanların mövcudluğu.
- İnsanların özünütəyini üçün imkanların mövcudluğu.
- Ahəngdar və ədalətli ictimai münasibətlərə nail olma.
- Həyati nemətlərin ədalətli bölgüsü.
- İnsanın ictimai vəziyyəti ilə, qabiliyyətləri arasında uyğunluq.
- Hüquq və vəzifələr arasında uyğunluq.
- Şəxsi və ictimai maraqlar arasında uyğunluq.
- Vətəndaş vəzifəsi və insani ehtiyaclar arasında uyğunluq.
- Xeyirxah həyat tərzi və şəxsi xoşbəxtliyə nail olma arasında uyğunluq.

***Vətəndaş cəmiyyəti mədəniyyəti aşağıdakıları nəzərdə tutur:***

☺ şəxsiyyətin və cəmiyyətin inkişaf maraqlarına maksimal cavab verən mədəniyyətin
siyasi tipi olan demokratiyanın təsdiqi;

☺ demokratiyanın humanist prinsiplərinə əsaslanan etik-hüquqi normaların həyata keçirilməsi;

☺ informasiya azadlığı, mədəni nailiyyətlər və həyat təminedicilərinin humanist sistemindən geniş istifadə imkanı;

☺ şəxsiyyətin sosiallaşması və ictimai münasibətlərin tənzimlənməsi, milli-mədəni,dini, sosial və digər ziddiyyətlərin həll edilməsi;

☺ şəxsiyyətin və cəmiyyətin mədəniyyət və maraqlarının uyğunlaşdırılması;

☺ milli mədəniyyətin demokratikləşdirilməsi, elmi biliklərin və həyat fəaliyyətinin effektli texnologiyalarının yayılması;

☺ yoxsulluğun aradan qaldırılması, davamlı inkişaf və tərəqqiyə nail olmaq;

☺ vətəndaşların iqtisadi, ictimai və siyasi müstəqilliyinə, eləcə də məsuliyyətliliyinə nail olmaq;

- ☺ dövlətin sosial-mədəni siyasətində intellektual və etik inkişafın prioritetləri;
- ☺ effektiv iqtisadiyyat və paylama münasibətlərində yüksək mədəniyyət;
- ☺ insanların fiziki və mənəvi sağlamlığı , cəmiyyətin ekoloji təhlükəsizliyi;
- ☺ ictimai maraqlara cavab verən hüquqi, iqtisadi və siyasi qərarların qəbul edilməsini təmin edən düzgün sosial-mədəni siyasət və idarəetmə.

**Vətəndaş cəmiyyətinin uğurlu inkişafının başlıca şərt və şəraitləri.**

Bir sıra dünya dövlətlərinin təcrübəsinin müstəqil kulturoloji təhlili göstərir ki, demokratik ictimai-siyasi sistemə keçid aşağıdakıları nəzərdə tutur:

- Polisentrik idarəçilik sistemi və sistemli kulturoloji elmi yanaşma əsasında inzibati amirlikdən demokratik idarəetməyə keçid. Sərt dövlət nəzarətini şəxsiyyət-cəmiyyət münasibətlərinin ahəngini yaradan demokratik idarəetmə əvəz edir.
- Ruhi və maddi mədəniyyətin bir sıra sahələrində - təhsil, maarif, informasiya, iqtisadiyyat və ümumilikdə ictimai həyatda dövlət və ya korporativ monopolizmə yol verməmək.
- Cəmiyyətdə yoxsulluq və korrupsiyanın aradan qaldırılması.
- Sosial fəallığın və vətəndaşların dövlət idarəçiliyində iştirakının artması.
- Hökumətin xalq qarşısında hesabatının zəruriliyi.
- QHT- nin vətəndaş cəmiyyəti inkişafının formalaşdırılması və idarə edilməsində dövlət strukturları ilə birgə bərabərhüquqlu və zəruri iştirakı.
- Qanunların hazırlanması, qəbulu və həyata keçirilməsinə, onların düzgünlüyü və ümummilli maraqlara uyğunluğunun, sosial-mədəni iqtisadi və siyasi sahədə insan hüququnun müdafiəsinin ictimai monitorinqinin həyata keçirilməsi.
- Bazar iqtisadiyyatının yüksək, elmtutumlu, ekoloji cəhətdən təmiz texnologiyaları prinsiplərinə əsaslanan mobil iqtisadi sistemin inkişafı ilə əlaqədar olan maddi mədəniyyətin

proqressiv dəyişiklikləri. Belə iqtisadiyyat, öz növbəsində, avtoritar-bürokratik təfəkkürün demokratik təfəkkür və cəmiyyətin inkişafının idarə edilməsinə çevrilməsinə əlavə təsir göstərir.

Vətəndaş cəmiyyətində inkişafın mühüm şərti və ictimai orqanizmin özülünün əsas komponenti insanın şəxsi mədəniyyəti, onun həyati dəyərlər haqqındakı təsəvvürləri, bilik, bacarıq, mütəşəkkillik humanizm və yaradıcı fəaliyyətdir. Buna görə də, dövlət milli maraqlardan çıxış edərək, şəxsiyyətin yüksək ruhi mədəniyyətinin formalaşdırılmasına və inkişafına yardım edən yeni sosial mədəniyyət institutlarının yaradılnasını genişləndirməlidir. Hökumət ölkənin inkişaf tələblərinə cavab verən təhsil, maarif, informasiya və mətbuat, hüquq, elm, iqtisadiyyat, incəsənət, səhiyyə, ekologiya, turizm və s. sahələrdəli vətəndaş təşəbbüslərini dəstəkləməlidir.

*Vətəndaş cəmiyyətinin demokratik mədəniyyətini qurmadan, demokratik mentalitet formalaşdırmaq, yeni ictimai sistem olan demokratiyaya real keçid mümkün deyil.* Əks halda bu, süni, dərk olunmamış zəif siyasi təhsil olacaqdır. Bu məsələnin həllinin mühüm şərti sovet tipli avtoritar-totalitar mədəniyyətin demokratik mədəniyyətə transformasiya edilməsi üzrə dövlətin özünün qeyri-hökumət təşkilatlarına yardımı üzrə aktiv fəaliyyətidir. Bu zaman "yuxarıdan" və "aşağıdan" həyata keçirilən uğurlu və dönməz islahatların əsas şərti dövlətin aparıcı rolu olmaqla, konkret sosial-mədəni siyasətdə əks olunan elmi əsaslı proqram və layihələrdə özünü göstərir.

***Vətəndaş cəmiyyətinin imkan və xüsusiyyətlərinin ictimai mənafeyə xidmətini daha geniş aşkar və istifadə etmək üçün cəmiyyətin hər bir üzvünün aşağıdakıları bilməsi zəruridir:***

- cəmiyyət qarşısında duran problemləri düzgün anlamaq;
- cəmiyyətin xeyrinə yaradıcı fəaliyyət göstərmək;
- öz vətəndaş vəzifələrinə məsuliyyətli yanaşmaq;
- vətəndaş cəmiyyəti konstitusiyasının, insan hüquqları, mülkiyyət hüquqları və qüvvədə olan qanunların gözlənilməsi;
- qanuni hökumətə hörmət bəsləmək.

Mədəniyyətin demokratikləşdirilməsi prosesi həm "yuxarıdan" - dövlət strukturları səviyyəsində, həm də "aşağıdan" – vətəndaş cəmiyyətinin mühüm sosial institutu olan qeyri-hökumət təşkilatları tərəfindən aparılmalıdır. Qeyri-hökumət təşkilatları, eləcə də həmkarlar və bələdiyyələr demokratik mədəniyyəti inkişaf etdirən ən effektiv məktəblərdir.

***Vətəndaş cəmiyyətində KİV***

Vətəndaş cəmiyyətində *kütləvi informasiya vasitələrinə* mühüm əhəmiyyət verilir.Demokratik ölkədə KİV həm ictimai, həm də özəl sektorda obyektiv, korrektiv, ictimai-faydalı informasiyanı yaymalıdır. O, dövlət nəzarətində olmamalı, ictimai şüurun müəyyən qrup və ya struktur tərəfindən öz maraqlarına uyğun idarə edilmə vasitəsinə çevrilməməlidir. Bunun üçün cəmiyyətdə yüksək ruhi mədəniyyət, zəruri elmi bilik, keyfiyyətli təhsil, peşəkarlıq və jurnalist ləyaqətinin olması vacibdir. Kütləvi informasiya vasitələri ictimai şüurda qanunun aliliyini təsdiq etməli, cəmiyyətdə demokratiya mədəniyyəti, yüksək etika, diskussiya və debatlarda yüksək etika və nəzakətliliyin formalaşıb yayılmasına yardım etməlidir.

Deməli, açıq cəmiyyətdə söz və mətbuat azadlığının, hər hansı bir nazirliyin sərəncamı ilə deyil, anadangəlmə olaraq insana məxsus olduğuna görə, demokratik ölkələrin dövlət strukturları cəmiyyətin və onun hər bir üzvünün maraqlarını müdafiə etməyə borcludur.

***Vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılmasının maarifçilik məsələləri.***

- Vətəndaş cəmiyyəti mədəniyyətinin inkişafı və möhkəmləndirilməsinin strateji məsələlərindən biri, maxtəlif xalqların qarşılıqlı anlaşması və məhsuldar əməkdaşlığı üçün zəruri olan başlıca nailiyyət və xüsusiyyətlər, mədəni dəyərlər haqda bilikləri əks etdirən kulturoloji təhsilin inkişafıdır. O, orta və ali məktəb səviyyəsində demokratiyanın prinsip, dəyər və normalarının təlimini nəzərdə tutur ki, bu da şəxsiyyət və liderlərin , rəhbər işçilərin, müxtəlif profilli mütəxəssislərin , sadə vətəndaş və gənclərin sosial-humanitar geniş imkanlar açır. Vətəndaşların sosial-siyasi fəallığının artırılması metodunun adamların iş və yaşayış yerlərində interaktiv

kulturoloji maarifləndirmə yolu ilə aparılması mühüm praktik əhəmiyyət daşıyır.

Dövlət və cəmiyyət həyatının müxtəlif sahələrinin idarəetmə sistemi üçün yeni rəhbər kadrların hazırlığı və tərbiyəsi prioritet məsələdir. Belə rəhbər kadrlar peşəkarlıq və idarəetmə mədəniyyəti ilə yanaşı, yüksək ümumi mədəniyyətəmütəhərrik təfəkkürə yüksək səviyyəli ictimai məsuliyyətə, müasir dünya mədəniyyəti tələblərinə cavab verən elmi bilik və bacarıqlara malik olmalıdır. Belə hazırlığın praktik məsələlərindən biri demokratik ölkələrin intellektual mədəni nailiyyətlərinin sistemli kulturoloji təhlili və dövlət quruculuğu , idarəetmə təcrübəsində - model, ictimai inkişaf texnologiyaları Şərq və Qərbin sənaye və postsənaye vətəndaş cəmiyyətlərinin konkret uğurlarından yaradıcı istifadə qabiliyyətinə yiyələnməkdir.

- Müasir sosial –siyasi şəraitdə işləmək qabiliyyəti və demokratik mədəniyyət dəyərlərinə sadiq yüksək təhsilli jurnalistlərin peşə hazırlığı və tərbiyəsi də mühüm məsələlərdəndir. Müasir jurnalistlər bəşəriyyətin sosial-mədəni inkişafının tarixi, nəzəriyyəsi və praktikası üzrə "mozaik" yox, universal elmi biliklərə malik olmalıdırlar.

- ***İnsan hüquqları və mədəniyyət hüquqları***

## İNSAN HÜQUQLARI DEMOKRATİYA MƏDƏNİYYƏTİNİN MÜHÜM BEYNƏLXALQ İNSTİTUTUDUR

Müasir dünya sivilizasiyasında insan hüquqlarının gözlənilməsi mühüm əhəmiyyət daşıyır. Müxtəlif xalqların mədəniyyət və maraqlarının uyğunluğunda qlobal mədəni eyniliyin formalaşdırılması zəruridir. Bununla belə, dünya mədəniyyətinin yaradılmasında, universal həyat tərzi olan humanizmin təsdiqində, xalqların və dövlətlərin qarşılıqlı anlaşması, həmrəyliyi və əməkdaşlığında insan hüquqları problemi təməl hesab olunur.

İnsan hüquqlarının müdafiəsi üzrə beynəlxalq təşkilatların ən əhəmiyyətlilərindən biri, 1975-ci ildə yaradılmış, Avropada təhlükəsizlik və əməkdaşlıq üzrə Təşkilatdır (ATƏT). ATƏT fəaliyyətinin əsasını avropa dövlətləri, ABŞ və Kanadanın Helsinki razılaşmasında əks olunmuş 10 hüquqi prinsipə tərəfdarlıq təşkil edir:

1. Suverenliyə hörmət.
2. Güc tətbiqi və ya onun təhlükəsindən imtina.
3. Sərhədlərin tanınması.
4. Dövlətin ərazi bütövlüyü.
5. Mübahisələrin sülh yolu ilə həlli.
6. Daxili işlərə qarışmamaq.
7. Söz, vicdan, din və əqidə daxil olmaqla, insanın azadlıq və hüquqların hörmət.
8. Xalqların bərabərliyi və öz müqəddəratını həll etmək hüququ.
9. Dövlətlərarası əməkdaşlıq.
10. Beynəlxalq hüquqi öhdəçiliyin dönmədən yerinə yetirilməsi.

## MƏDƏNİYYƏT HÜQUQLARI
***(mədəniyyət və mədəni irsin qorunması və inkişaf etdirilməsi hüququ)***

Mədəniyyət hüquqları cəmiyyətin ruhi mədəniyyətinin mühüm göstəricisidir.

*Mədəniyyət hüquqları* insan ləyaqətinə hörmət, ruhi və maddi mədəniyyətin qorunması və inkişafı, onun süni və təbii dağıdıcı proseslərdən dövlət və beynəlxalq müdafiəsinə istiqamətlənmişdir. Onlar - vətəndaşların mədəni inkişafının bərabər imkan və şəraitinin təmin edilməsini, bəşəriyyətin yaratdığı mədəni sərvətlərdən, milli və dünya mədəniyyəti təhsil və maarifindən istifadəsini, eləcə də mədəni yaradıcılıq və əməkdaşlıq, mədəni dəyərlərin yaradılması və təbliğində iştirakını nəzərdə tutur.

Müasir sivilizasiyanın dağıdıcı prosesləri, planetdə olan xalqlar və adamlar arasındakı mədəni fərqlər, xalqların və ümumilikdə bəşəriyyətin mədəni hüquqlarının müdafiəsi, beynəlxalq münasibətlərin hüquqi və etik tənzimlənməsi, xalqlar və dövlətlər

arasında qarşılıqlı anlaşma və tolerantlığın yaranmasına yardım edən sitemli dialoq və qarşılıqlı təsirlərin zəruriliyini şərtləndirir. Planetin bütün sakinləri arasında ədalət, sülh və azadlıq prinsipləri əsasında mədəniyyət və təhsilin geniş yayaılması insan ləyaqətinin qorunması, keyfiyyətli həyat və rifahın artması üçün çox vacibdir.

Bəşəriyyətin mədəni sərvəti bir çox etnos, millət və xalqların zəhməti ilə yaradılır, xalqların mədəni müxtəlifliyi və mədəni özünəməxsusluğun qorunması və inkişafı isə beynəlxalq birliyin qayğıpredmetidir. Mədəniyyətin ahəngdar inkişafı və qorunması beynəlxalq sənədlərdə geniş əks etdirilmişdir.BMT və YUNESKO-nun sənəd və bəyanatlarına əsasən, hər bir insan , etnos və xalq öz mədəniyyəti, mədəni irsi, mədəni sərvətlərdən istifadə etməsi, mədəni həyatda iştirakı və yaradıcı fəaliyyəti üçün təbii hüquqlara malikdir.

**Mədəniyyət hüququ insan hüquqları üzrə aşağıdakı beynəlxalq sənədlərdə müəyyənləşdirilmişdir:**

- *İnsan hüquqlarının ümumi bəyannaməsi.*
- *İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq müqavilə(pakt).*
- *Vətəndaş və siyasi hüquqlar haqda beynəlxalq müqavilə (pakt).*
- *İrqi ayrıseçkiliyin bütün formalarının aradan qaldırılması haqda saziş (konvensiya).*
- *Beynəlxalq mədəni əməkdaşlıq prinsiplərinin bəyanatı.*

***Bu sənədlərə əsasən hər bir insan və xalq aşağıdakı hüquqlara malikdir:***

- Cəmiyyətin mədəni həyatında azad iştirak etmək və incəsənətdən bəhrələnmək;
- Elmi tərəqqi və onun əməli tətbiqinin nəticələrindən istifadə etmək;
- Müəllifi olduğu elmi, ədəbi, yaxud bədiiəsərlərlə əlaqədar yaranan maddi və mənəvi maraqların müdafiəsindən istifadə etmək;
- Mədəni fəaliyyətdə bərabər iştirak etmək;
- Öz mədəniyyətini azad inkişaf etdirmək, ana dilində danışmaq və öz dininə sitayiş etmək.

*Mədəniyyət hüququ konsepsiyasının işlənməsində, mədəniyyət hüququnun insanlar üçün sadələşdirilməsi və qorunmaıs, dövlətin isə bu ayrılmaz hüquqların təmin edilməsində xüsusi rolunu və məsuliyyətini qeyd edən akademik D.S.Lixaçovun xidmətləri böyükdür.*

- ***Sülh mədəniyyəti***

**SÜLH MƏDƏNİYYƏTİ**

- Bu, müxtəlif xarakter, mədəniyyət, dil, din, irq, cins, əqidə, millət, mənşə, doğulduğu yer və yaşa mənsub insanların əmin-aman həyatı və ya dinc birgəyaşamaq qabiliyyətidir.
- Bu, aqoizmə və etnosentrizmə əks olan, altruizmin etik prinsipləri və sosial ədalət əsasında fundamental insan keyfiyyətləri və bəşəri bərabərliyi etiraf edərək, insanları sevmək qabiliyyəti, başqalarına görə yaşamaq bacarığıdır.

**Sülh mədəniyyəti**

- cəmiyyətdə tərəqqipərvər sosial dəyişikliklərə istiqamətlənmiş qeyri-zorakı fəaliyyət proqramlarının həyata keçirilməsini nəzərdə tutur;
- insanlar arasında səmimi münasibətin yaranmasına, adamın mənəvi sağlamlığı, ruhi vəziyyəti və həyat keyfiyyətinə təsir göstərir.

***DÜNYADA SÜLH MƏDƏNİYYƏTİ QURUCULUĞUNUN ŞƏRTLƏRİ***

- Beynəlxalq kulturoloji təhsil və maarifin inkişafı
- Hörmət:
  - universal insani dəyərlər olan hüquq, azadlıq və ləyaqətə;
  - birinin digəri tərəfindən əzab və istiraba məruz qalmasını qadağan edən hüquq və azadlıqlara;
  - bəşəriyyətin sosial inkişafının təbii qanunu olan xalqların mədəni müxtəlifliyinə
- İnsanın bütün hüquqlarına hörmət.
- Sosial ədalət.

- Yüksək etik mədəniyyət.
- Bəşəri maraqlara cavab verən mədəni dəyərlərin prioriteti.
- Gender hüquq bərabərliyi.
- Düzgün humanist tərbiyəsi.
- Tolerantlıq, qeyri-zorakılıq, empatiya.
- Yoxsulluğun azaldırlması, rifahın artması.
- Millətlər və dinlərarası həmrəylik.
- Yüksək idarəçilik mədəniyyəti.
- İrqi bərabərlik.
- Siyasi bərabərlik.
- Mədəni müxtəliflik və özünəməxsusluq.
- Qlobal qarşılıqlı asılılığın dərk edilməsi.
- Şəxsi və sosial məsuliyyət.
- Ekoloji təhlükəsizlik.
- Şəxsiyyətin, ailənin, kollektivin, cəmiyuyətin və bəşəriyyətin yüksək ruhi mədəniyyətinin inkişafına təsir göstərən sosial mühitin formalaşdırılması.
- Mədəniyyət üzrə düzgün dövlət və beynəlxalq siyasətin həyata keçirilməsi.

## DÜNYA MƏDƏNİYYƏTİ QURUCULUĞUNDA ZƏRURİ İNSANİ KEYFİYYƏTLƏR

- Yüksək etik mədəniyyət
- Şəxsiyyətə hörmət
- İnsan hüquqlarına hörmət
- Altruizm
- Məhəbbət
- Dostluq
- Xeyirxahlıq
- Düzlük və ləyaqət
- Səmimilik və açıqlıq
- İntellektual mədəniyyət
- Digər mədəniyyətlərə bələdlik
- Mədəni müxtəliflik və mədəni özünəməxsusluğu anlamaq

- Şəxsiyyətlərarası ünsiyyət mədəniyyəti
- Nitq mədəniyyəti
- İdarəetmə mədəniyyəti
- İnsani dəyərlərin ümumiliyinin dərk edilməsi
- Millətlərarası həmrəylik və qayğı
- Humanist etikaya əsaslanan dinlərarası həmrəylik
- Başqalarını duymaq qabiliyyəti
- Sosial məsuliyyət
- Tolerantlıq və dözümlülük
- Ziddiyyətlərin həllində qeyri-zorakılıq
- Yaradıcı fəaliyyət
- Məhsuldar əməkdaşlıq

## ZORAKILIĞIN NÖVLƏRİ

- İrqi
- Etnik
- Siyasi
- Sosial
- Struktur
- Psixoloji
- Mənəvi
- Fiziki
- Gender
- Dini
- Hüquqi
- Hərbi
- İqtisadi
- Mədəni
- Vəzifə

## SÜLH MƏDƏNİYYƏTİ VƏ MÜNAQİŞƏLƏRİN HƏLLİ

Mürəkkəb dinamik inkişafla səciyyələnən müasir həyatda müxtəlif ictimai-siyasi quruluş və idarəetmə sistemləri, həyat-fəaliyyət texnologiyaları, mədəni dəyərlər sistemləri, fərdlərin və xalqların

xarakterləri ilə şərtlənən bir çox *dialektik ziddiyyət və münaqişələr* müşahidə edilir.

*Münaqişə* - qarşılıqlı münasibətlərin pozulması ilə nəticələnən ziddiyyətlərin insan formasıdır. Münaqişə sülhü dağıtmaqla, bəşəriyyətin normal həyat fəaliyyəti və inkişafı üçün zəruri olan təbii şəraiti məhv edir. Münaqişələr etnik, əmək, ailə, din, mədəni, siyasi, hərbi, ictimai və s. zəmində yarana bilər. Mahiyyət etibarilə, bütün insani münaqişələr mədəniyyət və maraq toqquşmalarının nəticəsidir.

*Ziddiyyətlərin kəskinləşməsi və münaqişələrin həlli mərhələlərini aşağıdakı kimi təqdim etmək olar.*

- Maraqların ziddiyyəti
- Mövqelərin ziddiyyəti
- *Vasitələrdəki ziddiyyətlər*
- Pozulmiş münasibətlər
- Neqativ emosiyalar
- Düşmənçilik hərəkətləri

Münasibətlərin münaqişəsini danışıqlar, müzakirələrlə birgə, qarşılıqlı faydalı nəticələrin əldə edilmkəsi yolu ilə aradan qaldırmaq olar. Münaqişənin sosial terapiyası və ya aradan qaldırılmasına yönələn danışıq prosesinin uğurları çox halda, münaqişə tərəflərinin şəxsiyyətə hörmət, digər mədəniyyətə, dinə və insan hüquqlarına hörmət, məsuliyyət mədəniyyəti, doğruçuluq, dözümlülük kimi universal mədəni prinsiplərə riayət etməsindən asılıdır.

*Kulturologiya* - mədəniyyət və maraq münaqişələrinin düzgün həll edilməsi və aradan qaldırılmasının əsasıdır. Bir çox münaqişələrin xarakterinin təhlili və sülh mədəniyyəti yaradılması imkanları göstərir ki, yüksək ağıl və hiss mədəniyyəti, intellektual və etik mədəni dəyərlərə bağlı insanların xeyirxahlığı, onların qarşılıqlı anlaşma və qarşılıqlı faydalı əməkdaşlıq qabiliyyəti, yalnız bəşəriyyət üçün humanist xidmətə yönələn yaradıcı fəaliyyət dünyanı xilas edə bilər.

Yüksək mənəvi prinsiplər olmadan münaqişələrin sülh yolu ilə həll ediməsinin qeyri-mümkünlüyünə əmin olmaq üçün, münaqişə tərəflərinin ziddiyyət zamanı əl atdıqları vasitələrə nəzər asalmaq kifayətdir. Dahi filosof-şair Mirzə Şəfi Vazehin müdrik misralarını yada salmaq istərdik:

Xeyirlə Şər müharibəsində Şərin qüvvəsi ondadır ki,
Xeyir üçün qədul olmayan çox şey Şər üçün qəbuldur.

Deməli, insanlar arasında təbii dialektik ziddiyyətlərin sülh yolu ilə həll edilməsinin və mümkün ola biləcək münaqişələrin aradan qaldırılmasının əsas şərti yüksək mənəvi mədəniyyətdir. Buna görə də kulturoloji təhsil, maarif və tərbiyə yüksək ruhi mədəniyyət formalaşdıran əlverişli mədəni mühit üçün əsas şərt olaraq, insan və xalqlar arasında qarşılıqlı hörmət, dözüm, qarşılıqlı anlaşma yaradır.

Münaqişələrin həlli və aradan qaldırılmasının *metodoloji əsasını* insan, etnos, millət və dövlətin maraq və mədəniyyətlərinin uyğunlaşmasına tarazlı kulturoloji yanaşma təşkil edir. Dünya sivilizasiyası inkişafının çoxəsrlik inkişafı göstərir ki, humanizm, sülh mədəniyyəti, tolerantlıq, əməkdaşlıq prinsipləri və kantın "xoş məram"-ına əsaslanan beynəlxalq sosial-mədəni siyasət vasitəsi ilə müxtəlif xalqların mədəniyyətlərini uyğunlaşdırmaq vacibdir.

Bəşəri dəyərlərin prioritetləri əsasında dünya sülh mədəniyyəti təsdiqi və xalqların mədəni eyniliyinin formalaşdırılması bəşəriyyətin strateji maraqlarına cavab verən dünya siyasi və iqtisadi əməkdaşlığının etibarlı təməli kimi, dini, milli, irqi maneələrin aradan qaldırılmasına yardım edəcəkdir.

- ***Gender mədəniyyəti***

## GENDER MƏDƏNİYYƏTİ

Gender mədəniyyətinin inkişafı hüquqi dövlət və demokratik cəmiyyətin mədəni inkişafının strateji istiqamətlərindən biridir.

- Gender mədəniyyəti kişi ilə qadın arasında şəxsiyyətlərarası münasibətləri, ailə və ictimai institutların qarşılıqlı təsirini səciyyələndirən sosial münasibətlərin inkişafda olan sistemidir.
- Gender – sosial-mədəni anlayış olmaqla, şəxsiyyət və cəmiyyətin yüksək etik mədəniyyəti ilə sıx bağlıdır. O, kişi və qadın arasındakı bioloji fərqlərlə yanaşı mental, emosional, təfəkkür və davranış fərqləri, həyatda onların sosial rollarının bölünməsi haqqında təsəvvür yaradır.

♔ Əgər genderin bioloji göstəriciləri cinslə əlaqədardırsa, sosial-mədəni göstəricilər insanların mədəniyyəti, tərbiyəsi xarakteri, psixologiyası, həyat tərzi, sosial mühiti, maraqları və peşəsi ilə bağlıdır.

♔ Gender bu və digər xalqın milli-mədəni dəyərlər sistemi ilə şərtlənən kişi-qadın münasibətlərinin şəxsi və ictimai səviyyədə sosial-mədəni modeli kimi təzahür olunur.

♔ Gender milli mədəniyyət və ümumiyyətlə cəmiyyətin mədəni səviyyə və xüsusiyyətlərini, cəmiyyətin sosial infrastrukturunun baza ölçülərini başa düşüb qiymətləndirməyin mühüm göstəricisidir.

♔ Demokratik dövlətdə gender mədəniyyəti dövlət və cəmiyyətin idarə edilməsi və ictimai münasibətlərin tənzimlənməsinin mühüm alətidir.

♔ Gender mədəniyyəti milli və sosial mədəniyyətin inkişafında pozitiv sinergetikanın mühüm vasitələrindən biri kimi, sosial tarazlığın yaranmasına təsir göstərir.

♔ Cəmiyyətdə bərabərhüquqlu münasibətlərin formalaşdırılması, cəmiyyətin rifah və davamlı inkişaf tələblərinə cavab verərək, insanların sosial fəallığını artırır, şəxsiyyətin ahəngdar inkişafı və özünütəkmilləşdirməsinə şərait yaradır.

♔ Cəmiyyətdə kişi ilə qadının sosial-mədəni rolu və onların qarşılıqlı mədəni münasibətləri, çox zaman, xalqın sosiallaşmasının tarixi sistemi, davranış-düşüncə stereotipləri və mədəni ənənələrlə müəyyən edilir.

♔ Mədəniyyətin ən mühüm sosial institutlarından biri olan gender mədəniyyətinin məzmunu cəmiyyətin xarakteri, ruhi və maddi mədəniyyəti, vətəndaşların psixoloji aurası ilə birgə dəyişir.

♔ Gender mədəniyyətinin təhlili bu və ya digər cəmiyyətin sosial-mədəni inkişaf proseslərini qiymətləndirmək, proqnozlaşdırmaq və modelləşdirmək, ictimai münasibətləri anlamaq üçün mühüm əhəmiyyət daşıyır.

## GENDER NƏZƏRİYYƏSİ VƏ GENDER SİYASƏTİ

♔ **Gender sistemi nəzəriyyəsinə uyğun olaraq**, o, belə nəzərədən keçirilir:

- Cinsdaxili və cinslərarası fərdi və ictimai münasibətlərin məcmuu.
- Cinsi fərq və "qeyri sosial" fərqlərin "sosial fərqlər"ə transformasiyasına əsaslanan hakimiyyət və üstünlük sistemi.

♔ **Genderin sosial funksiyasına aşağıdakılar daxildir:**

- Bioloji cins
- Cəmiyyətin cinsrollu stereotipi
- "Gender displeyi" – kişi və qadın davranış və münasibətləri normaları ilə əlaqədar mədəni təzahürlərin rəngarəngliyi.

♔ Gender bərabərliyi - adamların hüquqi, sosial, siyasi və icra sahələrində bərabər vəziyyətidir.Gender bərabərliyi aşağıdakı tərkib hissələrindən ibarətdir: bərabər hüquq, bərabər məsuliyyət, bərabər imkanlar, maddi nemətlərdən istifadə zamanı bərabər əməkdaşlıq münasibətləri .

♔ Münasibətlər sistemində gender bərabərliyinin nəzərə alınması, onsuz davamlı insan inkişafında bərabər imkan aspektlərinin mümkün olmamasını təsdiq edir.

♔ Gender münasibətlərinin müasir təhlili həyat fəaliyyətinin sosial-mədəni, siyasi və iqtisadi sahələrində cinsi hakimiyyət münasibətlərinin təhlili kimi də nəzərdən keçirilir.

♔ **Gender siyasətinin mühüm vəzifəsi** qadınların aşağıdakı sahələr üzrə inkişafına yardım etməkdir:

- qadınların fəal təhsili və maariflənməsi;
- qadınların siyasi, qanunverici və icra səviyyəsində idarəetmə proseslərinə cəlb edilməsi;
- qadınlar arasında yoxsulluğun aradan qaldırılması;qadınların məşğulluğunun artırılması;
- sosial müdafiəsi zəif olan qadınların güzəştli mirokreditləşmə sisteminin inkişafı;
- qadınların sağlamlığının mühafizəsi, ana və uşaq ölümünün azaldırması;
- qızlara yardım üzrə xüsusi proqramların yaradılması;
- qadınlara qarşı bütün zorakılıq hallarının aradan qaldırılması.

# ÜÇÜNCÜ BÖLMƏ. İDARƏETMƏ MƏDƏNİYYƏTİ

*Idarəetmə mədəniyyəti – təşkilati-idarəetmə fəaliyyətinin keyfiyyət səviyyəsi və effektliliyini müəyyən edən peşəkar bilik, bacarıq və vərdişlərin məcmuudur.*

- ***İdarəetmə elmi***

## İDARƏETMƏNİN ELMİ PRİNSİPLƏRİ

*Idarəetmə mədəniyyəti* idarəetmə *strategiyası, texnologiyası, etikası, sosiologiyası və estetikası* daxil olmaqla, idarəetmə fəaliyyətinin elmi əsaslarını nəzərdə tutur.

1. **STRATEGİYA** - dövlətin və ya təşkilatın fəaliyyətinin düzgün planlaşdırılması və proqnozlaşdırılması üçün bütün resursların kulturoloji təhlili sistemidir.
2. **TEXNOLOGİYA** – effektli idarəetmə və ya istehsalat fəaliyyəti üçün insani, maddi və informasiya resurslarından düzgün elmi istifadədir.
3. **ETİKA (PSİXOLOGİYA)** – insanlarla işləmək bacarığıdır. İşçilərin xarakteri, intellektual, mənəvi və digər xüsusiyyətlərinin öyrənilib, işin effektiv təşkili məqsədi ilə onların maraq və mədəniyyətlərinin harmonizasiyasıdır.
4. **SOSİOLOGİYA (Public relations)** – müxtəlif insan qrupları və təşkilatları arasındakı maraq və münasibətlərin xarakterinə nəzarət, onlarla fəal qarşılıqlı təsir, eləcə də dövlət və təşkilatın missiyasının daha effektiv həyata keçirilməsi məqsədi ilə KİV(kütləvi informasiya vasitəkləri) ilə əlaqədir.
5. **ESTETİKA (DİZAYN)** – istehsal edilən məhsulların təşkilatın məqsəd və xarakterinə uyğun xarici görünüş və estetik formasının sosial-mədəni layihələndirilməsidir.Dizayn təşkilatın cəmiyyətdə fəaliyyətinə maraq formalaşmasına yardım edir.

- Bu yanaşma demokratik ölkələrdə yayılmış istehsalat idarəçiliyi elminə əsaslanır. II Dünya Müharibəsindən sonra Yaponiyada inkişafın əsas faktorlarını təhlil edərkən, Qərbin kapitalist

iqtisadiyyatı şəraitində yaranan istehsalat idarəçiliyi elminin dövlət həyatında mühüm strateji yer tutması N.İ.Konradın diqqətini cəlb etdi.Bu elmin əsas komponentləri aşağıdakılar idi: sənaye mühəndisliyi (Industrial Engineering), operativ öyrənmə ( Operations Relations), işin aparılması psixologiyası ( Management Psychology) , ictimai münasibətlər (Public relations) və dizayn (Design). İnkişaf etmiş ölkələrdə bu elmin sürətlə irəliləməsi həm elmi-texniki inqilabin inkişaf tələbləri, həm də demokratikləşmə proseslərinin dərinləşməsi ilə şərtlənirdi. Müharibədən sonrakı yapon universitetlərində idarəetmə fakultəsi ən populyar və prestijli hesab edilirdi.

## TƏŞKİLAT MƏDƏNİYYƏTİNİN TİPLƏRİ

Təşkilatin mədəni səviyyəsi, kollektivin etika və peşəkarlığı da daxil olmaqla, onun effektivliyinin həlledici faktorudur. Bu və ya digər təşkilatın mədəniyyəti onun xarakteri, psixologiyası, rəhbər və işçilərin davranış motivləri, ideya, əqidə, ənənə, aura və iş metodunda əks olunur. Təşkilatın mədəniyyət keyfiyyəti insanların sosial mənşəyi, dəyərlər sistemi, fəlsəfəsi və həyat fəaliyyəti texnologiyalarından daha çox asılıdır.

Bu mövzu Ç.Hendi, R.Harrison, A.Minkeviç, V.Tomilov, M.İvanov, D.Şusterman, Vilkins, T.Piters, R.Uoterman, U.Ouq, D.Sink, R.Rüttinger, Y.Hents, A.Kamel və digər qərb və rus alimlərinin elmi maraqlarının predmetinə çevrilmiş və onlar effektiv idarəetmədə təşkilat mədəniyyətinin mühüm rolunu aşkarlamışlar.

Professor Çarlz Hendi, Rocer Harrisonun müəyyən etdiyi mədəniyyət ideologiyasının dörd növü əsasında, təşkilat mədəniyyətinin dörd növünü özündə birləşdirən aşağıdakı modeli hazırladı : hakimiyyət mədəniyyəti (Zevs), rol mədəniyyəti (Apollon), vəzifə mədəniyyəti (Afina) və şəxsiyyət mədəniyyəti (Dionis).

*" HAKİMİYYƏT MƏDƏNİYYƏTİ"* - birqayda olaraq, sərt ierarxik quruluşlu təşkilatları səciyyələndirir. Hakimiyyət mədəniyyəti liderin xüsusi rolu, onun şəxsi keyfiyyət və qabiliyyətləri ilə əlaqədardır. Belə təşkilatlarda hakimiyyətin mənbəyi liderin

şəxsiyyəti ilə əlaqədar onun sahib olduğu resurslardır. Həmin təşkilatların kadr siyasəti əməkdaşların rəhbərə şəxsi sədaqəti prinsipi üzərində qurulub. Təşkilat mədəniyyətinin tipi olan *hakimiyyət mədəniyyəti* kifayət qədər mobildir. O, qısa zaman ərzində qərar qəbul edib daxili və xarici dəyişikliklərə operativ cavab verərək, həyatda praktik ifadəsini tapmağa imkan verir.

***"ROL MƏDƏNİYYƏTİ"*** – işin ixtisas sahələri və rolların ciddi funksional bölgüsü ilə xarakterizə olunur. Rol mədəniyyətli təşkilatın fəaliyyətinin effektivliyi müəyyən edilmiş fəaliyyət standartları, prosedurları və qaydalar sisteminə ciddi riayət edilməsi ilə təmin olunur. Bura hakimiyyət mənbəyi liderin şəxsi keyfiyyətləri, resursları deyil, təşkilatın ierarxik strukturunda əməkdaşların tutduğu xidməti vəzifədir. Rol mədəniyyətli təşkilatlar daxili və xarici faktorların stabilliyi şəraitində kifayət qədər effektiv fəalıyyət göstərə bilər.

***"VƏZİFƏ MƏDƏNİYYƏTİ"*** – dövlət, cəmiyyət və bazarın tələbləri ilə şərtlənən müəyyən proqram və layihələrin yerinə yetirilməsi ilə bağlı təşkilatları səciyyətləndirir. Bu tip təşkilatlar öz effektivliyini müəyyən edilmiş qayda, prosedur və fəaliyyət standartlarına riayət edilməsi hesabına təmin edir.Bu tip təşkilatlar öz effektivliyini müəyyən problem və vəzifələrin həlli üçün qüvvələrin düzgün kooperasiya qabiliyyəti və yüksək peşəkarlıq hesabına təmin edir. Burada hakimiyyət, bu və ya digər sahədə ekspert olaraq elmi bilik, praktik bacarıq, informasiya və uyğun təcrübəyə malik liderlərin əlində mərkəzləşir.

***ŞƏXSİYYƏT MƏDƏNİYYƏTİ"***- başlıca olaraq, yaradıcı, innovativ fəaliyyətlə bağlı olub, müəyyən missiyanı yerinə yetirən insan birliklərini səciyyələndirir. Belə təşkilatlarda hakimiyyət peşəkarlığa, resursların əldə edilməsi və üfüqi əlaqələrə, fəaliyyətin koordinasiyası və qarşılıqlı faydalı danışıqların əldə edilməsi qabiliyyətinə əsaslanır.

Real həyatda, birqayda olaraq, Lütvi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsinə görə, daimi vəya mavəqqəti olaraq bu və ya digər tipin üstünlüyü ilə təşkilati mədəniyyətin müxtəlif tiöplərinə rast gəlmək olar.

Tipindən asılı olmayaraq, təşkilat mədəniyyətində əsas yeri təşkilatın *dəyər və normaları, prinsipləri, mədəni siyasəti və fəlsəfəsindən* ibarət məqsədlərinin məcmuu olan *işgüzar əqidəsi* tutur. Təşkilati mədəniyyətin mühüm göstəricilərindən biri təşkilatın *etik aurasını* ifadə edən *ünsiyyət dilidir*. Bu prinsiplər təşkilatın rəhbərliyinin istər rəsmi, istərsə də qeyri-rəsmi səviyyədə hərəkət və fəaliyyətində nümayiş etdirdiyi və qoruduğu *mədəni ənənələrində* əks olunmalıdır. Bu ənənələrin innovasiyalı fəaliyyətlə təkrarlanması həm təşkilatın həyat fəaliyyətinin varisliyi, həm də onun proqressiv inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Hər bir təşkilat mədəniyyəti tipi çox zaman özündə həmin mədəni dəyər və idarəetmə texnologiyalarını ifadə edən liderin idarəetmə mədəniyyətini əks etdirir.

Təşkilat mədəniyyəti anlayışının təhlili əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

1. Mədəniyyət – təşkilatın effektivliyində mühüm amildir.
2. Təşkilatın mədəniyyəti - təşkilatda işin yerinə yetirilməsi yolları və insanlara münasibətin xarakteridir.
3. Hər bir təşkilat tipinin öz ideya, əqidə və ənənələri var; onlar xarici göstəricilər, atmosfer və iş metodlarıdır.
4. Təşkilatın mədəniyyətinə aşağıdakı faktorlar təsir edir: mənşəy, mülkiyyət növü, texnologiyalar, əlamətdar hadisələr.
5. Təşkilat mədəniyyətini əmələ gətirən ideya, əqidə və ənənələrdən ibarət olan təşkilat mədəniyyəti daha çox aşkar olunmur, çox şey sübutsuz qəbul edilir və az hallarda şübhə altına alınır.

- ***Dövlət idarəçiliyi***

## DÖVLƏT İDARƏÇİLİYİNİN EFFEKTİV DEMOKRATİK SİSTEMİ QURUCULUĞUNUN ƏSAS ŞƏRTLƏRİ

*Dövlət idarəçiliyinin effektiv demokratik sisteminin quruculuğu aşağıdakı əsas şərtlərin yerinə yetirilməsini tələb edir:*

- Siyasi strategiyanın düzgün formalaşdırılması.

- Ölkənin milli xüsusiyyətlərini nəzərə almaqla, demokratiya dəyər və prinsipləri əsasında yaradılmış yeni idarəetmə texnologiyalarının mövcudluğu.
- Uyğun qanunların qəbul edilməsi və onların yerinə yetirilmə strategiyası.
- Dəyişikliyi təmin edən regional şəbəkə və islahatlar strukturunun yaradılması.
- Dövlət quruculuğu və idarəçiliyinin strateji problemlərinin sistemli kulturoloji təhlilinin, eləcə də kulturoloji təhsil və maarifin geniş şəbəkəsinin inkişafı.
- Bələdiyyə rəhbərləri və müxtəlif səviyyəli məmurların beynəlxalq tələblərə və milli-mədəni xüsusiyyətlərə uyğun peşəkarlığı, sətiştəliliyi və yüksək etikasını təmin edən xüsusi təlimi və yenidənhazırlığı.
- İdarəetmə orqanlarında yeniliyə həssas, əlverişli şəraitin yaradılması.
- Milli maraqlara csvsb verən əməyin ödənilməsinin yeni sistemi və müsabiqə sistemi əsasında qurulmuş yeni kadr siyasəti.
- Demokratik ölkələrin dövlət və sosial idarəetmə təcrübəsinə ekspert yardımı, öyrənilməsi və yaradıcı istifadəsi.
- Hakimiyyətin əksmərkəzləşdirilməsi və yerli özünüidarənin inkişaf etdirilməsi.
- Korrupsiya ilə nəticəyönümlü mübarizə.
- Qanunun aliliyinin və onun yerinə yetirilməsində yüksək mədəniyyətin təmin edilməsi.
- İslahatların yüksək vəzifə adamları tərəfindən siyasi dəstəyi.
- İdarəetmə sisteminin müntəzəm dövlət və ictimai monitorinqinin keçirilməsi.
- İdarəetmə sahəsində fəaliyyətin şəffaflığı.
- Qərarın qəbul edilməsi prosesində ekspert məsləhətləri və ictimai rəyin nəzərə alınması.
- Büdcə islahatı.
- Milli və qlobal idarəetmə sahəsində beynəlxalq iş təcrübəsi ilə sistemli mübadilə.

## DEMOKRATİK İDARƏETMƏNİN ƏSAS PRİNSİPLƏRİ

- İdarəetmə sisteminin çoxmərkəzliliyi;
- Sosial-mədəni fəaliyyətin iqtisadi model və formalarının rəngarəngliyi;
- Maliyyə sisteminin demokratikləşmə, əksmərkəzləşmə və əksmonopoliyalaşması, onun proqram-məqsədli yanaşmaya istiqamətlənməsi;
- Dövlət və qeyri-hökumət təşkilatları arasında iş birliyi və əməkdaşlığın müqavilə əsasında və milli maraqların üstünlüyü şəraitində təmin edilməsi.

## DEMOKRATİK İDARƏETMƏNİN FORMA VƏ VƏZİFƏLƏRİ

- İdarəetmə sistemi, dövlət institutları , istehsal qüvvələri və ictimai münasibətlərin demokratik ölkələrin inkişaf təcrübəsi və demokratiya prinsipləri əsasında modernləşdirilməsi.
- Mədəni irs və bəzi milli ənənələrin saxlanması ilə xalqın təhsil və maarifinin inkişafı hesabina milli mədəniyyətin intellektuallaşdırılması.
- Proqressiv inkişafın stimulu kimi, sağlam milli ideyanın tətbiqi əsasında milli şüurun inkişafına yardım etmək.
- Dialektik inkişafın obyektiv qanunları, ölkənin milli maraqları və qloballaşmanın tələbləri əsasında hüquqi norma və sosial etikanın təkmilləşməsi.
- Cəmiyyətin vətəndaşları, sinifləri və sosiumlarının harmonizasiyası.
- Cəmiyyətin bütün sinif və sosiumlarının dövlət proqramlarının reallaşdırılması və milli məqsədlərə nail olunma prosesinə cəlbi.
- İnkişaf problemlərinin ictimai müzakirəsi , ekspert məsləhətlərinə riayət etməklə geniş debatlar.
- Ölkənin modernləşdirilməsi , maarifləndirilməsi və demokratikləşdirilməsi proseslərinin ictimai monitorinqi.

## DÖVLƏT İDARƏÇİLİYİNİN ÜÇ MƏRKƏZİ PROBLEMİ

- Sosial-mədəni inkişafın strateji istiqamətləri və dövlət prioritetlərinin müəyyənləşdirilməsi;
- Ruhi və maddi mədəniyyətin müxtəlif sahələri üzrə mütəxəssislərin hazırlığı və tərbiyə edilməsi, onların həyat fəaliyyəti üçün maddi-texniki və sosial şəraitin yaradılması;
- Mövcud mütəxəssis və onların fəaliyyət nəticələrindən sosial-mədəni, eləcə də iqeisadi tərəqqi məqsədi ilə effektli istifadə.

## DÖVLƏT İDARƏÇİLİYİNİN ELMİ VƏZİFƏLƏRİ

- Siyasətin obyekt və subyektlərinin maraq, üslub və vasitələrin təhlili.
- İctimai institutların mövcud təşkilat formalarının onların dəyişən maraqları və ölkənin inkişafının yeni tələbləri ilə dünya sivilizasiyasına uyğunluğunun aşkar edilməsi.
- Cəmiyyətin fasiləsiz modernləşməsini təmin edən yeni idarəetmə modellərinin yaradılması və yeni fəaliyyət növlərinin layihələndirilməsi.

## DÖVLƏT İDARƏÇİLİYİ PRAKTİK VƏZİFƏLƏRİNİN ƏSAS TİPLƏRİ

- İdeoloji
- Elmi
- Məzmun
- Hüquqi
- Kadr
- Təşkilati
- Maliyyə
- İqtisadi
- Sosial

## DÖVLƏT İDARƏÇİLİYİ SİSTEMİNİN ƏSAS SƏVİYYƏLƏRİ

- Mərkəzi (sistemli)
- Sashə (alt sistem, şəbəkə)
- Regional
- Yerli (lokal)

- *Sosial idarəetmə*

## VƏTƏNDAŞ CƏMİYYƏTİNDƏ İDARƏÇİLİYİN ƏSAS PRİNSİPLƏRİ

- İdarəetmə sisteminin polisentrikliyi.
- Sosial-mədəni fəaliyyətin forma və iqtisadi modellərinin rəngarəngliyi.
- Maliyyə sisteminin əksmonopolizasiya, əksmərkəzləşmə və demokratikləşdirilməsi, onun proqram-məqsədli yanaşmaya istiqamətlənməsi.
- Dövlət və qeyri-hökumət təşkilatları arasında müqavilə əsasında milli maraqların prioriteti şərti ilə əməkdaşlıq və iş birliyinin təmin edilməsi.

## VƏTƏNDAŞ CƏMİYYƏTİ İNKİŞAFININ İDARƏETMƏ PROBLEMLƏRİ

*Vətəndaş cəmiyyəti inkişafının effektiv idarə edilməsi dövlətin üç əsas istiqamətdə məqsədyönlü fəaliyyətini tələb edir:*

1. İctimai maraqlara cavab verən, yaradıcı fəaliyyət həyata keçirən və bilik, bacarıq, mütəşəkkillik, mənəviyyata malik lider və şəxsiyyətlərin inkişaf etdirilməsini nəzərdə tutan yüksək mədəniyyətli vətəndaşların formalaşdırılması.
2. Milli mədəniyyətin modernləşdirilməsi, vətəndaşların intellektual və mənəvi inkişafının prioritetləri, eləcə də məhsuldar beynəlxalq mədəni, iqtisadi və siyasi əməkdaşlığa

istiqamətlənmiş düzgün sosial-mədəni siyasətin həyata keçirilməsi.
3. Düzgün siyasət, yüksək hüquqi və etik mədəniyyətə əsaslanan dövlət və ictimai idarəetmənin yüksək mədəniyyətinin yaradılması.

*Vətəndaş cəmiyyətinin inkişaf səviyyəsi aşağıdakı mühüm sosial problemlərin həllindən asılıdır:*

- Münaqişə və terrorizmin aradan qaldırılması
- Yoxsulluğun aradan qaldırılması
- Korrupsiyanın aradan qaldırılması
- Uzunömürlülüyün artırılması
- İnkişaf, rifah və tərəqqinin əldə edilməsi.

## BƏLƏDİYYƏ İDARƏÇİLİYİ

*Demokratik mədəniyyətin atributlarından biri olan yerli idarəetmələrin yaranma tarixi orta əsrlərə gedib çıxır.O, demokratik ölkələrin konstitusiyalı quruluşunun əsaslarından biri, demokratik dövlətin mühüm institutlarından biri xalq hakimiyyətinin ifadəsi, vətəndaşların özünüidarə formasıdır.*

*Dövlətin və cəmiyyətin demokratik idarəetmə sisteminin bir hissəsi, vətəndaşların həyati maraqlarının reallaşdırma forması kimi,o, yerli və dövlət maraqlarının optimaı uyğunluğuna, inkişaf məqsədli yerli sosial-iqtisadi potensialın nisbətən effektli reallaşmasına yardım edir.*

*Bələdiyyə mülkiyyətinin idarə edilməsi , istifadəsi və sahibliyini təmin edir. Bununla yanaşı, yerli özünüidarə orqanı dövlət hakimiyyətini möhkəmləndirir, onun effektliyinin artmasına yardım edir.*

## *YERLİ ÖZÜNÜİDARƏ ORQANLARINDA İDARƏETMƏ MƏDƏNİYYƏTİNİN ƏSAS PRİNSİPLƏRİ*

Əhalinin yerli əhəmiyyət daşıyan məsələlərinin həllində müstəqillik.

Yerli özünüidarə orqanları və vəzifəli adamlarının əhali qarşısında məsuliyyəti.

İnsanın və vətəndaşın hüquq və azadlıqlarının nəzərə alınması.

Yerli özünüidarənin təşkil və fəaliyyətində qanunilik.

Yerli özünüidarə fəaliyyətində kollegiallıq və təkbaşınalıq.

Yerli özünüidarənin təşkilati müstəqilliyi və praktik məsələlərin həllində onun dövlət hakimiyyəti orqanları ilə ahəngdar qarşılıqlı əlaqəsi.

7. Yerli özünüidarənin maddi və maliyyə resurslarının onun səlahiyyətlərinə uyğunluğu.

8. Yerli özünüidarənin həyata keçirilən təşkilati formalarının rəngarəngliyi.

9. Yerli özünüidarənin fəaliyyətində şəffaflıq və aşkarlıq.

10. Yerli özünüidarəyə dövlət təminatı.

- *Demokratik ölkələrdə yerli özünüidarə prinsipləri yerli özünüidarə haqqında Avropa Xartiyasında öz hüquqi təsdiqini tapmış və o, Avropa Şurası üzvü ölkələrinin bələdiyyə qanunvericiliyi üçün hüquqi əsas rolunu oynayır.*
- *Yerli özünüidarə prinsiplərinin reallaşdırılması onun qanun məcəlləsində hüquqi təsdiq olunması ilə, bələdiyyə nizamnamələrində , bələdiyyə işinin təşkilati forma və metodlarının bu prinsiplərə uyğun sistemi ilə təmin olunur.*
- *Bələdiyyə özünüidarəsinin prinsipləri obyektiv qanunauyğunluqlar, məntiq və yerli hakimiyyətin inkişaf tendensiyası əsasında formalaşır.*
- *Onlar bələdiyyə yaqradıcılığının ideya-nəzəri əsası kimi çıxış edərək, bələdiyyə hakimiyyətinin qurulması və fəaliyyətini təmin edir, bələdiyyə özünüidarəsi sisteminin effektliyinin qiymətləndirmə meyarı kimi çıxış edir.*

## BƏLƏDİYYƏ İDARƏÇİLİYİNİN FUNKSİYA, FORMA, RESURS VƏ MODELLƏRİ

### *Yerli özünüidarənin əsas funksiyaları*

*Yerli özünüidarənin funksiyaları onun təbiəti, xalq hakimiyyəti sistemində yeri, bələdiyyə fəaliyyətinin məqsəd və vəzifələri ilə şərtlənir. Bura daxildir:*

1. Yerli əhəmiyyət daşıyan ictimai-mədəni və iqtisadi problemlərin həllində əhalinin iştirakının təmin edilməsi.
2. Bələdiyyə mülkiyyəti və yerli özünüidarənin maliyyə resurslarının idarə edilməsi .
3. Bələdiyyə ərazisinin kompleks sosial-iqtisadi inkişafının təmin edilməsi.
4. Əhalinin sosial-mədəni, kommunal-məişət və digər həyat əhəmiyyətli xidmətlər üzrə ehtiyaclarının ödənməsinin təmin edilməsi.
5. İctimai asayişin mühafizəsi.
6. Yerli idarəetmənin maraq və hüquqlarının konstitusiya və qüvvədə olan qanunvericiliyin təmin edilən müdafiəsi.

### *Yerli özünüidarənin təşkilat formaları*

1. Öz iradəsini müxtəlif formalarla(seçki, referendum, yığıncaq və s.) ifadə edən vasitəsiz demokratiya.
2. Gündəlik nizamnamə fəaliyyətini həyata keçirən yerli idarəetmənin seçkili orqanı.
3. Yaşayış yeri üzrə sahə ictimai özünüidarəsi ( bələdiyyənin yarandığı ərazi hissələrində icma, şura, komutə və s.)

### *Bələdiyyə idarəçiliyinin resursları*

☺ Mədəniyyətin insan kapitalı ( bilik, bacarıq, mütəşəkkillik, mənəviyyat, kadrların yaradıcı fəaliyyəti)

☺ Maddi resurslar

☺ Maliyyə resursları

☺ Texnoloji resurslar

☺ Təşkilati resurslar

☺ Hüquqi resurslar

☺ Bələdiyyə resursları

***Bələdiyyə idarəçiliyinin əsas moddelləri***

☺ Anqlosakson modeli

- Geniş muxtariyyət, aşkar tabeçiliyin olmaması, yerli icmaların bərabərliyimərkəzdən asılı olmamaq (əsasən, federativ dövlətlərdə - Böyük Britaniya, ABŞ, Kanada, Avstraliya və s. ölkələrdə yayılmışdır.) ilə səciyyələnir.

☺ Fransaız (qitə ) madeli

- Mərkəzi sövlət hakimiyyətinin yerli orqan üzərində nəzarətinin inkişaf etmiş sistemi ilə səciyyələnir (başlıca olaraq unitar dövlətlərdə yayılnmışdır – Fransa, İtaliya, Belçika, Hollandiya, İspaniya və s.).

☺ Qarışıq model

- Anqlosakson və fransız model elementlərini birləşdirir ( Alman, Yapon, Avstriya və s. dövlətlərdə yayılmışdır).

☺ Sovet modeli

- Sosialist idarəçilikmprinsiplərinə əsaslanması ilə fərqlənir (keçmiş SSRİ və bir sıra sosialist ölkələrində yayılıb; hal-hazırda ÇXDR, KXR, Kuba və Vyetnamda istifadə olunur)

## QEYRI-HÖKUMƏT TƏŞKILATLARI FƏALIYYƏTININ STRATEJİ PLANLAŞDIRMASI

*Strateji planlaşdırma – müəyyən məqsədlərin əldə edilməsinə istiqamətlənən hərəkətlərin zaman və məkan üzrə planlaşdırılmasıdır.O, aşağıdakı mədələlərin həllini həllini nəzərdə tutur:*

1. Məqsədi zaman və məkan baxımından görmək.
2. Ona doğru məqsədyönlü hərəkət.
3. Đonorların razılığı ilə məqsədləri dəyişmək ehtimalı.
4. Öz tələbatlarının müəyyənləşdirilməsi və düzəlişlər edilməsi.
5. Uyğun infrastruktur və əlaqələrin formalaşdırılması.
6. Layihəni başlamazdan əvvəl müştərilərin tələbatlarının dəqiqləşdirilməsi.
7. Ətraf mühitin təfərrüatlarının təhlili ( pozitiv və neqativ faktların nəzərə alınması ilə).
8. Resurslar haqda dəqiq biliklər(maliyyə və insan).

9. Yardım edən tərəfin marağına əsasən əks-əlaqənin yaradılması.
10. Beynəlxalq təşkilatlar və mətbuatın yardımı ilə hökumətə müsbət təsir göstərmək.

*İşin reallaşdırılması aşağıdakı metodika üzrə həyata keçirilir:*

a) bir ildən sonra öz təşkilatımızı necə görmək istərdik?
b) istənilən nəticəyə doğru hərəkətə nə mane olur?
c) maneələri dəf etmək üçün bu gün nə etmək lazımdır?
d) hərəkətlərin planlaşdırılması və monitorinqi (tədbirlər, məsul şəxslər, vaxt)

## QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINDA FANDRAYZİNQ

*Fandrayzinq* – təşkilatın missiyasının həyata keçirilməsi üçün zəruri olan resursların formalaşdırılması üzrə fəaliyyətdir. Sosial əhəmiyyətli proqramların həyata keçirilməsi üçün xüsusi təşkil olunan ianə toplama prosesidir. Fandrayzinqin mərkəzi vəzifəsi – təşkilat üçün maliyyə axtarışı və onun idarə edilməsidir.

### FANDRAYZENQİN İDARƏ EDİLMƏSİ AŞAĞIDAKILARI NƏZƏRDƏ TUTUR.

### FANDRAYZiNQİN İDARƏ EDİLMƏSİ AŞAĞIDAKILARI NƏZƏRDƏ TUTUR.

☺ *Resursları düzgün idarə etmək*

- Pul
- Material və təchizat
- İnsanlar
- Donorlar
- Texnologiyalar
- İnformasiya
- İctimai rəy

☺ *Fandrayzinqqaydalarına riayət etmək*

- Təşkilatın prioritetlərinin müəyyən edilməsi
- Strateji və gündəlik planlaşdırmanı düzgün yerinə yetirmək
- Ciddi hazırlıq və vicdanlı fəaliyyət

- Təşkilatın uğurlu fəaliyyətinə yardım edən və ya mane olan faktorların təhlili.
- İctimaiyyət və KİV ilə əlaqələrin daim saxlanması
- Donorların psixologiya, etika, maddi, siyasi, dini, mənəvi və işgüzar maraqlarını nəzərə almaqla, işin düzgün qurulması
- Maraq və inam qazanmaqla, donorların inandırılması
- Könüllülərin fəal cəlbi
- Fəaliyyətin şəffaflığı

☺ *Dövlət, biznes, QHT və beynəlxalq təkkilatlarla qarşılıqlı münasibətin düzgün qurulması*

- Dövlət, biznes, QHT və beynəlxalq təşkilatlarla əməkdaşlığın düzgün qurulması
- Beynəlxalq təşkilatlarla sabit əməkdaşlıq
- Qanunverici bazadan düzgün istifadə
- Parlamentdə QHT maraqlarının lobbiləşməsinin təşkili
- Könüllü koalisiyaların yaradılması
- Demokratikləşmə proseslərinin ictimai monitorinqi

☺ *Layihələrin düzgün hazırlanması*

- Problemin qoyuluşu və tələbatın təhlili
- Məqsəd və vəzifələrin dürüst müəyyənləşdirilməsi
- Effektiv metod və texnologiyaların işlənməsi
- Məhsuldar iş planı və qrafikin tərtibi
- Güclü icra qrupunun formalaşdırılması
- Real büdcənin müəyyənləşdirilməsi
- Gözlənilən nəticələrin planlaşdırılması
- Prosesin monitorinqi

♕ **Fandrayzinqin uğurla idarəedilməsi şərtləri**

- İstək
- Daxili inam
- Peşəkarlıq
- Fiziki imkanlar (zamanla bağlı)

# YOXSULLUQLA MÜBARİZƏ PROSESLƏRİNİN İDARƏ EDİLMƏSİ

## *YOXSULLUĞUN AZALMASINA VƏ KƏND RAYONLARINDA ƏHALİNİN İQTİSADİ İNKİŞAFINA VƏTƏNDAŞ YARDIMI*

*Yoxsulluğun azaldırlması və iqtisadi inkişafa vətəndaş yardımı əhalinin yoxsul təbəqəsinin öz gəlirini artırmaq, həyat şəraitini yaxşılaşdırmaq, müstəqilliyə və davamlı inkişafa nail olmaq, onların həyat fəaliyyətinin təşkili və idarə edilməsinə yardım üzrə birgə iş metodlarının öyrədilməsini nəzərdə tutur.*

**Metodlar :**

Regionların potensial imkan və yerli şəraitinə uyğun icma, qadınlar, iş adamları və sahibkarlıq sahəsində digər qrupların davamlı gəlir gətirən fəaliyyətinin praktik təşkilinə, ekspertiza, təlim və tədqiqinə yardım.

**İqtisadi fəaliyyətin idarə edilməsi aşağıdakıları nəzərdə tutur:**

➢ İqtisadi məqsədəmüvafiqlik *sahələrinin* təhlili:

- Gəlirli fəaliyyətin növünün müəyyənləşdirilməsi
- Satış bazarının mövcudluğu
- Resursların kəmiyyət və keyfiyyəti (təlimləndirilmiş işçilər, materiallar, nəqliyyat, istehsal resursları, vaxt əmək)
- Başlanğıc və əməliyyat xərcləri
- Vasitə mənbələri
- Daxili və xarici risklər
- Fəaliyyətin gəlir qiyməti

➢ Gəlirin təhlili *yolları*:

- Satış qiymətinin müəyyənləşdirilməsi
- Satışdan hazır gəlirin qiymətləndirilməsi
- Pulun hərəkət qrafikinin tərtibi
- Böhranı nəzərə almaqla, müəssisənin gəlirinin hesablanması

➢ *Fəaliyyətin məzmununun vaxtı, müddəti və məsul şəxsləri göstərməklə, iş planının tərtibini nəzərdə tutan* fəaliyyətin planlaşdırılması

- Təcarət edən şəxslərin yüksək etikası, mütəhərrik planı, cəlbedici reklamı, optimal qiyməti, malın satış yerinin düzgün seçilməsi, malın keyfiyyətinin təmin edilməsi daxil olmaqla, marketinq qaydalarına riayət edilməsi
- Qənaətin formalaşdırılması *zəruriliyi*:
  - Kollektivin tələblərinin ödənilməsi
  - İstehsalın genişləndirilməsi üçün investisiya kapitalının formalaşdırılması
  - Maliyyə qarşılıqlıasılılığı və intizam
  - Kollektivin davamlılığı, mobilliyi və müstəqilliliyinin artırılması
  - Sığorta fondunun formalaşdırılması
  - Qarşılıqlı yardım kassasının təşkili
  - Öz kreditlərinin verilməsi
- *Gizli təhlükə və risklərin əsaslı təhlilini nəzərdə tutan* kreditlərlə iş

## YOXSULLUĞUN ARADAN QALDIRILMSI ÜZRƏ KULTUROLOJİ SEMİNAR VƏ TRENİNQLƏR

## NÜMUNƏVİ MÖVZU

*Təlim QHT, bələdiyyə və region icma rəhbərlərinin aşağıdakı mövzular üzrə ilkin təlim seminarları və idarəetmə treninqlərinin təşkilini nəzərdə tutur*

- İdarəetmə və liderlik mədəniyyəti
- İqtisadi fəaliyyətin idarə edilməsi
- Kollektivin təşkili
- Məişət təsərrüfatı və məhsuldar texnologiyaların inkişafı
- Marketinq maliyyə menecmenti və kreditləşdirmə
- Nəzarətin aparılması və hesabatın hazırlanması
- Fandrayzinq
- Monitorinq və nəticələrin qiymətləndirilməsi
- Etik mədəniyyət
- Hüquqi mədəniyyət

- Ünsiyyət və kommunikasiya, danışıqaparma mədəniyyəti
- Sülh mədəniyyəti
- Gender mədəniyyəti
- Həkimdənəvvəl tibbi yardımın əsasları

***Əhalinin sosial fəallığının artırılması üçün nəzərdə tutulmuş kulturoloji seminar /treninqin***

**PLANI**

- Seminara olan ehtiyacın və onun məqsədinin müəyyənləşdirilməsi (seminar/treninq nəyə lazımdır)
- Seminar/treninqin mövzusunun müəyyənləşdirilməsi
- İştirakçıların müəyyənləşdirilməsi (seminar/treninq kim üçün nəzərdə tutulub)
- Müzakirə suallarının müəyyənləşdirilməsi
- Təlim üsulu, metodika və metodologiyanın seçilməsi
- İş planının tərtibi
- Zəruri sxem, şəkil, kitab, plakat, foto-video materialın müəyyənləşdirilməsi
- Zəruri resursların müəyyənləşdirilməsi – maliyyə, istehlak materialları, qida, yerləşmə binası,nəqliyyat, iştirakçıların yerləşdirilməsi, protokollaşdırma, hesabatın tərtibi
- Yer və vaxtın müəyyənləşdirilməsi (harada və nə vaxt)
- Proqram-dəvətnamənin tərtibi və paylanması
- Press-reliz və daycestlərin hazırlanıb paylanması
- İştirakçılarla sosioloji sorğunun keçirilməsi, anketlərin işlənməsi
- Praktik tövsiyələrin işlənməsi və onların maraqlı təşkilatlara paylanması
- Sertifikatların hazırlanması və təqdim edilməsi

## PROSESİN TƏŞKİLATÇILARININ VƏZİFƏLƏRİ

- İcma, ev təsərrüfatı və region qadınlarının problem, ehtiyac, şərait və imkanlarının aşkar edilməsinə yardım edən marketinq

tədqiqatları və sosioloji sorğuların, eləcə də icmalarla görüşlərin keçirilməsi.

- Psixoloji və mədəni səviyyələri uyğun olan yoxsullar, icma nümayəndələri və qadın qruplarının içərisindən sabit (8-15 nəfər) kiçik qarşılıqlı yardım qruplarının təşkili.
- Qruplara gəlirli fəaliyyət, qənaət mədəniyyəti və sabit kiçik biznes təşkilatı üçün mikrokreditdən istifadə metodlarının öyrədilməsi (balıq yox, balıqtutan" prinsipi əsasında). İcmanın yerli kredit və qənaət qrupu bazasında xərclərin idarə edilməsi və koordinasiyası, hesabatların tərtibi.
- Qadınların hərtərəfli inkişafı və iqtisadi müstəqilliyə nail olmaları üçün onların sahibkarlığa qoşulması və təlim yolu ilə regionda gender mədəniyyəti və gender hüquq bərabərliyinin formalaşdırılmasına yardım. Qadınların iqtisadi fəaliyyətə cəlb edilməsi üzrə metodologiyanın işlənməsi.
- Regionların təbii coğrafi və iqtisadi xüsusiyyətlərinə uyğun gəlirli fəaliyyət növlərinin müəyyənləşdirilməsində icma və qarşılıqlı yardım qruplarına kömək . Müstəqil fəaliyyət, rəhbərlik, təşkil və planlaşdırma, resurs və bacarıqlardan daha yazşı istifadə, düzgün qərar qəbulu üçün onların real potensial, qabiliyyət və bacarıqlarının ortaya çıxarılmasına yardım etmək.
- İdarəetmə və təşkilat mədəniyyəti qrupu üzvləri arasında məsuliyyət, istehlak, peşəkarlıq vərdişləri və həyat keyfiyyətinin yüksəldilməsi yolunda problemlərin həlli metodlarının inkişafı.
- Yerli hökumət və beynəlxalq təşkilatların müəyyən etdiyi standartlara uyğun bacarıq və vərdişlərin inkişaf etdirilməsi üçün, QHT, bələdiyyə və vətəndaş cəmiyyətinin digər strukturlarına icma, qarşılıqlı yardım qrupları ilə iş metodları və onların işinin koordinasiyasının demokratik idarəetmə mədəniyyətinin öyrədilməsi.
- Yerli hakimiyyət orqanları, kiçik biznes, bələdiyyə, QHT və regionun digər vətəndaş cəmiyyəti strukturu nümayəndələrinin yoxsulluğun azaldırlması və iqtisadi inkişafı, eləcə də birgə fəaliyyət metodlarının konsepsiyası, proqram, metodologiya və beynəlxalq tələbləri üzrə məsləhətləşmələrin keçirilməsi.

- Əhalinin ərzaq və iqtisadi məhsul və xidmətlərdən geniş istifadəni təmin edən servisin təşkili.
- Regionun qarşılıqlı yardım qrupları, icma başçıları, hökumət və qeyri hökumət xidmətləri arasında davamlı əlaqənin yaradılması və onların fəaliyyətinin koordinasiyasına yardım. Yerli hakimiyyət orqanları ilə layihə əməkdaşlarının fəaliyyət planlarının uyğunlaşdırılması.
- Təcrübə mübadiləsi məqsədi ilə yoxsulluğun aradan qaldırılması üzrə digər layihələrdə iştirak, təcrübə mübadiləsi üzrə aylıq təhlil görüşləri, diskussiya və seminar, ixtisasartırma kurslarının təşkili və keçirilməsi.
- İnformasiya bülleteninin hazırlığı və buraxılması.
- Regionlarda qruplararası assosiasiyanın təşkili.
- Yerli sahibkarlığın təşkili üzrə müsbət təcrübənin digər regionlarda yayılması.

## TƏŞKİLAT KOMANDASINA TƏLƏBLƏR

- Müstəqil olaraq gəlirli, sabit maliyyə fəaliyyəti ilə məşğul olaraq, öz işini qiymətləndirib monitorinqini keçirmək üçün rayonda qarşılıqlı yardım qrupları və qruplararası assosiasiyaları təşkil etmək bacarığı.
- Əhali üçün treninq və seminarların planlaşdırılması və keçirilməsi bacarığı.
- Kənd əhalisi, təşkilatları və icmalarla iş təcrübəsi və idarəetmə təcrübəsi.
- Regionun dil, mədəniyyət və ənənələrinə bələdlik.
- Rayonların və məişət təsərrüfatlarının müayinəsini keçirib, yerlərdə problemin həll etmək, inkişaf və xidmət üzrə digər müəssisələrlə əməkdaşlıq etmək bacarığı.
- Yerli rəhbərlik və ictimaiyyətlə etibarlı münasibətlər qurmaq bacarığı
- Zəruri müstəqillik əldə edilməsi üçün əhalidə peşəkar bilik və bacarıqlar, liderlik keyfiyyətləri inkişaf etdirmək bacarığı.

**İş prinsipləri**

*Kiçik qarşılıqlı yardım qruplarında həyat qabiliyyəti və sabitlik formalaşdırmaq üçün, aşağıdakı prinsiplər üzrə təlim təşkil etmək vacibdir:*

- Bilik, ideya və təcrübənin vəhdətinə imkan verən birgə təlim;
- Ümumi sosial və iqtisadi maraqlar;
- Sosial bircinslilik;
- Gəlirli fəaliyyətə istiqamətlənmək;
- Müstəqillik və sabitliyin əldə edilməsinə istiqamətlənmək;
- Qadınların prioritet təlimi.

- ***Monitorinq***

**MONİTORİNQ**

*Dövlər və sosial idarəetmnin effektivliyi monitorinq keçirilməsini tələb edir*

♔ Monitorinq – informasiya toplanması, müşahidə, təhlil, qiymətləndirmə və idarəetmənin effektivlik vəziyyətinin proqnozlaşdırılmasıdır.

♔ Monitorinq sabit sosial-mədəni və iqtisadi inkişafın tənzimlənməsi və proqnozlaşdırılması sisteminin bir hissəsidir.

♔ Monitorinq fəaliyyətinin effektivliyi və prosesin, layihənin, proqramın, təşkilatın, dövlətin təhlükəsizliyini təmin edən informativ-analitik funksiyaları yerinə yetirir.

♔ Monitorinqin məzmunu:

- monitorinqin mövzusu üzrə dövri informasiya toplanışı;
- monitorinq obyektlərinin effektiv idarə edilməsinə nəzarət;
- monitorinq obyektlərinin sosial-mədəni, iqtisadi, maliyyə, hüquqi,texnoloji, istehsalat-texniki, ekoloji vəziyyət tendensiyalarının təhlili;
- monitorinq obyektlərinin idarə edilməsinin effektivliyinin bilavasitə müayinəsi və qiymətləndirilməsi;
- monitorinq obyektlərinin maliyyə- iqtisadi vəziyyətinin respublikanın ruhi mədəniyyəti və iqtisadi inkişafına təsirinin proqnozlaşdırılması.

♔ Monitorinqin predmeti :

- monitorinq obyektlərinin sosial-mədəni, kadr,maliyyə və iqtisadi vəziyyəti;
- monitorinq obyektləri fondlarının vəziyyəti; dövlət və təşkilatın həyat fəaliyyətinə qabaqcıl sosial-mədəni , istehsal və informasiya texnologiyalarının daxil edilməsi;
- monitorinq obyektlərinin investisiya fəaliyyəti;
- ətraf mühitin mühafizəsi və təbiət resurslarından səmərəli istifadə;
- işçilərin sosial-mədəni və əmək hüquqlarının mühafizəsi;
- hüquqi məsələlər;

♔ Monitorinqin iştirakçıları aşağıdakılardır:

- səlahiyyətli dövlət orqanı;
- mərkəzi və yerli icra orqanları;
- qeyri–hökumət orqanları;
- müayinə edilən layihə, proqram, təşkilat rəhbərləri;
- qanunvericilik üzrə səlahiyyətli orqan tərəfindən monitorinqin keçirilməsinə cəlb olunmuş məsləhət xidmətləri üzrə ixtisaslaşan təşkilat, məsləhətçi və ekspertlər.

**Vətəndaş cəmiyyətində ictimai monitorinq** –
hökumətin öz üzərinə götürdüyü kursun qanuniliyi və həyata keçirilməsinə nəzarət prosesi, eləcə də mərkəzi və yerli hökumət orqanlarının öz üzərinə götürdüyü sosial və siaysi öhdəliklərin adekvatlığı haqqında ictimaiyyətin məlumatlandırılmasıdır.

## MONİTORİNQİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ

♔ Monitorinqin məqsədi – təşkilat və ya dövlətin sabit inkişafına təhlükə ola biləcək, əlverişli olmayan daxili və xarici şərait, proses və faktorlardan mühafizə, təşkilat və ya dövlətin proqram, layihə və ya proseslərinin rəqabətəqabil və həyat əhəmiyyətliliyinə yardım etmək, təhlükəsizliyini qorumaqdır.

♔ Monitorinqin vəzifələri:

- monitorinq obyektlərinin insan kapitalı potensialı və intellektual, etik, idarəetmə, peşəkarlıq. kadr, təhsil, informativ, psixoloji, sosial-mədəni vəziyyətinin təhlili;

- monitorinq obyektlərinin ekoloji, istehsal-texniki, texnoloji, hüquqi, maliyyə, sosial-iqtisadi təhlili;
- monitorinq obyektlərinin effektiv idarə edilməsinə mane olan problemlərin aşkar edilməsi;
- monitorinq obyektləri fəaliyyəti nəticələrinin təşkilat və ya dövlətin inkişaf perspektivləri təsirinin qiymətləndirilməsi;
- təşkilat və milli iqtisadiyyata investisiya axınına yardım edən şəraitin yaradılması;
- monitorinq məsələləri üzrə mərkəzi və yerli icra orqanları və qeyri-hökumət sektoru ilə qarşılıqlı fəaliyyət;
- hökumət, mərkəzi və yerli icra orqanları və monitorinq obyektləri üçün obyektlərin dövlət idarəçiliyi forma və metodlarının təkmilləşdirilməsi üzrə tövsiyələrin hazırlanması;
- qeyri0effektiv idarəetmə ilə nəticələnə biləcək səbəb və şəraitin qarşısının alınması;
- monitorinq üzrə elektron informasiya bankının formalaşdırılması və daimi qeydiyyat aparılması.

## MONİTORİNQİN KEÇİRİLMƏSİ ARDICILLIĞI

♔ Monitorinq , onun predmetinə aid ayrı-ayrı və ya bütün məsələləri əhatə edilməklə bir və ya bir neçə obyektdə keçirilə bilər.

♔ Monitorinqə müşahidə, təhlil, qiymətləndirmə, proqnoz və tövsiyələr daxildir.

♔ Monitorinqin keçirilmə ardıcıllığı maşahidəni nəzərdə tutur:

- baza göstəricilərinə-ilkin verilənlərəin (monitorinq iştirakçılarına təqdim edilən informasiya və materiallar haqda statistik hesabat);
- dəyişiklikləri qeyd edən operativ göstəricilərinin;
- monitorinqin keçirilmə dövrlərindəki göstəricilərin (müəyyən dövrdən sonra) müşahidəsi.

♔ Monitorinq obyektlərinin effektiv idarə edilmə vəziyyətinin təhlili ilkin verilənlərin müqayisəsi yolu ilə həyata keçirilir.

♔ Monitorinq obyektlərinin idarə edilməsinin effektivliyi haqqında nəticələr monitorinqi keçirən qrupun səlahiyyətli orqana təqdim ediləcək hesabatlarında qeyd olunur.

♔ İdarəetmə effektivliyinin qiymətləndirilməsi və monitorinq obyektlərinin tədqiq edilən inkişaf tendensiyaları haqqında proqnozların tərtibi səlahiyyətli orqan tərəfindən verilən materialların sistemli təhlili əsasında aparılır.

♔ Təşkilat, müəssisə və və idarələrdə meqativ proseslərin müəyyənləşdirilib aradan qaldırılnması üzrə tövsiyələrin hazırlanması tərtib edilmiş proqnoz əsasında həyata keçirilir.

♔ Monitorinqi həyata keçirən orqan:

- monitorinq keçiriləcək obyektləri müəyyən edir;
- monitorinq keçiriləcək plan və proqramı təsdiq edir;
- qəbul edilmiş qaydaya əsasən, işlərin icra müddəti və növü, hesabatların keçirilmə ardıcıllığı, əldə edilmiş informasiya və materialların məxviliyinin gözlənməsindən ibarət
- monitorinqi keçirən qrupun tərkibinə daxil edilməsi üçün nümayəndələrin namizədliyini mərkəzin yerli icra orqanları ilərazılaşdırır;
- səlahiyyətli orqanın nümayəndəsinin başçılığı ilə monitorinq keçirən qrupu təsdiq edir;
- monitorinqi keçirən qrupun üzvlərinə monitorinqin obyekt və predmeti , müayinə edilən obyektdə olma müddəti, dövlət, ticarət və xidməti sirlərin yayılması haqqında vəzifələri göstərilən məjktubu qrup üzvlərinə paylayır;
- monitorinqi keçirən qrup üzvlərini metodik tövsiyə, məsləhət və informasiya materialları ilə təmin edir;
- monitorinq obyektləri rəhbərlərinə, mərkəzi və yerli icra orqanlarına monitorinqin keçirilməsini bildirir və onlarla birgə fəaliyyət göstərir;
- mövcud qanunvericilik tələblərinə uyğun informasiya və materialları toplayır və monitorinq iştirakçılarına paylayır;
- keçirilmiş monitorinqin nəticələrini ümumiləşdirir, monitorinqin nəticəlkəri üzrə tövsiyə və inkişaf proqnozlarını hökumət, mərkəzi və yerli məlumat orqanlarına təqdim edir.

- monitorinqin elektron verilənlər bazasını tərrtib edir, onun yeniləşməsini, onun qorunmasını təmin edir, informasiya xidmətlərini həyata keçirir.

*Dövlət monitorinqinin keçirilməsi büdcə vasitələri hesabına maliyyələşir.*

- ***İqtisadi inkişafın idarə edilməsi***

## MÜƏSSİSƏNİ İDARƏETMƏ MƏHARƏTİ ABŞ TƏCRÜBƏSİ

Piter Druker, Li Yakokka və iqtisadiyyatın idarə edilməsi sahəsində digər tanınmış mütəxəssislərin əsərlərinin təhlili bizə, menecmenti daha yaxşı bilmək üçün zəruri olan bəzi şərtləri ayırıb sistemləşdirməyə imkan verir.

*Müəssisnin idarəedilməsi məharəti menecerlərdən aşağıdakıları tələb edir:*

- keyfiyyətli təhsil, peşəkarlıq, səriştəliliyin və rəhbərliyə yardım keyfiyyətinin olmasını;
- müəyyən edilmiş qayda və texnologiyalara uyğun öz vəzifə və funksiyalarını vicdanla yerinə yetirmək;
- həyatda və biznesdə dialektik dəyişiklikləri və zaman faktorunu nəzərə alaraq, vaxtında və *qəti qərarlar qəbul edilməsi* üzrə idarə və cəsarət ;
- öz peşə imkanlarını real qiymətləndirmək və onu özünütənzimləmə əsasında həll edilən problemlərlə uyğunlaşdırmaq;
- məqsədləri düzgün müəyyənləşdirmək, "zəif yerləri" aşkar etmək, prioritet məsələləri və onların həll edilməsinin effektiv metodlarını tapmaq bacarığı;
- məsuliyyətli qərarları müstəqil olaraq qəbul etmək bacarığı;
- əməyi əməkdaşlar arasında düzgün bölüşdürmək bacarığı, başqalarının görməli olduğu işi özünün etməsinə çalışmamaq;

- mütəşəkkil və ahəngdar qarşılıqlı münasibətə yüksək peşəkarlığa, məsuliyyətə və bir-birinə həqiqi dostluq və məhəbbətə malik komandanın formalaşdırılması bacarığı;
- tabeliyində olanlarla sadə davranmaq, öz ağlı, xeyirxahlığı və səmimiliyi, hər kəsin problemlərini bilməsi və anlaması ilə onların hörmət və məhəbbətini qazanmaq bacarığı;
- əməkdaşlarını diqqətlə dinləmək, anlamaq, onların çətinliklərinin aradan qaldırılmasına yardım etmək;
- əməkdaşların, fəal iştirakçı kimi, fəaliyyət planının hazırlanması və reallaşdırılmasına cəlb edilməsi bacarığı;
- kollektiv üzvlərini məhsuldar və vicdanlı əməyə, *effektiv idarəetmə üçün aparıcı əhəmiyyət daşıyan,* işə yalnız biliyi deyil, həm də qəlbi və təcrübəsi ilə yanaşmağa motivləşdirmək bacarığı;
- ünsiyyətlilik, adamlarla davranış, əməkdaşlarla qarşılıqlı fəaliyyət, ümumi işin xeyrinə insan potensialından məhsuldar istifadə edilməsinə təkan verən qarşılıqlı anlaşma və həmrəylik mühitinin yaradılması bacarığı;
- yaxşı işçiləri pul mükafatı, treninq hazırlığı və vəzifələrini artırmaq yolu ilə həvəsləndirilməsi;
- kütləvi qarşısında çıxış və fərdi söhbət etmək bacarığının olması;
- kvartal məruzələrinin hazırlanması.

Li Yakokkanın kvartal məruzələri sisteminin effektivliyi onunla şərtlənir ki, o, yaranan problemlərin həllinə yeni yanaşmaları stimullaşdırır və bütün səviyyəli rəhbərlərə aşağıdakı imkanları yaradır:

- öz vəzifələrini müstəqil müəyyənləşdirib, özünənəzarəti həyata keçirmək;
- ideyanın həyata keçirilməsi üzrə ilk addımın ən uğurlu vasitəsi olan, fikirləri yazılı ifadə etmək;
- işin məqsəd, məzmun və metodlarını korrektə etmək;
- öz xəyallarını unutmamaq;

- görülmüş işlərin nəticəsini qiymətləndirmək, müsbət təcrübəni ayırmaq və növbəti kvartal üçün yeni vəzifələr müəyyənləşdirmək;
- yeni plan tərtib edib, onun icra vaxtı və metodlarını müəyyənləşdirmək;
- öz peşəkarlığını, əməyinin nəticəyönümlülüyünü, son nəticəyə görə müstəqillik və məsuliyyətini artırmaq;
- innovasiyalı fəaliyyəti inkişaf etdirmək və onun praktik olaraq həyata keçirilməsinə yardım etmək;
- hər bir rəhbər işçinin əməyinin keyfiyyət və effektivliyini aşkar etmək;
- təşkilatın bütün səviyyələrdəki rəhbərləri arasında permanent dialoqun həyata keçirmək;
- tutduğu vəzifələrə uyğun olmayan işçiləri vaxtında aşkar edib onların könüllü olaraq imkanlarına uyğun vəzifələrə keçirmək;
- ümumi qarşılıqlı razılaşdırılmış və birgə işlə bağlı əməkdaşların fəaliyyətinin koordinasiyasını yaxşılaşdırmaq;
- proqnozlaşdırma qabiliyyətinin formalaşdırılması;
- müəssisə rəhbərinin monitorinq və nəzarət fəaliyyətini yüngülləşdirməsi.

Li Yakokka öz işçilərinə aşağıdakı sualları verirdi:

1. *Yaxın 3 ay üçün qarşınıza hansı məsələləri qoyursunuz?*
2. *Plan, prioritet və vəzifələriniz nədən ibarətdir?*
3. *Onların həyata keçirilməsi üçün nə etmək fikrindəsiniz?*

*Düzgün qərar qəbul edilməsini təmin edən faktorlar aşağıdakılardır:*

- ➢ məqsədə çatmaq haqqında dəqiq təsəvvür;
- ➢ texnoloji və marketinq tədqiqatlarının nəticələri;
- ➢ dəyişikliklər haqda düzgün informasiya;
- ➢ toplanmış təcrübə;
- ➢ faktlara əsaslanan intuisiya;
- ➢ şüurlu risk.

*Menecerin natiqlik bacarığı*

1. Nitqi vermək istədiyin xəbərlə başlamaq.
2. Sonra məhz bunu söyləmək.

3. Sonda artıq söylənilənləri təkrar etmək.
4. Auditoriyaya real etməli olduqlarının təlqin edilməsi (yəni, auditoriyanı lazımi dərəcədə təşkil edib, tərk etməklazımdır).

## "YAPON İQTİSADİ MÖCÜZƏSİNƏ" NAİL OLMAĞA YARDIM EDƏN XÜSUSİYYƏTLƏR

- Sağlam milli ideya
- İntellektual mədəniyyətin prioritetləri
- Milli mədəniyyətin demokratikləşdirilməsi
- Əldə edilə bilən inkişaf məqsədlərinə istiqamətlənmiş elmə əsaslanan və uzaqgörən milli strategiyanın mövcudluğu.
- İşçi qüvvəyə az xərc çəkməklə yüksək məhsuldarlıq əldə edilməsinə səbəb olan ümumi dəyər, ideologiya, və milli ideya əsasında rəhbər və tabeçilikdə olanların maraqlarının birləşməsinə yardım edən korporativ mədəniyyət.
- İşçi kollektivlərində yüksək intizam və qayda, vətənpərvərlik və qürur, yüksək vəzifə borcunun olması.
- Siyasi və iqtisadi praqmatizm, müdriklik və iqtisadi siyasətin mütəhərrikliyi.
- Hökumət və iqtisadiyyat arasında, vahid milli məqsədlər və dövlət stimullaşdırma sistemindən istifadə etməklə, sıx əməkdaşlıq.
- Müəssisə rəhbərliyinin həmkarlar təşkilatı ilə qarşılıqlı əməkdaşlıq və hörmət prinsipi əsasında fəaliyyəti.
- Xarici partnyorlarla bərabərhüquqlu müqavilələr və qarşılıqlı əlverişli müqavilələr əsasında azad ticarətin tənzimlənməsi.
- Yaxşı təhsili və təşkilatçılıq istedadı olan rəqabətəqabil rəhbər işçilərin düzgün seçilməsi və yerləşdirilməsi.
- 
- İstehsalat kollektivlərində işçilərin qarşılıqlı əvəzedilməsini təmin edən universal bilik və vərdişlər.
- Xüsusi prioritet sahələrin düzgün müəyyənləşdirilməsində hökumətin ekspert yardımı və elmi-tədqiqat , təcrübə-konstruktor işlərinin həyata keçirilməsində onlara yardım göstərilməsi.

♔ Dövlətin iqtisadiyyatı, zərurət məntiqi ilə şərtlənən, tənzimləməsi.

♔ İqtisadiyyatın idarə edilməsində elm və incəsənətin əsas prinsiplərininin gözlənilməsi.

♔ İdarəetmə və təşkilatlanma sahəsində dünya təcrübəsinin müntəzəm olaraq öyrənilməsi və yaradıcı tətbiqi.

♔ İstehsalın yüksək səviyyəsini təmin edən yüksək məsuliyyət mədəniyyəti.

♔ Elmi tədqiqat və texnoloji işləmələrə prioritet maliyyə qoyuluşu.

♔ Eksport edilən məhsullarının maya dəyərinin aşağı düşməsinə yardım edən milli pul vahidinin aşağı dəyər məzənnəsininin süni saxlanması və onun xarici bazarda cəlbediciliyinin qorunması.

♔ Hərbi xərclərin aşağı səviyyəsi ilə əlaqədar aşağı vergilər.

♔ Doğru informasiyanın mövcudluğu.

**YAPONİYA VƏ ABŞ**
**idarəetmə sisteminin müqayisəli səciyyəsi**
(ak. Z.Səmədzadənin təqdimatı)

| YAPONİYA | ABŞ |
|---|---|
| 1. Ömürlük muzd | 1. Qısamüddətli muzdlu iş |
| 2. Təyinat və ödəmələrdə yaş üstünlüyü | 2. İşin fərdi nəticələrinə görə ödəmə |
| 3. Qeyri-rəsmi nəzarət | 3. Formal nəzarət |
| 4. İş tapşırığının yayğın təsviri | 4. İş tapşırığının dəqiq təsviri |
| 5. kollektiv məsuliyyət | 5. Fərdi məsuliyyət |
| 6. Vəzifə və tapşırığın olmaması | 6. Tapşırıq vəzifə ilə müəyyənlə şir |
| 7. Uzlaşma və əməkdaşlıq vurğulanır. | 7. Nəticə və effektivlik vurğulanır |
| 8. Razılaşdırılmış qərar | 8. Fərdi qərar |
| 9. Aşağıdan yuxarı idarəçilik | 9. Yuxarıdan aşağıya idarəçilik |
| 10. İstehsalatdan ayrılmamaqla təlim | 10. İxtisasartırmanın xüsusi proqramları |
| 11. Ali təhsil müəssisələrindən yeni məzunların cəlbi | 11. Yeni məzunların və yaşlı əməkdaşların cəlb edilməsi |
| 12. Uzunmüddətli oriyentasiya | 12. Gündəlik nəticələrə diqqətin artırılması. |

## MARKETİNQ

*Elmi anlamda marketinq* – iqtisadi nəzəriyyənin bölməsi olub, məhsulun geniş mənada satılması problemini tədqiq edir.

*Praktik anlamda marketinq* – müəssisə fəaliyyətinin elə bir sistemidir ki, bu zaman əvvəl bazar öyrənilir, bazarın tələbatlarına uyğun məhsul istehsal olunur və onlar istehlak bazarına doğru hərəkət etdirilir.Marketinq prosesi istehlakçının tələbinin ödənilməsinə istiqamətlənir. O, məhsul istehsalı ilə başlayıb onun reallaşdırılması ilə qurtarır.

**Praktik marketinqin altı qızıl qaydası**

- Tələbat olan *məhsulun* dizaynı, keyfiyyəti və mövcudluğu.
- Məhsul satılan *yerin* əlverişli və estetik olması.
- Məhsulun səmərəli, rəqabətəqabil və sabit *qiyməti.*
- Tələbata və bazar dəyişikliklərinə həssas mütəhərrik *plan.*
- Düşünülmüş və cəlbedici *reklam.*
- Məhsulun satışı ilə məşğul olanların tüksək alicənablıq və etikası.

## DÖRDÜNCÜ BÖLMƏ. ELMİ TƏRİFLƏR, MÜƏLLİFİN PRAKTİK TÖVSİYƏ VƏ İŞLƏMƏLƏRİ

- ***Mədəniyyət və kulturologiya anlayışları***

MƏDƏNİYYƏT HAQQINDA ANLAYIŞ

**Dar (adi)**

**Dar mənada mədəniyyət** – mənəviyyat, incəsənət və mədəni

**Kontekstual**

**Kontekstual (mətni) mənada mədəniyyət** – insanın və ya hər hansı bir hadisənin inkişaf səviyyəsinin keyfiyyət səciyyəsidir.Bu məna həyat fəaliyyətinin müxtəlif sahələrinə tətbiq edilə bilər.

**Elmi**

**Elmi mənada mədəniyyət**: təbiət, insan və cəmiyyətin idrakı və dəyişdirilməsi, nəticədə yaranan **ruhi (əqli və mənəvi)** və maddi dəyər və normalar, onların istehsalı, saxlanması, istehlakı və istifadəsi texnologiyaları.

*Mədəniyyətin elmi mənada dərk edilməsi onun, insanın maddi və ruhi tələbatlarının ödənilməsi üçün zəruri məhsul istehsalı və həyat fəaliyyətinin effektiv texnologiyalarının yaradılmasına istiqamətlənən fəaliyyətinin nəticəsi olan, rifahın artmasının texnoloji faktoru rolunu anlamağa yardım edir.*

## MƏDƏNİYYƏT SOSİAL SİSTEMDİR

(müasir cəmiyyətin mədəniyyətinin sosial strukturu)

1. **Təhsil, maarif, tərbiyə**
2. **Elm və Texnologiya**
3. **İqtisadiyyat və Maliyyə**
4. **Etika**
5. **Hüquq və Qanunvericilik**
6. **Həyat tərzi**

(Dil, Adət, Ənənə, Din, Etika, Hüquq, Əmək, Məişət, İstirahət və əyləncə, Məşğuliyyət, Sosial-mədəni həyatda iştirak)

7. **Həyat təminedici sistemlər**

(Mənzil, Qida, Geyim, Əmək, Komunal təminat sistemləri (su, qaz, işıq), Səhiyyə, Fiziki mədəniyyət, İdman, Ekologiya, Tikinti, Teleradiokomunikasiya, Rabitə, Ticarət, Müdafiə, Hüquq-mühafizə orqanları, Təhlükəsizlik orqanları, Nəqliyyat)

8. **Təşkilat və İdarəetmə**
9. **İncəsənət(Bədii mədəniyyət) və Mədəni irs**

(Ədəbiyyat və publisistika, Musiqi incəsənəti, Təsviri incəsənət, Folklor incəsənəti, Dekorativ-tətbiqi incəsənət, Teatr incəsənəti, Kino incəsənəti, Memarlıq incəsənəti, Sirk incəsənəti, Zərgərlik işi, Xalçaçılıq, Dizayn, Şifahi, yazılı, maddi mədəniyyət abidələri)

10. **İnformasiya və Mətbuat**
11. **Din**
12. **İdeologiya,daxili siyasət və beynəlxalq münasibətlər**

# İQTİSADİYYAT MƏDƏNİYYƏTİN SOSİAL İNSTİTUTUDUR

Mədəniyyəti elmi anlamda bütöv sosial sistem kimi dərk etmək, inkişafın məqsəd və vasitə göstəricisi, "ikinci süni təbiət" kimi görmək, onun sosial institutlarına, eləcə də iqtisadiyyata yeni nəzərlə baxıb, qiymətləndirməyə imkan verir.

**Bu gün** biz mədəniyyəti statik hadisə, iqtisadiyyatın üst qurumu kimi nəzərdən keçirə bilmərik. **İqtisadiyyat** bütöv ruhi və maddi mədəniyyət sisteminin bir hissəsidir. O, insanın həyati tələbatlarının ödənilməsinə istiqamətlənmiş, **ruhi mədəniyyətin maddiləşmiş təcəssümü və ya ruhi istehsalın maddiləşməsinə doğru nəticəyönümlü prosesidir.**

Təfəkkür stereotiplərindən imtina etməklə, **mədəniyyətə bütöv sosial sistem kimi baxmaq, iqtisadiyyatı mədəniyyətin komponentlərindən biri kimi görməyə imkan verir.** Bunun üçün **iqtisadiyyatın formalaşmasına insanın fəaliyyət sahəsi kimi** diqqət yetirmək kifayətdir.

Kulturoloji baxımdan bu, ardıcıl proses olaraq, **intellektual kapitalın iqtisadiyə, ruhi istehsalın maddiyə çevrilməsi kimi nəzərdən keçirilir:**

1. **İdeya**
2. **Elmi biliklər**
3. **Texnologiyalar**
4. **İstehsal**
5. **Menecment**
6. **Hazır məhsul (istehsal və satış)**

*İstehsalın resursları:*

7. **İnsan kapitalı**
8. **Maliyyə kapitalı (investisiyalar)**
9. **Xammal**
10. **Material, texnika və təchizat**
11. **Enerji**
12. **Tikililər**

*Qeyd: Öz elmi biliklərinin istehsalı ( fundamental və tətbiqi tədqiqatlar) yüksək texnologiyaların rəqabətəqabilliyini, qiymətli*

*kağızların idxalı səviyyəsini və ölkənin real müstəqillinin yüksəldilməsinə imkan verir.*

## KULTUROLOJİ ANLAYIŞLAR

***Kulturologiya – insanın yaradıcı həyatı və fəaliyyəti, onun mahiyyəti, xüsusiyyətləri, tarixi, inkişaf qanunları, nailiyyətləri, texnologiyaları və dəyişdirici imkanları haqqında elmdir.***

- *Mədəniyyətin effektivlik formulu*

## MƏDƏNİYYƏTİN EFFEKTİVLİK FORMULU

Qədim dövrlərdən indiyə qədər həyatın mühafizəsi və yaxşılaşdırılması, insanın fasiləsiz artan tələbatlarının ödənilməsi ***insanın mədəni inkişafının əsasını təşkil edir***. Bu halda sosial-mədəni tərəqqinin sürət və keyfiyyəti ***mədəniyyətin effektivliyi*** ilə müəyyənləşir. Cəmiyyətin mədəniyyətinin effektivliyi nəqədər yüksək olarsa, bir o qədər iqtisadi inkişaf səviyyəsini səciyyələndirən ümumi ictimai məhsulun göstəriciləri yüksəlir, insan inkişafının indeksi artır, həyatın rifah səviyyəsi və keyfiyyəti qalxır.

$$Mədəniyyətin\ effektivliyi(F) = \frac{Həyat.fəaliyyət.keyfiyyəti(Q)}{Xərclər(N) \times Vaxt(T)}$$

$$F = \frac{Q}{N \times T}$$

$$Q = f(X)$$

$X$ = *cəmiyyətin mədəni səviyyəsi*

- ***Həyat fəaliyyətinin keyfiyyəti*** - həyat fəaliyyətinin keyfiyyət və xüsusiyyət məcmuu, faydalılıq ölçüsü, onun ictimai və fərdi tələbatları ödəmə qabiliyyəti səviyyəsi.

- ***Cəmiyyətin mədəni səviyyəsi-*** elm, təhsil, etika, idarəetmə, hüquq, texnologiyalar, istehsal və istehlakın inkişaf səviyyəsi ilə müəyyən edilir.
- ***İnsanın mədəni səviyyəsi-*** onun bilik, bacarıq, mütəşəkkillik, mənəviyyatlılıq və yaradıcı fəaliyyətinin səviyyəsi ilə müəyyən olunur.
- ***Xərclər*** – təhsil, tərbiyə, elm, idarəetmə, texnologiya, istehsal, incəsənət, səhiyyə, ekologiya və digər sahələrə sərf edilən maliyyə və əmək xərcləri.
- ***Zaman*** – həyat fəaliyyətinin yeni keyfiyyətinə nail olmağa yardım edən maddi və mənəivi dəyər normalarına sərf edilmiş vaxt.

***Həyat fəaliyyəti keyfiyyətinin artmas, inkişafasərf edilən vaxtın və xərclərin azaldırlmasıaşağıdakılarla*** *müəyyənləşir:*

- elm və yüksək texnologiyaların səviyyəsi ;
- şəxsiyyətin mədəniyyəti və onun yaxşı işləmək istəyi ;
- əmək mədəniyyəti bölüşdürmə münasibətləri ;
- ümumi ictimai məhsul və milli gəlirin səviyyəsi ;
- intensiv faktorlar (işçilərin sayının artırılması və xərclərin həcminin artırılması );
- iqtisadiyyatın struktur təkmilləşdirilməsi ;
- ictimai əməyin təşkili və stimullaşdırılması ;
- dövlətin hüquqi və etik sisteminin effektivliyi;
- səhiyyə, ekologiya, fiziki hazırlıq, idmanın inkişaf səviyyəsi;
- istehlak mədəniyyəti.

Mədəniyyətin effektivlik formulu parametrlərinin müəyyənləşdirilməsi və qiymətləndirilməsi, insanın və cəmiyyətin mədəni səviyyəsi, həyat fəaliyyəti keyfiyyətinin ölçü vahidinin yaradılması üçün xüsusi sosiokulturoloji tədqiqatların aparılması tələb olunur. Bu məqsədlə, hal-hazırda müəllif tərəfindən xüsusi testlər hazırlanır.

# MƏDƏNİYYƏTİN FAYDALI İŞ ƏMSALI VƏ ENTROPİYASI

Müasir dövlət və cəmiyyətlərin mədəniyyət effektivliyi, eləcə də inkişaf səviyyəsi haqqında fikir söyləməyə imkan verən əsas göstərici ***rifahdır***, yəni, əhalinin zəruri ruhi və maddi nemətlərlə - insan həyatını təmin edən predmet, xidmət və şəraitlə təmin olunmasıdır. Rifah, *müəyyən dövr ərzində yaradılmış nemət, xidmət və predmetlərin dəyərinin* qiymətləndirilməsi ilə ölçülür.

Mədəniyyətin inkişaf səviyyəsi və effektivlik göstəricisi olan rifah - *əmək məhsuldarlığı, faydalı iş əmsalı və mədəniyyətin entropiya səviyyəsindən* daha çox asılıdır.

Məhsul vahidi istehsalına sərf olunan zamanın miqdarı ilə ölçülən ***əmək məhsuldarlığı, müəyyən səviyyədə***, intellektual mədəniyyətin inkişaf səviyyəsi və elmi nailiyyətlərin texnoloji tətbiqindən asılıdır.

Enerjinin dəyişməsi baxımından (dövri prosesdə işə çevrilən), texnoloji fəaliyyətin effektivlik səciyyəsi olan ***mədəniyyətin faydalı iş əmsalı,*** fəaliyyət prosesində işlənən faydalı enerji ilə sərf olunan ümumi enerji miqdarının nisbəti ilə müəyyən edilir.

$$\textit{MƏDƏNİYYƏTİN FİƏ} = \frac{Sərf.olunmuş.faydalı.enerji(iş)}{Sərf.olunmuş.ьmumi.enerji(iş)}$$

Ruhi və maddi dəyərlərin istehsalı prosesində ümumi enerjinin (işin) faydalı nəticəyə çevrilməyən hissəsinin itirilməsi,"paylanması", yəni ***mədəniyyətin entropiyası*** baş verir. Bunu aşağıdakı formulla ifadə etmək olar :

*MƏDƏNİYYƏTİN ENTROPİYASI* =
**Sərf edilmiş ümumi enerji (iş)**
*çıxılsın*
**Sərf edilmiş faydalı enerji**

Kulturologiyada sosial-mədəni entropiya dedikdə, bir sistem olan konkret lokal mədəniyyətin tam və ya onun bir hissəsinin deqradasiyası (geriləməsi) başa düşülür.

- ***Mədəni insanın formulu***

**MƏDƏNİ İNSANIN FORMULU**

1. ***Bilik*** –

✓ *Mühüm mənbələr*- təhsil və elm

2. ***Bacarıq*** – həyat fəaliyyətinin vərdiş və texnologiyaları

✓ *Mühüm mənbələr*- təcrübə

3. ***Mütəşəkkillik*** –

☺ nizam-intiama bağlılıq
☺ sosial məsuliyyət
☺ iradə

4. ***Mənəviyyat*** –

☺ humanizm
☺ məhəbbət
☺ dostluq
☺ vicdan
☺ ləyaqət
☺ dürüstlük
☺ həqiqət tərəfdarı
☺ ədalətlilik
☺ xeyirxahlıq
☺ inam
☺ vətənpərvərlik
✓ Mühüm mənbə - tərbiyə

5. ***Yaradıcı fəaliyyət*** -

✓ *Mədəni insanın şüurlu tələbatı olmaqla, bilik, bacarıq, mütəşəkkillik və pozitiv mənəviyyat səviyyəsi ilə müəyyənləşir.*

# ŞƏXSİYYƏTİN MƏDƏNİYYƏT PİLLƏLƏRİ VƏ KEYFİYYƏT TİPLƏRİ

Əsas intellektual, etik kateqoriyalar və irsi keyfiyyətlər

| **İntellektual** | **Etik** | **İrsi keyfiyyətlər** |
|---|---|---|
| Ağıllı<br>Təhsilli<br>Yaradıcı<br>Ağılsız<br>Cahil | Xeyirxah<br>Şər niyyətli | İstedad<br>Mədəniyyətə küt |

A. 1-3 Ağıllı və xeyirxah = mədəni altruist (pozitiv uyğunluq)
B. 1-3 Ağıllı, xeyirxah və təhsilli = mədəniliyin daha yüksək pilləsi
C. 1-3 Ağıllı, xeyirxah, təhsilli və yaradıcı = mədəniyyəti yaradan, elitar ziyalılıq nümayəndəsi
D. 2-3 Ağılsız, lakin xeyirxah = humanist, pozitiv, amma zəif
E. 1-4 Ağıllı, təhsilli, amma şər niyyətli = sivil eqoist (təhlükəli, "iblis"xislətli)
F. 2-4 Ağılsız, cahil və şər niyyətli = mədəniyyətsiz ( idarə edilən potensial dağıdıcı )

Təsir faktorları:
- Təhsil
- Ailə tərbiyəsi
- Kollektiv və mühitin sosial mühiti
- Xarakter
- İrsi keyfiyyətlər

## İNSANIN MADDİ VƏ MƏNƏVİ HƏYATINI TƏMİN EDƏN AMİLLƏR

## (İNSAN ENENRJİSİNİ QİDALANDIRAN MƏNBƏLƏR)

1. Hava
2. Su
3. Qida
4. Əmək
5. Yuxu
6. Fiziki mədəniyyət, hərəkət
7. Sanitariya, tibb, ekologiya
8. Maddi tələbatların ödənilməsi (mənzil, geyim, ayaqqabı, enerji, fərdi və kütləvi istehlak malları)
9. Ruhi tələbatların ödənilməsi( ruhi qida)
   - ✓ Şüurun qidası (idrak, təhsil, elm, maarif,informasiya)
   - ✓ Hisslərin qidası (məhəbbət, dostluq, inam, incəsənət)
10. Yaradıcı (qurucu) əmək
11. İstirahət (bədii ədəbiyyat, oyun, əyləncə, turizm və s.)
12. Seksual tələblərin ödənməsi və nəslin davam etdirilməsi (ailə, nigah)

*İnsanın xarakteri və mədəni inkişaf səviyyəsibndən asılı olaraq, onun həyat vasitəsi olan mədəniyyəti aşağıdakı kimi özünü göstərir:*

- Həyata passiv uyğunlaşma, müşahidəçilik və istehlak
- Quruculuq və həqiqətin fəal dəyişdirilməsi.
- ***Səadətin formulu***

## SƏADƏTİN FORMULU

Hər bir insanın təbii və başlıca ehtiyacı səadətə çatmaqdırsa, mədəni insanı xoşbəxtliyə ruhlandıran əsas şərt özünütəkmilləşdirmədir. Bu sosial qanunauyğunluq insan tələbatlarının formalaşma motivlərini izah edir, onun düşüncə və davranışına təsir edir, şəxsiyyətin psixologiya və xasiyyətini anlamağa imkan verir. Səadət - insanın və onun yaxınlarının fiziki

və mənəvi sağlamlığı, şəxsiyyətin şüurlu istək və arzularının yerinə yetməsidir. Səadət yalnız uğur deyil və yalnız maddi rifahla ölçülmür. O, ağıl, səxavət, xeyirxahlıq və insanlara xidmət, daxili gözəllik, məhəbbət, dostluq, sədaqət, həyat sevgisi, öz idealları uğrunda mübarizə aparmaq və şüurlu güzəşt bacarığıdır.

Öz potensialını reallaşdırmaq imkanı səadətin şərtlərindən biridir. Deməli səadət şərtsiz olaraq, cəmiyyətdə əlverişli şərait və sosial ədalətin olması ilə əlaqədardır.

Bu isə, insanın irsi mədəni keyfiyyət və qabiliyyətlərindən başqa, ağıl və bilik, inadlı əmək və səbr, müstəqillik və mərdlik, vicdan və saflıq, iradə və məsuliyyət tələb edir. Səadətin ən mühüm meyarları möhkəm və sağlam ailə, sevimli peşə və iş yeri, doğmalarının və dostlarının inam, məhəbbət və hörməti, ətrafdakılarınköməyidir.Səadətə gedən yol yüksək mədəniyyətdən, billijk, bacarıq, mütəşəkkillik, mənəviyyatlılıq və yaradıcı fəaliyyətdən keçir.

*Səadətin şərtləri:*

1. İnsanın və onun yaxınlarının sağlamlığı
2. Məhəbbət
3. Dostluq və sədaqət
4. Səxavət, xeyirxahlıq və insanlara xidmət
5. Maddi rifah (maliyyə azadlığı)
6. Ağıl, bilik, məntiq,müdriklik
7. Həyatda şüurlu və aydın məqsəd
8. Öz potensialını reallaşdırmaq imkanı və cəmiyyətdə layiqli yer tutmaq
9. Azadlıq
10. Mərdlik
11. Mübarizlik
12. Uğur
13. Vicdan, dürüstlük, ləyaqətlilik
14. İnam və səbr
15. İradə, prinsipiallıq və məsuliyyət
16. Pozitiv xarakter, güzəştə gütmək bacarığı
17. Özünütəkmilləşdirmə

18. Möhkəm və sağlam ailə
19. Sağlam mikro-makro sosial mühit
20. Sevimli peşə və iş
21. Ətrafdakıların hörmət, məhəbbət, yardımı və səni duyması
22. Doğmaların və dostların etimadını doğrultmaq
23. Daxili və xarici gözəllik
24. Həyatı sevmək və zövq almaq bacarığı
25. İrsi mədəni keyfiyyətlər
26. Sevinc doğuran hadisələrin çoxluğu
27. İnsanın yüksək ruhi mədəniyyəti – bilik, bacarıq, mütəşəkkillik, mənəviyyatlılıq, yaradıcı fəaliyyətin vəhdəti.

Qeyd:

♔ Səadət insanın ictimai maraqlara zidd olmayan istəklərinin həyata keçməsini bildirir.

♔ Səadəti anlamaq insanın dəyərlər sistemindən, mənəviyyatlılıq, xeyir və şər, xarakter və əqidə haqqında təsəvvürlərindən asılıdır (*"İlahi üçlük"və "Taleyin Üçlüyü"*)

♔ İnsanın istəyi onun məqsədini motivləşdirir.

♔ Məhəbbət insanın səadətə doğru hərəkət enerjisi kimi təqdim edilə bilər.

♔ Enerji sağlamlıq və maddi rifahdan daha çox asılıdır.

Seminar məşğələlərində müqayisəli təhlil üçün, hər bir komanda tərəfindən 7 prioritet seçilir.

*Bu zaman aşağıdakılar zəruri hesab edilir:*

1. *Seçim məntiqini və prioritetlərin ardıcıllığlını əsaslandırmaq.*
2. *Seçilmiş şərait və keyfiyyətlərə nail olma vasitələrini göstərmək.*
3. *Həlledici şərait kimi, seçilmiş prioritetlərin üstünlüyünü sübut etməyi bacarmaq.*

## HƏYATDA PULLA ALINMASI MÜMKÜN OLMAYAN ÜÇ DƏYƏR

Həyatda pulla alınması mümkün olmayan üç dəyər vardır: həqiqi məhəbbət, həqiqi dostluq və yüksək ruhi mədəniyyət.

Məhəbbət və dostluq müxtəlif təbiətə malik ola bilər:

♔ "İnstinktiv" məhəbbət – fiziki ehtiyacdan yaranan məhəbbət, libidoya.

♔ "Tamah" məhəbbəti – maddi maraq və digər mənfəət qazanmağa əsaslanan məhəbbət.

♔ "Həqiqi" məhəbbət - ürəkdən gələn, fədakar, qəlb ehtiyacından doğan məhəbbət.

- *"Söz dostluğu" – dildə olan dostluq*
- *"Tamah" dostu - mənfəət məqsədli dostluq*
- *"Həqiqi" dost – qəlbdən gələn dostluq*

♔ *Həqiqi məhəbbət*

☺ qəlbin xüsusi mənəvi vəziyyətini əks etdirən və pulla alınmayan hiss

☺ Allaha, insana, bəşəriyyətə, təbiətə, heyvanlara, həyata, həqiqətə, mədəniyyətə, vətənə vəs. ola bilər.

☺ insanlar arasında mənəviyyat və düşüncə yaxınlığını, maraq və məqsəd ümumiliyini əks etdirən münasibətlərdə ola bilər

☺ kişinin qadına məhəbbət hissi dostluq və simpatiya, meyl, təbii cəletmə, birgə olmaq ehtiyacı, yaxınlıq və sevimli insana yetişmək hissləri ilə şərtlənir

☺ qadının həqiqi məhəbbətini qazanmaq üçün kişi yüksək mədəniyyətə, müsbət keyfiyyətlərə, kişi xasiyyətinə, diqqət, duyğu, hörmət, nəzakət mədəni uyğunluq, sədaqət və fədakarlıq kimi keyfiyyətlərə malik olmalıdır.

♔ *Həqiqi dostluq*

☺ qəlbin xüsusi mənəvi vəziyyətini əks etdirən elə bir hissdir ki, pulla alınması mümkün deyil

☺ insanlararası münasibətdə məqsəd və maraq ümumiliyi, mənəvi yaxınlığı əks etdirir

☺ yüksək mənəviyyat - müsbət keyfiyyətlər, alicənablıq, mənfəət güdməmək, sədaqət, mədəniyyət eyniliyi, psixoloji yaxınlıq, mərdlik, fədakarlıq, duyğulu olmaq, maraqların eyniliyi ilə qazanılır.

♔ *Yüksək ruhi mədəniyyət*

☺ bilik və əxlaqın harmoniyasından yaranan ibarət insan keyfiyyəti
☺ irsi keyfiyyətlər, təhsil və tərbiyə ilə şərtlənir
☺ dostluq, məhəbbət qazanmaq və insan problemlərindən bir çoxunun həlli üçün açardır.

- *Mədəniyyətin inkişaf amilləri*

## MƏDƏNİYYƏTİN İNKİŞAFININ OBYEKTİV-TARİXİ AMİLLƏRİ

1. Təbii-coğrafi şərait
2. Genetik kod (irsi mədəni keyfiyyətlər)
3. Sosial mühit *
4. Tarixi şərait
5. Mədəni mübadilə

* *Sosial mühit üç səviyyədə formalaşır:*

- Ailə
- Kollektiv
- Cəmiyyət

*Asılıdır :*

- Dövlətin siyasi sistemindən
- Sosial-mədəni siyasətin düzgünlüyündən
- Elm, təhsil və tərbiyənin inkişaf səviyyəsindən

Demokratik quruluş insan və cəmiyyətin sosial-mədəni inkişafı üçün ən əlverşli şərait yaradaraq, şəxsiyyətin formalaşması məqsədi ilə bərabər hüquq və imkanlar yaradır.

## CƏMİYYƏTİN SOSİAL-MƏDƏNİ TƏRƏQQİSİNİ TƏMİN EDƏN AMİLLƏR

♔ Mədəniyyət sahəsində intellektual, etik, idarəetmə, hüquqi və bədii mədəniyyəti təmin edən dövlət siyasəti

♔ "Ruhi istehsal"-ı həyata keçirən yaradıcı şəxsiyyətlərin fəaliyyəti

♔ Elm, təhsil, tərbiyə, maarif və informasiya sistemlərinin effektivliyi

♔ Kütlələrin mədəni nailiyyətləri qavraması və mənimsəməsi səviyyəsi.

## MƏDƏNİ MÜXTƏLİFLİK

♔ *İnsanın*

➢ müxtəlif həyat fəaliyyəti sahələrində mütəşəkkillik, bacarıq, bilik, vənəviyyət səviyyəsi ilə bağlı sosial ölçüləri( təhsil, elm, incəsənət, sənətkarlıq, etika, dilləri bilmək və s.)

♔ *Ölkələrin*

➢ kənd, region, şəhər və fərdlərin inkişafının sosial-mədəni səviyyəsinin müxtəlifliyi ilə əlaqədar sosial-coğrafi ölçülər

♔ *Dünya birliyinin*

➢ qitə, region, ölkə, xalq, millət və etnosların sosial-mədəni inkişaf səviyyəsinin müxtəlifliyi ilə əlaqədar sosio-coğrafi ölçülər.

- ***İnsan fəaliyyətinin effektivliyi***

## İSTEHSALIN EFFEKTİVLİK FORMULU

*Maddi istehsalın effektivliyinə* nail olmaq üçün ruhi mədəniyyət həlledici əhəmiyyət daşıyır

İstehsalın effektivliyinin hansı amillərlə şərtləndiyini anlamaq üçün, kulturoloji formula müraciət edək:

$$\textit{İstehsalın}\ \text{effektivliyi} = \frac{\textit{keyfiyyət}}{\textit{xərclər}}$$

♔ İstehsalın keyfiyyətinin artırılaraq xərclərinin azaldırlması aşağıdakıların hesabına əldə edilir:

- *elmin inkişaf səviyyəsi və onunla əlaqədar olan yüfsək texnologiyalar;*
- *təhsil səviyyəsi*
- *peşəkarlıq mədəniyyəti*
- *ümumi mədəniyyət*
- *istehsalla bağlı olan adamların məsuliyyət mədəniyyətindən .*

Keyfiyyətin yüksəlməsi ilə xərclərin azalması istehsalın effektivliyinin artmasını təmin edir.

- ***İdarəetmənin effektivliyi***

## İDARƏETMƏNİN EFFEKTİVLİK FORMULU

$$\text{Idarəetmənin effektivliyi} = \frac{keyfiyyət}{xərclər}$$

*Keyfiyyət* aşağıdakılarla müəyyən olunur:

- Bilik
- Təcrübə
- Mütəşəkkillik
- Əxlaq
- İdarəetmənin innovativ fəaliyyəti

*Xərclər* aşağıdakılardan asılıdır:

- İdarəetmə sisteminə sərmayə qoyuluşunun optimallığını təmin edən təşkil və idarəetməyə elmi yanaşma.

***Dövlət idarəçiliyinin effektivliyinə nail olmaq aşağıdakıları tələb edir:***

- xalqın milli-mədəni xüsusiyyətlərini nəzərə alımaqla, kadrların beynəklxalq tələblərə uyğun xüsusi hazırlanması və yenidən hazırlığı
- dövlət quruculuğu və idarə edilməsi probleminin sistemli kulturoloji tədqiqinin inkişafi

♔ ölkədə kulturoloji təhsilo və maarifin inkişafı
♔ milli və qlobal idarəetmə sahəsində sistemli beynəlxalq iş təcrübəsi üzrə mübadilə
♔ ümumi milli maraqlara cavab verən düzgün kadr siyasətinin həyata keçirilməsi

## DEMOKRATİK İDARƏETMƏNİN EFFEKTİVLİK ŞƏRTLƏRİ

Effektiv demokratik idarəetmə iki mühüm prinsipin həyata keçməsini tələb edir:

- yenilik uğrunda mübarizə
- "insan qəlbi" uğrunda mübarizə

İdarənin effektivliyi aşağıdakılardan ibarətdir:

- təşkilat liderinin idarəetmə mədəniyyəti (liderin intellektual mədəniyyəti, keyfiyyət, qabiliyyət və idarəetmə metodları)
- təşkilat kollektivinin mədəniyyəti (işçilərin yaxşı işləmək istəyi, dəyərlər sistemi, əmək məhsuldarlığı, etika, peşəkarlıq və istehsal texnologiyaları)təşkilat resurslarının keyfiyyəti və informasiya texnologiyalarının səviyyəsi

Kollektivin effektivliyi hər bir əməkdaşın işinin effektivliyindən toplanıb, aşağıdakılarla şərtlənir:

- hər bir işçinin şəxsi mədəniyyətinin səviyyəsi – bilik, bacarıq, mütəşəkkillik, etika, yaradıcı fəaliyyət
- *işçinin yaxşı işləmək istəyi*

Hər iki faktor iş çşəraitindən asılıdır:

- kadrların treninqlər vasitəsilə müntəzəm hazırlığı, sistemli təhsili, kulturoloji maariflənməsi, peşəkarlığının artırılması və tərbiyəsi
- idarəetmə və ya istehsalat fəaliyyətinin elmi təminatı
- əməyin texniki və texnoloji təminatı
- əməkdaşların maliyyə təminatı ( sosial müdafiəsi)
- əməyin psixoloji təminatı (rəhbərlik tərəfindən əməkdaşlara göstərilən diqqət və qayğı)

*Yüksək idarəetmə mədəniyyəti* ruhi və maddi istehsalın yüksək effektivliyini təmin edərək, yüksək məsuliyyət, istehlak və paylama

mədəniyyəti şəraitində insanların həyat keyfiyyətinin və ictimai rifahın inkişafına səbəb olur. İdarəetmə mədəniyyətində mərkəzi yeri *insan kapitalının idarə edilməsi* tutur ki, bu da bilavasitə təşkilatçılıq mədəniyyəti, kadrların tərbiyəsi və hazırlığı ilə əlaqədardır.

**UĞURLU İDARƏETMƏNİN FORMULU**
(Effektiv idarəetmənin şərtləri.
İdarəedicilərin qabiliyyət və keyfiyyətlərinə qoyulan tələblər)

- Liderin peşəkarlığı, ümumi mədəniyyəti, güclü məntiqi, möhkəm iradəsi, elmi bilikləri, təcrübə və uzaqgörənliyi.
- Şüurlu, həyati ideyaları, fəaliyyət sərbəstliyi, qətiyyətliliyi və fədakarlığı.
- Məqsədin düzgün müəyyənləşdirilməsi (əldə edilə bilən məqsədləri formalaşdırmaq).
- Dəqiq strateji planlaşdırma, tələb və vasitələrin düzgün təhlili, prioritetləri seçmək bacarığı.
- İdarəetmə texnologiyasının elmi cəhətdən əsaslandırılması.
- Problemləri düzgün başa düşüb dərk etmək bacarığı.
- İşin dəqiq təşkili, fəaliyyət planı hazırlamaq və vəzifələr içərisində ən mühümünü seçmək qabiliyyəti.
- Qələbəyə doğru inadlı hərəkət və uğura inam. Özünün üstün və naqis cəhətlərini görmək.
- Baqşlıca ziddiyyətlərin aşkar edilməsi və həlli.
- Qabaqcadan kulturoloji, dodioloji və marketinq tədqiqatları
- Resurslardan düzgün istifadə.
- Kadrların düzgün seçilməsi və yerləşdirilməsi.
- İnsanlarla işləmək bacarığı, dinləmək, inandırmaq və maraqları uyğunlaşdırmaq bacarığı. İşlərin idarə edilməsində qayğı və tələbkarlıq.
- İşdə maraqlı olmaq, maraqlanmaq. Perspektivin zəruriliyi.
- Məsuliyyət mədəniyyəti. Hər kəsin şəxsi mədəniyyətini müəyyən etmək.
- Obyektiv informasiyanın mövcudluğu, xalqın milli ənənələrini bilmək.

- Düzgün hüquqi və maliyyə təminatı.
- Prosesin monitorinqi, nəzərdə tutulmuş planın real və gözlənilən nəticələrə uyğun korrektə edilməsi.
- Gözlənilən nəticələrin proqnozlaşdırılması.
- Nəzərdə tutulmuş planların əməli tətbiqinə yönəlmiş inadlı, vicdanlı zəhmət.
- Liderin xarizmatik keyfiyyətləri.

- *Mədəni siyasət*

## PROQRESSİV SOSİAL-MƏDƏNİ SİYASƏTİN ƏSAS VƏZİFƏLƏRİ

- Elm, təhsil, yüksək texnologiyaların qabaqlayıcı inkişafı üçün əlverişli şəraitin yaradılması;
- Xalq kütlələri tərəfindən yeni mədəniyyətin yüksək mənimsəmə səviyyəsini təmin edən kulturoloji maarifin effektiv dövlət sisteminin təşkili, uşaq və gənclərin mənəvi tərbiyəsi və intellektual inkişafı.
- Milli incəsənətin inkişafı və mədəni irsin qorunması.
- Cəmiyyətin ruhi və maddi mədəniyyətinin modernləşdirilməsi.
- Dünyanın aparıcı ölkələri ilə milli mədəniyyətin proqressiv kulturogenezinə, milli-mədəni dəyərlər sisteminin təkmilləşməsinə, beynəlxalq mədəni münasibətlərin inkişafına yardım edən mədəni mübadilənin həyata keçirilməsi.
- Cəmiyyətin sosial texnologiyalar və sosial mədəniyyət sistemlərinin , informasiya, rabitə, şə
- hərsalma, səhiyyə və ekologiya, demokratiya mədəniyyəti və vətəndaş cəmiyyəti, hüquqi və siyasi mədəniyyət, idarəetmə və parlament mədəniyyətinin mədəni potensialının inkişafı.

## PROQRESSİV SOSİAL-MƏDƏNİ SİYASƏTİN BAŞLICA PRİORİTETLƏRİ

- Intellektual mədəniyyət
  - *Elm və yüksək texnologiyalar*
  - *Təhsil, maarif, informasiya*
- Etik mədəniyyət
  - *Milli-mədəni dəyərlər*
  - *Bəşəri dəyərlər*
- İdarəetmə mədəniyyəti
  - *Peşəkarlıq*
  - *İdarəetmə etikası*
- Hüquqi mədəniyyət
  - *Qanunun aliliyi və təkmilləşməsi*
  - *Vətəndaşların hüquqi savadı*
  - *Qabnunların icra mədəniyyəti*

Sosial-mədəni siyasət mədəni irsin qorunmasına, bədii mədəniyyətin, istehsalat mədəniyyətinin, istehsal və məişət mədəniyyətinin, səhiyyə, ekologiya, fiziki mədəniyyət, idman, turizm, kitab nəşri və insan həyatının digər fəaliyyət sahələrinin inkişafına yardım etməlidir.

## SOSİAL-MƏDƏNİ İNKİŞAFIN PRİORİTETLƏRİNİN YARADILMASI

***Sosial-mədəni inkişafın prioritetlərinin yaradılması ictimai tərəqqini müəyyən edən, cəmiyyətin və dövlətin həyat fəaliyyətinin mühüm strateji istiqamətlərinin sabit inkişafının siyasi cəhətdən təmin edilməsini nəzərdə tutur.***

O, zamanın tələblərinə uyğun olan aşağıdakı məsələlərin həll edilməsini tələb edir:

- Dünya sivilizasiyasının təcrübə və inkişaf tendensiyasını nəzərə almaqla,ölkənin gələcəyinin pozitiv obrazıvə milli-mədəni inkişaf konsepsiyası, sosial-mədəni tərəqqinin ümumi fəlsəfəsinin işlənməsi.

- Keyfiyyət və sürət üzrə davamlı inkişafın elmi strategiya və texnologiyalarının işlənməsi;
- Təşkilatçılıq və idarəetmədə yüksək mədəniyyətə nail olmaq;
- Yüksək ixtisaslı kadrların hazırlanması və onlardan düzgün istifadə edilməsi;
- Ruhi mədəniyyət sistemində struktur islahatların keçirilməsi;
- Həyat fə
- ˙aliyyətinin mövcud istiqamətlərinin proqressiv inkişafını təmin edən hüquqi və etik normaların təkmilləşdirilməsi;
- Məqsədli strateji maliyyələşmənin həyata keçirilməsi ;
- Prioritet istiqamətlərin inkişafında maddi-texniki şəraitin təmin edilməsi.

## MƏDƏNİYYƏT ÜZRƏ DÖVLƏT ŞURASININ TƏRKİBİ

- Dövlət idarəçiliyi orqanları:
  - Prezident aparatı;
  - Nazirlər Kabineti;
  - Milli Məclis;
  - Təhsil Nazirliyi;
  - Mədəniyyət Nazirliyi;
  - Gənclər, idman və turizm Nazirliyi;
  - İqtisadi İnkişaf Nazirliyi;
  - Maliyyə Nazirliyi;
  - Ədliyyə Nazirliyi;
  - Dini Təşkilatlarla iş Nazirliyi;
- Milli Elmlər Akademiyası;
- Dövlət elm, təhsil, incəsənət müəssisələri;
- Paytaxt icra hakimiyyəti;
- Mədəniyyət üzrə qeyri-hökumət təşkilatları;
- Yaradıcı ittifaq, cəmiyyət və fondlar;
- Həmkarlar ittifaqı;
- Bələdiyyələr;
- Dini təşkilatıarın liderləri;
- Kütləvi İnformasiya Vasitələri;

♔ Azad ekspertlər, kulturoloqlar.

- *Azərbaycan mədəniyyətinin periodlaşdırılması*

## AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAF DÖVRLƏRİ

- Birinci – sivilizasiyadanqabaq (dövlətdən qabaq) milyon ildən çox əvvəldən IX əsrə qədərki dövrdə , ibtidai icma quruluşu və ilk əkinçilik icmaları çərçivəsində sosial inkişaf dövrüdür. Bu, paleolit, ( quruçay mədəniyyəti, mustye və son paleolit), mezolit və neolit mədəniyyəti dövrüdür. Azərbaycan mədəniyyət tarixinin bu, yazıdanqabaqkı dövrü əşyavi mənbələr üzrə öyrənilmiş, şüurlu əməkdən incəsənətə tədrici keçidi və piktoqrafik yazının yaranmasını göstərir.
- İkinci – b.e.ə. XI əsrdən b.e. III əsrinə qədər Manna, Midiya, Atropatena və Albaniya antik dövlətləri daxilində mədəni inkişaf dövrüdür.
- Üçüncü – XI əsrin I yarısından, əvvəl İranın Sasanilər, sonra isə Ərəb xilafəti və Səlcuq İmperiyası daxilində feodal mədəniyyətinin formalaşması ilə əlaqədardır.Bu dövr antik zərdüşt – midiya və ellin quldarlıq mədəniyyətindən monoteist xristian və islam feodal mədəniyyətlərinə keçid dövrüdür.
- Dördüncü – XII – XIV əsrləri əhatə edib, Azərbaycan İntibahı adını almış yeni azərbaycan feodal mədəniyyətinintəsdiqi və çiçəklənməsi ilə bağlıdır.
- Beşinci – XVIII əsrdə başlanan, feodal mədəniyyətindən Yeni Dövr Azərbaycan mədəniyyətinə tədrici keçidlə şərtlənir.
- Altıncı - XX əsrin 1918-1920-ci illərində "ilk respublika" adlanan Azərbaycan Demokratik Respublikasında siyasi demokratiya mədəniyyətinin təşəkkülü və inkişafı dövrüdür.
- Yeddinci - XX əsrin 1920-1990-cı illərini əhatə edib, "ikinci respublika" adlanan azərbaycan mədəniyyəti inkişafi tarixinin totalitar sovet dövrüdür.
- Səkkizinci – demokratikləşən və modernləşən müasir azərbaycan mədəniyyətinin "üçüncü respublika" adlandırılan dövrüdür. Bu dövrün başlanğıcı dünyəvi, demokratik cəmiyyət

və hüquqi dövlət quruculuğuna qədəm qoymuş müstəqil Azərbaycan Respublikasının elan edildiyi 1991-ci ildən başlamışdır.

- ***Azərbaycanın modernləşdirilməsi***

**AZƏRBAYCANIN ZAMAN VƏ MƏKAN DAXİLİ İNKİŞAFI**



## ZAMAN

Məqsəd: ruhi kamillik və maddi rifah

♔ İnkişaf vasitəsi : mədəniyyət

♔ İnkişafın baza göstəriciləri: məqsədin məzmunu, dəyərlər, texnologiyalar, hərəkət sürəti, yol, zaman.

♔ İnkişafın effektivlik göstəriciləri: intellektual mədəniyyət, siyasi mədəniyyət, idarəetmə mədəniyyəti, istehsal mədənkiyyəti, innovativ fəaliyyət.

♔ Sosial mədəniyyətin göstəriciləri: etik mədəniyyət, hüquqi mədəniyyət, paylama münasibətləri mədəniyyəti, istehlak mədəniyyəti, ekoloji mədəniyyət, tibbi mədəniyyət, beynəlxalq münasibətlər mədəniyyəti.

♔ Şəxsiyyət mədəniyyətinin göstəriciləri: bilik, təcrübə, mütəşəkkillik, iradə, müstəqilılik, enerji, mənəviyyat, yaradıcı fəaliyyət.

## AZƏRBAYCANDA MƏDƏNİYYƏTİN MODERNLƏŞDİRİLMƏSİ ÜZRƏ TÖVSİYƏLƏR

*Qloballaşma şəraitində Azərbaycanın inkişaf tələbatları azərbaycan cəmiyyətinin modernləşməsini təmin edən respublika mədəniyyətinin sistem və strukturunda effektiv islahatların həyata keçirilməsinin zəruriliyini göstərir.*

*Bu islahat çərçivəsində mədəni inkişafın idarə edilməsində məşğul olan kadrların seçilməsi, yerləşdirilməsi və tədris sisteminin təkmilləşdirilməsi, eləcə də demokratik Azərbaycanın milli maraqlarına və zamanın tələblərinə cavab verən mövcud hüquqi və idarəetmə təminatlarının yenidən qurulması, eyni zamanda yeni strukturların yaradılması tələb olunur. Daha dəqiq desək:*

*1. Azərbaycan Respublikasının qanunvericiliyinə aşağıdakı təminatları verən əlavə və dəyişikliklər daxil edilsin:*

- Azərbaycanın ruhi mədəniyyəti sistemində intellektual, etik, idarəetmə və hüquqi mədəniyyətin prioritet inkişafı;

- Ölkənin sosial-siyasi mədəniyyətinə demokratiyanın prioritet mədəni dəyərləri olan şəxsiyyətə hörmət, məsuliyyət mədəniyyəti və dürüstlüyün daxil edilməsi;
- Ziyalıların, ən əvvəl alim, müəllim və həkimlərin sosial təminat və ictimai statusunun yüksəldilməsi;
- Azərbaycanda kulturologiyanın elm və tədris fənni kimi institutlaşdırılması, bütün təhsil pillələrində, ümumi və xüsusi kulturoloji təhsilin inkişafı üçün hüquqi şərait və prioritetlərin yaradılması;
- İntellektual mədəniyyətin – elm və təhsilin hərtərəfli inkişafa istiqamətlənən dövlət kulturoloji proqramının hazırlanıb həyata keçirilməsi, kütlələr arasında elmi biliklərin genişləndirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, əhalinin kulturoloji maariflənməsi üzrə dövlət sisteminin yaradılması, eləcə də Azərbaycan vətəndaşlarının maraq və mədəniyyətlərinin harmonizasiyası;
- Respublikanın məmur və siyasətçiləri arasında vətəndaş məsuliyyəti mədəniyyətinin inkişaf etdirilməsi, onların milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi sahəsində elmi biliklərinin artırılması, demokratik idarəetmə mədəniyyəti texnologiyalarına yiyələnməsinə yardım etmək;
- Monopolizm və korrupsiyanın aradan qaldırılması, yoxsulluqla mübarizədə dövlət siyasətini dəstəkləmək, rəhbər işçilərin reytinqini keçirməyə imkan verən, onların fəaliyyətinin şəffaflığını təmin edən, ölkədə sosial-siyasi stabilliyin əldə edilməsi maraqlarına cavab verən demokratik idarəetmə sisteminin ictimai monitorinqinin həyata keçirilməsi;
- Yüksək mədəni potensiala (peşəkar və etik), demokratik idarəetmə mədəniyyəti sahəsində zəruri biliklərə və dövlət quruculuğunun müxtəlif sahələrində onu geniş təbliğ etmək bacarığına malik rəhbərlərin demokratik seçilməsi təcrübəsinin genişləndirilməsi.

*2. Azərbaycan mədəniyyətinin modernləşməsinəm və daha yaxşı gələcəyinə istiqamətlənən tədbirlər sisteminin həyata keçirilməsini:*

- Hökumət, Milli məclis, qeyri-hökumət təşkilatları, yaradıcı və həmkarlar ittifaqları, bələdiyyə və azad ekspert-kulturoloqların nümayəndələrindən ibarət Mədəniyyət üzrə Dövlət Şurasının yaradılması.
- Bakıda Beynəlxalq Dünya Mədəniyyəti Universitetinin açılması.
- Milli Elmlər Akademiyası tərkibində Kulturologiya İnstitutunun yaradılması.
- Bakıda kulturologiya üzrə namizədlik və doktorluq dissertasiyalarının müdafiəsi üçün elmlərarası Dissertasiya Şurasının yaradılması.
- Mədəniyyət inkişafının Milli Onilliyinin hazırlanması və keçirilməsi.
- Ölkənin ali məktəblərinə qəbul imtahanları proqramına kulturologiyanın tarixi və nəzəriyyəsi üzrə testlərin daxil edilməsi.
- Azərbaycanın bütün ali təhsil müəssisələrinin proqramlarına 72 saat həcmində "Kulturologiyanın tarixi və nəzəriyyəsi" (Kulturologiya) fənninin daxil edilməsi.
- Respublikanın ali təhsil müəssisələrində milli və dünya mədəniyyətinin tarixi və nəzəriyyəsi kabineti, laboratoriyası və kafedrasının açılması.
- Mədəniyyətşünaslıq fənninin orta və ibtidai təhsil sistemi tədris proqramlarına daxil edilməsi.
- Azərbaycan rayonları və Bakıda xüsusi kulturologiya Məktəblərinin yaradılması.
- Bütün səviyyəli məmurlar üçün demokratik idarəetmə mədəniyyəti üzrə kulturoloji treninqlərin təşkili.
- Respublikanın təşkilat və müəssisələri üçün dünya mədəniyyəti və sivilizasiyasının tarixi-nəzəri problemləri üzrə daim fəaliyyət göstərən kulturoloji lektoriyaların təşkili.
- Azərbaycanda mədəniyyətin demokratikləşdirilməsinə, yeksək məişət, istehsal, hüquqi, millətlərarası, siyasi, sosial mədəniyyət standartlarının formalaşmasına istiqamətlənən, əhalinin mədəni maariflənməsinin xüsusi proqramının işlənməsi və reallaşdırılması.

- Respublika televiziyasında əhalinin ümumi mədəni səviyyəsinin yüksəlməsinə, milli və dünya mədəniyyətinin nəzəriyyəsi, təcrübəsi və tarixi sahəsində cəmiyyətin elmi biliklərinin dərinləşdirilməsinə yönəlmiş "Mədəniyyət və cəmiyyət" adlı xüsusi kulturoloji maarifləndirici proqramın açılması.
- Azərbaycan rayonlarında demokratik mədəniyyət mərkəzlərinin yaradılması.
- Təhsil və mədəniyyət üzrə milli hesabatların surətlərinin fəaliyyətlərin koordinasiyası və dövlət strukturları ilə qeyri-hökumət mədəniyyət təşkilatlarının ümumi milli maraqlar üzrə məhsuldar əməkdaşlığının həyata keçməsi üçün kulturologiya və mədəni siyasət problemləri ilə məşğul olan Azərbaycan Mədəniyyət fondu, "Simurq"Azərbaycan Mədəniyyət assosiasiyası və digər aparıcı qeyri-hökumət təşkilatlarına göndərilməsi.
- Azərbaycan mədəniyyətinin demokratikləşdirilməsi və modernləşdirilməsi proseslərinin kulturoloji ekspertizası və milli monitorinqinin keçirilməsi.

2000-2005-ci illərdə tövsiyələr ABŞ, Rusiya, Norveç, Fransa, Yaponiya və bir sıra respublika və beynəlxalq kulturoloji semionar və konfranslarda , Milli Elmlər Akademiyasının ictimai elmlər şöbəsinin və rəyasət heyətinin , Azərbaycan kulturoloqlar cəmiyyəti və beynəlxalq vətəndaş cəmiyyəti mədəniyyəti forumunun yığıncaqlarında müzakirə edilib bəyənilmişdir.

- ***Azərbaycanda vətəndaş cəmiyyətinin idarə edilməsi***

## AZƏRBAYCANDA VƏTƏNDAŞ CƏMİYYƏTİ

*Azərbaycanda vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılması inkişaf üçün aşağıdakı yeni imkanların yaradılmasını nəzərdə tutur.*

- demokratiya, hüquqi, dövlət və bazar iqtisadiyyatının siyasi mədəniyyəti;
- əqli və mənəvi mədəniyyətin prioritet inkişafına istiqamətlənən yeni sosial-mədəni siyasət;

- yüksək məsuliyyət, mütəşəkkillik və idarəetmə nmədəniyyəti;
- hüquqi, iqtisadi, informasiya, məişət, tibbi, ekoloji nədəniyyət, eləcə də istehlak və paylama münasibətləri mədəniyyəti;
- ümumi milli maraqlar əsasında dövlət strukturları, qeyri-hökumət təşkilatları və sahibkarlıqla əməkdaşlıq və iş birliyi;
- beynəlxalq dünyəvi və dini təşkilatlar, xarici ölkələrin dövlət və qeyri-hökumət strukturları ilə əməkdaşlıq və Azərbaycanın dünyanın sivil birliyinə gələcək inteqrasiyası;
- azərbaycan diasporunun sosiaql-mədəni inkişafına və onun mədəniyyətinin yaşadığı ölkənin mədəniyyəti ilə uyğunlaşmasına yardım etmək;
- bəşəri humanist dəyərlərin və sağlam milli ideyanın təsdiqi, sülh mədəniyyəti və vətəndaşlararası əməkdaşlıq, yoxsulluğun, korrupsiya və terrorizmin aradan qaldırılması;
- Azərbaycanda düzgün siyasət və effektiv idarəetmənin metodoloji əsası olan kulturoloji maarif, təhsil və elminmformalaşıb inkişaf etdirilməsinə yardım etmək;
- milli mədəniyyətin (ruhi və maddi) demokratikləşməsi proseslərinin ictimai-dövlət monitorinqinin həyata keçirilməsi.

## VƏTƏNDAŞ CƏMİYYƏTİ İNKİŞAFININ İDARƏETMƏ PROBLEMLƏRİ

**Vətəndaş cəmiyyəti inkişafının idarə edilməsinin effektivliyi dövlətin üç əsas istiqamətdə məqsədyönlü fəaliyyətini tələb edir:**

*1.* İctimai maraqlara cavab verən, bilik, bacarıq, mütəşəkkillik, mənəviyyatlılıq və yaradıcı fəaliyyət göstərən şəxsiyyət və liderlərin inkişafı üçün, vətəndaşlarda yüksək mədəniyyətin formalaşdırılması.

*2.* Milli mədəniyyətin modernləşdirilməsi, vətəndaşların intellektual və mənəvi inkişafının prioritetləri, eləcə də məhsuldar beynəlxalq mədəni, iqtisadi və siyasi əməkdaşlığa istiqamətlənən düzgün sosial-mədəni siyasətin həyata keçirilməsi.

*3.* Yüksək hüquqi və etik mədəniyyətə, düzgün siyasətə əsaslanan dövlət və ictimai idarəetmənin yüksək mədəniyyətinin yaradılması.

**Vətəndaş cəmiyyətinin inkişaf səviyyəsi aşağıdakı mühüm sosial problemlərin effektiv həllindən asılıdır**

| Terrorizm və münaqişələrin aradan qaldırılması | Yoxsulluğun azaldılması | Korrupsiyanın aradan qaldırılması | Ömrün uzadılması | Davamlı inkişaf, rifah və tərəqqiyə nail olmaq |
|---|---|---|---|---|
| problemlərin həll edilməsi şərtləri | | | | |
| ☐ Qeyri aqressiv və dürüst xeyirxah siyasət<br>☐ Yüksək idarəetmə mədəniyyəti<br>☐ Yüksək ailə mədəniyyəti<br>☐ Yüksək vətəndaş etikası<br>● Humanizm (bəşəri dəyərlərin prioriteti)<br>● Şəxsiyyətə hörmət<br>● Məsuliyyət<br>● Dözümlülük və tolerantlıq<br>☐ Sosial, millətlərarası və beynəlxalq ədalətin yaradılması<br>☐ Digər mədəni auənələrə bələdlik<br>☐ Mədəniyyət, din və maraqların uyğunluğu<br>☐ Dünya mədəniyyətinin təsdiqi<br>☐ Demokratik dəyərlərin prioriteti<br>☐ Ədalətli paylama münasibətləri<br>☐ Vətəndaş həmrəyliyi<br>☐ Əməkdaşlıq<br>☐ Əlverişli sosial-siyasi şərait<br>☐ Gender mədəniyyəti | ☐ Yüksək idarəetmə mədəniyyəti<br>☐ Təhsil<br>☐ Elm<br>☐ Effektiv iqtisadiyyat<br>☐ Səhiyyə<br>☐ Ekologiya<br>☐ İcmaların özünüidarə mədəniyyəti<br>☐ Yüksək məhsuldar əmək<br>☐ İstehlak mədəniyyəti<br>☐ Düzgün paylama münasibətləri<br>☐ Yüksək vətəndaş etikası<br>☐ Sosial və kommunal təminat<br>☐ İşsizliyin aradan qaldırılması<br>☐ Büdcənin şəffaflığı<br>☐ Demokratik proseslərin ictimai monitorinqi<br>☐ Yüksək ailə mədəniyyəti<br>☐ Düzgün investisiya və kredit siyasəti | ☐Düzgün<br>☐Təhsil və<br>☐Effektiv<br>☐Effektiv<br>Cəmiyyətin yüksək rifahı və həyat keyfiyyəti, vətəndaşların sosial müdafiəsi<br>☐Yüksək<br>☐Ədalətli<br>☐Şəffaf<br>☐Açıq kadr<br>☐Əlverişli | ☐ Fiziki və mənəvi sağlamlıq<br>☐ Düzgün qidalanma<br>☐ Fiziki mədəniyyət<br>☐ Tibbi mədəniyyət<br>☐ Tibbi təminat və sığortalan-ma<br>☐ Ekoloji təhlükəsizlik<br>☐ Vətən-daşların təhsilliliyi<br>☐ Düzgün tərbiyə<br>☐ Yüksək ailə və vətəndaş etikası<br>☐ Maddi təminatlılıq<br>☐ Əlverişli sosial-siyasi şərait | ☐ Düzgün sosial-mədəni siyasət<br>☐ Yüksək idarəetmə mədəniyyəti<br>☐ Yüksək intellektual mədəniyyət<br>☐ Yüksək məhsuldar əmək<br>☐ Effektiv bazar iqtisadiyyatı<br>☐ Elmi-texniki tərəqqi<br>☐ Millimədəniyyətin demokratikləşdirilməsi<br>☐ Sağlam milli ideya<br>☐ İstehlak mədəniyyəti<br>☐ Paylama münasibətləri mədəniyyəti<br>☐ Əlverişli sosial-siyasi şərait<br>☐ Yüksək vətəndaş etikası<br>☐ Qanunun aliliyi<br>☐ Effektiv hüquq-mühafizə sistemi<br>☐ Effektiv müdafiə qabiliyyəti sistemi |

• *Azərbaycanda kulturoloji təhsil*

## BEYNƏLXALQ DÜNYA MƏDƏNİYYƏTİ İNSTİTUTU
*Layihədən çıxarış*

• *Universitetin yaradılması aktuallığı və konsepsiyası*

Yüksək ruhi mədəniyyət ictimai tərəqqinin kompleks sosial gücü və mahiyyəti, tərəqqipərvər xalqların və dünya dövlətlərinin yaradıcılıq vasitəsi, eləcə də inkişafının məqsədidir. Bu, Şərq və Qərb sivilizasiyalarında həyat tərzinin və humanist ənənələrin təkmilləşməsi, demokratik yeniləşməsi, bəşəriyyətin sosial fəallığı, həyat keyfiyyəti və rifahının inkişafı üçün yeni imkanların universal mənbəyidir.

XXI əsr humanist sivilizasiyasının formalaşması şəraitində dünya xalqlarının demokratiya, azadlıq və plüralizm əsasında mənəni əməkdaşlıq üçün daha ciddi cəhdlər göstərdiyi bir zamanda dünya mədəniyyəti və civilizasiyasının inkişaf tarixi nəzəriyyəsi və praktikasının öyrənilməsi xüsusi əhəmiyyət kəsb etməyə başlayır. Kulturologiyanın əsaslarını bilmək insanların ətraf aləm haqqında biliklərini genişləndirir, davranış və düşüncə tərzini müəyyənləşdirən dəyər istiqamətlərini düzgün formalaşdırır, insanın Homo sapiens növü kimi yaranışından bu günə qədər həyat fəaliyyəti və inkişafının obyektiv qanunlarını anlamağa imkan verir. Bu biliklərin nəticələri ruhi və maddi istehsalın yeni üsullarla idarəetmə mədəniyyətinin və beynəlxalq münasibətlərin yeni vərdişlərini, eləcə də müxtəlif millət və mədəniyyətə məxsus insanların psixoloji uyğunluğu və qarşılıqlı anlaşmasının artmasını təmin edən ümumetik, dil və ümummədəni mühit formalaşdıran mədəni universallıq (bəşəri əxlaq), etalon, ideal və dəyərlərin yaranmasına təsir göstərir. Bu məsələnin praktik olaraq həyata keçirilməsi milli mədəniyyiti dövrün tələblərinə uyğun modernləşdirmək, dövrümüzün bir çox iqtisadi və beynəlxalq problemlərini effektli həll etmək, eləcə də məhsuldar beynəlxalq əməkdaşlıq üçün yeni imkanlar açır.

*Universitetin konsepsiyası* dünya sivilizasiyasının davamlı və təhlükəsiz inkişafına nail olmaq, bəşəriyyətin milli və qlobal problemlərinin effektiv həlli, siyasi, iqtisadi və mənəvi böhranın,

münaqişə və yoxsulluğun aradan qaldırılması, maraq və mədəniyyətlərin harmonizasiyası və dünya mədəniyyəti yaradılmasının alternativsiz təməli olan yüksək mənəvi mədəniyyətin qabaqlayıcı inkişafının zəruriliyini anlamaq əsasında qurulmuşdur.

*Universitetin baza ideyaları* – muxtariyyət, təlim, tədqiqat və maarif, demokratiya mədəniyyəti və vətəndaş cəmiyyəti, ictimai həyata fəal olaraq qoşulma, ruhi və maddi istehsalın, həyatın keyfiyyəti və rifahın yüksəlməsinin təməli olan elmlilik və biliyin üstünlüyünün əxlaqi əsaslandırılmasıdır.

- *Universitetin məqsəd və vəzifələri*

Universitetin başlıca məqsədi – Azərbaycan Respublikası, xarici ölkələr və beynəlxalq təşkilatların artan tələblərinin ödənilməsi üçün beynəlxalq tələblərə uyğun universal bilikli, humanist dünya görüş və peşəkar vərdişləri olan yüksək ixtisaslı ekspertlərin hazırlığı, tərbiyəsi və yenidən hazırlanmasıdır.

Universitet yüksək intellektual və mənəvi dəyərlərin istehsalı, istifadəsi və ötürülməsi, mədəniyyətlərin harmonizasiyası və konsolidasiyasına yardım, tələbələrin təlimi prosesində milli və bəşəri dəyərlər əsasında tərbiyə edilən şəxsiyyətlər "istehsal" etməyə imkan verən aparıcı dünya universitetləri ilə dialoq və kommunikasiyalara nail olmağı planlaşdırır. O, aşağıdakı qabiliyyətlərə malik ekspert-kulturoloqların hazırlığının həyata keçirilməsini qarşıya qoyur:

- idarəetmə və istehsal strukturları dölət sisteminin insanların həyat fəaliyyəti və beynəlxalq münasibətlərin infrastrukturunun tarixi dövrün tələb və çağırışlarına uyğun modernləşdirilməsi;
- Mədəniyyət və sivilizasiya münaqişələrinin qabaqlanması və aradan qaldırılması;
- beynəlxalq sosial-mədəni əməkdaşlığın inkişafı;
- insan inkişafının zaman və məkan üzrə proqnozlaşdırılması, etibarlı gələcəyin qurulması.

Universitetin əsas vəzifələri:

♔ dünyanın elm, təhsil və mədəni nailiyyətləri əsasında müasir mütəxəssislərin hazırlığı;

♔ dünya demokratik ölkələrinin inkişaf təcrübəsi və mədəni dəyərlər sisteminin yaradıcı istifadəsi əsasında milli mədəniyyətin modernləşdirilməsinə yarsdım;

♔ beynəlxalq norma və demokratik ölkələrin nailiyyətlərinə uyğun olan ekoloji, tibbi, iqtisadi, idarəetmə, siyasi, hüquqi, etik, intellektual inkişafa yardım;

♔ davamlı sosial-iqtisadi inkişafa nail olmaq, yoxsulluq və korrupsiyanın aradan qaldırılması, sənaye və informasiyalı cəmiyyətə keçid;

♔ sivilizasiyalararası dialoqun inkişafı və dünya mədəniyyətinin yaradılması , münaqişələrin həlli və terrorizmin aradan qaldırılması;

♔ vətəndaş cəmiyyəti mədəniyyətinin inkişafı;

♔ milli regional və qlobal sosial-mədəni inkişafın mühüm proqramları üzrə kulturoloji ekspertizaların həyata keçirilməsi;

♔ milli və beynəlxalq xarakterli siyasi, sosial, etik-hüquqi və iqtisadi məsələlərin düzgün elmi həllinin təmin edilməsi məqsədi ilə kulturoloji tədqiqatların keçirilməsi;

♔ dövlətin davamlı və təhlükəsiz inkişafı maraqlarına cavab verən effektiv təhsil və səhiyyənin inkişafına yardım;

♔ istedadlı uşaqların irsi qabiliyyətlərə uyğun peşə təlimi üçün selektiv seçilməsi və kulturoloji hazırlığı;

♔ müasir sivilizasiyanın inkişaf tendensiyaları və nailiyyətlərinə uyğun olaraq, xalqın ümumi mədəni səviyyəsi əsasında kulturoloji maarifin inkişafı;

*Universitetn bu məqsəd və vəzifələrin həyata keçməsi üçün aşağıdakıları nəzərdə tutur:*

➢ Azərbaycan Respublikası və demokratik yol seçmiş digər ölkələrin inkişafı üçün demokratik ölkələrin inkişafının proqressiv təcrübəsinin məqsədyönlü sistem üzrə öyrənilməsi və yaradıcı istifadəsi;

➢ müxtəlif ölkə və xalqların mədəni irsinin öyrənilməsi və onların mədəni-iqtisadi əməkdaşlığa, beynəlxalq anlaşmaya, qarşılıqlı zənginləşməyə, mədəniyyətlərinin harmonizasiyasına yardım edən mədəniyyətlərinin təbliği;

➢ XXI əsrin humanist sivilizasiyasının formalaşması tələblərinə cavab verən , bəşəri maraq və dəyərlərə istiqamətlənən mədəni universallıq, etalon və inkişaf modellərinin yaradılması;

➢ intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətinin inkişaf prioritetləri əsasında azərbaycan cəmiyyətinin modernləşməsinə yardım edən elmi dünyagörüşün yaradılması, elitar və kütləvi mədəniyyətlər arasında uyğunsuzluğun aradan qaldırılması, insanların ümumi mədəni səviyyəsinin fəal inkişafına istiqamətlənmiş maarifçilik fəaliyyəti.

*Avropa universitetlərinin təcrübəsinə istinad edərək, Beynəlxalq dünya mədəniyyəti universiteti aşağıdakıları nəzərdə tutur:*

- humanitar və ictimai elmlər sahəsində yenilikçi işləmələr üzrə müsabiqənin təşkili;
- müxtəlif ölkə və xalqların nümayəndələrinin birgə həyatı, tədris və yaradıcı fəaliyyətinin təşkili;
- aspirantların təhsili dövründə tədris fəaliyyəti ilə məşğul olmaları;
- ən yaxşı tələbələrin Şərqin və Qərbin ən qabaqcıl ali təhsil müəssisələrində stajkeçməsinin təşkili;
- ayrı-ayrı tələbələrin xarici ölkə ali təhsil müəssisələrində birbaşa müqavilə əsasında bilavasitə təhsil almaları;
- elmi dərəcələrin dünyanın aparıcı elmi təhsil müəssisələri ilə birgə verilməsi və beynəlxalq tələblərə cavab verən mütəxəssis hazırlığının effektivliyini artırmağın digər formaları.

● *Təlimin metodoloji əsası*

Təlimin metodoloji əsası bəşəriyyətin və insanın yaradıcı həyat fəaliyyəti haqqında elm olan kulturologiyadır. Bütöv sistem olan mədəniyyətin daxili əlaqələri, arxitektonikası, strukturunu aşkarlamağa, onun genezis və fəaliyyət prosesini izləməyə imkan verən və özündə tarixilik prinsipləri ilə məntiq, dialektika , qnoseologiya və ontologiya metodlarını birləşdirən sistemli kulturoloji yanaşma.

● *Universitetin fəaliyyət prinsipləri:*

1. Elmi şüur
2. Sistemli kulturoloji yanaşmaelmlərarası

3. Təlim, tədqiqat, praktika və maarifin birliyi
4. Demokratiya və şəxsi azadlıq
5. Humanizm, qarşılıqlı hörmət, bərabərlik, xalqların həmrəyliyi
6. Vətənpərvərlik və beynəlmiləlçilik
7. Yenilik uğrunda mübarizə
8. Kollektiv üzvlərinin psixoloji və maddi sərbəstliyi
9. Təlimin fərdiliyi

- *Yenilik*

Universitet ilk dəfə olaraq, dünya mədəniyyəti və sivilizasiyasının tarix, nəzəriyyə və praktikasının kompleks və dərindən öyrənilməsi, mədəniyyətin sistemli təhlilinin müasir metodlarının mənimsənilməsi, hüquqi demokratik dövlətin uyğun institutları tərəfindən təşkil və idarəetmə praktikasının elmi əsaslarına yiyələnərək, müxtəlif profilli ekspertlərin geniş kulturoloji hazırlığını nəzərdə tutur.

- *Universitetin başlıca struktur komponentləri*

Universitet Beynəlxalq kulturoloji təhsil maarif və tədqiqat Mərkəzidir. Ora aşağıdakılar daxildir:

1. Məktəbəqədər təhsil departamenti
2. Dünya mədəniyyəti gimnaziyası
3. Universitetə daxil olmaq istəyənlər üçün kurslar
4. Yüksək universitet təhsili
5. Magistratura
6. Aspirantura
7. Kulturoloji tədqiqatlar mərkəzi
8. Kulturoloji maarif mərkəzi

- *Universitetin tədris fakultələri*

1. Kulturologiya və beynəlxalq münasibətlər fakultəsi
2. Beynəlxalq hüquq və idarəetmə fakultəsi
3. Dünya iqtisadiyyatı və beynəlxalq ticarət fakultəsi
4. İnsanın və təbiətin ekologiyası fakultəsi
5. Beynəlxalq jurnalistika və informasiya texnologiyaları fakultəsi
6. Qeyri-hökumət təşkilatı fakultəsi
7. İkinci kulturoloji təhsil fakultəsi

- *Universitet ekspertləriinin fəaliyyət sahələri və gözlənilən nəticələr*

Gözlənilən nəticələr universitetin aşağıdakı istiqamətləri ilə şərtlənir:

✓Azərbaycanın milli-mədəni inkişaf xüsusiyyətlərinin qorunması zəruriliyinin, eləcə də, qloballaşma şəraitində dünya inkişafının tendensiya və tələbatlarını nəzərə alan ixtisaslar kompleksi və tədris fənləri, Azərbaycan üçün ənənəvi olmayan kulturoloji təlimin interaktiv formaları əsasında seçilmiş yeni təhsil keyfiyyətinin əldə edilməsinə.

✓ Tədris prosesinin təşkil və idarə edilməsinin yeni formalarının axtarışı, bura ən yaxşı azərbaycan və xarici ölkə mütəxəssislərinin cəlb edilməsi

Tədris prosesinin təşkil və idarə edilməsinin yeni formalarının axtarışı onun layihə və proqramlarının reallaşması sosial-mədəni sahədə, eləcə də ruhi mədəniyyətin strukturunun yenidənqurulmasında , iqtisadiyyat və idarəetmə sistemində beynəlxalq mədəni-iqtisadi əməkdaşlığın genişlənib dərinləşməsinə,dövlətin təşkil və idarə edilməsində demokratik və hüquqi prinsiplərin təsdiqi, bazar prinsiplərinə əsaslanan yeni təsərrüfat mexanizmlərinin təkmilləşməsini nəzərdə tutur. Universitetin məzunları beynəlxalq tələblərə cavab verən ekspertlər olaraq, elm, təhsil, maarif, incəsənət, mədəni irs, hüquq, idarəetmə, iqtisadiyyat, ekologiya, beynəlxalq münasibətlər, informasiya texnologiyaları və mətbuat sahəsində Azərbaycan, eləcə də xarici ölkə və beynəlxalq təşkilatlarda, dövlət və qeyri-hökumət institutlarında istifadə edilə bilərlər.

Layihənin həyata keçirilməsi, inkişafın əsası olan, proqressiv dövlətlərin sosial stabillik və təhlükəsizliyini, intellektual və etik mədəniyyətin qabaqlayıcı inkişafını təmin etməyə imkan verəcəkdir.

*Layihə 1990-cı ildə işlənmiş, tanınmış alim, mütəxəssis və diplomatlar tərəfindən 1995-ci ildə təkrar dəstəklənib təsdiqlənmiş, 2001-ci ildə yenidən işlənmişdir.*

## MƏDƏNİYYƏT TARİXİ VƏ NƏZƏRİYYƏSİ ÜZRƏ ELMİ DƏRƏCƏ ALMAQ ÜÇÜN TÖVSİYƏLƏR

Kulturiloji tədqiqatın dəyəri, hər şeydən əvvəl, sosial-mədəni siyasət, sosial və dövlət idarəçiliyi üçün düzgün nəticə çıxarmaq, milli və başəri mədəni inkişafın tarixi qanunauyğunluqlarını dazgün təhlil etmək, indiyə qədər məlum olan və tamamilə yeni faktları düzgün ümumiləşdirib şərh etmək, mühüm praktik tövsiyələri izah etmək bacarığından asılıdır.

Kulturoloji ekspertiza pozitiv sosial nailiyyətlərin obyektiv qiymətləndirilməsi, neqativ hadisə və böhran proseslərindən çıxış yolunun müəyyənləşdirilməsi, çatışmamazlıqların aradan qaldırılması imkanlarının axtarışı, insan, cəmiyyət və dövlətin proqressiv inkişafının təmin edilməsi xarakteri daşımalıdır.

Tədqiqatçı-kulturoloq cəmiyyət qarşısında problem qoymağı bacarmaqla bərabər, onların düzgün həllinin effektiv texnologiyaları və yollarını da tapmalı, böhran hallarının aradan qaldırılması və tərəqqiyə nail olmağa, daxili və xarici siyasətin , iqtisadiyyatın və insan münasibətlərinin sağlamlaşdırılmasına yardım edən sosial terapiya metodları təqdim etməlidir. O, bilməlidir ki, elmi tədqiqatın yeniliyi yalnız yeni faktların aşkar edilməsindən ibarət olmayaraq, hər şeydən əvvəl, mədəniyyətə və onun insan inkişafındakı yaradıcı imkanlarına elmə əsaslanan proqressiv baxış, düzgün siyasət və idarəetmə formalaşdırmaqdır.

Bu baxımdan, mədəniyyət tarixi və nəzəriyyəsi elmi dərəcəsi almaq iddiasında olanlar aşağıdakı bacarıqlara yiyələnməlidirlər:

- Tədqiqat mövzusu üzrə bütün əsərlərin və anlayışların məzmunlu tənqidi təhlilini keçirmək.
- Tədqiqatda tarixilik, dialiktika və məntiq prinsiplərinə dəqiq istinad etmək. Məkan, zaman, komparativ, struktur, kəmiyyət və keyfiyyət təhlilini keçirmək.
- Öz tezislərini konkret faktlarla təsdiq etmək və onları düzgün şərh etmək.
- Mədəniyyətin inkişafında bu və ya digər şəxsiyyət, hadisə, təzahürün əhəmiyyətini düzgün qiymətləndirmək və araşdırmaq.

- Mədəniyyət anlayışının yalnız qazanılmış keyfiyyət deyuil, həm də müəyyən sosial mühitdə aşkar edilmiş genetik yaddaş - valideynlərin "genetik yaddaşı" – ndan ötürülən potensial qabiliyyətlər kimi qeyd etmək daha düzgün olar (bəlkə də şüuraltı səviyyədə).
- Mədəniyyətin idraki, dəyişdirici, normativ-idarəedici, maarifçi, dünyagörüş və digər funksiyalarını konkret sistemli təhlil etmək.
- Öyrənilən mövzu üzrə mədəniyyətin vəziyyətinin tarixi (arxiv) sosiaoloji ( rçspondentlərin sorğusu) tədqiqatının keçirilməsi.
- Mədəniyyətin gələcək inkişafını proqnozlaşdırmaq və qoyulan məqsədlərə nail olmağın yollarını təmin edən texnologiyalar işləyib hazırlamaq.

- ***Mədəniyyət və qloballaşma***

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ BEYNƏLXALQ SOSİAL-MƏDƏNİ SİYASƏTİN VƏZİFƏLƏRİNƏ BAXIŞ

♔ dünya mədəniyyəti, mədəni nailiyyətlər və bəşəriyyətin sosial-mədəni inkişaf təcrübəsinin fəal öyrənilməsinə istiqamətlənən kulturoloji maarif;
♔ müxtəlif ölkələrdə demokratik idarəetmə sisteminin elmi biliklər əsasında tətbiqinə yardım;
♔ dünyada demikratiyanın humanist prinsiplərə əsaslanan etik-hüquqi normaları üzrə yüksək etik sosial mədəniyyətin formalaşması;
♔ qloballaşma şəraitində müxtəlif ölkə xalqları və vətəndaşların mədəniyyət, din və maraqlarının harmonizasiyası;
♔ bəşəriyyətin sosial-mədəni inkişafı üzrə, qarşılıqlı əlaqəli inkişaf üçün yeni sosial mühitin formalaşdırılması, dünya mədəniyyətinin təsdiqi və dünya xalqlarının rifahının yüksəldilməsini nəzərdə tutan layihə və proqramların hazırlanması;
♔ BMT-nin dünya mədəni məkanının sosial-etik təkmilləşməsi, dünya mədəni siyasət məsələləri üzrə qərar qəbul etməsi üçün

müxtəlif ölkələrdə sosial-mədəni fəaliyyətin koordinasiyası və elmi əsaslı tövsiyələrin yaradılması ;

- dünya inkişafının ümumi strategiyasında xalqların intellektual və etik mədəniyyətlərinin prioritet inkişafına, milli mədəniyyətlərin demokratikləşdirilməsinə yardım etmək;
- qloballaşma tələblərinə cavab verən yeni dünya mədəniyyətinin formalaşdırılması üçün dünya mədəniyyəti üzrə Beynəlxalq Şuranın yaradılması;
- qloballaşma şəraitində beynəlxalq münasibət və yeni sosial-mədəni mühitin formalaşdırılması üçün şəxsiyyət və liderlərin yetişdirilməsi və yenidən hazırlığı üçün Beynəlxalq Dünya Mədəniyyəti İnstitutunun açılması.

*Yuxarıdakı şərtlərin həhyata keçirilməsi qloballaşma şəraitində insan inkişafının mühüm problemlərini düzgün görüb həll etməyə, beynəlxalq mədəni siyasəti, beynəlxalq münasibətlər sistemini və həyatın humanistləşdirilməsi prosesini təkmilləşdirməyə yardım edə bilər.*

- ***Kulturologiyanın metodologiyası***

## KULTUROLOGİYANIN METODOLOGİYASI

*Kulturologiyanın metodologiyası* mədəniyyəti dərk etməyin elmi metodları haqqında təlim olmaqla, tarixin, insan, cəmiyyət, dövlət və ümumilikdə bəşər mədəniyyətinin xüsusiyyətlərinin və inkişaf qanunlarının öyrənilib mənimsənilməsinə istiqamətlənmişdir. Kulturologiyanın ümumi metodoloji əsasını tarix, məntiq, dialektika, ontologiya və qnosiologiya təşkil edir ki, bu da mədəniyyətin daxili əlaqələri, arxitektonikasl və strukturunu aşkarlamağa, onun genezisini, fəaliyyəti və inkişafını izləməyə imkan verir. Kulturologiya universal metodoloji meyarlara istinad edərək, mədəniyyətə elmi əsaslarla yanaşmağa imkan verən abstrakt-məntiqi və konkret-tarixi bilikləri bir-birinə uyğunlaşdırmaq yolu ilə mədəniyyətin bütün sistemlərini mürəkkəb tarixi proses kimi elmlərarası kompleks şəklində tədqiq etməyə imkan yaradır.

Cəmiyyətin, dövlətin və ümumilikdə bəşəriyyətin ilkin əsası olan insanın kamilləşməsinə yardım etmək kulturologiyanın ən ümdə

vəzifəsidir. İnsanın mədəniyyəti kulturologiyanın başlıca idrak obyekti olmaqla, bütövlükdə mədəniyyət tarixi və nəzəriyyəsi təhlilinin əsasını təşkil edir. Bu baxımdan, kulturoloji metodologiyanın məqsədlərindən biri, bəşəriyyətin mədəni təcrübəsi əsasında varlığın proqressiv dəyişdirilməsi üçün insanı zəruri universal biliklərlə silahlandırmaqdır. Kulturologiyanın metodologiyası mədəni hadisə, fakt və qanunların tarix, fəlsəfə, məntiq, psixologiya, etnoqrafiya, arxeologiya, coğrafiya, dilçilik, sosiologiya, etika, estetika, dinşünaslıq, politilogiya, futurologiya və s. elm sahələrinin metodika və nailiyyətlərini istifadə etməklə, seçilib sistemləşdirilməsi və kompleks öyrənilməsini nəzərdə tutan biliklərin sistemli analiz və sintezinə əsaslanır. Bütöv bir orqanizm və tarixi-sosial sistem olan mədəniyyətin dialektik təhlili əsasında real tarixilik prinsipi durur, özündə dünya mədəniyyəti nəzəriyyəsini və tarixini inteqrasiya edən bir kimi, kulturologiyanın baza mənbəyi isə, bəşər tarixidir.

*Sistemli yanaşmaya əsaslanan kulturoloji metodologiyanın özəyini aşağıdakılar təşkil edir :*

- dialektika;
- tarixilik prinsipi;
- məntiq (Lütvi Zadənin qeyri-səlis məntiqi daxil olmaqla).

*Bu elmi yanaşmaların məcmuu obyektiv elmi dünyagörüşün formalaşmasına, insan, cəmiyyət və dövlətin inkişafına. məkan və zaman daxilində bütöv şəkildə nəzərdən keçirməyə imkan yaradır.*

Materiya və ruhun inkişaf qanunlarına əsaslanan *dialektika* hadisələrin mahiyyətini, onların hərəkət, ziddiyyət və əlaqələrini aşkarlayır. Dünyanı proses, fasiləsiz hərəkət, dəyişiklik və dəyişdiricilik kimi təqdim edən Hegel fəlsəfəsi Heraklit və Aristotelin dialektikasına böyük töhfələr verdi. Hegelə görə, varlığın yaradıcısı ağıldır, çünki, o, obyektiv dünyanı nəinki əks etdirirŞ həm də onu yaradır. Hegeldə özünühərəkət və özünüinkişafın mənbəyi prosesin daxili ziddiyyətləridir.

*Tarixilik prinsipi* üç əsas funksiyanı yerinə yetirir: idraki, metodoloji və dünyagörüş. İdraki funksiya insanın təbiətə, cəmiyyətə və özünə münasibətdə yerini və rolunu müəyyən edir. Metodoloji funksiya mədəni hadisə və prosesləri keçmişdən gələcəyə doğru hərəkət kimi nəzərdən keçirməyə, müxtəlif dövrlərdə mədəniyyətin

məzmun və struktur dəyişikliklərini aşkarlayıb müqayisə etməyə, ayrı-ayrı mədəniyyətlərin inkişaf pillələri ilə bərabər, makrotarixi prosesləri də təhlil etməyə imkan verir. Dünyagörüş funksiyası mədəni universallıqları aşkarlamağa imkan verir. Mədəni dəyər və normaların qarışması və pozulması, mədəniyyətin hərəkət istiqamətinin qeyri-müəyyənliyi ilə səciyyələnən islahatlar və sosial inqilablar dövründə insanların mədəni həyat fəaliyyətinin öyrənilməsi üçün onun rolu xüsusi əhəmiyyət kəsb etməyə başlayır.

Təfəkkürün forma və qanunları haqqında elm olan *məntiq*, mədəniyyətin obyektiv inkişaf proseslərini, bəşəriyyətin inkişafı naminə, düzgün anlamağa imkan verir. Bu sahədə bir çox alimlərin nailiyyətləri – Aristotelin dedutiv məntiqi, Frensis Bekonun induktiv məntiqi, İmanuil Kantın formal, metafizik məntiqi və Hegelin dialektik məntiqi öz əksini tapmışdır.

Kulturoloji metodologiya üçün amerika alimi Lütvi Zadənin qeyri-səlis məntiq sahəsindəki, əsrlərlə dünyaya Aristotelin klassik "ağ-qara" məntiqi prizmasından baxışa inqilabi dəyişikliklər gətirən, elmi kəşfləri novativ əhəmiyyət daşıyır. Lütvi Zadənin qeyri-səlis məntiq və onunla bağlı olan "Çoxluqlar nəzəriyyəsi" ilə "təəssüratlar nəzəriyyəsi" bəşəriyyətin bir çox qlobal, regional, lokal və individual problemlərinə eləcə də öz tarixi inkişafında mürəkkəb dövr yaşayan Azərbaycan Respublikasının qarşısında duran problemlərin həlli üçün kulturoloji açar ola bilər. Bu yanaşma mədəni inkişafın iki vasitəsi arasında harmoniyanın əldə edilməsi üçün yeni imkanlar açır : insanın təbiəti dəyişməsinə yönələn qərb və insanın təbiətə "üzvi olaraq daxil olması"-na istiqamətlənən şərq vasitələri. O, humanist dəyərləri saxlayaraq proqressiv texnoloji inkişafa, stientizm və antistientizm mövqelərinin harmonizasiyasına, texnogen sivilizasiyalara məxsus dağıdıcı proseslərdən qorunmuş, yeni sivilizasiyaların yaranmasına doğru ümumi hərəkatda özünəməxsus mədəniyyətlərin plüralizminin inkişafına yardım edə bilər. Sosial-mədəni həyatda Lütvi Zadənin demokratik prinsiplərlə səsləşən baza nəzəriyyələrinin yaradıcılıqla istifadə edilməsi müasir sivilizasiyada keyfiyyətcə yeni situasiyanın yaranmasına imkan verir. O, azadlıq və plüralizm şəraitində insan inkişafı, dünyaya yeni baxışların formalaşması , xalqlar arasında qarşılıqlı anlaşmaya nail olmaq, bəşər mədəniyyəti və onun milli formaları arasında harmoniyanın yaradılması üçün yeni imkanlar açır.

- *Kulturologiyanın piramidası*

## KULTUROLOGİYANIN PİRAMİDASI

### *SİSTEMLİ KULTUROLOJİ TƏHLİLİN UNİVERSAL MƏNTİQİ PİLLƏLƏRİ İNSAN, CƏMİYYƏT VƏ DÖVLƏTİN İNKİŞAFI ÜÇÜN YENİ İMKANLAR AÇIR :*



# II HİSSƏ. AYRI-AYRI MƏQALƏ, MƏRUZƏ VƏ ÇIXIŞLAR

## KULTUROLOGİYA İNSANIN HƏYAT FƏALİYYƏTİNİN TEXNOLOGİYA VƏ İMKANLARI HAQQINDA ELMDİR

Dünya sivilizasiyasının ən yeni tarixi milli dövlətlərin həyati maraqlarına cavab verən, azad ticarət və bazar iqtisadiyyatının fəaliyyətini nəzərdə tutan demokratik mədəniyyət dəyərlərinin üstünlüyünü təsdiq edir. Bu üstünlüklər, gündən-günə daha çox sayda ölkələrin demokratik mədəniyyəti özlərinə həyatfəaliyyətinin texnologiya və fəlsəfəsi kimi seçmələrinə təsir göstərir. Şərq ölkələrinin ruhi və maddi həyatının demokratikləşməsi, liberal prinsip və dəyərlərlə əlaqədar yeni təfəkkürün genişlənməsi, vətəndaş cəmiyyəti mədəniyyətinin təsdiqi bir çox ölkələrin ictimai-siyasi sistemlərinin təkamülünü stimullaşdırmış, onları tədricən inkişaf yolunun dəyişməsinə istiqamətləndirmişdir. Dövlət quruculuğu və idarəçiliyinin diqqət mərkəzində pozitiv fəlsəfə, yenilikçilik və insan dəyərlərinin prioritet olduğu ölkələrin sayı, Avrasiya və Asiyada, yeni yaranan Müstəqil Dövlətlər arasında, Şərqi Avropa ölkələrində, Çində və digərlərində getdikcə artır. Avropanın siyasi, sosial mədəni və iqtisadi inteqrasiyası Şərq ilə Qərb arasındakı əməkdaşlıq və inteqrasiya tendensiyalarının güclənməsi fonunda baş verir.

Bəşəriyyətin bir çox daxili və beynəlxxalq sosial və siyasi problemlərinin həllinin əsası olan ruhi təkmilləşmə və maddi rifahın inkiçafı *millətin intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətinin səviyyəsi ilə müəyyən olunur.* Beləki, insan fəaliyyəti effektivliyinin yüksəldilməsi, daxili və xarici dəyişiklikləri nəzərə alan yeni elm tutumlu texnologiyalar və idarəçilik mədəniyyətinin fasiləsiz təkmilləşdirilməsindən bilavasitə asılıdır. Yeni kompüter nəsilləri və şəbəkə kommunikasiyaları imkanlarından geniş istifadə olunması sosial-mədəni və iqtisadi tərəqqinin keyfiyyət və sürətini əhəmiyyətli dərəcədə artırır. Yüksək intellektual mədəniyyətə əsaslanan müasir elmi-texniki inqilab, hər şeydən əvvəl, hidrogen enerjisi üzrə yeni növ alternativ enerjiyə keçid üçün yenidənemal resurslarından istifadə edən ucuz və təhlükəsiz texnologiyalar hesabına iqtisadiyyatın intensiv yeniləşməsinə yol açır. Bu imkanlar yüksək effektivli

energetika və ekoloji təhlükəsiz informasiya texnologiyaları ilə artırılır. Genetika və gen mühəndisliyi sahəsindəki inqilabi nailiyyətlər xəstəliklərlə mübarizə, kənd təsərrüfatı məhsuldarlığının kəskin artırılması və insan həyatının uzadılması üçün geniş imkanlar açır. Obyektlərin mikroskopik quruculuğunun inqilabi üsulu olan nanotexnologiyalar - ənənəvi istehsal üçün geniş dəyişdirici imkanlar açır.

Bu gün, iqtisadiyyatın ən yeni informasiya texnologuiyaları hesabına yenidən silahlandırılması ilə əlaqədar *demokratik idarəetmə mədəniyyətinin* əhəmiyyəti artmaqdadır. Müasir dövlətlərin davamlı inkişafının effektivliyi liberallaşma yolu ilə inkişaf edən dünya iqtisadiyyatında, dünya mədəniyyəti və sivilizasiyasında baş verən dialektik dəyişikliyə uyğun elmi əsaslı ictimai texnologiyaların təşkil və idarəedilməsindən asılıdır. Beləliklə, ümumi milli məhsulun sürətli inkişafını təmin edəcək şəbəkə iqtisadiyyatının formalaşdırılması, XX əsrin son 25 ilində Yapon iqtisadiyyatında uğurla istifadə edilən ömürlük muzd və daxili bazarın müdafisi konsepsiyasına tənqidi nəzərlə baxmağa imkan verir. Demokratik idarəetmənin vəzifələrindən biri mərkəzlə əyalət arasında tarazlı sosial inkişafa nail olmağa imkan verən , şəhərlə kəndin həyat səviyyəsini bərabərləşdirən , dövlətin sosial və daxili siyasi təhlükəsizliyini təmin edən və beynəlxalq məkanda onun həyat qabiliyyətini artıran - *əksmərkəzləşmədir.* İdarəetmə və əməyin təşkilinə elmi yanaşma, ierarxik proseslərdən şəbəkə proseslərinə keçid, yenilik və hər bi "insan qəlbi" uğrunda mübarizə prinsiplərinə sadiqlik, bilik, bacarıq, mütəşəkkillik, işçilərin etika və əmək keyfiyyətlərinin yüksək səviyyəsi iqtisadiyyatda və kənd təsərrüfatında , elm və təhsildə, dövlət quruculuğu və idarəetmədə effektivliyin kardinal inkişafını təmin edir.Buna əməyin təşkilinin aşağıdakı formalarının tirajlaşdırılması yardım edir: qlsamüddətli muzdlu əmək, fərdi məsuliyyət, funksiyaların bərabər paylanması, effektivlik və nəticənin idarə edilməsi. Müasir şəraitdə idarəetmənin effektivliyinin artırılması üçün demokratiya təşkli mədəniyyətinin formaları – vəzifə mədəniyyəti, rol mədəniyyəti, şəxsiyyət mədəniyyəti, məhsulun keyfiyyətinin yüksəldilməsində ekspert rolunun artırılması, eləcə də, əməkdaşların ixtisasartırmasının xüsusi

proqramlarının həyata keçirilməsinə əsaslanan *etika biznesi* böyük əhəmiyyət qazanmışdır.

Bu arada, insan əməyinin fəaliyyət sahələrinə bölgüsünün dərinləşməsi və sosial diferensasiya insan mədəniyyətinin təbii müxtəlifliyi, insanın bəşər mədəniyyətinə yiyələnməsinin qeyri-mümkünlüyünə inam formalaşdırır. Bu şəraitdə fəlsəfə və görkəmli şəxsiyyətlərin tərəqqipərvər inkişaf təcrübələri, müxtəlif xalq və dövlətlərin nailiyyət və texnologiyaları haqda bilikləri bəşəriyyətə təqdim etmək məqsədi daşıyan *kulturologiyanın rolu* ölçüyəgəlməz dərəcədə artır.

*Kulturologiya – mahiyyətlər, earixi xüsusiyyətlər, inkişaf qanunları, nailiyyətlər, texnologiyalar və insanın yaradıcı həyat fəaliyyətinin dəyişdirici imkanları haqqında elmdir.* O, şəxsiyyəti dərin həyati biliklərlə, bir çox nəsillərin fəaliyyət təcrübəsi ilə, gələcəyi görmə qabiliyyəti ilə silahlandırır, dünya görüşü genişləndirir, təfəkkür məhdudluğunu aradan qaldırmağa imkan verir, insanı mçüdrikliyə aparır. Kulturologiya davamlı inkişaf və tərəqqi, məhsuldar idarəçilik, şəxsiyyət və lider formalaşdırılmasının yeniləşmiş mənbəyi, istehsalın hərəkətverici qüvvəsi kimi, cəmiyyətin intellektual potensialının fasiləsiz olaraq artıeılmasına yardım edir.

Kulturologiyanın strateji vəzifəsi davamlı sosial-mədəni və iqtisadi tərəqqinin təmin edilməsi naminə dövlətin, ziddiyyətlərin düzgün həlli və böhranların effektlə aradan qaldırılmsına yönəlmiş, *yeni ictimai texnologiyaların hazırlasnmasıdır.* Bu zaman gələcəyə utopik yox, realist, peşəkar mövqedən yanaşmaq nəzərdə tutulur, yəni alimlərin romantizm və fantaziyası keçmişin və bu günün sistemli kulturoloji təhlilinə əsaslanıb, gələcəyin pozitiv obrazının formalaşdırılmasına əsaslanaraq, yüksək idarəçilik texnologiyalarının təmin edilməsinə qabil olmalıdır.

Beləliklə, S.Pereslegin və N.Yutanov bəşərin müasir sosial sistemlərinin böhran əlamətləri içərisində insan qorxusunun "maddiləşməsinin" adını çəkirlər. Müəlliflər fiziki ölüm, psixi ölüm (ağlını itirmək), psixoloji ölüm (ailənin məhvi, irsin davam etdirilməsindən məhrum olmaq) və sosial ölüm (tribadan qovulmaq) qorxularının aradan qaldırılma imkanlarını varlığın mədəni inkişaf

hesabina "pozitiv dəyişdirilməsində" görürlər. Onlar bəşəriyyətin multimədəni mülkiyyətlərinin qorunması və tərəqqipərvər nailiyyətlərinin yaradıcı istifadəsini nəzərdə tutan innovasiyalı proqram və layihələrin hazırlanıb həyata keçirilməsinin əhəmiyyətini xüsusi qeyd edirlər. Onlar ictimai inkişaf proseslərinin öyrənilməsində tarix və sosiologiyanın rolunu vurğulayaraq, pozitiv fəlsəfəni elmi diskussiyaların metodologiyası kimi təklif edirlər. Onlar dünyanın dəyişdirilməsində real addımların atılması və uğurlu gələcəyin formalaşdırılması yolunu *innovativ proseslərdə,* hər bir şəxsin cəmiyyətin rifahı naminə quruculuq fəaliyyətindəki yaradıcı və məsuliyyətli iştirakında, vətəndaşların maraqlarına cavab verən azad yaradıcı fəaliyyəti üçün dövlətin zəruri şərait yaratmasında görürlər.

Cəmiyyətin peşəkar və gündəlik adi mədəniyyəti kulturologioya sahəsində aparılan elmi-nəzəri tədqiqatların səviyyəsindən asılıdır. Nəzəri kulturologiya varlığı zamanın tələbinə uyğun dəyişmək məqsədini güdür. O, fəlsəfənin və insanların həyat fəaliyyəti texnologiyalarının təkmilləşdirilməsinə, həyat keyfiyyəti və rifahın artırılmasına, dövlət və cəmiyyətin təhlükəsizliyi və davamlı inkişafına istiqamətlənmişdir. Kulturoloji tədqiqat prosesində lazımi nəticələrin əldə edilməsi üçün mədəniyyətin inkişaf etdirilməsinin bir neçə göstəricilərinin nəzərdən keçirilməsi vacibdir, məs., mütəxəssislərin hazırlığı və onlardan istifadə, qanunvericiliyin keyfiyyəti, demokratik idarəetmə mədəniyyəti, istehlak olunan mədəni nemətlərin kəmiyyət və keyfiyyəti, fəaliyyətin ictimai texnologiyaları, vətəndaş cəmiyyəti əxlaqı, mədəni dəyərlər və mədəni irs. Sistemli analizin mühüm bloklarından aşağıdakıları da qeyd etmək vacibdir: insan hüququ, mədəniyyət hüququ, kadr siyasəti, mədəni müxtəliflik, yeni həyat tərzi, gender münasibətləri, sülh mədəniyyəti, istehsal və iqtisadi, tibbi və ekoloji mədəniyyət, məsuliyyət mədəniyyəti, yoxsulluqla mübarizə, beynəlxalq münasibətlər, mədəni proseslərin ictimai monitorinqi və digər.

Dünya kulturoloji fikri ilə tanışlıq göstərir ki, mədəniyyət və mədəni inkişaf problemləri hələ antik dövrdən qabaqcıl insanları narahat etsə də, kulturologiyanın elm kimi təşəkkül tapması üçün şərait XIX əsrdə antropologiya, etnologiya, sosiologiya və

psixologiyanın inkişafı nəticəsində əmələ gəldi. Kulturologiyanın təşəkkül və inkişafının aşağıdakı mərhələlərini qeyd etmək olar:

1. İnsan və onun dünyasının tədqiqi ilə məşğul olan etnologiya və antropologiyanın inkişafı ( XIX əsrin axırlarına qədər);
2. Sosiologiya və psixologiyanın təşəkkülü və inkişafı (XIX əsrin axırlarından);
3. Öz fəaliyyət və inkişaf qanunauyğunluqları olan bəşəriyyətin mədəniyyəti haqqında elm olan kulturologiyanın təşəkkülü və inkişafı (XX əsrin ortalarına yaxın);
4. Sistemli kulturoloji tədqiqatların intensiv inkişafı ( XX əsrin II yarısından etbarən).

Bir çox mədəniyyətlər üçün səciyyəvi olan ilkin ümumi inkişaf qanunları və qanunauyğunluqları əvvəl etnologiya, sonra isə mədəni və sosial antropologiya çərçivəsində öyrənilirdi. Etnologiyanın formalaşması XIX əsrin 80-ci illərinin sonlarında bəşəriyyətin tarixi inkişaf proseslərinin öyrənilməsi çərçivəsində baş verirdi. Onun vəzifələrinə - mədəniyyətin təbii tarixinin, mədəni tərəqqinin mərhələlərinin, mədəni təkamülün aşkar edilməsi və müxtəlif mədəniyyət və cəmiyyətlərin düşüncə tərzinin dəyişməsinin aşkarlanması daxil idi.

İbtidai mədəniyyətin tədqiqatçısı, etnologiyada təkamül cərəyanının banisi ingilis etnoqrafı Eduard Taylor öz tədqiqatlarını insan və sivilizasiya problemlərinin öyrənilməsinə həsr etmişdir. Digər xalqların həyatını tədqiq edərkən, o, ilk dəfə olaraq, vəhşilik, barbarlıq və sivilizasiya pillələri ilə irəliləyən insan mədəniyyətinin obyektiv tarixi inkişaf qanunauyğunluqlarını dərk edib araşdırmağa çalışmışdır. Taylor tarixi prosesin təhlili üçün tipoloji müqayisə və "qalıqlar metodu"-dan istifadə edərək, mədəniyyətin inkişafında təbii səbəb və nəticə əlaqələrini aşkar etmişdir. O, mədəniyyəti müstəqil inkişaf edən sahələrin vəhdəti kimi nəzərdən keçirərək, haqlı olaraq qeyd edir ki, *maddi mədəniyyət ruhi mədəniyyətin törəməsidir.* Sonrakı əsərlərində alimin tədqiqat obyekti bütövlükdə cəmiyyətin sosial mədəniyyəti olmuşdur.

Mədəniyyət fenomenlərinin səhra etnoloji tədqiqatlarının pioneri, ibtidai cəmiyyət nəzəriyyəsinin banisi, amerika etnoqrafı və

tarixçisi Lüis Morqan bəşəriyyətin tarixinin vəhdət və tərəqqidən ibarət olması ideyasını iddia etmişdir.

Etnologiya mədəniyyəti iki tip etnoqrafik təfsir - mədəniyyətlərdə təkamül və diffuziya hadisələrinin izahı, vasitəsi ilə tədqiq edirdi. Təkamül nəzəriyyəsi müxtəlif coğrafi regionların oxşarlığını insan psixikasının eyniliyi və şəraitin ümumiliyi ilə şərtlənən müstəqil hadisə kimi nəzərdən keçirirdi. Miqrasiya ilə bağlı mədəni diffuziyaya əsaslanan etnoloji təfsir isə təkamül nəzəriyyəsini inkar edərək, onun biologiyadan iqtibas edildiyini söyləyirdi. Bu cərəyanın nümayəndələri öz etnoloji məktəblərini - "tarixi etnologiya" amerika məktəbini (Boas, Kryober, Uissler) və alman "mədəni tarixi məktəbi"-ni (Ratsel, Frobenius, Şmidt) yaratmışlar.

Amerika tarixi-etnoloji məktəbinin xidməti ondan ibarət olmuşdur ki, onlar mədəni birliyi izah edən və mədəni dəyişikliyi idarə edən universal bioloji və və psixoloji qanunları aşkar etmişlər. Alimlər göstərmişlər ki, bütün mədəniyyətlərə aid olmasına baxmayaraq, bu qanunlar müxtəlif formalarda təzahür olunur. Bu məktəb daxilində mədəni dinamika, mədəniyyətin inteqrasiyası, şəxsiyyət və cəmiyyətin, "mədəni areallarin" qarşılıqlı təsiri mədəni cəhətlərin yayılması və s.

Amerika antropoloqu Frans Boasın diqqət mərkəzində insanların sosial adət, fiziki səciyyə və dillərinin oxşar və fərqli cəhətləri problemi dururdu. Onun tədqiqat abyektləri – Amerika hundularının folklor, təsviri incəsənət mifləri, sənətləri, qohumluq sistemləri, psixologiyaları və mədəni əraziləri idi. Boas insanın bioloji və mədəni mahiyyətini "Boas antropologiyasının dörd sahəsi" adını almış metodlarla öyrənirdi. Onlar bioloji tədqiqat üçün ölçü və statistikaya; dilçilik üçün qramatik təhlil və testləşdirməyə; kulturoloji hadisələr üçün yayılma analizi və bütöv tədqiqatlar; mədəni keçmişin öyrənilməsi üçün isə, stratiqrafik arxeoloji tədqiqatlara əsaslanır. Taylor, Loui, Uisslerin mədəni antropologiyası ənənələrinin dirçəldilməsinə istinad edən Boas, mədəniyyətin təkamül prosesləri ilə fəal məşğul olmağa başlayır. Alim amerika antriopologiyasına alman mədəni-tarixi məktəb ənənələrini gətirərək, orada tarixi etnologiya məktəbini yaratdı. Təhlilin tarixi metodlarını təkamülçülüyün nəzəri ümumiləşdirmələrinə qarşı qoyub, səhra

təcrübəsi tədqiqatlarına istinad edən Boas, mədəniyyətin - inteqrasiyası, diffuziyası və onların qarşılıqlı təsirlə bütövləşməsindən ibarət, ikililik anlayışını yaratdı. Müxtəlif mədəniyyətlərin universal və oxşar cəhətlərini qeyd edən təkamülçü yanaşmanın əhəmiyyətini inkar etməyən alim, hər bir mədəniyyətin öz inkişafının nəticəsi olan özünəməxsus xüsusiyyətlərin mühüm əhənmiyyətini göstərmişdir. Boasın xidmətləri ondan ibarət olmuşdur ki, o, XIX əsrin təkamül antropologiyasına ciddi töhfələr vermiş və amerika antropologiyasının başlıca məfhumu olan *"mədəniyyət" anlayışının* tanınmasına nail olmuşdur.

Alman mədəni-tarixi məktəbi, mədəniyyətin inkişafı haqqında təsəvvürlərin subyektiv-emosional səciyyə çərçivəsindən kənar, tarixin dürüstlük meyarı olması fikrindən çıxış edirdi. Alman etnoloqları "inkişaf nəzəriyyəsi" daxilində mədəniyyətin inkişafına təkamülçü baxışları inkişaf etdirərək, qeyri-avropa xalqlarının və alman dilli etnosların mədəniyyət və mədəni proseslərini, T.Vays, Y.Lippert və bu nəzəriyyənin digər tərəfdarları, mədəni əlamətlərin məkan və zaman daxili zahiri oxşarlıqlarını insan psixologiyasının vahidliyi ilə izah edirdilər. Alman alimləri tərəfindən, həm də, mədəni-mifoloji, mədəni-coğrafi və mədəni-tarixi təlimlər, sonralar isə - etno-psixologiya, etno-sosiologiya və funksional sosiologiya daxilində diffuziya prosesləri öyrənilmişdir. Müasir alman etnologiyasının mühüm xidmətlərindən biri, mədəniyyətə etnotəkamül və diffuziyaçı yanaşmalardan - sistemli bir baxış yaratmasındadır. Alman mədəniyyətinin daim zənginləşdirilib proqressiv inkişafı məqsədi ilə digər mədəniyyətlərin tədqiqi zəruriliyinin dərk edilməsi mühüm prinsipial dövlət əhəmiyyəti daşıyırdı.

Mədəniyyətin və onun sosial institutlarının struktur və funksional ölçülərini vurğulayan A.Radkliff-Braun, B.Malinovski, K.Levi-Strossun əsərlərində etnoloji tədqiqatlar daha da inkişaf etdirilmişdir.

İngilis etnoqrafı və sosioloq, etnoqrafiya sahəsində funksional məktəbin görkəmli nəzəriyyəçisi Alfred Radkliff-Braun "sosial antropologiya" –nın yaradıcısı və müasir antropologiyada sistemli yanaşmanın təşəbbüsçüsüdür. Onun hazırladığı sosial antropologiyanın induktiv metodu, mədəniyyət hadisəsinin əsasını

təşkil edən ümumi qanunların dərk edilməsində mühüm alət kimi istifadə olunmuşdur.

İngilis etnoqraf və sosioloqu, etnoqrafiyada funksional məktəbin banisi olan Bronislav Malinovski, məğzini insan ehtiyacları təşkil rtdiyi, sosial institut və fəaliyyət məhsullarının məcmuundan ibarət mədəniyytətin elmi nəzəriyyəsini yaratmağa can atırdı.

Struktur antropologiyanın banisi, mədəniyyət hadisələrinin öyrənilməsində tarixi faktorlara xüsusi əhəmiyyət verən və müasir kulturologiyanın təşəkkülünə ciddi təsiri olan fransız etnoqraf və sosioloqu Klod Levi-Stross, müxtəlif mədəniyyətlərin obyektiv köklərini müəyyənləşdirməyə cəhd göstərmişdir. Onun təklif etdiyi etnoloji təfsirlər dünya mədəniyyət tarixinin yazıyaqədərki dövrünün tarixi rekonstruksiyasına təsir göstərmişdir.

Məlumdur ki, insanın təbiətdə və sosial mühitdə mövcudluğunun fundamental problemlərini öyrənən antropologiya bir elm kimi, bir sıra sosial və bioloji elmlər də daxil olmaqla, idrakın kifayət qədər geniş sahəsini əhatə edir. O, insanın bioloji tarixini, onun psixologiya və genetikasını, paleontologiya, arxeologiya, etnoqrafiya, etnologiya, sosiologiya, mifologiya, linqvistika, sosial coğrafiya və demoqrafiya sahələrini əhatə edir. XIX əsrdə antropologiya daxilində, predmet sahəsi insan və mədəniyyətin qarşılıqlı münasibətləri və mədəniyyət yaradıcı, eyni zamanda yaradan insanın genezis problemi olan mədəni antropologiya formalaşır.

XX əsrin əvvəllərində həm antropologiyanın inkişaf məntiqi, həm də elmin inkişafı üçün səciyyəvi olan diferensasiya və inteqrasiya prosesləri bütövlükdə insan mədəniyyətini və onun tədqiqat metodlarını, elmi fikri yeni axtarışlara stimullaşdıran bütöv sosial-tarixi sistem kimi anlamağın yeni tələblərini ortaya çıxardı. Alimlər arasında sənayedən əvvəlki mədəniyyətlərin öyrənilməsindən - bu günkü mürəkkəb cəmiyyətlərin, insan və insan mədəniyyətinin sistemli tədqiqinə keçməyin zəruriliyinin dərk edilməsi və bu sahədə müxtəlif yolların axtarışı baş verirdi. Belə ki, İ.Kantın qaldırdığı, insanın mövcudluğu və mahiyyəti barədə problemə cavab olaraq, fəlsəfi antropologiyanın, aksiologiyanın və idrak sosiologiyasının banilərindən biri, alman filosofu Maks Şeler mədəniyyətə, insan varlığı ilə şərtlənən təbiət və fəaliyyətin humanistləşdirilməsi

vasitəsi kimi baxmağı təklif edir. 1928-ci ildə, o, insan varlığının müxtəlif sahələrinin konkret elmi tədqiqini onun fəlsəfi idrakı ilə vəhdətdə öyrənilməsini nəzərdə tutan, insan haqqında əsaslı bir elm yaradılması məsələsini irəli sürdü. Alim bu elmə bütün bütün elm sahələrinin. eləcə də antropologiyanın daxil edilməsini təklif edirdi.

Lakin zamanın tələbi ilə mədəni antropologiya tərəfindən qoyulmuş bu problemə ən tutarlı cavabı cavabı - amerikanın yenitəkamülçü antropoloqu, F.Boasın tələbəsi Lesli Alvin Uayta vermək müyəssər oldu. Əsas vəzifəsinin yalnız keçmişi öyrənmək deyil, eləcə də, bəşəriyyətin müasir inkişafının aktual problemlərinin araşdırılması, mədəniyyətin sistemli tədqiqi üçün metodoloji və nəzəri bazanın hazırlanması olduğunu qeyd edən alim, yeni elmin yaradılması zərurətini əsaslandırdı. Uaytın 1949-cu ildə çap olunmuş "Mədəniyyət haqqında elm" kitabı mədəniyyət və onun qeyri-məhdud dəyişdirici imkanları haqqında təsəvvürlərin inkişafında inqilabi çevriliş, keyfiyyətcə yeni səviyyə oldu. O, ictimai elmlərin inkişafına, humanitar biliklərin yeni ənənələrinin yaranmasına mühüm töhfə oldu. Antropologiya, psixologiya, sosiologiya, tarix və ekologiyanın nailiyyətlərindən istifadə edib, .müəllimi F.Boasın ənənələrini yaradıcı inkişaf etdirən Uayt XX əsrin yeni elmini - ictimai elmlərin inkişafında keyfiyyətcə yeni səviyyə olan – kulturologiyanı yaratdı.

Hələ 20-ci illərdə L.Uayt insanların davranış motivasiyası problemini öyrənməyə başladı. Bu tədqiqatlar nəticəsində, o, mədəniyyətin, onda baş verən dəyişmə proseslərinin tədqiqi üçün təkamül nəzəriyyəsindən istifadə etməyin zəruriliyi və imkanlarını anladı. Eyni zamanda, o, L.Morqanın tədqiqatlarına istinadən, göstərir ki, mədəni təkamül konsepsiyasıF.Boas və digərlərinin düşündüyü kimi, Ç.Darvinin bioloji təkamül konsepsiyası ilə əlaqədar deyil. Bu ideya antik, orta əsr mədəniyyətindən keçib, Yeni dövr mədəniyyətinə gedərək, Horatsi, İbn Haldun, Yum, Kant, Herder, Kont və bir çox mütəfəkkirlərin əsərlərində müşahidə edilir. O, eyni zamanda, Taylor, Morqan və Spenserin əsərlərində öz əksini tapır. Mədəniyyətin təkamül nəzəriyyəsinin mahiyyəti, mədəniyyətin yeni formasının köhnənin inkişafı nəticəsində təzahür olunduğu mərhələli inkişafdadır.

Taylorun antropoloji ənənələrini dirçəldən Uayt, mədəniyyəti insanın intellektual imkanları, onun simvolik təfəkkür qabiliyyətləri ilə bağlayırdı. İdeyalar, inanclar, hissi münasibətlər, fəaliyyətlər, davranış normaları, ənənələr, qanunlar, institutlar, incəsənət əsərləri və formaları, dil, alətlər, əmək vasitələri, mexanizmlər, əşyalar və s. kimi hadisələri nəzərdən keçirən Uayt, onların öyrənilməsinin iki aspektini müəyyənləşdirir : somatik (psixoloji) və ekstrasomatik (kulturoloji) . O, alimlərin diqqətini psixologiyanın insan davranışını somatik kontekstdə, predmet və hadisələrin bir-birinə təsirini insan orqanizmi ilə qarşılıqlı fəaliyyət çərçivəsində nəzərdən keçirir. Kulturologiya isə həmin predmet və hadisələri qarşılıqlı əlaqədə - ekstrasomatik kontekstdə nəzərdən keçirir. Beləliklə, Uayt *ilk dəfə olaraq,* ideya, münasibət, fəaliyyət və əşyalatın məcmusunu təşkil edən, *maddi predmetlərin mədəniyyətin bölünməz hissəsi olduğunu* göstərib, *mədəniyyəti bütöv sistem və elmi tədqiqatların müstəqil obyekti kimi müəyyənləşdirdi.* Alim *"kulturologiya"* (culturology ) sözünü, tədqiqata yeni məntiq və metodologiya tətbiqinə əsaslanan, insan inkişafı üçün yeni imkanlar açan, tarixə yeni baxış formalaşdıran elmin müəyyənləşdirilməsi zərurəti kimi izah edirdi.

Uayt anlayırdı ki, insanların fərdi və kollektiv davranışının determinasiya problemləri ilə məşğul olan sosiologiya və sosial psixologiya məsələləri insan mədəniyyətinin sistemli təhlili üçün zəruri olsa da, kifayət deyil. Məntiqi təhlil əsasında, o, bioloji fərqlərlə şərtlənən heyvanlar aləminin davranışından fərqlənən insan üçün, istər fərdi, istərsə də sosial səviyyədə məhz mədəniyyətin fərqli cəhət olmasından ibarət elmi kəşf etdi. Başqa sözlə, *insan cəmiyyətində insanların davranışı və cəmiyyətin inkişaf səviyyəsi, dəyişməsi ilə cəmiyyəti də dəyişdirən mədəniyyətdən asılıdır.* Buradan belə bir fundamental nəticə alınır ki, *insan davranışı onun mədəniyyətinin funksiyasıdır və mədəniyyətin dəyişməsi davranışı da dəyişdirir.* **(B=f(C)).** Uayt tərəfindən mədəniyyətin "yeni dünya", ekstrasomatik dünya ( yəni, insanın bioloji təbiətindən yuxarıda duran), kimi kəşf edilməsi elmdə mühüm addım oldu. O, mədəniyyət anlamının düzgün başa düşülməsi və onun imkanlarının insan maraqlarına istiqamətləndirilməsi üçün baza yaratdı. Müəllif inanırdı ki, elm tarixindəki bu kəşf nə vaxtsa, Kopernikin

heliosentrik nəzəriyyəsi və ya həyatın bütün formalarının əsası, meqa və mikro dünya sirlərinin açarı olan hüceyrənin kəşfi kimi öz yüksək qiymətini alacaqdır.

Uaytın elmi konsepsiyasının səciyyəvi xüsusiyyətrlərindən biri də odur ki, o, mədəniyyəti, insanın həyati tələbatlarını təmin etmək üçün zəruri enerjinin əldə edilib istifadəsindən ibarət həyat fəaliyyətinin termodinamik vasitəsi kimi nəzərdən keçirir. O, mədəni inkişafın başlıca qanunauyğunluğunun mədəniyyətin inkişafından, enerjinin sərf olunduğu istehlak artımından və ya əmək alətlərinin effektivliyindən birbaşa asılılığında görürdü. Mahiyyət etibarilə, Uayt mədəni inkişafın göstəricilərini ictimai istehsalın effektivliyinin inkişafı ilə əlaqələndirir. Onun, mədəniyyətin təkamülü üçün irəli sürdüyü enerji konsepsiyasında, müəyyən fenomenlər ardıcıllığının sonuncusu, fərdi prinsip və qanunlara uyğun təsvir edilə bilər.Bütövlükdə mədəni sistemlər və ya mədəni elementlərin qarşılıqlı təsir prinsiplərini təhlil edərək, mədəni fenomen və sistemlər qanununu formulə etmiş və insan mədəniyyətinin müxtəlif mədəni ənənələrin vəhdətindəti kimi təfsir etmişdir. Bu, insan mədəniyyəti inkişafının mühümtarixi qanunauyğunluqlarını izləməyə imkan verir.

Mədəniyyəti bütöv, mütəşəkkil və inteqrativ sistem kimi nəzərdən keçirən Uayt, onda, müxtəlif qarşılıqlı fəaliyyət qüvvələrinin bir-birini şərtləndirən üç altsistemləri ayırır: texnoloji, sosial və ideoloji.

- Texnoloji ( ilkin,əsas, baza) insanın ətraf mühitə uyğunlaşması ilə şərtlənir. Bura əmək alətləri, mövcudluq vasitəkləri, yaşayış yeri tikmək üçün materiallar, müdafiə və hücum üçün vasitələr və s daxildir.
- İdeolojiyə ideya, bilik və inanclar daxildir.
- Sosiala kollektiv davranış tipləri daxildir.

Mədəniyyətin inkişafı və artmasının dərk edilməsi üçün mühüm vasitə olan texnoloji subsistemin fəaliyyəti enerji sərfi ilə əlaqəli və dinamik olduğuna görə, mədəniyyəti materiya və enerji anlayışları ilə bərabər təsvir etmək olar. Uayta görə, mədəniyyətin həyat tələbatının ödənilməsi ilə əlaqədar olan mühüm funksiyası enerjinin zəruri miqdarda texnoloji əldə edilməsi və onun insan maraqlarında istifadə

edilməsidir. Bu baxımdan, insanın həyat fəaliyyətinin təmin edilməsi üçün texnoloji sistemin mühüm əhəmiyyəti var.

Uayt mədəniyyətin inkişafının, bir ildə əhalinin adam başına düşən enerjinin miqdarı ilə, və ya enerjini yaradan əmək alətlərinin (texnologiyalar – F.M.) effektivliyinin inkişafı ilə düz mütənasib olması qanunauyğunluğunu müəyyənləşdirir. O, *mədəniyyətin inkişaf səviyyəsini səciyyələndirən üç universal faktor* ayırır:

- Bir ildə adam başına istifadə edilən enerjinin miqdarı;
- İnsan inkişafı məqsədi ilə enerjinin əldə etilməsi üçün effektiv texnologiyalar ;
- İnsan tələbatının ödənilməsi üçün istehsal edilmiş predmet və xidmətlərin həcmi.

Bu faktorların təhlili əsasında, o, mədəniyyəti rifahın inkişafında texnoloji faktor kimi izah edən, *mədəniyyətin təkamül nəzəriyyəsini və ya "Uayt qanunu"-nu* formulə edir. Bu qanuna görə, insanın tələblərini ödəmək üçün adambaşına istehsal edilmiş məhsul və xidmətin miqdarı ilə ölçülən mədəniyyətin inkişaf səviyyəsi, adambaşına istehsal olunmuş enerji və bu enerjinin istifadəsi üçün zəruri olan texnoloji vasitələrin effektivliyi ilə müəyyən olunur.

Özündə sosial təkamül nəzəriyyəsinin mənbəyini əks etdirən antik müəlliflərin, eləcə də Taylor, Morqan, İbn Həldun, Kant, Herder, Kont və digər alimlərin yanaşmalarına istinadən, Uayt, mədəniyyətin tədqiqi üçün ardıcıl, pilləli inkişaf prinsipinə əsaslanan yeni metodologiya yaratdı. Tarixi, məntiqi və təkamül təhlili prinsiplərini əsas tutaraq, o, bütöv sistem olan mədəniyyətin tədqiqində üç prosesi ayırdı:

- ✓ Unikallığı ilə fərqlənən nadir hadisələrin xronoloji ardıcıllığından ibarət zamani proses;
- ✓ Hadisələrin zamandan kənar, struktur və funksional aspektlərində təqdim olunduğu formal proses;
- ✓ Hadisələrin ümumi keyfiyyət və xüsusiyyətlərini aşkarlayıb, proqressiv dəyişən formaları zaman ardıcıllığı kimi təqdim edən formal-zamani proses.

Buna uyğun olaraq, alim, *mədəniyyətin təfsirinin üç üsulunu təqdim edir: tarixi, funksional və təkamül* . Bununla belə alim göstərmişdir ki, təkamülçü yanaşma tarixi hadisələrin unikkallığı

axtarışlarına yox, ümumi mədəni keyfiyyət və xüsusiyyətlərin aşkar edilməsinə istiqamətlənmişdir. Beləliklə, təkamülçü yanaşma mədəniyyətin dəyişməsi prosesini izləməyə və onun inkişafının ümumi qanunauyğunluqlarını aşkar etməyə imkan verir.

Həyat Uaytın kəşfinin yüksək əhəmiyyətini və yaratdığı elmin - ənənəvi humanitar və sosial elmlərin həll etmə imkanı xaricində olan mürəkkəb elmi-praktik problemləri, keyfiyyətcə yeni səviyyədə məntiqi yolla həll etməyə qabil olan kulturologiyanın yüksək dəyərini təsdiqləmişdir. Uayt etnologiya, antropologiya, psixologiya və sosioloji materialların məntiqi təhlil və tərkibi əsasında lokal mədəniyyətlərin komparativ təhlilindən - bəşər mədəniyyətinin inkişaf qanunauyğunluqlarının aşkar edilməsinə doğru cığır açdı. Amerika aliminin xidməti ondan ibarət oldu ki, o, ilk dəfə olaraq mədəniyyətin yeni anlamını elmi tədavülə buraxmış, kulturologiyanın predmet sahəsini müəyyənləşdirilmiş, mədəniyyət haqqında elm üçün "kulturologiya" termininin istifadəsini əsaslandırmış, təkamül konsepsiyasını yenidən işləyərək, bəşər mədəniyyətini bütöv sistem kimi tədqiq etməyə imkan verən sistemli yanaşma təqdim edə bilmişdir. Uayt öz elmi tədqiqatları ilə göstərdi ki, sosiologiya, psixologiya və s. ayrı-ayrı ənənəvi elmlərin həll edə bilmədiyi mürəkkəb elmi problemlərin mümkün qədər optimal həlli kulturologiya vasitəsi ilə həyata keçirilə bilər. Onun, insan, cəmiyyət və bəşəriyyətin inkişaf proseslərinin dərk edilib tənzimlənməsi üçün zəruri olan kulturologiyanın perspektivliliyinə bəslədiyi dərin inam, bu gün dünya mədəniyyəti və sivilizasiyası praktikasında öz əməli təsdiqini tapır . Komponentlərini bir çox humanitar, sosial və təbii elmlərdən götürmüş, müasir kulturologiya, öz metodoloji alətlərindən istifadə etməklə, həm mədəniyyətin müxtəlif hadisə və institutları, həm də bütövlükdə mürəkkəb ictimai, dövlət və beynəlxalq proseslərin elmlərarası tədqiqi üçün geniş imkanlar açır. Müstəqil sosial fenomen və noumen olan mədəniyyətin sistemli tədqiqi təbiət elmlərinin təbiət elmlərinin tədqiqat metoduna uyğun olaraq, sosial-mədəni proseslərin effektiv modelləşdirilməsi və proqnozlaşdırılması üçün geniş imkanlar açır.

Humanist "mədəniyyət və insan" konsepsiyasının müəllifi, mədəniyyətin öyrənilməsinin yeni metodu olan transpersonal

psixologiyanın banisi, amerika psixoanalitik alimi Abraham Maslou da mədəniyyəti insan tələbatları prizmasından təhlil edir. L.Uaytın əsas ideyalarını inkişaf etdirib təkmilləşdirən A.Maslou, mədəniyyətin kamillik keyfiyyəti kimi, onun insan tələbatlarını ödəməsi və şəxsiyyətin potensial qabiliyyətini sosial reallaşdırması üçün əlverişli şəraitin yaradılmasını, müəyyənləşdirir.

Universal fəlsəfə kimi təklif olunan bu konsepsiyanı, o, mədəniyyətin müxtəlif sosial institutlarının dərk edilməsi açarı hesab edirdi.Alim halizm fəlsəfəsini rəhbər tutaraq, tələbatların beş səviyyəsini müəyyən edir: 1. Fizioloji tələbat; 2. Özünüqoruma tələbatı; 3. Məhəbbət və birlik tələbatı; 4. Tanınmaq və özünütəsdiq tələbaıt; 5. Yaradıcılıq vasitəsi ilə təkmilləşmə və özünüaktuallaşdırmaya olan tələbat.

Maslounun hazırladığı "ideal cəmiyyət" modeli - mədəniyyətin sosial institutlarının humanistcəsinə dəyişdirilməsi vasitəsi ilə insan harmoniyası, təhlükəsizlik və qabiliyyətləri maksimal inkişaf etdirmək imkanı, eləcə də insan şüurunun dəyişdirilməsi prinsipləri üzərində qurulmuşdu.

L.A.Uayt, A.Maslou və digər tanınmiş alimlərin mədəniyyətin elmi təhlil konsepsiyaları bu məqalənin müəllifi tərəfindən sosial mədəniyyət, həyat keyfiyyəti və rifahın inkişafının effektivliyinin təmin edilməsi məqsədi ilə optimal texnologiyaların məntiqi açarı ola biləcək bir neçə kulturoloji formulun yaradılmasına imkan vermişdir. Bu, *mədəni insanın formulu, mədəniyyət, istehsalat və idarəetmənin effektivlik formulu, səadət, uğur və digərin formullarıdır.*

*Bəşəriyyətin mədəni inkişafının əsasını* həyatın qorunması, ona yardım edilməsi, daha da yaxşılaşdırılması və artmaqda olan insan ehtiyaclarının ödənməsidir. Bu zaman sosial-mədəni tərəqqinin sürət və keyfiyyəti *mədəniyyətin effektivliyi ilə müəyyənləşir. Cəmiyyətin mədəni effektliyi artdıqca, iqtisadi inkişaf səviyyəsini səciyyələndirən ümumi ictimai məhsul göstəriciləri, insan inkişafı indeksi, rifah və həyat keyfiyyəti səviyyəsi daha yüksək olur.*

$$Mədəniyyətin\ effektivliyi(F) = \frac{Həyat.fəaliyyət.keyfiyyəti(Q)}{Xərclər(N) \times Vaxt(T)}$$

$$F = \frac{Q}{N \times T} \qquad Q = f(X) \qquad X =$$

*cəmiyyətin mədəni səviyyəsi*

- *Həyat fəaliyyətinin keyfiyyəti* – həyat fəaliyyətinin əlamət, xüsusiyyət və faydalılıq toplusunun ölçüsü olaraq, onun fərdi və ictimai ehtiyacları ödəmək qabiliyyətinin səviyyəsidir.
- *Cəmiyyətin mədəni səviyyəsi* - elm, təhsil, etika, idarəetmə, hüquq, texnologiya, istehsal, istehlakın səviyyəsi ilə müəyyən olunur.
- *İnsanın mədəni səviyyəsi* - onun bilik, bacarıq, mütəşəkkillik, mənəviyyatlılıq və yaradıcı fəaliyyətinin səviyyəsi ilə müəyyən olunur.
- *Xərclər* – təhsil, tərbiyə, elm, idarəetmə, texnologiyalar, istehsalat, incəsənət, səhiyyə, ekologiya və s. maliyyə və əmək xərcləri.
- *Zaman* – yeni keyfiyyətli həyat fəaliyyətini təmin edən ruhi və maddi dəyər və normaların istehsalına sərf olunan vaxtdır.

*Həyat fəaliyyətinin keyfiyyət artımı, inkişaf üçün xərc və zamanın azaldırlması aşağıdakılarla müəyyənləşir:*

- Elm və yüksək texnologiyaların səviyyəsi;
- Şəxsiyyətin mədəniyyəti və onun yaxşı işləmək istəyi;
- Əmək və paylama münasibətləri mədəniyyəti;
- Milli gəlir və ümumi ictimai məhsulun səviyyəsi;
- İntensiv (yəni, işçilərin sayını və xərclərin həcmini artırmadan) səbəblər hesabına əmək məhsuldarlığının (effektivliyinin) inkişafı;
- İqtisadiyyatın struktur təkmilləşdirilməsi;
- İctimai əmətin təşkili və stimullaşdırılması;
- Səhiyyə, ekologiya, fiziki tərbiyə və idmanın inkişaf səviyyəsi;
- İstehlak mədəniyyəti;
- Dövlətin hüquqi və etik sistemlərinin effektivliyi.

Müasir dövlət və cəmiyyətlərin inkişaf səviyyəsi və *mədəniyyətlərinin effektivliyi* barədə mühakimə yürütməyə imkan verən ən mühüm göstərici *rifah* – əhalinin zəruri ruhi və maddi nemətlərlə - insani həyati tələbatları ödəyən əşya, xidmət, şəraitlə təmin olunmasıdır. Rifah *müəyyən dövrdə yaradılmış ruhi və maddi nemətlərin, predmet və xidmətlərin dəyərinin* qiymətləndirilməsi ilə müəyyən olunur.

Mədəniyyətin inkişaf və effektivlik səviyyəsinin göstəricisi olan *rifah əməyin məhsuldarlığı və mədəniyyətin entropiya səviyyəsindən daha çox asılıdır.*

Fəaliyyət texnologiyasının effektivliyini səciyyələndirən *mədəniyyətin faydalı iş əmsalı* ( dövri prosesdə işə çevrilən ) enerjinin dəyişməsinə münasibətdə fayda ilə istifadə edilmiş enerjinin, fəaliyyət prosesində istifadə olunan ümumi enerjiyə nisbəti ilə müəyyən olunur.

### *MƏDƏNİYYƏTİN FİƏ*

$$= \frac{Sərf.olunmuş.faydalı.enerji(iş)}{Sərf.olunmuş.ьmumi.enerji(iş)}$$

Ruhi və maddi dəyərlərin istehsalı prosesində *mədəniyyətin entropiyası* yəni "paylanması", ümumi enerjinin (işin) faydalı nəticəyə çevrilməyən hissəsinin itirilməsi baş verir. Bunu aşağıdakı formulla ifadə etmək olar :

*MƏDƏNİYYƏTİN ENTROPİYASI* =
Sərf edilmiş ümumi enerji (iş)
*çıxılsın*
Sərf edilmiş faydalı enerji

Kulturologiyada sosial-mədəni entropiya dedikdə, bir sistem olan konkret lokal mədəniyyətin tam və ya onun bir hissəsinin deqradasiyası (gerilməsi) başa düşülür.

Bir məhsulun istehsalına sərf olunmuş zamanın miqdarı ilə ölçülən *əmək məhsuldarlığı*, müəyyən dərəcədə, intellektual mədəniyyətin və elmi nailiyyətlərin texnoloji tətbiqi səviyyəsindən asılıdır.

Birinci formuldan məlum olduğu kimi, mədəniyyətin başlıca effektivlik şərti, cəmiyyətdə əxlaq və hüququn səviyyəsindən asılı olaraq, *dövlətin hüquqi və etik sisteminin təkmilləşdirilməsidir.* Mədəniyyətin bu iki mühüm göstəricisi ictimai münasibətlərin formalaşmasına çox böyük təsir göstərir. Onlar demokratik dövlətin strateji vəzifələrinin həllində - şəxsi və ictimai məqsədlərin vahidliyi, bərabərlik, ölkə vətəndaşlarının mədəni eyniliyi və həmrəyliyini nəzərdə tutan, ümumi-sosial mədəniyyətin formalaşdırılmasında, başlıca rol oynayır.

İnsanların həyat fəaliyyətinin maddi maraqları ilə reallaşdırılan iqtisadi tənzimlənmədən fərqli olaraq, hüquq və əxlaq dövlətin *icbari* gücü və ictimai rəyin təsiri ilə həyata keçirilir. Ruhi mədəniyyət komponenti və cəmiyyətin insana təsir alətləri olan *hüquq və əxlaq* ümumi sosial funksiyanı müxtəlif vasitələrlə yerinə yetirir - insanın sosial davranışını tənzimləyir və ona nəzarət edir. Bu zaman onlar öz vəzifələrini müxtəlif üsullarla yerinə yetirirlər: birinci halda *icbarilik tədbirləri,* ikincidə - *cəmiyyətin mənəvitəsir tədbirləri,* ictimai rəyin gücü və ya insanın şəxsi əqidəsi ilə. *Hüqu* - dövlət tərəfindən rəsmən təsdiqlənmiş normaların *sosial sərəncam səciyyəsi daşıdığı halda, əxlaq - ictimai şüurda yaşayan daxili kateqoriyadır.*

İnsanın əxlaqi tələblərin mahiyyətini düzgün anlaması, *şəxsiyyətin mənəvi nüfuzunun* formalaşmasına təsir göstərir. *Adətlər* - insanların, cəmiyyətdə qəbul olunmuş, fəaliyyət istiqamətləri haqqında təsəvvürlərinə əsaslanan davranışıdır. İnsanın mənəvi dəyərlər və davranış motivlərinin əsasını, insanın təyinatı və həyatının mahiyyəti haqqında təsəvvürləri təşkil edir. *İnsanın mənəvi özünü dərki* – onun əqidəsi, hissləri, meylləri, vicdanı onun ailədə mədəni tərbiyəsinin, eləcə də onun yaşadığı sosial mühitin məhsuludur. İnsanın mənəvi mədəniyyəti onun maraqlarının digərlərinki ilə toqquşduğu zaman özünü göstərir. Şəxsiyyətin pozitiv adətləri insan ləyaqətinə hörmət, şəfqət, iffət, səxavət və xeyirxahlıq hissi bəsləməsi ilə özünü göstərir.

*Əxlaq və hüquq* – cəmiyyətin həyatında baş verən sosial-mədəni, iqtisadi və siyasi dəyişikliklərin təsiri altında dəyişən tarixi hadisədir. Dünya mədəniyyətinin inkişaf tarixi insan həyatının, vəhşilikdən mənəvi tərəqqiyə doğru yüksələn hərəkəti, onun bioloji xarakter və formalarının insaniləşdirilməsini təsdiq edir. İnsan əxlaqının tarixən humanistləşməsi atavizm, hannibalizm, qəddarlıq, mədəniyyətlərarası obyektiv və subyektiv ziddiyyətləri aradan qaldırılaraq, insanlar arasında ədalətin və bərabərliyin təsdiqi, şəxsiyyətə hörmət yolu ilə inkişaf etməsində ifadə olunur.

Feodalizm və ilkin kapitalizm cəmiyyətində *bərabərlik* yalnız bir zümrə və ya sinfi mədəniyyət tipi daxilində nəzərdə tutulurdu. Bu da şəxsiyyətin cəmiyyətdən uzaqlaşıb yadlaşmasına səbəb olan ikili əxlaq və davranış, siyasətdə ikili standartların yaranması ilə nəticələnirdi. Demokratik quruluşlu cəmiyyətlərdə bu tendensiya təqribən aradan qaldırılır. Hüquq və əxlaqın vəhdəti, sabit normalara ( qayda və sərəncamlar ) münasibətdə, xalqın iradəsini, onun ədalət və Haqq barədə ümumbəşəri təsəvvürlərini ifadə edir. Burada əhalinin sosial fəallığı və şüurluluğunun inkişafı, insanın hüquq və azadlıqlarının müdafiəsi demokratiya mədəniyyəti inkişafının faktorlarından biri kimi çıxış edir.

İnsanların maraq və obyektiv zəruri ehtiyaclarına əsaslanan sosial-mədəni fəaliyyəti də onu əhatə edən dünyanı dəyişdirmək imkanı verən *iradə azadlığını* nəzərdə tutur. İradə azadlığı, şəxsiyyətin demokratik cəmiyyətdə seçim azadlığı və məsuliyyətini də müəyyənləşdirir. Buna görə də, şəxsiyyətin müdrikilik səviyyəsini, humanizmini, təbiət və cəmiyyətlə ahəngdar fəaliyyətini səciyyələndirən yüksək şüur, hiss və davranış mədəniyyəti, demokratik dövlətlərin mühüm sosial - siyasi vəzifəsi kimi meydana çıxır. Şəxsiyyətin yüksək mədəniyyətinin formalaşması prosesində, həyatfəaliyyəti texnologiyalarının təkmilləşməsinə ekspert yardımı göstərmək qabiliyyətinə malik, dövlət siyasətinə əməli təsiri ilə yüksələn sosial tərəqqini təmin edən *ziyalıların rolu ölçülməz dərəcədə artır.* Əlverişli sosial-mədəni mühitə malik cəmiyyətlərdə sosial-mənəvi tələblərin məcburiyyətdən, insanın mənəvi vəzifəsinin yerinə yetirilməsini təmin edən, *həyat qanununa* tədrici çevrilməsi üçün şərait yaranır.

Həm hüquq, həm də əxlaq çərçivəsində, qanun və onun praktik həyata keçirilməsi, vicdan və rəsmi əxlaqın tələbləri, milli və bəşəri tələblər arasında *obyektiv və subyektiv ziddiyyətlər* mövcud ola bilər. Bu ziddiyyətlərin aradan qaldırılması imkanları, cəmiyyət və şəxsiyyətin inkişaf maraqlarına cavab verən mənəvi prinsip, ideal, mənəvi-mədəni dəyərlərdən, cəmiyyətin mənəvi mədəniyyət səviyyəsindən və düzgün elmi yanaşmadan asılıdır.

Real həyatda mövcud olan ideoloji ziddiyyət və insani münaqişələrin təbiətini və əxlaqi rolunu anlamaq üçün *"qəti" və "şərti" imperativ* anlayışlara müraciət etmək lazım gəlir. Klassik alman fəlsəfəsinin banisi İmmanuil Kant hesab edirdi ki, millətin mədəniyyətinin mahiyyəti insanın ictimai dəyəri ilə ölçülür. Kant "qəti imperativ"-i ( şərtsiz hökm) mənəviyyatın keyfiyyət meyarı kimi qəbul edir. O, insanı inkişafın məqsədi elan edərək, aprior prinsip əsasında öz "mənəvi qanununu" qurur və hesab edir ki, qəti imperativ ümumi xarakter daşımalı, *insanların bərabərliyi prinsipinin* həyata keçirilməsinə yardım etməlidir. Qəti imperativdən fərqli olaraq, makkiavellizm prinsipinə əsaslanan (məqsəd vasitəni doğrultmalıdır) şərti imperativ fəlsəfəsi belə səslənir : " əgər sən hər hansı bir məqsədə çatmaq istəyirsənsə, vasitə olaraq, müəyyən əməli addımlar həyata keçirməlisən". Beləliklə, şərti imperativin əsasında insanların fərdi maraqlarının əkslikləri durur ki, bu da onun, mənəvi və sosial münasibətlərin harmonizasiyası üçün, meyar olmasını aradan qaldırır. Əfsus ki, bəşər tarixi bizə, sonda insanlar və xalqlar arasında münaqişə, sosial gərginliklə nəticələnən, dəyərlərin maraqlara qurban verilməsi halları üzrə çoxlu sayda nümunələr təqdim edir.

Sosial ziddiyyətlərin səviyyəsinin azaldılması yolu yüksək mədəniyyətə nail olmaqdan, nüfuzdan elmi bilik və təcrübəyə, şüurluluğa, məsuliyyətliliyə, düzgün sosial-mədəni siyasətin təmin etdiyi cəmiyyətin universal mənəvi-mədəni dəyərləri əsasında şəxsiyyətin tam inkişafını nəzərdə tutan "Homo Hultural" tipli yeni insanın formalaşdırılmasına doğru gedən yoldan keçir. Şəxsiyyət və cəmiyyət arasında yaranan ziddiyyətlər onların münasibətlərindəki harmoniya ilə əvəz edilməlidir.

Sosial-mədəni siyasətin düzgün formalaşdırılması üçün, düşüncə tərzi, metod və üsulların məcmuundan ibarət *mədəniyyətin,* hadisələri ekzogen və endogen əlaqələrin retrospektiv verilənlərə uyğun hesablanması və təhlili əsasında, mədəniyyətin sosial institutları və ya prosesləri, onun gələcək inkişafının etibarlılıq səviyyəsi haqqında fikir formalaşdırmağa imkan verən *proqnozlaşdırılmasının* mühüm əhəmiyyəti var. Kulturologiya faktorlar, qanunauyğunluq, və sosial-mədəni inkişafın şərt və şəraitinin hərtərəfli elmi təhlili əsasında milli mədəniyyətin gələcək proqressiv inkişafının gələcəyini elmi əsaslarla, qabaqcadan görməli, insanın həyat fəaliyyətinin tendensiya, dinamika və mümkün nəticələrini müəyyən etməli, perspektivdə dövlətin optimal siyasət prioritetlərinin müəyyənləşdirilməsi üzrə tövsiyələrin hazırlanmasını təmin etməlidir.

Mədəni fəaliyyətin effektliliyinin sistemli kulturoloji təhlili, milli resursların düzgün istifadəsi və uçotu, mədəniyyətinin struktur və sisteminin təkmilləşdirilməsi, dünya sivilizasiyasının inkişaf tendensiyaları, qanunauyğunluqları üzrə ölkənin harmonik sosial-mədəni inkişafı planını, proqramını və layihələrini formalaşdırmağa imkan verir. Sistemli elmi proqnoz keçmişin və indinin inkişaf prosesi və qanunauyğunluqlarının ümumiləşdirilməsi və təhlili əsasında mənəvi mədəniyyətdəki böhranın aradan qaldırılması üsullarının və gələcəkdə onun davamlı inkişafının alternativ yollarının müəyyənləşdirilməsi üçün geniş şərait yaradır.

Zərurət olarsa, kulturoloji tədqiqatda sosial-mədəni modelləşdirmə, sosial proqnoz və Roma Klubunun geniş istifadə etdiyi, sosial-mədəni inkişafın perspektivlərini müəyyənləşdirmək və mədəniyyətin gələcək inkişafı haqqında təsəvvürlərin həqiqilik dərəcəsi haqqında hökm vermək imkanı olan bir sıra ekspertlərin fikrinə əsaslanıb, "delfa" metodundan istinadən, ssenari tərtib etmək mümkündür. Bütöv sistem olan, mədəni inkişafın proqnozlaşdırılması, insanın həyat fəaliyyətinin texnoloji inkişafının mümkün imkanlarını, dəyər, sosial mühitin dəyişmə dinamikasını, sosial-mədəni tərəqqinin qanunauyğunluq və tendensiyalarının ictimai və beynəlxalq münasibətlərin aşkar edilməsini elmi cəhətdən qabaqdan görməyə yardım edir. Cəmiyyətin strateji inkişaf metodu və gələcəyi dərk etmək vasitəsi olan kulturoloji proqnozdan istifadə

etməklə, sosial-mədəni tərəqqinin əsas istiqamət və mədəniyyətlərarası qarşılıqlı təsirini yalnız əsaslandırmaq deyil, həm də mədəniyyətlərarası idarəetmə və liderlik sahəsində qəbul olunmuş qərarların mümkün nəticələrini qabaqcadan görmək imkani verir.

Kulturoloqlar Piter Şvarts və Piter Leyden, dünya sivilizasiyası kontekstində ABŞ-ın müharibədən sonrakı inkişaf təcrübəsinin təhlili əsasında belə hesab edidilər ki, yüksək texnologiyaların , dünya iqtisadiyyatı və beynəlxalq ticarətin sürətli inkişafı, liberal demokratiya və bazar iqtisadiyyatı ideyasının qələbəsini,, milli iqtisadiyyatlar və bazarların inteqrasiyasını tərəqqisini, xalqların siyasi açıqlığının artmasını stimullaşdıracaqdır. Onların hazırladığı, gələcəyi görmənin pozitiv ssenarisinə əsasən, şəbəkə iqtisadiyyatı və texnologiyanın beş möhtəşəm dalğasına - fərdi kompüter, rəqəmli telekomunikasıya, biotexnologiyalar, nanotexnologiyalar və alternativ energetikaya əsaslanan stabil iqtisadi yüksəliş 2020-ci ildə dünyada yoxsulluğun aradan qaldırılması və ekoloji cəhətdən daha təhlükəsiz dünyanın rifah sivilizasiyasının təşəkkülünə yardım edəcək.

Beləliklə, dünya sivilizasiya tarixinin çoxsaylı nümunələrinə müraciət və alimlərin nəticələri göstərir ki, maddi rifah istehsalının, iqtisadiyyatın effektiv inkişafının, sosial tərəqqinin keyfiyyətinin başlıca resursu təbiətdə yox, *insan intellektindədir.* Bu, eləcə də, Yaponiya, Honhonq, Sinqapur və bir sıra başqa, insan kapitalının nüvəsi olan *iqtisadiyyatı intellektual mədəniyyətə əsaslanan* ölkələrin yüksək effektiv təcrübəsi ilə təsdiq olunur. Buna görə də Azərbaycanda iqtisadiyyatın liberallaşdırılması ilə yanaşı, daxili siyasətin və dövlət idarəçiliyi siyasətinin istiqamətini dəyişib, *intellektin, eləcə də, idarəetmə, hüquqi və etik mədəniyyətin prioritet inkişafına* yönəldərək, yenidənqurulması mühüm əhəmiyyət daşıyır. Bu, dövlət və cəmiyyətin , ictimai tərəqqini müəyyənləşdirən, həyat və fəaliyyətinin mühüm strateji istiqamətlərinin davamlı inkişafına siyasi təminat verəcəkdir. Sosial-mədəni inkişafın *yeni prioritetlərinin qurulması* zamanın tarixi tələblərinə uyğun olan, aşağıdakı məsələlərin həllini tələb edir:

- Dünyanın sivil inkişaf tendensiyaları və təcrübəsini nəzərə almaqla, ölkənin gələcək pozitiv obrazı və milli-mədəni inkişaf

konsepsiyası, sosial-mədəni tərəqqinin ümumi fəlsəfəsinin hazırlanması;

- Keyfiyyət və sürət üzrə davamlı elmi strategiya və texnologiyalar hazırlamaq;
- İdarəetmə və təşkilatçılıqda yüksək mədəniyyətə nail olmaq;
- Yüksək ixtisaslı kadr, eləcə də ekspert-kulturoloqların hazırlığı və düzgün istifadəsi;
- Ruhi mədəniyyət sistemində struktur islahatların aparılması;
- Həyat fəaliyyətinin müəyyənləşdirilmiş istiqamətlərinin tərəqqipərvər inkişafını təmin edən hüquqi və etik normaların təkmilləşdirilməsi;
- Məqsədli strateji maliyyələşdirmənin həyata keçirilməsi;
- Prioritet inkişaf istiqamətlərin maddi-texniki şərtlərinin təmin edilməsi;

Rusiya və dünya kulturologiyası təcrübəsinə istinadən aparılmış təhlil 10 illik dövr üçün müəyyənləşdirilmiş "Azərbaycanda mədəniyyətin inkişafı"- nın milli tədqiqat proqramının elmi əsasla hazırlanıb reallaşdırılmasının aktuallığını göstərir. Bu proqram daxilində azərbaycan mədəniyyətinin inkişaf tarixi, praktikası və nəzəriyyəsinin dünya sivilizasiyası kontekstində fundamental təsdiq etmək zəruridir. Keçid dövrünün optimal və eksperimental şəraitində mədəniyyətin inkişaf dinamikası və transformasiyası, struktur və mürəkkəbliyinə görə müxtəlif olan mədəniyyətin sosial institutlarının idarə edilməsi və sinergetikası üzrə sistemli kulturoloji tədqiqat mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, müasir dünya mədəniyyəti və sivilizasiyasının böhran, fəlakət və destruktiv proseslərinin aradan qaldırılması mədəniyyətlərin dialoq və harmonizasiyasının yeni imkanları, müasir sivilizasiyaların inkişaf qanunauyğunluqları və hərəkətverici qüvvələrinin müqayisəli təhlilinin aparılması aktual və praktik əhəmiyyətli vəzifə kimi meydana çıxır. Bunun nəticəsində əldə edilən elmlərarası kulturoloji biliklər, məlumat bankları və içtimai inkişaf texnologiyaları dövlət idarəetmə sisteminin və sosial-mədəni sisyasətin effektivliyinin azərbaycan kulturoloji elminin beynəlxalq nüfuzunun artmasına səmərəli təsir göstərəcəkdir.

# DÜNYA MƏDƏNİYYƏTİ VƏ ELMİNİN İNKİŞAF TARİXİNDƏN

Bu günlərdə bəşəriyyət keçən yüzilliyin nəticələrini ümumiləşdirməklə yanaşı, üçüncü minilliyin həyatfəaliyyət istiqamətlərini də müəyyənləşdirir. O, öz sosial-mədəni inkişafında, hər birinin müəyyən mədəni tip və səviyyə ilə səciyyələndiyi, bir-birini ardıcıl əvəz edən tarixi pillələr keçmişdir. Bu inkişaf prosesi nəticəsində ibtidai cəmiyyətlər daxilində yaranan insan idealları, ruhi və maddi dəyərlərin yenidən istehsalı və onların texnoloji, intellektual və etik baxımdan təkmilləşməsi baş verir. Fasiləsiz inkişaf edən mədəni ənənələr bu dəyərləri, həm zaman, həm də məkan baxımından yeni keyfiyyətdə xalqların gündəlik mədəniyyəti və mədəniyyət yaradıcılarının peşəkar fəaliyyətində mühafizə edir.

Tarixi təcrübəyə müraciət etməzdən əvvəl, dünya mədəni inkişafının mühüm mərhələlərini, bəşəri inkişafın sosial-mədəni qanunauyğunluqlarını düzgün anlayıb qiymətləndirməyə imkan verən bir neçə mədəni məntiqi-nəzəri məsələləri nəzərdən keçirək. Kulturoloji tədqiqatların ümumi metodologiyası kimi, tərəfimizdən, dialektika (Hegel fəlsəfəsi daxil olmaqla), tarixilik prinsipi və məntiq (Lütvi Zadənin qeyri-səlis nəzəriyyəsi daxil olmaqla) seçilmişdir. Bu metodologiyaya istinad, bəşəriyyətin ruhi və maddi inkişafının tarixi proses kimi bütöv bir tam halında dərk edilməsini asanlaşdırır.

Qədim dövrlərdən indiyə qədər, insanın fikri və hissi ilə yaradılan ruhi mədəniyyət insan davranışının ilkin şəraitidir. İnsanın və cəmiyyətin inkişafı nəticəsində formalaşmış şüur, baxış, zövq, xarakter və dəyər istiqamətləri onun vətəndaş mövqeyi, fəallıq, enerji və yaradıcı təşəbbüskarlığını müəyyən edir. Bununla yanaşı, şəxsiyyətin fəaliyyət uğurları onun bilik, bacarıq və intellektual potensialının inkişaf səviyyəsindən asılıdır. Mədəniyyət onun daşıyıcısı və istehlakçısından, onun yaradıcısı olan insanın özündən başlayır. Tərəfimizdən, insan mədəniyyətinin beş əsas xarakteristikası ilə ölçülən düstur hazırlanmışdır. : bilik, bacarıq, mütəşəkkillik, mənəviyyat və yaradıcı fəaliyyət. Bilik – elm və təhsil üzərində qərarlaşmışdır. Bacarıqlar həyatfəaliyyət üsullatından, qabiliyyətlər, vərdiş, təcrübə və enerjidən asılıdır. Mütəşəkkillik – nizam-intizam,

sosial məsuliyyət və iradənin olmasını tələb edir. Mənəviyyat tərbiyədən asılı olaraq, şüur, humanizm, məhəbbət, ədalət, dürüstlük, həqiqətə inam, xeyirxahlıq, vətənpərvərlik və digər mənəvi kateqoriyalardan asılıdır. Yaradıcı fəaliyyət – şəxsiyyətin daxili motivləri, özünütəkmilləşdirmə və özünütəsdiq səhdləri ilə əlaqədardır. Sistemli yanaşma göstərir ki, mədəniyyət - insanın ağlı, hissləri və fiziki əməyi ilə yaradılan hər şeyi əhatə edir. Bu, insanın yaratdığı "ikinci süni təbiətidir". Mədəniyyətin binar mahiyyətini anlamağın illüstrativ modeli – bütöv sosial sistem olan insandır. İnsan fiziki cisim və ruhdan ibarətdir. Əgər fiziki cisim öz mövcudluğunu tamamlayırsa və ya ruhun maddi daşıyıcısı olan insan beyni zədəlidirsə, onda, ruh ya yox olur, ya da öz başlıca funksiyasının - insanın həyat fəaliyyətinin idarə edilməsini yerinə yetirə bilmir. İnsan beyni ilə ruhu ayrılmaz birlik olduğu kimi, ruhi və maddi mədəniyyət də - insan ruhu və ağlının, onun emosional və fiziki fəaliyyətinin məhsulu da vəhdətdədir. Ruhi mədəniyyət insan ağlından doğulduğu kimi, hər bir maddi mədəniyyət predmeti insanın intellektual əməyinin nəticələrinin maddiləşməsi və əşyaviləşməsidir. İnsanın mədənilik düsturu mədəniyyətin elmi anlamı, müasir cəmiyiyətdə mədəniyyətin sosial strukturu və mədəni inkişafın beş faktorunun vəhdəti insan mədəniyyətinin bir çox hadisələrinin təhlili, dövlət və cəmiyyətin inkişafının praktik idarə edilməsinin metodoloji açarıdır.

Mədəniyyətin milli ölçüləri də mövcuddur.. Milli mədəniyyət fenomeni, obyektiv olaraq, n müxtəlif sinif və sosial qrupların - yaradıcı ziyalılar, dövlət məmurları və sahibkarlar, fəhlə və qulluqçu, fermer, hərbçi, qadın və gənclərin maraqlarının harmoniyası üzərində bərqərardır. Hər bir milli mədəniyyətdə, müasir sivilizasiyanın yüksək mədəniyyəti ilə yanaşı, bu və ya digər dərəcədə, feodal mədəniyyəti, hətta barbar və vəhşiliyin elementləri mövcuddur.Bu, mədəni inkişafın qlobal, regional, milli, lokal və insan səviyyəsində qeyri-bərabərlik qanunu ilə izah olunur. Milli mədəniyyətlər, adi və peşə mədəniyyəti, elmi və bədii təfəkkür, fiziki və humanitar mədəniyyətlər arasındakı dialektik ziddiyyətlər də qanunauyğun haldır.Yüksək beynəlxalq mədəniyyətin əldə edilməsi üçün milli dövlətlərin yüksək mədəniyyətinin zəruriliyinin sübutuna ehtiyac

yoxdur. O, özündə mədəniyyətin universal komponentləri ilə milli xüsusiyyətlərini ahəngdar birləşdirərək, mədəniyyətlər arasındakı kəskin fərqlərin aradan qaldırılması və onların ümumbəşəri dəyərlər üzrə yaxınlaşması üçün şərait yaradır. Bu isə, öz növbəsində, dövlətlərin mədəni siyasətinə, onların pozitiv milli ənənələri saxlayaraq digər xalqların mədəni təcrübəsindən tərəqqipərvər daxilolmalar hesabına öz mədəniyyətini daim inkişaf etdirməsinə yüksək tələblər təqdim edir. Belə yanaşmada , fikrimizcə, nəinki müxtəlif ölkələrin milli dövlətçiliyi üçün, həm də qarşılıqlı anlaşma və Şərq ilə Qərb arasında məhsuldar əməkdaşlıq və problemlərin həlli üçün geniş imkanlar mövcuddur.

*Mədəniyyətin bütöv sistemində aparıcı rol - ruhi mədəniyyət və ruhi istehsala malikdir.* Dil kimi mühüm mədəniyyət fenomeni ilk insanların birgə həyat fəaliyyəti prosesində, insan fikirlərinin ötürülmə vasitəsi kimi əmələ gələrək, sonralar intellektual inkişafında böyük rol oynayaraq, sosial təcrübənin ötürülməsi və toplanmasında, insanın həyatı öyrənmə və onu dəyişdirmə fəaliyyətində kamilləşməyə başlamışdır. Dil ibtidai cəmiyyətlərin formalaşmasında mühüm faktor oldu. Lakin yazının ixtira edilməsi dünya mədəniyyəti üçün həqiqətən inqilabi dəyişiklik olaraq, ibtidai cəmiyyətdən ilkin sivilizasiyalara keçidin əsasını qoydu. Dünyanın mədəni tarixində ilk sivilizasiyaların, şərtsiz olaraq, mühüm yer tutması onunla bağlıdır ki, məhz onların formalaşma və inkişaf dövründə yazı əmələ gəldi, dünyanın ruhi və maddi mədəniyyətinin gələcək inkişafının fundamental əsasını təşkil edən, həyatfəaliyyətinin ilkin mədəni etalonlarının yarandı. Onlara – şəhər həyat tərzi və şəhər həyat təminat sistemləri, hüquq və beynəlxalq münasibət institutları, elm və təhsilin ilkin formaları, ideologiya və din, cəmiyyətin siyasi və iqtisadi sistemi, sosial infrastruktur, dövlət təşkili və idarə edilməsinin davamlı formaları aiddir.

Qədim dövrlərdən bu günə qədər, dünya mədəniyyətinin əsas inkişaf faktorlarından biri müxtəlif dövlət və xalqların mədəniyyətlərinin qarşılıqlı fəaliyyət və qarşılıqlı təsiridir. Müxtəlif mədəniyyətlər yalnız mutasiya yolu ilə deyil, həm də stimullaşdırılmış transformasiya və xalqların digərlərindən proqressiv digərlərindən proqressiv yeniləşmələrin birbaşa iqtibası

ilə inkişaf edirlər. Belə ki, qədim dünyanın Şumer-Mesopotamiya, Misir, Çin, Hind, İran-Qafqaz, Mərkəzi-Asiya və digər şərq sivilizasiyalarının ruhi və maddi nailiyyətləri həm öz inkişaflarını qarşılıqlı stimullaşdırmış, həm də Yunan və Roma antik sivilizasiyalarının formalaşma və inkişafında əhəmiyyətli rol oynamışlar. Demokratiya və humanizm ideallarının, ağıl və azadlığın prioritetləri üzərində qurulmuş yüksək insan mədəniyyətinin formalaşması və inkişafında Afinanın Perikl dövründəki mədəni mühiti mühüm rol oynamışdır. Yunan "paydeya"-sı ilk dəfə olaraq, insanı hər bir hadisənin ölçüsü kimi təqdim edir. Öz növbəsində, Yunan və Roma mədəniyyətinin görkəmli nailiyyətləri , ilkin orta əsr islam sivilizasiyasının təşəkkül və inkişafına səmərəli təsir göstərmişdir.

Minilliklər ərzində bəşəriyyətin sosial-mədəni inkişafının başlıca hərəkətverici qüvvəsi ağıl, bilik və humanizm olmuşdur. Antik dünya və ilkin orta əsr mədəniyyətinin inkişafında Aristotel, Platon və digər yunan alim və mütəfəkkirlərinin əsərləri fundamental əhəmiyyət daşımışdır. Lakin əvvəllər antik dünyanın intellektual mədəniyyəti ilkin xtistianlıq tərəfindən inkia edilirdi. Onun estefetini ərəb-islam dünyası qəbul etdi. Hələ Antik mədəniyyətin inkişafı dövründə Platon və Aristotelin başladığı ideal dövlət quruculuğunun yaradılması və cəmiyyətin dəyişdirilməsi ilə əlaqədar, insan səadəti probleminin mücərrəd fəlsəfi təhlili öz məntiqi davamını və əhəmiyyətli inkişafını orta əsr mədəniyyəti dövründə Əl-KindiŞ Əl-Fərabi, İbn-Sina, İbn-Badcı, İbn-Rüşt və digər alimlərin əsərlərində tapdı. Bu alimlərin diqqət mərkəzində , həm də həyat fəlsəfəsi problemkləri və insan səadətinin axtarışı dururdu. İslam dünyasında elmi-fəlsəfi fikrin inkişafı , xüsusilə, IX-XIII əsrlərdə ərəb-müsəlman mədəniyyətində elm və biliyin dinlə işıqlandırılması , müqəddəsləşdirilməsi ilə şərtlənir. Onlar cəmiyyətdə xüsusi statusa malik olmaqla, Allahın verdiyi böyük nemət hesab olunurdular. Buna görə də elm və biliyə cəmiyyətin mühüm sosial-mədəni nailiyyəti kimi pərəstiş edilirdi. Yunan müdriklərinin baza əsərlərinə müraciət edən müsəlman alimləri səadətə nail olmaq üçün elm, humanizm və təhsilin əhəmiyyətini aşkar etmişlər. XII əsrdə Əndəlus filosofu İbn-Badca ağılı insanın ilkin hərəkətvericisi, onun seçim və

fəaliyyətinin müəyyənləşdiricisi sayaraq, Həqiqətin dərk edilməsində insanların qarşılıqlı anlaşma imkanı və bəşəriyyətin bütövlüyü haqqında dahi humanist ideyanı təsdiq edir. Özünün utopik sosial-siyasi layihələrində yaşadığı müasir cəmiyyəti tənqidi qiymətləndirərək, onun naqisliyini maddi rifah və mənasiz möminliyin məqsədə çevrilməsində görürdü.

Orta əsr dünya mədəniyyəti üçün cəmiyyəti təhsilli "elit", "alim" və "qara camaat" kimi, bölgüyə ayırmaq səciyyəvi ˙idi. Bu ənənə ərəb-islam dünyasında da öz əməli ifadəsini tapmışdı. Xalq qarşısında öz yüksək missiya və məqsədini dərk edən ərəb filosofları utopik bərabərliyə yox, müxtəlif sosiumların maraqlarının real harmoniyasına əsaslanan cəmiyyəti düzgün təşkil etmək üçün dünyanı həqiqi , fəlsəfi dərk etməyə can atırdılar. Onlar düşünürdülər ki, belə şeyləri dərk etməkdə çətinlik çəkən geniş xalq kütləsini din, hissi, bənzədici obrazlar vasitəsi ilə təlimləndirmək vacibdir, çünki, səadət və kütlənin xilası müqəddəs yazılara əməl etməkdədir (sosial davranışın bir sıra hüquqi-etik normalarına əsaslanıb düzgün bilk və düzgün fəaliyyətə çağıran nəsihət) . Bununla yanaşı alimlər çoxlarının anlaya biləcəyi sosial əhəmiyyətli biliklərdən, hamıya aid olan sosial fəaliyyət imperativlərinin düzgün reallaşması üçün, istifadə edilməsini mümkün saylrdılar. Cəmiyyətin maariflənmə yolu ilə dəyişdirilməsi üzrə, məqsəd və miqyaslarına görə möhtəşəm layihə hazırlamış alim-filosof İbn-Rüşt "elit" və "kütlə"-ni bir-birindən ayırmaq yox, birləşdirməyə çalışırdı. İbn-Rüşt islam mədəniyyətindı ilk dəfə olaraq, Allahı dər5k etməyin yolunun ətraf aləmi dərk etməkdən başladığı və insan səadətinin isə əməli xeyirxahlıqla əldə edilməsi barədə fikir yürütmüşdür.

Bu dövrdə Azərbaycan ərəb-islam dünyasının bir hissəsi idi. Artıq XII əsrdə Azərbaycanda şəhərlərin böyüməsi, onların iri mədəni-iqtisadi mərkəzlərə çevrilməsi müşahidə edilir. Orta əsr AZərbaycanının şəhər mədəniyyəti mühitində antik fəlsəfənin öyrənilməsinə, tarix, riyaziyyat, astronomiya, tibb elmləeinin mənimsəniloməsi və həyata realist yanaşma, humanistləşdirilmə məqsədi ilə sosial münasibətlərin dəyişdirilməsinə maraq yaranır.Orta əsrlərdə azərbaycan xalqının ruhi mədəniyyətinin humanistləşdirilməsi və proqressiv inkişafı Nizami Gəncəvi,

Bəhmənyar əl-Azərbaycani, Xaqani Şirvani, Əbdül Həsən Şirvani, Səfiəddin Urməvi, Əcəmi Naxçıvani, Qətran Təbrizi, Mahmud Şəbüstəri, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və digər alim, şair və mütəfəkkirlərin adı ilə bağlıdır. Onlardan bir çoxları öz fəaliyyətləri ilə, azərbaycan xalqının kulturogenez prosesində, antik dünya mədəniyyəti nailiyyətlərindən yaradıcılıqla istifadə edilməsinə yardım edirdilər. İntellektual yaradıcılığın möhtəşəmliyini tərənnüm edən Nizami, Şəbüstəri, Nəsimi, Füzuli fəlsəfəsi dövrünün dini ehkamlarına qarşı çıxaraq, təbiətin dərk edilməsində insan ağlının, insanın özünün və cəmiyyətin fəal rolunun əhəmiyyətini ilk dəfə olaraq aşkar etmişlər. Onların bu cəhdlər hesabına feodal azərbaycan mədəniyyəti daxilində, XIX əsrdə maarifçiliyin azadfikirlilik ideologiyasında öz parlaq əksini tapmış, tərəqqipərvər demokratik mədəniyyət öz təşəkkülünü tapıb inkişaf edirdi.

Əksər müsəlman filosoflarına aydın oldu ki, bəşəriyyətin rifahı, normal sosial mövcudluq şərti kimi, nəzəri biliklər (İbn-Sinanın təsnifinə görə"elm" ) və düzgün praktik fəaliyyətin ("siyasət") vəhdəti ilə əldə edilir. Bununla yanaşı antik və orta əsr konsepsiyalarının utopikliyi onda idi ki, burada ideal insan cəmiyyətinin yaradılma prinsiplərinin əsasını təcrübə və sübuta əsaslanmayan mücərrəd fəlsəfi qurumlar təşkil edirdi. Nəzəri elmlər əməli tələblərdən ayrı inkişaf edirdi. Yalnız intuisiya və müşahidə elm üçün kifayət etmirdi. Ona təcrübə və eksperimentə əsaslanan sübut zəruri idi.

Bu məsələnin həlli dünya mədəniyyət tarixinin növbəti dövrünün taleyinə düşdü. Artıq, XIII əsrin sonunda, islam sivilizasiyasının tənəzzülü dövründə, başlıca olaraq monqol hücumları və xəlifətin çökməsi ilə əlaqədar, dünya mədəni ibnkişafı prosesinin ağırlıq mərkəzi İntibah Dövrünə qədəm qoyan, orta əsr Avropasına keçdi. Məhz Avropada, tarixi varislik və zamanın tələbi faktorlarının tələbi nəticəsində, orta əsr filosoflarının - biliklərin inklişaf etdirilməsi və insan hərtərəfli inkişafı üçün elm və praktikanın inteqrasiyasının zəruriliyi haqqında başlıca ideyaları həyata keçdi.

Fridrix Engelsin " bəşəriyyətin indiyə qədər yaşadığı möhtəşəm tərəqqipərvər çevrilişi" adlandırdığı Avropa İntibahı dövrü dünya

mədəniyyəti inkişafında yeni səhifə oldu. Onun həyata gətirdiyi humanist mədəniyyət xalq kütlələrinin yaradıcı fəallığı, təşəbbüskarlığı, ixtiraçılığı, bacarıqlıq və tədbirliliyi üçün geniş imkanlar açdı. İstər elmi, istərsə də etik baxımdan tərəqqipərvər olduğuna görə, cəmiyyətdə humanizm ideologiyasının təsdiqi obyektiv səciyyə daşıyırdı. Petrarka və Erazmusun, ərəb filosoflarının humanist dünya görüşü ilə səsləşən baxışları, onların orta əsr avropada ilk dəfə olaraq, insanın xilasının tərbiyə və mədəniyyətdə olması haqqında mühüm fəlsəfi kəşf etməsinə imkan verdi. Martin Lüter ehkamçılıqla mübarizədə insan təfəkkürünün və mənəvi həyatın təşkili, milli şüurun təşəkkülünə və insan şəxsiyyətinin formalaşmasına güclü təsir göstərən islahatlara doğru ilk cığırı açdı. Frensis Bekon və İmmanuil Kant həqiqətə gedən yolun elm, praktik bilik və nüfuza istinaddan imtina etməkdən ibarət olduğunu deməklə, insan şüurunu sərbəstləşdirdilər. *Bu və bu kimi intellektual və etik müddəa və təlimlər məcmuu bəşəriyyətin mədəni həyatında cahanşümul dəyişikliklərə gətirib çıxardı.*

Kilsə ehkamları ilə buxovlanmayan təbiət və insan inkişafı qanunlarının dərk edilməsi, elmi axtarış, gənclərin dünyəvi təhsili zamanın tələbinə çevrilmişdi. Təbiətin insan maraqlarına uyğun dəyişdirilmə yollarının axtarılması, təbiət haqqında yeni elmi bilik və ixtiralardan ibarət texnologiyaların yaradılmasına olan ehtiyac istehsalın inkişafı ilə yanaşı rəqabət mübarizəsi ilə də əlaqədar idi. Bu dövrdə feodalizmin rəsmi doktrinasına əsaslanan konservativ dünyagörüş və həyatda, elitar ziyalıların yeni tərəqqipərvər düşüncəsi, dövrün elmi, texniki və coğrafi kəşfləri, manufaktura, ticarət və bank işinin inkişafı ilə yaranan əməli dəyişikliklər arasında əmələ gələn ziddiyyətlər dialektik inkişafın impulsu oldu.

Bu dövrdə, eləcə də ondan sonrakı Yeni dövrdə, Avropada baş verən hadisələrin bizim üçün maraq doğurmasının əsas səbəbi odur ki, sonralar bir çox Şərq və Qərb ölkələri tərəfindən istifadə olunan demikratik mədəniyyətin formalaşmasının prinsip və dəyərləri məhz bu dövrdə, burada baş verirdi, bu gün isə demokratik dünyanın simasını müəyyən edir. Bu prosesin müasir səviyyədə öyrənilməsi, ölkənin sosial-mədəni idarəedilmə probleminin düzgün başa düşülməsi, qiymətləndirilməsi və həlli, demokratik hüquqi dövlət

quran postsovet məkanı ölkələri üçün mühüm qnoseoloji və metodoloji əhəmiyyət daşıyır.

Avropada əvvəl İntibah Dövrü, sonra isə avropa Maarifçiliyi orta əsr feodal mədəniyyətinin, onun insan ağlı və humanizminə inam istiqamətlərinin tədrici transformasiyasına təsir göstərdi. İntibah mədəniyyətinin əsasını Səma, Torpaq və İnsanın özünü yeni gözlə görən, yeni təfəkkür təşkil edirdi. Bu təfəkkür həyat dəyərlərinin yenidən qiymətləndirilməsi, insan azadlıqlarının və hüququn iltizamlar üzərində qələbəsinə nail olmağın

zəruriliyi anlamına gətirib çıxardı. Orta əsr mədəniyyətinin transformasiyası yeni ictimai münasibətlərin formalaşması, kapitalist iqtisadiyyatının təşəkkülünə yardım edən xalqın təhsil və maarifinin, incəsənətin tərəqqisinin görünməmiş inkişafı ilə müşayiət olunurdu. Yeni təfəkkür elmi qanunlara əsaslanan biliklər üzərində qurulan İntibah mədəniyyətində öz parlaq əksini tapırdı. Elm və incəsənətin üzvi əlaqəsi, elmi biliklərin geniş xalq kütləsinə incəsənətin obrazlı, xalq şüuruna daha yaxın və aydın olan dili ilə çatdırılmasını təmin edirdi. Eyni zamanda, bəşəri dəyərləri ifadə edən incəsənət xalq şüurunda humanizm və demokratik mədəniyyət dəyərlərinin möhkəmlənməsi və inkişafının effektli vasitəsi idi.

İntibah dövründə Avropada antik afina demokratiyasının inkişafı və "ikinci doğuluşu" baş verdi. Florensiyada "şəhər demokratiyasının" , demokratik dünyagörüşün və həyat tərzinin formalaşması prosesi gedirdi.

Demokratik dəyərlərin yeni sistem və ideologiyasının təşəkkülü ənənəvi zadəgan dəyərlərinin yeni yaranan burjua dəyərləri və üçüncü zümrə - demokratik əhvallı kütlələrin yeni yaranan dəyərlərinin sintezi nəticəsində baş verirdi. Bu prosesdə cəmiyyətin müxtəlif sosiumları - elitar feodal dairələrin nümayəndələri, müəllim və həkimlər, məmur və qulluqçular, hüquqşünas və ticarətçilər, şair və rəssamlar iştirak edirdi. Xalqın mənəvi norma, dəyər və ideallarının zadəganların peşəkar ruhi istehsalı ilə qarşılıqlı təsiri mühüm siyasi əhəmiyyət daşıyırdı. Bu proses sosial mühiti dəyişərək, şəxsi azadlıq və humanizm prinsiplərinin əməli təsdiqi üçün əlverişli şərait yaradaraq, feodalizmin dayaqlarını sarsıdırdı. Xalqın əmək fəaliyyəti şəraitində demokratik mədəniyyətin sabit psixoloji stereotipləri

yaranırdı. Səadət üçün "təbii hüquqa" malik insan azadlığı dəyərləri yeni həyat tərzinin əsasına çevrilirdi.

Kapitalist həyat tərzinin inkişafı nəinki xalq şüurunun hərəkətinə, eləcə də bütövlükdə feodalizmin ictimai statusunun dəyişməsinə təsir göstərirdi. İntibah ruhu, tədricən, cəmiyyətin zadəgan hissəsini də öz ağuşuna alırdı. Burjuaziyanın sıraları, köhnə feodal institutları ilə qarşılaşdırılaraq, avropa şəhərlərinin patrisi hissələrinin hesabına çoxalırdı. Bəşəri mədəni dəyərlərinin üstünlüyü, şəxsiyyətin sərbəstliyi və bununla əlaqədar olan cəmiyyətin sosial mobilliyinin artması feodalizmin sosial strukturlarının dağıdılması üçün əlverişli şərait yaradırdı.

Başlıca qələbələr isə ruhi istehsal cəbhəsində baş verirdi. Orta əsrlərdə fəal mədəni mübadilə, yenilikçiliyə açıq münasibət və toplanmış təcrübənin yayıldığı yerlərdə mədəniyyətin inkişafı daha uğurla baş verirdi. Avropalılar tərəfindən orta əsr çin ixtiraları olan kitab çapı, kompas və barıtın istifadəsi, Avropa və bütün dünyanın sosial-mədəni inkişafında mühüm rol oynadı. Bunun ardınca, gəmi səyahətçiliyi Yeni Dünyanın kəşfi, dünya ticarəti və iqtisadiyyatının inkişafına gətirib çıxardı. 1438-ci ildə İohan Quttenberqin yeni kitab çapı üsulunun mədəni əhəmiyyətini qiymətləndirməmək olmaz. Çap olunmuş kitabın yaradılması və çoxaldılması yalnız mədəniytyətin inqilabi inkişafı və xalqların kütləvi maariflənməsinə səbəb olmadı. Kitab insan və onu əhatə edən aləmin başlıca idrak aləti olmaqla, Avropada elmi tərəqqi və sənaye inqilabına yol açdı.

Elm mədəni ibnkişafın kompası və başlıca hərəkətverici qüvvəsi olmağa başlayırdı. Kapitalizmin inkişafı avropa ölkələrində elm, texnika və sənaye tərəqqisini stimullaşdırırdı. Təbiət elmləri və fəlsəfə sürətlə inkişaf etməyə başladı. İntibah və Yeni dövrdə elmin intensiv inkafı və onun sosial institut kimi təşəkkülünün əsas səbəbi kapitalistlərin elmi nailiyyətlərin praktik istifadəsində maraqlı olmaları idi. Bu, öz növbəsində, son orta əsr və yeni dövrün mədəni potensialını dəfələrlə artırdı.

Feodal mədəniyyəti, foodal və kilsə sinfinin zümrə-korporativ imtiyazları ilə bağlı mühafizəçi dəyər istiqamətlərində ifadə olunan təfəkkür konservatizmi ilə fərqlənirdi. Bu, cəmiyyətin ruhi istehsal prosesində ləngimələr yaradırdı. Nüfuza istinad edən feodalların

konservatizmini aradan qaldırmaq "yeni dövrün demiurqlarına" - orta əsr Avropasının görkəmli mütəfəkkir, filosof və alimlərinə nəsib oldu. Hələ XIII əsrdə ingilis alimi Rocer Bekon ikili həqiqətlər haqqında İbn Rüştün başlıca ideya və nəticələrini davam etdirərək deyirdi ki, nüfuz, ağıl və təcrübədən ibarət üç mənbədən elm üçün ən əsası, özündən əvvəlkilərin əməli təsdiq tapmayan müşahidələrini aradan çıxaran, təcrübədir. Ondan fərqli olaraq, XVII əsrdə Rene Dekart isə təcrübəni yox, ağılı əsas elan etmişdir. O, təcrübənin əhəmiyyətini inkar edərək, həqiqətin ağılla dərk edildiyini söyləyirdi. Həyat göstərmişdir ki, bu iki konsepsiyanın sintezini düzgün saymaq lazımdır, çünki, isbat edilməyən həqiqət yalnız müşahidədir, ağıl olmayan yerdə isə təcrübələrin nəticələrini düzgün qiymətləndirmək mümkün deyil. XVII-XVIII əsrlərdə yaşamış alman alimi Qotfrid Vilhelm Leybnis də həmin fikri müdafiə edirdi. Bu arada, Rocer Bekonun mövqeyi XVII əsrin görkəmli ingilis filosofu və dövlət xadimi, elmə birinci dərəcəli əhəmiyyət verən Frensis Bekon tərəfindən müdafiə edilirdi. F.Bekon biliyi – güc, təcrübəni isə elmi tədqiqatların və həqiqəti dərk etməyin mühüm vasitəsi elan etdi. Bu müddəanın düzgünlüyünün təsdiqi Qlileo Qalileyə qismət oldu. Bu dövrdə və tərqqipərvər dəyişikliyə meylli sosial mühitdə yaşayan Qlileo Qaliley və İsaak Nyuton öz əməlləri ilə, Aristotel təfəkküründən təbiətin dərki və yeni elmi təfəkkürə doğru sıçrayış etdilər.Bu alimlərin əsərləri ilə, tyexnika, texnologiya və sənaye istehsalının inkişafına səbəb olan, eksperimental elm və müasir təbiətşünaslığın təməli qoyuldu.

Manufaktura, dənizçilik və ticarətin inkişafına olan ehtiyac tədricən nəzəri və eksperimental işlərin bir-birinə yaxınlaşmasına gətirib çıxardı və nəticədə XVI-XVIII əsrlərdə eımi-texniki tərəqqinin əsasları qoyuldu. Elmi nailiyyətlərin praktik istifadəsi elmin məramını anlamaq üçün mühüm məna daşımağa başladı. Elm real istehsal gücünə çevrilməyə başladı.

Həm elmin inkişafında, həm də ictimai münasibətlərdə Yeni dövr böyük dəyişikliklərlə əlamətdar oldu. Feodalizm və ona xas olan silki imtiyazlar, insan hüquqlarına etinasızlıq, sxolastik fəlsəfə və kilsənin diktatorluğu ilə insanın əqli və mənəvi, cəmiyyətin sosial inkişafı və tərəqqipərvər iqtisadi inkişafın yeni tələbləri arasında dialektik

ziddiyyətlər əmələ gəldi. Öz təbiəti etibarilə demokratik mədəniyyətə zidd olan, həm feodalların avtoritar hakimiyyəti, həm də absolyut monarxiya onun inkişafını ləngidirdi. XVII-XVIII əsrlərdə Qərbi Avropada öz çiçəklənmə dövrünə qədəm qoymuş absolyutizm Avropa xalqlarının yaradıcı imkanlarının sosial sərbəstliyi üçün maneə oldu. O, yüksək intellektuallıq və vətəndaşlığın inkişafını ləngidir, həqiqətlərin real əks etdirilməsi əvəzinə monarxların tərifIənməsi, yaltaqlığı və əyanların qul psixologiyasını tərənnüm edirdi. Kilsənin, feodalların və mütləq monarxiyanın hakimliyinin saxlanması cəhdləri iezuit ordeni və inkvizisiyanın irticaçı fəaliyyətində, həmçinin keçmişdən qalan feodal azadlığını ləğv etmək yolu ilə apardığı dövlət islahatlarında əks olunurdu.

Feodalizmin ziddiyyətləri nəticəsində Avropa və Asiyada baş verən sosial-mədəni burjua inqilabları materialist baxışların təsdiqi və təbiət qanunlarına müraciət, ən başlıcası isə fəlsəfi tənqid yolu ilə, feodal cəmiyyətinin əqli və mənəvi dayaqlarının ideoloji cəhətdən sarsılmasına gətirib çıxardı. XVII əsrdə Fransada ağılın gücünü həqiqətlərin yenilməzliyinə kor-koranə inamla qarşılaşdıran Dekartın "şübhə" ideyasının, Avropada feodal mədəniyyəti sosial institutlarının dağılmasına böyük təsiri oldu. Bu şəraitdə, sosial sarsıntılar zamanı əhəmiyyəti daha da artan, incəsənətin tərbiyəvi və vətəndaş missiyası tam gücü ilə özünü göstərməyə başladı.

Yeni ictimai sistemin təsdiqində, Avropada demokratik mədəniyyət formalaşmasının mühüm ideoloji vasitəsinə çevrilən, Maarifin misilsiz əhəmiyyəti oldu. Üçüncü silkin maraqlarını ifadə edərək, o, tərəqqipərvər inqilabi səciyyə daşıyıb, idrak müstəqilliyinə, nüfuzlulardan və dini ehkamlardan imtina etməyə, mütləq feodal ideologiyanın təkzibinə yardım edirdi. İnsanın formalaşdırılmasında sosial mühitin əhəmiyyətini, ilk dəfə olaraq, məhz maarifçilər göstərmişlər. Maarifçilər Petrarka və Erazmusun ideyalarını öz fəaliyyətlərində ifadə etməklə, hər şeydən əvvəl, onda tərbiyəvi missiya, insan və cəmiyyətin inkişaf problemlərinin həlli yollarını görür, realist incəsənət və teatrı isə, bu missiyanın mühüm aləti kimi nəzərdən keçirirdilər.

Sosial-mədəni inkişafda uğur və nailiyyətlər, ilk öncə, effektivlik meyarı və imkanları ilə dövlətin intellektual potensialına xidmət edən

insan faktoru ilə ölçülürdü. Yeni Dövr Avropada elmin inkişafı ilə əlamətdar idi. XVII əsr təbiət elmlərinin inqilabi inkişafı ilə əlamətdar olaraq, XVIII əsrdə fəlsəfə, XIX əsrdə isə tarix əhəmiyyətli inkişaf etdi.

Yeni Dövr Avropasında təbiət elmləri və fəlsəfənin inkişaf etdirilməsində, yeni ideologiya və demokratik mədəniyyətin formalaşmasında Tomas Qobbs, Pyer Qassendi, Rene Dekart, Benedikt Spinoza, Con Lokk, Qotfrid Vilhelm Leybnis və digər alim və filosoflar möhtəşəm rol oynamışlar.Bu yolda fransız maarifçiləri – Pyer Böyl, Şarl Lui Montekyö, Mari Fransua Volter, Jan Jak Russo, Deni Didro, Jülyen Ofre de Lamerti, Pol Anri Holbax, Klod Adrian Helvetsi, Jan Batist Robin mühüm rol oynamışlar. XVIII əsrdə fransız ensiklopedistlərinin tarix, elm nəzəriyyəsi, incəsənət və tətbiqi sənət növləri üzrə tərtib edib, yaratdıqları çoxcildli izahlı lüğət bəşəriyyətin ruhi və maddi inkişafına zəngin töhfələr verərək, Yeni Dövrün parlaq mədəni abidəsi oldu. Həmin ensiklopediya avropa xalqlarının intellektual və mənəvi inkişafında mühüm rol oynamaqla yanaşı, xalq kütlələrinə inqilabi təsir göstərdi. XVIII əsrdə Avropanın elmi, fəlsəfi və iqtisadi fikrinə böyük təsir göstərənlər arasında David Yum, İmmanuil Kant, Adam Smit, David Rikardonun da adları var. Bu dövrdə Rusiyada A.İ.Radişşev, V.Q.Belinski, N.Q.Çernışevski Q.S.Skovoroda fəal maarifçilik fəaliyyəti həyata keçirirdilər.

Elm və texnika, təhsil və maarifçilik sahəsindəki kəşvlər və əldə edilən nailiyyətlər ictimai şüurun inkişafına, cahillik və mövhumatdan azad olmasına təsir göstərirdi. Avropanın Yeni dövrdə hüquqi və iqtisadi mədəniyyətinin demokratikləşməsində ingilis siyasi iqtisadı mühüm rol oynamağa başladı.Maarifçilik demokratiya mədəniyyətinin gələcək təsdiqi üçün əlverişli şərait yaradırdı. Demokratik ideologiya, prinsiplər, demokratiyanın dəyər və normaları feodalizmin ictimai-siyasi sisteminin transformasiyası üçün şərait yaradaraq, həm xalqın gündəlik şüuruna, həm də zadəganlığın "yüksək" elitar mədəniyyətinə daha dərindən nüfuz edirdi. Cəmiyyətdə demokratik mədəniyyətin xeyirxahlıq, həqiqət, ədalət, dostluq, məhəbbət, kollektivçilik, qarşılıqlı yardım kimi dəyərləri daha çox təsdiqlənirdi. Lakin Maarifçiliyin zəif cəhəti də var idi. Maarifçilər tarixi təfəkkürə malik olmadıqlarına görə, yalnız XIX

əsrdə öz təsdiqini tapmış tarixilik prinsipinin, hər bir hadisənin inkişafda nəzərdən keçirilməsindən ibarət, elmi mahiyyətini anlamırdılar. Dialektika və tarixilik prinsiplərinin yaradılmasında mühüm xidmətlər göstərən Qeorq Vilhelm Fridrix Hegel Yeni Dövr demokratik mədəniyyətinin formalaşması və inkişafına mühüm təsir göstərmişdir.

Məlum olduğu kimi, ümumi tarixi qanunlar milli mədəni xüsusiyyətlər, təbii-coğrafi, sosial və siyasi cəhətlərlə şərtlənərək, hər bir xalqın həyatında və ayrı-ayrı tarixi dövrlərdə müxtəlif cür təzahür olunur. XVI əsrdən başlayaraq, Avropada, mədəniyyətin ümumi inkişaf axarında milli mədəniyyətlərin təşəkkülü və inkişafı prosesi gedirdi. Təhsil şəraitində, milli dövlətlərin postimper avropa məkanında milli mədəniyyətlərin, həqiqətlərin ruhi mənimsənilməsi zamanı topladığı dil, təcrübə, milli şüur, davranışın ənənəvi normativləri, həyat tərzi, milli psixologiya kimi xüsusiyyətləri formalaşmağa başladı. Bu, mədəniyyətin eyniliyinin qorunmasına təsir göstərən, mədəniyyətlərin təbii qarşılıqlı nüfuzu ilə eyni zamanda baş verirdi.Bununla belə, avropa xalqlarının ruhi mədəniyyətində çox şeylər bəşəri mahiyyət daşıyaraq, milli sərhədləri aşırdı. Eyni vəziyyət təbiət və texniki elmlərə, texnika və texnologiyalara, intellektual fəaliyyətə, məntiq prinsiplərinə, dürüstlük, sosial məsuliyyət və insanın həyatfəaliyyətinin digər mədəni forma və göstəricilərinə aid idi.

Avropa xalqları üçün ümumi olan cəhətlərdən biri də feodalizm və mütləq monarxiya ilə aparılan mübarizə idi. Mütləqiyyətə münasibət avropa ölkələrində baş verən burjua sosial-mədəni inqilabları idi. Onlar Avropada demokratik mədəniyyətin formalaşmasında mühüm rol oynayan burjua dövlətlərinin yaranmasına gətirib çıxardı. Demokratiyanın siyasi doktrinaları mütləqiyyətçi feodal ideologiyası üzərində üstünlük qazandı. Avropadakı inqilablar avropa ölkələrinin siyasi, iqtisadi və sosial insititutlarının nəinki sürətli inkişafına, həm də cəmiyyətin psixoloji transformasiyalarına təsir göstərirdi. Demokratik mədəniyyətin ən böyük nailiyyəti, feodalizmə məxsus kölə psixologiyasından imtina etmək, şəxsiyyələ cəmiyyətin mənafelərinin harmoniyası, azadlıq və bərabərlik ideyaları əsasında qurulan respublika quruluşu ideallarının

milyonların şüurunda öz təsdiqini tapması idi. Bununla belə, Maarifçilik dövründən sonra, XIX əsrin ortalarına doğru kapitalizm mədəniyyətində haçalanma müşahidə edilməyə başladı: burjua mədəniyyəti – hakim rol oynamağa, demokratik və sosialist mədəniyyəti isə bölünmə xüsusiyyətləri daşımağa başladı. Real həyatla ideal arasında fərqlər müşahidə edilməyə başladı. Maarifçilərin söz verib layihələndirdikləri "şüurun hakimliyi", ədalət və bərabərlik böyük sahibkarlığın mənafeyinə uyğun olaraq, ikinci plana keçdi. Burjua və demokratik mədəniyyətlər arasında ziddiyyət və qarşıdurmalar müşahidə edilməyə başladı. Burjuaziyanın tədrici dəyişməsi tərəqqipərvər inqilabiliyin, ictimai mənafelərin harmonizasiyasına zidd olan , şəxsi imtiyazların müdafiəsi cəhdləri ilə əvəz olunmasında ifadə olunurdu. Lakin aksioloji müxtəlifliyə baxmayaraq, demokratik mədəniyyət yüksək templərlə inkişaf edirdi. Təfəkkür və fəaliyyət formalarının rəngarəngliyi formalaşmaqda olan kapitalizm cəmiyyətinin başlıca səciyyəsi idi. Bu, öz ifadəsini, zayalıların yaradıcılığında, ideologiya və siyasətdə, bir-biri ilə yanaşı irəliləyən romantizm və klassisizm, rasionalizm və irrasionalizmdə tapırdı.

Avropa xalqlarının sosial həyatında tərəqqi və dünyagörüşündə inqilabi dəyişikliklərə səbəb olan, demokratiya mədəniyyətinin təsdiqi elmin sərbəst inkişafında ifadə olunurdu. XVII yüzillikdə elmi düşüncənin əsas diqqəti təbiətin tədqiqinə yönələrək, XVIII əsrdə cəmiyyətin inkişafı problemi, XIX əsrdə isə təbiət və cəmiyyətin kompleks öyrənilməsi tendensiyasında özünü göstərirdi.

XIX əsrin sonu – XX əsrin əvvəli təbiətşünaslıqda baş verən inqilabla əlamətdar oldu. Bəşəriyyət elm, texnika və texnologiya sahəsindəki bir çox kəşflərlə zənginləşdi. İntellektual fəaliyyət üçün ən səciyyəvi cəhətlər - insan, cəmiyyət və təbiətin inkişaf qanunauyğunluqları və həqiqətlərin fəal elmi axtarışı idi. Bəşəriyyətin inkişafı, onun ruhi və maddi tələbatlarının, ümumi mədəni səviyyəsi və rifahının təmin edilməsi bu fəaliyyətin əsas məqsədi idi. Tərəqqipərvər bəşəriyyət öz mədəni inkişafının yeni, daha yüksək pilləsinə qədəm qoyurdu. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində baş verən, elm və təhsilin gur inkişafı ilə əlaqədar olan sənaye inqilabı, bəşəriyyətin mədəni inqilabının yeni təzahürləri

oldu. O, insana proqressiv təsir etməklə bərabər, onun yaradıcı imkanlarını sonsuz dərəcədə artırırdı. Yeni texnologiyalarda əks olunan kəşf və ixtiralar avropa ölkələri istehsal gücünün köklü surətdə dəyişməsinə gətirib çıxardı. Maddi mədəniyyətin müxtəlif sahələrindəki yaradıcı fəaliyyət nəticəsində əldə edilən təkamül dəyişiklikləri gələcək tərəqqiyə qüdrətli zəmin hazırlayırdı. 1870-1914-cü illərdəavropa ölkələrinin iqtisadi inkişafı sənaye strukturu və texnologiyada keyfiyyət dəyişiklikləri və sənaye məhsulları istehsalının gur inkişafı ilə səciyyələnirdi. Sənayeləşdirmə və tarixi biliklərin sürətli inkişafı prosesində milyonlarla insanların sosial statusu, həyat tərzi və yaşayış mühiti dəyişdi. Sənayeləşmə və iqtisadi inqilab nəticəsində XIX əsrin son üçdə biri Yeni dövrün mədəni inkişafında keyfiyyətcə yeni mərhələ oldu. Kapitalizm mədəniyyətin bütün– istehsal, elm, məişət sahələrinin görünməz inkişafını stimullaşdırdı . Təbii şərait mühitinə gəmi və maşın, dəmir yolu, teleqraf və telefon daxil oldu. Təbiətşünaslıqdakı inqilab xalq kütlələrinin dünyagörüşünün inqilabi dəyişilməsi ilə də müşayiət olunurdu. Şəhərlərin sürətli inkişafı, texnikanın görünməmiş inkişafı, dövlətin iqtisadi strukturunun dəyişməsi, ictimai münasibətlərin, siyasi və sosial institutların dəyişməsinə, həyatın yeni dinamikasının yaranmasına təsir göstərirdi. Elmi-texniki inqilabın nailiyyətləri, intellektual fəaliyyətin vərdiş və məhsulları, ətraf aləmin ruhi mənimsənilməsi çoxaldılaraq, xalqın istifadəsinə verilirdi. Bu, mədəni inkişafın mühüm faktoru idi.

Dövrün nəhəng texniki inqilabı yeni enerji mənbəyinə - buxar mühərrikləri və elektrik əsasında bütövlükdə bütün iqtisadiyyatı hərəkətə gətirdi. istilik və hidro-elektrik stansiyaları, buxar maşınları parovoz, buxar turbini dinamo-maşınları mədəniyyətin inkişafında əlamətdar hadisə idi. Mədəni tərəqqinin yeni nailiyyətləri - elektrik işığı, telefon, teleqraf, radio, dəmir yolları, kino, transatlantik naqil, avtomobil, aviasiya, yeni kanallar, tonnel və körpülər cəmiyyətin xidmətinə verilmişdi. Bütün mədəni nailiyyətlər insanları adamlarda insan şüurunun qeyri-məhdud imkanlarına inam yaradırdı.

Elm və texnikanın inkişafına prioritet istiqamətlənməavropa ölkələri həyatının ayrılmaz hissəsinə, avropa ölkələrinin sosial-mədəni koduna çevrilirdi. O, cəmiyyətin intellektual səviyyəsinə

təsir edib, yalnız ruhi istehsal sahəsinə deyil, həm də kütləvi şüurun daimi inkişafına səbəb olurdu.

XIX əsrdə Avropada mədəni tərəqqinin mühüm faktoru həm ölkədaxili, həm də ölkələrarası mübadilə idi. Buna rabitə və nəqliyyat vasitələrinin tərəqqisi imkan yaradırdı. İxtira və kəşflər qısa bir müddətdə çoxalıb yayılaraq, müxtəlif ölkələrin geniş kütlələrinin istifadəsinə verilirdi. Beynəlxalq əməkdaşlığın inkişafı və bəşəriyyətin ruhi həyatının beynəlmiləlləşməsi davamlı səciyyə daşımağa başladı. Tərcümə fəaliyyəti sahəsindəki uğurlar dil maneələrinin aradan qaldırılmasına, milli mədəniyyətlərin qarşılıqlı təsirinə imkan yaradırdı. Avropa xalqlarının ümumi mədəni səviyyəsinin inkişafı baş verirdi.

Avropa və rusiya mədəniyyətinin inkişafı Azərbaycana da öz müsbət təsirini göstərirdi. Yeni dövrdə Azərbaycanın sosial-mədəni inkişaf ehtiyacları XIX əsr azərbaycan ruhi mədəniyyətinə, keyfiyyətcə yeni hadisə olan, azərbaycan mçaarifçiliyini gətirdi. O, feodalizmə qarşı özünəməxsus demokratik müxalifət kimi çıxış edərək, feodal qanunlarına, orta əsr cəmiyyətinin sosial strukturuna, yaradıcı fikrin azadlığına mane olan cahillik diktaturası və despotizmə intellektual və sosial etiraz elan edirdi. Azərbaycan Maarifçiliyində A.A.Bakıxanov, M.Ş.Vazeh, M.Kazımbəy, M.F.Axundov, H.Zərdabi xüsusi yer tutmuşlar. Bu şəxsiyyətlər erkən orta əsrlərin azadfikirliliyinə istinadən, azərbaycan xalqının mədəni dəyərləri ilə avropa və rus mədəniyyətinin nailiyyətlərini sintez etmək yolu ilə mədəni islahatlar etməyə can atırdılar. Onların həyata baxışlarının əsasını aşağıdakı anlam təşkil edirdi: düzgün əməli fəaliyyət elmi biliyin, zamanın, ağılın təcrübə və tələbi ilə qurulmalıdır. Buna görə də, Maarifçilər tərəfindən elm, təhsil və maariflənmək tarixi zərurət, sosial-mədəni dəyişiklik, mədəni müxtəlifliyin aradan qaldırılması və xalqın rifahının təmin edilməsi faktoru kimi qiymətləndirilirdi.

Lakin, bu dövrün sosial-siyasi məhdudluğu və ziddiyyətləri onda idi ki, bütün avropa ölkələri elm, texnika və mədəniyyət nailiyyətlərindən eyni dərəcədə istifadə edə bilmirdilər. Avropa ölkələrinin, dövlət quruculuğu sistemində təhsilin prioritet yerini təmin edən, daxili siyasəti bu problemin həll olmasına yardım etdi. Qərbi avropa ölkələri öz sosial-mədəni siyasətində, hər bir ölkənin və

bəşəriyyətin gələcəyinin bütövlükdə gənclərin təhsil və tərbiyəsindən asılı olması fikrindən çıxış edirdilər. XIX əsrin sonunda avropa ölkələri və ABŞ-da icbari ibtidai təhsilin tətbiqi bu strateji məsələnin həll edilməsində həlledici əhəmiyyətə malik oldu. Təhsilin əhəmiyyətli rolu yalnız ayrı-ayrı sahələr üçün peşəkar mütəxəssislər hazırlamaqdan ibarət deyildi. Bu, elmi və gündəlik şüur arasındakı fərqi azaldaraq, şəxsiyyətin sosial mobilliyinin artması və Avropada mədəni-iqtisadi tərəqqinin sürətlənməsi üçün şəraitin yaradılmasına yardım edirdi. Bununla yanaşı, inkişaf etməkdə olan kapitalizmin təhsil sisteminə avtoritar hakimiyyətin mənafeyinə xidmət edən ziddiyyətlər müəyyən təsir göstərirdi. Bu ziddiyyətlər ondan ibarət idi ki, hakimiyyət, bir tərəfdən yaradıcı şəxsiyyətlərin – müstəqil qərar qəbul etmə və tənqidi təfəkkürə malik alim və mütəxəssislərin hazırlığı və inkişafında maraqlı idi. Digər tərəfdən isə, yaradıcı işçi və qulluqçuların məmurların nüfuzuna, konformizmə, hakim strukturlara sözsüz xidmətlə tabe edilməsində də maraqlı idilər. Bir tərəfdən yüksək ixtisaslı mütəxəssislərə olan ehtiyac, digər tərəfdən isə, bəzi burjua məmur dairələrinin, asan idarə edimə baxımından, geniş kütlələrin cahilliyi və gerilməsindəki marağı millətin sosial-mədəni inkişaf templərində mənfi təzahür olunurdu. Həqiqi demokratik hakimiyyəti avtoritar hakimiyyətdən fərqləndirən bu ziddiyyət kapitalist cəmiyyətlərin sonrakı tədrici demokratikləşdirilməsi prosesində aradan qaldırılmağa başladı. Kapitalist cəmiyyətlərindəki sosial ziddiyyətləri aradan qaldırmaq üçün, inqilaba alternativ vasitə kimi, siniflər və sosial qruplar arasında əməkdaşlıq yolu ilə mənafelərin harmonizasiyasına istiqamətlənmiş, sosial islahatların təkamülü yolu seçildi.

XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərindəki elmi kəşflər nəticəsində, dünyanın yaranışına mexanistik nyuton nəzərindən fərqli, yeni nəzərlə baxmaq üçün əlverişli şərait yarandı. Elm Yer kürrəsində həyatın əmələ gəlməsi, məkan və zaman, materiyanın quruluşu və hərəkəti, təbiətin inkişaf qanunları və insanın orada yeri haqqındakı təsəvvürlərə inqilabi dəyişikliklər gətirdi. Çarlz Layel, Çarlz Darvin, Ernest Hekkel, Georq Mendel və digər görkəmli alimlərin əsərləri təbiətin və insanın özünün tarixi problemlərinin maarifli insanların diqqət mərkəzinə gətirilməsinə yardım etdi. Yeni biliklər və inkişaf

texnologiyaları yalnız avropa xalqlarının deyil, həm də bütün bəşəriyyətin istifadəsinə verildi. Onlar obyektiv olaraq, müxtəlif səviyyədə də olsa, dünyanın ayrı-ayrı ölkə xalqlarının ümumi mədəni səviyyəsi və intellektual potensialının inkişafına təsir göstərirdilər. Avropada mədəni tərəqqinin mühüm tarixi əhəmiyyəti də məhz bunda idi. Dünyanın yeni elmi mənzərəsi Maksvel, Mendeleyev, Rentqen, Eynşteyn, Küri, Bor, Rezerford və digər görkəmli alimlərin kəşfləri ilə zənginləşərək, bütün baxışlar sisteminin dəyişməsinə səbəb oldu və Yeni dövr demokratik mədəniyyətinin ciddi nailiyyətinə çevrildi. Xalqın elmi dünya görüşünün formalaşmasına yardım edən ictimai maarifçilik sistemi geniş vüsət aldı. O, İngiltərə, Fransa, ABŞ, eləcə də Köhnə və Yeni dünyanın görkəmli alimlərinin iştirak etdikləri kütləvi mühazirələr yolu ilə həyata keçirilirdi. Bununla yanaşı, Avropa və ABŞ-da yaşlılar üçün məktəb və kurslar, universitetlərdə təbliğat şöbələri, "xalq universitetləri", axşam və bazar günü məktəbləri geniş yayılmağa başladı. Elmi biliklərin inkişafı, elm və texnika nailiyyətlərinin praktik mənimsənilməsi insan qabiliyyətləri və onun inkişaf imkanlarını genişləndirdi. Bütün bu faktorlar Yeni dövrdə demokratik mədəniyyətin təkamülünə böyük təsir göstərdi.

Lakin demokratik mədəniyyətin inkişafında uğurlarla bərabər neqativ hadisə və obyektiv çətinliklər də olurdu. Yetgin kapitalizm cəmiyyətində burjuaziyanın bir hissəsinin öz "status quo"–nu saxlamaq istəyi ilə əmələ gəlib, yaradıcılığa düşmən olan konformizm mədəniyyətdə müəyyən durğunluq, hətta böhran hadisələrinə səbəb oldu. Bunlara, bir çox xalqların "ümumi əməyinin" nəticəsi olan, ruhi və maddi dəyərlərin paylanmasında bərabərsizlik də əlavə edilməlidir. Həmin ziddiyyətlərin daha da kəskinləşməsinə monopolist kapitalizminin inkişafı təsir göstərdi. Bununla belə, mədəniyyət demokratikləşdirildikcə, monopoliyaların yaranması ilə əlaqədar olan kapitalizm ziddiyyətləri də tədricən aradan qaldırılırdı. O, öz təcəssümünü - ümumi seçki hüququ, antiinhisar və sülhyaradıcı siyasət, əhalinin sosial müdafiəsinin effektiv sistemləri, hökumətin parlament qarşısında məsuliyyəti və digər proqressiv dövlət sənədlərində tapdı. Elm və təhsilin qabaqlayıcı inkişafı xalqın sosial fəallığının inkişafında güclü faktor oldu. Kəmsavad, intellektual

cəhətdən inkişaf etməmiş, cahil adam kapitalist cəmiyyətinin tərəqqipərvər inkişafı maraqlarına zidd, nökər psixologiyasının sosial mənbəyi kimi nəzərdən keçirilirdi. Bu anlamdan çıxış edərək, XIX əsrin axırlarında Avropa və ABŞ-nın liberal burjuaziyasının ümumi mədəniyyət, etik tərbiyə və siniflərin əməkdaşlığının, "etik ümumilik" çərçivəsində əmək və kapitalın inkişaf etdirilməsi yolu ilə sosial ziddiyyətlərin azaldılmasına yönəldilən təşəbbüs və cəhdlərini layiqincə qiymətləndirmək lazımdır. Həyat tərzi, dini və siyasi baxışlarındakı fərqlərdən asılı olmayaraq, vətəndaşların konsolodasiyasına yardım edən vahid mədəniyyət daxilində yaradılan etik mədəniyyət cəmiyyətləri, klubları və settelmenlər həmin məqsədlərə xidmət edirdi. Bu fəaliyyət xalqın sosial psixologiyasına pozitiv təsir göstərərək, cəmiyyətin mədəni tərəqqisinə yardım göstərdi.Demokratik mədəniyyət kapitalist cəmiyyətinin vahid "yüksək mədəniyyəti"nin formalaşdırılması yolu ilə mürəkkəb siyasətdaxili problemlərin həll edilməsinin mühüm vasitəsi oldu.

Elm, təhsil və mədəniyyət yeni dövr mədəniyyəti inkişafının dominantası oldu. Dünya elm xadimləri özlərindəki intellektual gücə istinadən həqiqətə, bəşəriyyətin daha uğurlu gələcəyinə doğru gedən yolu işıqlandırırdı. Təhsil - mütəxəssislərin elmi biliklər əsasında peşə hazırlığını təmin edir, yüksək incəsənət isə ictimai şüuru həmin biliklərlə daha da zənginləşdirirdi.Özündə yüksək intellekt, sosial fəallıq, emosional zənginlik və humanizm birləşdirən insan şəxsiyyətinin formalaşdırılması istiqaməti mədəni inkişaf üçün daha mühüm səciyyə daşımağa başlayırdı. Belə yanaşma, harmonik inkişaf etmiş insanı nəzərdə tutan H.Mannın "mütləq insan" formuluna uyğun gəlirdi.

Mədəniyyətin elmi anlamının dərk edilməsi, dünya nmədəniyyəti və onun sosial institutlarının inkişaf qanunauyğunluqlarının öyrənilməsində XIX əsrdə yaranan pozitixizmin mühüm tarixi əhəmiyyəti oldu. Mədəniiyyətin mahiyyətini, digərlərindən fərqli olaraq, daha geniş anlamda başa düşən ingilis tarixçisi Henri Tomas Bökl, alman tarixçisi Karl Lamprext və digərlərinin əsərləri tarixi sivilizasiyanın təkamülü və tərəqqisi, insan, dövlət və cəmiiyyətin inkişafında mədəniyyətin rolu haqqında biliklərlə zənginləşdirdilər.

Yeni dövr demokratik mədəniyyətinin inkişafı üçün bədii ədəbiyyat və publisistika, xüsusilə də tənqidi realizm prinsiplərində qurulmuş əsərlər misilsiz əhəmiyyət daşıyırdılar. Balzak, Dikkens, Puşkin, Qoqol, Tolstoy, Dostoyevski, Stendal, Qolsuorsi insan qəlbinin dərinliklərinə nüfuz edərək, ətraf aləmə realistik baxış formalaşdırır, bəşəriyyətin tərəqqipərvər üsullarla dəyişdirilməsinə can atmaq cəhdlərini stimullaşdırırdı.

Avropada demokratik mədəniyyət inkişafının ən uğurlu nümunələrindən biri kimi Norveçin sosial-mədəni inkişaf təcrübəsini misal göstərmək olar. Norveçlilərin azadlıqsevər ruhu və alicənablığı, onların insan və cəmiyyətin həyat keyfiyyətinin yüksəldilməsi və təkmilləşdirməsi cəhdləri öz əksini, onların "ümumi rifah dövləti" humanist prinsipinin formalaşdırılmasında tapmışdır.Bu fikir özünün ən uğurlu əksini Henrix İbsenin, "yuzarıdan" ideoloji təsir, "aşağıdan" isə kölə psixologiyasına qarşı mübarizə ideyaları ilə zəngin, dramaturgiyasında tapmışdır. Öz yaradıcılığı ilə idrak üsulları, eləcə də insan və cəmiyyətin təkmilləşdirilməsini simvollaşdıran bu görkəmli şəxsiyyətin əsərləri azadlıqsevər ruhun avropa ölkələrinə psixoloji translyasiyasının güclü vasitəçisi oldu. Norveç təcrübəsinin öyrənilməsini təbliğ edən Engels norveçlilərin qətiyyətlilik, təşəbbüskarlıq və azadlıqsevərliklərini xüsusilə qeyd edərək, XIX əsrdə Norveçdə demokratik mədəniyyət dalğasını yaradan və bütün dünyada onun təsirini təmin edən sosial zəmin haqqında söhbət açırdı.

Beləliklə, XX əsrin əvvəllərində öz təkamülü, eləcə də sosialist və kommunist ideyalarının təsiri nəticəsində kapitalist cəmiyyəti sosial-mədəni inkişafın yüksək səviyyəsinə çatdı.

XX əsr öz inkişaf dialektikasına, sosial-mədəni dəyişikliklərin sürət və miqyasına görə bu vaxta qədər görünməmiş nümunələr göstərdi. O, bəşəriyyətin mədəni inkişafında varisliyi saxlayaraq, dünya mədəni inkişafını yeni keyfiyyət pilləsinə qaldırdı. Elmdə yeni kəşflər, yüksək texnologiyaların yaradılması Kosmosun ram edilməsinə, insanın daxili aləmi, cəmiyyət və təbiətin inkişaf və dəyişdirici qanunlarından məhsuldar istifadə edilməsi və gələcək dərkinə gətirib çıxardı. XX əsrdə insan təfəkkürünün və intellektual tərəqqinin gücü ilə insanın həyat keyfiyyətini köklü surətdə dəyişən

və onun inkişafı üçün yeni imkanlar yaradan bir sıra sosial-mədəni inqalablar baş verdi : elmi-texniki, informasiya-kompüter, texnoloji, təhsildə inqilablar. Kulturologiya, sosiologiya, politologiya və digər humanitar və ictimai elmlərin sürətli inkişafı sosial inkişafın texnologiya və modellərinin dəyişdirilməsinə yardım etdi. XX əsrdə bütün qlobal problemlərin özəyi insan inkişafı və onun təbiətlə harmoniyası problemi oldu.

Təəssüf ki, müasir sivilizasiya daxilində insan inkişafına mədəniyyətin yaradıcı qüvvələri ilə - Ağıl, Bilik, Xeyirxahlıqla yanaşı, yenə də dağıdıcı qüvvələr - Təbiət, Cahillik və Şər də təsir göstərir. Ümumiyyətlə, amerika kulturoloqu D.Recin "şizofreniyal" adlandırdığı iyirminci yüzillik üçün ziddiyyətlıi inkişaf olduqca səciyyəvidir. Bu ziddiyyətlər – bilik və cahillik, fərdiyyətçilik və kollektivçilik, milliyyətçilik və beynəlmiləlçilik səadət və xalqların istirabı beynəlxalq həmrəylikn və silahlı qarşıdurma arasında baş verir.Bu mübarizə Xeyir və Şər qüvvələrin, demokratiya və diktaturanın, ideologiya, hərəkat və blokların çəkişməsidir. Özündə müxtəlif sosial-siyasi sistem və mədəniyyətləri birləşdirən müasir sivilizasiya iki dünya və bir çox lokal müharibə və münaqişələrin şahidi olmuşdur. Yer kürrəsi əhalisi öz mövcudluğuna nə qədər sevinirdisə, ekoloji fəlakətlər, xəstəliklər, cinayətlər, yoxsulluq və milyonların hüquqsuzluğu ilə bir o qədər kədərlənirdi. Bu anlamdan çıxış edərək, bəşəriyyətin qabaqcıl düşüncəli insanları, özündən əvvəlki nəsillərin tərəqqipərvər ideya və idrak nailiyyətlərinə istinadən, yeni tarixi şəraitdə dünya təcrübəsini zənginləşdirib inkişaf etdirərək, XX əsrdə bəşəriyyət qarşısında duran qlobal problemlərin həllinə istiqamətlənmiş yeni ictimai inkişaf texnologiyalarını təkmilləşdirir.

Müasir sivilizasiyanın tərəqqipərvər nailiyyətlərinin əldə edilməsində müxtəlif peşə sahiblərinin, ilk növbədə isə ziyalıların xidmətlərii böyükdür.Lakin sosial-mədəni tərəqqinin başlıca faktoru elm olaraq qalır. Özünü bəşəriyyətə xidmər və öz fəaliyyətini humanizm prinsipləri əsasında həyata keçirən alimlər, dünya mədəniyyəti tarixinin bütün dövrlərində onun inkişafının avanqardı olmuşlar. Empirik bilikdən onun sisteminə qədər, minilliklər ərzində inkişaf edən elm, kəşf etdiyi qanunlara görə mədəniyyətin mühüm

sosial institutu və bəşəriyyətin inkişafının güclü yaradıcı qüvvəsinə, sinsanın xidmətinə verilmiş bir çox sosial-mədəni inqilabların əsasına çevrildi. Elmi biliklər dünyanı əvvəlcədən müəyyən edilən və idarə edilən etdi. *Üçüncü minilliyin astanasında elmə istinad edən bilik, təbii-coğrafi sərvət, kapital və əməkdən daha üstün olan, "dördüncü iqtisadi faktor" oldu.*

Bu işdə informasiya, təhsil və tərbiyə kimi sosial institutların əhəmiyyəti böyükdür. Elm və kompüter texnologiyalarının inkişafı, beynəlxalq informasiya şəbəkəsi olan "İnternet"-in yaradılması insanlar üçün bəşəriyyətin yaratdığı bilikləri mənimsəmək və praktik istifadə etmək üçün fantastik imkanlar açdı. İnformasiyalı cəmiyyətə keçid, informasiya texnologiyalarının intensiv inkişafı şəraitində sivilizasiyalı ölkələrdə, bəşəriyyətin bu və ya digər dərəcədə qiymətli biliklərin seçimini həyata keçirən və onların praktikaya tətbiqinə yardım edən "bilik menecerləri"-nin hazırlığı mühüm əhəmiyyət kəsb etməyə başladı. Təhsilsiz insan müstəqil ola bilməz. Cahillik həmişə. indi də Şərin "sosial bazası" olaraq qalır. Eyni zamanda mədəniyyət - biliyə, quruculuğa və humanizmə əsaslanan rifah, insanın intellektual, emosional və fiziki fəaliyyətinin pozitiv prosesi, vasitəsi və nəticəsidir. XX əsrin təcrübəsi bir daha təsdiq etdi ki, insan mədəniyyətinin mühüm institutu olan humanizm tərbiyəsi, həyatını insan təbiətinin neqativ xüsusiyyətləri ilə bağlı barbarlıq və vəhşilik mədəniyyətinə xas dağıdıcı proseslərdən qorumaq üçün, bəşəriyyətin özünümühafizəsinə yardım edən insan inkişafının zəruri alətidir.

Bəşəriyyəti görkəmli elmi kəşfləri və bədii əsərləri ilə zənginləşdirən demokratik mədəniyyət öz məzmun yetginliyinə XX əsrdə, sinfi məhdudiyyətlərin aradan qaldırılması onun əsas tendensiyasına çevrildiyi zaman, qədəm qoydu. Bu onunla şərtlənir ki, sivilizasiyalı ölkələrin müasir mədəni siyasəti, cəmiyyətin müəyyən hissəsinin sinfi, siyasi, etnik və ya dini əlamətlərə uyğun yox, xalqın mənafeyinə uyğun olaraq qurulur. Belə bir siyasət dünya kulturoloji elminin son nailiyyətlərini, eləcə də sivilizasiya və dünya mədəniyyəti inkişafının praktik təcrübəsini nəzərə alır. BMT, YUNESKO, Avropa Şurası və digər beynəlxalq təşkilatlar.bəşəriyyətin sosial-mədəni problemlərinin həllinə əhəmiyyətli töhfələr vermişlər. Onlar milli və regional təşkilatlara,

elmi tədqiqatların nəticələrinə, müxtəlif ölkə politiloq, sosioloq, müstəqil ekspetrt-kulturoloqların tövsiyələrinə istinadən mədəıni siyasət və dünya mədəniyyətinin inkişaf prosesinə pozitiv təsir göstərirlər.Tərəqqipərvər dünya birliyi ruhi mədəniyyəti insan inkişafının universal özəyi, həyat fəaliyyəti vasitəsi və insanın təkmilləşdirilməsi yolu, mədəni siyasəti isə - inkişaf və rifahın strateji siyasəti kimi nəzərdən keçirir. 1988 – 1997-ci illərdə BMT və YUNESKO-nun rəhbərliyi altında Dünya mədəniyyəti inkişafının onilliyi keçirilirdi. 2000-ci il dünya mədəniyyəti ili elan olunmuş, 2001-ci il yeni minilliyin birinci onilliyi isə sivilizasiyalararası dialoq adı altında keçiriləcəkdir. 1922-ci ildə BMT-nin ətraf aləm və inkişaf üzrə Rio-de-Janeyroda keçirdiyi Dünya konfransında dünya birliyinin XXI əsr üçün fəaliyyət proqramı müəyyən edilmişdir. Bu proqramın əsasını planet dövlətlərinin daxili siyasətinin resursların qorunmasını təmin edən yüksək istehlak mədəniyyəti və iqtisadi effektivliyin sosial məsuliyyətlə uyğunlaşdırılmasına istiqamətlənən davamlı inkişaf prinsipi təşkil edir.

Vətəndaş cəmiyyətinin təkmilləşdirilməsi məqsədi ilə Avropa Şurası hərtərəfli insan inkişafına, mədəniyyət sahəsində düzgün qərar qəbul edilməsi və avropa ölkələrinin effektiv mədəni kooperasiyasına istiqamətlənmiş kulturoloji tədqiqatlara ciddi yardım göstərir. 1998-ci ilin martında İsveç Bankının yardımı ilə Stokholmda, mədəni siyasətin sosial inkişafa istiqamətlənməsi məsələlərinə həsr olunmuş, Avropa dövlətlərinin hökumətlərarası konfransı keçirildi. Həmin il İsveç paytaxtında avropa ölkələri mədəniyyət nazirlərinin, mədəni siyasətin sosial istiqamətləri məsələlərinə həsr edilmiş iclası keçirildi. 1999-cu ilin noyabrında Norveçdə, 22 ölkədən gəlmiş 150 alimin iştirakı ilə, mədəni siyasət sahəsində tədqiqatlar üzrə Beynəlxalq konfrans keçirildi. Bu ölkələrin əksəriyyəti inkişaf etmiş avropa dövlətlərini təmsil edirdilər.Konfrans iştirakçılarının məruzə və çıxışları göstərdi ki, müasir dünyada, ilk növbədə demokratik ölkələrdə mədəniyyətin inkişafına verilən əhəmiyyət və ona ayrılan diqqət gündən-günə artır.Postsovet məkanından fərqli olaraq, avropa ölkələrində mədəniyyət üstqurum hadisəsi kimi, başlıca olaraq - incəsənət, etika, folklor kimi yox, hər şeydən əvvəl inkişaf, rifah və həyat yolu kimi başa düşülür. Avropada, dövrün dəyişən şəraitinə və

həyatın obyektiv tələblərinə uyğun, dövlət və cəmiyyətin tərəqqipərvər sosial-mədəni inkişafını təmin edən mədəniyyət işləri üzrə dövlət şuraları, mədəniyyəti idarəetmə institutları, mədəniyyət universitetləri və kafedraları, kulturoloji tədqiqat mərkəzləri və digər müəssisələr geniş yayılmışdır.

Son onillikdə BMT məruzələrində, BMT inkişaf Proqramının sifarişi ilə müstəqil ekspert qrupunun hazırladığı, insan inkişafı haqqında qlobal miqyaslı aktual problemlər nəzərdən keçirilir. Bu proqram öz missiyasını, bərabərhüquqlu cəmiyyət yaradılması və davamlı insan inkişafına nail olmağa yardım edən milli potensial yaradılmasında ölkələrə yardım göstərməkdə görür. O, 174 ölkə və əraziyə özünütəminatın təşkili, kasıblıqla mübarizə, ətraf mühitin keyfiyyətinin bərpa edilməsin, iş yerlərinin yaradılması və qadınların vəziyyətinin yaxşılaşdırılmasında böyük yardım göstərir.

Məruzələrdə insan maraqları və gəlir əldə etmək cəhdi arasında şüurlu balans axtarılma cəhdələrinə mühüm əhəmiyyət verilir. Bu məruzələr göstərir ki, insan potensialının inkişafı son nəticədə "insan imkanlarının genişlənməsi prosesi " - dir. Müxtəlif ölkələrdə həyatın orta uzunluğu, savadlılıq səviyyəsi, ümumi rifahla ölçülən insan inkişafı indeksinin analizi çıxış nöqtəsi kimi özünü göstərir. Məruzə müəllifləri təhsil, texnologiyaları və mədəniyyət nailiyyətlərindən istifadə imkanı olmayan milyonlarla insanın marginləşməsinin aradan qaldırılması məqsədi ilə sosial siyasətin gücləndirilməsi çağırışı ilə siyasətçilərə müraciət edirlər..

BMT-nin inkişaf Proqramı qloballaşma şəraitində ölkələrin və xalqların polyarlaşmasının əksinə çıxış edərək, dünya birliyini maddi nemət və imkanların qeyri-bərabər bölünməsinin aradan qaldırılmasına çağırır. Qloballaşmanı yalnız iqtisadi baxımdan anlamaq düzgün deyil. Bu, hər şeydən əvvəl, insan həyatı və fəaliyyətinin bütün sahələrini, bütövlükdə bütün müasir dünya mədəniyyətini əhatə edən sosial-mədəni kateqoriyadır. Dövlətlər qloballaşmadan yalnız gəlir əldə etmək üçün deyil, həm də onun insan mənafeyinə, həyatın zənginləşməsinə, ümumi dəyərlərə əsaslanan qlobal cəmiyyətin yaradılmasına xidmət etməsində yardımçı olmalıdırlar. Bunun üçün qloballaşma siyasətində, insan potensialı inkişafı sahəsi prioritet istiqamətlərinin seçimini nəzərdə tutan

koordinasiya həyata keçirmək vacibdir. Belə istiqamətlərdən biri, insanların sosial müdafiəsinin etibarlı sisteminin, ilk növbədə, imkansız əhalinin ehtiyacının ödənilməsinə yönələn texnologiyaların hazırlanması üzrə beynəlxalq proqramlardır. Əhalinin milli gəlirinin adam başına düşən orta səviyyəsinin hesablanması yolu ilə müəyyən edilən, dünya əhalisinin ən zəngin beşdə biri ilə ən yoxsul beşdə birinin gəlirləri arasındakı fərq, 1960-cı ildə 1-dən 30-a, 1997-ci ildə isə 1-dən 74-ə artmışdır. Dünyanın 174 ölkəsinin insan potensialı inkişafı reytinqinin (İPİR) nəzərə alınması ilə insan həyatının orta uzunluğu, təhsil və gəlir sahələrinin təhlili göstərdi ki, Kanada artıq altıncı ildir ki, birinci yeri, sonrakı yerləri isə, ardıcıl olaraq, Norveç, ABŞ, Yaponiya və Belçika tuturlar.

Beynəlxalq təşkilatların xidmətini anlayıb qiymətləndirilməsi üçün, bəşəriyyətin gələcəyinin layihələndirilməsi və dünya inkişafının qlobal problemləri həllinin elmi təminatı ilə məşğul olan alim, menecer və siyasətçilərin qeyri-formal birliyi olan Roma Klubunun nailiyyətləri ilə tanışlığın mühüm əhəmiyyəti var. Maraqlıdır ki, dünya mədəniyyətinin inkişaf qanunauyğunluqları haqqında "Simurq" Azərbaycan mədəniyyət Assosiasiyasının uzunillik müşahidə və nəticələri də bu nüfuzlu beynəlxalq təşkilatın tədqiqatlarının nəticələri ilə bir çox hallarda üst-üstə düşür. Klub üzvləri "Qlobal dialoq" proqramı daxilində, həyat keyfiyyətini yaxşılaşdırmaq üçün öz şans və imkanlarını şüurlu surətdə qiymətləndirib, istifadəsinin zəruriliyi ideyasını dünya xalqlarına çatdırmaq istəyirlər. Onlar planetdəki xalqları "digərlərinə" və gələcək nəsillərətolerantlıq, həmrəylik nmayiş etdirməsinə çağırırlar. Bu çağırışın əsasını, müxtəlif təşkilat və milli dövlətlər arasındakı əməkdaşlığın inkişafının, demokratların ən ülvi arzuları olan - "qlobal düşünüb, regional hərəkət etmək" ideyasının reallaşması ilə nəticələnəcəyinə inam təşkil edir.

İndiki qlobal problemlərin həllinə və daha uğurlu gələcəyin formalaşdırılmasına yönəlmiş strateji tədqiqatların nəticələrindən çıxış edərək, Roma klubu tərəfindən bir sıra maraqlı elmi nəticələr əldə edilmişdir. Klub, qloballaşma prosesinin pozitiv inkişafının təmin edilməsi məqsədi ilə, dörd ziddiyyətli, eyni zamanda qarşılıqlı asılılığı olan uzunmüddətli məsələnin həllində şüurlu balans

axtarılmasının vacibliyinə işarə edir. Bu məsələlər - ekoloji inkişafın davamlılığı, iqtisadi rəqabətəqabillik, sosial ədalət və hüquqi dövlət şəraitində demokratiya ilə əlaqədardır. Bununla belə, qeyd edilir ki, insan hüquqları ilə yanaşı, onun vəzifələrinin də etibarlı bəyannaməsinin olması vacibdir. Roma klubu analitik fəaliyyətinin əsas nəticələrindən biri – planetar miqyasda sülh mədəniyyəti və dözümlülüyün vacibliyidir. Bu fikir müasir bəşəriyyət üçün müharibə və toqquşmaların həlledici əhəmiyyət daşımasının dərk edilməsinə əsaslanır. Hətta lokal konfliktlər Yer üzərində insan həyatı və təbiət itkilərinin böhranına gətirib çıxara bilər. Müasir sivilizasiyanın böranların aradan qaldırılması üzrə, milli dövlətlər çərçivəsindən kənara çıxa bilən, regional və qlobal sistemlərin yaradılmasına təcili ehtiyacı vardır.

Roma klubu üzvlərinin, elmi cəhətdən əsaslandırılmış və metodoloji baxımdan dəyərli, bəşəriyyətin gələcəyi qayğısına qalaraq gəldikləri kulturoloji nəticələri klubun prezidenti, professor Rikardo Dies Xoxlyaytner formulə etmişdir. Bu nəticələr bizim həyatımızın planet insanlarının bilik, iradə, yaradıcı fəallıq, məsuliyyət və humanizmindən – insan mədəniyyəti səviyyəsindən asılılığına aşağıdakı məntiqi baxışları yaradır:

- hər bir fəaliyyətin nəticəsi de-fakto mövcud olan ictimai quruluş, başlıca olaraq, insan iradəsi və fikirləri ilə müəyyən olunur;
- insanın gələcəyi qeyri - müəyyən olduğuna görə, əndazəsiz eqoizm düzgün olmayan menecmentin səbəb olduğu həm bu günkü, həm də gələcək böhran və dəhşətləri aradan qaldırmaq mümkündür;
- hər bir insan öz gələcəyinin məsuliyyətini daşımağa borcludur və özünü həyat hadisələrinin qurbanı kimi nəzərdən keçirməməlidir. Böhran və toqquşmalara daha uğurla tab gətirmək üçün, təxəyyül gücü və yaradıcı yanaşma, eləcə də artan sosial məsuliyyət, baxış və dəyərləri dəyişdirə bilər;
- Bütün mürəkkəbliklərinə baxmayaraq, formalaşmaqda olan informasiyalı cəmiyyət daha yaxşı gələcək qurulması üçün geniş imkanlar açır. İnformasiyalı cəmiyyət təhsili, sözün ən geniş mənasında, hamı üçün mümkün edəcəkdir. İnformasiya, təhsil və

bilik uzun müddət ərzində imkan bərabərliyini təmin etmək üçün qlobal və ümumi bir rifah olmalıdır ki, vətəndaş cəmiyyəti yaradılmasına və bütün dünyada yarana biləcək təhlükəli disbalansların aradan qaldırılmasına yardım etsin.

Bu nəticələrə istinadən XXI əsrin perspektivlərini nəzərdən keçirərək alim belə bi nəticəyə gəlir ki, müasir bəşəriyyət davamlı inkişaf üçün zəruri potensial imkanlara malikdir və buna görə də gələcəyə optimist nəzərlərlə baxmağa çağırır.

Biz Roma Klubunun elmi nəticə və proqnozlarının beynəlxalq mədəni siyasətdə istifadəsinin olduqca mühüm əhəmiyyət daşıdığını qeyd etmək istərdik. Belə siyasət mədəniyyətlərarası konsensus və və ya mədəni plüralizmin formalaşdırılmasını nəzərdə tutur. Bu baxımdan, müxtəlif özünəməxsus milli mədəniyyətlərin şüurlu inteqrasiyası və harmonizasiyası, mədəni müxtəliflikləri milli mədəniyyət çərçivəsindən kənara çıxan vahid plüralist siyasət daxilində, tolerantlıq və bəşəri dəyərlərin vahidliyi, onların yaxınlaşdırılması və universallaşdırılması əsasında anlamağın vacibliyini qeyd edən, Hettingen universitetinin professoru Bassama Tibinin yanaşması perspektivli hesab edilir. Bu hadisənin ən mühüm şərti demokratiya prinsip və dəyərlərini, ağıl və etikanın vəhdətini nəzərdə tutan, demokratiyanın siyasi mədəniyyətidir.

Dövlətin mədəni siyasəti nəinki ölkənin hərtərəfli sosial-mədəni inkişafı üçün şərait yaratmalı, eləcə də ruhi mədəniyyətin iqtisadi və siyasi hadisələrə təsir etdiyi mühüm faktor olmasına şərait yaratmalıdır. O, dövlətin stabil daxili inkişaf, xalqın artan rifahının, müxtəlif mədəniyyətlərin daşıyıcıları olan xarici ölkələrlə məhsuldar beynəlxalq əməkdaşlıq siyasəti olmalıdır. Milli, regional və qlobal səviyyədə effektiv mədəni siyasətin hazırlanıb həyata keçirilmə zərurəti müasir elmin proqnozlaşdırılmasına və idarəedilməsinə, onun texnogen sivilizasiya şəraitində onun gələcək humanistləşdirilməsinə olan ehtiyacları ilə təsdiqlənir. Gen mühəndisliyi və biotexnologiya, insan genomu sirlərinin açılması, bir hüceyrədə olan bütün irsi informasiyanın vəhdəti, faydalı bitkilərin məhsuldarlığının artırılmasının yeni metodlarının kəşfi inkişafın yeni cəzbedici perspektivlərindən xəbər verir. Eyni zamanda, bəzi tədqiqatlar bəşəriyyətin gələcəyi üçün böyük risklərlə əlaqədar olub, təbiətə və

insanın özünə qarşı bir çox təhlükələr yarada bilər. Məlimdur ki, bir çox ölkələrdə tətbiq olunan, çoxlu sayda ekspertlərin cavablarının təhlilinə əsaslanan "delfiya metodu" elm və texnikanın inkişaf problemləri üzrə qərar qəbulu üçün effektiv informasiya bazası rolunu oynayır. Bu metod üzrə aparılan elmi tədqiqatların gələcək nəticələrinin proqnozlaşdırılması göstərir ki, XXI əsrdə alimlər bilik sahəsində partlayışla qarşılaşacaqlar. Bu, elmdə humanist istiqamətin gündəliyə gətirilməsini və texniki tərəqqinin dağıdıcı nəticələrinin azaldılmasını bir daha zəruriləşdirərək, mədəni siyasətin həyata keçirilməsini aktuallaşdırır. Beləliklə, mədəni siyasət iki məsələnin optimal həllinə yardım etməlidir: həyat keyfiyyətinin artırılması və təbiətə, eləcədə insanın özünə yönəlmiş dağıdıcı təhlükənin aradan qaldırılması. Bunun üçün, təbiət və insan ekologiyasının etibarlı müdafiəsinə qabil müəyyən mədəni dəyərlər sisteminə istiqamətlənmə nəzərdə tutulur.

İnsan inkişafı siyasətində mədəniyyət və mədəni siyasət anlamına yeni yanaşma kontekstində Trir universitetinin professoru Xansa V.Maulun, dünya təcrübəsindən çıxış edərək, dövlətlərin qloballaşma şəraitinə uyğunlaşması üçün təqdim etdiyi "üç strategiya" konsepsiyası diqqətəlayiqdir. Bu, daha zəif və gələcək nəsillər qarşısında maraq, yüksək etika və sosial məsuliyyət tarazlığını nəzərdə tutan"əməkdaşlığa və birliyə çıxış" strategiyalarıdır."Çıxış" dedikdə, müəllif, dövlət siyasəti və iqtisadiyyatının qeyri-strateji sahələrində fəaliyyətin demonopolizasiyasını nəzərdə tuturdu. "Əməkdaşlıq" sözü altında, o, xarici ölkələrlə dövlət və qeyri-dövlət səviyyəsində iki və çoxtərəfli iqtisadi, sosial-mədəni və siyasi əməkdaşlıq nəzərdə tuturdu. "Birləşmə" dedikdə, o, resursların daha effektiv birgəistifadəsinə imkan verən, müəyyən suveren hüquqların üstmilli institutlara könüllü verilməsini nəzərdə tutan strateji tərəf-müqabillik nəzərdə tuturdu.

Nəzərdən keçirilmiş materialdan aşağıdakı nəticələri formulə etmək olar.

Dünya mədəniyyəti tarixi göstərir ki, milliyyəti və dinindən, həyat tərzi və sosial statusundan asılı olmayaraq, insan mədəniyyətindəki fərqlər Xeyir və Şər, Biliklilik və Cahillik, Həqiqət və Yalan, "İşıq və Zülmət" arasındadır. Daha çox təhsil və tərbiyə, mühit, dövlətin

siyasi sistemi və fərdi qabiliyyətlərdən asılı olan xarakterini formalaşdırdıqca, öz mənəvi seçimini edərkən, insan həm özünün, həm digərlərinin, bəzən isə bütöv xalqların taleyinə təsir göstərir.

Hər bir dövlətin tərəqqisi, ilk növbədə, peşəkar ruhi istehsalın – intellektual və bədii fəaliyyət, elm və texnologiyalar, təhsil və incəsənətin inkişaf səviyyəsi ilə müəyyən olunur. O, əvvəlki nəsillərin intellektual potensialının və insan düşüncəsinin ən yeni tərəqqipərvər nailiyyətlərinin sistemli istifadəsini nəzərdə tutur. Mədəni, xüsusilə də elmi-texniki tərəqqi iqtisadi tərəqqi və xalqın yüksək səviyyəli rifahının ilkin şərtidir.

Cəmiyyətin mədəni inkişafında xalqın iştirak imkanları və iştirak səviyyəsi onun elmi təminatlı sistemli təhsilindən və maarifliliyindən birbaşa asılıdır. Elmi dünyagörüşün kütlələrin adi şüuruna nüfuz etməsi nə qədər dərin olarsa, onların mədəniyyətlilik və yaradıcı mobillik səviyyəsi bir o qədər yüksək olar. İnformasiya və təhsildən sərbəst bəhrələnmə, eləcə də gender bərabərhüquqluluğunun formalaşdırılması davamlı insan inkişafına nail olmağa yardım edir.

Hər bir ölkənin və bütövlükdə bəşəriyyətin gələcəyi, hər şeydən əvvəl, gənclərin təhsil və tərbiyə səviyyəsi ilə müəyyən edilir. Bu, gənclərin təhsil və tərbiyəsinin strateji əhəmiyyətini və onun milli dövlət və beynəlxalq birliyin mədəni siyasətində həlledici yerini şərtləndirir.

Cəmiyyətin sosial-mədəni inkişafı dövlətin yaratdığı sosial və siyasi şəraitdən asılıdır, çünki, millətin intellektual tərəqqisini inkişaf etdirən və ya buxovlayan, iqtisadi tərəqqi və onunla bağlı rifahın əsasını təşkil edən də odur.Mədəni tərəqqi üçün Demokratik dövlət quruluşu mədəni tərəqqi üçün ən əlverişli şəraitdir.

Bizə elə gəlir ki, qloballaşma prosesində mədəniyyətin rolunun artması dünya inkişafında ruhi mədəniyyətiin missiyasına yeni baxış haqqında məsələni aktuallaşdırır. Bununla əlaqədar, müxtəlif xalqların mədəniyyətlərinin harmonizasiyası, yaxınlaşma, davamlı inkişaf və sülh naminə faydalı əməkdaşlıq onların qarşılıqlı anlaşmasının inkişafının məhsuldar vasitəsi kimi, qlobal mədəni siyasətin daha da təkmilləşdirilməsini həyati zərurətə çevirir. Ardıcıl sosial-mədəni, iqtisadi və siyasi dəyişikliklər vətəndaşların təhlükəsiz və stabil inkişafı ilə yanaşı,xalqların və dövlətlərin daxili və xarici

ehtiyaclarına cavab verməlidir. Ruhi mədəniyyəti öz daxili və xarici siyasətinin əsas prioriteti, vətəndaşlarının həyatının universal təməli kimi nəzərdən keçirən ölkələr bu mürəkkəb məsələni uğurla həll edə biləcəklər.

♔ *Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri. Humanitar və ictimai elmlər seriyası. 2002, №1-2, s.38-61.*

## DÜNYA MƏDƏNİYYƏTİ VƏ AZƏRBAYCAN CƏMİYYƏTİ: MÜQAYİSƏLİ TƏHLİL, PROBLKEMLƏR VƏ ONLARIN HƏLLİ YOLLARI

Yeni, demokratik cəmiyyətə keçid şəraitində azərbaycan alimlərinin qarşısında duran mühüm vəzifələrdən biri, bizim postsovet milli mədəniyyətimizin nəzərdən keçirilməsi və tənqidi qiymətləndirilməsi, dünya sivilizasiyası kontekstində müasir azərbaycan cəmiyyətinin müqayisəli kulturoloji təhlilidir. Bu məsələnin həlli azərbaycan mədəniyyətindəki nailiyyət və uğursuzluqların aşkar edilib, obyektiv qiymətləndirilməsinə, bu gün və gələcək perspektivdə azərbaycan xalqının həyati və milli maraqlarına cavab verən, dünya mədəniyyətinin inkişaf tələbləri və tendensiyasına uyğun olan gələcək təkmilləşməsi və modernləşməsinin yol, vasitə və metodlarının müəyyən ediilməsinə imkan verir.

Müasir azərbaycan mədəniyyətinin xarakterik cəhətlərindən biri yüksək intellektual və istehsal potensialı, eləcə də onun humanist xarakteridir. Azərbaycanlıların çoxəsrlik mədəni təkamülü nəticəsində onların milli xarakterində bəşəri humanist dəyərlər – həqiqət, xeyirxahlıq, ədalət və gözəllik idealları öz yerini tapmışdır. Lakin Azərbaycanda dövlət quruculuğu və insan inkişafı potensial imkanlarının reallaşdırılması təşkilati, maliyyə və dünyagörüş xarakterli obyektiv və subyektiv çətinliklərlə bağlıdır. Respublika hələ ideoloji yenidənqurma və mədəni yeniləşmələr, müharibədən zərər çəkmiş ərazilərin ekoloji reabilitasiyası, elm, təhsil, səhiyyə şəbəkələrinin optimallaşdırılması və əhalinin dövlətin rəqabətəqabil

texnologiyalarla təmin edilməsi və əhalinin həyattəminedici sistemlərinin effektivliyinin artırılması ilə bağlı mürəkkəb məsələləri həll etməlidir. Azərbaycan mədəniyyəti inkişafının struktur, sosial, regional və şəxsi baxımdan qeyri-bərabərliyi də çətinliklərə aid edilməlidir. Onlar bütöv sistem olan mədəniyyətin müxtəlif sahələrinin qeyri-bərabərliyində, əhalinin elitar və kütləvi mədəniyyətinin inkişafındakı daxili disproporsiyalarda, inkişaf mənbəyi olan mədəniyyət nailiyyətlərinin istifadəsində gender bərabərhüququnun olmamasında, Azərbaycanın müxtəlif regionlarında mədəni inkişafın qeyri-bərabərliyində özünü göstərir ki, bu da azərbaycan cəmiyyətində mədəniyyət institutlarının inkişaf prioritetlərinin seçilməsi məsələsini gündəliyə çıxarır.

Adı çəkilən məsələlərin uğurlu həlli zamanın obyektiv tələblərinə cavab verən yeniməzmunlu islahatların hazırlanıb həyata keçirilməsini israrla tələb edir. Bundan çıxış edərək, tərəfimizdən ruhi mədəniyyətin yüksək missiyasına, Azərbaycanın dövlət, sosial və insan inkişafında onun yenilikçi roluna yeni baxış problemlərinə həsr olunan kulturoloji təhlil aparılmışdır.

Davamlı insan inkişafı ruhi mədəniyyətin mühüm sahəsi olan *ideologiya*nın vəziyyətindən həlledici dərəcədə asılıdır. Həyatın mahiyyət, nizam və dəyərini izah edən müəyyən əqidə, təsəvvür və ideyalar tədricən bütöv ideoloji sistemə çevrilərək, insanlarlın bütün həyat fəaliyyətinə, həyat tərzinin formalaşmasına, istehsal texnologiyalarının təşəkkülü və inkişafına, dövlət və cəmiyyət strukturunun yaradılmasına müəyyən təsir göstərir. Zaman keçdikcə, həyatın tələbi, elmi biliklərin, təhsil və tərbiyənin artması ilə ideologiyalar da dəyişib təkmilləşərək, etnos, xalq, millətin inkişafının əsası və kollektiv təcrübə forması olan mədəni ənənələrə təsir göstərir.

İdeologiya insan təşəkkülü və inkişafında taleyüklü əhəmiyyət daşıyır, onun dəyəri isə, cəmiyyətin praktik nailiyyətləri ilə müəyyən olunur. Xalqın həyat tərzi və onun rifahı, dövləti və ictimai inkişaf, iqtisadi və sosial tərəqqi , daxili və xarici siyasətdəki uğurlar bilavasitə ideologiyanın xarakter və xüsusiyyətlərindən asılıdır. İdeologiyanın yüksək missiyası, eyni zamanda, onunla şərtlənir ki, məhz bu sahədə inkişafın strateji məqsəd və vəzifələri formalaşır.

Cəmiyyətin iqtisadi, sosial və siyasi məqsədlərinin formalaşmanın əsası olan ideologiya dövlətin strategiyalarını və ölkənin "texnoloji inkişafını" müəyyən edən başlıca prioritetlərini sanksiyalaşdırır, sosial-mədəni tərəqqinin intellektual və etik üfüqlərini müəyyənləşdirir. O, məqsəd olmasa da, sivil beynəlxalq birliklə humanist harmoniya qurulmasında bütün xalqı və ziyalıları cəmiyyətin sosial-mədəni və iqtisadi inkişafının yüksək səviyyəyə çatması üçün şüurlu yaradıcılığa səfərbər edən, onun milli təhlükəsizliyini və həyat qabiliyyətliliyini təmin edən zəruri intellektual-etik vasitədir. İdeologiya bilavasitə ictimai şüura təsir göstərərək, həm təkamül, həm də inqilabi prosesləri stimullaşdırır. Bununla belə, tarix göstərir ki, cəmiyyət üçün heç bir sahədə olan səhv, ideologiya sahəsində olan qədər, baha başa gəlmir. Onlar ictimai psixologiya və əxlaqda dönməz itgilərə, əvvəllər dönməz hesab edilən dəyərlərə inamın kütləvi şəkildə itirilməsiböyük insan və iqtisadi itkilərə, bəzən isə, hətta müəyyən cəmiyyət və ya sivilizasiyanın həyatını təhlükə altında qoya bilən ictimai və ekoloji dağıntılara gətirib çıxarır.

Tarixən tərəqqipərvər ideologiyalar, insanın şüurunun düşüncə tərzinin dəyişdirilməsi yolu ilə, cəmiyyətdə sosial-mədəni dəyişikliklərin yaranması üçün mühüm təkan olur. Onlar sosial həqiqətləri qabaqlayaraq, nəinki həll edilməsi üçün obyektiv şəraitin yarandığı yeni sosial vəzifələri müəyyən edir, həm də daha yaxşı gələcəyə yol açan elmi əsaslı ideal və məqsədlərin real olaraq əldə edilməsinə istiqamətləndirir. İdeologiyaların müqayisəli tarixi təhlili insan dəyərlərinin aparıcılığına iqtiqamətlənmiş demokratik ideologiyaların üstünlüyünü göstərir. İnsan şəxsiyyətinin dəyərini, onun daimi özünütəkmilləşdirmə qabiliyyətinə və sonsuz imkanlarına inamı, idrak, fəal yaradıcı əmək və insanların həyatının yaxşılaşdırılması uğrunda ətraf aləmi dərk edib dəyişdirməyin insanın ali məqsədi olduğunu təsdiqləyərək, onlar, insan inkişafında tərəqqipərvər mədəni dəyişiklikləri stimullaşdırırlar. Onlar əməyin mənəvi əhəmiyyətini və işbaz sahibkarlıq dəyərini əsaslandıraraq, yüksək əmək mədəniyyəti və xalqın rifah mənbəyi olan, heç bir yüksək effektli istehsalın keçinə bilmədiyi, sosial cəhətdən fəal işçi tipi mədəniyyətinin sabit mənəvi dayaqlarını yaradır.

Demokratik prinsiplər üzərində qurulmuş, insan azadlığının zəruriliyini elmi və əxlaqi cəhətdən əsaslandıran ideologiyalar, qlobal sosial dəyişikliklər və müasir dünyada demokratik dövlətlərin yaradılması üçün nəzəri əsas rolunu oynayırlar. Müasir demokratiya prinsiplərinin işlənməsi və reallaşmasına humanizm, rasionalizm, maarifçilik və liberalizm ideologiyaları ciddi təsir göstərmişdir. Onlar insanın sosial faydası idealının, "bərabər imkanlar" xüsusi mülkiyyət, hüquq və azadlıqda bərabərlik prinsiplərinin təsdiqinə təsir göstərmişlər. İnsana yeni – humanistik nəzərlə baxış, azadlığın təbii bərabərlik və təbii hüquq demokratik prinsiplərinin təsdiqi, insanın dünyanın dərk etməsi və dəyişdirməsi, daha yaxşı gələcəyi yaratmasında yaradıcı imkanlarını dəfələrlə artırır. Əksinə, humanist olmayan ideologiyalar sosial stabilliyi, siyasi hadisələrin idarə edilməsini pozur, cəmiyyətin inkişafını buxovlayır və ruhi mədəniyyətin tənəzzülünə səbəb olur.

İnsanın və cəmiyyətin ruhi mədəniyyətinin mühüm göstəricisi ətraf mühitə münasibət , insan inkişafı üçün həyati əhəmiyyət daşıyan *ekoloji mədəniyyət*dir. Ətraf mühitin keyfiyyət səviyyəsi insanın sağlamlığı və uzunömürlülüyünə böyük təsir göstərərək, ekoloji mədəniyyətdən və təbiət resurslarının səmərəli istifadəsindən asılıdır. "Şüurlu kifayətlilik" prinsipi üzərində qurulan ekoloji mədəniyyət yüksək istehlak mədəniyyətinin mövcudluğunu nəzərdə tutur. Meşələrin qırılması, suyun və yenidən yaradılmayan resursların qeyri-səmərəli istifadəsi, ətraf mühitin çirklənməsi istehlak mədəniyyətinin aşağı səviyyəsini göstərir. İnsanın və cəmiyyətin zənginliyi yalnız maddi nemətlərin fəal istehsalı ilə deyil, həm də onların qənaətli, şüurlu və səmərəli istehlak qabiliyyəti ilə yaradılır. Sağlam düşüncəyə əsaslanan yüksək istehlak mədəniyyəti cəmiyyətin hər bir üzvünün xammal, yanacaq, enerji, məhsullar, su və digər həyat əhəmiyyətli resurslarının israfçılığı və təsərrüfatsızlığı əvəzinə, onların qorumasını və şüurlu istifadəsini nəzərdə tutur. Resursların qorunması iqtisadi inkişaf faktorlarını sosial, insan inkişafı ilə harmonik əlaqələndirərək, onların effektiv idarə edilməsinə imkan verir. İstehlak mədəniyyəti ilə bağlı fundamental məsələlər sırasına yenidən yardılmayan resursları istehlak edən istehsalın məhdudlaşdırılması zərurəti aiddir. Tükənən resurslar hesabına

fəaliyyət göstərən istehsal sahələri insan və təbiət harmoniyasını, biosferi, təbii potensialı dağıtmayan, əksinə qoruyan yenidən yaradılan enerji mənbələrinə əsaslanan yeni, ekoloji cəhətdən təmiz yüksək texnologiyaların yaradılması üçün istifadə olunmalıdır. Bu gün insan sivilizasiyamızın dağıntılardan qorunmasının yeganə imkanı olan ekosivilizasiyanın yaradılmasında ekoloji mədəniyyətin həlledici əhəmiyyəti vardır. Təbii resursların və maddi nemətlərin şüurlu istifadəsini nəzərdə tutan yüksək ekoloji mədəniyyətin formalaşdırılması, dövlətin mədəni siyasətinin prioritet vəzifələrindən biri olan, cəmiyyətdə geniş kulturoloji, daha dəqiq, ekoloji təhsil və tərbiyə tələb edir.

Davamlı insan inkişafı insanların həyat səviyyəsinin yüksəldilməsinə istiqamətlənir. Məlumdur ki, bu məqsədə nail olmaq üçün, maddi həyatın əsasını təşkil edən, iqtisadiyyatın effektiv inkişafını təmin etmək lazımdır. Lakin iqtisadi inkişaf ruhi mədəniyyətin, cəmiyyətin ruhi istehsalının vəziyyəti ilə şərtlənir, çünki, bizim həyatımızı təşkil və idarə edən iqtisadiyyat yox, ağıl, bilik, "hegelin mütləq ruhudur". İqtisadi effektivlik elm və elmə əsaslanan yüksək texnologiuyalardan bilavasitə asılıdır. Elm ictimai inkişafın həyat əhəmiyyətli zəruri şərti olmaqla yanaşı, həm də ictimai şüurun keyfiyyət inkişafının daimiliyini təmin edir. Elmi biliklər mahiyyət, təbiət, insanın müqəddəratı haqqında ənənəvi mövcud dini və fəlsəfi ideoloji təsəvvürləri inqilabiləşdirir, sağlam düşüncəyə əsaslanan insan təfəkkürü və həyatının formalaşmasına təsir göstərir, sosial-mədəni tərəqqiyə nail olma və dünyanın şüurlu şəkildə dəyişdirilməsinin qeyri-məhdud imkanlarını açır. Yüksək istehsal nəticələrinin əldə edilməsində, təhsil, tərbiyə və maarif sisteminin təmin etdiyi, maddi nemət istehsalçılarının ümumi mədəni səviyyəsinin mühüm əhəmiyyəti var.

Buna görə də, ruhi mədəniyyətin elm və təhsil kimi aparıcıları strateji əhəmiyyət daşıyırlar. Dünya elmi nailiyyətləri və humanist etik dəyərlərə əsaslanan insanın təhsil və tərbiyəsinin yüksək səviyyəsi – rifah və xoşbəxt həyata doğru gedən yoldur. Buna görə də effektiv təhsil və tərbiyənin təşkili dövlətin başlıca sosial kapitalı olan, cəmiyyətin mədəni potensialının artırılmasına yardım edən, milli prioritet vəzifə hesab olunur. Elm və təhsilin inkişafı siyasi və iqtisadi

azadlıqlar mühitinin yaradılması ilə müşayiət olunaraq, insanın yaradıcı inkişafının təmin edilməsinə təsir göstərir. Təhsil, tərbiyə və maarifin müasir elm və yüksək texnologiyalara əsaslanan prioritetləri, praktik həyatın tələbləri və dünya sivilizasiyasının inkişaf tendensiyalarına uyğun şəxsi təhsil üçün geniş imkanlar yaradaraq, bütün, eyni zamanda iqtisadi problemlərin, həllinin universal metodu olan, yüksək mədəniyyətin formalaşdırılması üçün ilkin şərait yaradır.

Bu nəticələr dünya mədəniyyəti tarixi ilə təsdiqlənərək, göstərir ki, sivil ölkələrdə iqtisadiyyat - son məqsəd olan, insan həyatının yaxşılaşdırılması vasitəsidir. Sivil və inkişafda olan ölkələrin inkişaf dinamikasının müqayisəli təhlili göstərdi ki, iqtisadiyyatın inkişafı həyat səviyyəsi artımının zəruri, lakin kifayət qədər tam şərti deyil. Alimlər dərk etmişlər ki, ölkənin ümumi milli məhsulunun inkişafı ilə insanların həyatının yaxşılaşdırılması arasında birbaşa əlaqə yoxdur. İstehsalın və dövlətin maliyyə gəlirinin artımı avtomatik olaraq həyat şəraitinin artımına aparmır, o, ruhi mədəniyyətdən - siyasi sistem, mənəvi dəyərlər və ictimai mənəviyyat, ekoloji situasiya, səhiyyə təminatı və digər faktorlardan asılıdır. Buna görə də, inkişaf etməkdə olan ölkələrin mühüm sosial problemi elə bir inkişaf səviyyəsinə çatmaqdır ki, orada ölkənin ümumi milli məhsulunun inkişafı həyat səviyyəsinin, cəmiyyətdə vətəndaş birliyinə yardım edən, insanların həyat standartlarının inkişafına bərabər olsun. Həyat keyfiyyətinin yaxşılaşdırılması üzrə məsələnin həlli təhsilin , mənəvi tərbiyənin inkişafı, şəxsiyyətin iqtisadi və siyasi azadlıqlarının təsdiqi, sağlamlığın mühafizəsininvətəndaşların hüquqi və ekoloji təhlükəsizliyinin təmin olunması əsasında həyata keçirilir. Bu siyasətin həyata keçirilməsində əsas şərt, ölkənin dövlətinin onun vətəndaşlarının intellektual və mənəvi zənginliyi olmasının dərk edilməsidir.

İctimai inkişafın keçid dövründə ideoloji, siyasi və iqtisadi dəyişikliklər, insani dəyər və normaların dəyişildiyi zaman ruhi mədəniyyətin əhəmiyyəti xüsusilə artır. Azərbaycanda bu bu qeyri-stabillik köhnə sovet mədəniyyət sisteminin mövcudluğu, sosialist iqtisadiyyatının bazar münasibətlərinə keçidə hazırlaşmadan dağılması, eləcə də Ermənistanın hərbi təcavüzünün nəticələri, qaçqın və məcburi köçgünlərin olması ilə çətinləşir. Keçid dövrünün iqtisadi

çətinlikləri təhsil, eım, incəsənət və mənəvi mədəniyyətin digər, insan və sosial inkişafı üçün əhəmiyyət daşıyan, sahələrinın maddi bazasına mənfi təsir göstərir. Azərbaycan mədəniyyətinin müasir vəziyyətinin təhlili üçün təhsil və elm sahələrinə müraciət edək.

*Təhsil* mədəniyyətin inkişafı üçün strateji əhəmiyyət daşıyır. Ruhi istehsal və sosial-mədəni institut olan təhsil şəxsiyyət formalaşdırılması və inkişafında varislik, xalqın və bütün bəşəriyyətin tarixi təcrübəsinin təzələnməsi sosial-mədəni tərəqqinin templərinin sürətlənməsinə təsir göstərir. Təhsil sosial-mədəni inkişafın qurucu faktor rolunu yerinə yetirərək, yeni nəsillərin şüurlu ictimai həyatı və əmək fəaliyyətinə hazırlanmasının başlıca forması kimi xidmət göstərir. O, elmi biliklərə istinad edərək, ruhi və maddi mədəniyyətə, mədəniyyətin yaradıcısı və daşıyıcısı, ictimai tərəqqinin əsas yaradıcı qüvvəsi və məqsədi olan insanın hərtərəfli inkişafına inqilabi təsir göstərir.

Azərbaycan Respublikasının Konstitusiyasına və beynəlxalq hüquq normalarına uyğun olaraq, respublikanın təhsil sistemində, açıq cəmiyyət və qeyri planlı əmək bazarının yaradılması ilə şərtlənən, yeni sosial tələbatların təmin edilməsinə istiqamətlənmiş demokratik dəyişikliklər həyata keçirilir. Bu islahatlar dünya bazarında Azərbaycanın rəqabət qabiliyyətini artırmalı, respublikada insan inkişafı perspektivlərini və sosial-mədəni tərəqqini yaxşılaşdırmalıdır. 1992-ci ilin dekabrında qəbul edilmiş təhsil qanununa görə, respublikanın təhsil sisteminə məktəbəqədər tərbiyə, ümumi, xüsusi peşə və ali xüsusi təhsil, diplomdansonrakı hazırlıq, magistratura, doktorantura və kadrların ixtisasartırma və yenidənhazırlanma sistemləri daxildir.

İbtidai təhsilin icbariliyi, əməkqabilli əjalinin savadlılığı, ali məktəblərdə təhsil alan oğlan və qızların bərabər təmsil olunması, yüksək və müxtəlif ixtisaslı mütəxəssis və alimlərin hazırlığındakı uğurlar milli təhsilin tarixi nailiyyətlərinə aiddir. Respublikada 126 min uşaq 1918 məktəbəqədər müəssisədə tərbiyə alır və ya hər səkkiz uşaqdan biri 1-6 yaşındadır. 4474 gündüz ümumtəhsil məktəbində 175 milyon şagird təhsil alır. Son zamanlar yeni tipli təhsil müəssisələri yaradılmışdır, o cümlədən, yexniki-humanitar, təbiət-humanitar və musiqi təmayüllü 2 lisey, 9 gimnaziya

yaradılmışdır. Əqli və fiziki inkişafı məhdud olan uşaqlar üçün internat məktəbləri də məktəb sisteminə daxildir. 20 belə məktəb-internatda 4 mindən artıq və ya hər bir beşinci uşaq müxrəlif növ əqli və fiziki cəhətdən qüsuru olan şagird təhsil alır. Bundan başqa, evdə fərdi şəkildə xüsusi proqram üzrə 600 uşaq təlimləndirilir. 685 məktəbdə 80 min qaçqın uşaq təhsil alır. Peşə təhsili sistemində, 25 min şagird şagirdi olan, 119 peşə-texniki məktəb fəaliyyət göstərir. Respublikanın ali təhsil sistemində kadr hazırlığı ilə 23 dövlət ali təhsil müəssisəsi məşğul olur ki, burada da 82 min tələbə təhsil alır. Demokratik dəyişikliklər, büyövlükdə, əhalinin təhsil səviyyəsinin ekstensiv inkişafına pozitiv təsir göstərən alternativ özəl təhsil müəssisələrinin yaranmasını təmin etdi. Bu gün respublikada 13 orta-ixtisas və 23 ali qeyri-dövlət təhsil müəssisələri fəaliyyət göstərir.

Bununla yanaşı, respublika təhsili ciddi çətinliklər qarşısındadır. Bir tərəfdən, bilik səviyyəsi zəifləyir, kapital qoyuluşu azalır, kitabxana və təchizat köhnəlir. İslahatlar təxirə salındıqca, təhsilin əsas fondlarının müasir vəziyyətə salınması daha çox resurs tələb edəcəkdir. Digər tərəfdən, insan kapitalı miqrasiyası baş verir. Nadir ixtisaslı müəllimlər təhsil sistemini tərk edir. Onların əvəz edilməsi üçün çəkilən xərclər, onların burada saxlanması üçün gərək olan xərclərdən daha artıqdır. Ali məktəblərin buraxdığı mütəxəssis nomenklaturasının müvəqqəti əmək bazarı tələblərinə uyğun olmadığı üçün, ali təhsil sistemində dar texniki ixtisaslaşmadan inkişaf etməkdə olan bazar iqtisadiyyatının müasir tələblərinə və daha mütəhərrik işçi qüvvəsi hazırlığına yönəlməsi işi davam etdirilməlidir. Ölkənin bazar ioqtisadiyyatına keçməsi ilə əlaqədar qarşılaşdırığı ümumi çətinliklər təhsilin vəziyyətinə mənfi təsir göstərir. Bu, hər şeydən əvvəl yüksək templi böhran, 1990-1995-ci illərdə daxili ümumi məhsulun kəskin azalması və mərkəzləşmiş iqtisadiyyata istiqamətlənən köhnə tədris proqramlarının gərəksizliyidir. Bu səbəbdən, dövlət ali təhsil sistemi, özəl ali təhsil müəssisələrində artıq hazırlığı təşkil olunmuş, yeni ixtisaslara olan ehtiyaca zəif münasibət göstərir. Dövlət ali təhsil müəssisələrində, xüsusilə texnika, kənd təsərrüfatı, nəqliyyat üzrə, ümumi tələbələrin azalması səbəblərindən biri də bununla izah olunur. Təhsil sahəsinin maliyyələşməsindəki azalma, çatışmamazlıq və qeyri-stabillik ali

təhsil müəssisələrinin öz strukturunu dəyişməsinə imkan vermir. Ali təhsil sistemi sahə nazirlikləri arasında bölünmüş olaraq qalır. Birqayda olaraq, öz həyat əhəmiyyətini itirmiş proqramlardan istifadə davam edir. Əgər 1991-ci ildə Azərbaycanda təhsil ehtiyaclarına ümumi daxili məhsulun 5,7%-i istiqamətlənirdisə, 1994-cü və 1995-ci ildə bu xərclər 2,7%-ə enmiş, 1996-cı ildə isə 2,8%-ə qalxmışdır. Müqayisə üçün qeyd edək ki, ABŞ-da ümumi daxili məhsulundan təhsil sisteminin dövlət maliyyələşməsinə ayrılan vəsait 5,5%, Böyük Britaniyada 5,4% və Fransada 5,4% olmuşdur. Bundan başqa, keçid dövrü ərzində ümumi daxili məhsulun ölçüsü düşmüş, hər bir şagirdə ayrılan təhsil xərclərinin azalması baş vermişdir. Eyni zamanda, xwsusi xərclərin azalması təlimin maya dəyərinin artmasına səbəb olmuşdur. Təhsil sistemində maya dəyərin artmasının mühüm faktoru xidmət və enerji daşıyıcılarının dəyərinin artmasıdır. Ayrılan vəsaitin azalması və qiymətlərin artmasına təhsil sisteminin dözümlülüyünün əsas səbəbi, həmin vəsaitlərin müəllimlərin əmək haqqına, təqaüd, qida və kommunal xərclərinin ödənməsinə sərf edilməsidir.

Özəl təhsil sektorunda da müəyyən çatışmamazlıqlar mövcuddur. Bir çox özəl ali təıhsil müəssisələrinin effektivliyinə təlim bazasının kifayət qədər olmaması, onların yüksək beynəlxalq təhsil standartlarına cavab verən ixtisaslı müəllim və proqramlarla təmin olunmaması, onların fəaliyyətinin zəif koordinasiyasıdır. Bu sektorun ümumi çatışmamazlığı əhalinin çox hissəsində özəl təhsil üçün maddi imkanların məhdudluğudur.

*Elm* istehsalı təmin edən, insan təbiət və cəmiyyət haqqında builiklərin toplanması və praktik iastifadəsi haqqında ruhi fəaliyyətin xüsusi növü və sosial-mədəni institutudur. Konkret tarixi şəraitdə formalaşıb, fəaliyyət göstərən biliklər sistemi olaraq, elm insan inkişafında, onun həyat fəaliyyətinin effektivliyinin artırılmasında aparıcı rol oynayır. Bununla yanaşı, elm ictimai şüur forması olaraq, insan həyatının fəlsəfi-dünyagörüşünün obyektiv və həqiqi əks olunmasına yardım edir.

Elmin strukturu fundamental və tətbiqi tədqiqatları əhatə etməklə, dialektik əlaqəyə və öz arasında nisbi bölgüyə malikdir. Fundamental tədqiqatlar hadisələrin mahiyyətinin aşkar edilməsinə və obyektiv həqiqətlərin qanunauyğunluqlarının istiqamətlənmişdir –

materiyanın quruluşu və ya cəmiyyətin təşəkkül və inkişaf qanunlarının müəyyənləşdirilməsinə, tətbiqi tədqiqatlar isə - mənimsənilmiş biliklərdən praktik səmərənin əldə edilmə imkanlarının öyrənilməsi, məsələn texnologiyalar formasında, təbii və sosiaql proseslərin inkişafının elmi qabaqlanması, xəstəliklərdən müalicə vasitələrinin əldə edilməsi.

Müasir elm ictimai inkişafın yaradıcı qüvvəsidir. Bu nəinki təbii və texniki, eləcə də humanitar və ictimai elmlərə aiddir. İctimai və humanitar elmlər sahəsində fundamental tədqiqatlar, hər şeydən əvvəl, insanın təkmilləşdirirlməsi, keyfiyyətli dəyişikliklər, effektli inkişaf və cəmiyyətin idarəedilməsi ilə bağlı praktik məsələlərin həlli üçün prinsipial əhəmiyyəti olan problemlərin təhlilinə istiqamətlənmişdir.

Azərbaycanın gələcək inkişaf imkanları respublika elmi potensialının sayı, keyfiyyət tərkibi və effektiv istifadəsi ilə müəyyən edilir. Respublikanın elmi potensialı Elmlər Akademiyasının elmi müəssisələri, sahə nazirlikləri və ali təhsil müəssisələrinin elmi sektoru ilə təmsil olunur. Hal-hazırda respublikanın ali təhsil müəssisələri və 140 elmi təşkilatında elmi-texniki işlərlə məşğul olan ali tıhsilli mütəxəssislərin sayı 21 min nəfərdən artıqdır. Elmi potensialın 47,5%-i ali təhsil müəssisələrində cəmləşmiş, onlardan 55,3% elmlər doktoru və elmlər namizədidir.Respublikanın almi işçiləri arasında 10 minə yaxını elmlər namizədi və doktorlardır ki, bu da elmi potensialın əsas aparıcı qüvvəsini təşkil edir.

Lakin insan inkişafının mühüm şərti olan elmi potensiala *keçid dövrünün çətinlikləri* mənfi təsir göstərir. Elmin qocalması, onun maddi-texniki bazasının dağılması, kadrların hazırlıq səviyyəsinin keyfiyyəti aşağı düşməsi, alimlərin istifadəsizliyi nəticəsində istedadlı adamların elmə real axınının azalması baş verir. Azərbaycan Elmlər Akademiyasında akademik və mükbir üzvlərin sayı əhəmiyyətli dərəcədə azalmışdır. Bazar iqtisadiyyatı şəraitində elmi-texniki fəaliyyətin formalaşdırılması mexanizmi bütövlükdə elmi fəaliyyətin zəifləməsinə, dövlət elmi-texniki siyasətinin aparıcı mövqeyinin itirilməsinə gətirib çıxarır. İntellektual potensialı, hər şeydən əvvəl Azərbaycanın başlıca milli sərvəti olan alim və mütəxəssislərin qorunması və yenidən istehsalı probleminin təhlili göstərir ki,

ölkənin bu strateji vəziyyəti bu gün "genlərin itkisi" kimi səciyyələnir. Hal-hazırda maddi resursların kifayət qədər olmaması və əmək haqqının aşağı olması səbəbindən Azərbaycanın mühüm elmi potensialı azalır. Elmə sərf olunan məsrəflər faizlə milli gəlirə nisbətən 1996-cı ildə 1990-cı ilə nisbətən iki yarım dəfə azalmışdır. Həmin dövrdə elmi-tədqiqat, layihə-konstruktor və texnoloji işləri yerinə yetirən mütəxəssislərin sayı 14,4% düşmüşdür.

Müasir azərbaycan elminin vəziyyəti elmi işçilərin sosial statusunun yenidənqurmadan əvvəlki dövrə nisbətən kəskin azalması ilə səciyyələnir. Bunu demək kifayətdir ki, respublikada elmi əməyin ödənilməsi ictimai istehsalın digər sahələrinin ödənilməsinə nisbətən əhəmiiyyətli dərəcədə aşağıdır. "Elm və elmi xidmət" sahəsində məşğul olan işçilərin 1995-ci ildə orta aylıq əmək haqqı tikinti sahəsinə nisbətən 31% , sənaye sahəsinə nibətən 32,4 % az olmuşdur. Eyni zamanda ABŞ-da elmi işçilərin əmək haqqı amerika fəhlələrinkindən iki dəfə çox, hətta elmi dərəcəsi olmayan işçilərin ilk maaşı sənaye sahəsində çalışanların aylıq əmək haqqından 40-50% artıqdır. 90-cı illərin əvvəllərindən elmin büdcədən maliyyələşməsi azalmış, bununla əlaqədar ümumi daxili məhsulda elmi tədqiqatların xüsusi çəkisi azalaraq, 1995-ci ildə, 1990-cı ildəki 1,015 nisbətən,0,315 olmuşdur. Müqayisə üçün qeyd etmək lazımdır ki, ümumi daxili məhsula münasibətdə elmi və layihə işlərinin maliyyələşmə səviyyəsi - ABŞ, Yaponiya və Almaniyada təqribən 3%, Böyük Britaniya və Fransada 2% təşkil edir.

Elmi əməyin nüfuzunun düşməsi, elmi işçilərin əmək haqqının azlığı, bu sahənin maliyyələşməsindəki çətinliklər elmi müəssisələrin ləğv edilməsinə, elmi kadrların daha yüksək maaşlı sahələrə getmələrinə səbəb olur. Qərb ölkələrində elmin texniki avadanlığının artdığı bir zamanda, bizdə məvacibin azlığı səbəbindən, elmi-yardımçı heyət azalır. Bu, köməkçi elmi tədqiqat və texniki-konstruktor işlərinin yüksək ixtisaslı elmi kadrlar tərəfindən məcburən yerinə yetirilməsinə gətirib çıxarır ki, son nəticəsə bu da elmin effektivliyinə mənfi təsir göstərir.

Elm sahəsində islahatların gecikməsi bizə baha başa gəlir. Respublikanın yüksək intellektual potensialının maddi təminatının yolverilməz dərəcədə aşağı səviyyəsi, texniki və kompüter bazasının,

beynəlxalq kommunikasiya imkanlarının zəifliyi və azad yaradıcı iş şəraiti yaradılmasındakı digər çatışmamazlıqlar özünü alim və mütəxəssislərin əməyinin məhsuldarlığında göstərərək, milli, regional və qlobal problemlərin həllində onların imkanlarını məhdudlaşdırır. Elmdəki böhran vəziyyəti mütəxəssislərin digər fəaliyyət sahələrinə üz tutmalarına müvəqqəti və ya daimi olaraq müxtəlif ölkələrə miqrasiyasına səbəb olur.

Müasir azərbaycan cəmiyyətində ruhi mədəniyyətin inkişafına mənfi təsir göstərən amillərdən biri də yeni ictimai sistemlə mədəniyyətin köhnə sosial tipi arasındakı ziddiyyətlər, sosialist mədəniyyət tipindən demokratik mədəniyyət tipinə keçiddəki geriləmələrdir. Azərbaycanın dövlət və ictimai həyatına yüksək mədəniyyət standartları və demokratik ölkə fəaliyyətinin hərtərəfli tətbiq olunması üçün siyasi, sosial-psixoloji və təşkilati-hüquqi şəraitin yaradılması prosesi bütün səviyyələrdə, bütün sinif, etnik, dini, peşə, siyasi, ümumiyyətlə, azərbaycan cəmiyyətinin bütün sosiumlarını əhatə etməlidir. Bu strateji vəzifənin həyata keçirilməsi Azərbaycanın milli-mədəni quruculuğunda sivil xalqların mədəni inkişafının dünya təcrübəsindən məhsuldar istifadəni təmin edən, mədəniyyətin təşkil və idarə edilməsində dərin struktur islahatların həyata keçirilməsini tələb edir.

Ölkədə yeni demokratik mədəniyyətin yaradılması milli mədəniyyətdə ənənə və novasiyalar arasında elə bir harmoniyanın əldə edilməsini tələb edir ki, o, azərbaycan xalqının sosial-mədəni kodunda tərəqqipərvər dəyişiklikləri təmin etsin. Azərbaycanın ruhi mədəniyyətinin özünəməxsusluğu, hər şeydən əvvəl, dil, mentalitet və din üzərində bərqərar olmuşdur. Mədəniyyətin yeniləşməsi üçün bu üç faktordan ən ənəmiyyətlisi xalqın mentaliteti dir. Buna görə də, keçmiş nailiyyətlərin fetişləşdirilməsindən imtina edilib, qüvvələrin müasir inkişaf və işıqlı gələcək quruculuğunda birləşdirilməsinə istiqamətlənən yeni mentalitetin formalaşdırılması təxirəsalınmaz milli vəzifəyə çevrilir. Qüvvələrin müşahidədən - yaradıcılığa, mədəni hadisələrin qiymətləndirilməsindən - ətraf aləmin dərk edilib dəyişdirilməsinə , insanın özünün dəyişdirilməsi və həyatının yaxşılaşdırılmasına istiqamətləndirmək zəruridir. Bu problemi sistemli yanaşma əsasında, mədəniyyət sahəsində yeni dövlət siyasəti

daxilində kompleks həll etmək vacibdir. Yeni siyasətin əsasını, ilk növbədə elm, təhsil, yüksək texnologiyalar, sosial-məişət və ekoloji mədəniyyət sahəsində xalqın ənənəvi milli dəyərləri və mədəni irsi ilə mədəni yeniliklərin inteqrasiyasına yardım edən yeni milli ideologiya təşkil etməlidir.

Cəmiyyətdə yeni yeni demokratik mədəniyyətin inkişafı üçün elm və təhsil institutları ilə kifayətlənməyərək, *maarifin başqa imkan və formalarından* lektoriya, seminar, diskussiya, dəyirmi masa, oxucu konfransları bədii ədəbiyyatın imkanları, təsviri sənət, musiqi, teatr və kinemotoqrafiya incəsənətindən , kütləvi informasiya vasitələri və mətbuatdan geniş istifadə etmək zəruridir. Hökumətin vətəndaş təşəbbüslərinə, Azərbaycanda demokratik mədəniyyət formalaşdırılması üzrə respublika ziyalılarına və qeyri-hökumət təşkilatları layihələrinə real yardımı dövlətin yeni mədəni siyasətinin ayrılmaz hissəsi olmalıdır. Yüksək mədəni standartların əldə edilməsini təmin edən cəmiyyətin ruhi mədəniyyətinin prioritet inkişafı mühüm strateji məqsəd, Azərbaycanın milli təhlükəsizliyinin əsası kimi öz təsdiqini tapmalıdır.

İnsani və ictimai tərəqqidə, dövlət quruculuğu və idarəetmədə kulturologiyanın artan əhəmiyyəti *kulturoloji elm və təhsilin hərtərəfli inkişafı üçün şərait yaradılmasını* zərurət səviyyəsinə qaldırır. Respublikanın mədəni sisteminin bütün səviyyələrində kulturoloji təhsil və maarifin, yüksək ixtisaslı kulturoloq mütəxəssislərin hazırlığını, kulturoloji tədqiqatların inkişafının hərtərəfli sisteminin tyəcili tətbiqini tələb edir. Bu, məktəbəqədər tərbiyə, ümumi təhsil, xüsusi peşə təhsili, postdiplom hazırlığı, magistratura, doktorantura, kadrların ixtisasartırma və yenidən hazırlanma şəbəkəsi üçün uyğun tədris proqramı hazırlığı və reallaşmasını, eləcə də respublikada kulturoloji kafedraların, gimnaziya, lisey, tədqiqat mərkəzləri və universitetlərin açılmasını nəzərdə tutur. Xalqın kulturoloji maariflənməsinin yeni sisteminin təşkili də mühüm əhəmiyyət daşıyan məsələdir. Dünya mədəniyyəti inkişafı qanunauyğunluqlarının yaradıcı istifadəsi və elmi idrak siyasi səhvlərin buraxılmamasına, mədəni tərəqqinin inqilabiləşdirilməsinə və dövlətin ictimai inkişafında yüksək

templərin və dərin keyfiyyətli dəyişiklikləri təmin edən yüksək effektli texnologiyaların yaradılmasına imkan verəcəkdir.

Azərbaycan mədəniyyətinin dünya sivilizasiyası kontekstində aparılmış kulturoloji təhlili, BMT və YUNESKO fəaliyyətinin tarixi təcrübəsi göstərir ki, dövlət səviyyəsində *Azərbaycanda mədəni inkişafın Milli Onilliyinin* keçirilməsi həyati zərurətdir. Bu, yeni, müstəqil Azərbaycanda mədəni quruculuğun inqilabi mərhələsinin keyfiyyətcə yeni təşkilati-hüquqi əsasını qoyaraq, üçüncü minilliyin astanasında Azərbaycanın sosial-mədəni inkişafı templərinin sürətlənməsi naminə alim, müəllim, mütəxəssis, incəsənət xadimləri və respublikanın elitar ziyalılarının qüvvəsini səfərbər etmək üçün lazımi sosial şərait yaradacaqdir. Bundan çıxış edərək, "Simurq" Azərbaycan mədəniyyət assosiasiyası 1998-ci ilin may və oktyabr aylarında Azərbaycan Respublikasının Prezidenti cənab H.Ə.Əliyevə müraciət ünvanlamışdır.

Azərbaycan cəmiyyətinin yeni texnoloji inkişafına istiqamətlənən insan inkişafının prioritetlərini təmin edən tərəqqipərvər mədəni islahatların həyata keçirilməsi xalqın sosial-mədəni tərəqqisini, XXI əsrin astanasında ölkənin sivil dünya birliyinə inteqrasiyasının yüksək templərini təmin edəcəkdir.

> *"Vozrojdeniye – XXI vek" ("Dirçəliş – XXI əsr"), 1999, N 11, s 66-72, N12, s.77-84*

## MƏDƏNİ SİYASƏT MƏSƏLƏSİNƏ DAİR

(Mədəni siyasət sahəsində tədqiqatlar üzrə I Beynəlxalq konfransdakı məruzənin mətni.

Bergen,10-12 noyabr 1999-cu il)

Üçüncü minilliyin astanasında, çoxminillik təkamül nəticəsində, ruhi mədəniyyət planetin sosial inkişafının sosial təməlinə və kompleks qüvvəsinə çevrilmişdir. Bu günki sivilizasiya bu qüvvəyə istinad edərək, sənaye cəmiyyətindən informasiyası cəmiyyətə keçir. Texnogen sivilizasiyanı, həm insanlararası, həm də təbiətə yeni münasibətlərə əsaslanan müasir ekoloji mədəniyyət əvəz edir. Bu

dəyişikliklərdə mərkəzi yeri, insanın inkişafın vasitəsindən məqsədinə çevrilməsi ilə şərtlənən, "insan inqilabı" tutur.

Müasir sivilizasiyanın səciyyəvi cəhətlərindən biri, bəşəri dəyərlər-uğurlu fəaliyyət forma və nümunələri, dünyanı dərketmə üsulları, bəşəriyyətin uzun əsrlər boyu yaratdığı intellektual və maddi dəyərləri üzərində bərqərar olan, dünya mədəniyyətinin qloballaşması prosesidir. Lakin bəşər mədənioyyətinin inkişafı müxtəlif xalqların mədəniyyətinin eyniləşdirilməsi yox, region və milli mədəniyyətlərin qarşılıqlı təsiri və qarşılıqlı asılılığıdır. Hər bir mədəniyyətin öz dəyəri, spesifik xüsusiyyətləri və unikal nailiyyətləri vardır. Bununla yanaşı, dialektik qanunlara uyğun olaraq, hər bir milli mədəniyyətdə antinomiklik, yəni, tərəqqinin əsasını təşkil edən ziddiyyətli inkişaf, xüsusiyyətləri vardır. Hər bir milli mədəniyyətdə eqoizm, altruizm, elitarlıq, adilik, fərdilik, kollektivizm, bilik və cahillik mövcuddur. Məsələ ondan ibarətdir ki, mədəniyyətdə avtarkiya və avtoritarizmdən, mədəni inkişafın mühüm vasitəsi olan, qarşılıqlı təsir və qarşılıqlı fəaliyyətə doğru hərəkət müşahidə edilsin. Tərəqqipərvər milli mədəniyyətlər xüsusi yolla dünya inkişaf formalarını yaradıcılıqla mənimsəyib, bəşər mədəniyyətinin yaradılması prosesinə öz şəxsi töhfələrini verirlər. Bu zaman istər regional, istərsə də qlobal miqyasda mədəni dəyərlərin ötürülməsi baş verir ki, bu da son nəticədə dünya mədəniyyətinin qloballaşmasına gətirib çıxarır. Onun səciyyəvi cəhətləri insan hüquqlarının müdafiəsinə, humanizmə, şəxsiyyətin yaradıcı inkişafına, elmi biliklərin və qabaqcıl texnologiyaların təbliğinə, milli mədəniyyətlərin qarşılıqlı zənginləşməsinə, insanın və təbiətin ekologiyasına, insanlar arasında ziddiyyətli təsəvvürlərdən imtina edilməsinə istiqamətlənməkdir. Urbanizasiya, planetdəki milyonlarla adamın həyat fəaliyyəti və vasitələrinin, formalarının, mədəni dəyərlərinin, dünyagörüşünün əsaslı şəkildə dəyişməsi ilə bağlı olan qlobal sosial-mədəni inqilab insan inkişafı üçün yeni imkanlar açır.

Bununla belə, müasir dünya mədəniyyətinin inkişaf dialektikası müharibələrin yaratdığı böhran hadisələri, təbii resursların nəzarətsiz istifadəsi və mədəni inkişafın qeyri-bərabərliyi ilə də səciyyələnir. Bəşəriyyət kütləvi qırğın silahlarının istifadə olunduğu müharibələrin qarşısının alınması, insan fəaliyyətinin dəhşətli nəticələrindən

yaranan ekoloji böhran, aclıq, yoxsulluq və savadsızlığın, yoxsul və dövlətli ölkələr arasındakı fərqlərin aradan qaldırılması, yeni xammal mənbələrinin tapılması, iqtisadiyyatın gələcək inkişafının təmin edilməsi, elmi-texniki inqilabın mənfi nəticələrinin aradan qaldırılması kimi qlobal problemləri həll etmək zərurəti qarşısında durmuşdur. Bu və bu kimi bir çox başqa regional və qlobal problemlərin həll edilməsinin açarı *yüksək ruhi mədəniyyətdir*. Davamlı insan inkişafı, həyat keyfiyyətinin yüksəldilməsi, dövlətlər, millətlər və xalqlar arasında harmonik münasibətlərin yaradılması üçün yeni imkanları yalnız o aça bilər. Buna görə də, cəmiyyətin "yüksək mədəni standartlar"-ının əldə edilməsini təmin edən, ruhi mədəniyyətin prioritet inkişafı mühüm strateji məqsəd və müasir sivilizasiyanın təhlükəsizlik bazası elan edilməlidir.

Dünya təcrübəsi göstərdi ki, demokratik mədəniyyətli ölkələrdə insan inkişafının yüksək nəticələri əldə edilir. Demokratik mədəniyyətin yüksək tarixi missiyası və ictimai dəyəri demokratik inkişaf yoluna qədəm qoymuş postsovet ölkələrinin gündəliyinə demokratiyanın aşağıdakı vəzifəsini qoyur : insanın yüksək şəxsiyyətə, peşəkarlıq və siyasi mədəniyyətə, mənəvi dəyər və düşüncədə, ənənə və novasiyada, sosial etika və həyat fəaliyyət üsullarında insan eyniliyinin axtarışı və formalaşdırılmasına doğru inkişafını nəzərdə tutan mədəni standartlarının təsdiq edilməsi . Demokratik mədəniyyət standartlarının dövlət və ictimai həyat təcrübəsinə hərtərəfli tətbiq olunması üçün sosial-psixoloji və təşkilati-hüquqi şəraitin yaradılması prosesi bütün sinif, etnik, dini, peşə, siyasi – postsovet məkanı xalqlarının bütün sosiumlarını əhatə etməlidir. Lakin bu proses yeni ictimai sistem və köhnə sosial mədəniyyət tipi arasındakı ziddiyyətlə, sosialist mədəniyyət tipindən demokratik mədəniyyət tipinə keçiddəki yolverilməz geriləmələrlə mürəkkəbləşir. Hal-hazırda mövcud olan köhnə sovet konsepsiyası və ikinci üstqurum hadisəsi kimi təqdim edilən mədəniyyət haqqında səhv təsəvvürlərə əsaslanan, uyğun mədəniyyət strukturu demokratik prinsiplər üzərində qurulan yeni tip cəmiyyətlə ziddiyyətə girərək, MDB ölkələrinin sosial-mədəni inkişafını buxovlayır. Həmin buxovlardan azad olmaq üçün mədəniyyət haqqında öz dövrünü keçirmiş ənənəvi təsəvvürlərdən imtina edib novasiyalı demokratik

mədəniyyətə keçmək lazımdır. Bu strateji məsələnin həlli mədəniyyətin təşkil və idarə edilməsində struktur islahatları təmin edən, postsovet xalqlarının milli-mədəni quruculuğunda dünya mədəni inkişaf təcrübəsinin məhsuldar istifadəsini nəzərdə tutan *yeni mədəni siyasətin* həyata keçirilməsini tələb edir.

Məlum olduğu kimi, demokratik ölkələrdə mədəni siyasət inkişaf və rifah siyasəti kimi nəzərdən keçirilir. Bu siyasət xalqın ümumi mədəni və həyat səviyyəsinin artırılmasına və intellektual potensialın sosial tərəqqi naminə şüurlu istifadəsinə xidmət edir. Deməli, maliyyə kapitalı şüurlu olaraq insan inkişafına, sosial kapitala, yəni adamların ruhi mədəniyyətinə yatırılır. İnsanın ruhi mədəniyyətinin yüksək səviyyəsi, öz növbəsində, bütün cəmiyyətin maddi rifahının yeni inkişafını təmin edən "ruhi istehsalın" effektivliyinə təsir göstərir.

Bundan çıxış edərək, bütün postsovet məkanında sovet tipli mədəniyyətdən demokratik mədəniyyətə keçidi təmin edən, demokratik siyasi sistemin etik-normativ əsası olan, *yeni mədəni siyasətin həyata keçirilməsi* dövlət quruculuğunun mühüm vəzifəsi olur. Demokratiya prinsip və dəyərlərinə əsaslanan mədəniyyətin yeni sosial tipini formalaşdıran belə siyasət insanın, sosial inkişafın, dövlət quruculuğu və beynəlxalq münasibətlərin daxilən dəyişməsinin mühüm probleminin həllini təmin edəcəkdir.

İntellektual inkişaf, azadlıq və etik tərbiyə prioritetlərinə istiqamətlənmiş demokratik mədəni siyasət milli mədəniyyətlərin sosial dinamikasında əsaslı dəyişikliklərə, xalqın yaradıcı potensialının və onun istifadə imkanlarının insan, dövlət və ictimai inkişaf naminə artırılmasına yardım etməyə yönəlmişdir. Dövlətin mədəni siyasəti mühüm inteqrativ səciyyə daşıyır. Dövlət hüquqi, təşkilati və maddi vasitələrdən istifadə etməklə, mədəniyyətin bütün sahələrinin insan və cəmiyyətin maraq və tələblərinə uyğun olan harmonik və əlaqəli inkişafını təmin edir. Bununla yanaşı, demokratik ictimai-siyasi sistemə real keçid "aşağıdan" - ailə və novasiyalı pedaqogika, "yuxarıdan" isə, dövlət institutları səviyyəsində qarşılıqlı hərəkət tələb edir. Buna əsasən, fikrimizcə, postsovet dövlətlərinin yeni mədəni siyasəti öz missiyasını həyata keçirməyin baza mexanizmi kimi, dövlət və cəmiyyətin yaradıcı potensialının uğurlu inkişafına və istifadəsinə imkan verən, aşağıdakı sxem:

məqsəd- konsepsiya – proqram - proekt üzrə fəaliyyəti nəzərdə tutan proqramlı yanaşmaya istinad etməlidir.

Postsovet ölkələrinin yeni mədəni siyasətində mühüm yeri *yeni ümumsosial mədəni dəyər və normaların formalaşdırılması*, demokratiyaya xas – ideallar, etika, təhsil sistemləri, sosial, istehsal və məişət normativləri, hüquqlar, incəsənətlər, demokratik dövlətin mədəni siyasətinin ideoloji əsasını təşkil edən, mədəniyyətin maddi təcəssümü tutmalıdır. Bu əsasda fəal kulturogenez tərəqqipərvər inkişafın yeni imkanları və dünyaya yeni gözlə baxmağa imkan verən, ənənə və innovasiyaların, mədəni irsin və müasir mədəniyyətin qarşılıqlı təsiri təmin edilməlidir. Bu kontekstdə görkəmli amerika alimi Lütvi Zadənin, dünyaya Aristotelin "ağ-qara" klassik məntiqi prizmasından baxışa inqilabi dəyişiklik gətirən, qeyri-səlis məntiq sahəsindəki elmi kəşfi yeni əhəmiyyət kəsb etməyə başlayır. Fikrimizcə, Lütvi Zadənin "qeyri-səlis məntiq" və onunla əlaqədar olan "çoxluqlar nəzəriyyəsi" və " təəssüratlar nəzəriyyəsi" bəşəriyyətin bir çox qlobal, regional, lokal, fərdi, eyni zamanda öz tarixi inkişafında mürəkkəb dövr yaşayan postsovet ölkələri qarşısında duran problemlərin kulturoloji açarıdır. Bu yanaşma mədəni inkişafın iki: insanın təbiəti dəyişdirməsinə əsaslanan –qərb və insanın təbiətə uyğunlaşmasına istiqamətlənən – şərq üsulu arasında harmoniyanın əldə edilməsində yeni imkanlar açır. O, humanist dəyərləri saxlayaraq, stientizm və antistientizm mövqelərinin harmonizasiyasına, texnogen sivilizasiyaya xas dağıdıcı proseslərdən qorunmuş yeni sivilizasiya yaradılmasına doğru ümumi hərəkatda, özünəməxsus mədəniyyətlərdə plüralizmin tərəqqipərvər texnoloji inkişafına yardım edə bilər. Lütvi Zadənin demokratik prinsiplərə uyğun baza nəzəriyyələrinin sosial-mədəni həyatda yaradıcı istifadəsi müasir sivilizasiyada keyfiyyətcə yeni situasiyanın yaradılmasına, plüralizm və müstəqillik şəraitində insan inkişafı üçün yeni imkanların açılmasına, mürəkkəb dünyaya yeni nəzər formalaşdırılmasına, xalqlar arasında qarşılıqlı anlaşmanın, bəşər mədəniyyəti və onun milli formaları arasında harmoniyanın əldə edilməsinə imkan yaradacaqdır.

Mədəniyyətin müxtəlif sahələrinə yatırılan *investisiyaların düzgün paylanması* sosial-mədəni və iqtisadi tərəqqinin hərəkətverici

qüvvəsidir. Ona intellektual potensialın yaradılması və inkişafının prioritetini təmin edən ciddi faktor kimi, xüsusi diqqət ayrılmalıdır. Burada elm və təhsili xüsusi vurğulamaq lazımdır, çünki, yeni texnologiyaların yaradılması, həyat təminatı sisteminin və insanların həyat tərzinin inkişafı onlardan asılıdır. Elmin əsasında ideologiyanın əsasını təşkil edən, yeni ictimai sistemin ruhi və maddi tələblərinə cavab verən mədəniyyətin yeni ideal və dəyərdən ibarət imperativlərinin, eləcə də estetik, əxlaqi və psixoloji mədəniyyət normalarının vəziyyətinə tənqidi nəzər baş verir.

Məlumdur ki, dövlətin mədəni siyasətinin effektivlik meyarlarından biri cəmiyyətin beş altsisteminə onun təsiri ilə müəyyən olunur: bioloji yaradılma, ruhi istehsal, maddi istehsal, ictimai münasibət, təşkil və idarəetmə. Bununla əlaqədar olaraq, mədəniyyətin idarə edilməsində mədəniyyət orqanizminin qabaqlayıcı inkişaf və bütövlük çərçivəsində onun müxtəlif sosial institutlarının düzgün *koordinasiyası* xüsusi əhəmiyyət kəsb etməyə başlayır.

Yeni demokratik mədəniyyətə keçid prosesində *qeyri-hökumət təşkilatlarına* mühüm əhəmiyyət verilir. Demokratik ölkələrin təcrübəsindən çıxış edərək, qeyri-hökumət təşkilatları beynəlxalq fondların yardımı ilə, xalqın həyati maraqların acavab verən, insanın sosial-mədəni həyatında keyfiyyət dəyişikləri yaradan birgə kulturoloji layihələr hazırlayıb həyata keçirməlidirlər. Mədəni siyasət, eyni zamanda, mədəni imperativ və ölkənin sosial-mədəni inkişaf sürəti, eələcə də istiqamətinin dövlətin məqsədlərinə və xalqın maraqlarına uyğunluğuna sosial nəzarətin zəruriliyini nəzərdə tutur. Bu nəzarət həm dövlət – hüquqi və siyasi, həm də qeyri-hökumət, ictimai institutların köməyi ilə həyata keçirilir. Postsovet ölkələri mədəni siyasətinin mühüm vəzifələrindən biri demokratik mədəniyyətin formalaşdırılması və inkişafıdır. Onun vəzifələrinə aşağıdakılar daxildir:

- Hal-hazırda mövcud olan köhnə sovet mədəniyyəti sisteminin yeni demokratik ictimai-siyasi sistemin tələb və missiyasına uyğunluğunun təhlili.
- Formalaşmaqda olan demokratik mədəniyyətin, onun keyfiyyət və inkişafının mühüm parametrlərini müəyyənləşdirməyə, istehsal

sisteminin uyğunluğunu aşkar etməyə, mədəni dəyərlərin - demokratik cəmiyyət quiruculuğu prosesinin obyektiv tələb etdiyi həcm və keyfiyyət səviyyəsinin- tədarük, istehlak və nəql olunmasına imkan verən funksiomal effektivliyinin təhlili.

Yuxarıda deyilənlərin kontekstində postsovet ölkələri mədəni siyasətinin aşağıdakı vəzifələrini mühüm hesab edirik:

1. Bəşəriyyətin mədəni təcrübəsi kontekstində dünyaya yeni baxış yaradan baxış və qərar, adət və normaları elmi əsasda yenidən nəzərdən keçirmək.
2. İctimai və dövlət həyatının yüksək istehsala malik əmək, humanist sosial nizam, vətəndaş hüququ, ədalətlilik, xeyirxah qanun, ağıl, bilik və etikanın "yüksək ruhi mədəniyyətinin" prioriteti.
3. Təhsil, elm, yüksək texnologiyalar, eləcə də sosial məişət və ekoloji mədəniyyət sahəsində novasiyalı avropa və dünya mədəniyyətindən götürülmüş, mədəni yeniliyə malik xalqların ənənəvi milli dəyər və irsinin inteqrasiyası.
4. Sosial-mədəni və iqtisadi tərəqqini təmin edən başlıca hərəkətverici qüvvə olan intellektual potensialın prioritet inkişafını və yeniləşməsini təmin edən mədəniyyətin müxtəlif sahələrinə investisiyanın bərabər bölünməsi.
5. Cəmiyyətdə sistemli kulturoloji təhsil və tərbiyəyə əsaslanan "humanitar" mədəniyyətin ardıcıl formalaşdırılması.
6. Cəmiyyətin novasiyalı mədəni inkişafının monitorinqi daxil olmaqla, postsosialist cəmiyyətlərin demokratik cəmiyyətə keçmə prosesini və tərəqqipərvər ictimai inkişafın tarixi tələbatlarının düzgün dərk edilməsini təmin edən elmi yardım.
7. Əhalinin bütün təbəqələri üçün sosial-mədəni inkişafda bərabər imkanlar, bilik və kommunikasıyadan geniş istifadə imkanı, dövlətin sosial və iqtisadi sisyasətinin insan üzərində cəmlənməsi.
8. Dövlət və cəmiyyətin sosial-mədəni inkişafında əsas hərəkətverici qüvvə olan ziyalıların hüquqi və sosial müedafiəsi, ictimai statusunun yüksəldilməsi.
9. Bəşəriyyətin stabil və təhlükəsiz inkişafının, sülhün mühüm sahəsi olan demokratiyanın genişləndirilməsi, regional və qlobal sosial-mədəni əməkdaşlığın harmonizasiyası, sülh mədəniyyətinin

təsdiqinə yardım edən beynəlxalq mədəni siyasətin vahid prinsiplərinin yaradılmasına yardım etmək.

Bəşəriyyətin mədəni inkişaf qanunauyğunluqlarının təhlili göstərir ki, burada həlledici rol təbii-coğrafi və genetik faktorlardan daha çox sosial mühit və mədəni mübadiləyə məxsusdur.Buna görə bu gün dünya xalqlarının qarşılıqlı fəaliyyəti, qarşılıqlı zənginləşməsi və mədəni inkişafı üçün əlverişli sosial mühitin formalaşdırılması mühüm əhəmiyyət daşıyır. Ən yaxşı tərəqqipərvər novasiyalı bir xalqın milli-mədəni ənənələrinin digər xalqın mədəni inkişaf təcrübəsindən götürülmüş ənənələrlə sintezi müasir sivilizasiyanın xalq, millət və dövlətlərinin münasibətləri arasında ahəngdarlığın, rifah yüksəlişinin genişlənməsinə yeni imkanlar açır.

Mövcud yeni tarixi və siyasi, eləcə də Avrasiyanın əlverişli təbii-coğrafi şəraitindən istifadə etməklə, MDB ölkələri tərəqqipərvər inkişafın sürət və keyfiyyətini artırmaq məqsədi ilə öz mədəni ənənələrində novasiyalı proseslərə və geniş mədəni mübadiləyə diqqəti artırmalıdır. Bu ölkələrin milli mədəniyyəti öz milli xüsusiyyətlərini qoruyan demokratik mədəniyyətinin regional və epoxal tipini formalaşdıraraq, gələcəyin tərəqqipərvər obrazı üzərində qurulmalı və bəşəriyyətin sosial təcrübəsi və yeni elmi biliklərini nəzərə almaqla təkmilləşməlidir. İctimai və dövlət həyatında mədəni siyasətin demokratik prinsiplərə, azadlıq, humanizm və maariflənmə dəyərlərinin təsdiqinə istiqamətlənmə, bütün daxili resursların səfərbərliyi və sosial yeniləşmə postsovet ölkələrini dünya sivilizasiyası magistralına çıxarmalıdır.

Yeni sosial-mədəni texnologiyaların inkişafına istiqamətlənmiş tərəqqipərvər mədəni islahatların həyata keçidilməsi postsovet ölkələrində ictimai tərəqqinin sürətlə yüksəlməsinə yardım edəcəkdir. MDB ölkələrinin yeni dövlət siyasətində əks olunmuş ruhi mədəniyyət anlayışına və ona yeni münasibətdəki köklü dəyişikliklər təbii resursları insan inkişafı üçün effektiv istifadə edilməsinə, işsizlik və yoxsulluq, səhiyyə və ekoloji müdafiə problemlərini həll etməyə, demokratik ictimai münasibətlərin və gəlirin paylanmasında intizamın təkmilləşməsi, həmin ölkə xalqlarının sivil dünya birliyinə inteqrasiyası və həyat keyfiyyətinin kardinal yaxşılaşdırılmasına nail olmağa imkan yaradacaqdır. Postsovet avrasiya məkanı qarşılıqlı asılı

dünyanın bir hissəsi kimi, dünya sivilizasiyasının mədəni regionlarından biri olaraq, bütün bəşəriyyətin və həmin ölkə xalqlarının həyati maraqlarına cavab verən demokratiyanın sülh, stabillik və inkişaf zonası kimi genişlənməsində öz tarixi rolunu oynamalıdır.

♔ *İnternational conference on cultural policy research. November, 10-12, Bergen, Norway. Volume 1, 351-358.*

## VƏTƏNDAŞ CƏMIYYƏTINDƏ MƏDƏNI SIYASƏTIN FORMALAŞDIRILMASINA ELMI YANAŞMA HAQQINDA

*("Kulturologiya – Mədəni siyasət – İnkişaf" Beynəlxxalq konfransının plenar iclasındakı məruzənin mətni. Moskva, 1-3 iyul 2001-ci il)*

Hörmətli həmkarlar, xanım və cənablar!

İcazə verin SİZİ Azərbaycan "Simurğ" mədəniyyət Assosiasiyası adından salamlayım, konfransın işində uğurlar arzulayım, kulturoloq alimlərin bu mötəbər beynəlxalq forumunun plenar iclasında mənə çıxış etmək imkanı verdiyinə görə, təşkilat komitəsinə öz minnətdarlığımı bildirim.

Mövzuya başlamazdan əvvəl, Sizin diqqətinizi konfransın, Rusiya Kulturoloji İnstitutu tərəfindən formalaşdırılmış, adına cəlb etmək istərdim: "Kulturologiya – Mədəni siyasət – İnkişaf". Fikrimcə, bu uğurla seçilmiş adda kulturologiyanın bəşəriyyətin inkişafı üçün elmi-praktik dəyəri çox dəqiq əks olunmuşdur. Keçən əsrin ikinci yarısında öz inkişafının fəal dövrünə qədəm qoymuş bu fundamental elm dövlət quruculuğu və idarəetməsinin, insanın və ictimai inkişafın elmi-nəzəri əsası kimi daha böyük əhəmiyyət kəsb etməyə başlayır. XX əsrin kulturoloji düşüncəsi və onunla əlaqədar, inkişafın əsas məqsədi olan insana baxış, yeni humanist sivilizasiya yaradılması, bəşəriyyətinn daha uğurlu gələcəyi naminə insan və təbiətin dəyişdirilməsinin universal əsası olan, ruhi mədəniyyət üçün geniş imkanlar açır. Üçüncü minilliyin başlanğıcı ilə bəşəriyyət öz sosial-mədəni inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Ruhi mədəniyyətin artan sosial əhəmiyyəti, təhsil və maarif sisteminin təkmilləşməsi və

informasiya texnologiyalarındakı inqilabla əlaqədar biliklərin sürətli inkişafı bizi yeni mədəni inqilaba – sənaye cəmiyyətindən "bilik cəmiyyətinə" keçidi təmin edən, biliklər inqilabına aparır. Bəşəriyyətin mədəni inkişafının ən mühüm nailiyyəti olan bilik, müasir cəmiyyətin təşkilati prinsipinə çevrilərək, dəyərlər statusunnun dəyişməsinə, bəşəri tərəqqinin genişlənməsinə getdikcə daha çox təsir göstərir.

Bununla yanaşı, davamlı inkişaf və sülhə nail olunma, dövlətli və yoxsul ölkələr arasında fərqin, konfliktlərin, məcburi miqrasiyanın, yoxsulluğun aradan qaldırılması, ekoloji təhlükəsizlik və bəşəriyyətin bir çox başqa qlobal problemlərinin həll edilməsi üçün bir çox işlər görmək tələb olunur. Dünya iqtisadiyyatının xarakterini kardinal olaraq dəyişən və dünya miqyasında disbalans yaradan qloballaşma şəraitində cəmiyyətin, təhsil və tərbiyəyə yeni yanaşmalar əsasında, maariflənidirilməsi və humanistləşdirilməsinə ehtiyac daha çox artmışdır. Bunun üçün, qüvvələrin nisbətinin ümumi harmoniya və sülhün xeyrinə dəyişməsinə, ümumi təhlükəsizlik və maraqların tarazlığına, bütün bnəşəriyyətin və hər bir xalqın gələcəyini pozitiv görmək və dəyərləri yeni humanist idrakın xeyrinə dəyişdirilməsinə nail olmaq vacibdir. Bilik və əxlaq, elm və humanizmin sintezindən ibarət daha yaxşı gələcəyin yolu yüksək mədəniyyətdən keçir. Bəşəriyyət, texnogen sivilizasiyanın dağıdıcı proseslərini aradan qaldıraraq, "çətinliklərdən ulduzlara" doğru hərəkət edir. Belə hərəkət yalnız fəal təhsil və bəşəri dəyərlərə əsaslanan yüksək humanist mədəniyyət, dünyanın intellektual və mənəvi mədəni nailiyyətlərini bəşəriyyətin daha yaxşı gələcəyi uğrunda inkişaf və istifadə edilməsi əsasında mümkündür.

Bu həyati tələblər kulturoloq alimlər qarşısında, davamlı insan inkişafı prosesinin elmi təminatının zəruriliyi ilə bağlı mürəkkəb və məsuliyyətli vəzifələr qoyur. Belə vəzifələrdən biri, postsovet məkanı xalqlarının milli mədəniyyətlərinin nəzərdən keçirilib, tənqidi qiymətləndirilməsi, onların dünya sivilizasiyası kontekstində müqayisəli kulturoloji təhlilinin aparılmasıdır. Bu məsələnin həlli milli mədəniyyətlərin nailiyyətləri, uğursuzluqları və böhran hadisələrini aşkar edib, obyektiv qiymətləndirməyə, onların dünya mədəniyyəti inkişafının tələbləri və tendensiyalarına uyğun gələcək

təkmilləşdirilməsi və modernləşdirilməsinin imkan, yol və metodlarının müəyyənləşdirilməsinə imkan verir.

Dövlət quruculuğu və insan inkişafının potensial imkanlarının reallaşdırılması təşkilati, maliyyə və dünyagörüş səciyyəli obyektiv və subyektiv çətinliklərlə bağlıdır. Postsovet məkanı ölkələri ideoloji yenidənqurma, mədəni yeniləşmələr, təhsil, elm, səhiyyə, ekoloji struktur şəbəkələrinin optimallaşdırılması, dövlətlərin rəqabətəqabil texnolojiyaların təminatı, xalqın həyattəminedici sistemlərinin effektivliyinin artırılması ilə bağlı bir sıra mürəkkəb məsələləri həll etmək məcburiyyətindədirlər. Struktur, regional, social və şəxsi baxımdan mədəni inkişafın qeyri-bərabərliyini də çətinliklərə aid etmək olar. Bu özünü, bütöv system olan mədəniyyətin müxtəlif sahələrinin və ayrı-ayrı regionların mədəni inkişafının qeyri-bərabərliyində, əhalinin elitar və kütləvi mədəniyyəti inkişafının əhəmiyyətli dərəcədə daxili disproporsiyalarında, inkişafın mənbəyi olan mədəniyyət nailiyyətlərinin istifadəsində gender bərabərhüququnun olmamasında göstərir. Bununla bağlı olaraq, mədəniyyətin social institutlarının prioritet inkişafının seçilməsi məsələsi aktuallaşır. Sadalanan məsələlərin uğurlu həlli, zamanın obyektiv tələblərinə cavab verən mədəniyyət və mədəni siyasət sahəsində novasiyalı islahatlar proqramının hazırlanıb həyata keçirilməsini israrla tələb edir. Belə proqramların hazırlanması üçün ruhi mədəniyyətin yüksək missiyasına və onun insan, ictimai və dövlət inkişafındakı novasiyalı dəyişdirici roluna yeni nəzərlə baxmağa imkan verən problemlərin kulturoloji təhlilinin aparılması vacibdir.

Ruhi mədəniyyətin insan inkişafındakı artan social əhəmiyyəti ilə əlaqədar olaraq, "Simürğ" Azərbaycan mədəniyyət assosiasiyası Sorosun Budapeşt Fondunun yardımı ilə 2001-ci ildə, ilk dəfə olaraq, "Azərbaycanda mədəni siyasətin formalaşdırılmasına yardım" layihəsini reallaşdırmışdır. Ona uyğun olaraq, iyun ayının 27-29-da Bakıda respublikada mədəni siyasət üzrə Beynəlxalq konfrans təşkil edilmişdi. Onun işində Azərbaycan, Rusiya Federasiyası, ABŞ, Norveç, Fransa, Yaponiyadan tanınmış alim, mütəxəssis və diplomatları, eləcə də respublikanın mədəniyyət və gənclər nazirlikləri, Milli Elmlər Akademiyası, Parlament, qeyri-hökumət

təşkilatları, MEDİA, yaradıcı ittifaqlar, həmkarlar ittifaqı və beynəlxalq fondların nümayəndələri iştirak etmişlər. Kulturoloji metodologiyaya və Assosiasiyanın çoxillik kulturoloji tədqiqatlarına istinadən, biz, mədəniyyət və mədəni siyasət üzrə Azərbaycan əhalisi arasında xüsusi sosioloji sorğu keçirmiş, həmçinin 20 seminar-treninq və ekspert focus-qrupları keçirilmişdir. Bu işlərin nəticələri, konfransda müzakirə edilmiş və bizə bir sıra demokratik ölkələrin mədəni siyasət sahəsindəki təcrübəsini öyrənməyə, eləcə də, ölkədə yeni mədəni siyasətin formalaşdırılması üzrə praktik tövsiyələrin hazırlanmasına imkan vermişdir.

İcazə verin sizi, "Simürğ"AKA –nın sosial fenomen olan mədəniyyətə baxışını və ictimai-siyasi sistemin transformasiyası şəraitində insan, döbvlət və cəmiyyətin sosial-mədəni inkişafına praktik yardımın yol və vəzifələri ilə tanış edim. Bu gün mədəniyyət anlamına və mədəni siyasətin prinsip, problem və prioritetlərinə aydınlıq gətirmək, həyatın diktəsi ilə yaranan, kulturoloji ijkişafın zəruri şərtidir. Kollektiv şüur bizə qloballaşma və sənaye cəmiiyyətindən "bilik cəmiyyətinə" keçidlə əlaqədar yeni tarixi şəraitdə insan inkişafının hərəkətverici qüvvəsi və universal əsası olan ruhi mədəniyyətin yeni imkanlarını daha yaxşı anlamağa, ölkə və xalqlarımızın inkişaf edən tələbat və maraqlarına cavab verən əlaqələndirilmiş fəaliyyət proqramının tərtibinə yardım edəcəkdir.

"Simürğ" AKA-nın hazırladığı məruzənin və Azərbaycanda yeni mədəni siyasətin formalaşdırılması üzrə yaradılmış tövsiyələrin əsasını Assosiasiyanın çoxillik kulturoloji tədqiqatlarının, mədəniyyət məsələləri üzrə ölkə əhalisi arasında aparılmış xüsusi sosial sorğunun, kulturoloq ekspertlərin düşüncə və mülahizələrinin, eləcə də azərbaycan cəmiyyətinin müxtəlif dövlət və qeyri-hökumət strukturları nümayəndələri ilə keçirilmiş iyirmi kulturoloji seminar-treninq materiallarının nəticələri təşkil edir. Tədqiqatlar təsdiq etdi ki, mədəniyyətimizdəki böhran hadisələri, hər şeydən əvvəl, bizim mədəni siyasətimizin qeyri-effektivlik göstəricisidir. Mədəni siyasətə optimal elmi yanaşmaların yaradılması məqsədi ilə, tərəfimizdən sovet, qərb və rus kulturoloji məktəblərinin nailiyyətləri, o cümlədən, Rusiya Kulturoloji İnstitutunun konsepsiya və nailiyyətləri, Norveç və Yaponiyanın social-mədəni inkişafının tarixi təcrübəsi, BMT,

YUNESKO, Avropa Şurası və digər mədəni siyasət sahəsindəki beynəlxalq təşkilatların sənəd və müasir fəaliyyət təcrübəsi öyrənilib, istifadə edilmişdir. Adları çəkilən materialların kompleks təhlili nəticəsində,tərəfimizdən, konkret olaraq Azərbaycan şəraitinə tətbiq edilən, yeni mədəni siyasət formalaşdırılması üzrə praktik tövsiyələr hazırlanmışdır. Bu zaman, həm Azərbaycanın tarixi-mədəni inkişaf xüsusiyyətləri, həm də dünya sivilizasiyası kontekstində ölkənin social-mədəni inkişafının sistemli təhlilinin nəticələri nəzərə alınmışdır.

Tədqiqatlarımızın başlıca metodu, sosial fenomen olan mədəniyyətin elmi-idraki, ideoloji və praktik funksiyalarını aşkar edən, sistemli yanaşmadır. O, elmlərarası bütöv system olan mədəniyyəti kompleks, dialektik qarşılıqlı əlaqəli tədqiqat prinsiplərinin birliyi: kəmiyyət, keyfiyyət, struktur, funksional, genetik-tarixi, məkani və müqayisəli təhlil əsasında, öyrənməyə imkan verir. Bu yanaşmanın metodoloji əsasını: dialektika (Hegel fəlsəfəsi daxil olmaqla), tarixilik prinsipi, məntiq (Lütvi Zadənin "qeyri-səlis" məntiqi daxil olmaqla) təşkil edir. Belə yanaşma, obyektiv elmi dünyagörüş, insan, cəmiyyət və dövlətin inkişafını bütövlükdə, sinfilik və partiyalılıq prinsiplərindən azad, zaman və məkanda görməyə imkan verir. Bu metodologiya əsasında, tərəfimizdən , mədəniyyətin üçlük olaraq elmi anlaşılması formulə edilmişdir: təbiət, insane və cəmiyyəti dərk etmək və dəyişdirməyin yaradıcı prosesi, onun nəticələri - ruhi və maddi dəyər və normaların məcmuu, eləcə də texnologiyalar - insanın həyat fəaliyyətinin dəyər, norma və təcrübəsinin istehsali, mühafizəsi, istifadəsi və ötürülməsi. Bu baxışlara uyğun olaraq, tərəfimizdən, obyektiv qanunauyğunluqlar əsasında ayrı-ayrı sahələrinin bir-biri ilə qarşılıqlı əlaqə və təsirə malik qabaqlayıcı inkişafa malik bütöv sosial sistemli cəmiyyətin müasir mədəniyyət modeli təklif olunur. Bura təhsil və tərbiyə, elm və texnologiyalar, ədəbiyyat və incəsənət, iqtisadiyyat, din, əxlaq, informasiya, mətbuat və turizm, hüquq, təşkilat və idarəetmə, həyat tərzi-dil-mədəni irs, səhiyyə-ekologiya- həyattəminedici sistemlər, ideologiya, daxili siyasət və beynəlxalq münasibətlər kimi sosial institut və insan fəaliyyəti sahələri daxildir. Bu zaman, insanın humanizmi və intellektual fəaliyyətinin əsas hərəkətverici qüvvəsi

olan "ruhi istehsal", mədəni inkişaf kimi bütöv sistemin bazası rolunu oynayır.

Tərəfimizdən işlənib hazırlanmış aşağıdakı məntiqi sistemi nəzərədən keçirməklə, Azərbaycanda keçirilən yeni mədəni siyasətin rol və əhəmiyyətinin məntiqi zəruriliyini anlamaq olar (bax,əlavə №1-8).

- Şüurlu bəşəriyyətin ali mədəni məqsədi – ruhi kamillik və rifaha nail olmaqdır. Bundan çıxış edərək, ölkə mədəniyyətinin ali məqsədi insan, cəmiyyət, dövlətin rifahına, ruhi kamilliyinə və harmonik inkişafına nail olmaq üçün əlverişli şəraitin yaradılmasıdır (şəkil№1).
- Lakin müasir sivilizasiya çərçivəsi daxilində şər və dağıntılar mövcuddur. Məsələ ondan ibarətdir ki, mədəniyyətin sosial bazasını genişləndirib, mədəniyyət və antimədəniyyət arasındakı tarazlığı ümumilikdə mədəniyyətin, dünya mədəniyyətinin, daha konkret isə, dünya mədəni məkanı sahəsini genişləndirməyin xeyrinə dəyişəsən(şək. №2.).
- Bununla yanaşı, dialektik inkişaf qanunlarına uyğun olaraq, insani, sosial və coğrafi baxımdan mədəni qeyri-bərabərlik mövcuddur. Burada, müxtəlif xalqların mədəniyyətləri arasında uyğunluğun əldə edilməsi daxil olmaqla, bütün səviyyələrdə mədəni harmonizasiyaya nail olmaq zəruridir (şək. №3).
- Yeni mədəni siyasət bu məsuliyyətli sosial-siyasi və iqtisadi məsələlərin həll edilməsinə yönəlməlidir. O, bütöv sistem olan mədəniyyət sahəsinin inkişafını ideoloji, texnoloji və təşkilati səviyyələrdə elmi əsaslarla idarə edilməsini nəzərdə tutur (şək. №4).
- Lakin mədəniyyəti sosial hadisə kimi düzgün anlamadan, onu effektli idarə etmək mümkün deyil. Mədəniyyəti dar(adi) , kontekstual və elmi mənada görüb, anlamaq zəruridir (şək. №5).
- Bununla bərabər, müasir cəmiyyətin mədəni strukturunu, bütöv sosial sistem kimi, ətraflı təsəvvür etmək vacibdir (şək. №6). Bu zaman, ictimai rifahın genişlənməsi üçün iqtisadi inkişafın əsas aləti və açarı olan "ruhi istehsalın" kulturoloji qanunauyğunluğunu anlamaq vacibdir. Dövlətin iqtisadi

istehsalının effektivliyi elmin, elmi texnologiyaların nailiyyətləri, təhsil və tərbiyə sisteminin effektivliyi ilə düz mütənasibdir.

- İnsanın mədəniyyət yaradıcısı və daşıyıcısı insan olduğu üçün, mədəni insanın formulunu da bilmək vacibdir.O, insanın imkanlarını, özünütəkmilləşdirmədə və ətraf aləmin tərəqqipərvər-humanist dəyişdirilməsi prosesində aşkar edir (şək. №7).
- Nəhayət, insan, cəmiyyət və dövlətin sosial-mədəni inkişafının əsas istiqamət, şərt və prioritetlərinin düzgün müəyyənləşdirilməsi üçün mədəni inkişafın başlıca faktor və qanunlarını, eləcə də kulturoloji metodologiyanı bilmək vacibdir(şək. №8).

Mədəniyyətin inkişafında mədəni siyasətin rolu mühümdür, çünki, mədəniyyət siyasi faktorlardan, ölkənin mədəni inkişafını ya stimullaşdıran, ya da buxovlayan dövlət siyasi sistemindən asılıdır. Buna görə, hər şeydən əvvəl, mədəni siyasətin mahiyyətinə müraciət etmək vacibdir.

*Mədəniyyət sahəsində siyasət* - xalqın mənəvi sağlamlığını və rifahını möhkəmləndirən, millətin ruhi, iqtisadi, sosial inkişafını təmin edən siyasətdir. *Onun başlıca vəzifəsi* ölkə üçün zəruri olan ruhi və maddi dəyər və normaların istehsalı, qorunması, həmçinin inkişafı üçün şərait yaratmaq, xalqın mədəni irsini, sosial-mədəni inkişaf təcrübəsini və insan dühasının yeni nailiyyətlərini məhsuldar istifadə edib, yeni nəsillərə ötürməkdir. *Sivil dövlətin mədəni siyasəti* kütlələrin mədəni diletantizmi və mədəni səbatsızlığının aşağı düşməsinə, insan və cəmiyyətin mədəni inkişafında qeyri-bərabərliklərin aradan qaldırılmasına yardım edən tənzimləmə və əlaqələndirmə yolu ilə cəmiyyətin düzgün elmi əsaslarla təşkil və idarə edilməsi əsasında ölkənin harmonik inkişafına nail olmağa *istiqamətlənməlidir.* O, hər bir şəxsin və bütün xalqın mənafeyini ifadə etməli, insan hüquqlarının azadlığını, müstəqil inkişafını, cəmiyyətin müxtəlif sosial qrupları maraqlarının düzgün tarazlığını təmin etməlidir. *Onun effektivlik şərtləri* – kulturologiya elminə, mədəniyyətin milli və bəşəri dəyərlərinə istinad; siyasətçi və jurnalistlərin yüksək təhsilliliyi və peşəkar səriştəliliyi; cəmiyyətin inkişafının real tələblərinə cavab verən idarəetmə; tərəqqipərvər dünya təcrübəsindən yaradıcı istifadədir. Uyğun hüquqi təminata istinad edən düşünülmüş mədəni siyasət hadisələri nəinki milli, həm də dünya

miqyasında qabaqlamalıdır. Bütün bunlar, eyni dərəcədə, planetin müxtəlif xalqlarının mənafelərinin tarazlığını və mədəni müxtəlifliyini, sülhü və harmonik inkişafı təmin etməli olan qlobal mədəni siyasətə də aiddir.

*Mədəni siyasət* – inkişaf və rifah artımı siyasətidir. Onun mahiyyətini anlamaq üçün, istehsalın effektivliyinin elm və elmi texnologiyaların, eləcə də insanın ümumi mədəniyyətinin inkişaf səviyyəsi ilə müəyyən edildiyini göstərən, iqtisadi inkişafın kulturoloji formulunu bilmək vacibdir. Belə siyasətin əsasını təşkil edən, başlıca motiv insan həyatının qorunması və yaxşılaşdırılması qayğısına qalmaq təşkil edir. Belə ki, o, xalqın həyat və mədəni səviyyəsinin dönmədən yüksəlməsi, sosial inkişafı naminə intellektual potensialının şüurlu istifadəsi və qabaqlayıcı inkişafının təmin edilməsinə yönəlir.

Vətəndaş cəmiyyəti mədəni siyasətinin başlıca məqsədi "yüksək" mədəniyyətə malik, özündə milli, sosial və bəşəri dəyərləri birləşdirən şəxsiyyətin formalaşmasına yardım etməkdir. Burada, mədəniyyətin inkişaf etdirilməsiməqsədi ilə maddi və hüquqi baza yaradılması, vətəndaşlar tərəfindən mədəni dəyər, etik norma və mədəni standartları müstəqil seçib mənimsəməsi, eləcə də ziyalıların və bütün xalqın sərbəst yaradıcı fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasını təmin edən, monitorinq və mütəhərrik tənzimləmə mühüm yer tutur. *Vətəndaş cəmiyyətinin mədəni siyasəti*, eyni zamanda, dövlət strukturları və qeyri-hökumət təşkilatları qüvvələrinin, ölkənin sosial-mədəni inkişafının vahid proqramları əsasında, kooperasiyasını nəzərdə tutur. O, dövlət strukturları və qeyri-hökumət təşkilatlarının bərabərhüquqlu əməkdaşlığı əsasında həyata keçirilir:dövlət institutları səviyyəsində "yuxarıdan" idarəetmə ("Volter üzrə"), qeyri-hökumət təşkilatları səviyyəsində"aşağıdan"("Russo üzrə") idarəetmə ilə tamamlanmalıdır. Belə yanaşma vətəndaşların yaradıcı qüvvə və qabiliyyətlərinin inkişafı üçün əlverişli iqtisadi, təşkilati və mənəvi-psixoloji şəraitin yaradılmasına yardım edəcəkdir. Belə mədəni siyasət ictimaiyyətə istiqamətlənərək, həm ölkədaxili həm də beynəlxalq sahədə ictimai münasibətlərin plüralizm və polisentrizm prinsipləri əsasında harmonizasiyasına yardım edir. O, vətəndaş cəmiyyətinin idarəedilməsində qeyri-hökumət təşkilatlarının iştirakına geniş şərait və bərabər imkanlar yaradır. Vətəndaş cəmiyyətlərində

*mədəni siyasət* dövlətin məqsədləri və cəmiyyətin həyati maraqlarının ölkənin sosial-mədəni inkişaf prioritetləri, sürəti və istiqamətinə uyğunluğuna və mədəni imperativlərə riayət edilməsinə sosial nəzarətin həyata keçirilməsini təmin etməlidir.

*Tərəqqipərvər mədəni siyasət üç əsas prinsip üzərində qurulmalıdır.* Birinci – elm, təhsil və yüksək texnologiyaların qabaqlayıcı inkişaf prioritetlərini təmin edən azad intellektual fəaliyyət üçün əlverişli şəraitin yaradılması. İkinci – xalq kütlələrinin novasiyalı mədəniyyəti yüksək mənimsəmə səviyyəsini təmin edən effektiv dövlət maarifçilik fəaliyyətinin təşkili. Üçüncü – tərəqqipərvər demokratik ölkələrlə fəal mədəni mübadilənin həyata keçirilməsi. Bu prinsiplərin uğurla reallaşdırılması və kütlələrin elmi maariflənidirilməsi üçün, dövlət quruculuğu və idarə edilməsinə, dünya mədəniyyətinin ən yeni nailiyyətlərinin tarixi-nəzəri təhlilinə kulturoloji metodologiyanın tətbiqi həyata keçirilməli, kulturoloji elm və təhsilin inkişafı təmin edilməlidir. Kulturologiya vətəndaşların elmi və siyasi biliklərinin inkişafı, praktik imkanlarının genişlənməsi, onların həyat fəaliyyət keyfiyyətinin yüksəlməsi, ictimai münasibətlərin inkişafına pozitiv təsir göstərən prinsip, dəyər və normalarının təkmilləşməsi üçün ilkin şərait yaradır. Belə siyasətin effektivlik meyarı cəmiyyətion yüksək rifah və davamlı inkişafını təmin edən vətəndaşların sosial aktiv fəaliyyəti olur. Bu məqsədə çatmaq üçün, bütövlükdə dünya mədəniyyəti inkişaf təcrübəsinin tendensiya, xüsusiyyət və qanunauyğunluqlarını nəzərə almaqla, vətəndaş cəmiyyəti dəyərləri əsasında xalqın maraq və həyati tələbatlarının təmin edilməsinə istiqamətlənmək lazımdır.

*Dövlət mədəni siyasətinin effektivliyi* ideoloji, texnoloji və təşkilati səviyyədə ruhi mədəniyyət sahəsinin idarə edilmə sisteminin effektivliyindən çox asılıdır. Müasir "ruhi istehsalın" nüvəsini təşkil edən təhsil, elm və incəsənət mədəniyyətin bütün sahələrinin harmonik və qarşılıqlışərtləndirici inkişafına nail olmağa yardım edir.

*Mədəniyyətin idarə edilməsi* dünya sivilizasiyasının inkişafı kontekstində ölkənin mədəni inkişafı haqqında obyektiv informasiyanın sistemləşdirilməsi və təhlili əsasında proqramların hazırlanması və mədəniyyətin inkişafının nəzəri modellərinin kulturoloji baxımdan qurulmasını nəzərdə tutur. *Mədəniyyətin idarə*

*edilməsinin üç mərkəzi problemini* ayırmaq lazımdır. Birincisi, dövlətin sosial-mədəni prioritetlərinin qurulması və strateji istiqamətlərin müəyyənləşdirilməsi ilə, - İkinci, ruhi və maddi mədəniyyətin müxtəlif sahələri üzrə mütəxəssislərin hazırlığı və tərbiyəsi, onların fəaliyyəti üçün maddi-texniki şəraitin yaradılması, - Üçüncü, mövcud mütəxəssislərin, ocümlədən, onların fəaliyyəti nəticələrinin sosial-mədəni və iqtisadi tərəqqi naminə effektiv istifadəsi ilə əlaqədardır.

Ölkənin yeni dövlət siyasətində öz əksini tapan sosial-mədəni texnologiyaların inkişafı və tərəqqipərvər mədəni islahatların həyata keçirilməsi demokratik ictimai münasibətlərin təkmilləşməsinə imkan verəcəkdir.

"Simürğ"AKA-nın mədəıni siyasət konsepsiyası, tərəfimizdən əldə edilmiş elmi nəticə və tövsiyələr demokratik ölkələrin sosial-mədəni inkişaf təcrübəsi, əhalinin sosioloji sorğularının nəticələri və kulturoloji ekspertlərin fikri ilə təsdiqlənmişdir. Dünya kulturoloji fikrinin, aparıcı kulturoloqların mülahizələrinin təhlili göstərir ki, dünya inkişafının müasir mərhələsində mədəni siyasətin ən mühüm vəzifələri həm də aşağıdakılardır: mədəni müxtəliflik, mədəni kapital və mədəni resursların inkişafı və qorunmasına yardım, müxtəlif xalqların mədəniyyətlərinin ənənəvi olaraq dirçəldilməsi prinsipindən, modernləşdirilməsi və harmonizasiyası prinsipinə keçid.

Azərbaycanda mədəni siyasətin formalaşdırılmasının ən dəyərli mənbəyi kimi - BMT, YUNESKO, Avripa Şurası və digər beynəlxalq təşkilatlar, eləcə də, dövlətin ruhi və maddi rifahının artması, onun keyfiyyətinin yüksəldilməsi, cəmiyyət və şəxsiyyət həyatının təhlükəsizliyinin təmin edilməsinə yardım edən, təhsil, elm və incəsənətdən ibarət başlıca "ruhi istehsal" komponentləri çıxış edir.

Fikrimizcə, milli, regional və planetar səviyyədə bəşəriyyətin sosial-mədəni inkişaf prosesinin təşkil və tənzimlənməsində qeyri-hökumət təşkilatlarının fəallaşdırılmış rolunu nəzərdə tutan, *yeni beynəlxalq mədəni siyasət,* müasir şəraitdə bəşəriyyətin inkişafına düzgün və perspektivli yanaşmalardan biridir. "Ruhi istehsalın " qabaqlayıcı inkişafı belə siyasətin özəyini təşkil edir. Cəmiyyətin demokratik inkişafı, insanın həyat keyfiyyətinin yüksəldilməsi ruhi

mədəniyyətin qabaqlayıcı inkişafı, yəni hər şeydən əvvəl, vətəndaşların bilik, bacarıq, mütəşəkkilliyi və mənəviyyatının inkişafını təmin edən strateji institutlar - elm və təhsil oilmadan mümkün deyil. Bəşəriyyətin bütün mədəni inqilablarının əsasında, yeni texnologiyalara və insan həyatının yeni keyfiyyətinə yol açan, intellektual inqilablar durur. Həyatın sosial-mədəni texnologiyalarının üstünlüyü, hər şeydən əvvəl, elm və təhsil sahəsindəki üstünlüklərlə təmin olunur. Lakin, biliklər, o zaman mədəni inkişafın pozitiv faktoruna çevrilir ki, o, dağıdıcı yox, yalnız qurucu istiqamət alsın. Bu, ailədən başlayıb, formal və qeyri-formal dövlət və hökumət institutları ilə həyata keçirlən, humanist insan tərbiyəsi ilə təmin edilir. İnsanın mühüm kapitalı olan biliklə cahillik arasındakı fərq mədəniyyətlərdə, bəşəriyyətin inkişaf qanunları və həqiqətlərinin anlanılıb - anlanılmamasında, düzgün və ya səhv təfəkkürün formalaşdırılmasında, düzgün və ya səhv qərarların qəbul edilməsində olan fərqlə izah edilir ki, bu da son nəticədə insanın rifah və səadətini müəyyənləşdirir. Buna görə də, yeni minillikdə qlobal mədəni siyasət elmhəcmli, humanist istiqamətli, praktik əhəmiyyətli biliklər dünyasının yaradılması və tirajlaşdırılmasını təmin edən mədəniyyətin prioritet istiqamətlərinə yönəlməlidir. Fərdi və ictimai mədəni mühitin formalaşdırılmasının istiqamət və xarakterini müəyyən edən mədəni dəyərlər, bu siyasətdə mühüm yer tutur. İnsan tələbatlarına daha çox cavab verib, yaradıcı fəallığını stimullaşdıran intellektual və humanist dəyərlər vətəndaş cəmiyyətinin inkişafı üçün prioritet əhəmiyyət daşıyır.

Sonda *bir neçə praktik tövsiyələr* vermək istərdim

- Fikrimizcə, bu gün *Dünya Kulturoloji Assosiasiyasının* yaradılması aktual əhəmiyyət daşıyır. Müxtəlif ölkələrdə belə Assosiasiya şəbəkəsinin mövcudluğu kulturologiyanın dünya miqyasında institutlaşdırılmasına, insan inkişafının milli, regional və qlobal problemlərinin həllində kulturoloqların yaradıcı fəaliyyətinin koordinasiyasına, milli beynəlxalq standartlara cavab verən kulturoloq-mütəxəsislərin – müəllim, tədqiqatçı və idarəedicilərin hazırlığına yardım edərdi.

▫ *"Kulturoloqlar forumu" İNTERNET saytının və beynəlxalq kulturoloji jurnalın yaradılması* dünya kulturologiyasının inkişafında praktik əhəmiyyətli addım ola bilərdi.

▫ İstərdik ki, həmçinin, *mədəni siyasət üzrə Beynəlxalq Şuranın* yaradılması haqda məsələni müzakirəyə qoyaq. Bu Şura kulturologiya elmi nailiyyətlərinin mədəni rəngarənglik, plüralizm və davamlı inkişaf prinsipləri əsasında müxtəlif xalqların mədəniyyətlərinin dialoqu və harmonizasiyası, mədəni mübadilə və əməkdaşlığı, insan inkişafı naminə praktik istifadəsinə yardım edərdi.

▫ Nəhayət, bəlkə, ölkələrimizdə mədəniyyət haqda Qanuna *mədəniyyətin inteqrativ elmi tərifinin və müxtəlif səviyyəli bütün məktəblərdə zəruri kulturoloji təhsil bölməsinin daxil edilməsi* barədə düşünməyə dəyər.

Qlobal vətəndaş cəmiyyəti inkişafının formalaşdırılıb, idarə edilməsində kulturoloqların iştirakının genişləndirilməsi və rolunun artırılması müxtəlif xalqların mədəniyyətlərinin ruhi dirçəlişi, modernləşdirilməsi və harmonizasiyasına, yoxsulluqla mübarizənin daha da effektivləşməsinə, insanların hüququnun müdafiəsinə, ekoloji təhlükəsizliyinin təmin edilməsinə və qloballaşma şəraitində davamlı inkişafına yardım edəcəkdir.

♔ *«Культурология: от прошлого к будущему». Москва, 2002, s. 245-259.*

## DEMOKRATİK AZƏRBAYCANDA MƏDƏNİYYƏTİN İDARƏEDİLMƏSİNƏ YENİ YANAŞMA HAQQINDA

Azərbaycanda demokratik cəmiyyət və hüquqi dövlət quruculuğu respublika mədəniyyətinin bütün sisteminin, dünya sivilizasiyasının tarixi inkişaf təcrübəsi kontekstində, yenidən dərk edilməsi zərurətini, mədəniyyət və mədəni siyasət anlamına yeni yanaşmaların formalaşdırılmasını, onun inkişafı üzrə, zamanın tələblərinə cavab verən, yeni idarəetmə modellərinin yaradılmasını şərtləndirir. İnsan tarixində hər bir ictimai-siyasi sistem, həyat fəaliyyətinin müəyyən etik-hüquqi və sosial-iqtisadi norma və texnologiyalarına əsaslanan

xüsusi mədəniyyət tipini (ibtidai-icma, quldarlıq, feodalizm, kapitalizm, sosializm və s.) əks etdirən, qanunauyğun hadisədir. Bu tarixi qanunauyğunluqdan çıxış edərək, ictimai-siyasi sistem olan demokratiya da cəmiyyət və dövlətin həyatında demokratik mədəniyyətin norma, dəyər və texnologiyalarının təsdiqini tələb edir, deməli, o, mədəni inkişafın, sosial tərəqqi maraqlarına və ictimai münasibətlərdəki dəyişikliklərin tələblərinə cavab verən forma və metodlarla təşkil, sonra isə idarə edilməsini tələb edir.

Demokratik ölkələrin təcrübəsi göstərir ki, sosial-mədəni inkişafın təşkil və idarə edilməsi prosesinin təkmilləşdirilməsi elmə əsaslanmalı və sistemli xarakter daşımalıdır. İdarəetmənin məzmun, məqsəd və imkanları cəmiyyətin xarakterindən, dövlətin siyasi sistemindən, onun effektliyi isə - inkişafın aktual problemlərinin həllinə sistemli yanaşmadan asılıdır. Sosial-mədəni sistem olan cəmiyyət, insanın birgəfəaliyyətinin tarixi mövcudluq forması kimi, özünün yenidən hasili və inkişafı üçün, ruhi və maddi mədəniyyət resurslarına malik olmalıdır. Bu resursların istehsalı ictimai tərəqqiyə istiqamətlənən fəaliyyətlə təmin edilir. Demokratik dövlət ictimai tərəqqinin təminatçısı olaraq, özünüidarəetmənin bütün formalarından geniş istifadə edilməsi əsasında, davamlı insan inkişafının reallaşdırılmasına yardım edir.

Mədəniyyətin inkişafının effektiv idarə edilməsi yüksək idarəetmə mədəniyyəti - idarəetmədə məşğul adamlardan bilik, bacarıq, mütəşəkkillik və mənəviyyatlılıq tələb edir. Demokratik ölkələrdə mədəniyyətin inkişafının idarəedilməsi strategiyaları kulturoloji texnologiyaların istifadəsini nəzərdə tutur, çünki, onlar ruhi və maddi istehsalın sabit inkişafını təmin edərək, həyat keyfiyyətinin yüksəlməsinə yardım edir. Mədəniyyətin "həyatının" çoxtərəfliliyi məşhur amerikalı alim Lütvi-Zadənin kəşf etdiyi qeyri-səlis məntiq qanunları, çoxluqlar nəzəriyyəsi və təəssüratlar nəzəriyyəsinə uyğundur. Buna görə, milli və dünya mədəniyyətinin sistemli, məqsədyönlü müqayisəli təhlilini keçirmək, ruhi mədəniyyətin məkan-zamani dəyişikliklərinin idarə edilməsini diqqət mərkəzində saxlayıb, praktikada nəzərə almaq vacibdir. Cəmiyyətdə mədəniyyətin inkişafının yeni tələbləri ilə onların reallaşdırılmasının köhnə sosial texnologiyaları arasındakı dialektik ziddiyyətlər həyatın

tələblərinə uyğun yeni inkişaf üsullarının yaradılması yolu ilə həll edilməlidir. Bu zaman cəmiyyətin sosial-mədəni fəaliyyətinin ayrı-ayrı subyektlərinin fəaliyyət gücünün uyğunluğu, əlaqəliliyi və birliyinə nail olmaq vacibdir. Belə idarəetmə modellərinin axtarılması və reallaşdırılması sivil dövlətlərin mədəni siyasətinin strateji vəzifəsidir. Əgər məsələnin həlli təmin edilmirsə, mədəniyyətdə böhran hadisələri baş verir.

Mədəniyyətin idarə edilməsi sisteminin cəmiyyətin vəziyyəti və inkişaf səviyyəsinə təsiri proseslərini anlamaq üçün, keçmiş Sovet İttifaqında mədəniyyətin tarixi inkişafını üç mərhələdən ibarət olduğunu müəyyən edən Y.Pappe və S.Şişkin konsepsiyasına müraciət edək. Birinci mərhələ 1920-1950-ci, ikinci – 1960-1970-ci, üçüncü isə - 1980-1990-cı illəri əhatə edir. *Birinci mərhələ* - ruhi mədəniyyətin inkişafının idarə edilməsi totalitar rejim ideologiyasına xidmət etsə də, kifayət qədər effektli olub, ictimai maraqlara cavab verən mədəni quruculuq dövrü idi. Bu dövr dinamik olaraq, mədəni fəaliyyətin rəngarəng forma və istiqamətləri, müqavilə münasibətlərindən fəal istifadə edən idarəetmə sisteminin mütəhərrikliyi ilə xarakterizə olunurdu. Mədəniyyətin düzgün anlamından, onun tarixi missiya və ictimai dəyərindən çıxış edərək, ruhi mədəniyyəti prioritet sahə kimi müəyyən edən, dövlət, savadsızlığın ləğvi və kütlələrin ümumi mədəni səviyyəsinin qabaqlayıcı inkişafını təmin edərək, elm, təhsil, maarifçilik müəssisələrinin geniş şəbəkəsini yaratdı, elmi-texniki ziyalıların effektiv hazırlığı və istifadəsi, incəsənətin bütün sahələrinin inkişafını təmin etdi. *İkinci mərhələdə* mədəni siyasət dövrün dialektik tələblərinə cavab verməyərək, unifikasiya edilmiş (vahid) xarakter aldı, mövcud mədəniyyət müəssisələrinin fəaliyyəti formal olaraq davam etdirildi. Ruhi mədəniyyətin inkişafı, ümumiyyətlə, öz prioritet xarakterini itirdi. Mədəniyyətin mərkəzləşdirilmiş idarəetmə mexanizmi ölkənin mədəniyyət sisteminin yaradılması vəzifəsini yerinə yetirib, həyatın tələblərindən geri qalmağa başladı; cəmiyyətin, demokratikləşmə tələb edən, sosial-mədəni həyatının keyfiyyət dəyişiklikləri inkişafın yeni reallıqlarına uyğun tərzdə təkmilləşdirilmədi. Ruhi mədəniyyət universal təməl və ictimai inkişafın hərəkətverici qüvvəsi kimi deyil, sosial baxımdan xalq

təsərrüfatının azeffektli, aşağıprioritetli, başlıca olaraq, əhalinin mədəni-asudə tələbatlarını ödəyən sahəsi kimi qəbul edilməyə başladı. Mədəniyyətin elm, təhsil və digər sosial institutları mədəniyyət sahəsindən kənarda, cəmiyyətin müstəqil institutları, mədəniyyətəyaxın sahələr kimi nəzərdən keçirilməyə başladı. Mədəniyyətin inkişafının idarəedilməsinin, cəmiyyətin dəyişən xarakterinə cavab verməyən, formal xarakterinin təsdiqi ilə əlaqədar, mədəniyyətqalıq prinsipi ilə maliyyələşdirilən xalq təsərrüfatı sahəsinə çevrildi. Belə sosioloji yanaşma nəticəsində, 80-ci illərdən başlayaraq, mədəniyyət öz inkişafında, *III mərhələ üçün xarakterik olan,* böhran hadisələri ilə qarşılaşmağa başladı. Tədricən, əhalinin mədəniyyətə marağının, mədəni nailiyyətlərdən istifadə imkanlarının azalması müşahidə olundu. Sahə idarəçiliyi mexanizmi mədəniyyət müəssisələri fəaliyyətinin məzmun, struktur və reyestrində konservativ səciyyənin təsdiqinə təsir göstərirdi. Bununla yanaşı, mədəniyyət formaları rəngarəngliyinin artması və onun daşıyıcılarının inkişafda olan maraqları, mədəniyyət müəssisələrinin hüquqi və iqtisadi inkişaf imkanlarının genişlənməsini, əhalinin ruhi tələblərinin ödəyən və ziyalıların azad yaradıcı fəallığını təmin edən yeni şəraitin yaradılmasını tələb edirdi. Mədəniyyət sisteminin köhnə strukturu, mədəniyyətin sosial roluna və anlamın mahiyyətinə köhnə yanaşma ilə ictimai inkişafın yeni tələbləri dövlətin və cəmiyyətin həyatında mədəniyyətin yerini müəyyən edən ideoloji böhran yaratdı. İdeoloji böhran özü ilə bütövlükdə ruhi mədəniyyətin böhranını gətirdi. Keçən yüzilliyin sonuncu onilliyində bu böhran nəinki aradan qaldırılmamış, hətta elmi əsaslı mədəni siyasətin olmaması, şou-biznes və aşağı əyarlı kütləvi mədəniyyətin tirajlaşdırılmasına istiqamətlənən, bir sıra sosial mədəniyyət institutlarının kortəbii özəlləşdirilməsi səbəbindən daha da dərinləşdirilmişdir.

Bununla yanaşı, 90-cı illərdəki mədəniyyətin demokratikləşdirilməsi prosesi pozitiv tendensiyalarla yanaşı, neqativləri də aşkar etdi. Yeni vəziyyətin üstünlüyü onda idi ki, mədəniyyətin azad inkişafına yardım edən rəqabət üçün ilkin şərtlər yarandı. Çatışmamazlıqlar onda idi ki, yüksək mədəniyyətin devalvasiyasına doğru aparan, mədəniyyət sahəsinin total özəlləşdirilməsi tendensiyası özünü göstərməyə başladı. Mədəniyyət

əsərlərinin məzmunu onun reallaşdırılması əlverişliliyindən asılı vəziyyətə salınmağa başladı. Lakin, mədəni fəaliyyətin, xüsusilə də elm, təhsil, incəsənət və informasiyanın iqtisadi əlverişliliyə istiqamətlənməsi ümumxalq maraqların cavab verən, fundamental əhəmiyyətə malik problemlərin həllinə maneə yaradır. O, yüksək mədəniyyətin keyfiyyət səviyyəsini aşağı salır, elitar mədəniyyəti sadə kütləvi mədəniyyət səviyyəsinə yaxınlaşdırır. Bu zaman ictimai maraqlarla bir sıra mədəniyyət müəssisələrinin kommersiya maraqları arasında yaranan ziddiyyətlər mədəniyyətin böhranına səbəb olur. Bu ziddiyyətlərin aradan qaldırılması üçün, sosial-mədəni inkişafın qanunauyğunluqları sahəsində biliklərə əsaslanan və mədəniyyətin sosial əhəmiyyətli istiqamətlərinin dövlət tərəfindən müdafiəsini nəzərdə tutan, tarazlaşdırılmış yanaşma lazımdır.

Təhlil edilmiş təcrübə və ondan yaranan qanunauyğunluqlar Azərbaycan Respublikası üçün mühüm metodoloji əhəmiyyətə malikdir. Onlar idarəetmə fəaliyyətinin istiqamət, texnologiya və təşkilatlanması ilə zamanın tələblərinə cavab verməyən azərbaycan cəmiyyətində mədəniyyət və mədəni siyasəti yeni anlamda dərk etməyin həyati əhəmiyyətini vurğulayır. Bu onunla bağlıdır ki, Azərbaycan mədəniyyəti sovet dövrünün son onilliyində cəmiyyətin bütün həyatını üzvi şəkildə əhatə edən bütöv sosial sistem kimi yox, incəsənət, kitabxana, muzey, mədəniyyət evləri klub və s məhdud sayda müəssisələrdən ibarət xalq təsərrüfatı sahəsi kimi təqdim olunurdu. Mərkəzləşmiş inzibati amirlik sistemində mədəniyyəti idarəetmədə sahə prinsipi, mədəniyyət müəssisələri fəaliyyətində zəif əlaqələndirilmə və formal xarakter mövcud idi. Azərbaycan mədəniyyətində böhran hadisələrinin aradan qaldırılması mədəniyyətin bütün sistem və strukturlarında, idarəetmə mexanizmlərində, maliyyələşməsində, iqtisadi münasibət və mədəniyyətin inkişafının hüquqi təminatında dəyişiklik və təkmilləşdirmə aparılmasını nəzərdə tutan mədəni islahatın həyata keçirilməsini tələb edir.

Mədəniyyətin inkişafı və yeni şəraitdə mədəni islahatların aparılmasında əsas rol əvvəlki kimi, yenə də, dövlətə məxsusdur. Lakin, bu məzmununa görə yeni roldur. Demokratik cəmiyyətdə dövlət sosial-mədəni fəaliyyət və mədəni siyasətin başlıca

koordinatoru kimi çıxış edir. O, hökumət və qeyri-hökumət mədəni müəssisələrinin bütün qüvvələrini ölkənin vahid sosial-mədəni inkişaf məqsədləri əsasında birləşdirir. Azərbaycanda aparılan mədəni islahat dövlətin yeni daxili mədəni siyasəti üzrə həyata keçirilməlidir. Belə siyasət bir çox mühüm məsələlərin həllini nəzərdə tutur. Elmə, milli-mədəni və bəşəri dəyərlərə istinadən, o, dövlətin sosial-mədəni inkişafının ideologiya, prinsip, məqsəd, əsas istiqamət, vəzifə və prioritetlərini müəyyən edir, mətəxəssis hazırlığı, onların həyat-fəaliyyət şəraitini, həmin mütəxəssislərdən səmərəli istifadə və onların ictimai maraqlara cavab verən fəaliyyətini təmin edir. Azərbaycanın mədəni siyasəti demokratik prinsip və dəyərlərdən çıxış edərək, sovet dövrünün son illərində olduğu kimi, özünün son imkanlarından istifadə edən mədəniyyət institutlarının köhnə sahə maraqlarını deyil, ictimai tərəqqi üçün sosial əhəmiyyəti olan mədəni fəaliyyət növlərini müdafiə edib maliyyələşdirməlidir. Sahə sovet mədəni sistemi üçün ənənəvi olmayan, ruhi mədəniyyətin effektiv qarşılıqlı şərtləndirici inkişafını təmin edən prioritet istiqamət kimi, dövlətin yeni mədəni siyasətinin aşağıdakı fəaliyyət sahələrini müəyyən etmək olar:

- elm və yüksək (həmçinin informasiya) texnologiyaların inkişafı;
- təhsil, tərbiyə, maarif, informasiya sisteminin inkişafı;
- incəsənətin inkişafı və mədəni irsin qorunması.

Bununla yanaşı, mədəniyyətin mətbuat, hüquqi sistem, səhiyyə və ekologiya, uşaq və gənclərin yaradıcı fəaliyyəti, fiziki mədəniyyət və turizm; asudə vaxtın təşkili və s. sahələrinin inkişafına ciddi diqqət ayrılmalıdır.

Demokratik dövlətdə qeyri-hökumət strukturlarının inkişafına mühüm əhəmiyyət verilir. Qeyri-hökumət təşkilatları qanunvericiliklə tənzimlənən müxtəlif iqtisadi və hüquqi modellər əsasında ictimai-faydalı fəaliyyət həyata keçirirlər. Gəlir gətirməyən təşkilatlar vergi güzəştləri və dövlət subsidiyaları ilə təmin edilməlidir. Onlar marağı olan təşkilatların, sponsorların – fondların, biznes strukturların, hüquqi şəxslərin maliyyə resurslarından istifadə edə, eləcə də pullu xidmətlər hesabına gəlir götürə bilərlər. Qeyri-kommersiya təşkilatlarının gəlirləri xərclərin, məvacib, eləcə də təşkilatın inkişafı

üçün tələb olunan investisiyaların ödənilməsinə, sərf edilir. Mədəniyyətin inkişafı və mədəni siyasətin həyata keçirilməsində qeyri-hökumət təşkilatlarına mühüm əhəmiyyət verilir. Qeyri-hökumət təşkilatlarının effektiv sosial-mədəni fəaliyyəti onların güc və imkanlarının düzgün kooperasiyası ilə əldə edilə bilər. Belə ki, tərkibinə könüllü daxil olan kollektiv və vətəndaşların birliyi, subyektlərinin maraqlarının ümumiliyi və harmoniyası, strukturunun mütəhərrik, mobil və şəffaflığı qeyri-hökumət təşkilatlarının həyatqabilliliyinin əsas şərtidir. Fəaliyyət obyekti və maraqların, eləcə də maliyyə, texniki, təşkilati, informasiya, insan resursları subyektlərinin ümumiliyi, həmçinin məsələləri, ayrı-ayrılıqda yox, birgə həll edilmək imkanı qoyulan məqsədlərə nail olmaq üçün qüvvələri birləşdirmək marağını gücləndirir.

Azərbaycanın dövlət mədəni siyasəti respublikanın sosial-mədəni fəaliyyət subyektləri arasında münasibətlərin tənzimlənməsi fəaliyyətini məhdudlaşdırmadan, kortəbii prosesləri və baş verən hadisələrə müşahidəçi münasibətini minimuma endirməli, insanların yaradıcı-dəyişdirici enerjisinin cəmiyyətin intellektual, mənəvi və sosial-iqtisadi problemlərinin həllinə səfərbər olunmasına yardım etməlidir. Mədəniyyətin ictimai dəyəri və tarixi missiyasını nəzərə alıb, elmi yanaşmaya əsaslansaq, o, həyatın dəyişən tələb, maraq və şərtlərinə cavab verən mədəniyyətin yeni inkişaf modellərinin daimi yaradıcı axtarışı və tətbiqini stimullaşdırmalıdır. Mədəni siyasətin ən mühüm vəzifəsi xarakter və məqsədinə görə müxtəlif dövlət və qeyri-hökumət sosial mədəniyyət institutlarının – tədris müəssisələri, tədqiqat və informasiya mərkəzləri, həvəskar birliklər, cəmiyyət, fond, kooperativ, yaradıcı studiya, assosiasiya və peşəkar yaradıcı ittifaqların effektiv fəaliyyəti üçün əlverişli iqtisadi və hüquqi şərait təmin edən prinsip və texnologiyaların yaradılmasıdır. Ölkənin yeni mədəni siyasəti dövlətlər və qeyri-hökumət təşkilatları arasında partnyor fəaliyyəti, kooperasiya və əməkdaşlıq üçün şərait yaratmalı, əhalinin orta və az təminatlı təbəqəsinin mədəni nailiyyətlərdən geniş istifadəsini təmin etməlidir. O, ictimai maraqları ifadə edərək, öz ömrünü başa vurmuş mədəniyyət idarəçiliyi sisteminin modernləşdirilməsinə, inzibati-amirlikdən iqtisadi idarəetmə

metodlarına keçidə, mədəniyyətin mövcud sosial institutlarının dəyişdirilib, yenilərinin yaradılmasına yardım etməlidir.

*Dövlət mədəni siyasətinin praktik reallaşması mədəniyyəti idarə edən orqanlar sistemi ilə həyata keçirilir.* Mədəni inkişafın idarə edilməsi ölkənin sosial-mədəni inkişafı naminə onun sistem və strukturlarının nizamlanması və təkmilləşdirilməsi, həyat fəaliyyətinin dəyər, norma, texnologiyaların ruhi və maddi istehsalının innovativ təminatı məqsədi ilə mədəniyyətə göstərilən elmi-praktik təsirdir. Proqressiv idarəetmə təfəkkürdə kök atmış doqma, ətalət və stereotiplərdən imtina edilməsinə istiqamətlənir. O, dünya mədəniyyəti təcrübəsi və elmdəki dialektik dəyişikliklərlə şərtlənən məsələlərin aydın dərk edilməsini, fəal tədqiqatçılıq və innovativ fəaliyyəti, yüksək proqramlaşdırma incəsənətini, vəzifə, məqsəd və prioritetlərin müntəzəm korrektəsini, mütəhərrik resurs təminatını nəzərdə tutur. Həyat təminatı sistemlərinin modernləşdirilməsi daxil olmaqla, innovativ həyatfəaliyyəti modellərinin hazırlanması, mədəniyyətin yaradıcı fəaliyyətinin təşkilinin effektiv koordinasiyası və onların məhsullarının keyfiyyətinə nəzarət də onun vəzifələrinə daxildir.

*Demokratik ölkələrin təcrübəsindən çıxış edərək, Azərbaycanda mədəniyyətin inkişafının idarə edilməsinin yeni mexanizminin əsas prinsiplərini aşağıdakı kimi müəyyənləşdirmək olar:*

- idarəetmə sisteminin polisentrikliyi;
- mədəni fəaliyyətin iqtisadi model və formalarının rəngarəngliyi;
- maliyyə sisteminin demonopolizasiya, desentralizm və demokratikləşdirilməsi, onun proqram-məqsədli yanaşmaya istiqamətləndirilməsi;
- dövlət və qeyri-hökumət təşkulatları arasında, ümummilli maraqların prioriteti şərti və müqavilə üzrə, həmkarlıq və əməkdaşlıq münasibətlərinin təmin edilməsi.

Demokratik ölkələrin təcrübəsi göstərdi ki, mədəniyyətin inkişafının mərkəzləşmuş yox, polisentrik prinsiplə idarə edilməsi daha effektiv nəticələr verir. Bu sistem mədəni siyasətin subyektləri rolunda çıxış edən dövlət və qeyri-hökumət təşkilatlarının məsuliyyət və müstəqilliyi prinsipinə əsaslanır. Mədəniyyətin inkişafının

idarəedilməsinin yeni texnologiyası kimi, o, *proqramlı idarəetmədən* istifadə edir. Dövlətin müvafiq qanunvericiliyi ilə tənzimlənən polisentrik sistem həm büdcədən, həm də büdcədənkənar maliyyə resurslarını, eləcə də yeni ictimai monitorinq və fəaliyyət nəticələrini qiymətləndirən digər formaları məqsədli cəlb etməklə, *müxtəlif iqtisadi modellərin* istifadəsini nəzərdə tutur. Demokratik modelləri təhlil edən alimlər, mədəniyyətin təşkilati-idarəetmə strukturlarının, müxtəlif iqtisadi mexanizmlərə əsaslanan, dörd tipini ayırırlar : dövlətin inzibati strukturları; iqtisadi struktur; dövlət-ictimai strukturları; ictimai özünüidarə strukturları. Analoji qaydada qurulan *regional idarəetmə* mədəniyyətin inkişafının polisentrik idarəedilmə sisteminin mühüm tərkib hissəsidir.

İdarəetmənin polisentrik sistemi sosial-mədəni fəaliyyətin monopoliya və mərkəzləşmədən azad edilib, demokratikləşdirilməsini,onun proqram-məqsədli yanaşmaya istiqamətlənməsini nəzərdə tutur. Bu yanaşmaya görə, fəaliyyətlərin strateji cəhətdən mühüm istiqamətləri məqsədli maliyyə sisteminə malik olmalı, məsuliyyət, vasitə və nəticələrin paylanması icraçılar arasında düzgün nizamlanmalıdır. Maliyyə resursları paylanmasının bu modeli çoxsəviyyəli səciyyə daşıyaraq, mərkəzi orqan və mədəni müəssisələr, yerli hakimiyyət, bələdiyyələr, qeyri-hökumət təşkilatları və mədəni siyasətin digər subyektləri arasında mədəni inkişaf proqram və layihələrinin reallaşdırılmasını təmin edir. Bu zaman sosial-mədəni fəaliyyət üçün əlverişli iqtisadi və hüquqi şəraitin yaradılma prioritetləri mədəniyyət təşkilatının statusu ilə deyil, onların fəaliyyət nəticələrinin keyfiyyət və sosial əhəmiyyəti ilə şərtlənir. Bu gün dövlət və cəmiyyətin, eləcə də mədəni irsin mühafizəsi funksiyasını yerinə yetirən institutların inkişafı üçün strateji əhəmiyyət daşıyan təhsil, tərbiyə, elm və texnologiyaların məqsədli maliyyələşdirilməsinin artırılması üzrə, ruhi mədəniyyət sistemi daxilində maliyyə axınının yenidən bölüşdürülməsi Azərbaycan üçün aktual məsələdir. Burada sahə və regional maraqları, əsas prioritet olan, ümummilli maraqlarla uyğunlaşdırmaq vacibdir. Büdcə mənbələri, sahibkarlıq strukturları və xeyriyyə təşkilatları əsasında formalaşdırılan mədəniyyəti maliyyələşdirmə

fondlarının yaradılması, vergi siyasətində müvafiq dəyişikliklərin edilməsi mühüm praktik əhəmiyyət kəsb etməyə başlayır.

Azərbaycanda mədəniyyətin inkişafının idarə edilməsi sistemində hüquqi təminata mühüm əhəmiyyət verilməlidir. Ənənəvi idarəetmə vasitələri olan inzibati qərarlar yeni -müqavilə münasibətləri və qanunvericilik aktları ilə əvəz edilməli, idarəetmə fəaliyyətinin alətləri isə, tədbirlər əvəzinə, cəmiiyyət üçün qiymətli praktik nəticələr verən - sosial sifariş, proqram və layihələr olmalıdır.

Mədəniyyət idarələri - mədəni fəaliyyətin əsas reallaşdırma forması, sosial-mədəni inkişafın məqsədi və problemlərin həlli vasitəsidir. Mədəniyyət müəssisələri fəal yaradıcı fəaliyyət, sosial-mədəni inkişafın strateji problemlərinin effektiv həlli vasitəsi olmalıdır. Azərbaycanda mədəniyyətin inkişafının idarəedilmə sisteminin demokratikləşdirilməsi mobil və mütəhərrik strukturlu mədəniyyət idarələrinin optimal şəbəkəsinin yaradılmasına yardım etməlidir.

*Mədəni inkişaf prosesində cəmiyyətin müxtəlif sosial institut və sosial qruplarının,* o cümlədən, ümumi maraqlar əsasında, onun əhali və sponsorlar kimi subyektlərinin *geniş iştirakı* mühüm əhəmiyyət kəsb edir. Bu, ictimai-faydalı fəaliyyət proqram və layihələrinin mədəniyyət yaradıcıları, onun idarəedicilər və istehlakçıları, bütün maraqlı dövlət və qeyri-hökumət təşkilatları tərəfindən açıq müzakirə prosedurları ilə müşayiət olunmalıdır. Müzakirələrin açıq, *demokratik xarakteri* mədəni fəaliyyət obyekt və subyektlərinin bütün spektrini nəzərə almalı, gəlinən qərarların şəffaflığını təmin etməlidir. Bu və ya digər proqramlarda ictimai prioritet, məqsədəuyğunluq və gözlənilən nəticələrin strukturlarına verilən *ekspert rəyləri* qəbul olunmuş qərarların əsaslandırılmasına təminat verəcəkdir.

İctimai rifah artımı və cəmiyyətin həyat səviyyəsinin yüksəlməsi maraqlarından çıxış edərək, mədəniyyətin inkişafının məhsuldar idarə edilməsi, statusundan asılı olmayaraq, ölkənin mədəni təşkilatlarının fəaliyyəti üçün bərabər imkanlar yaradılmasına yardım etməlidir. Bu kontekstdə, müəyyən imtiyazlı təşkilatlara proteksionist siyasətini rədd edən, monopolizmin əksinə yönələn və mədəni fəaliyyət subyektləri arasında sağlam rəqabət təmin edən şəraitin formalaşdırılması mühüm prinsiplərdən biri olmalıdır. Başqa sözlə,

icraçı təşkilatın statusundan asılı olmayaq, mədəniyyətin strateji istiqamətlərini, mədəni fəaliyyətin sosial əhəmiyyətli növlərini dövlət özü müdafiə etməlidir. Monopoliyanın obyektiv təməli olan resursların və mülkiyyət hüquqlarının ciddi təşkilatçılıq, peşəkarlıq və intellektual potensiala malik sosial inkişaf əhəmiyyətli ərazi və qeyri-hökumət təşkilatlarının xeyrinə, yenidən bölünməsi - mədəniyyətin inkişafının idarəetmə mexanizmlərinin təkmilləşdirmə üsullarından biridir. Mədəniyyətin idarəedilməsinin milli sistemi öz forma və metodlarını vaxtlı-vaxtında və mütəhərrik dəyişərək, müxtəlif şəbəkələrin - elm, təhsil, incəsənət, informasiya, hüquq və ruhi mədəniyyətin digər sosial institutları, Azərbaycanın dövlət və qeyri-hökumət idarələri fəaliyyətinin harmonizasiyasına, ölkənin proporsional sosial-mədəni inkişafını təmin edən məqsədyönlü koordinasiya və fəaliyyət vahidliyinə yardım etməlidir. Respublikada mədəniyyətin təşkilat formaları Azərbaycanın inkişaf layihələri, proqram, vəzifə və məqsədlərinə uyğunlaşdırılmalıdır. Onlar dünya və xüsusilə də Azərbaycan mədəniyyətinin inkişaf tendensiyaları və qanunauyğunluqlarını nəzərə almalı, əhalinin mədəni tələbatlarını ödəməlidir. İdarəetmə sisteminin yenidənqurulması vətəndaş maraqlarının prioriteti əsasında, status və idarə tebeçiliyindən asılı olmayaq, mədəni siyasət və mədəni fəaliyyət subyektlərinin peşəkarlıq baxımından səriştəli dairələrinin geniş iştirakı, eləcə də vətəndaş maraqlarının prioriteti əsasında, həm "aşağıdan", həm də "yuxarıdan" aparılmalıdır.

Əfsus ki, Azərbaycanda indiyə qədər, vətəndaş cəmiyyətində mühüm rol oynayan, mədəniyyətin dövlət strukturları ilə qeyri-hökumət təşkilatlarının konstruktiv *həmkarlıq fəaliyyətini* təmin edən, mədəniyyətin idarəedilməsinin yeni dövlət mexanizmi işlənməmişdir. Problem, *hökumət və qeyri-hökumət mədəniyyət təşkilatlarının birləşdirilməsi və mədəniyyətin inkişafının idarə edilməsində qeyri-hökumət təşkilatlarının bərabərhüquqlu iştirakını təmin etməkdən* ibarətdir. Mədəniyyətin inkişafının effektiv idarəedilməsinin mühüm şərtlərindən biri də mədəni fəaliyyət subyektlərinin iqtisadi və dünyagörüş maraqlarının daxili harmoniyasına nail olmaq, həmçinin, maraqların zaman baxımından dəyişmə dinamikasına nəzarət

etməkdir.Bu məsələlərin düzgün həlli kulturoloji metodologiyaya əsaslanan elmi yanaşma tələb edir və aşağıdakıları nəzərdə tutur:

- mədəni fəaliyyəti və mədəni siyasəti subyektlərinin fəaliyyət üsul, vasitə, maraqlarının təhlili;
- mədəniyyət institutlarının mövcud təşkilat formalarının onların dəyişən maraqları və bütövlükdə mədəniyyət inkişafının yeni tələblərinə uyğunluğunun aşkar edilməsi;
- sosial-mədəni fəaliyyətin yeni növlərinin layihələndirilməsi və demokratik mədəniyyətin inkişafını təmin edən yeni idarəetmə modellərinin yaradılması.

İdarəetmənin effektivliyi üçün maraqların tənzimlənməsinin mühüm əhəmiyyəti vardır. Bütöv sosial sistem kimi, mədəniyyətin inkişafının effektiv təşkili və idarə edilməsi mədəni siyasətin müxtəlif obyekt və subyektlərinin ictimai, kollektiv və fərdi maraqlarının harmonizasiyasını nəzərdə tutur. Bu, milli və regional, iqtisadi və sosial, siyasi, etnik və digər maraqları, dövlət və qeyri-hökumət mədəniyyət təşkilatlarının və ayrı-ayrı vətəndaşların maraqları daxil olmaqla, cəmiyyətin sosial-mədəni fəaliyyət iştirakçılarının maraqlarıdır. Belə yanaşma əsasında, demokratik sistem, ictimai rifahın inkişafının yeni keyfiyyət imkanlarını açır. Bu zaman, məcmuu ölkənin ictimai rifahını təşkil edən ruhi və maddi dəyərlərin inkişafı, istifadəsi, saxlanması, və istehsal zərurəti ilə bağlı ictimai maraqlar kollektiv və fərdi maraqlara nəzərən, prioritet xarakter daşımalıdır.

Kulturoloji təhlilin mühüm komponenti *insan faktorunun təhlili,* xüsusilə də, mədəni prosesdə cəmiyyətin müxtəlif üzv və qruplarının rolunun aşkar edilməsidir. Qarşıya qoyulmuş inkişaf məqsədlərinə nail olmaq üçün, sosial-mədəni fəaliyyət subyektləri intellektual, etik, hüquqi, təşkilati, istehsalat-maliyyə, bədii və digər resurslardan istifadə edərək, sosial-iqtisadi qarşılıqlı münasibətə girirlər. İnsanın mədəniyyətdəki sosial rolu mürəkkəb xarakter daşıyır. Onun mədəniyyətə münasibəti asudə vaxt və əyləncə məqsədi ilə istehlak xarakteri, peşəkar ruhi istehsal xarakteri və ya sahibkarlıq maraqları xarakteri daşıya bilər. Cəmiyyətin müxtəlif üzvləri, vəziyyətdən asılı olaraq, bir halda mədəniyyətin yaradıcısı, digər halda isə, istehlakçısı

kimi çıxış edir. Alimlər mədəniyyətin yaradıcıları, menecerləri, mədəniyyət işçiləri, resurs sahibləri və əhalidən ibarət bir neçə kateqoriyanı müəyyən etmişlər. Bu beş qrupdan hər biri üçün müvafiq tələbat və maraqlar müəyyənləşdirilir. Mədəniyyətin yaradıcıları üçün bu - elm, təhsil, incəsənət və "ruhi istehsalın" digər istiqamətlərin inkişafı, mədəni irsin qorunması, mənəvi mədəni dəyərlərin yaradılması, həmçinin cəmiyyətin inkişafında yaradıcı xidmətlərinə görə ədalətli maddi və mənəvi mükafatlandırma üçün dövlət tərəfindən zəruri şəraitin yaradılmasıdır. Mədəniyyət menecerləri əsas problemi mədəniyyətin inkişafına, mədəniyyət idarələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə büdcə xərclərinin artırılmasında, eləcə də mədəniyyət məhsullarının ödənişli növlətinə əhalinin ehtiyacının artırılmasında görürlər. Mədəniyyət məhsullarının mənimsənilməsi və tirajlaşdırılmasını təmin edən mədəniyyət işçiləri üçün başlıca stimul onların əməyinin maddi mükafatlandırılması, mədəniyyət idarələrinin maddi-texniki bazasının inkişafı və vəzifədə inkişaf etmək imkanıdır. Büdcə və digər vasitələri idarə edən resurs sahibkarları üçün ən başlıcası mədəni fəaliyyətin, yatırılmış vəsaitə uyğun, nəticəyönümlülüyünün təminatı, eləcədə onun real gəlir gətirmək qabiliyyətidir. Mədəni dəyərlərin istehlakçısı olan əhali üçün əsas motivasiya - mədəni nailiyyətlərdən geniş istifadə etmək imkanıdır.

Demokratik ölkələrdə sosial-mədəni inkişafın strateji məsələləri demokratik yolla formalaşdırılan kollegial idarəetmə orqanları tərəıfindən idarə edilir. Siyasi qərarların qəbul edilməsində mərkəzi və yerli hakimiyyətlə birgə qeyri-hökumət təşkilatları və bələdiyyələr də iştirak edir. Mədəni siyasətdə yeni prinsip və yanaşmaların bu təcrübəsindən çıxış edərək, müasir Azərbaycanda mədəni siyasəti həyata keçirən kollegial orqan kimi, *mədəniyyət üzrə Dövlət Şurasını* tövsiyə etmək olar. Şura dövlət və qeyri-hökumət təşkilatlarının səriştəli nümayəndələri, ekspert-kulturoloq, iqtisadiyyatçı və hüquqşünas, təhsil, elm və incəsənət xadimlərindən ibarət olmalıdır.Bu Şura mədəni siyasəti demokratik əsaslar üzrə formalaşdırıb, həyata keçirməli, mədəniyyətin inkişafı, mədəni siyasətin subyektləri və mədəni fəaliyyət üçün maliyyə resurslarından istifadə hüquqlarınıtəsdiq etməli, monitorinq və nəticələrin

qiymətləndirilməsini həyata keçiurməli, mədəniyyətin gələcək perspektivlərini proqnozlaşdırmalıdır. Bu onunla əlaqədardır ki, mədəniyyət idarələrinin hüquq və vəzifələri yalnız, siyasi şərait və insan, maliyyə, texniki, təşkilati resurslardan asılı olan, real imkanların olduğu yerdə effektiv istifadə edilə bilər.

Azərbaycan mədəniyyəti inkişafının effektiv idarəedilmə forması kimi, mədəni siyasətin prioritetləri və əsas istiqamətlərinin, eləcə də ictimai resursların paylama strukturlarının müzakirə olunduğu, *xüsusi kulturoloji konfrans və seminarlar* ola bilər. Bu görüşlər həm peşəkar, həm də elm, təhsil, incəsənət xadimləri, iqtisadçı və hüquqşünas, siyasətçi və jurnalistlər, parlament, mərkəzi və yerli hakimiyyət, bələdiyyə və qeyri-hökumət təşkilatları, sahibkar və xeyriyyəçilər, diplomat və din xadimlərinin iştirakı ilə geniş formatda keçirilə bilər.

Azərbaycan üçün aktual olan sosial-mədəni inkişaf problemi həllinin perspektivli formalarından biri kimi, Azərbaycanın mədəni tərəqqisinin ümumi maraqları ilə birləşən dövlət və qeyri-hökumət təşkilatları, eləcə də vətəndaşların könüllülüyü əsasında *Azərbaycan mədəniyyət Forumu* ola bilər. Hal-hazırda "Simürğ" Azərbaycan mədəniyyət Assosiasiyası həmin Forumun yaradılması üzərində çalışır.

Azərbaycan Respublikasında yeni mədəni siyasətin formalaşdırılması və mədəniyyətin idarə edilməsinin köhnə sisteminin dəyişdirilməsində bir çox sosial və humanitar elmlərin elmi sintezatoru olan *kulturologiya* fundamental rol oynaya bilər və oynamalıdır. Çoxəsrlik dünya və milli mədəniyyətin tarixi, nəzəri və praktik öyrənilməsinin sistemli təhlilinə istinadən, kulturoloji metodologiya həyat fəaliyyətinin mahiyyət və qanunauyğunluqlarını düzgün anlamağın və insan və cəmiyyətin rifahının ruhi təkmilləşmə yollarını görməyin və həyat keyfiyyətinin yüksəldilməsinin yeni imkanlarını açır. O, dövlətin inkişaf sürəti və keyfiyyətini müəyyən edən fakt və şərtlərin bütün rəngarəngliyini nəzərə alaraq, praktik problemlərin elmi qoyuluşuna əsaslanan həyati modellərini qurmağa, onların həlli yolları, üsul və vasitələrinin düzgün müəyyənləşdirilməsinə, ölkənin idarəetmə texnologiyalarının təkmilləşdirilməsinə imkan verir.

Yeni prinsiplər üzrə mədəniyyətin inkişafının idarəedilməsinin effektivliyinə nail olmaq üçün yüksək ixtisaslı kulturoloq

mütəxəssislərin hazırlığı və səmərəli istifadəsinin mühüm əhəmiyyəti var. Gənc kulturoloqlar ruhi mədəniyyətin müxtəklif sahələrinin dövlət idarəçiliyi sistemində hökumət tərəfindən fəal istifadə edilməlidirlər.Onlar təhsil; mədəniyyət; gənclər, idman və turizm nazirliklərində ; Milli elmlər Akademiyasında; Dövlət Tele-Radio şirkətində; mərkəzi və yerli idarəetmə orqanlarının müvafiq bölmələrində ; MilliMəclisin komissiyalarında, eləcə də müvafiq qeyri-hökumət təşkilatlarında, bələdiyyə və respublika həmkarlar komitələrində ciddi istehsalat praktikası keçməlidirlər.

Dövlət quruculuğu və idarəçiliyində kulturologiyanın praktik rolunun artması ilə əlaqədar olaraq, onun elm və tədris fənni kimi institutlaşdırılması, xüsusilə, mühüm əhəmiyyət kəsb etməyə başlayır. Azərbaycanda kulturoloji institutlar, mərkəzlər, kafedra və digər idarələr yaradılmalı, kulturoloji təhsil və tədqiqatın, dövlət və qeyri-hökumət təşkilatları şəbəkəsi üçün müəllim, alim və menecer-kulturoloqların hazırlanmasının prioritet inkişafına zəruri şərait formalaşdırılmalıdır. Bu məsələ üzrə qərar qəbul edilməsinin gecikdirlməsi ölkəniin mədəniyyətin inkişafının idarəedilməsi sisteminin təkmilləşdirilməsi və yeni mədəni siyasətin formalaşdırılmasına mənfi təsir göstərir. Sistemli kulturoloji tədqiqatlar Azərbaycan dövlətinin dünyanın aparıcı demokratik ölkələrinin inkişaf səviyyəsinə yaxınlaşma zamanının xeyli azaldılmasını təmin etməyə qabil, ölkənin modernləşdirilməsinin strateji texnologiyalarının hazırlanması üçün universal elmi əsas ola bilər və olmalıdır.

♔ *10 oktyabr 2001.*

## QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MƏNƏVİ MƏDƏNİYYƏTƏ FƏLSƏFİ VƏ HƏYATFƏALİYYƏT TEXNOLOGİYASI KİMİ BAXIŞ HAQQINDA

(*"Dünyagörüşlərin diferensasiya və inteqrasiyası: müasir mədəniyyətdə dəyər istiqamətlərinin dinamikası"Altıncı beynəlxalq fəlsəfi-kulturoloji konqresdəki məruzənin mətni. Sankt-Reterburq, 29 oktyabr2003-cü il)* "Cəmiyyət mədəniyyəti müdafiə edərsə, mədəniyyət cəmiyyəti xilas edər"

Müasir dünya sivilizasiyasındakı qlobal böhran zamanın tələblərinədüzgün, elmi və etik əsaslandırılmış cavabların verilməsini, əvvəllər qədul edilmiş qayda və təsəvvürlərətənqidi təhlil və maraqlı tərəf kimi nəzərdən keçirilməsini, siyasi mədəniyyətin, məsuliyyət və istehlak, idarəetmə və beynəlxalq münasibətlərin təkmilləşdirilməsini tələb edir. Qlobal vətəndaş cəmiyyəti mədəniyyətinin və bəşəriyyətin davamlı inkişafına nail olunması müasir dünyanınaktual strateji problemidir. Bu problemin həlli dünya mədəniyyətinin qurulması, ziddiyyətlərin həlli, korrupsiya və yoxsulluğun səviyyəsinin azaldırlması, sosial həyatın əsası olan ailənin möhkəmləndirilməsi, xalqların daha yaxşı qarşılıqlı anlaşması və yeni yüzillikdə bəşəriyyətin təhlükəsiz inkişafı üçün yeni imkanlar açır.

Tarixi inkişaf prosesində, vəhşilik və barbarlıq dövrünü dəf edən bəşəriyyət öz sosial həyatını müasir sivilizasiyanın vətəndaş qanunları üzrə qurmuşdur. Barbar həyat tərzinə məxsus ölüm, hannibalizm, insest, eləcə də insan qəddarlığı və cahilliyinin digər təzahürlərini rədd edən, ilk sivilizasiyalar dövründə, artıq humanist prinsiplərə əsaslanan, yeni həyat tərzi formalaşmağa başladı. Sivilizasiyanın inkişafı ticarət, sənətkarlıq, elm, etika, hüquqi normalar, incəsənət, təhsil və insanın həyat fəaliyyəti texnologiyalarının təşmilləşdirilməsi mərkəzləri olan şəhər mədəniyyətinin proqressiv inkişafı ilə əlaqədar idi. Bununla yanaşı, mədəniyyətin tarixi nailiyyətlərinə baxmayaraq, hətta, müasir yüksək inkişaflı cəmiyyətlərdə, bəzi hallarda, sivil quruluşları məhv edən bioloji atavizm və psixoloji naqislik təzahürləri özünü göstərir. Deməli, bizim günlərdə həyat fəaliyyətinin sülhyaradıcı ictimai texnologiyaları, dünyada və cəmiyyətdəki dağıntıları aradan qaldıran əsas şərt olaraq, bəşəriyyət üçün vacib və zəruridir. Sülhməramlılıq Yer Kürrəsində həyati dəyərlərin qorunması və lokal, regional, eləcə də qlobal münaqişələrin humanistcəsinə həll edilməsinin zəruri praktik vasitəsinə çevrilir.

Belə texnologiyaların özəyi və mahiyyəti biliklə humanist etikanın sintezi olan yüksək ruhi mədəniyyətdir. Komparativ kulturoloji təhlil göstərir ki, "insanın xilası nədədir?" sualının düzgün cavabı birdir: "insan və cəmiyyətin yüksək ruhi mədəniyyəti". Ruhi mədəniyyətin ən böyük rolu ondadır ki, maraqlar, mentallıq və ənənələrdə olan

fərqlərə baxmayaraq, o, nəinki şəxsiyyətlərarası səviyyədə, eləcə də, milli, regional və dünya miqyasında mühüm birləşdirici faktor kimi çıxış edir. Maraqlara pozitiv təsir göstərmək qabiliyyəti inkişafın məqsəd və vəzifələrini müəyyən edir, mədəni müxtəlifliklərdən şüurlu istifadə etmək imkanı verir və ziddiyyət və münaqişələri yaradıcı məcraya yönəltməyə imkan yaradır. İnsanların mədəni səviyyəsinin aşağıdırsa, zəngin təbii resurslar insanın sosial inkişafında gözlənilən nəticələri vermir, maddi rifah isə səadət üçün təminat yaratmır. Cəhalət – yoxsulluq və şərdir, yoxsulluq isə, milli təhlükəsizliyin başlanğıcı, vətəndaş həmrəyliyinin dağılması və ölkənin xarici təsirlər qarşısında zəifləmə səbəbidir. Ölkənin başlıca milli sərvəti - onun mədəni potensialı, ilk növbədə, yüksək mədəniyyətli insandır. Bununla yanaşı, mədəniyyət vasitə yox, həm də insan inkişafının göstəricisi və məqsədidir. İnsan biliyi, bacarığı, mütəşəkkilliyi və mənəviyyatlılığının yüksək səviyyəsi həyatın mahiyyətini artırır, humanist məqsədlərə çatmaq uğrunda mübarizədə insana zəruri güc verir, səadət üçün imkan yaradır. Mədəniyyət, həm də, insan dəyərlərinin ölçüsüdür. "Yüksək mədəniyyət" şəxsiyyətintam dəyərinin həqiqi meyarı kimi çıxış edərək, adamın sivil insan cəmiyyətinə daxil olması vəsiqəsidir. O, dini, milli, irqi və digər fərqləri aradan qaldıraraq, insan həmrəyliyi və sülhün dayağına çevrilir. İnsan, cəmiyyət və bütün bəşəriyyətin gələcəyinin yolu yalnız yüksək ruhi mədəniyyətdən keçir.

Yüksək ruhi mədəniyyət şəxsiyyətin mənəvi kamilləşməsinə yardım edən vicdan və humanist etika kimi, insan inamını da nəzərdə tutur. Yaradana inam insanın həyatını (öz yaranışına görə ilahi) "təbii qanunlar" əsasında tənzimləyərək, onda sosial məsuliyyət yaradır, insan şəxsiyyətinə, şüurlu ictimai quruluş və normalara, qanunlara, mülkiyyətə hörmət formalaşdırır. O, ictimai münasibətlərin tənzimlənməsinə və dövlətin stabil sosial-siyasi inkişafına yardım edir. Dindar insanlar özlərində və digərlərində yüksək ruh, alicənab qəlb, "göylərə" yaxınlıq hissləri tərbiyə etməyə can atırlar. Onlar insan qəlbini Allahın həqiqi mehrabı hesab edərək, səadət və yaradıcı fəaliyyətə inam, məhəbbət və ümid əsasında yaşamağa can atırlar. Belə həyat mövqeyi, qanunauyğunluq və təsadüfləri hələ də

açılmamış reallıqların, dialektik ziddiyyətlərlə dolu olan mürəkkəbliklərini aradan qaldırmağı asanlaşdırır.

Dini və dünyəvi mədəniyyətdə sosial şər və onunla mübarizə anlamına müxtəlif cür yanaşılır. Belə ki, iudaizm, islam və xristian dini mədəniyyətində şərin səbəbkarı – şeytan, insanın xilaskarı isə, imandır. Dünyəvi mədəniyyətdə şərin səbəbi – cahillik, ondan xilas olma yolu isə - bilik, humanist etika və yaradıcılıqdır. İnkişaf və səadətə can atan mədəni insan bilik, bacarıq və mütəşəkkilliklə birgə humanist mənəviyyata malik omalı, şəxsi və ictimai rifah naminə yaradıcı fəaliyyət həyata keçirməlidir. Bununla yanaşı, dini və dünyəvi yanaşmaları kamil insan anlayışı birləşdirir. Bütün ləyaqətlərin zirvəsi olan kamillik yüksək olduqca, şər azalır; kamilliyə doğru gedən yol - yüksək ruhi mədəniyyətə gedən yoldur.

Bizim təsəvvürümüzə görə, bəşəriyyətin müasir sosial mədəniyyətinin ən cəlbedici və şüurlu forması demokratik dəyər və prinsiplərə əsaslanan vətəndaş cəmiyyəti mədəniyyətidir. O, yeni demokratik ölkələr tərəfindən insanlar və xalqlar arasında sülhün stabilliyinin, sosial inkişafın, daha uğurlu gələcəyin yolunun, bəşər düşüncəsi və fəaliyyətinin tarixi nailiyyəti kimi nəzərdən keçirilir. Vətəndaş cəmiyyəti mədəniyyəti - vətəndaşların sosial fəallığı və özünüidarəsinin inkişafı hesabına ictimai rifahın artımını təmin edən yüksək həyat fəaliyyəti mədəniyyətidir. O, demokratik etika və vətəndaş hüququ, azad informasiya, stabil həyat təminatı sistemi, vətəndaş, cəmiyyət və dövlətin maraqlarının harmonizasiyasını nəzərdə tutur. O, şəxsiyyətin sosiallaşması və ictimai, o cümlədən milli və dini münasibətlərin tənzimlənməsi üçün yeni imkanlar açır, düzgün sosial, siaysi, hüquqi və iqtisadi qərarların hazırlanması və düzgün həll edilməsinə yardım edir. Demokratik mədəniyyətin inkişafı vətəndaş cəmiyyətinin humanist dəyərlərinə zidd olan avtoritarizm, despotizm, eqoizm, avantürizm siyasi mədəniyyətinin tədrici eroziyasına səbəb olur. Bu yol müxtəlif xalqların ideologiya və iqtisadi maraqlarının, daxili resurs və əməkdaşlığın istifadəsinə əsaslanan üçüncü ölkələrin davamlı sosial-iqtisadi inkişafının harmonizasiyasına aparır.

Nəzərə almaq lazımdır ki, demokratiya bütün dərdlərin dərmanı deyil, liberal dəyərləri isə ideal adlandırmaq olmaz. Belə ki, Qərb

üçün xarakterik olan ifrat fərdiyyətçilik sosial altruizmi məhv edən arxieqoizmin genişlənməsi üçün şərait yaradır, kütləvi mədəniyyət isə, yüksək intellektual və etik mədəni dəyərlərin eroziyasını yaradır. O.Şpenqler, A.Toynbi, M.Horkxaymer, Q.Markuze, E.Fromm, Orteqa–İ-Qassetin və bir çox başqa tanınmış kulturoloq, sosioloq və filosofların tənqid obyektinə çevrilən bu və digər neqativ xüsusiyyətlər qərb mədəniyyətində böhran, şəxsiyyətin cəmiyyətdə yadlaşması hadisələrinin yaranmasına, sərtlik, biganəlik və himayəçilik tendensiyalarının yayılmasına səbəb olur. A.Toynbi Yeni dövrün əvvəlindən yaranan qərb sivilizasiyasındakı mənəvi böhranı nəzərdən keçirərkən, inkişaf etmiş Qərb ölkələrinin eqoizmini, humanizm mövqeyindən tənqid edərək, onları müasir dövrün qlobal problemlərinin həll edilməsinin mühümlüyünü dərk etməyə və millətçilik, fərdiyyətçilik və kommunizm kimi “postxristian ideologiyasını” aradan qaldırmağa çağırırdı. Bununla belə, siyasi, sosial və beynəlxalq stabilliyin əldə edilməsi vasitəsi olan demokratik mədəniyyətin mövcud üstünlükləri qlobal vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılması problemini aktuallaşdırırdı. Bu problemin həlli eyni zamanda həm “aşağıdan”milli dövlətlər səviyyəsində, həm də “yuxarıdan” beynəlxalq təşkilatlar səviyyəsində həyata keçirilməlidir.

*Qlobal vətəndaş cəmiyyəti mədəniyyətininqurulması prosesində milli dövlətlərin rolu mühümdür.* Məlum olduğu kimi, hər bir milli mədəniyyətin xarakter və keyfiyyəti təbii-coğrafi şərait, bioloji kod, sosial mühit, tarixi şərait və mədəni mübadilə faktorlarından asılıdır. Bu zaman dövlətin siyasi rejimi ilə tənzimlənib, özündə ailə, kollektiv və cəmiyyət kimi qarşılıqlı asılılıqda olan institutları birləşdirən sosial mühit aparıcı rola malik olur.

Dövlət və cəmiyyətin sosial-mədəni inkişafında *ailə* mühüm rol oynayır. İnsanın mədəniyyətində tərbiyə həlledici əhəmiyyətə malikdir. Əgər insan ailədə humanist tərbiyə almamışdırsa, onda sosiallığın əksinə, “mədəni atavizm” üstün ola bilər. Belə ailələr insanın “bioloji”, “heyvani” mədəniyyətinin təbii kultivasiyası üçün şərait yaradır. Xeyit və ya şər əməllərə meyllilik şəxsiyyətin fərdi mədəniiyyəti və xarakterinin formalaşdırılması üçün qidalandırıcı mühit olan, tarixən formalaşmış mədəni ənənələr, ailənin

psixologiyası, dünyagörüşü, həyat tərzi ilə müəyyən edilən genetikasından asılıdır. Humanist tərbiyənin olmadığı sosial cəhətdən neqativ genetika zamanı yaxşı təhsil, humanist mənəviyyat və ictimai maraqlara zidd olan "bioloji" mədəniyyətli insan tərəfindən öz eqoistik maraqları, avantürist məqsədlərinə nail omaq üçün istifadə olunur. Bu, ictimai asayiş və təhlükəsizlik üçün qorxu yaradan şər, sosial gərginlik, konflikt və dağıdıcı proseslər əmələ gətirərək, yüksək sosial mədəniyyətin eroziyası faktoru kimi çıxış edir. Yüksək etik prinsiplər və uşaqlarının yaxşı təhsil prioritetlərinə sadiq olan möhkəm ailə dövlətin dayağı olaraq, cəmiyyətin sağlam mənəviyyatını müəyyən edir. Ailə mədəniyyəti - cəmiyyətin mədəniyyətinin göstəricisi və mənbəyi, dövlətin milli mədəniyyətinin, onun həyatiliyi və yaradıcı imkanlarının əsasıdır. O, insan potensialının keyfiyyətini və milli dövlətin mədəni simasını müəyyən edir. Lakin, əgər tərbiyə ailədən başlayırsa, valideynlərin tərbiyəsi, bir çox hallarda, dövlətdən asılıdır. Buna görə də ailələrin tərbiyəsi dövlətin əsas qayğısına çevrilməlidir. Müasir şəraitdə bu mühüm strateji vəzifənin yerinə yetirilməsi, təhsillə bərabər, dövlətin kulturoloji maarif sistemi ilə təmin edilməlidir. Bu sistem bəşəriyyətin şüuru, hissləri və yaradıcı əməyi ilə yaratdığı dünya sivilizasiyasının inkişaf tarixinin əhali tərəfindən dərk edilməsi üçün geniş imkanlar açır.

Millətin sosial-mədəni inkişafının mühüm faktoru *cəmiyyətdir*. Bir çox müasir ziddiyyətlərin mahiyyətinin təhlili göstərir ki, onların əsas səbəbi mədəniyyətlərin ziddiyyətləridir. Mədəniyyətlərin, məhz baza dəyərlərinin müxtəlif iyerarxiyası ilə bağlı olan, ziddiyyəti partlayış doğuran miqrasiya və terrorizmə gətirib çıxarır. Buna görə də, siyasi, sosial, dinlərarası və beynəlxalq stabilliyin əldə edilməsi üçün, demokratik mədəniyyətin bəşəri dəyərlərinin – liberalizm və vətəndaş cəmiyyəti dəyərləri üstünlüyünün təsdiqi yolu ilə xalqların və *vətəndaşların mədəni uyğunluğunun formalaşdırılması* həlledici əhəmiyyət daşıyır. İnsan münasibətlərinin harmonikləşdirilməsi üçün insanların humanizm dəyərlərinə sadiqliyi, eyni və ya yaxın dünyagörüş və maraqlarının olması vacibdir. Bunun üçün, onların Xeyir və Şər, həyat və dəyər anlayışları haqqında təsəvvürlərinin yaxınlaşdırılması mühüm əhəmiyyət daşıyır. Bununla əlaqədar,

qloballaşma şəraitində bəşər mədəniyyətinin universal mənəvi dəyər və prinsiplərinin prioriteti əsasında şəxsiyyətin fərdi mədəniyyətinin formalaşdırılması haqqında mədələ strateji əhəmiyyət alır. Belə fərdi mədəniyyət əsasında, mədəni özünəməxsusluğu pozmadan, öz aralarında harmonik qarşılıqlı təsir ümumiliyi olan mədəniyyətlərin düzgün mikro- və makro sosiumlarını qurmaq olar. Milli mədəniyyətlərin başlıca dəyərlərinin saxlanması şərti ilə, bu siyasi vəzifənin həyata keçirilməsi, mühüm əhəmiyyət kəsb edir. Məhz mədəni özünəməxsusluq, dini fərqlər, həyat tərzi və ənənələri nəzərə alan yanaşma ümumi maraqlara cavab verən qarşılıqlı anlaşmaya nail olmaq üçün geniş imkanlar açır.

Məlumdur ki, şəxsiyyətin və cəmiyyətin mədəniyyətinin formalaşdırılması çox zaman dövlətin siyasi rejimindən asılı olur. Dünya təcrübəsi göstərdi ki, müasir dünyada sosial-siyasi quruluşun ən optimal modeli demokratiyadır. Lakin demokratiya da özündə inkişafın dağıdıcı prosesləri olan adi təfəkkür və postmodern prinsiplərinə əsaslanma, elm, klassik etika, estetika və yüksək incəsənəti inkar etmə, kütləvi mədəniyyətin artımı, maarif və təhsilin defisiti ilə bağlı bir sıra sosial təhlükələri gizləyir. Əgər demokratik quruluş ictimai maraqlara cavab verən düzgün siyasət və sistemli idarəetmə ilə təmin olunmursa, o da antisosial fəaliyyətlər yaradan eqoizmin aradan qaldırılmasına təminat vermir. Bir zamanlar görkəmli alman filosof və kulturoloqu Karl Yaspers, avropa mədəniyyətini tənəzzül kimi səciyyələndirərək qeyd edirdi ki, ümidsizlik daim illüziyalara ehtiyac, həyatın boşluğu - sensasiyalara ehtiyac, gücsüzlük - daha zəif üzərində zorakılıq ehtiyacı yaradır. Bundan çıxış edərək, insanı güclü etməyin, onun həyatının ruhi cəhətdən zənginləşdirilməsinin, daha yaxşı gələcək üçün ona imkan verməyin mühümlüyü aktuallaşır. Məşhur ingilis tarixçisi və kulturoloqu Arnold Toynbi analoji mövqedə dururdu. Toynbinin "Çağırış-Cavab" konsepsiyası mədəniyyətin, daxili və xarici stimulların təsiri ilə passivdən aktivə və əksinə keçidi ilə bağlı, inkişafının dialektik proseslərini məntiqi izah edir. Toynbi mədəniyyətin yaradıcısı olan şəxsiyyətin ruhu, iradəsi və enerjisinə böyük əhəmiyyət verirdi. Dindar adam olmasına baxmayaraq, insan və cəmiyyətin yaradıcı inkişaf prosesini ləngidən faktor kimi, fatalizm

fəlsəfəsinin aradan qaldırılmasına qarşı cəsarətlə çıxırdı. Toynbiyə görə, sivilizasiyanın inkişafının əsasını "Çağırış" və "Cavab" təşkil edir. "Çağırış" – Xeyir və Şər arasındakı mənəvi seçim, eləcə də, təbii və ictimai gərginlik, kataklizmlər şəraitində yaşayib inkişaf etmək uğrunda mübarizə stimulu kimi çıxış edir. "Cavab" – sivilizasiyanın inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir. Toynbiyə görə, məhz bu mifologem insan münasibətlərinin tənzimləyicisidir.

*Ölkənin ümummilli mədəniyyəti* hətta ölkənin iqtisadi sınaq dövrlərində belə, sosial stabilliyin saxlanması və ictimai münasibətlərin tarixən yoxlanılmış vasitəsi kimi çıxış edir. Hər bir milli mədəniyyətin inkişaf strategiyası elə qurulmalıdır ki, mənəvi mədəniyyətin tənəzzülünə aparan çatışmamazlığa qarşı ardıcıl mübarizə bütün yaradıcı səciyyəli proqramlar çərçivəsində həyata keçirilsin. Burada söhbət mənəvi dəyərlərin eroziyası nümunəsi olan yaltaqlıq, yalan, azğınlaşmış konformizm, korrupsiya, qulluq göstərmə, qeyri-sağlam rəqabət, "qara piar" və s.-dən gedir. Vətəndaş cəmiyyəti ictimai münasibətləri üçün təhlükəli olan belə hadisələr üçün ən münbit şərait adi şüurun üstünlüyü və aşağı səviyyəli elmi biliklərə əsaslanan kütləvi mədəniyyətin mozaikliyidir. Demokratik mədəniyyətin formalaşması və inkişafına neqativ təsir göstərən digər faktor konservativ-arxaik təsəvvürlərin üstünlüyü, feodal-avtoritar mədəniyyət və ona uyğun təfəkkürlə əlaqədardır. Bu faktor insanların qarşılıqlı anlaşmasına mane olub mədəniyyətlərin münaqişə səbəbinə çevrilir. Ölkə səviyyəsində ümummilli mədəniyyətin möhkəm özülünün yaradılması məsələsi insanların doğulduğu yer, etnos və dini mənsubiyyəti ilə deyil, şəxsi keyfiyyət, həyat prinsipləri və dəyərləri ilə ölçülməlidir. Deməli, şəxsiyyətin fərdi mədəniyyətinin formalaşdırılması ümummilli əhəmiyyət kəsb edir. Fərdi mədəniyyət vasitəsi ilə mədəniyyətin mikro- və makro sosiumunu, insan birliyini düzgün formalaşdırmaq olar. Bunlardan çıxış edərək, hər bir hökumət əlverişli sosial-mədəni şəraitin yaradılmasına çalışmalı, vətəndaşlarda xeyirxahlığın, qanununn aliliyinə hörmət, yüksək əxlaqlılığın tərbiyəsinə qayğı göstərməlidir. O, əsas məqsədi yüksək mədəniyyətli şəxsiyyət və liderlərin hazırlanması və tərbiyə edilməsi olan elmi əsaslı sosial-mədəni siyasət həyata keçirməli, onların məhsuldar fəaliyyətinə şərait yaratmalıdır.

Alimlər arasında belə birfikir yarnmışdır ki, millətin sosial-mədəni tərəqqisi siyasi-iqtisadi faktorlarla deyil, bioloji şərtlərlə bağlıdır. Başqa sözlə desək, mədəni müxtəliflik bioloji fərqlərlə şərtlənir. Lakin, tarixi təcrübə göstərdi ki, həlledici faktor - insanın formalaşıb böyüdüyü sosial mühitdir. İnasanlar irqindən, dinindən etnos və doğulduğu yerdən asılı olmayaraq, eyni bioloji təbiətə malikdirlər. Lakin, onun həyati imkanlarını və rifahını müəyyən edən, mədəniyyətinin formalaşdıdırlması müəyyən təbii-hava, sosial və siyasi şərtlərdən asılıdır. Mədəniyyətin inkişafı və həyati çətinliklərin aradan qaldırılması üçün təhsil və tərbiyə, eləcə də siyasət və düzgün idarəetmə mühüm əhəmiyyət daşıyır. Yüksək mədəni prinsiplərdən uzaq, düzgün olmayan idarəetmə xalqların degenerasiyası və kökünün kəsilməsinə, onun həyatqabilliyinin aradan qaldırılmasına apararaq, insanlarda imansızlıq, şər, sosial ədalətsizlik, hakimiyyətə etibarsızlıq, gələcəyə inamsızlıq yaradır.

Beləliklə, qlobal vətəndaş cəmiyiyəti mədəniyyətinin qurulması strategiyalarının ən mühüm məsələlərindən biri, ayrı-ayr ölkələrdə ictimai maraqlara cavab verib, sabit inkişaf və ruhi mədəniyyətin tərəqqisini təmin edən *mədəni islahatların həyata keçirilməsidir*. Bu islahatlar vətəndaşların iqtisadi, sosial və siyasi müstəqilliyi, eləcə də məsuliyyətinə yardım edən *düzgün sosial-mədəni siyasət və düzgün idarəetmə əsasında* keçirilməlidir. Hər şeydən əvvəl, söhbət aşağıdakılardan gedir:

- Dövlətin intellektual və mənəvi inkişaf prioritetlərinin ümumi strategiyalarını və milli mədəniyyətlərin demokratikləşdirilməsini təmin edən siyasət;
- Həyat təminatının effektiv texnologiyaları və elmi biliklərin prioritetlərinin yaradılması;
- Demokratiyanın humanist prinsiplərinə əsaslanan etik-hüquqi normaların işlənməsi və reallaşdırılması;
- Elmi əsaslı demokratik idarəetmə sisteminin yaradılması və təkmilləşdirilməsi.

*Belə siyasətin zəruri elementləri aşağıdakılardır:*

□ İnkişaf problemlərinin ictimai müzakirəsi, ekspertlərin tövsiyələrini nəzərə almaqla geniş debat ;

□ Ölkənin demokratikləşdirilməsi, maarifləndirilməsi və modernləşdirilməsi proseslərinin ictimai monitorinqi;

□ Cəmiyyətin bütün sinif və sosiumlarının dövlət proqramlarının reallaşdırılmasına və ümummilli məqsədlərin əldə edilməsinə cəlb edilməsi;

□ Cəmiyyətin bütün sosium, sinif və vətəndaşları maraqlarının harmonizasiyası;

□ Dialektik inkişafın obyektiv qanunları, ölkənin milli maraqları və qloballaşmanın tələbatları əsasında sosial əxlaq və hüquqi normaların təkmilləşdirilməsi;

□ Ən dəyərli milli ənənələri və milli irsi qoruyaraq, təhsil və xalq maarifinin prioritet inkişafı hesabına milli mədəniyyətin intellektuallaşdırılması;

□ İdarəetmə sistemləri, dövlət institutları, istehsal gücü və ictimai münasibətlərin demokratik ölkələrin inkişaf təcrübəsi və demokratik prinsiplər əsasında modernləşdirilməsi;

□ Tərəqqipərvər inkişafın stimulu olan sağlam milli ideyanın kultivasiyası əsasında milli özünüdərkin inkişafına yardım etmək.

Belə yanaşma həm hər bir ölkənin milli inkişaf maraqlarına, həm də qlobal vətəndaş cəmiyyətinin inkişaf maraqlarına cavab verən cəmiyyətin rifahını, yüksək idarəetmə mədəniyyətini və vətəndaş məsuliyyətini, xalqın ümumi mədəni səviyyəsinin yüksəlməsini təmin edən sosial, elmhəcmli iqtisadiyyatın yaradılmasına yardım edəcəkdir. Sosial-mədəni siyasətin mühüm komponentlərindən biri *vətəndaşların etik tərbiyəsidir.* Milli dövlətlər dünyada sülh mədəniyyətinin bərqərar olması məqsədi ilə, peşəsindən - din xadimi və ya siyasətçi, alim və ya sahibkar olmasından asılı olmayaraq, hər bir yüksək mədəniyyətli insanın öz fəaliyyətində siyasi konyüktura və ya eqoistik maraqları deyil, öz sosial missiyasına uyğun olaraq, insanlara humanistcəsinə xidmətin universal prinsiplərinin rəhbər tutmalarına yardım etməlidirlər.

Qlobal vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılması zamanı, milli dövlətlərlə bərabər, *beynəlxalq təşkilatların* da üzərinə məsuliyyətli rol düşür. Qlobal idarəetmə insani, ictimai və beynəlxalq maraqlardan çıxış edərək, yüksək demokratik mədəniyyət prinsipləri əsasında qurulmalıdır, başqa sözlə, insanpərvər və sosial istiqamətli

olmalıdır. Müasir dünyanın obyektiv inkişaf ziddiyyətlərinin həll edilməsinə kulturoloji yanaşma Şərq və Qərb ölkələri xalqlarının ümumi inkişaf maraqlarına cavab verən əməkdaşlıq və qarşılıqlı anlaşmanın əsası olan qlobal vətəndaş cəmiyyəti sosial-siyasi mədəniyyətinin formalaşdırılması zəruriliyini göstərir və bu məntiqini əsaslandırır. Bu yanaşmanın mahiyyəti ondanır ki, milli mədəniyyətlərin demokratikləşdirilməsi müxtəlif xalqların və ayrı-ayrı vətəndaşların maraqlarının harmonizasiyasına pozitiv təsir göstərərək, mədəniyyətlərin harmoniyasına aparır. O, yeni mədəni mühit formalaşdıraraq, qeyri-demokratik xarakterli siyasi rejimlərin tədrici transformasiyasına, ekstremizm və terrorizmin müxtəlif formalarının aradan qaldırılmasına, xalqların və ayrı-ayrı ölkə vətəndaşlarının arasında sülh mədəniyyətinin yaradılmasına kömək edir. Deməli, qlobal vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılması məqsədi ilə bütün dünyada demokratiya quruculuğunun əlverişli şəraitini yaratmaq vacibdir.

Qlobal vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılması zərurəti. Hər şeydən əvvəl, BMT və əlaqədar qeyri-hökumət strukturlarının üzərinə böyük məsuliyyət qoyur. Yəqin ki, BMT qloballaşma şəraitində dünya sivilizasiyasının yaradıcı faktoru olan, yüksək ruhi mədəniyyətin inkişaf etdirilməsi məsələlərinə diqqəti artırmalıdır. O, bütün dünyada sülh mədəniyyətinin yaradılması üçün dünya mədəniyyəti təşkilinin yeni forma və mexanizmlərinin axtarışı, planetar miqyasda şüurlu mədəni ümumiliyin formalaşdırılması və mədəniyyətlərin harmonizasiyası üçün yeni kulturoloji texnologiyaların hazırlanması və praktik istifadəsi prosesinə başçılıq edə bilərdi. Bizim fikrimizcə, zamanın tələblərinə cavab verən qlobal vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılması və inkişafının ən effektiv mexanizmi, BMT və YUNESKO-da *dünya mədəniyyəti üzrə Beynəlxalq Şuranın* yaradılması ola bilərdi. Bu, insan inkişafı üzrə mürəkkəb sosial-mədəni problemlərin düzgün həll edilməsində, ziddiyyətlərin həlli, terrorizmin aradan qaldırılması, beynəlxalq münasibətlər sisteminin təkmilləşdirilməsi, Yer kürrəsində həyatın humanistləşdirilməsi sahəsində yeni imkanlar aça bilərdi. Bu şuranın tərkibinə elm, təhsil, incəsənət və din sahəsinin nüfuzlu nümayəndələri, eləcə də siyasətçilər, müxtəlif ölkələrin müstəqil

ekspert-kulturoloqları daxil ola bilərdi. Belə şuranın başlıca vəzifələrini aşağıdakı kimi ifadə etmək olar:

- ☯ dünyanın müxtəlif ölkələrində dünya mədəniyyəti tarixinin, mədəni nailiyyətlərin və bəşəriyyətin sosial-mədəni inkişaf təcrübəsinin fəal öyrənilməsinə istiqamətlənmiş kulturoloji maarifləndirmə;
- ☯ qloballaşma şəraitində müxtəlif ölkə xalqları və vətəndaşlarının mədəniyyət, din və maraqlarının harmonizasiyası əsasında bəşəriyyətin yüksək etik sosial mkədəniyyətinin formalaşdırılmasına yardım;
- ☯ bəşəriyyətin qarşılıqlı-əlaqəli inkişafı üçün yeni sosial mühitin formalaşdırılmasını, dünya mədəniyyətinin təsdiqi və xalqların rifahının yüksəldilməsini nəzərdə tutan, sosial-mədəni inkişaf layihə və proqramlarının hazırlanması;
- ☯ müxtəlif ölkələrin sosial-mədəni fəaliyyətininn koordinasiyası və BMT-də dünya mədəni siyasəti məsələləri üzrə qərar qəbul olunması üçün elmi əsaslı tövsiyələrin hazırlanması.

Bizə elə gəlir ki, qlobal vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılıb, inkişaf etdirilməsinin strateji prosesini təmin edən mütəxəssislərin - tədqiqatçı, müəllim və menecerlərin hazırlığı üçün *Beynəlxalq dünya mədəniyyəti institutunun* yaradılması məqsədəmüvafiqdir.

Yüksək ruhi mədəniyyət inkişafı və etik qlobal vətəndaş cəmiyyəti qurulmasının ən effektiv vasitəsi *kulturologiyadır.* Uayt, Yaspers, Toynbi, Şpenqler, Dildey, Hesse, Sorokina, Husserl, Parsons, saburo, markuze və bir çox digər məşhur alimlərin əsərlərinin təhlili göstərir ki, kulturologiya müasir dünyanın bir çox aktual problemlərinin həlli üçün qiymətli elmi-nəzəri əsasdır. Öz universal imkanlarına görə, o, insan, cəmiyyət və ümumilikdə bəşəriyyətin sosial terapiya vasitəsi olur. Kulturologiya insan, dövlət və cəmiyyətin inkişaf proseslərinin obyektiv tənqidi təhlilini həyata keçirmək, böhrandan optimal çıxış, davamlı inkişaf və tərəqqiyə nail olmaq yollarını təmin edən texnologiyaların yaradılmasına imkanverir. Təhsilsiz adam azad ola bilməz. Dünya mədəniyyətinin zəngin tarixi və nəzəriyyəsinin öyrənilib mənimsənilməsinə yönəlmiş kulturoloji təhsil, eləcə də maarif ayrı-ayrı insanların, xalqların həyat texnologiyaları, həmçinin

fəlsəfəsinin dərk edilməsinə, insanın köhnə düşüncə və həyat tərzindən, milli gerilik və qul psixologiyasından azad olmasına kömək edir. Kulturoloji biliklər xalq kütlələrinin, azad inkişaf tələblərinə zidd olan, fatalistik ideyalarından imtina etmələrinə, səmərəli olmayan milli ənənələrin fəal olaraq islah edilməsi üçün geniş imkanlar açır. Onlar müasir insanın şüur, hiss və davranışı üzərində, demokratiya maraqlarına zidd, eqoistcəsinə hökm etməsi üçün ictimai şüurla siyasi manipulyasiyaya qarşı immunitetin formalaşmasına kömək edir. Kulturologiya bəşəriyyətin mədəni nailiyyətləri və tərəqqipərvər təcrübəsini daha yaxşı mənimsəməyə, şəxsiyyətin mədəniyyətinin psixologiya, xarakter, dini əqidə və maraq kimi komponentlərinin mahiyyət və xüsusiyyətlərini anlamağa, insanların mədəni inkişafına geniş imkanlar yaradır. Geridəqalma, tənəzzül və reqres əlaməti daşıyan hər bir milli mədəniyyətin sosial-mədəni terapiyası kəmiyyət, keyfiyyət, məkan, zaman, struktur və müqayisə metodlarının məcmuu daxil olmaqla, sistemli kulturoloji təhlil əsasında aparılarsa, daha effektiv ola bilər. Dialektika, tarixilik və məntiqə, eləcə də induktiv və deduktiv yanaşmaya əsaslanan, təhlil milli mədəniyyətin səhv və kəsrlərini daha yaxşı görməyə, onların aradan qaldırılmasının ən optimal yol və texnologiyalarının seçilməsinə imkan yaradır. Kulturologiyanın beynəlxalq dəyəri ondadır ki, o, müasir bəşəriyyətin maraq və mədəniyyətlərinin harmonizasiyasına əsaslanan, uğurlu qlobal idarəetmənin zəruri əsasına çevrilir.

Fikrimizcə, bəşəriyyətin ruhi mədəniyytətinin inkişaf mexanizmlərinin düzgün anlanılıb, tənzimlənməsi *kulturoloji sinergetika* sahəsində tədqiqatların inkişafından asılı olacaqdır. Ruhi mədəniyyətin özünütəşkil problemlərinin təhlilinin elmi aktuallığı mədəni inkişafın qeyri-bərabərlik fenomeni ilə şərtlənir. Cansız təbiətdən fərqli olaraq, cəmiyyətin ruhi mədəniyyətinin özünütəşkili vətəndaşların həyat tərzi, ənənə və novasiyaları, dini əqidələri, hüquqi institutlar, dövlət və sosial idarəetmə sistemləri ilə əlaqədardır. Lakin, o, dövlətin siyasi sistemi, onun rəsmi ideologiya və mədəni siyasətinin təsiri altında baş verir. Ykulturoloji sinergetika yeni informasiya texnologiyaları, hesablama eksperimentləri və riyazi modelləşdirmədən fəal istifadə edərək, müasir dünya

sivilizasiyasında mədəni qeyri-bərabərlik hadisələrinin tədqiqi və tənzimlənməsi üçün geniş perspektivlər aça bilər. O nəinki qlobal cəmiyyətin özünütəşkil prosesində müxtəlif mədəni sosiumların qarşılıqlı təsir xüsusiyyətləri və qanunauyğunluqlarını aşkarlamağa, həm də mürəkkəb sistem olan dünya mədəniyyətinin bütün inkişaf dinamikasını qurmağa kömək edə bilər. Bu, ümumi təhlükəsizlik naminə müxtəlif mədəniyyətlərin harmonizasiyasına yardım edən, insan və cəmiyyətin mədəni inkişaf potensialının hələ elmə məlum olmayan tənzimlənmə imkanlarını aşkarlamaq üçün mühüm əhəmiyyətə malikdir. Burada söhbət, ictimai şüurun yaranması və təkamül prosesində insanların intellektual və mənəvi mədəniyyəti, psixologiya və xarakterinin dərin asılılıq səbəblərinin aşkar edilməsindən gedir. Təbiət və cəmiyyətdəki özünütəşkil proseslərini öyrənən elm kimi, ümumi sinergetikanın nailiyyətlərinə istinadən, kulturoloji sinergetika tədqiqatçıların diqqətini cəmiyyətdə sosial mühitin təsiri altında inkişaf edib, öz-özünə yaranan və saxlanan mürəkkəb sosial-mədəni sistemlərin mexanizmlərinin öyrənilməsinə yönəltməlidir. İnsan və cəmiyyət səviyyəsində mədəniyyətin inkişafının bir çox variantlarını nəzərdə tutan təkamül, böhran və bifurkasiya ( mövcudluğun qeyri-sabit fazaları) hadisələrinin sistemli tədqiqi, humanist məqsədlərdən çıxış edərək, sosial-mədəni inkişaf proseslərini şüurlu şəkildə formalaşdırıb, proqnozlaşdırmağa imkan verəcəkdir. Kulturoloji sinergetika təhlilin kamparativ və digər metodlarından istifadə etməklə, mədəniyyətin bir iyerarxik səviyyədən digərinə keçidinin kompleks təzahürlərini öyrənməyə kömək edə bilər. Bu tədqiqatların praktik əhəmiyyəti, həm də onunla əlaqədardır ki, onlar insani, maddi və informativ resursların effektiv strateji planlaşdırılması, proqnozlaşdırılması və düzgün elmi istifadəsi üçün əsasrolunu oynayır. Mədəniyyətin özünütəşkili proseslərinin əsasında olan ümumi qanunauyğunluqların aşkar və dərk edilməsi müasir dünya sivilizasiyasının təhlükəsizliyi və davamlı inkişafı üçün müxtəlif xalqların mədəniyyət və maraqlarının harmonizasiyası, qlobal idarəetmənin yaxşılaşdırılmasına yardım edə bilər.

Nəzərədən keçirilmiş materialları ümumiləşdirərək, demək olar ki, üçüncü minillikdə bəşəriyyətin davamlı və təhlükəsiz inkişafı,

harmonik qlobal vətəndaş cəmiyyəti qurulmasının mühüm şərti bəşəriyyətin ruhi mədəniyyəti tərəqqisinin təmin edilməsi və ziddiyyətlərin aradan qaldırılmasına istiqamətlənmiş beynəlxalq birgəfəaliyyətin effektiv həyata keçirilməsidir. Bu strateji məsələnin həll edilməsi şəxsiyyətin mədəni inkişafına, məsuliyyət mədəniyyəti, hər bir ölkədə demokratik idarəetmə mədəniyyətinə xüsusi diqqət tələb edir, dünya mədəniyyəti və sivilizasiyasının böhransız inkişafına istiqamətlənən yeni beynəlxalq sosial-mədəni siyasətin həyata keçirilməsini universal mədəni eynilik yaradılmasına yardım edən beynəlxalq kulturoloji proqramların hazırlanıb, həyata keçirilməsini tələb edir.

- *Mədəniyyətin nəzəriyyəsi, tarixi və fəlsəfəsi üzrə beynəlxalq mühazirələr. Buraxılış 20. Dünyagörüşlərin diferensasiya və inteqrasiyası : ekzistensialist və tarixi təcrübə, 2004, s.220-233*

## MƏDƏNİYYƏT SİVİLİZASİYANIN YARADICI FAKTORU, KAMİLLİK, SÜLH VƏ RİFAHA GEDƏN YOLDUR.

Qloballaşma şəraitində ruhi mədəniyyətin inkişaf problemlərinin strateji əhəmiyyət kəsb etməsi onun dünya birliyindəki sosial, iqtisadi və siyasi rolu, insanın özünün və onu əhatə edən dünyanın tərəqqipərvər dəyişiklikləri, şəxsiyyətin yaradıcı potensialının aşkarlanması və ictimai münasibətlərin tənzimlənməsi ilə şərtlənir. Müasir dünya sivilizasiyası Xeyir və Şər arasındakı ziddiyyətlərlə, yaradıcılıq və dağıntılar, tərəqqi və tənəzzül, biliklilik və cahillik, mədəniyyətlilik və mədəniyyətsizliklə doludur, dünya tarixi göstərir ki, bir çox hallarda dəyərlər maraqlara qurban verilir. Bu dialektik mhitdə yüksək ruhi mədəniyyət yaradıcılığın əsası, böhranların aradan qaldırılması və sosial terapiya, bəşəriyyətin xilası faktoru kimi çıxış edir.

Dünya sivilizasiyasının inkişafında ruhi mədəniyyətin əhəmiyyətinin artması müasir cəmiyyətin həyatında kulturologiyanın yüksək dünyagörüş, sosial-siyasi və praktik əhəmiyyətini artırmışdır. Yaradıcı insanın həyat fəaliyyəti haqqında elm olan *kulturologiya* sosial tərəqqinin tələblərinə savab verərək, "şəxsiyyətin şüurunda

mədəni inqilab" -ın həyata keçirilməsinə, insan və cəmiyyətin pozitiv istiqamətdə dəyişdirilməsinə yardım edir, dünyada insan həyatının yüksək pilləsi olan humanist nizam və harmoniyanın, etibarlı gələcəyin üfüqlərini proqnozlaşdırmağa imkan yaradır. O, nəinki bəşəriyyətin mədəni irsinin mənimsənilməsi imkanlarını genişləndirir, həm də xalqın tərəqqipərvər sosial-mədəni inkişafı üçün maneə törədən, əhəmiyyətini itirmiş adi-ənənəvi təsəvvürlərin aradan qaldırılmasına, zamanın tələblərinə cavab verən beynəlxalq münasibətlərin harmonizasiyası və universal mədəni dəyərlərə, dövlət və cəmiyyətin modernləşdirilməsinə elm əsaslı yanaşmaların yaradılmasına yol açır.

Kulturologiya tərəfindən öyrənilib ümumiləşdirilən dünya mədəniyyəti inkişafının tarixi prosesi fərdi, milli və qlobal səviyyədə bəşəriyyətin həyat fəaliyyətinin müasir problemlərinin həlli üçün mühüm əhəmiyyət daşıyır, çünki, dünya mədəniyyəti tarixi dünya sivilizasiyasının minillik mövcudluğu ərzində bəşəriyyətin bir çox nəsillərinin topladığı müdriklik və sosial təcrübənin tükənməz xəzinəsidir.

İnsanın yaradıcı həyat və fəaliyyəti olan mədəniyyət bəşəriyyətin xaosdan nizama doğru gedən tarixi yolunu ümumiləşdirir. İnsan tarixinin müəyyən mərhələlərində ədalətsiz nizam insanın insan tərəfindən istismar edilməsi üzərində qurulan ictimai münasibətlərin yeganə tənzimləmə vasitəsi idi. Feodal, avtoritar, monopolist və totalitar cəmiyyətlərdə insanın hüquq və azadlıqları hökmdar və bürokratların mənafeyinə uyğun olan qanunvericiliklə məhdudlaşdırılır, hüquqi-etik normalar isə, ədalətsiz paylama münasibətlərini və imkanlarda olan qeyri-bərabərliyi möhkəmlədir. İnsan mədəniyyətinin inkişafı, humanizm ideyalarının yayılması tədricən nizamın məzmununu dəyişir, sivilizasiyalı cəmiyyətin zəruri tələbinə çevrilir.

Mədəniyyət insan cəmiyyəti inkişafında müəyyən yetginlik mərhələsi, səciyyəvi şəhər həyat tərzi ilə insanların etnik, mədəni-tarixi birliyi olaraq, sivilizasiyaya bağlıdır. İlkin olaraq, urbanizasiyalı antik cəmiyyəti barbar əhatədən fərqləndirmək üçün keyfiyyət göstəricisi kimi istifadə olunan "sivilizasiya" anlayışı XIX əsrdə vəhşilik və barbarlıq dövrlərini əvəz edən sosial-mədəni inkişafın ən

yüksək, üçüncü pilləsini müəyyənləşdirmək üçün istifadə olundu. XX əsrdə sivilizasiyanı bəşəriyyətin qlobal sosial-mədəni təkamülü kimi anlamaqla yanaşı, onu lokal mono- və ya polietnik birlik kimi, özünüinkişafetdirici və özünüdağıdıcı qanunlara tabe olan, sosial-mədəni spesifikliyə malik baxış kimi əsaslandıran yeni yanaşmalar əmələ gəldi. Kulturologiyada, indiyə qədər, sivilizasiyanın təsnif edilməsi üçün vahid metodoloji prinsip və meyarların işlənməməsinə baxmayaraq, son zamanlar onun regionda yaşayıb, uzunmüddətli mədəni qarşılıqlıtəsir və mədəni mübadilədə olan xalqların vahid tarixi taleləri əsasında formalaşan *lokal* etnik birlik kimi müəyyənləşdirilməsi daha geniş vüsət almışdır. Sosial təşkilatların, tarixən mövcud olan, institutional forma və mexanizmlərinin eyniliyi, siyasi, sosial, ibntellektual, hüquqi, idarəetmə və iqtisadi mədəniyyətin xarakterindəki oxşarlığı şərtləmdirən konsolodasiya və tənzimlənmə *lokal sivilizasiyaların* səciyyəvi cəhətləridir. Belə sivilizasiyalarda, mədəni müxtəlifliyin saxlanması ilə, milli psixologiyanın, mentalitetin milli-mədəni dəyərlər sistemi və ənənələrin xüsusiyyətlərində özünəməxsus şəkildə ifadə olunan, xüsusilə də, etik, dini və bədii mədəniyyətin mədəni-tarixi dəyərlərinin universal sisteminin formalaşması baş verir.

Ayrı-ayrı kulturoloqların mədəniyyət və sivilizasiyaların inkişafı proseslərinə yanaşmalarını təhlil edərkən, onların ziddiyyətliliyini müşahidə etmək çətin deyil. Mədəniyyətlərin tarixi inkişafının üzvi həyatla analoquna əsaslanan sivilizasiya konsepsiyası, müxtəlif mədəniyyətlərin mütləq unikallığına inam, onların dərin mədəni mahiyyətinin bir-biri üçün mümkünsüzlüyü üzərində qurulmuşdur. Qeyd edək ki, bu konsepsiyalar XX əsr mədəniyyət fəlsəfəsinə mühüm təsir göstərmişdir. Kulturoloji plüralizmə əsaslanan konsepsiyaların nümayəndələri (O.Şpenqler, A.Toynbi, N.Danilevski və s.) tarixi zərurəti mədəni universallıqların imkanlarında, mədəniyyət və sivilizasiyaların tarixi inkişafının yol və mərhələlərinin vahid məqsədlərində yox, ayrı-ayrı mədəniyyətlərin həyat tsikli mərhələlərinin keçilməsində qaçılmazlıq, onların tale "məntiqi" kimi nəzərdən keçirirlər. Onlar dünya sivilizasiyasının klassik konsepsiyasını müxtəlif mədəniyyətlərin inkişaf səviyyəsi, sürəti və xarakteri ilə birlikdə avropa tarixinin dünya tarixinə

ekstrapolyasiyası nəticəsi kimi şərh edirlər. Bu metodologiyanın tərəfdarları, xüsusilə də, O.Şpenqler mədəniyyətin morfologiyası haqqında, yəni, mədəniyyətin tipik formalarının əmələ gəlməsi və yenidən yaranması, onun daxili quruluşunun xüsusiyyətləri haqqında danışırlar. Onlar düşünürlər ki, mədəniyyətin yüksələn pillələr üzrə inkişafı insan həyatının mədəni formaları məcmuunun daimi təkamül və təbnəzzülü ilə şərtlənərək, həmin mədəniyyətin "daxili qüvvəsi" hesabına baş verir.

Bu yanaşmanın əleyhdarları, ilk növbədə Pitirim Sorokin, pozitivizm metodologiyasına istinad edərək, bioloji həyatın inkişafı ilə analogiyalar üzərində qurulan mədəniyyət fəlsəfəsini qəbul etməyərək, onu fundamental əsasdan məhrum olan fəlsəfə hesab edirdilər. Onların qəbuledilməzliyi arqumenti kimi irəli sürülən meyarlar içərisində aşağıdakılar qeyd edilir: mədəniyyətlərin tipikləşdirilməsi üçün vahid meyarın olmaması, onların yetginliyinin müəyyənləşdirmə meyarının çətinliyi, sivilizasiya daxilində sosial qrup və mədəni sistemlərin qarışmasının danılmazlığı, mədəniyyətin inkişafının dalğalı xarakterini nəzərə alınmaması, modelin səhvən sadələşdirilməsi, təhlil üçün yalnız bir həyat tsiklinin seçilməsi və s.

"Sivilizasiya" anlayışına unitar yanaşmada fəlsəfəyə üstünlük verən bu məqalənin müəllifi, eyni zamanda, düşünür ki, bu terminin müxtəlif mədəniyyətlərin inkişafı və qarşılıqlı təsiri daxilində bəşəriyyətin elmi, texnoloji və sosial-mədəni nailiyyətləri daşıyıcılarından ibarət olan insanların tarixi birliyinin ifadəsi kimi istifadə edilməsi daha məqsədəuyğundur. Belə baxış, mədəniyyəti sosial sistem kimi bütöv anlamanı nəinki əks etdirir, həm də müasir şəraitdə xüsusi vüsət almış, müxtəlif xalqlarda bəşəriyyətin vahidliyi, insani eyniyyət, bəşəri mədəniyyətə mənsubluq psixologiyasının formalaşmasına yardım edir.

Bununla belə, müasir dünya sivilizasiyasının inkişafı yalnız ruhi mədəniyyətin görkəmli pozitiv nailiyyətləri ilə, hər şeydən əvvəl, insan şüuru ilə deyil, həm də, bəşəriyyətin qlobal problemlərinin mühüm həlqəsi olan, dağıdıcı proseslərin, ziddiyyət və münaqişələrin mərkəzi olması ilə səciyyələnir. Tanınmış politoloqlardan Frensis Fukuyama, Olvin Toffler və Samuel Xantinqton müasir dünyanın

mürəkkəb proseslərini nəzərdən keçirərək, bəşəriyyətin nikbin olmayan inkişafını proqnozlaşdırırdılar.

Məlumdur ki, Toffler-Fukuyama-Hantinqtonun doktrinası ideyaca XX əsrin 90-cı illərində "qalib dünya təlimi" kimi formalaşmış, faktiki olaraq, "20/80" prinsipini "qızıl milyardın" status quo-su kimi elan edərək, müasir dünyada qlobal siyasət üçün ideoloji rəhbərlik və bəşəriyyətin gələcək obrazının yaradılma cəhdi oldu. Onlar üçün əziz olan "ali və ibtidai cəmiyyətlər"-ə bölünmə ideyasına əsaslanan bu doktrinada "bərabərlər arasında daha bərabər" prinsipi, qərb ölkələrinin tarixi yolunun üstünlüyünü elan edir. Bəzi alimlər hesab edirlər ki, bununla onlar bir çox şərq xalqları geriliyinin labüdlüyünü əsaslandırmağa çalışaraq, "yoxsul" xalqlara münasibətdə "qızıl milyardla" əldə edilmiş sosial-siyasi bərabərsizliyi qorumağa çalışmışlar. Belə tarixi qabaqgörmənin fəlsəfəsi nə dərəcədə düzgündür? Alternativ varmı? Sözsüz. O, xalqların düzgün inkişaf strategiyalarına əsaslanan sosial-mədəni tərəqqisində, qlobal siyasət resursları və ümumbəşəri dəyərlərə sadiq liderlərin humanizm mədəniyyəti və xoş məramındadır.

Amerika tarixçisi və sosioloqu, müasir beynəlxalq münasibətlər mütəxəssisi Frensis Fukuyama "tarixin sonunu" liberalizmin avtoritarizm üzərində qələbəsi kimi nəzərdə tutaraq, liberal demokratiya və azad bazar prinsiplərini ideallaşdırıb, onların yaxşılaşdırılması və inkişaf imkanlarını görmürdü. Olvin Toffler elmi bilik və elm həcmli texnologiyalara malik cəmiyyətlərin hakim vəziyyəti və onların bəşər taleyini həll etmək hüququ haqqında danışaraq, intellektual mədəniyyətin inkişaf prioritetlərinə istiqamətlənən düzgün sosial-mədəni siyasət hesabına digər xalqların inkişaf imkanlarını diqqətdən kənarda saxlayırdı. Dünyanın idarə edilməsinin dərki və proqnozlaşdırılmasının yeni konsepsiyasını formulə edən Samuel Hantinqton "sivilizasiyaların toqquşması"–nı dünya sivilizasiyasının üstün keyfiyyətli faktoru kimi müəyyənləşdirmişdir.

S.Hantinqtonun, alim və siyasətçilərin diskussiyasına asəbəb olan, "sivilizasiyaların toqquşması" konsepsiyasının təhlili üzərində ətraflı dayanmaq istərdik. 1993-cü ildə ilk dəfə "Foreign Affairs" jurnalında nəşr olunmuş bu konsepsiya, ətraf aləmin

təhlükəsizliyinin dəyişməsi şəraitində amerikanın milli maraqlarının təhlilinə həsr olunmuş strateji tədqiqat layihəsinin nəticəsi oldu. Bu nəzəriyyənin əsas mahiyyəti ondadır ki, soyuq müharibənin başa çatması ilə əmələ gələn mədəni ümumilik ideoloji fərqləri sıxışdırmağa başladı. Müəllif hesab edir ki, Avropanın ideoloji bölünməsi aradan qaldırıldıqdan sonra onun bir tərəfdən qərb xristianlığına, digər tərəfdən pravoslav və islam mədəni bölgüsü yenidən canlandı. Qərb və qeyri-qərb sivilizasiyalar arasındakı qarşılıqlı təsir diqqət mərkəzinə gətirilir. Hantinqton hesab edir ki, sivilizasiyalararası ayrılma xətti gələcək "cəbhə" xəttidir. Bu konsepsiyanın təsiri altında qərbin milyonlarla əhalisinin şüurunda beynəlxalq terrorizmlə , harvard siyasətçisinin qabaqcadan söylədiyi , "sivilizasiyaların toqquşması" eyniləşdirildi.

S.Hantinqtonun konsepsiyasında maraqlı kulturoloji təhlil var. Bununla belə, onun mülahizələri son həqiqət ola bilməz. Bu, bir çox etnik və milli mədəniyyətlərin şəbəkəsi olaraq, müasir dünya sivilizasiyasındakı siyasi proseslərin proqnozlaşdırılmasını əks etdirən baxışlara yanaşmalardan biridir. Fikrimizcə, konsepsiya, kulturoloji baxımdan, sivilizasiya anlayışının, bu və ya digər qüvvələr tərəfindən öz siyasi maraqlarına nail olmaları üçün istifadə oluna biləcək, nəzakətsiz anlamına əsaslanır. O, dünyada müəyyən siyasi elita tərəfindən milli dövlətlərə aprior müdaxilə üçün şərait yaradaraq, dünya mədəniyyətinin beynəlxalq prinsiplərinə zidd mövqe tutmuşdur. Şərqdə və Qərbdə müəyyən təfəkkür sahibləri, sosium və siyasi qüvvələri mədəniyyətlərin və dinlərin konfrontasiya və ksenofobiyaya stimullaşdıraraq, bəşəriyyətin taleyinin məsuliyyətini kimin daşıyacağı sualına cavab vermir. Buna görə də, bu mövqe bir sıra qüvvələr tərəfindən ayrı-ayrı ölkələrdə milli azlıq və mühacirlərin ayrı-seçkiliyi məqsədi ilə istifadə edilmişdir ki, bu da dünya mədəniyyətinin inkişafında pozitiv tendensiya hesab edilə bilməz.

Təəssüf ki, tanınmış politoloq müasir dünya sivilizasiyasındakı ziddiyyət, böhran hadisələri və toqquşmaların həlli yollarını göstərmir. İmkanlar isə var. Müxtəlif xalqların və dövlətlərin maraq və mədəniyyətlərinin sağlam düşüncə, xoş məram, humanizm, sülh mədəniyyəti, digər xalqların və etnosların mənəvi dəyərlərinə hörmət

prinsipləri əsasında harmonizasiyasındadır. Bəşəriyyət mədəniyyətlərin diferensasiya və inteqrasiyası proseslərinin düzgün tənzimlənməsini və dövlətlərin obyektiv maraqlarının nəzərə alınmasını təmin edən, xalqların özünəməxsusluğu və eyniliyini qoruyaraq, ümumbəşəri dəyərlərin prioritetini nəzərdə tutan, dünya birliyinin uğurlu gələcəyinə istiqamətlənmiş *qlobal idarəetmənin yeni mədəniyyətinə* möhtacdır. Strateji baxımdan, bu, dünya sivilizasiya subyektləri fəaliyyətinin düzgün planlaşdırılnması, əlaqələndirilməsi və proqnozlaşdırılması məqsədi ilə, bütün resurs növlərinin sistemli kulturoloji təhlilinə bağlıdır. Texnoloji baxımdan isə - hamı üçün davamlı inkişaf marağında insani, maddi və mədəni-informativ resursların düzgün elmi istifadəsi ilə əlaqədardır. BMT-də müxtəlif ölkələrdən olan alim, mütəxəssis, siyasətçi və din xadimlərinin iştirakı ilə yaradılmış dünya mədəniyyəti Beynəlxalq Şurası belə idarəetmənin ən mütəhərrik və mükəmməl aləti ola bilər. Bu sahədə beynəlxalq tədqiqat və maarifləndirici fəaliyyətin koordinasiya və idarəedilməsi üzrə ekspertlərin hazırlığı məqsədi ilə, xüsusi elmi-tədris-maarifləndirici mərkəz ola biləcək Dünya Mədəniyyəti Beynəlxalq Universitetinin yaradılması məqsədəmüvafiq sayılır.

Milli səviyyədə inkişaf və rifah imkanlarının dəyişməsi ya digər xalqların istismarı, ya dünyanın yenidən bölüşdürülməsi, ya da daxili resurslar hesabına – intellektual mədəniyyət prioritetlərinə istiqamətlənmiş sosial-mədəni inklişaf resurslarının, istehsal, sosial həyat və idarəetmədə rəqabətəqabil ; yüksək texnologiyaların yaradılması hesabina mümkündür. Bu üçüncü yol, yeni yüzillikdə xalqların qarşılıqlı anlaşması və məhsuldar əməkdaşlığı üçün əsas yaradan düzgün və humanist yoldur. Dünyanı yalnız şər, zorakılıq, eqoizmdən azad bəşəriyyətin daha uğurlu gələcəyi naminə xalqların yaradıcılığı, sülh və əməkdaşlıq mənbəyi olan bilik və humanizmin sintezi olan yüksək ruhi mədəniyyət xilas edəcəkdir. Bizim hamımıza həyatfəaliyyətinin şüurlu texnologiyaları və düzgün idarəedilməsi, sabit inkişaf və rifaha yol açan, özündə elmi bilik və yüksək etikanı birləşdirən yüksək ruhi mədəniyyətə can atmaq lazımdır. Bizim hamımıza bir dildə danışmağı öyrənmək lazımdır – milli, sosial və dini əlamətlərə görə ayrı-seçkiliyi inkar edən, yüksək dildə danışmaq,

daha uğurlu gələcəyə olan iddialarımızı isə, yaradıcı və əmək nailiyyətlərimizlə, dövlət, cəmiyyət və bəşəriyyət qarşısındakı xidmətlərimizlə uyğunlaşdırmaq lazımdır.

Bəşəriyyətin gələcəyə gedən ən düzgün yolu, mədəniyyətin eqoizm və "yadlara" düşmənçilikdən humanizmə və bərabərhüquqlu əməkdaşlığa doğru olan yoludur. Bəşəriyyətin xilası yüksək mədəniyyətdə, Xeyir və Şərin qiymətləndirilməsində ikili standart və zorakılıqdan imtina edilməsində, dünya siyasəti və qlobal idarəetmədə bilik, humanizm və xoş məramın üstünlüyündədir. Lev Qumelyovun haqlı olaraq qeyd etdiyi kimi, mahiyyət etibarı ilə Qədim Romanı barbarlar yox, insanların mənəvi düşgünlüyü dağıtdı. Onun xarıcdən dağılması, insanı varlığın yüksək dəyəri kimi deyil, yaradıcı fəaliyyətə təzyiq göstərib, onu istehlak dəyəri kimi mənimsəmədən sonra başlayan daxili sosial-mədəni deqradasiya nəticəsində mümkün olmuşdur. Qədim Roma cəmiyyətinin sonrakı tənəzzülü və böhranın səciyyəvi cəhətləri insanların eqoizm və tamahkarlığı, hakim elitanın məsuliyyətsizliyi və mənəvi düşkünlüyü, humanizmin itirilməsi və qəddarlığın çiçəklənməsi, aristokratların tüfeyli və istehlakçı həyat tərzi, əyləncəyə pərəstiş, zəhmətə nifrət və insan həyatına biganəlik, ədalətsiz paylama münasibətlərinin hakimliyi və ətraf aləmə qarşı düşmənçilik idi.

Sözsüz ki, dünya sivilizasiyasında insan ziddiyyətlərinin ən mühüm səbəblərindən biri, birqayda olaraq, insanların milli psixologiyasında möhkəmlənib, ruhi-mədəni dəyərlərinin müxtəlif sistemləri arasındakı fərqlər üçün əsas olan *mədəniyyətlərin ziddiyyətidir.* Mədəniyyətlərdəki ziddiyyətlərin aradan qaldırılması və əməkdaşlıqda hörmət, inam və bərabərhüquqlu münasibətlərin formalaşdırılması millətlərin intellektual mədəni səviyyəsi və insanların onunla bağlı olan etik mədəniyyətinin eyniləşdirilməsindən bilavasitə asılıdır. Maraqlıdır ki, bu qanunauyğunluqlar nəinki etnos, millət və xalqlar arasındakı qarşılıqlı münasibətlərdə, həm də eyni mədəniyyət daxilində eyni millət və dinə mənsub insanlar arasında da özünü göstərir. Xeyirxah dəyərlərə, əbədi prinsiplərə əsaslanan intellektual və etik mədəniyyətdə eyniliyin formalaşdırılmasıhəm ayrı-ayrı dövlətlər, həm də qlobal miqiyasda sosial-mədəni siyasətin mühüm vəzifəsidir.

Mədəniyyətlərin ziddiyyəti *iqtisadi qeyri-bərabərliklə,* ruhi mədəniyyət və "ruhi istehsalın" aşağı səviyyəsi ilə şərtlənən yoxsulluq və geriliklə bağlıdır. Yerin təbii resurslarının azalması şəraitində xalqların əhalisinin artımı bəşəriyyətin qlobal sosial, iqtisadi və ekoloji problemlərin yaranmasına şərait yaradır, bunların həll edilməsi yolları isə, elm və yüksək texnologiyaların, eləcə də sosial etika və istehlak mədəniyyətinin qabaqlayıcı inkişafıdır. Beynəlxalq hüquq, humanizm və sülh mədəniyyəti prinsiplərinə əsaslanan qlobal idarəetmə mədəniyyəti strateji əhəmiyyət qazanmağa başlayır. Həyat fəlsəfəsinin və dünyanın yeni nizamının əsasını yüksək istehsal və ədalətli paylama mədəniyyəti, bəşəriyyətin gələcəyi uğrunda siyasətçilərin məsuliyyəti təşkil etməlidir. Sözsük ki, müxtəlif insanların genetik istedad və qabiliyyətləri müxtəlifdir və hər bir insanla onun mədəni səviyyəsinə uyğun dildə danışmaq lazımdır. İnsanların intellektual, psixi və fiziki imkanları, eləcə də əmək mədəniyyəti ilə bağlı fərqləri onların peşə və həyat fəaliyyətləri ilə şərtlənir. Lakin, Norveçdə olduğu kimi, intellektual elitanın səyi və düzgün humanist idarəetmə, eləcə də bərabər bölgü yolu ilə ümumi rifaha malik sosial dövlət yaratmaq mümkündür. Norveç təcrübəsi göstərir ki, dövlət və cəmiyyətin rifahı ailələrin rifah səviyyəsi ilə müəyyən olunur, rifahın açarı isə, insanların bilik, bacarıq, mütəşəkkillik, mənəviyyatlılıq və yaradıcı fəaliyyətinə əsaslanan, özünütəkmilləşdirməyə, sülhə, davamlı inkişafa və xalqların rifahına, bəşəriyyətin daha uğurlu gələcəyinə yol açan ruhi mədəniyyətdir.

Müharibə və zorakılıqdan uzaq, yeni dünya yaratmaq, eqoizmdən imtina edilməsini nəzərdə tutan yeni təfəkkür, yeni həyat fəlsəfəsi lazımdır. Müasir dünya sivilizasiyasında bu fəlsəfənin öz əməli təcəssümünü tapması üçün, demokratiya, humanizm və xoş mərama əsaslanan beynəlxalq siyasət və qlobal idarəetmə mədəniyyəti təkmilləşdirilməlidir. Belə strategiyanın uğurlu tətbiqi idarəetmə obyektlərinin sosial-mədəni səviyyəsində müəyyən tarazlığın əldə edilməsini nəzərdə tutur; idarəetmə obyektləri dedikdə isə, uyğun elmi və texnoloji potensialla şərtlənən milli dövlətlər, bərabərhüquqlu əməkdaşlıq üçün imkan yaradan etik mədəniyyət, yüksək məhsuldar əmək və konstruktiv xarici siyasət başa düşülür. Bu məqsədin həyata keçirilməsində müxtəlif xalqların mədəniyyətlərin və maraqlarının

ümumbəşəri dəyərlərin prioriteti əsasında harmonizasiyası, elmi nailiyyətlərin bəşəriyyətin rifahı naminə istifadəsi mahəm əhəmiyyət daşıyır.

➢ *01.12.2006*

## YUNESKO, MƏDƏNI DƏYƏRLƏR VƏ KULTUROLOJİ TƏHSİL

Dünya mədəniyyəti bizim qarşımızda, milli-mədəni dəyərlərin müəyyən sistemlərinə uyğun, mədəni müxtəlifliyi və mədəni özünəməxsusluğu, insan maraqlarının ifadəsi və tələbatlarının ödənilməsi ilə fərqlənən xalq, millət və etnosların həyat fəaliyyətinin fövqəladə mənzərəsini təqdim edir.

Bu baxımdan, mədəniyyətin sinergetikası sosial səciyyəli hadisə olduğuna görə, onun insanların yaradıcı təsirinə daim ehtiyacı var. Həyatın dialektikası, milli və dünya mədəniyyətində destruktiv, böhran hadisələrinin vaxtında aradan qaldırılması, yaradıcı fəaliyyət və ictimai tərəqqini təmin edilməsi məqsədi ilə, milli və qlobal inkişaf proseslərinin daimi kulturoloji monitorinqini tələb edir. Bu dialektikadan çıxış edərək, milli dövlətlər və beynəlxxalq təşkilatlar tərəfindən bəşəriyyətin milli, regional və qlobal problemlərin həllinə, sülh mədəniyyətinin təsdiqi və xalqların rifah səviyyəsinin yüksəldilməsinə yönəlmiş çoxtərəfli fəaliyyət həyata keçirilir. Dünyada sülhün bərqərar olması uğrunda BMT və YUNESKO, eləcə də Avropa Şurası, Roma Klubu, Beynəlxalq və dinlərarası Federasiya tərəfindən , azadlıq, sülh, ədalət və bərabərlik ideallarının təsdiqi, insanların həyat təminatı sisteminin inkişafı, ümumi rifaha nail olunma üçün qeyri-hökumət təşkilatlarının Dünya Assosiasiyası və digər strukturlar tərəfindən çox işlər görülmüş və görülməkdədir. Bununla belə, insan ləyaqətinə ümumi hörmətin təsdiqi, insan haqlarının qorunması, yoxsulluq və korrupsiyanın aradan qaldırılması, stabil sosial-iqtisadi inkişafa nail olunma, ziddiyyətlərin həlli, zorakılıq və terrorizmin aradan qaldırılması, ekoloji təhlükəsizlik və ətraf mühitin qorunması ilə bağlı problemlərin həlli bu gün gündəmdə qalır.

Bu problemlərin həllində, BMT-nin intellektual vicdanı hesab edilən,YUNESKO təşkilatının həyata keçirdiyi beynəlxalq mədəni

siyasətin rolu mühümdür. Hal-hazırda YUNESKO yeni yüzillikdə bəşəriyyətin intellektual və etik inkişafında özünün aparıcı rolunun bərpa edilməsi istiqamətində qiymətli təşəbbüs irəli sürmüşdür. O, sosial həqiqətlərin müstəqil tənqidi ekspert təhlili yolu ilə qlobal problemlərin həllində, dünyanın daha uğurlu gələcəyə transformasiyasında xalqların arzusu və zamanın tələbinə düzgün cavab axtarışına can atır. Bu gün müxtəlif millətə və dinə mənsub insanların düzgün humanist istiqamətli fəlsəfə və həyat fəaliyyəti texnologiyalarının yaradılması, Yer kürrəsində həyati dəyərlərin qorunması, bütün dünyada sosial ədalətin və sülh mədəniyyətinin təntənəsi üçün əvvəllərdən daha artıq zəruridir. YUNESKO-nun sosial ədalətin real təsdiqinə, insan şəxsiyyətinə və ləyaqətinə hörmət istiqamətindəki fəaliyyəti dünyanın gələcək quruculuq perspektivlərinin daha yaxşı başa düşülməsi üçün etibarlı perspektivlər açır. YUNESKO-nun köməkliyi ilə idrak mədəniyyəti, sülh mədəniyyəti, məsuliyyət mədəniyyəti, şəxsiyyətə hörmət, sosial ədalət, böyüklərə hörmət və uşaqlara məhəbbət, dürüstlük, insan haqları, səbrlilik və digər keyfiyyətlər tədricən bütün dünyada mədəni normaya çevrilir. Bu, dünyanın xilası, Yer kürrəsində həyatın təhlükəsizliyin təminatı, xalqların daha uğurlu gələcəyi üçün möhkəm özül yaradır.

Müasir şəraitdə bu siyasət *insanların dünya mədəniyyəti tarixi sahəsində təhsili və maariflənməsi* və insanın həyat fəaliyyətinin tərəqqipərvər təcrübəsinin prioritet inkişafını təmin etməlidir. Dünya mədəniyyəti inkişafının tarixi təcrübəsi elmi bilik və yüksək insan etikasının qabaqlayıcı inkişafının, düzgün həyat fəaliyyəti və texnologiyaları və fəlsəfəsinin təsdiqinin, müasir sivilizasiya nailiyyətlərinin, müxtəlif xalqlarınmədəni dəyər, mədəni irs, tərəqqipərvər ənənələrinin tanınması və yaradıcı istifadəsinin praktik əhəmiyyətini bütün həqiqətləri ilə təsdiq etdi.

Cəfakeş dünyanın şəfa yolu yalnız yüksək ruhi mədəniyyətdən, hər şeydən əvvəl, intellektual mədəniyyətdən keçir. İntellektual mədəniyyətin inkişafı insan şüurunda təkamül dəyişikliklərinə səbəb olur, onun həyati qabiliyyətlərini təmin edən intellektual və etik dəyərlərin daha yaxşı qavranılmasına yardım edir. Cahillik - şər və yoxsulluğun sosial bazası olduğu halda, mədəniyyət, hər şeydən əvvəl,

rifah və inkişafa, insanın və cəmiyyətin təkmilləşməsinə yol açan – bilikdir. İntellektual mədəniyyətin iki strateji institutu olan elm və təhsil sosial-mədəni və iqtisadi tərəqqini təmin edir. İnsanın, elmi biliklərin alınması və düzgün istifadəsinə əsaslanan, mədəni inkişafı çətinlik və neqativ hadisələrin aradan qaldırılması, davamlı inkişaf və həyat keyfiyyətinin əldə edilməsi üçün geniş imkanlar açır.

Ruhi mədəniyyətin davamlılığı xalqın mənəvi sağlamlığı, rifahı və onun həyat keyfiyyəti ilə müəyyən edilir. Əgər mədənityyət sosial sistem kimi, normal fəaliyyət göstərməyərək, xalqın tərəqqipərvər inkişafında hərəkətverici qüvvə rolunu itirmişdirsə, o, dəyişdirilməlidir. Bu o deməkdir ki, o, cəmiyyətin mədəni inkişafı və davamlı sosial inkişafın əldə edilməsi naminə aksioloji, ideoloji, intellektual, məzmun, struktur və təşkilati baxımdan korrektə edilməlidir.

Ruhi mədəıniyyətin istər milli, istərsə də beynəlxalq səviyyədəki inkişafı zamanın tələblərinə cavab verən məsələlərə uyğun olaraq həyata keçirilməlidir.

*Milli səviyyədə* müasir cəmiyyətin ruhi mədəniyyəti ikili sosial vəzifəni yerinə yetirməlidir: milli ənənələrin və mədəni özünəməxsusluğun varisliyini təmin etməli və bəşəri inkişafın tərəqqipərvər təcrübəsinin yaradıcılıqla mənimsənilməsi əsasında həyat fəaliyyətinin texnologiyaları olan mədəniyyətin modernləşdirilməsinə yardım etmək. Bu prosesdə ən mühüm rolu, tərəqqipərvər inkişafın yol və texnologiyalarını göstərən elm, həmçinin, xalqın ümumiliyi və mədəni dəyərlər sistemini əks etdirən, aksiologiya oynayır.

*Şərqin və Qərbin mədəni dəyərlərinin sintezi, mədəniyyətin ümumbəşəri dəyərlərinə əsaslanan dünya mədəniyyəti və yeni həyat fəlsəfəsi formalaşdırılmasının aktuallığı, artıq beynəlxalq səviyyədə, labüddür. İnkişafın qlobal idarə edilməsinin başlıca vəzifəsi müxtəlif xalqların mədəniyyət və maraqlarının bəşəriyyətin ümumi maraqlarına cavab verən universal demokratiya prinsip və dəyərləri əsasında harmonizasiyasıdır.*

Sülhün və xalqın əmin-amanlığının asılı olduğu, həm milli, həm də beynəlxalq səviyyəli məsələlərin prioritet problemlərini seçmək vacibdir. Bu – insanların yüksək intellektual, etik, istehsal,

kommunikasiya, idarəetmə mədəniyyətinə, həyat fəaliyyətinin davamlı texnologiyalarına yiyələnməsi, sülh mədəniyyəti və gender bərabərhüququnun təsdiqi, sosial məsuliyyət və siyasi mədəniyyəti səviyyəsinin yüksəldilməsi, istehlak mədəniyyəti və bölgü münasibətlərinin təkmilləşdirilməsi, xalqların özünəməxsusluğu və mədəni müxtəlifliyinin qorunması, ekoloji və w,wnhüquqi təhlükəsizliyinin təmin edilməsi sahəsində biliklərinin artırılmasıdır.

Bu problemlərin effektiv həlli üçün, qlobal idarəetmədə kulturoloji təhsil, ekspertiza, sistemli kulturoloji tədqiqatlar üzrə yeni yanaşmalar, yeni baxışlar, dünya mədəniyyətinin inkişafı proseslərinin təkmilləşdirilməsində konsolidasiyanın yeni formalarının gücləndirilməsi tələb edir. Bunların arasında, insanların yüksək ruhi inkişafına istiqamətlənmiş *beynəlxalq kulturoloji təhsil*- bilik və bacarıqlar, mütəşəkkillilik və məsuliyyətlilik, mənəviyyatlılıq və məqsədyönlü yaradıcı fəaliyyət mühüm əhəmiyyət kəsb etməyə başlayır.

Cəfakeş dünyanın şəfasına praktik yardım göstərmək üçün, həyat mədəniyyəti, sülh mədəniyyəti, beynəlxalq ticarət və dünya iqtisadiyyatının müasir texnologiyaları, insan və təbiət ekologiyası, informasiya-kommunikasiya texnologiyaları, beynəlxalq hüquq və qlobal idarəetmə, beynəlxalq jurnalistika, vətəndaşların qeyri-hökumət sektorunda effektiv fəaliyyəti üzrə təlimini nəzərdə turan kulturoloji təhsilin mükəmməl sistemini tələb olunur. Zamanın tələblərinə cavab verən qlobal vətəndaş cəmiyyəti mədəniyyətinin inkişafına yardım etmək üçün, qloballaşma proseslərinin peşəkar kulturoloji ekspertiza və monitorinqini həyata keçirməyə qabil olan yüksək sosial-mədəni, iqtisadi və siyasi potensiala malik şəxsiyyət və liderlərin hazırlanması vacibdir.

İnsanın həyat tərzinə, vətəndaşların sosial fəallığına ölkənin siyasətinə və iqtisadiyyatına, onun başqa ölkələrlə münasibətlərinə *mədəni dəyərlərin təsiri böyükdür.* Həyatda pozitiv dəyişikliklərin əldə edilməsi üçün, çox zaman, dəyərlərin yenidən qiymətləndirilməsi, insanın və cəmiyyətin sosial-mədəni inkişafının ehkam və stereotiplərdən imtina etmək lazım gəlir. Cəmiyyətdə qəbul olunmuş mədəni dəyərlər sistemi, çox halda, hər bir ölkənin siyasi kursu ilə də şərtlənir. Buna görə də, sosial baxımdan effektiv olmayan siyasi

kursun dəyişdirilməsi üçün dəyərlər sisteminin dəyişdirilməsi və ya təkmilləşdirilməsi zəruridir. *Kulturoloji təhsil və maarifləndirmə bu problemin həll edilməsi üçün geniş imkanlar açır, çünki,o, həm həyati dəyərlərin düzgün başa düşülməsinə, həm də insan və cəmiyyətin proqressiv inkişafına yeni nəzərlə baxılmasına yardım edir.*

Beləliklə, müxtəlif dinlərə və millətlərə mənsub insanların fundamental beynəlxalq kulturoloji hazırlığına, bəşəriyyətin davamlı sülh və təhlükəsiz inkişafı məqsədi ilə mütəxəssislərin və onların yaradıcı fəaliyyətinin düzgün istifadəsinə xüsusi ehtiyac yaranmışdır. Yenidənhazırlanma ilə dövlət məmurları, iş adamları, diplomat, hüquqşünas, iqtisadçı, din xadimi, eləcə də qeyri-hökumət təşkilatları, icma, həmkarlar təşkilatı, bələdiyyələr və vətəndaş cəmiyyətinin digər üzvləri əhatə olunmalıdırlar.

Kulturoloji təhsil və maarifləndirmə aşağıdakı sahələr üzrə potensial istedad və qabiliyyətlərin inkişafı, həmçinin, universal və xüsusi elmi biliklərin cəmiyyətə ötürülməsi prosesidir:

- Xalqların mədəni tarixi və insanın həyat fəaliyyət texnologiyaları
- Etik mədəniyyət
- Hüquqi mədəniyyət
- Estetik və bədii mədəniyyət
- Ekoloji və tibbi mədəniyyət
- Demokratiya və vətəndaş cəmiyyətinin siyasi mədəniyyəti
- Sülh mədəniyyəti və gender mədəniyyəti
- İqtisadi inkişaf və sahibkarlıq etikası mədəniyyəti
- Ətraf aləmin mühafizəsi mədəniyyəti
- Xalqlar-, dinlər- və millətlərarası münasibət mədəniyyəti
- Yoxsulluğun və korrupsiyanın azaldılması texnologiyaları
- Ziddiyyətlərin həlli və terrorizmin aradan qaldırılması texnologiyaları
- Məsuliyyət mədəniyyəti
- İstehlak və qida mədəniyyəti
- Dövlət, sosial və qlobal idarəetmə mədəniyyəti

İnteraktiv kulturoloji təhsilin üstünlüyü ondadır ki, o, özündə mədəniyyət tarixi, mədəni antropologiya, mədəniyyət fəlsəfəsi və

mədəıniyyətin sosiologiyası üzrə nailiyyətlərin tarixi, məntiqi, psixoloji, fəlsəfi, sosioloji və politoloji təhlil metodlarını harmonik birləşdirərən sistemli kulturoloji yanaşmaya istinad edir. Mədəmiyyəti bütöv sosial sistem kimi nəzərdən keçirən və siyasi, sosial-mədəni problemlərin ekspertizasını reallaşdıran bu yanaşma nəinki, cəmiyyət qarşısında müəyyən vəzifələr qoymağa, həm də onların daha effektiv əməli həlli yolları və texnologiyalarını müəyyənləşdirməyə imkan yaradır.

Kulturologiya təxəyyül və yaradıcı qabiliyyətləri,insanların tərəqqipərvər dəyişikliklərə səfərbərliyinə, ictimai tələbatlara cavab verən və dünya inkişaf tendensiyalarına uyğun sosial-mədəni inkişafın yenilikçi model və layihələrinin yaradılmasına yardım edən, mümkün gələcəyin obrazlı görümünü fəal inkişaf etdirir.

Beynəlxalq kulturoloji təhsilin missiyası bəşəriyyətin ruhi və maddi mədəniyyəti inkişafının tarixi, nəzəriyyəsi və praktikası, xüsusilə də, demokratik mədəniyyətin inkişafı sahəsində xasusi bilik və bacarıqlara malik şəxsiyyətlərin, lider və ekspertlərin formalaşdırılmasındadır. Cəmiyyətin maraqlarına cavab verən demokratik mədəni dəyərlərin formalaşdırılması üçün *bütün dünyada* qlobal siyasətin dəyişdirimməsi, onun demokratikləşdirilməsi və humanistləşdirilməsinə aparan *əlverişli şəraitin yaradılması* zəruridir. Bu, bəşəriyyətin təhlükəsiz inkişafı və stabilliyi üçün zəruri olan dəyər, mədəniyyət və maraqların harmonizasiyasına istiqamətlənmiş yeni strategiya və modellərin reallaşdırılmasını təmin edən, mədəniyyətin yeni sosial institutlarının yaradılmasını və artıq mövcud olanların transformasiyasını tələb edir.

Sülh mədəniyyətinin yaradılması və qlobal idarəetmənin effektivliyinin artırılması maraqlarından çıxış edərək, "Simürğ" Azərbaycan Mədəniyyət Assosiasiyası tərəfindən dünyada kulturoloji təhsilin effektivliyini təmin edən və bəşəriyyətin milli, regional və qlobal problemlərinin həllinin effektiv sosial texnologiyalarına yiyələnmiş ekspert-kulturoloqların hazırlığına yardım edən Dünya Mədəniyyətinin Beynəlxalq İnstitutu modelini işləmiş və Kulturologiya Məktəbi modelini işləmişdir.

*Orta məktəb səviyyəsində*, o, şagirdlərdə vətən tarixi və dünya mədəniiyyəti şüur mədəniyyəti, etik mədəniyyət, bədii, tibbi, ekoloji mədəniyyət, şəxsiyyətlər-, millətlər, dinlərarası münasibətlər

mədəniyyəti, onlarda humanist dünyagörüş və vətəndaş cəmiyyəti dəyərlərinin formalaşdırılması sahəsində, onlara sivilizasiya inkişafının dünya və milli təcrübəsinin ötürülməsinin interaktiv inkişafını nəzərdə tutur. O, həmçinin, istehsal və sahibkarlıq, hüquq və idarəetmə, istehlak mədəniyyəti, məsuliyyət mədəniyyəti, sülh mədəniyyəti və gender bərabərhüququ sahəsində qabiliyyət və bacarıqların inkişaf etdirilməsini nəzərdə tutur.

*Ali məktəb səviyyəsində,* o, tələbələrin və dinləyicilərin həyat mədəniyyəti və sülh mədəniyyəti, dünya iqtisadiyyatının müasir texnologiyaları və beynəlxalq ticarət, insanın və təbiətin ekologiyası, informasiya-kommunikasiya texnologiyaları, beynəlxalq hüquq və qlobal idarəetmə, beynəlxalq jurnalistika, qeyri-hökumət sektorunda vətəndaşların effektiv fəaliyyəti sahəsində təlimini nəzərdə tutur.

Ali kulturoloji təhsil aşağıdakı sahələr üzrə hazırlığı nəzərdə tutur:

- dünya mədəniyyəti və sivilizasiyası tarixinin yüksək ixtisaslı müəllim və tədqiqatçıları;
- aşağıdakı sahələr üzrə ekspertləri:
  - demokratiya mədəniyyəti və vətəndaş cəmiyyəti, təhlükəsiz həyat fəaliyyəti texnologiyaları;
  - sülh, xalqlararası, dinlərarası və gender münasibətləri mədəniyyəti;
  - mədəni irsin mühafizəsi, mədəni turizm, ətraf mühitin qorunması;
  - daxili siyasət, dövlət və ictimai demokratik idarəetmə;
  - yoxsulluqla mübarizə və iqtisadi inkişaf;
  - beynəlxalq hüquqi münasibətlər və qlobal idarəetmə;
- qeyri-hökumət, həmkarlar təşkilatları, bələdiyyələr və vətəndaş cəmiyyətinin digər strukturları.

Beynəlxalq kulturoloji təhsil şəxsiyyətin peşəkarlığı və etik inkişafında, demokratiya mədəniyyəti və vətəndaş cəmiyyəti inkişafında, düzgün sosial, siyasi və iqtisadi qərarların qəbul edilməsi, BMT və YUNESKO-nun bütün dünyada qəbul edilmiş etik prinsiplər, beynəlxalq dəyər və normalar təsdiqi üçün aktual əhəmiyyət daşıyır. O, cəmiyyətin sosial və siyasi kapitalının – yüksək mədəniyyətli vətəndaş, şəxsiyyət və liderlər, zəruri bilik, bacarıq,

müstəqillik və məsuliyyətlilik, mənəviyyatlılıq və yaradıcı fəaliyyətinin mütəmadi olaraq yeniləşməsinə yardım edəcəkdir. O, müasir innovativ pedaqogikanın nailiyyətlərindən istifadəyə istinadən, bizi əhatə edən dünyanın modernləşdirilməsi və tərəqqipərvər transformasiyası mənafeyinə uyğun olaraq, müxtəlif ölkə vətəndaşlarının istedad, qabiliyyət və potensialının hərtərəfli reallaşmasına yardım edəcəkdir.

Kulturoloji təhsilin inkişafının aktuallığı müxtəlif xalqların mədəniyyətlərinin harmonizasiyasına yardım etməsi ilə şərtlənir ki, o da, sivilizasiyaların dialoqu və əməkdaşlığı və bizim ümumi gələcəyimizin uğurunu təmin edir. O, insanda yüksək intellektual və etik mədəniyyət və gələcəyi düzgün görmə qabiliyyəti formalaşdıraraq, şəxsiyyətdə insanlar və xalqlararası münasibətdə yarana biləcək dağıdıcı proseslərin və ziddiyyətləri tənzimləmə qabiliyyətinin yaranmasına yardım edəcəkdir. O, qarşıdurmanı dünyada sülh mədəniyyətinin bərqərar olması üçün zəruri destruktiv proseslərə, qarşılıqlı anlaşmanın yaradıcı məcrasına yönəltməyə, dostluq və əməkdaşlığa çevirməyə imkan verəcəkdir. Bunların hamısı kulturoloji təhsili sosial terapiya və ziddiyyətlərin profilaktikası, şəxsiyyətin mənəvi ekologiyasının formalaşdırılması, sülh mədəniyyəti, hüquqi və gender mədəniyyəti, gəlir və resursların paylanması mədəniyyəti, eləcə də ümumbəşəri təhlükəsizliyin əldə edilməsinə istiqamətlənmiş maraq və mədəniyyətlərin harmonizasiyası prosesi üçün etibarlı baza kimi nəzərdən keçirməyə imkan verir.

Beynəlxalq kulturoloji təhsil inkişafının həyati zəruriliyinin *məntiqi əsaslandırılması kimi*, onu da qeyd etmək olar ki, universal kulturoloji biliklər mürəkkəb sosial və siyasi problemlərin çox zaman sosial və humanitar elmlərin ənənəvi metodlarına tabe olan mürəkkəb sosial və siyasi problemləri düzgün konseptual şəkildə görməyə, diaqnostikasını keçirməyə, strateji planlaşdırmağa və sistemli şəkildə həllinə yardım edəcəkdir.

Qlobal idarəetmə, gender bərabərliyi və sülh mədəniyyətinin qurulması, terrorizm və yoxsullyuğun aradan qaldırılması, davamlı və təhlükəsiz inkişafa nail olunması üçün *kulturoloji təhsilin xüsusi beynəlxxalq proqramının hazırlanması və reallaşdırılması vacibdir.* Xüsusi kulturoloji təhsillə yanaşı, dünya mədəniyyhətinin

nəzəriyyəsi və tarixi, şəxsiyyətin harmonik inkişafına yardım etmək və müxtəlif xalqların mədəni dəyərlər sisteminin yaxınlaşdırılması üçün, *dünyanın bütün orta və ali məktəblərində interaktiv təhsilin ayrılmaz tərkib hissəsi olmalıdır.*

Bizə elə gəlir ki, kulturoloji təhlilə əsaslanan bu mülahizələr YUNESKO-nun üzv ölkələrində sistemli və interaktiv kulturoloji təhsilin inkişafına istiqamətlənən, YUNESKO-da xüsusi qəbul edilmiş deklarasiya vasitəsi ilə kulturoloji təhsilin məqsədəmüvafiqliyini təsdiq edir.

- *Elm və Cəmiyyət. Elmi məqalələr toplusu, Bakı, 2004, s. 277-285.*

## DÜNYA SİVİLİZASİYASI KONTEKSTİNDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

*("Müasir Azərbycan : dil, ədəbiyyat və cəmiyyət" Paris, 27-28 may 2004-cü il)*

Çoxminillik təkamül ərzində ruhi mədəniyyət sosial inkişafın universal əsası və bəşəriyyətin mənəvi və intellektual tərəqqisinin kompleks gücünə çevrilmişdir. O, informasiyalı və etik qlobal birliyin formalaşma səviyyəsi , sürətinə, istehsal və istehlakına, xalqların tarixi məsuliyyətinə, siyasət, idarəetmə, sülh mədəniyyəti və beynəlxalq münasibətlərinə böyük təsir göstərmişdir. Mədəni mübadilə və qarşılıqlı zənginləşmə xalqların sosial-mədəni inkişaf təcrübəsinin, dünya mədəniyyəti tarixi qanunauyğunluqları üzrə biliklərin öyrənilib, yaradıcı istifadə edilməsi qloballaşma şəraitində transnasional nəzəri və praktik əhəmiyyət kəsb etməyə başlayır.

Azərbaycan - dünya sivilizasiyasının ən qədim mərkəzlərindən biridir. Azərbaycan xalqı öz kökləri ilə bəşəri düşüncə və yaradıcı həyat fəaliyyətinin minillik dərinliklərinə, ilkin sivilizasiya epoxasından qabaqkı arxaik dövrə gedən zəngin ruhi və maddi mədəniyyət yaratmışdır. Dünya mədəniyyətinin, müəyyən zaman daxilində mədəniyyətlərin yaranması və bir-birini əvəz etməsi qanunauyğunluqlarına əsasən, sivilizasiyanın əsasını qoyan ilk dövlətlərdən başlayaraq azərbaycan mədəniyyətinin inkişafını üç dövrə və ya pilləyə ayırmaq olar.

*Birinci* – b.e.ə. XI əsrdən b.e. III əsrə qədər Manna, Midiya, Atropatena və Albaniya antik dövlətlər çərçivəsi daxilində mədəni inkişaf dövrü. *İkinci* – III-XI əsrlərdə əvvəl İranın Sasani, sonra isə, Ərəb Xəlifəliyi və Səlcuq imperiyası daxilində feodal mədəniyyətinin formalaşması ilə əlaqədardır. Bu, antik zərdüşt-midiya və ellin quldarlıq mədəniyyətindən monoteist xristian və islam feodal mədəniyyətinə keçid dövrüdür. *Üçüncü* – XII-XVI əsrləri əhatə edən Azərbaycan İntibahı adını almış, yeni feodal azərbaycan mədəniyyətinin təsdiqi və çiçəklənməsi dövrüdür. *Dördüncü* – XVIII əsrdə başlanan feodal dövrdən Yeni Dövr innovasiyalı azərbaycan mədəniyyhətinə tədrici keçidlə şərtlənir. *Beşinci* - XX əsrin 1918-1920- ci illərində "birinci respublika "adlanan, Azərbaycan Demokratik Respublikasında demokratik siyasi mədəniyyətin təşəkkülü və inkiişafı dövrü. *Altıncı* - XX əsrin 1920-1990-cı illərini əhatə edən, tarixdə "ikinci respublika" adlanan, azərbaycan mədəniyyətinin totalitar sovet dövrü. *Yeddinci* – "üçüncü respublika" adlanan, müasir azərbaycan mədəniyyətinin demokratikləşdirilmə və modernləşdirilməsinə keçid dövrü. Bu dövr 1991-ci ildə müstəqil Azərbaycan Respublikasının dünyəvi demokratik cəmiyyət və hüquqi dövlət elan edilməsi ilə başlayır.

Beləliklə, azərbaycan xalqının sosial mədəniyyəti çoxəsrlik tarixə malikdir. Onda, hələ qədim dövrlərdən, demokratik mədəniyyətin elementləri, təbiət və cəmiyyətin dəyişdirilməsinə, insanın özünü təkmilləşdirməsinə istiqamətlənmə təzahür olunur. Tərəqqipərvər təfəkkür və azərbaycan mədəniyyətinin tərəqqipərvər tendensiyaları zərdüştlük, məzdəkilik, hürufilik, azərbaycan İntibahı və Maarifində müxtəlif forma və səviyyələrdə əks olunurdu.

Orta əsrlərdə azərbaycan xalqının ruhi mədəniyyətinin humanistləşdirilməsi və tərəqqipərvər inkişafı Nizami Gəncəvi, Bəhmənyar əl-Azərbaycani, Xaqani Şirvani, Əbül Həsən Şirvani, Səfiəddin Urməvi, Əcəmi Naxçıvani, Qətran Təbrizi, Mahmud Şəbüstəri. Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli və digər alim, mütəfəkkir və şairlərin adı ilə bağlıdır. Onlardan bəziləri nəinki vətəndə, eləcə də dünya mədəniyyəti tarixində şərəfli yer tutmuşlar.

Yeni Dövrdə azərbaycan maarifçilərindən - A.Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Kazım Bəy, M.F.Axundov, Həsənbəy Zərdabi və digərləri azərbaycan xalqının tərəqqipərvər nailiyyətləri ilə avropa və rusiya mədəni dəyərlərinin sintezi yolu ilə mədəni islahatlar keçirməyə can atırdılar. Onlar azadlıq, tərəqqi, səadətə gedən düzgün yol axtarışında azərbaycan xalqına yardım edərək, feodal mədəniyyətdən demokratik mədəniyyətə inqilabi keçidə yardım edirdilər. Əgər XII-XVI əsrlərdə Azərbaycanda maarifçiliyin əsasını qoyan mədəni İntibah müşahidə olunurdusa, XIX əsrdə burada mədəni inqilab baş verdi. Çoxəsrlik antik, orta əsr asiya və avropa – zərdüşt-midiya, ellinistik, alban-xristian, islam və türk mədəniyyətləri Yeni Dövrün qərbi-avropa və rus mədəniyyəti novasiyaları ilə zənginləşərək, özünəməxsus azərbaycan mədəniyyəti yaradıldı. Ənənəvi feodal azərbaycan mədəniyyəti novasiyalı inkişaf pilləsinə qədəm qoydu. Avropa İntibahı, elmi, iqtisadi və sosial inqilablar ruhu, Avropa universitet təhsilinin çoxəsrlik ənənələri azərbaycan mədəniyyətinin inkişafına tərəqqipərvər təsir göstərərək, onun keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasına yardım etdi. Azərbaycanda kitab nəşri yarandı, dövri mətbuat inkişaf etməyə başladı, xalqın maariflənməsinin pozitiv prosesi başladı.

XIX və XX əsrlərdə azərbaycan ruhi mədəniyyətinin inkişafının demokratik mahiyyət daşıması onun səciyyəvi cəhəti idi. Bu, özünü həm milli şüurun formalaşmasında, həm milli maarifçiliyin və mədəni-maarif cəmiyyətlərinin, ədəbiyyat və milli incəsənətin – teatr, musiqi, təsviri incəsənətin təşəkkülündə öz əksini tapırdı. XIX əsrin sonunda Azərbaycanda demokratik mətbuat, milli teatr, xalq təhsili və maarifin yeni forması yarandı, milli dramaturgiya və jurnalistikanın əsası qoyuldu, azərbaycan xalqının yaradıcı qüvvəsinin azad edilməsinə yardımçı olan mühəndis işinin, ictimai, texniki və təbiət elmlərinin öyrənilməsi, onun sosial-mədəni potensialının artması sahəsində müəyyən addımlar atılmışdı. Azərbaycan müsəlman Şərqində tərəqqipərvər demokratik ideyaların fəal genişləndiyi sosial-mədəni tərəqqinin dayağına çevrildi.

Keçmiş yüzilliklərin mədəni nailiyyətlərinə istinad edən azərbaycan xalqı, XX əsrdə də öz inkişafında müəyyən uğur qazandı. 1918-ci ildə Azərbaycanda ilk dəfə olaraq, parlamentarizm prinsipləri

və ilk Demokratik Respublika təsdiq olundu. Azərbaycan Demokratik Respublikasının yaradılması ənənəvi azərbaycan mədəniyyəti novasiyalı inkişafının yeni mərhələsinin təməlini qoydu. Siyasi tarixin bütün çətinliklərinə baxmayaraq, XX əsrdə azərbaycan mədəniyyətinin nailiyyətləri Azərbaycan milli mədəniyyətinin fəxri olan görkəmli alim, filosof, yazıçı, şair, ictimai xadim, rəssam, heykəltaraş, bəstəkarlar və ifaçılar tərəfindən zənginləşdirilib, artırıldı. Onların arasında - M.Ə.Sabir, C.Məmmədquluzadə, Əhməd Ağa oğlu, Ə.Hüseynzadə, Ə.Cavad, M.Rəsulzadə, Ə.Topçubaşov, F.Xoyski, N.Nərimanov, C.Cabbarlı, H.Cavid, Ü.Hacıbəyov, M.Mirqasımov, Y.Məmmədəliyev, M.Useynov, M.Maqomayev, Q.Qarayev, F.əmirov, T.Quliyev, Niyazi, A.Məlikov, C.Qaryağdıoğlu, R.Behbudov, S.Bəhlulzadə, M.Abdullayev, T.Salahov, F.Əbdülrəhmanov, T.Nərimanbəyov və xalqın sosial mədəniyyətinə layiqli töhfələr vermiş bir çoxları var.

Bu gün müstəqil Azərbaycan Respublikasının xalqı gələcəyə inamla baxır. Bu inam azərbaycanda insani və milli inkişafın, rifahın və sülhün universal əsası olan yüksək ruhi mədəniyyətin inkişafına verilən əhəmiyyətlə bağlıdır. Azərbaycan xalqının mədəni irsinin qorunması və təbliğ olunması, eləcə də milli mədəniyyətin modernləşdirilməsi və demokratikləşdirilməsi, beynəlxalq sosial-mədəni və iqtisadi əməkdaşlığın inkişafı ilə əlaqədar fəaliyyət Azərbaycanın mədəni siyasətində mühüm yer tutur. Bu modernləşdirmənin əsasını hələ XX əsrdə Fransada və digər avropa ölkələrində, eləcə də Rusiyada təhsil almış Azərbaycan tərəqqipərvər ziyalılarından Əhmədbəy Ağayev, Əlibəy Hüseynzadə, Məmmədəmin Rəsulzadə və bir çox başqaları qoymuşdular. Bu maarifçilərin yaradıcı təfəkkürü və qurucu fəaliyyəti azərbaycan milli mədəniyyətini qərbi avropa mədəniyyətinin tərəqqipərvər nailiyyətləri və təcrübəsinin yaradıcı istifadəsi əsasında modernləşdirilməsi ideyalarının praktik olaraq həyata keçirilməsi işinə xidmət edirdi. Bu ənənələr demokratik cəmiyyət və hüquqi dövlət quran müstəqil Azərbaycan Respublikası – "üçüncü respublika" şəraitində də uğurla davam və inkişaf etdirilir.

Həyat fəaliyyətinin tərəqqipərvər sosial texnologiyalarına keçidi nəzərdə tutan müasir azərbaycan cəmiyyəti postsovet mədəniyyətinin davamlı olaraq demokratik mədəniyyətə transformasiyası ilə

səciyyələnir. Bu, siyasi baxımdan - hakimiyyətin bölüşdürülməsi, insanın azad seçimi, hüquq və azadlıqlarının inkişafı, qanunun aliliyinin təsdiqi, demokratiyanın siyasi institutlarının dərinləşib, genişlənməsidir. Sosial-iqtisadi baxımdan - bazar iqtisadiyyatının rəqabətəqabil inkişafına istiqamətlənmiş islahatların davamı və dərinləşdirilməsi, xalqın rifahı və həyat keyfiyyətinin yüksəlməsidir. Sosial-mədəni baxımdan - milli-mədəni dəyərlərin dirçəldilməsi, onların ddemokratik mədəni dəyərlərlə sintezi, yeni demokratik etika, ideal və liberal də'yərlərin təsdiqidir.

Demokratik ölkələrin və beynəlxalq təşkilatların yardımı ilə həyata keçirilən inkişaf prosesləri əsasında milli mədəniyyətin demokratikləşdirilməsi, sağlam milli ideyanın təsdiqi, intellektual, etik, hüquqi, informasiya və idarəetmə mədəniyyətinin prioritet inkişafı durur. Vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılmasına, korrupsiya və yoxsulluqla mübarizəyə, iqtisadi inkişafa, ətraf mühitin qorunmasına, ekoloji təhlükəsizliyin əldə edilməsinə ciddi fikir verilir. Qadın, uşaq və gənclərin gender mədəniyyəti, fiziki mədəniyyət və idman, sağlamlığın qorunması və vətəndaşların sosial müdafiəsi, sülh mədəniyyəti və beynəlxalq əməkdaşlıq fəaliyyətin prioritet istiqamətlərinə aiddir. Azərbaycanda demokratiyanın qeyri-hökumət təşkilatları, bələdiyyə və icma institutları fəal inkişaf edir.

Azərbaycanın sosial-mədəni siyasəti ölkə vətəndaşlarının bilik, bacarıq, mütəşəkkillik, mənəviyyatlılıq və yaradıcı fəaliyyətinə gündən-günə daha artıq istiqamətlənir. Mədəniyyətin demokratikləşdirilməsi prosesi şəxsiyyət, ailə, kollektiv və bütövlükdə cəmiyyət səviyyəsində aparılır. Demokratik mədəniyyətdə sosial mühitin formalaşdırılması strategiyaları təbii-coğrafi mühitin, millətin bioloji kodunun, tarixi şəraitin və mədəni mübadilə imkanlarından düzgün istifadə etmənin nəzərə alınması əsasında həyata keçirilir. Təhsilin, elm və incəsənətin, yeni rəqabətəqabil istehsal və informasiya texnologiyaların işlənməsi və istifadəsinə mühüm əhəmiyyət verilir.

Avropa Şurasının üzvü olan respublika, demokratiya , sülh və tərəqqi yolu ilə inamlı addımlarla irəliləyir. Bu gün azərbaycan mədəniyyətinin inkişafına yardım göstərən avropa ölkələri içərisində

Fransanın da olması ürəkaçan haldır. Azərbaycanın Avropa Şurasına daxil olması, BMT, YUNESKO, ATƏT və digər beynəlxalq təşkilatlarla, dünyanın demokratik ölkələri ilə fəal əməkdaşlığı xalqımızın ruhi və maddi inkişafı üçün yeni imkanlar açmışdır. Azərbaycanın böyüklərə hörmət, sədaqət, dözümlülük, uşağa sevgi, qonaqpərvərlik və dini dözümlülük bu gün avropa mədəniyyətinin mədəni dəyərləri – şəxsiyyətə hörmət, məsuliyyət, doğruculluq, intellektual mədəniyyətin prioriteti və insan və onu əhatə edən dünyanın innovativ dəyişdirilməsi uğrunda mübarizəsi ilə zənginləşir. Azərbaycan xalqının sosial-mədəni və siyasi həyatında demokratik mədəniyyətin - insanın hüquq və azadlıqları, qanunun aliliyi, bazar iqtisadiyyatı, gender mədəniyyəti, azərbaycan xalqının yaradıcı fəaliyyəti, tərəqqipərvər inkişafı, eləcə də yaradıcı sərbəstliyi üçün geniş imkanlar açan vətəndaş cəmiyyəti özünüidarəsi kimi dəyərləri öz təsdiqini tapır. Bu dəyərlərin azərbaycan milli mədəniyyətinə ardıcıl inteqrasiyası ölkəmizin sülh zonası olan , demokratik dünyaya stabil inkişafa və sosial tərəqqiyə harmonik daxil olmasına yardım edir.

Mədəni insan həyatının əsas tələbatı və daxili motivasiyalarından biri şəxsiyyətin özünütəkmilləşməsidir. Bu motivasiyadan çıxış edərək, hər bir mədəni insan bu gün dünənkindən, sabah isə bu günkündən daha yaxşı olmağa can atmalıdır. Bu zaman insanın mədəni inkişafı intellektual, mənəvi və fiziki mədəniyyətdən ibarət üç səviyyədə həyata keçirilməlidir. Qeyd edək ki, bütöv cəmiyyətin sosial-mədəni inkişaf prosesi məhz bu üç səviyyədə baş verir. O, özündə intellektual və mənəvi yaradıcı fəaliyyəti, eləcə də sosial mədəniyyətin "tikinti materialı" , cəmiyyətin sosial kapitalı olan, fiziki mədəniyyəti əks etdirir. Bizə elə gəlir ki, əgər bu kulturoloji yanaşma milli və dini sərhədlərdən asılı olmadan planetin hər bir adamının fəlsəfi həyat norması və etik qlobal idarəetmənin başlanğıc prinsipi olarsa, bəşəriyyət üçüncü minillikdə humanizmə istiqamətlənən sivilizasiya quruculuğunda real uğurlar qazana bilər.

Bütün dünyada demokratiya mədəniyyəti və vətəndaş cəmiyyətinin coğrafi sərhədlərinin genişlənməsi etik və sosial dünya birliyinin formalaşması xalqın daha uğurlu gələcəyinin alternativi olmayan yoludur. Bu yolun uğuru çox halda, dünya sivilizasiyası

çərçivəsində Şərq və Qərb mədəniyyətinin harmonizasiyasına istiqamətlənmiş məhsuldar dialoqundan çox asılıdır. Belə bir dialoqun əsas prinsipi humanist mədəniyyətin insan dəyərlərinin prioriteti – insanların ümumi maraqlarını ifadə edən həyati, sülh, inkişaf və səadət dəyərləri olmalıdır.

Bu gün müasir Azərbaycan xalqı və ziyalılar insanın həyat fəaliyyətinin universal əsası və hərəkətverici qüvvəsi olan ruhi mədəniyyətə fundamental əhəmiyyət verən bu yanaşmadan çıxış edir. Respublikada sülh mədəniyyəti və əməkdaşlıq, qarşılıqlı anlaşma, dialektik dəyişən dünyada davamlı inkişaf naminə mədəniyyətlərin dialoq və harmonizasiyasının təsdiqinə mühüm əhəmiyyət verilir. Digər sivil xalqlar kimi, biz bu seçimə sadiq qalaraq, bəşəriyyətin bu tarixi missiyasının həyata keçirilməsinə öz töhvələrimizi vermək əzmindəyik. Biz demokratik mədəniyyətinn prinsip və dəyərlərindən şıxış edərək, sülh və davamlı inkişaf naminə bütün ölkələrlə mədəni, iqtisadi və siyasi əməkdaşlığı genişləndirmək və möhkəmləndirməyə can atırıq. Tərəqqipərvər mədəniyyətə və mədəni yeniliklərə həssaslıq bizə gələcəyin pozitiv obrazını düzgün görməyimizə, qloballaşma və müasir sivilizasiyanın informasiyalı cəmiyyətə doğru hərəkəti şəraitində düzgün milli təfəkkür və davranışımıza ümid yaradır.

Yeni yüzillikdə azərbaycan mədəniyyətinin inkişaf perspektivləri, qloballaşmanın obyektiv tələblərinə cavab verən modernləşmə və innovativ demokratik islahat problemlərinə kulturoloji yanaşma ilə daha çox bağlıdır. Bu, həm azərbaycan cəmiyyəti tərəfindən öz milli-mədəni xüsusiyyətlərinin saxlanmasını, həm də, həyat fəaliyyətinin tərəqqipərvər fəlsəfə və texnologiyaları olan demokratik mədəniyyətin tarixi üstünlüklərini göstərən müasir demokratik dünyaya davamlı harmonik inteqrasiyasını nəzərdə tutur.

*Известия Российской Академии педагогических и социальных наук, т.10, с.337-342. Москва, 2006.*

# AZƏRBAYCAN RESPUBLİKASINDA RUHİ MƏDƏNİYYƏTİN İNKİŞAF TEXNOLOGİYALARI, PROBLEM VƏ PRİORİTETLƏRİ HAQQINDA

Azərbaycan hökuməti mədəniyyətin inkişafına məlum diqqət ayırır. 12 noyabr 1995-ci ildə ümumxalq referendumu vasitəsi ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında qeyd edilir: " Azərbaycan dövləti mədəniyyət, təhsil, səhiyyə, elm, incəsənətin inkişafına yardım göstərir, təbiət, tarix, xalqın ruhi və maddi irsini qoruyur... Hər kəs mədəni həyatda iştirak, mədəni müəssisə və mədəni dəyərlərdən istifadə hüququna malikdir... Hər kəs yaradıcılıq azadlığına malikdir. Dövlət ədəbi-bədii, elmi-texniki və digər yaradıcılıq növlərinin azad həyata keçirilməsinə təminat verir".

Uzunmüddətli inkişaf nəticəsində Azərbaycanda ruhi mədəniyyət sisteminin təhsil, elm və incəsənət, hüquqi, idarəetmə, informasiya, beynəlxalq və digər sosial institutlarının şaxələnmiş şəbəkəsi yaradılmışdır. 2000-ci ildə respublikada 22 teatr, 4406 kitabxana, 13 konsert zalı, 133 dövlət muzeyi, 26 bədii qalereya, 70 mədəniyyət və istirahət parkı, 3022 klub, mədəniyyət evi və saray, eləcə də onlarla elmi müəssisə və ali təhsil müəssisələri fəaliyyət göstərirdi. Poliqrafiya müəssisələri və kitab ticarəti, eləcə də xalq sənəti məhsulları ticarəti, rəssamlıq və bədii dizayn, əntiq mallar ticarəti genişlənir. Muzey, kitabxana və bərpa işində yeni texnologiyalara tədrici keçid həyata keçirilir. Avropa Şurası Mədəniyyət komitəsi və YUNESKO ilə əməkdaşlıq edilir. 2000-ci ildə Mədəniyyət Nazirliyində mədəni siyasət şöbəsinin yaradılması tərəqqipərvər hadisə oldu. Azərbaycan Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə TÜRKSOY Beynəlxalq mədəniyyət təşkilatı yaradılıb, fəaliyyət göstərir. MDB ölkələrində yeni mədəni mərkəzlər yaradılır və buradakı mövcud azərbaycan diasporaları ilə mədəni əlaqələr inkişaf edir. İncəsənət sahəsinin sosial müdafiəsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin bir sıra sərəncamları ilə yanaşı, 1997-1998-ci illərdə incəsənət xadimləri və onların kollektivlərinə, gənc istedadlara və təqaüdçülərə xüsusi təqaüd və pensiyaların verilməsi qərara alınmış, dövlət mükafatlarının yeni sistemi tətbiq edilmişdir. Təhsil, hüquqi və sosial sistemlər, idarəetmə, iqtisadiyyat, səhiyyə və

maddi, eləcə də ruhi mədəniyyətin digər sahələrində islahatlar keçirilir. 1999-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəetmə Akademiyasının yaradılması Azərbaycanda idarəetmənin, eləcə də siyasi və iqtisadi mədəniyyətin inkişafı üçün mühüm əhəmiyyət daşımışdır. Müasir Azərbaycanın intellektual mədəniyyəti inkişafının ən böyük nailiyyəti 2001-ci ildə bir qrup istedadlı azərbaycan alimlərinin Milli Elmlər Akademiyasının həqiqi üzvü və müxbir üzvü seçilməsi oldu.

Dövlətin müasir mədəni siyasətində ən mühüm yeri azərbaycan xalqının mədəni irsinin qorunması və yayılması ilə bağlı fəaliyyət tutur. Azərbaycanda və Gürcüstanda azərbaycan mədəniyyətinin görkəmli xadimlərindən - Üzeyir Hacıbəyov, Səməd Vurğun, Cəfər Cabbarlı, Nəriman Nərimanov, Bül-bül, Cəlil Məmmədquluzadə, Niyazi, Hüseyn Cavid, Mirzə Fətəli Axundovun ev -muzeyləri təşkil edilmiş və fəaliyyət göstərir.Son zamanlar keçirilmiş beynəlxalq əhəmiyyətli tədbirlər içərisində görkəmli azərbaycan mütəfəkkir və şairi Məhəmməd Füzulinin 500 illik yubileyinin Fransa, Türkiyə, Rusiya, İrak və İranda keçirilməsi oldu. Görkəmli azərbaycan bəstəkarı Qara Qarayevin, dünya şöhrətli müğənnilər Bül-bül və Rəşid Behbudovun yubileylərinə həsr olunmuş və müxtəlif ölkələrdə keçirilən bayram tədbirləri milli mədəniyyət tarixinə parlaq səhifələr yazdı. Azərbaycan milli eposu olan Dədə Qorqudun 1300 illik yubileyinin YUNESKO-nun rəhbərliyi altında keçirilməsi möhtəşəm hadisə oldu. Fiziki mədəniyyət, idman və turizmin inkişafı üzrə Bakıda və Azərbaycan regionlarında olimpiya komplekslərinin yaradılması, gənclər üçün yeni mərkəzlərin tikintisi və mədəni abidələrin bərpası sahəsində fəal tədbirlər həyata keçirilir.

Keçmiş on il ərzində mədəniyyətin inkişafının hüquqi tənzimlənməsinin qanunverici bazasının yaradılması üzrə əhəmiyyətli işlər görülmüşdür. O, 1991-1999-cu illərdə qəbul edilmiş 19 qanunun fəaliyyəti ilə təmin edilir. 1998-ci ildə Azərbaycan Respublikasının mədəniyyəti haqqında Qanun qəbul olunmuşdur. Mədəniyyət haqqında yeni Qanunda pozitivlik ondan ibarətdir ki, o, Avropa Şurasının, insanın azadlıq və hərtərəfli inkişafını təmin edən demokratik mədəniyyətini - mədəni rəngarənglik, yaradıcı fəaliyyətə həvəsləndirmə və mədəni həyatda iştirak prioritetlərinə

istiqamətlənməni yüksək dəyər kimi nəzərdən keçirən humanist prinsiplərini əks etdirir. Bu və digər illərdə mədəniyyət idarələrinin funksionallığı və yaradıcı fəaliyyətini tənzimləyən, eləcə də milli mədəniyyətin demokratikləşdirilməsinə yardım edən, ölkədə hüquqi, informativ, idarəetmə mədəniyyətinin inkişafını təmin edən bir sıra qanunlar qəbul olunmuşdur. Onların arasında - mədəniyyət və tarixi abidələrin qorunması, kitabxana, muzey, dövlət qulluğu, informasiya haqqında, informatlaşdırma və informasiyanın qorunması, müəllif hüququ, kütləvi informasiya vasitələri, memarlıq fəaliyyəti, kinemotoqrafiya, turizm və digər qanunları nümunə gətirmək olar. Bu qanunların fəaliyyəti nəticəsində demokratik mədəniyyətin formalaşdırılması ilə əlaqədar müəyyən pozitiv dəyişikliklər hiss olunur. Ölkədə senzura ləğv edilmiş, kütlələrin akkulturasiya və maarifləndirilməsinin mühüm vasitəsi olan MEDİA-nın demokratikləşdirilməsi baş verir. Mədəniyyət haqqında qanun mədəniyyət müəssisələrinin dövlət və yerli büdcədən maliyyələşdirilmə imkanını, eləcə də mülkiyyət formasından asılı olmayaraq, özünümaliyyələşdirməni nəzərdə tutur. Mədəniyyətin demokratikləşdirilməsi və azad inkişafına vergi qqanunvericiliyi də, müəyyən dərəcədə, yardım edir. Mədəniyyətin inkişafının əlavə maliyyələşdirmə mənbəyinin yaradılması məqsədi ilə, dövlət, qeyri-hökumət strukturları və mülki şəxslər tərəfindən milli mədəniyyət fondlarının yaradılması nəzərdə tutulmuşdur. 1992-ci ildən etibarən, mədəniyyət sahəsində ictimai-şəxsi əməkdaşlığın inkişafının hüquqi stimullaşdırılması üçün şəxsi kapitalın cəlb edilməsi yolu ilə şəraitin yaradılması mümkün olmuşdur. Mədəniyyətin ticarəti ilə bağlı demokratikləşdirmə, "mədəni sənaye" sahəsində, ilk növbədə, - kitab nəşri, televiziya, radioveriliş idarəsi şəbəkəsi, dövri mətbuat, lazer disklərinin və audiokassetlərin istehsalında müşahidə olunur. Mədəniyyətin demokratikləşdirilmə göstəricilərindən biri də odur ki, ölkədə dövlət dili olan azərbaycan dilindən başqa, ingilis, gürcü, ləzgi, talış, kürd və digər dillər istifadə olunub, inkişaf etdirilir. 2000-ci ildə Bakıda Bakı Slavyan İnstitutu yaradılmışdır. Azərbaycanın paytaxtında bir çox avropa və şərq dillərinin öyrənilməsi təşkil olunmuş kurslar fəaliyyət göstərir. Azərbaycanda

milli-mədəni mərkəzlər şəbəkəsi fəaliyyət göstərərək, ölkədəki azsaylı xalqların mədəniyyətlərinin azad inkişafına yardım edir.

Sovet dövründən qalma yaradıcı ittifaq və birliklərin dövlət strukturları ilə yanaşı, bu gün Azərbaycanda ruhi mədəniyyətin inkişafına istiqamətlənmiş onlarla assosiasiya, fond, mədəni mərkəz və digər qeyri-hökumət təşkilatları ictimai-faydalı fəaliyyətlə məşğuldur. Azərbaycanın sosial-mədəni inkişafına vətəndaş yardımı məqsədi ilə,o, könüllülük əsasında elm, təhsil, incəsənət, MEDİA, din, geniş profilli mütəxəssislər, qadın və gəncləri birləşdirir. Demokratik mədəniyyətin yeni sosial institutu olan qeyri-hökumət təşkilatları ölkədə vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunun mükəmməl məktəbidir. Onlar cəmiyyətin maddi rifahının yüksəlməsi və ruhi təkmilləşməsinə yardım məqsədi ilə, azərbaycan mədəniyyəti və ölkənin mədəni siyasətinin təkmilləşməsi üçün yeni forma və modellər axtarırlar. Azərbaycanda demokratik mədəniyyətin inkişaf prosesinə, mədəni irsin qorunmasına yardım edən beynəlxalq mədəni əməkdaşlıq və mübadilənin - beynəlxalq fondların, xarici səfirlik və təşkilatların köməyi nəticəsində intellektual və bədii mədəniyyətin inkişafı əhəmiyyətli dərəcədə genişlənmişdir. Mədəniyyət inkişafının idarəedilməsinin əksmərkəzləşməsi öz təcəssümünü, müəyyən dərəcədə, qeyri-hökumət təşkilatlarının fəaliyyətində tapır. Belə təşkilatlar sırasında yeni tip mədəniyyətin Azərbaycanda ilk müstəqil çoxsahəli qeyri-hökumət təşkilatı olan "Simürğ" Azərbaycan Mədəniyyət Assosiasiyası, Azərbaycan Kulturoloqlar Cəmiyyəti və Vətəndaş Cəmiyyəti Mədəniyyətinin Beynəlxalq Forumunun da adını çəkmək olar. Bu təşkilatlar Azərbaycanda sosial-mədəni tərəqqiyə, vətəndaş cəmiyyəti mədəniyyətinin inkişafına istiqamətlənmiş birgəfəaliyyət məqsədi ilə öz sıralarında ziyalı və gəncləri, onlarla kollektiv və yüzlərlə fərdi üzvləri könüllülük əsasında birləşdirir. Mədəniyyət Assosiasiyası üzvləri arasında Milli Elmlər Akademiyasının ölkə daxilində və xaricdə tanınmış onlarla akademik və müxbir üzvü, həmçinin, professorlar vardır.

Ümumiyyətlə, əldə edilmiş uğurlara baxmayaraq, etiraf etmək lazımdır ki, müasir dünyada insan və cəmiyyətin inkişafının bir çox perspektivlərinin qarşısını alan və tədricən artmaqda olan mədəni

böhran Azərbaycan mədəni inkişafında da mövcud olaraq, keçid dövrünün qeyri-stabil şəraiti ilə daha da gərginləşir. Keçən əsrin son onilliyində Azərbaycanda mədəni inkişaf vəziyyətinin sistemli təhlili göstərir ki, burada məlum nailiyyətlə bərabər, yeni baxış və düzgün həll tələb edən, bir sıra çətinlik, çatışmamazlıq və problemlər mövcuddur.Bunlar aşağıdakılardır:

- Aşağı səviyyəli kütləvi mədəniyyətin üstünlüyü ilə köhnə sovet mədəni sisteminin fəaliyyəti.
- Etik mədəniyyətin pozitiv norma və dəyərlərinin eroziyası, uşaq və gənclərin tərbiyəsi səviyyəsinin enməsi.
- Milli mədəni abidələrin qorunması səviyyəsinin kifayət qədər olmaması.
- Köhnə sistemlə mədəniyyətin strukturu, eləcə də onun demokratikləşdirilməsi ilə şərtlənən ziddiyyətlər.
- Cəmiyyətdə mədəniyyətin iqtisadiyyat üzərində üst qurum olması haqqında sovet dövründən qalma təsəvvürlərin üstünlüyü.
- Başlıca olaraq, incəsənət çərçivəsi və mədəni irslə məhdudlaşan mədəni siyasətin effektsizliyi.
- Ermənistan təcavüzünün nəticələri.
- Hökumət tərəfindən dövlət quruculuğu və idarəetmədə, təhsil və maarifdə, ictimai həyat və beynəlxalq münasibətlərdə, daxili və xarici siyasətin təkmilləşməsində kulturologiyanın rolunun lazımi qədər qiymətləndirilməməsi.
- Vətəndaş cəmiyyəti mədəniyyəti inkişafının və milli mədəniyyətin demokratikləşdirilməsi sürətinin kifayət qədər olmaması.
- Ölkədə demokratik idarəetmə mədəniyyəti inkişafı sürətinin kifayət qədər olmaması. Siyasi mədəniyyətdə avtoritar ənənələrin və inzibati-amirlik metodlarının ağır aradan qaldırılması.
- Paylama münasibətləri mədəniyyətindəki çatışmamazlıqlar.
- Ziyalılar və istedadlı gənclərin yaradıcı inkişafı və innovativ fəaliyyəti üçün əlvüerişli şəraitin, eləcə də mədəniyyət sahəsində hökumət tərəfindən vətəndaşların təşəbbüslərinə zəruri mənəvi yardımın olmaması.
- İntellektual potensialın yaradıcı rolunun qiymətləndirilməməsi və bununla əlaqədar olaraq elitar ziyalıların mühacirəti.

Bu problemləri daha dəqiq nəzərdən keçirib, onların həlli yolları və metodlarının müəyyənləşdirilməsinə cəhd edək. Azərbaycanda ölkə daxilində, insanl, lokal, regional və qlobal səviyyədə müəyyən qeyri-bərabər mədəni inkişaf mövcuddur. Həlli zəruri olan ciddi problemlərdən biri əhalinin aztəminatlı təbəqəsinin, qaçqın və məcbura köçkünlərin mədəni nailiyyətlərdən istifadəsini çətinləşdirən iqtisadi qeyri-bərabərliklə şərtlənən mədəni bərabərsizlikdir. Erməni təcavüzü Azərbaycan mədəniyyətinə güclü zərbə vurmuşdur. Mədəniyyətin başlıca olaraq, sovet dövründən qalmış, qalıq prinsipi üzrə maliyyələşdirilməsini qənaətbəxş hesab etmək olmaz. Vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılması, təhsil, elm, maarif, incəsənətin inkişafı, ölkədə yoxsulluğun səviyyəsinin azaldırlması, informasiyalı cəmiyyətə keçid modellərinin yüksək rəqabətəqabil texnologiyaları və həyati modellərinə keçid sahəsində çox şey etmək lazımdır. Mədəniyyət strukturu və idarəetmə metodları, mədəni inkişaf proseslərinin hüquqi tənzimlənməsi və maddi təminat texnologiyaları gələcək tərəqqipərvər dəyişiklik tələb edir.

Azərbaycanda demokratik cəmiyyət quruculuğu şəraitində mədəniyyətin köhnə sovet konsepsiyası və strukturu ilə formalaşmaqda olan demokratik mədəniyyət tələbləri arasında yaranan dialektik ziddiyyətlərlə bağlı problemlər aparıcı mövqe daşıyır. Ölkənin sosial-mədəni inkişafını ləngidən bu ziddiyyətlərin vaxtında həll edilməməsi Azərbaycan mədəniyyətinin böran vəziyyəti almasına səbəb olmuşdur. Bu, "Simürğ" AKA tərəfindən 2001-ci ildə keçirilmiş əhalinin sosioloji sorğusunun nəticələri göstərdi ki, mədəniyyətin böhranı və onun sonrakı mümkün nəticələrinin qiymətləndirilməsinə münasibətin müxtəlifiiyinə baxmayaraq, respondentlərin əksəriyyəti (73%) hesab edirdi ki, Azərbaycanda ümumi mədəniyyət böhranı müşahidə olunur. Səbəblərin içərisində mədəniyyətin zəif maliyyələşdirilməsi (33,97%), ziyalıların - alim, mütəxəssis, müəllim və incəsənət xadimlərinin böyük bir hissəsinin mühacirəti (31,51%), əhali tərəfindən mədəniyyətinin mahiyyətinin düzgün başa düşülməməsi (27,12%), respublikada qaçqın və məcburi köçkünlərin sayının çoxluğu (26,03%), effektiv mədəni siyasətin olmaması (23,29%), aşağı əyarlı kütləvi mədəniyyətin. üstünlük təşkil

etməsi (22,74). Bu səbəblərlə yanaşı, həmçinin ziyalı və istedadlı gənclərin yaradıcı inkişafı üçün lazım olan şəraitin olmaması, mədəniyyət sahəsində effektiv qanunvericilik bazasının olmaması, hakimiyyət tərəfindən mədəniyyət sahəsində vətəndaşların təşəbbüslərinin ruhlandırılmasının olmaması, mədəniyyətin köhnə sovet sisteminin hələ də fəaliyyət göstərməsi. Uşaq və gənclərin tərbiyə səviyyəsinin aşağı olması əhalidə xüsusi narahatlıq yaradırdı (30,8%). Sorğuda iştirak edənlərin əksəriyyətinin fikrinə görə (73,15%), müasir kütləvi mədəniyyətin dağıdıcı təsiri ilə yaranmış bir çox pozitiv norma və dəyərlərin eroziyası ilə əlaqədar yaranmış mədəniyyət böhranı respublikanın gənc nəslinin arasında daha çox müşahidə olunur. Lakin bütün cəmiyyət tərəfindən "istehlak" olunan mədəniyyətin inkişafının yaradıcısı və başlıca qüvvəsi olan ziyalıların ağır vəziyyəti ən təhlükəli simptomdur. Qeyd etmək lazımdır ki, mədəniyyət böhranının başlıca səbəblərindən biri ölkənin intellektual potensialının yaradıcı rolunun kifayət qədər qiymətləndirilməməsidir. Bunun nəticəsidir ki, ziyalıların, ilk növbədə, sosial-iqtisadi tərəqqini müəyyən edən, ruhi mədəniyyətin aparıcısı olan elmi-pedaqoji işçilərin sosial müdafiə səviyyəsi olduqca aşağı səviyyədədir. Mədəniyyətin səviyyəsinin düşməsi səbəblərindən biri də, ziyalıların ən yaxşı nümayəndələrinin respublikadan getmə hallarının kəskin şəkildə artmasıdır. Azərbaycanın ruhi mədəniyyətinin müxtəlif sahələri üzrə mütəxəssislərin sosial müdafiəsinin yaxşılaşdırılmasının köklü surətdə dəyişdirilməsi və sosial-mədəni siyasətin strateji prioritetlərinə düzəliş edilməsinin zəruriliyi vacib məsələdir. Keçid dövrünün mürəkkəb şəraitində elitar mədəniyyətin yaradıcısı və daşıyıcısı, cəmiyyətin inkişafının "beyin mərkəzi" və lideri olan ziyalılar dövlət tərəfindən müdafiə, diqqət və qayğı ilə əhatə edilməlidir.

Böhranla bağlı bir sıra məsələlər *milli mədəniyyət abidələrinin qorunması və yenilərinin yaradılması problemlərinə* düzgün olmayan münasibətdə əlaqədardır. Təcrübə göstərir ki, biz milli mədəniyyət abidələrimizə, ilk növbədə, qədim sivilizasiyaların mühüm tarixi abidələrinə aid olan"İçəri şəhər", onun unikal mədəni tikilisi olan "Qız qalası"-na münasibəti dəyişməliyik. Bu, hər şeydən əvvəl, milli qürur və milli mentalitet məsələsidir. Beynəlxalq mədəni mərkəz olan "İçəri

şəhər"-in qorunması haqqında YUNESKO-nun qərarı və Azərbaycan Respublikası prezidentinin fərmanı mövcuddur. Bu sənədlərə əsasən, Mədəniyyət Nazirliyinin nəzarəti ilə "İçəri Şəhər"-də zəruri tikinti işləri aparılmalıdır. Əgər zəruri olarsa, bu işlər, qədim şəhərin qprunması və konservasiyasını təmin edən, Azərbaycanın və bütün bəşəriyyətin gələcək nəsilləri naminə yalnız elmi əsaslı bərpa çərçivəsində aparılmalıdır. Bu zaman, Azərbaycanın qədim mədəni tarixinin rəmzi olan bu şəhərin unikal mikromühiti, etno-mədəni özünəməxsusluğu, memarlıq harmoniyası qorunmalıdır. Almaniya, Fransa, Böyük Britaniya, Yaponiya, İsveç, Norveç, İtaliya, Avstriya, Yunanıstan, Rusiya, Çexiya, Estoniya bir çox başqa sivil dövlətlərin analoji mədəniyyət abidələrinə münasibəti belə yanaşmaya nümunə ola bilər. Azərbaycan xalqının ümummilli tarixi mədəni dəyərləri düşünülməmiş qərar və şəxsi maraqlara qurban verilməməlidir. Əgər biz vətəndaş cəmiyyəti və hüquqi dövlət qururuqsa, Azərbaycan mədəniyyətinin tarixi abidələrinin dağılmasına imkan verilməməsi üçün, Mədəniyyət Nazirliyinin iştirakı ilə ölkənin sosial-mədəni inkişaf proseslərinin ictimai-dövlət monitorinqinin təşkil edilməsi zəruridir. Bu, həm də milli ğzünüdərk, hüquqi mədəniyyəöt, məsuliyyət mədəniyyəti, nəhayət, idarəetmə mədəniyyəti və ölkənin mədəni siyasəti məsələsidir.

Müasir şəraitdə Azərbaycan üçün *iqtisadi mədəniyyət* mühüm əhəmiyyət kəsb etməyə başlayır. Azərbaycanın gələcəyi və onun dünya miqyasında rəqabətə qabilliyi onun iqtisadi inkişafının uğurlarından daha çox asılı olacaqdır. Ona görə də, bu gün enerjihəcmli, resurshəcmli, əməkhəcmli və ekoloji cəhətdən qəbul edilməyən istehsalatlar yüksək, ekoloji cəhətdən təmiz texnologiyalara əsaslanan, yüksək keyfiyyətli, tələbyönümlü, dünya bazarında rəqabətəqabil məhsulun buraxılışını təmin edən, yeni effektiv istehsalatla əvəz edilməlidir. Azərbaycan iqtisadiyyatında qərb ölkələrinin elmi-texniki baxımdan köhnəlmiş texnologiyalarının istifadəsi aradan qaldırılmalıdır, belə ki, bu yanaşma milli iqtisadiyyatının dünya inkişafından xroniki olaraq geridə qalması üçün şərait yaradır.

Mədəniyyətin bütöv sosial institutu olan iqtisadiyyat, maddi mədəniyyət kimi, ölkənin rifahının və müdafiə qabiliyyətinin

artmasının əsasıdır. Lakin unutmaq olmaz ki, iqtisadiyyatın inkişaf və gücünün, onun rəqabətəqabilliyinin mənbəyi *intellektual mədəniyyət – elm və təhsildir.* İqtisadiyyat öz mənbəyini məhz intellektual mədəniyyətdən götürür. Elmi ideyalar bilik vasitəsi ilə texnologiyalara çevrilir, onların əsasında isə zəruri məhsulun istehsalı və buraxılışı təmin edilir. Bu asılılığın dərk edilməsi üçün, *mədəniyyətin əyani modeli olan insanın özünün təhlilinə müraciət* etmək kifayətdir. İnsan ruh (ağıl və hisslər) və fiziki mövcudluğun təcəssümüdür. Fiziki mövcudluq ruhla idarə olunur, əlsinə yox. İnsanın davranışı, onun həyat tərzi, onun fəaliyyətinin məzmun və effektliyi onun ruhi mədəniyyəti – bilik, etika, psixologiya, xarakteri ilə müəyyən olunur. Analoji mexanizm cəmiyyətin "ikinci süni təbiət"-i adlandırılan ruhi və maddi mədəniyyətinin bütöv sisteminə də aiddir. Ruhi mədəniyyət insan, cəmiyyət və dövlətin həyat təminatı sisteminin ayrılmaz hissəsi olan maddi mədəniyyətin, istehsalın formalaşdırılmasının əsasıdır. Maddi mədəniyyət, "ruhi istehsalın", ilk növbədə elm, təhsil və incəsənətin nəticələrinin ifadəsidir. Burdan belə çıxır ki, *millətin intellektual mədəniyyətinin səviyyəsi ictimai rifahın inkişafının və dövlətin müdafiə qabiliyyətinin müəyyənedici şərtidir.* İqtisadiyyatın inkişafında *elmin fəal rolunun* təminatı olmadan və *effektli təhsil sistemi yaradılmadan,* investisiya və struktur siyasəti gözlənilən nəticələri verə bilməz. *Ən effektiv kapital qoyuluşu – mədəniyyətin bayraqdarı olan elm və təhsil sahəsinə qoyulmuş sərmayədir. İstehsalın iqtisadi effektivliyinin kulturoloji formuluna* müraciət zamanı bu daha aydın olur. Məlum olduğu kimi, iqtisadi istehsalın effektivliyi keyfiyyətlə xərclərin nisbətinə bərabərdir. Nəticənin böyüməsinə aparan, surətin artması və məxrəcin azalması, ilk növbədə, *elmin inkişafı, eləcə də insanların təhsil və mədəni səviyyəsindən* asılıdır. Deməli, *rifahın yolu ruhi mədəniyyət və "ruhi istehsaldan" keçir.* Elm və təhsilin inkişafında effektiv nəticələr əldə etmədən, davamlı sosial-iqtisadi inkişafa nail olmaq olmaz.

Azərbaycanda bu strateji vəzifənin dərindən başa düşülməsi və düzgün həll edilməsi üçün iqtisadi baxımdan qabaqcıl inkişaf təcrübəsinə malik dünya ölkələrinin kulturoloji cəhətdən öyrənilib, yaradıcı tətbiq edilməsi mühüm əhəmiyyət kəsb etməyə başlayır. "Məndən əvvəl çalışanların çiyinlərinə qalxdığıma görə, mən

onlardan uzağı gördüm". İsaak Nyütona aid olan bu müdrik sözlər bu gün Azərbaycan üçün aktualdır. Qərbi Avropa ölkələri, Avropa və Yaponiyanın inkişafı təsdiq edir ki, *effektiv təhsil sistemi və fundamental elmin fəal inkişafının təmin olunduğu yerdə son nəticədə əməyin ən yüksək məhsuldarlığı mümkündür.* Bu isə, ölkənin dövlət siyasətinin, respublikanın sosial-iqtisadi tərəqqisinin təməli kimi, *intellektual və mənəvi mədəniyyətin prioritet inkişafına* istiqamətlənməsi zəruriliyini təsdiq edir. Bu nəticə həm Adam Smitin iqtisadi nəzəriyyəsi, həm YUNESKO-nun fəaliyyəti, həm skandinav ölkələrinin sosial-iqtisadi inkişaf təcrübəsi, həm də yaponiyanın "iqtisadi möcüzə" fenomeni ilə təsdiq olunur. Norveç və İsveçin yüksək sosial-iqtisadi inkişafının özülü onların ruhi mədəniyyət səviyyəsinin yüksək olmasındadır. Bu dövlətlərin həyat standartları təqribiliyi və elmyanılığı qəbul etmir. XX əsrin əvvəlində açılıb, iqtisadi təhsilin dünya mərkəzlərindən birinə çevrilən Stokholm iqtisadi məktəbi – özəl institutunun nəticələri bunun təsdiqlərindən biridir. Millətin rifahının inkişaf səbəblərini təhlil edən alimlər belə bir nəticəyə gəlmişlər ki, ölkənin milli sərvətinin əsasını təşkil edən, əhalinin bilik və bacarıq səviyyəsi, *təhsil və elm onun çiçəklənməsində həlledici əhəmiyyət daşıyır.* Şərq və Qərbin digər demokratik ölkələrinin, eləcə də Norveç, Yapon sosial-iqtisadi çiçəklənməsinin əsasını bu siyasət təşkil edir. Bu təcrübə göstərir ki, Azərbaycanın milli iqtisadiyyatının tərəqqipərvər inkişafı dünya elm fikrinin ən yeni nailiyyətlərinə əsaslanan *azərbaycan elmi, təhsili və yüksək texnologiyalarının qabaqlayıcı inkişafı hesabına* təmin edilə bilər. Bu, həm iqtisadi istehsal, həm də həyat keyfiyyətinin davamlı inkişafına nail olmaq üçün ölkəyə zəruri valyuta axınını təmin edəcəkdir. Milli iqtisadiyyatın innovasiyalı fəallığı maraqların tarazlığını təmin edən, ölkədə akkreditə olunmuş transmilli korporasiyaların fəaliyyətinin düzgün hüquqi və etik tənzimlənməsi ilə uyğunlaşdırılaraq, qloballaşma şəraitində respublikanın dünya iqtisadi mühitinə uğurlu inteqrasiyasını təmin edə bilər.

İqtisadi mədəniyyətin inkişafı ilə sıx bağlı olan aktual sosial-mədəni vəzifə ölkədə, həm ayrı-ayrı vətəndaşların optimal tələbatlarının formalaşdırılması yolu ilə, həm də təbii resursların bütövlükdə cəmiyyət tərəfindən səmərəli istifadəsi hesabına, yüksək

*istehlak mədəniyyətinə* nail olmağa yardım etməkdir. Bu məsələnin həlli *əhalinin ümumi mədəniyyətinin inkişaf səviyyəsi, eləcə də dövlətin resursqoruyucu texnologiyalarının yaradılması və onlardan effektiv istifadə* etməkdən daha çox asılıdır. 1972-ci ildə Roma klubu bəşəriyyətin rifahının təbii resursların istehlak mədəniyyətindən asılılığını elmi tədqiqatlar əsasında göstərməyə müvəffəq olmuşdur. Qlobal problemlər sahəsində təhlil-proqnoz fəaliyyətini davam etdirən Klub, artıq 1997-ci ildə eyni vaxtda - resursların azaldılıb, ekoloji təhlükəsizliyə riayət etmək şərti ilə istehsalın artırılnmasının yeni imkanlarını aşkar etmişdir. Məruzədə, resursların eyni zamanda 50% qorunması ilə istehsalın effektivliyinin dörd dəfə artırılmasına imkan verən, ekoloji baxımdan təmiz texnologiyaların "Dörd faktoru" müəyyənləşdirilmişdir.

Bu məsələni ümumiləşdirərək, inamla demək olar ki, iqtisadiyyat və davamlı sosial inkişaf, elm və texnologiya, dövlət və sosial idarəetməsi, dövlətin daxili və xarici siyasəti – bütün bu həyati əhəmiyyət daşıyan sahələr ölkədə *ruhi mədəniyyətin* inkişafının ümumi səviyyəsindən, ilk növbədə intellektual və mənəvi mədəniyyət səviyyəsindən asılıdır. Bu, müasir sivilizasiyanın ruhi mədəniyyətinin inkişafı üzrə məqsədyönlü fəaliyyətin əhəmiyyətini göstərən təcrübəsi ilə də təsdiqlənir. Son zamanlar Bergen, Moskva, Sankt-Peterburq və dünyanın digər şəhərlərində keçirilmiş kulturoloqların beynəlxalq konfransının, eləcə də BMT-də millenium problemləri üzrə və Moskva və Vaşinqtondakı liderlik və məsuliyyət mədəniyyəti üzrə keçirilən konfrans materiallarına müraciət etmək kifayətdir. *Ruhi mədəniyyətin ictimai dəyəri* "ruhi istehsal" həyat fəaliyyəti üçün zəruri olan bilik və texnologiyalar yaradır, şəxsiyyəti formalaşdırır və peşəkar kadrlar yetişdirir, müxtəlif sosial qrup və sinifləri vahid birliyə inteqrasiyaedir, cəmiyyət və dövlətin strateji məqsəd və inkişafını proqnozlaşdırır. Buna görə də vətəndaş cəmiyyət quruculuğu şəraitində yeni mədəni siyasət çərçivəsində dövlət tərəfindən ruhi mədəniyyətin qabaqlayıcı inkişafının prioritetləri düzgün müəyyənləşdirilməli və "ruhi istehsal" texnologiyalarının təkmilləşmə prosesi təmin edilməlidir.

İnsanın özünün, iqtisadiyyatın, sosial mühitin, cəmiyyət və bütövlükdə dövlətin inkişafı üçün ruhi *mədəniyyətin aparıcı*

*əhəmiyyəti*ni istehsalın ictimai üsulla təhlili zamanı izləmək çətin deyil. ruhi mədəniyyət ölkənin istehsal qüvvəsi və istehsal münasibətlərindən yaranan istehsal üsulları ilə müəyyən olunur. Ruhi mədəniyyət, hakimiyyət və kapital arasında qarşılıqlı əlaqəni təhlil edən M.Kastels, İnformasiya dövrü. İqtisadiyyat, cəmiyyət, mədəniyyət" adlı monoqrafiyada qeyd edir ki, ruhi mədəniyyət hakimiyyətin mənbəyidir, hakimiyyət isə, öz növbəsində kapital mənbəyidir. Bu qarşılıqlı asılılıq informasiya dövrünün yeni sosial ierarxiyasının əsasında durur. Belə vəziyyətin düzgünlüyünü təsdiq edərək, qeyd etmək lazımdır ki, burada, ən qədim dövrlərdən indiyə qədər bəşəriyyətin sosial-mədəni inkişafının obyektiv tarixi qanunauyğunluqlarının biri öz əksini tapır. Bu müddəanın düzgünlüyünü təsdiqləyərək, qeyd etmək lazımdır ki, burada qədim dövrlərdən indiyə qədər bəşəriyyətin sosial-mədəni inkişafının obyektiv-tarixi qanunauyğunluqları əks olunur. İnsan qüvvəsinin mənbəyi, enerjisi və yaradıcılığı olan ruhi mədəniyyət müxtəlif sosial-tarixi şərait və dövrlərdə dünyanın ən tanınmış alim, filosof və dövlət xadimlərinin, o cümlədən, Azərbaycanın görkəmli mütəfəkkirlərinin mülahizələrində müxtəlif formalarda əks olunmuişdur. Müasir insanın inkişaf istiqamətini və imkanlarını məhz intellektual və mənəvi mədəniyyət, *biliyin və sosial etikanın səviyyəsi* müəyyən edir.

Buna görə də vətəndaş cəmiyyəti quran Azərbaycan Respublikasının sosial-mədəni siyasət inkişafının *mərkəzi vəzifəsi* – bilik və mənəviyyatlılığın ahəngindən ibarət yüksək ruhi mədəniyyətin daşıyıcısı olan *yeni insan və vətəndaş formalaşdırılması* olmalıdır. Davamlı insan , sosial və dövlət inkişafının məqsədlərinə nail olma həm peşəkarlıq – insanların bilik və təcrübəsi, həm də yüksək məsuliyyət , alicənablıq tələb edir. Mənəviyyatsızlıq mühitində bilik, bacarıq və mütəşəkkillik eqoizm və dağıdıcı qüvvələrə xidmət edə bilər. Biliksiz mənəviyyatlılıq ümumi ictimai və insani dəyərlər baxımından səhv dərk edilər və "kor" olar. Buna görə, vətəndaş cəmiyyətində *harmonik ictimai münasibətlərin* qurulmasının zəruri şərti elmi biliklərin inkişafı ilə bərabər legitim sosial intizam statusu verilmiş yüksək insani, vətəndaş və peşə etikası formalaşdırmaqdır. Yüksək insan etikası olmadan , hətta ən yaxşı qanunlar belə işləməyəcəkdir. Əgər dövlət qanunlarına əsaslanan

hüquq bütün sosial normalar üçün məcburi sistemdirsə, əxlaq – müəyyən dövr ərzində cəmiyyət tərəfindən könüllü qəbul edilmiş davranış forma və prinsiplərinin məcmuudur. Deməli, əxlaq qanunun icrasının əsas motivasiyasıdır. Əxlaq hüquqdan fərqli olaraq, cəmiyyətin ayrı-ayrı təbəqələri və peşələri üçün müxtəlif ola bilər. Əxlaqın xarakteri cəmiyyətin inkişaf səviyyəsindən, maddi vəziyyəti, intellektual və mənəvi inkişaf səviyyəsi, istehsal münasibətlərinin xarakterindən asılıdır. Etika məsələləriinsanın Xeyir və Şər arasındakı mənəvi seçim məsələləri ilə daha çox bağlıdır. Dəyişən ideya və maraqlar məkan və zaman baxımından subyektiv xarakter alaraq, insanın fəaliyyət və məqsədlərinə təsir göstərir. Buna görə də insanın mənəvi inkişafı üçün humanist tərbiyənin mühüm əhəmiyyəti var.

*İnsan mədəniyyətinin inkişafı uyğun sosial-mədəni mühitin mövcudluğundan asılıdır.* Hətta ən sağlam toxum su və torpaq olmadan, qaya üzərində bitə bilməz. Keçid dövründə belə mühitin formalaşdırılması Azərbaycan üçün ümummilli strateji əhəmiyyətə malik mədəniyyət haqqında elm - *kulturologiyanın* qabaqlayıcı inkişafı üçün dövlət tərəfindən zəruri şəraitin yaradılmasıdır. Müasir dünyada kulturologiya insan, cəmiyyət və dövlət, pozitiv həyat fəaliyyəti texnologiyaları, cəmiyyətin tərəqqipərvər modernləşdirmə metodları haqqında universal biliklər sistemi kimi ictimai-humanitar elmlər silsiləsində daha çox təsdiq olunur. O, elmi-humanist dünya görüşün, davamlı ictimai və insan inkişafının, dövlət quruculuğu və idarəetmənin mürəkkəb problemlərinin effektiv həlli yollarının tarixi-nəzəri əsasına çevrilməkdədir. Kulturologiya cəmiyyətin inkişafının idarəedilməsinin effektiv modelləri və sosial-mədəni fəaliyyətin yeni növlərinin layihələndirilməsinə, Azərbaycan Dövlətinin tərəqqisini təmin edən düzgün siyasi qərarların qəbul edilməsinə yardım edən, zamanın tələblərinə uyğun, praktik tövsiyələrin hazırlanmasına imkan verir. Sistemli kulturoloji təhlil və sahələrarası tədqiqatlar imkan yaradır ki, Azərbaycan mədəniyyətinin müasir inkişaf səviyyəsinə dünya sivilizasiyası kontekstində elmi qiymət verilsin, onun sistem, ayrı-ayrı sahə və müəssisələrinin təkmilləşdirilməsi üzrə praktik vəzifələr müəyyənləşdirilsin. Kulturologiya mədəniyyət sahəsində investisiya siyasətini düzgün formalaşdırmağa, intellektual potensialın inkişafına yardım edən

təhsil və maarifçilik məsələlərinin effektiv həll edilməsinə stimul verir. Nəhayət, o, Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmlənməsinə və onun sivil dünya birliyinə inteqrasiyasına yardım edən effektli mədəni xarici siyasətin formalaşdırılmasında açar rolunu oynayır.

Dahi Nizami qeyd edirdi ki, elmin inkişaf prosesi kainat qədər sonsuzdur. *Kulturologiya* insanın çoxcəhətli həyat fəaliyyəti haqqında sistemli sahələrarası elm kimi, bu sonsuz prosesdə öz layiqli yerini tutaraq, inkişafının yeni üfüqlərini fəth edir. Onun yüksək elmi statusunun ardıcıl inkişafı sosial həyatın bir çox sirlərinin açılması, insan inkişafının məntiqi-tarixi qanunlarının aşkarlanması, Yeni Dövrün başlanması ilə güclü impuls almış dünyanın rasional dərki və anlamından ibarət qeyri-adi imkanlarının təzahürü ilə baş verir. Bu gün kulturologiya, uzunmüddətli inkişafdan sonra, sistem xarakterli mürəkkəb problemlərin həll edilməsi üçün *universal elmi-nəzəri və metodoloji əsas olmuşdur.* O, imkan verir ki, həll edilməsi üçün obyektiv şəraitin yarandığı yeni tarixi vəzifələr, sosial həqiqətlər qabaqlanaraq, formulə edilsin. *Kulturologiya,* dünya mədəniyyətinin tarixi inkişaf təcrübəsinin təhlilinə istinadən, xalqın həyati maraqlarını əks etdirən dəyərlər sistemini formalaşdırır. O, dövlət quruculuğu prioritetlərinin yaradılmasında düzgün strateji məqsəd və vəzifələrin müəyyənləşdirilməsi üçün şərait yaradır. Bu, dövlətin daxili və xarici siyasətinin təkmilləşdirilməsi üçün elmi baza kimi, kulturologiyanın strateji əhəmiyyətini şərtləndirir.

Müasir elm və yüksək texnologiyalar insan, cəmiyyət və təbiətin dəyişdirilməsi üzrə qeyri-məhdud imkanlara malikdir. Lakin bu perspektivlərin neqativ tərəfi də var. Onlar bəşəriyyətin özünün mövcudluğu üçün böyük təhlükələr yarada bilər. Kulturologiya bu mürəkkəb intellektual-etik problemin həlli üçün ən qiymətli açardır. O, təhlükəsiz inkişafın tələblərinə və ictimai maraqlara cacvab verən düzgün humanist siyasət və idarəetmə mədəniyyətinin formalaşdırılması yolu ilə elm və əxlaqın harmonizasiyasına imkan yaradır. Kulturoloji təhlil göstərir ki, müasir dünyanın dialektik ziddiyyətlərinin həlli demokratiyanın prinsip və dəyərləri, yüksək ruhi mədəniyyətın tələbləri əsasında xalqın maraqlarından çıxış edərək həyata keçirilməlidir. Bəşəriyyətin məhvinə, zorakılıq və şərə

aparan mənəviyyatsız sivillikdən, həyat və sülh naminə yaradıcılıqdan qəti imtina etmək lazımdır. Bunu yalnız iki dayaq üstündə : elmi bilik və humanist etika üzərində qurulan yüksək ruhi mədəniyyətin formalaşdırılması yolu ilə həyata keçirmək olar.

Kulturologiyanın ölkəmiz üçün əməli əhəmiyyəti ondan ibarətdir ki, o, Azərbaycanın vətəndaş cəmiyyətinə keçidini təmin edən bir çox sosial problemlərin həlli üçün şərait yaradır. Milli mədəniyyətin dirçəldilməsi və modernləşdirilməsində hökumətə yardım məqsədi ilə kulturoloji proqram və layihələrin hazırlanıb reallaşdırılması, ölkənin sosial-mədəni inkişafı ilə bağlı qərarlar layihəsinin kulturoloji ekspertizası; təhsil və maarifin inkişafının yeni kulturoloji modellərinin yaradılması; Azərbaycan mədəniyyətinin demokratikləşdirilmə proseslərinin ictimai kulturoloji monitarinqi Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında aktual praktik əhəmiyyət daşıyır. Sülh mədəniyyətinin inkişafı və insan münaqişələrinin həllində,a ailənin möhkəmləndirilməsi və insanın sağlamlığının qorunmasında, müxtəlif dinlərin əməkdaşlığı, uşaqların, gənclərin və qadınların inkişafı, əhaliyə xidmət mədəniyyətinin yüksəldilməsi və sahəsinin genişləndirilməsi, əhalinin sosial cəhətdən sıxılmış təbəqəsi və qocaların müdafiəsində kulturologiyanın əməli əhəmiyyəti çox yüksəkdir.

Mədəni kapitalın düzgün formalaşdırılması üçün ən effektli alət kulturoloji texnologiyadır. Mədəniyyətin kapitalı insani və sosial kapitaldır. Mədəniyyətin insani kapitalı olan intellektual, mənəvi əmək – başlıca sistemyaradıcı bənd olmaqla, insanın həyat fəaliyyətini təmin edən ruhi və maddi dəyərlərin yaradılmasının mənbəyidir. O, mədəniyyətin sosial kapitalının – elmi-təhsil, tibbi, bədii, normativ-dəyər,. texnoloji, iqtisadi, maliyyə, idarəetmə, informativ və s. yaradılmasının təməlidir. Öz növbəsində, mədəniyyətin sosial kapitalıailə, cəmiyyət və dövlət institutlarının köməyi ilə insan mədəni kapitalının yenidən hasil edilməsinə yardım edir. Mədəni kapitalın formalaşdırılması, bir-biri ilə qarşılıqlı əlaqədə olan daxili və xarici şərtlərin təsiri ilə baş verir. Daxili şərtlər eyni fakt və hadisələrin müxtəlif insanlar tərəfindən qavranılmasının genetik faktorları, psixologiya və xarakteri ilə müəyyənləşir. Hər bir insanın fərdi mədəniyyəti onun psixologiya, xarakter və fərdi təcrübəsini əks

etdirir. İnsanın davranışında təzahür olunan xarakteri fərdi mədəniyyətin mühüm indikatorudur. Xarakter onun fərdi enerji formasını, psixologiyası və həyat fəaliyyətinin məntiqini təmsil edir. Bu forma insanın düşüncə mədəniyyəti, hiss və davranışında əks olunur. İnsanın mədəniyyəti və taleyini müəyyən edən xarakterin formalaşmasında psixologiyanın əhəmiyyəti böyükdür. Lakin psixologiya çox halda insanın güenetikası ilə də şərtlənir. Buna görə də tərbiyə prosesində insan xarakterinin genetik xüsusiyyətlərini nəzərə almaq zəruridir. Bu baxımdan, insanın və insan cəmiyyəti xarakterinin genetik xüsusiyyətlərinin öyrənilməsi üçün etologiya (heyvanların davranışı haqqında elm) üzrə toplanmış müşahidələrdən istifadə edən bioloq alimlərdən – K.Lorensin, N.Tinberqin, K.fon Frişin elmi tədqiqatlarının nəticələri maraqlıdır. Onların irəli sürdükləri "İnsan mədəniyyətinin instiktiv əsası" nəzəriyyəsi heyvanların sabit davranışlarında əks olunan həyat instinktlərini insan təbiətinin təbii mənbələri ilə eyniləşdirir. Burada yaşayış yerinin tikilişi, "izdivac rəqsləri", nəslartırma qayğıları, səs və vizual siqnallarıb ötürülməsi, kollektiv "məişət" və s. nəzərdə tutulur.

İnsanın ruhi mədəniyyətinin formalaşdırılmasının zahiri şərtləri cəmiyyətin sosial-mədəni mühiti, onların təhsil və tərbiyəsinin məzmun və keyfiyyəti, ictimai münasibətləri, ölkədə iqtisadi, sosial, ekoloji və siyasi situasiya ilə müəyyənləşir. İrsi keyfiyyətlər və psixologiya ilə bərabər xarakter, həm də, insanın ətraf mühit şəraitinə uyğunlaşması nəticəsində yaranan təhsil, tərbiyə, təcrübə və həyat tərzindən də asılıdır. Ayrı-ayrı fərdlərin bir yerdə götürülmüş mədəni eyniliyi, sosial qrup, millət və ya cəmiyyəti səciyyələndirən sosial mədəniyyəti təmsil edir. Etnik, milli, dini, siyasi və digər mədəniyyətlər bunlardandır. İnsan mədəniyyətindəki fərqlər çox zaman, müxtəlif insanlarda və xalqlarda özünəməxsus tərzdə təzahür olunan, mədəniyyətə həssaslıq dərəcəsi ilə şərtlənir.

Bu gün kulturologiya dövlət iqtisadi proqram və layihələrinin həyata keçirilməsinin effektiv elmi aləti kimi də vacib və zəruridir. Belə ki, kiçik və orta sahibkarlığın inkişafı, eləcə də yoxsulluğun azaldırlması və iqtisadi inkişafla əlaqədar layihələr əhalinin yenidənhazırlanması, təlimlənməsi və maariflənməsi üzrə xüsusi kulturoloji proqramların hazırlanıb reallaşdırılmasını tələb dir. Bu proqram və layihələr ümumi mədəni səviyyənin, istehsal və istehlak

mədəniyyəti, hüquqi və idarəetmə mədəniyyəti, resurslardan səmərəli istifadəni stimullaşdırılması və regionlarda effektiv istehsalın yüksəldilməsinə imkan verəcəkdir. Əhalinin təlimləndirilməsinin interaktiv kulturoloji proqramları, diskussiya və debatlar Azərbaycanın sosial infrastrukturu və vətəndaş cəmiyyətinin inkişafına yardım, ictimai rifahın yüksəlişi, ölkədə demokratik dövlət mədəniyyətinin inkişafı və möhkəmləndirilməsinə xidmət edir. Bu fəaliyyət fərdi mülkiyyət, vətəndaşların özünüidarəsi, yeni iş yerlərinin açılması, respublikanın regionlarında müasir sosial-iqtisadi infrastrukturun inkişafı üçün yeni imkanlarının axtarışının məhsuldarlığına yardım edə bilər. Kulturoloji treninqlər region əhalisinin sosial-iqtisadi inkişaf üzrə maraq və tələbatlarının müəyyənləşdirilməsinə və onların demokratik ölkələrin beynəlxalq siyasəti, ölkənin milli maraqlarına cavab verən ictimai işlərə fəal cəlb edilməsinə yardım edəcəkdir. Bu ölkədə struktur islahatların genişləndirilməsinə və dərinləşdirilməsinə, sosial ədalətin səviyyəsi yüksəldilməsinə, korrupsiyanın səviyyəsinın azaldılmasına, sosial-iqtisadi və siyasi stabilliyin möhkəmləndirilməsinə imkan verəcəkdir. Sərmayə, vergi,gömrük, maliyyə-kredit siyasəti ilə birgə bu fəaliyyət respublika əhalisinin (eləcə də qaçqın və məcburi köçkün) həyat səviyyəsi və onun keyfiyyətinin yüksəlməsinə, vətəndaşların dövlətdən asılılığının azalmasına və onlarda liberalizm və iqtisadi azadlıq prinsiplərinə əsaslanan demokratiyanın real imkan və üstünlüklərinə inam hissinin möhkəmlənməsinə imkan verəcəkdir. Azərbaycan regionlarında yeni kulturoloji texnologiyaların tətbiqi, bəşəriyyətin sosial-mədəni təcrübəsi haqqında universal biliklərin ötürülməsi və praktik istifadəsi ölkənin tərəqqisi üçün böyük perspektivlər açacaqdır.

Sosial-mədəni inkişafı, millətin mənəvi sağlamlığına nail olmaq, ölkə vətəndaşlarının maddi rifahı və təhlükəsiz inkişafında idarəetmə mədəniyyətinin inkişaf etdirilməsi və onun təkmilləşdirilməsinin aparıcı əhəmiyyətə malikdir. İdarəetmə mədəniyyətinin aşağı səviyyəsi nəinki effekti olmayan inkişafa, həm də özündə siyasi, iqtisadi və mənəvi böhran, humanitar və ekoloji fəlakət təhlükəsi ehtiva edir. Yüksək idarəetmə mədəniyyəti rəhbərdə tarix, dünya mədəniyyəti nəzəriyyəsi, eləcə də tarix, iqtisadiyyat, fəlsəfə, məntiq, psixologiya, sosiologiya, antropologiya, etnoqrafiya, dinşünaslıq və

digər elm sahələrinin nəzəriyyəsi sahəsində ciddi biliklərin mövcudluğunu tələb edir. Bu zaman idarəçi güclü məntiq, incə psixologiya və yüksək etikaya, fərdi insan mədəniyyəti haqqında biliklərə malik olmalıdır. Bütün bunların peşəkarlıq vərdişləri və rəhbərin praktik təcrübəsi ilə ahəngi düzgün siyasi, iqtisadi və sosial qərarların qəbul edilməsini təmin edir.

*İdarəetmə mədəniyyətinin* effektivliyi bütün səviyyələrdə müəyyən dərəcədə rəhbərin mədəniyyətindən asılıdır. Siyasətçi və menecerlər rəhbərlik qabiliyyətinə malik olaraq, insanları istiqamətləndirməyi və öz arxası ilə aparmağı bacarmalıdır. Bu, xüsusi təbii istedad olan düzgün planlaşdırma bacarığıdır. İşə münasibətini şəxsi nümunə ilə nümayiş etdirərək, yüksək peşəkarlıq nümayiş etdirən rəhbər tələbkarlıq və nəzarəti öz kollektiv üzvlərinə hörmət, inam, humanistlik və qayğı ilə uyğunlaşdırmalıdır. Belə münasibət rəhbərin yüksək nüfuz qazanmasına yardım edir, təşkilatın əməkdaşlarında ona cavab məhəbbəti, səmimiyyət, təşəbbüskarlıq və vətənpərvərlik hissini stimullaşdırır. Vətəndaş cəmiyyətində *idarəetmə mədəniyyəti* sosiumlararası və qruplararası razılığın əldə edilməsinə yardım etməlidir. Belə idarəetmənin başlıca vasitələri informativ- maarifçi texnologiyalardır. Bu, kütləvi informasiya vasitələrinin yardımı ilə həyata keçirilən maarifçilik proqramlarıdır. Qarşılıqlı anlaşma və razılığın əldə edilməsinin ən effektiv vasitələrindən biri debat, tərəflərin qarşılıqlı anlaşması üçün birbaşa dialoqlar metodlarının istifadəsi ilə tele, - radio verilişlərinin təşkilidir. Belə yanaşma vətəndaş cəmiyyəti üçün dağıdıcı epidemik effektə malik "qara PR"-la bağlı şəxsi konflikt, rəqabət, həsəd və uğurlu inkişafa mənfi təsir göstərən digər neqativ hadisələrin aradan qaldırılmasına imkan verir. Rəhbər öz məntiqi-psixoloji yanaşmasında, hər bir insanın can atdığı, səadət anlamını rəhbər tutmalıdır. Gənclərlə aparılan interaktiv məşğələlər göstərir ki, müasir insanların əksəriyyətinin səadət haqqında anlayışı – məhəbbət; insanın və onun yaxınlarının sağlamlığı; maddi rifah; ailə, kollektiv və cəmiyyətdə hörmət, məhəbbət, anlam qazanaraq, həyatda layiqli yer tutmaq imkanı; insanlar naminə yaratmaq imkanı, başqaları üçün yaşamaq bacarığı; insanın maraq və həyati tələbatlarının ödənilməsi, başqalarından asılı olmadan sərbəst, lakin öz söz və əməllərinə görə məsuliyyət mədəniyyəti daxilində, cəmiyyətin etik mədəniyyəti ilə həmahəng

yaşamaq imkanı; məqsəd və arzularına nail olmaq, özünütəkmilləşdirmək imkanından ibarət hiss və təsəvvürlərin məcmuudur.

Müasir dövlətlərdə yüksək idarəetmə mədəniyyətinin formalaşdırılması *kulturoloji yanaşma* üzərində qurulmalıdır. Dövlət quruculuğu proseslərini *düzgün görüb uğurla idarə* o, *etmək üçün* kulturoloji yanaşmanın böyük elmi və praktik əhəmiyyəti vardır. Bununla belə, o, *dövlət və sosial idarəetmə sisteminin özünün təkmilləşdirilməsi* üçün olduqca zəruridir, çünki, ölkənin maddi-maliyyə, təbii-coğrafi və insan resurslarının effektiv istifadəsi ondan asılıdır. O, idarəetmə proseslərinin yüksək humanist etika, insan həmrəyliyi, vətəndaşların maraq və mədəniyyətlərinin harmonizasiyası əsasında planlaşdırma və nəzarətini təmin edən *düzgün siyasi menecmentin* formalaşdırılmasına imkan verir. Kulturoloji yanaşma mədəni proseslərin ümumi dinamikasının sosial, elmi, etik, estetik, siyasi, iqtisadi, ekoloji, psixoloji, antropoloji, dini və uğurlu sosial – mədəni siyasətin yaradılması üçün digər aspektlərdə də öyrənilməsinə imkan verir.

Beləliklə, *kulturologiya*, inkişaf prosesində yaranan dialektik ziddiyyətlərin ətraf mühitin tələbi və təşkilatın daxili ehtiyaclarına uyğun həll edilməsinə düzgün yanaşmanın yaradılması, təşkil və idarəetmə üsullarının innovativ dəyişdirilməsi üçün geniş imkanlar açır. Məlum olduğu kimi, "rəssam şah əsərləri təqlid edə-edə yaranır". Lakin, bu, onun təşəkkülünün birinci mərhələsidir. Əsas odur ki, toplanmış bilik və təcrübə əsasında yeni, daha kamil əsər yaradasan. Bu qanunauyğunluq *idarəetmə mədəniyyəti* üçün də ədalətlidir. İnsan, cəmiyyət və dövlətin rifahı naminə özündə insan təfəkkürünün ən yüksək nailiyyətlərini təcəssüm etdirən yeni, daha kamil effektiv idarəetmə modellərini yaratmaq vacib və zəruridir. İdarəetmə mədəniyyətinin təkmilləşdirilməsi məqsədi ilə təşkil fəaliyyətinin beş əsas sahəsi daimi kulturoloji təhlillə əhatə olunmalıdır – strategiya, texnologiya, psixologiya, sosiologiya və dizayn. Bununla belə, effektiv inkişafa nail olmaq üçün imkanlardan düzgün istifadə etmək və hakimiyyət mədəniyyəti, rol mədəniyyəti, vəzifə mədəniyyəti və şəxsiyyət mədəniyyəti kimi təşkilat mədəniyyəti formalarının harmoniyasına nail olmaq lazımdır. Bütün bunlar məmurların dövlət-inzibati idarəetmə sahəsində xüsusi nəzəri hazırlığı ilə bərabər,

onların ciddi ümumi və xüsusi kulturoloji hazırlığının həyata keçirilməsini tələb edir.

Əfsuslar olsun ki, respublikada hələ də *dövlətin kulturoloji elm və təhsilinin Azərbaycan ictimaiyyətinin sosial-iqtisadi inkişafındakı rolunun qiymətləndirilməməsi halları mövcuddur* və bu, milli mədəniyyətin effektiv inkişafında öz əksini tapmaya bilməz. Bu istiqamətdə Azərbaycanda kulturologiyanın təşəbbüsçüsü olan "Simürğ" Mədəniyyət assosiasiyasının çoxsaylı cəhdləri hələ də istənilən nəticəni vermir.·İndiyə qədər respublikada, həm müxtəlif istiqamət və səviyyəli mütəxəssislərin peşəkar hazırlığı, həm də xalqın ümumi mədəni səviyyəsinin yüksəldilməsi üçün həyati əhəmiyyət daşıyan kulturoloji təhsil və maarifin bütöv sistemi yaradılmamışdır. Bu baxımdan yalnız, kulturoloq mütəxəssislərin xüsusi hazırlığını həyata keçirən, Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti xüsusiyyət təşkil edir.

Ölkənin inkişafında kulturologiyanın strateji rolunun qiymətləndirilməməsinin əsas səbəblərindən biri odur ki, cəmiyyətdə mədəniyyət anlamı hələ də ikinci - "üstqurum"hadisəsi, başlıca olaraq, incəsənət, etika və mədəni irs kimi məhdud çərçivədə başa düşülür. Bütöv sosial sistem olan mədəniyyətin düzgün elmi anlamının olmaması, sosial-mədəni siyasətin prioritetlərinin düzgün seçilməsində, effektiv mədəni islahatın hazırlanması və keçirilməsində çətinliklər yaradır. Buna görə də dövlət tərəfindən respublikanın sovet dövründən qalmış mədəni sisteminin kökündən dəyişdirilməsi hələ də həyata keçirilməmişdir. Azərbaycan kulturoloqlarının elmi nailiyyətlərinin beynəlxalq nüfuz qazanmasına baxmayaraq, onlar Azərbaycanın özündə hələ də istifadə olunmurlar. TəhsilNazirliyinin təsdiq etdiyi tədris proqramlarında ali məktəblər üçün kulturologiya fənni qeyri-peşəkarcasına "mədəniyyətşünaslıq" kimi müəyyənləşdirilmişdir. 2002-ci ildə Nazirlik tərəfindən bu mühüm elmi fənnin ölkənin ali məktəblərində 144 saatdan az olmayan həcmdə öyrənilməsini nəzərdə tutan "Kulturologiya" monoqrafiyası tədris vəsaiti kimi təsdiq edilmişdir. Lakin indiyə qədər təcrübədə Nazirliyin 18 saatlıq həcmi nəzərdə tutan sərəncamı tətbiq olunur, orta məktəblərdə isə, kulturologiyanın bir hissəsi olan mədəniyyətşünaslıq tamamilə tədris olunmur. 1996-cı ildə Bakı Sosial İdarəetmə və Politologiya , eləcə də N.Tusi adına Pedaqoji

Universitetdə kulturologiya kafedraları bağlanmışdı. Kulturologiyaya belə münasibəti izah etmək çətin olduğu qədər, ona haqq qazandırmaq da mümkün deyil. 2001-ci ildə Bakıda keçirilən mədəni siyasət problemləri üzrə Beynəlxalq kulturoloji konfransın tövsiyələrinə baxmayaraq, hələ indiyə qədər ölkədə mədəniyyət üzrə Milli Şura yaradılmamışdır, nə akademik institut, nə də kulturoloji tədqiqatlar mərkəzi var. Hələ də kulturologiya sahəsində dissertasiya müdafiəsi üzrə xüsusi şuralar təşkil edilməmiş, 1995-ci ildə azərbaycan ziyalılarının və BMT-nin Azərbaycandakı nümayəndəliyinin yardımı ilə təsis edilmiş Beynəlxalq dünya mədəniyyəti universitetinin fəaliyyəti üçün şərait yaradılmamışdır. Lakin nikbinliyi itirmədən ümid etmək olar ki, mədəniyyətin, onun tarixi missiyasının, eləcə də dövlətin inkişafında kulturologiyanın yaradıcı rolunun düzgün anlamı, gec və ya tez, baş verməlidir. Bu, nə qədər tez baş verərsə, kulturologiyaya hərtərəfli dövlət yardımı nə qədər tez baş verərsə, ölkəmiz üçün bir o qədər yaxşı olacaqdır.

Qeyd olunmuş kəsrlər nəticəsində təşkilat və idarəetmə mədəniyyətinin inkişafı, məsuliyyət mədəniyyəti, həyattəminat mədəniyyəti, intellektual, mənəvi, siyasi, tibbi, ekoloji və mənəvi mədəniyyətin xüsusi diqqət tələb edən digər sahələri sosial-mədəni siyasətin diqqətindən kənarda qalmışdır. Buna baxmayaraq, milli mədəniyyətin inkişafının bu strateji sahələri vətəndaş cəmiyyəti mədəniyyətinin formalaşdırılması, istehsal və idarəetmənin effektivliyinin yüksəldilməsi, davamlı inkişaf, yoxsulluğun azaldırlması və Azərbaycanda həyat keyfiyyətinin yüksəldilməsi üçün həlledici əhəmiyyət daşıyır. Bunu əldə rəhbər tutaraq, ölkənin bütün ali məktəblərində kafedralarının açılması vacibdir, eləcə də, Azərbaycanın bütün məktəbləri və məktəbəqədər müəssisələrində xüsusi mədəniyyətşünaslıq kabinələrinin yaradılması zəruridir. Azərbaycanın bütün ali məktəblərdə kulturologiya, orta məktəb və məktəbəqədər müəssisələrdə isə mədəniyyətşünaslığın tədrisi interaktiv xarakter daşımalı, sistemli, yaradıcı və maraqlı olmalıdır. Bu zaman kitab, sənəd, işgüzar oyunlar, müsabiqələr, dövlət və ictimai xadimlərlə görüş, olimpiada, diskussiya, debat və digər formalardan istifadə edilməlidir. Məktəb işi təlim mühitinin demokratikləşməsinə yardım etməli, sinifdənxaric iş formaları ilə -

maraqlar üzrə klublar, dəyirmi masalar, diskussiya klubları və s ilə tamamlanmalıdır. Evdə təhsil və müstəqil hazırlığın da əhəmiiyyəti böyükdür.

Sosial hadisə olan müasir dünya mədəniyyətinin miqyas və çoxcəhətliliyi bəşəriyyətin sosial-mədəni inkişafı haqqında sistemləşdirilmiş elmi biliklərin ötürülməsinin yeni forması olan *ali kulturoloji təhsil*in xüsusi rolunu şərtləndirir. Azərbaycanın ali məktəblərindəki Kulturoloji təhsil azərbaycan mədəni dəyərlərinin nəsildən-nəslə qorunub yenidən hasil edilməsi nəinki yardım etməli, eləcə də onun modernləşdirilməsi tələbatlarını ödəməlidir. Bu məqsədlə,o, başqa xalq və dövlətlərin sosial-mədəni inkişaf təcrübəsinin tarixi təcrübəsi, onların ənənə, həyat fəaliyyəti texnologiyaları, başlıca nailiyyətləri, mədəni innovasiyalarıvə inkişaf perspektivləri haqda bilikləri cəmiyyətə ötürmək funksiyasını terinə yetirməlidir. Demokratik ölkələrin təcrübəsinə istinadən, Azərbaycanın ali məktəblərində cəmiyyətin sosial inkişafının ən müxtəlif vəzifələrini yerinə yetirməyə qabil, dövlət quruculuğu və idarəçiliyi üzrə ümumi mədəniyyəti kifayət qədər yüksək səviyyəli yüksək ixtisaslı mütəxəssislərin hazırlığını həyata keçirmək vacibdir. Kulturoloji təhsil kulturoloji mütəxəssislərin yüksək erudisiyasını, dövlətin və bütövlükdə cəmiyyətin, öz təşkilatının maraq və missiyası kontekstində öz fəaliyyətinin nəticə və perspektivlərini obyektiv qiymətləndirmək qabiliyyətini təmin etməlidir.

Bununla belə, bu gün Azərbaycanda kulturoloqların təhsil və tərbiyə, incəsənət, elm, idarəetmə, informasiya və mətbuat, milli təhlükəsizlik, xarici siyasət (beynəlxalq münasibətlər), eləcə də qeyri-hökumət təşkilatları şəbəkəsi, bələdiyyələr və mədəniyyətin digər digər sosial institutları və sistem üzrə xüsusi hazırlığı böyük əhəmiyyət qazanmağa başlayır. Müasir kulturoloq yüksək ümumi və peşə biliklərinə, innovasiyalı təfəkkür, düzgün idarəetmə qərarları çıxarma qabiliyyətinə,insanlarla işlərkən mütəhərrikliyə, sərt xarakterə malik olmalıdır. O, öz praktik fəaliyyətində bəşəriyyətin tarix boyu yaratdığı həyat texnologiyaları və nailiyyətləri üzrə bütün biliklərə istinad etməlidir. Kulturoloji hazırlıq tərəqqipərvər ölkələrin, ən əvvəl demokratik dövlətlərdə, *dövlət və sosial idarəetmə, idarəetmə mədəniyyətinin dünya təcrübəsi sahəsində* elmi-praktik

nailiyyətlərinin öyrənilməsi və yaradıcı istifadəsi üçün xüsusi əhəmiyyətə malikdir. O, idarəetmənin mürəkkəb sistemli məsələlərinin düzgün həll edilməsi, dövlət və sosial idarəetmə sistemi inkişafını və effektivliyinin yüksəldilməsini təmin edən yeni texnologiyaların hazırlanması üçün qeyri-məhdud imkanlar açır.

Tədqiqatçı-kulturoloqlar, müəllim və menecerlər qarşısında ümumi məsələlərlə birgə, xüsusi vəzifələr də durur. Belə ki, *tədqiqatçı-kulturoloq* müasir informasiya texnologiyaları və beynəlxalq informasiya banklarından istifadə etməklə, zamanın tələblərinə cavab verən milli mədəniyyətin inkişafının idarəetmə metodlarına və tərəqqipərvər həyat texnologiyalarına əsaslanan yeni növ sosial-mədəni fəaliyyət və mədəni təşkilatların modelləşdirilməsini həyata keçirmək qabiliyyətinə malik olmalıdır. Bu məsələnin həlli azərbaycan və digər xalqların mədəni irs, ənənə, inkişaf təcrübəsi və ənənələrinin peşəkar tədqiqini, mədəniyyətlərin müqayisəli təhlilini keçirmək, respublikada davamlı sosial-mədəni inkişafa yardım edən, dünya mədəniyyətinin inkişaf tendensiyalarını ekstrapolyasiya etmək bacarığını nəzərdə tutur. Dünya mədəniyyəti kontekstində Azərbaycan mədəniyyətinin inkişaf vəziyyəti,mədəniyyət sahəsində qanunverici və nəzarətçi siyasət, mədəniyyət abidələrinin mühafizə vəziyyəti, mədəniyyət müəssisələrinin innovasiyalı fəaliyyəti, mədəni yeniliklərin tətbiq vəziyyəti, mədəniyyətin dəyişilməsi prosesi, mədəni mübadilə, əməkdaşlıq və s. tədqiqat obyekti olmalıdır. Tədqiqatçı kulturoloqun inkişafı və peşəkar kimi formalaşması üçün milli və xarici ölkə elmi-tədqiqat fəaliyyəti təcrübəsinin, eləcə də, tədqiqatların təşkili təcrübəsi, konfrans, seminar, treninq, kulturologiya üzrə məcmuə və əsərlərin nəşrinin mühüm əhəmiyyəti vardır.

*Müəllim-kulturoloq* dünya və milli mədəniyyət tarixi və nəzəriyyəsini beynəlxalq təhsil standartlarına uyğun novasiyalı metodların tətbiqi ilə tədris etməklə respublikada kulturoloji təhsilin yüksək keyfiyyətini təmin etməlidir. Tədris dünya kulıturologiyasının ən yeni nailiyyətləri əsasında proqressiv kompüter texnologiyalarından istifadə etməklə, yüksək ixtisaslı mütəxəssislərin – dövlət idarəçiliyinin müxtəlif sahələrində çalışan alim, incəsənət xadimləri, mütəxəssislərin cəlb edilməsi ilə keçirilməlidir.

Kulturoloqların hazırlanmasında fundamental təhsil elmi, nəzəri və tətbiqi problemlər üzrə xüsusi təlimlə birgə aparılmalıdır. Deməli, kulturoloq- müəllim müxtəlif ölkələrin sosial-mədəni fəaliyyət sahələri, idarəetmə və mədənii inkişafın milli texnologiyaları, eləcə də bu sahədə beynəlxalq təcrübə barədə dürüst və müfəssəl informasiyaya malik olmalıdır. O, elmi tədqiqatların nəticələrindən istifadə etməklə mütəxəssis və əhalinin müxtəlif qrupları üçün mədəniyyət və mədəni siyasət məsələləri üzrə təhsil-maarifçi proqramlar, kulturoloji konfrans, seminar, treninq, ictimai diskussiya və debatlar hazırlayıb həyata keçirməyi bacarmalıdır.

*Kulturoloq-menecer*in seçilmiş ixtisas üzrə işləməsi üçün, nəzəri biliklərini möhkəmləndirib praktik vərdişlər, yüksək siyasi mədəniyyət, mədəniyyətin inkişafının təşkili və idarəedilməsinin praktik fəaliyyət təcrübəsi qazanmasının mühüm əhəmiyyəti var. Mədəniyyətin inkişafının idarə edilmə sahəsi üzrə mütəxəssis mədəniyyət və mədəni siyasətin mahiyyət, sosial funksiya və imkanları haqqında dəqiq təsəvvürə malik olmalıdır. Kulturoloq-menecer istehsalat təcrübəsi zamanı dövlət idarəçiliyi, dövlət mədəniyyət idarələri, qeyri-hökumət təşkilatları və bələdiyyələrin fəaliyyəti zamanı yaranan situasiyaları düzgün qiymətləndirməyi ictimai tərəqqiyə yardım edən optimal siyasi qərarlar tapmağı öyrənməlidir. O, uyğun mədəniyyət müəssisəsi və ya onun şəbəkəsinin resurs və heyətini düzgün idarə etməyi bacarmalıdır. Ruhi mədəniyyət sahələri üzrə müəssisələrin strateji planlaşdırması, koordinasiyası, maliyyələşdirilməsi, hüquqi tənzimlənməsi və monitorinqi, mədəni sahənin təkmilləşdirilməsi üzrə tövsiyələrin hazırlanması onun vəzifə borcudur. Elmi nailiyyətlərə istinadən, o, praktik problemlərin sistemli kulturoloji təhlilini həyata keçirməyi bacarmalı, yeni modellər layihəsi hazırlayıb, həyata keçirməlidir. Milli və qlobal mədəni məkanda sosial-mədəni fəaliyyətin, tərəqqipərvər inkişaf proseslərinin təhlili, modelləşdirilməsi və proqnozlaşdırılması azərbaycan ictimaiyyəti və dövlətinin maraq və tələbatlarına cavab verməli, dünya sivilizasiyasının inkişaf tendensiyalarını və qanunauyğunluqlarını nəzərə almalıdır.

Dünya təcrübəsindən çıxış edərək, kulturoloqlara universal biliklərin verilməsi və onlarda məsuliyyət mədəniyyətinin yaradılması

ilə bərabər, onların təlimini aşağıda göstərilən yeni istiqamət və ixtisaslar üzrə təşkil etmək məqsədəuyğundur : dövlət idarəçiliyi mədəniyyəti, beynəlxalq münasibətlər mədəniyyəti, ruhi mədəniyyətin inkişaf proseslərinin dövlət tənzimlənməsi, dövlətin mədəni inkişaf sahəsində investisiya proseslərinin tənzimlənməsi, xarici mədəni siyasət, polisentrik idarəetmə sistemi, mədəniyyətin inkişafının hüquqi təminatı, incəsənətdə kulturoloji menecment, ekoloji mədəniyyət və təbiətdən istifadənin idarə edilməsi, qeyri hökumət təşkilatlarının idarəedilməsi mədəniyyəti, əmək və sosial münasibətlər mədəniyyəti, dövlətin mədəniyyət siyasəti, informasiya mədəniyyəti, jurnalistika mədəniyyəti, biznes etikası, elm, təhsil və incəsənət müəssisələrinin heyətinin idarə edilməsi, ictimaiyyətlə əlaqə mədəniyyəti və s.

Beləliklə, sosial-humanitar fənn olan *kulturologiya* bütün səviyyələrdə - məktəbəqədər, məktəb, ali məktəb, eləcə də ikinci təhsil və kadrların ixtisasartırma sistemlərində tədris edilməlidir. Bunun üçün onun tədrisinin həm ümumtəhsil, həm də xüsusiləşmiş səviyyəsi müəyyən edilməlidir. Rusiya Federasiyası və digər ölkələrin təcrübəsinə istinadən, Azərbaycanda kulturoloji təhsil elmi-tədqiqat, , ekspert, pedaqoji və mənəvi mədəniyyət sahəsində inzibati idarəetmə fəaliyyəti üçün yüksək ixtisaslı mütəxəssis hazırlığını təmin etməlidir. Lakin universal bilikli mütəxəssislər olan kulturoloqların praktiki iş sahəsi artbiznes, media, reklam və beynəlxalq əlaqələrlə məhdudlaşmamalıdır. O, dövlət və ictimai həyatın geniş sosial-mədəni fəaliyyət sahəsini əhatə etməlidir. Bu gün yüksək ixtisaslı kulturoloq mütəxəssislərin – tədqiqatçı, müəllim və menecerlərin hazırlığı xüsusi əhəmiyyət kəsb edir. Müasir kulturoloq – insan, cəmiyyət və dövlət haqqında elmi biliklərin sintezatorudur. Onun yüksək peşə və ümumi mədəniyyəti - dövlət quruculuğu və idarəçiliyindəki mürəkkəb problemlərin effektiv həllinin açarıdır. Universal kulturoloji biliklərə istinadən, o, tədqiqat, təhsil, maarif məsələlərini həll etməyi bacarmalı, sosial-mədəni həyat fəaliyyətinin tərəqqipərvər texnologiyalarına istiqamətlənən inkişafın novasiyalı modellərini hazırlamalı, investisiya siyasətini düzgün formalaşdırmalı, mədəniyyətin inkişafını idarə etməlidir. Dövlətin beynəlxalq nüfuzunun, onun sivil dünya birliyinə inteqrasiyasının

möhkəmlənməsinə yardım edən, ölkənin xarici mədəni siyasəti də kulturoloqun diqqət mərkəzində olmalıdır.

Kulturoloqların məsuliyyətli missiyası bu mütəxəssislərin dövlət quruculuğu və idarəçiliyinin müxtəlif sahələrində nəinki effektiv hazırlığı və istifadəsini, eləcə də onlarda idarəetmə, pedaqoji, elmi və diplomatik vərdişlərin formalaşdırılmasını tələb edir. *İstehsalat praktikası* gənc mütəxəssislərin demokratik sistem şəraitində mədəniyyətin müxtəlif sahələrində peşə vərdişlərinə yiyələnməsi və praktik fəaliyyətə uyğunlaşmasına yardım məqsədi daşıyır. Kulturoloqların istehsalat praktikası *ikili məqsəddən* çıxış edərək qurulmalıdır. O, bir tərəfdən respublikada ruhi mədəniyyətin inkişafı sahəsində toplanmış praktik təcrübənin öyrənilməsi və tələbə-kulturoloqlarda praktik vərdişlərin formalaşdıdırlmasına yardım etməlidir. Digər tərəfdən isə, sosial-mədəni tərəqqini təmin edən dövlətin idarəetmə, yaradıcı və digər strukturlarının praktik fəaliyyətində proqressiv dəyişikliklərə yardım edən yeni kulturoloji biliklərin genişlənməsinə kömək etməlidir.

Azərbaycanda sosial-mədəni fəaliyyətin praktik təcrübəsinin oyrənilmə obyekti mədəniyyətin aşağıdakı sosial institut və sahələri olmalıdır – təhsil və tərbiyə; elm; maarif; yüksək texnologiyalar; tərcümə fəaliyyəti; dil, ədəbiyyat, incəsənət; informasiya; idman; tərizm; iqtisadiyyat; hüquq; təşkilat və idarəetmə; ideologiya; daxili siyasət; beynəlxalq münasibətlər; din; uşaq, qadın və gənclərin inkişafı; qeyri-hökumət təşkilatları; bələdiyyələr; parlament; beynəlxalq təşkilatlar. Sosial xidmət, eləcə də , intellektual, təhsil, texnoloji, mənəvi, bədii, idarəedici, informasiya və digər dəyərlərin istehsal, mühafizə, istifadə və ötürülməni həyata keçirən təöşkilatların təcrübəsi diqqətlə öyrənilməlidir.

İnsan inkişafında kulturologiyanın artan rolunu nəzərə alaraq, tezliklə Bakıda və Azərbaycanın regionlarında dövlət səviyyəsində *kulturoloji maarifləndirilməni* genişləndirmək, daimi fəaliyyətdə olan kulturoloji seminar və treninqlər şəbəkəsi təşkil etmək vacibdir. Belə kulturoloji proqram və layihələr ilk növbədə, dövlətin yardımı ilə, ölkənin rəhbər işçiləri üçün –mərkəzdə və yerlərdə dövlət rəhbərləri və siyasətçilər, deputat və diplomatlar, eləcə də bələdiyyə və qeyri-hökumət təşkilat rəhbərləri üçün həyata keçirilməlidir. Onlar ölkənin

bütün əhalisini, dövlət idarələri, sənaye müəssisələri, özəl sahibkarlıq, Azərbaycan regionlarındakı kənd əhalisi və icmaları əhatə etməlidir. Kulturoloji təhsil və maarifin mühüm istiqamətlərindən biri uşaqların tərbiyəsi olmalıdır. Ölkədə bütün səviyyələrdə - ailə, killektiv, cəmiyyət, dövlətdə yeni kulturoloji tərbiyə sisteminin hazırlanması vacibdir. Bu tərbiyə özündə azərbaycanlıların milli dəyərini demokratik mədəniyyət dəyərləri ilə sintez edən dəyərlər sistemi əsasında qurulmalıdır. Bu mussiyanı mədəniyyətin inkişafının başlıca hərəkətverici qüvvəsi olan Azərbaycan ziyalıları yerinə yetirməlidir. Bunun üçün yeni uşaq mədəni mərkəzlərinin, kitabxana, klub və digər təhsil-tərbiyə ocaqlarının yaradılması vacibdir.

Beləliklə, respublikanın kulturoloji tədqiqat, təhsil və maarifə olan ehtiyac böyükdür. Azərbaycanda *vətəndaş cəmiyyətinin inkişafı* insanın cəmiyyətdək ləyaqət və məsuliyyətini, onda öz qüvvəsinə inam, rəqabətəqabillik, ictimai-faydalı əməyin prioriteti, ədalətli sosial nizam, qanunların cəmiyyətdə müzakirəsi və qəbul edilməsi əsasında həyatın hüquqi tənzimlənməsi kimi dəyərlərin formalaşdırılmasını nəzərdə tutur. Tarixi inkişafın müasir mərhələsində azərbaycan xalqının mədəni dəyər və normalar ierarxiyasında bilik və bacarıq, həqiqət və ədalətə, nizam-intizama, qanunsevərliyə, enerji, iradə, humanizm, məhəbbət. xeyirxah, ləyaqətlilik və yüksək istehsallı əməyə sədaqət prioritet olmalıdır. Vətəndaş cəmiyyətinin əsas üstünlükləri vətəndaşların sosial qarşılıqlıanlaşma və bərabərliyinə, yüksək ruhi mədəniyyətinin formalaşmasına yardım edən azadlıq, humanizm və maarifçilik olmalıdır. Bu milli-mədəni dəyərlərin formalaşdırılması məqsədi ilə ümumi kulturologiyanın inkişaf proqramı çərçivəsində respublikanın ali təhsil müəssisələrində xüsusi kulturoloji kursların formalaşdırılması, inkişaf etdirilməsi və zənginləşdirilməsi vacibdir. Onların arasında şəxsiyyət mədəniyyəti, qida mədəniyyəti, düşüncə, əxlaq , məişət, incəsənət, erlm, istehsal, təşkilat və idarəetmə, məsuliyyət, şəxsiyyətlərarası, sosial və beynəlxalq münasibətlər üzrə kursların adını çəkmək olar. Burada söhbət elmi bilik və etika, humanist psixologiya və həyat fəlsəfəsi, uyğun texnologiya və ictimai təcrübədən düzgün istifadə etmək bacarığının birliyindən ibarət olan

insanın yüksək ruhi mədəniyyət anlamından söhbət gedir. Bundan çıxış edərək , bu gün , ümumi kulturologiya ilə birgə, kulturoloji idrakın metodologiyası, siyasi kulturologiya, hüquq kulturologiyası, din kulturologiyası, idarəetmə kulturologiyası, vətəndaş cəmiyyəti kulturologiyası, iqtisadi kulturologiya, kulturoloji sinergetika və s. sahələrdə ciddi tədqiqatlar aparmaq vacibdir. Kulturoloji təhsil və mədəniyyətin inkişafının idarəedilməsində yüksək nəticələrin əldə edilməsi üçün Azərbaycanda *kulturoloji tədqiqatların* fəal genişləndirilməsi təmin edilməlidir. Kulturoloji sahədə dissertasiya tədqiqatları, monoqrafiya və tədris vəsaitlərinin nəşri, dövlət və ictimai fəaliyyətin müxtəlif istiqamətləri üzrə tədqiqatçı, menecer və müəllimlərin hazırlığını genişləndirmək vacibdir. Bu, uğura aparan ən düzgün yoldur.

İnsan mədəniyyəti inkişafının bütün çoxcəhətlilikləri alim və müəllimlərin, siyasətçi və idarəçilərin, ictimai xadim və sahibkarların, diplomat və jurnalistlərin, geniş profilli mütəxəssis və gənclərin diqqət mərkəzinə çevrilməlidir. Lakin Azərbaycanda kulturoloji elm və təhsilin qabaqlayıcı inkişafını təmin edən şərtlər *yeni mədəni siyasətin* köməti ilə təmin edilməlidir. Yeni mədəni siyasət yeni kulturoloji biliklərin stabil istehsalını, elmin yeni nailiyyətlərinin mədəniyyətin inkişafının idarəedilməsi sisteminə, tədris prosesinə, eləcə də cəmiyyətin sosial-mədəni həyatına effektiv translyasiyasının təmin edilməsi məqsədini daşıyır. O, azərbaycan cəmiyyətinin zamanın tələblərinə uyğun stabil inkişafı üşün zəruir olan kadr infrastrukturunun formalaşdırılmasına yardım etməli, Azərbaycanın daha yaxşı gələcəyi naminə kulturoloji elm, təhsil və praktikanın inteqrasiya katalizatoruna çevrilməlidir.

İdeoloji baxımdan mədəni siyasətin əsas vəzifəsi ölkənin müxtəlif mədəniyyətlərinin vahid *ümummilli mədəniyyətə* düzgün inteqrasiyasındadır. Burada söhbət ayrı-ayrı etnosların özünəməxsus mədəniyyətlərinin assimilyasiyasından yox, onların millətin vahid sosial etikası çərçivəsində dövlətin strateji maraqlarında ifadə olunan davranış qaydaları, qarşılıqlı münasibət və əməkdaşlıq, ümumi maraqların konsensusu əsasında inteqrasiyasından gedir.

Azərbaycanın dövlət siyasətinin ən mühüm məsələsi, hər şeydən əvvəl, ictimai rifahın inkişafını təmin edən intellektual mədəniyyət –

elm və təhsil sahəsində çalışan *ziyalıların effektiv yaradıcı fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasıdır.* Bu, sivil dövlətlərin sənaye-dən informasiyalı cəmiyyətə keçidlə səciyyələnən, həm ölkəmizin, həm də dünya mədəniyyətinin müasir inkişaf mərhələsinin obyektiv ələbatları ilə şərtlənir. Ziyalılar, ilk növbədə, millətin strateji genofondu adlandırılan intellektual elit mədəni kapitalın nüvəsidir. Dünya praktikası göstərir ki, bu genofondu qiymətləndirməyən, daha dəqiq desək, ona laqeydlik göstərən dövlətlər müasir dünya sivilizasiyasının sürətli inkişaf axınından kənarda qalmaq təhlükəsi ilə üzləşə bilər. Dövlət öz intellektual potensialına xüsusi qayğı göstərməli, onun qorunması, inkişafı və yenidən hasil edilməsi üçün əlverişli şərait yaratmalı, avropa standartlarına istiqamətlənmiş xüsusi sosial təminat proqramları həyata keçirməlidir. Dövlətin təhlükəsiz inkişafının proqnozlaşdırılması və düzgün texnologiyaların hazırlanması məqsədi ilə ekspert-kulturoloqlar, "bilik menecerləri" strateji cəhətdən əhəmiyyətli informasiyalara malik olmalıdırlar.

Respublikada ruhi mədəniyyətin inkişafı üçün xüsusi kadr hazırlığı probleminin həllinə yardım məqsədi ilə "Simürğ" Azərbaycan Mədəniyyət Assosiasiyası *Bakı Kulturologiya Məktəbinin* yaradılmasını planlaşdırır. Dövlətin yardımı ilə bu cür xüsusi məktəbin yaradılması, sivilizasiyalı ölkələrin təcrübəsinə uyğun olaraq, bəşəriyyətin, bu və ya digər dərəcədə, dəyərli biliklərinin seçimini həyata keçirmək və onların təcrübədə tətbiqinə yardım edən "bilik menecerləri"-nin kulturoloji hazırlığını keçirmək məqsədini daşıyır. Bu məktəbdə xalqın ümumi mədəni səviyyəsinin yüksəldilməsinə istiqamətlənən, əhalinin maarifləndirilməsi üzrə xüsusi kulturoloji proqramın həyata keçirilməsi nəzərdə tutulur. Burada uşaq və gənclərin ümumi və xüsusi hazırlığı ilə bərabər, ölkənin qeyri-hökumət təşkilatları, bələdiyyə və biznes strukturlarının yeni tarixi şəraitdə effektiv fəaliyyəti üçün zəruri olan liderlərin kulturoloji hazırlığı da planlaşdırılır. Məktəbin yaradılması, həm də, Azərbaycan Respublikasının inkişaf maraqlarına cavab verən, bütün səviyyələrdə düzgün siyasi qərarların hazırlanması məqsədi daşıyan sistemli kulturoloji qərarların həyata keçirilməsinə imkanyaradacaqdır.

Beləliklə, ölkədə mədəniyyət sahəsində müasir azərbaycan cəmiyyəti və dövlətinin həyati tələbatların acavab verən qətiyyətli islahatların keçirilməsi üçün zəruri şəraitin yarandığı artıq göz qabağındadır. Tərəfimizdən aparılan, bir sıra demokratik ölkələrin tarixi təcrübəsinin komparativ klulturoloji təhlili qətiyyətlə söyləməyə imkan verir ki, *müasir mərhələdə Azərbaycanın tərəqqipərvər inkişafının əsasını üç prinsip təşkil edir : intellektual və mənəvi mədəniyyətin prioriteti, sağlam milli ideya və milli mədəniyyətin demokratikləşdirilməsi*. Bu faktorlar dünyanın tərəqqipərvər dövlətlərinin tarixi nailiyyətlərinin əsasını təşkil edir. XIX-XX əsrin əvvəllərində yaşamış Abbasqulu Ağa Bakıxanov, Mirzə Kazımbəy, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, Həsənbəy Zərdabi, Əhməd Ağaoğlu, Əlibəy Hüseynzadə, Məmməd Əmin Rəsulzadə Üzeyir Hacıbəyov və digər Azərbaycan modernist-maarifçilərinin tərəqqipərvər ideyaları və praktik fəaliyyətinə istinad edən milli tarixi təcrübə də bu tezisin doğruluğunu sübut edir. Bu qanunauyğunluq söyləməyə imkan verir ki, azərbaycan cəmiyyətinin inkişafında tərəqqipərvər dəyişikliklərin yüksək dinamikasının əldə edilməsinə istiqamətlənmiş məhz bu prioritetlər Azərbaycan Respublikasının düzgün sosial-mədəni siyasətinin əsasını təşkil etməlidir.

Azərbaycan mədəniyyətinin inkişafının aşkar edilmiş bu problemlərinin həll edilməsi imkanlarının dövləti əhəmiyyətinin dərk edilməsi kulturologiyanın elm və tədris fənni kimi Azərbaycanda tezliklə institutlaşdırılmasını tələb edir. İnsanın həyat fəaliyyəti haqqında elm olan kulturologiya Azərbaycanda dövlət tərəfindən daha artıq şərait yaradılmaq statusu qazanmalıdır. Kulturologiyanın elm və tədris fənni kimi institutlaşdırılması, qloballaşma şəraitində dövlətin davamlı və rəqabətəqabil inkişafında, onun avropa və dünya sivilizasiya birliyinə gələcək inteqrasiyasında respublika ziyalılarının qüvvələrinin birləşdirilməsi və onların xidmətlərinin artırılmasına yardım edəcəkdir.

Azərbaycan ziyalıları azərbaycan xalqı, cəmiyyəti və dövlətinin mədəniyyəti üçün daha uğurlu gələcəyin yaradılması və həyatın yaxşılaşdırılması yollarının axtarışındakı tarixi məsuliyyəti dərk etməlidir. *Ölkənin tezliklə sənaye və informasiyalı cəmiyyətə keçidini*

*təmin edən, milli mədəniyyətdə tərəqqipərvər sosial dəyişikliklərin əldə edilməsi uğrundakı mübarizənin önündə durmalı olan ciddi kulturoloqlar məktəbinin yaradılması vaxtı çatmışdır.*

Kulturologiyanın inkişafına dövlət yardımı azərbaycanda demokratiyanın siyasi mədəniyyətinin yaradılması, hüquqi, iqtisadi, informasiyalı, məişət, tibbi, ekoloji mədəniyyətin, istehlak və bölgü münasibətləri mədəniyyətinin, eləcə də azərbaycan diasporunun inkişafı və onun mədəniyyətinin yaşadığı ölkə mədəniyyəti ilə harmonizasiyası üçün yeni imkanlar açacaqdır.

Sadalanan və bir çox başqa problemlərin həllini "Azərbaycanda mədəniyyətin inkişafının milli onilliyi" dövlət proqramı çərçivəsində həyata keçirmək olardı. Qanunvericilik baxımından, Azərbaycan Respublikasının Təhsil Qanununa məktəb və bütün səviyyələrdə, ümumi və xüsusi kulturoloji təhsilin inkişafına hüquqi şərait və prioritetləri təmin edən bölmənin daxil edilməsi, eləcə də kulturologiyanın Azərbaycanda elm və tədris fənni kimi institutlaşdırılması haqqında qanunun qəbul edilməsi məqsədəuyğun hesab edilə bilərdi.

- *Mədəniyyət dünyası. Bakı. Bur. VII, 2003, s.77-98*

## AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN MODERNLƏŞDİRİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ HAQQINDA

Müasir dünya sivilizasiyası mədəniyyətdə yaradıcı və destruktiv proseslərin, mədəniyyət və sivilizasiyanın qarşılıqlı təsiri, mədəniyyət və antimədəniyyətin mübarizəsi ilə şərtlənən, məzmun-dəyər dəyişiklikləri ilə səciyyələnir. Müasir həyatın dialektikası özündə mədəniyyətin klassik, ənənəvi, milli, ümumbəşəri, intellektual, bədii, siyasi, mənəvi, dini və digər dəyərlərini əxz etmiş fəaliyyətinin yeni sintetik forma və üsullarının yaranması ilə müşayiət olunan, inkişafın təbii ziddiyyətlərinin yaranması və onların həll edilməsi ilə bağlıdır. Müasir informasiya texnologiyaları ilə stimullaşdırılan bu prosesdə təhsil, elm, texnoloji inkişaf, həyat tərzi, əxlaq, incəsənət, dəyişən dünyagörüş, mentalitet, təfəkkür, planetin milyonlarla insanının

davranışda yeni dəyər eyniliyinin formalaşdırılması mənzərəsi müşahidə olunur. Bu dəyişikliklər zamanı bəşəriyyətin elə qlobal problemləri yaranır ki, onların effektiv həlli üçün insanların ümumi maraqlarının, müxtəlif ölkə və xalqların qüvvələrinin birləşdirilməsi tələb olunur. Bununla bərabər, yeni qlobal tələbat, şərait və dəyərlərin, həyat və kommunikasiya qaydalarının formalaşdırılması milli səviyyədə yeni həyatfəaliyyət texnologiyalarının kulturoloji baxımdan hazırlanması və tətbiqi zərurətini yaradır. Sosial-mədəni inkişaf prosesinin optimallaşdırılması və həm qlobal, həm də milli səviyyədə yaranan böhran hadisələri və destruktiv proseslərin aradan qaldırılması aktual elmi və idarəetmə məsələsinə çevrilir. Ənənəvi mədəniyyətin modernləşdirilməsi şəraitində, həmçinin mədəniyyətin unifikasiyasının aradan qaldırılması və xalqların mədəni müxtəlifliyi, mədəni plüralizm, mədəni özünəməxsusluq və ümumbəşəri dəyərləri özündə ümumiləşdirən dünya mədəniyyətinin polisentrikliyinin qorunmasına nail olmaq zəruridir.

Şüur və hissin, bilik və etikanın birliyi olan ruhi mədəniyyət insan inkişafının dinamik, universal hərəkətverici qüvvəsidir. Mədəniyyətin inkişafının müəyyənedici faktoru olan sosial mühit iki əsas şərtdən asılıdır : dövlətin siyasi sistemi və dövlətin sosial-mədəni siyasəti. Əgər dövlətin sisyasi sistemi demokratiyadırsa, sosial mühitin pozitiv inkişafı üçün şərait yaranır. Ölkənin sosial-mədəni siyasətinin kulıturoloji elmin nailiyyətləri əsasında qurulmasına, siyasi və sosial qərarları isə uyğun kulturoloji ekspertizadan keçirilməsinə yardım etmək zəruridir. Demokratik dövlətlərin novasiyalı mədəniyyət standartlarından istifadə edilməsi inkişaf etməkdə olan ölkələrin ənənəvi mədəniyyətinin inkişafı üçün xüsusi dəyərə malikdir. Bununla belə, Yaponiya təcrübəsi göstərir ki, milli kulturogenez prosesində seçkili yanaşmanın gözlənilməsi vacibdir. Yad təcrübəni milli dəyər və maraqlar baxımından dəyişdirmədən istifadə olunması nəinki milli özünəməxsusluğun itirilməsinə, eləcə də, həyat fəaliyyəti texnologiyaları sahəsində bu və ya digər ölkə üçün lazım olan özünəməxsus kəşf və işləmələrin hazırlanması imkanlarının itirilməsinə səbəb ola bilər. Bunu, təqribən, ibtidai sinif şagirdləri ilə yuxarı sinif və ay ali məktəb tələbələri tədrisinin, sonuncuların proqramı üzrə, təşkil edilməsi kimi izah etmək olar. Başqa sözlə, milli

təhsil modul və standartlarında xalqın intellektual potensialının tərəqqipərvər ənənələrinin və onun daxili inkişaf tələbatlarını, sosial-mədəni təcrübəsini nəzərə alan öz həyat fəlsəfəsinin hazırlanıb təkmilləşdirilməsi nəzərə alınmalıdır.

İnsan inkişafının milli və qlobal problemlərinin effektiv həllində kulturologiya mühüm rol oynayır. Kulturologiya – dövlətin və cəmiyyətin yüksək texnologiyalarının dünyanın dəyişən tələblərinə uyğun olaraq yaradılmasını, eləcə də cəmiyyətin sosial terapiyasını, dialektik ziddiyyətlərin həllini təmin edən mürəkkəb problemlərin sistemli təhlilini keçirməyə imkan verən bir elmdir. O, qloballaşma şəraitində milli özünəməxsusluğun qorunması yollarının aşkar edilməsinə, müasir mərhələdə milli mədəniyyətin, onun irsinin, nailiyyət və inkişaf imkanlarının hərtərəfli tədqiqinə imkan yaradır. Bununla bərabər, o, dünya mədəniyyəti tarixi və nəzəriyyəsinin interaktiv öyrənilməsinin yardımı ilə tarixi inkişaf prosesində yaradılan bu və ya digər dərəcədə əhəmiyyətli ruhi xəzinə, təcrübə və sosial texnologiyaların mənimsənilməsinə, dünya təcrübəsinin milli tərəqqisi naminə yaradıcı istifadəsinə yardım edir.

Kulturoloji tədqiqatın dəyəri, çox zaman, milli və dünya mədəniyyətinin inkişaf qanunauyğunluqlarının və tarixi mərhələlərinin aşkar edilməsi, düzgün şərh bacarığı, məlum və yeni faktların birgə ümumiləşdirilməsi, elmi əsaslı nəticələr çıxarmaq bacarığı və sosial-mədəni siyasət, sosial və dövlət idarəçiliyi üçün əməli əhəmiyyətli tövsiyələrin formulə edilməsi ilə müəyyən olunur. Kulturoloji təhlil həm milli, həm də qlobal inkişafın obyektiv elmi mənzərəsinin yaradılmasına, birtərəfli qiymətləndirmələrin aradan qaldırılmasına, müxtəlif Şərq və Qərb dövlətlərinin inkişafındakı sosial-mədəni qeyri-bərabərliklərin aradan qaldırılması yollarının müəyyənləşdirilməsinə, dünya sivilizasiyası kontekstində cəmiyyətin pozitiv obrazının düzgün formalaşdırılmasına və proqnozlaşdırılmasına imkan verir.

İnsanın həyat fəaliyyəti inkişafının sosial texnologiyaları və nəzəri problemlərini öyrənən elm olan kulturologiya vətəndaş cəmiyyəti, sülh və demokratiya mədəniyyətinin universal elmi-informativ və nəzəri-metodoloji rolunda çıxış edir. Demokratiyanın inkişafı üçün kulturoloji təhsilin mühüm beynəlxalq əhəmiyyəti onunla şərtlənir ki,

o, xalqların həyatfəaliyyət texnologiyalarının, həyat fəlsəfələrinin və mədəniyyət tarixi haqqında elmi biliklərinin genişlənməsində müxtəlif etiqada və milliyyətə malik müxtəlif insanların din, maraq və mədəniyyətlərinin harmonizasiyasının effektiv alətidir.

Qloballaşma Azərbaycan respublikasının mədəniyyətinə də öz təsirini göstərmişdir. Bununla bağlı, bizim milli mədəniyyətimizin dünya sivilizasiyası kontexstində kulturoloji ekspertizasının keçirilməsi, inkişaf etmiş ölkələrin informasiyalı cəmiyyətə keçidi şəraitində rəqabətəqabil və təhlükəsiz inkişafı aktual əhəmiyyət kəsb etməyə başlamışdır.

Demokratik cəmiyyət və hüquqi dövlət quruculuğu dövründə Azərbaycanda düzgün mədəni siyasət və ruhi mədəniyyətin inkişafı problemi strateji əhəmiyyət kəsb etmişdir. Azərbaycan xalqının və dövlətinin bu günü və gələcəyi, bizim ölkənin dinamik inkişafını təmin etmək qabiliyyətimiz, dünya mədəniyyəti və sivilizasiyası inkişafının müasir dialektikasının yaratdığı bizim milli mədəniyyətimizin hansı sosial texnologiyaların yardımı ilə, hansı dəyər və prioritetlər əsasında inkişaf edəcəyindən asılıdır.

Milli mədəniyyətin inkişafına dövlət yardımını təmin edən Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, azərbaycan dövləti və cəmiyyətinin təhlükəsiz və davamlı inkişafının əldə edilməsi məqsədi ilə mədəniyyətimizin modernləşdirilməsi və milli irsin qorunmasına vətəndaş yardımı üçün Azərbaycan ziyalıları öz qüvvələrini birləşdirirlər. Müstəqil Azərbaycan Respublikasının yüksək intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətinə malik şəxsiyyətlərə və yeni nəsl liderlərinə xüsusi ehtiyacı vardır. İstehsal, istehlak mədəniyyəti, fiziki, tibbi, ekoloji mədəniyyət, məişət mədəniyyəti və şəxsiyyətlərarası və beynəlxalq münasibət mədəniyyətləri intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətinin səviyyəsindən asılıdır.

Bu yaradıcı missiyanın yerinə yetirilməsi üçün kulturologiya sahəsində beynəlxalq əməkdaşlığın inkişafı, Azərbaycan kulturoloqlarının elmi-pedaqoji fəaliyyətinin konsolodasiyası və koordinasiyası, milli və dünya mədəniyyəti və sivilizasiyasının tarixi, nəzəriyyəsi və praktikası sahəsində biliklərin yayılması və tədqiqatların genişləndirilməsi üzrə fəaliyyət mühüm

əhəmiyyət daşıyır. Bir sıra dövlət strukturları – Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəetmə Akademiyası, Milli Elmlər Akademiyası İnstitutları, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı Dövlət Universiteti, Milli Aviasiya Akademiyası və respublikanın bir sıra digər ali təhsil müəssisələri alim və müəllimlərinin yaradıcı cəhdləri buna yardım edir. Mədəniyyət, mədəni siyasət və kulturologiyanın inkişafında dövlət strukturları ilə bərabər bir sıra qeyri-hökumət təşkilatlarının, həmçinin Azərbaycan Mədəniyyəti Dostları Fondu, "Simürğ" Azərbaycan Mədəniyyət Assosiasiyası, Azərbaycan Kulturoloqlar Cəmiyyəti, vətəndaş cəmiyyəti mədəniyyəti Beynəlxalq Forumunun maarifçilik və tədqiqatçılıq fəaliyyəti mühüm rol oynayır.

Demokratik, hüquqi dövlət quran müasir Azərbaycan Respublikasının təbii maraqlarına cavab verən həyat keyfiyyəti, inkişaf sürəti yüksəldilməsi üçün demokratiyanın üstünlüklərindən şüurla istifadə etməyə imkan verən həyat fəaliyyəti texnologiyalarının formalaşdırılmasının universal elmi mənbəyi olan kulturologiyanın elmi dəyərini qiymətləndirməmək çətindir. Lakin, təəssüf ki, azərbaycan kulturologiyasının inkişafında müəyyən nailiyyətlərlə bərabər, mədəniyyətin bütöv sosial sistem kimi anlanılmasından ibarət səhv anlamla əlaqədar , Azərbaycanın insan, ictimai və dövləti inkişafının universal strateji rolunun qiymətləndirilməməsi ilə bağlı bir sıra çatışmamazlıqlar vardır. Belə ki, 1996-cı ildə kulturologiya kafedraları - Bakı sosial idarəetmə və politologiya institutunda, N.Tusi adına Azərbaycan pedaqoji universitetində, eləcə də Bakı Dövlət Universitetində etika kafedrası bağlanmışdır. Sonrakı illərdə ölkənin ali təhsil müəssisələrində "mədəniyyətin tarixi və nəzəriyyəsi" (kulturologiya) fənni əsassız olaraq, kulturologiya elminin bir hissəsi olan "mədəniyyətşünaslıq" adı ilə əvəz edilmiş, fənnin saatlarının həcmi isə, 72 – dən 18 saata qədər milli və dünya mədəniyyətinin nəzəriyyəsi və tarixi üzrə imtahan və referatların ləğv edilməsi ilə) azaldılmışdır. Hal-hazırda Azərbaycanın ali təhsil müəssisələrində müxtəlif profilli mütəxəssislərin yüksək peşə və etik mədəniyyətinin formalaşdırılmasında mühüm əhəmiyyəti olan kulturologiyanın tədrisi minimuma endirilmişdir. 2004-2005-ci illərdə "boloniya sisteminin tələblərinə" istinadən kulturologiya Tikinti və memarlıq

institutunda, Texniki universitetində, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət idarəetmə Akademiyası və Azərbaycanın digər ali təhsil müəssisələrində kulturologiya ləğv edilmişdi. Şəxsi ambisiya və ya anlaşılmazlıqla bağlı olan belə mədəni siyasətə, Azərbaycanın milli maraqları baxımından, bəraət qazandırmaq olmaz.

Bu gün Azərbaycanda kulturologiyanın institutlaşdırılmasına mane olan, ictimai və dövlət həyatında ona olan tələb nədən yaranmışdır? Onun mahiyyətini və ölkənin modernləşdirilməsi üçün onun möhtəşəm dəyişdirici imkanlarını anlamamaq, biganəlik, yeniliyə əks-təsir göstərmək, bəzi məsul siyasətçi və məmurların dəyişmək istəməməsidir.

Əfsuslar olsun ki, bizim ayrı-ayrı məmurlarımız hələ də "sovet" düşüncə stereotiplərindən imtina etməyərək, ölkənin inkişaf proseslərini əvvəlki kimi, real həqiqətlərdən uzaq, sovet dövrünün monopol totalitar ruhunda qiymətləndirməyə davam edirlər. Belə mövqe müasir dövlət və cəmiyyətin həyatında dialektik qanunauyğunluq kimi, kulturoloji idarəetmə böhranlarının qurulduğu tənqidi təhlili inkar edir. O, millətin tərəqqipərvər inkişafında mühüm rol oynayan, sosial-mədəni inkişafın obyektiv böhran hadisələrini izləməyə mane olur. Buna görə də, vətənpərvər ziyalıların sosial - mədəni inkişaf proseslərinin tənqidi elmi təhlili respublikada ictimai tərəqqinin əldə edilməsi və çatışmamazlıqların sosial terapiyasına istiqamətlənmiş fəaliyyəti düşmənçiliklə qarşılanır. Belə mədəni siyasət üçün məsuliyyəti kim daşıyır? Yəqin ki, Azərbaycanın milli maraqları və sağlam düşüncə tələb edir ki, respublikanın aparıcı ekspert-kulturoloqlarının iştirakı ilə bu məsələyə bir də baxılsın. Azərbaycan xalqının davamlı milli-mədəni inkişafı mənafeyinə uyğun olaraq, kulturologiyanın inkişafına dövlət yardımını tezliklə təmin etmək və Azərbaycanda onun tədris fənni və elm kimi institutlaşdırılmasını təmin etmək vacibdir . Həyatın özünün dialektikası bizdən, hər şeydən əvvəl ziyalılardan, həmçinin siyasətçi və məmurlardan insan, sosial, dövlət inkişafı öproseslərinin təkmilləşdirilməsini tələb edir. Sosisal-mədəni inkişafın mürəkkəb proseslərinin elmi təminatı kulturoloq-alimlər qarşısında ciddi tələblər qoyur. Tədqiqatçı-kulturoloqlar nəinki cəmiyyət qarşısında problemlər qoymalı, həm də onların həllinin düzgün yollarını və effektiv

texnologiyalarını, obyektiv ziddiyyətlərin həllinə yeni yanaşmaları, tərəqqinin əldə edilməsi və böhran hadisələrinin aradan qaldırılmasına yardım edən, daxili və xarici siyasəti, iqtisadiyyat və insan münasibətlərini sağlamlaşdıran yeni yanaşmalar tapmalıdır. O, elmi tədqiqatın yeniliyinin yalnız yeni faktların aşkar edilməsindən ibarət deyil, həm də, hər şeydən əvvəl, mədəniyyətin və onun insan inkişafındakı, düzgün siyasətin formalaşdırılmasındakı və düzgün idarəetmədəki tərəqqipərvərliyini görüb elmi əsaslandırmaqdan çıxış etməlidir.

Buna görə də mədəniyyətin tarix və nəzəriyyəsinin tədqiqi məkan, zaman, komparativ, struktur, keyfiyyət və kəmiyyət təhlilini həyata keçirib, tədqiqatda tarixi, dialektik və məntiqi prinsiplərə dəqiq istinad edib, tədqiqatın mövzusu üzrə bütün əsər və anlayışların məzmununun tənqidi təhlilini keçirməyi tələb edir. Elmi müddəa və kulturoloji tezislər konkret faktlar və onların düzgün şərhi ilə təsdiq edilməli, mədəniyyətin inkişafında bu və ya digər şəxsiyyətlərin, hadisələrin rolunun düzgün qiymətləndirilib aşkarlanması ilə təsdiqlənməlidir. Mədəniyyət yalnız qazanılmış keyfiyyətlər kimi deyil, həm də müəyyən sosial mühitdə aşkar edilmiş genetik yaddaş – valideynlərin "genetik yaddaşından" (bəlkə də şüuraltı səviyyədə) ötürülmüş potensial qabiliyyətlər kimi təhlil edilməlidir. Kulturoloji tədqiqatlar mədəniyyətin idraki, dəyişdirici, normativ-tənzimləyici, maarifçi, dünyagörüş, aksioloji, humanist, ideoloji, istehsalat-praktiki, idarəetmə, proqnostik və digər funksiyalarının konkret sistemli təhlilinin keçirilməsini tələb edir. Mədəniyyətin gələcək inkişafını proqnozlaşdırmağa imkan verən qarşıya qoyulan məqsədlərə nail olma yollarını, siyasi və idarəetmə texnologiyalarının hazırlanmasına imkan verən tarixi(arxiv) və sosioloji( respondentlərin sorğusu) tədqiqatların aparılması mühüm əhəmiyyət daşıyır.

Kulturologiya və ölkənin mədəni sitasətində azərbaycan dilində "əqli mədəniyyət"-lə "mənəvi mədənityyət"-in birliyindən ibarət olan "ruhi mədəniyyət" termininin işlənməsi effektiv idarəetmə üçün mühüm əhəmiyyət daşıyır. Belə yanaşma "mənəvi mədəniyyət" terminini nəinki düzgün anlamağa, eləcə də effektiv sosial-mədəni siyasət, xalqın davamlı mənəvi inkişafının, ölkənin iqtisadi və sosial rifahının tərəqqisi, şəxsiyyətin düzgün inkişafını təmin edilməsində

"intellektual mədəniyyət" anlayışının zəruriliyini diqqətə çatdırır. O, mədəniyyətin ayrı-ayrı komponentləri və sosial institutlarının diferensial olaraq nəzərdən keçirilməsinə, mədəni siyasətin prioritetlərini düzgün müəyyənləşdirilməsinə, dövlət, cəmiyyət və insan inkişafı naminə mədəniyyətin müxtəlif funksiyalarından effektiv istifadə edilməsinə imkan verir.

İnkişafın beynəlxalq təcrübəsinin çoxillik öyrənilməsi təcrübəsi qloballaşma şəraitində Azərbaycanın sosial-mədəni inkişafının effektiv modelinin hazırlanmasına imkan yaradır. Mədəniyyətin sosial fenoman və noumen kimi düzgün anlanılması bu model əsasını təşkil etməlidir. *Mədəniyyət* – intellektual, etik, estetik, intellektual və maddi sərvətlərin, eləcə də, insanın ağlı, hissi və fiziki əməyi ilə yaradılan ruhi və maddi dəyər və normaların istehsalı, istehlakı, tədarükü və ötürülməsindən ibarət tarixi prosesdir. Bu, insanın yaşaması üçün əlverişli mühitin, yəni "ikinci süni təbiətin" formalaşdırılması, insanın həyatını yaxşılaşdıran, zənginləşdirən, qoruyan, cilovlayan inkişaf texnologiyaları və idarəetmə metodlarıdır. Bununla belə, mədəniyyət – insanın ətraf aləmin şüurlu dərki, dəyişdirilməsi ilə yaranan həyat fəaliyyətinin fəlsəfəsi, texnologiyası, şəraiti və nəticəsi deyil, həm də, hər şeydən əvvəl, fərdi, sosial və qlobal səviyyədə insan kapitalının fəaliyyəti və əsas məqsədi olan insanın özünün inkişafı və təkmilləşməsi prosesidir. Qeyd edək ki, canlı və böyük rus dilinin izahlı lüğətinin müəllifi Vladimir Dal mədəniyyətin mühüm mahiyyəti olaraq, təbiəti emal edib, hazırlamağı, qurmağı, təbii mənbələrdən yeni, süni əşyaları yaratmağı, hər şeydən əvvəl, *insanın əqli və mənəvi təhsilini* xüsusi qeyd edirdi.

Milli mədəniyyətin modernləşdirilməsi probleminə kulturoloji yanaşma mədəniyyətə yeni nəzərlə baxaraq, onu sosial kapital kimi ifadə etmək imkanı verir və qloballaşma şəraitində Azərbaycan dövlətinin inkişafında onun imkanlarının sistemli təhlilini aparmağa şərait yaradır. Azərbaycanın inkişafı yolu və texnologiyalarının məkan və zaman baxımından müəyyənləşdirilməsi məqsədi ilə biz dünya sivilizasiyası inkişafının müqayisəli təhlilini keçirmiş, dinya sivilizasiyası kontekstində Azərbaycanın inkişaf proqnozları və perspektivlərini göstərmişik. Bu təhlil, keçid dövründə Azərbaycanda ruhi mədəniyyət və mədəni siyasətin inkişafında nailiyyətlər, çətinlik

və çatışmamazlıqlara obyektiv qiymət verilməsinə və qloballaşma dövründə Azərbaycan Respublikası mədəniyyətinin inkişaf etməli olduğu əsas yolların aşkar edilməsi və texnologiyaların hazırlanmasına imkan verir. O, cəmiyyətin və dövlətin həyatında bütöv sosial sistem və noumen olan mədəniyyətə yeni baxış yaratmağa, cəmiyyətin inkişafında mövcud çətinliklər və çatışmamazlıqların aradan qaldırılmasında effektli metodların müəyyən edilməsinə imkan yaradır.

Məqalə və məruzələrimizdən məlum olduğu kimi, biz kulturoloji tədqiqatlarımızda metodologiyası prinsiplərindən – tarixilik, dialektika və adi məntiqdən başqa, ilk dəfə olaraq, Lütvi Zadənin elmi kəşfi olan, qeyri-səlis məntiq nəzəriyyəsinin prinsipindən istifadə etmişik. Kulturologiya üçün qeyri-səlis məntiqin elmi-praktik dəyəri ondan ibarətdir ki, ona əsaslanan yanaşmalar cəmiyyətdə baş verən sosial-mədəni hadisələrə yeni nəzərlə baxmaq, ictimai proseslər və mürəkkəb sistemlərin idarə edilməsi, qeyri-müəyyənliklərin təhlili üçün qeyri-məhdud imkanlar açır. Lütvi Zadənin məntiqi sosial sistemləri ənənəvi riyazi metodlarla mümkün olmayan, linqvistik dəyişənlərlə ölçüb əks etdirməyə imkan verir. Onun, özündə ətraf aləmə münasibətdə Şərq və Qərb mədəniyyətinin sintezini əks etdirən, linqvistik dəyişənlər, başqa sözlə, "yumşaq hesablamalar" ideyası sosial-mədəni inkişaf və idarəetmənin keyfiyyətcə yeni model layihələrinin hazırlanmasına yeni tərzdə yanaşmağa imkan verir. Buna görə də Lütvi Zadənin məntiqini istifadə etməklə aparılan sistemli kulturoloji təhlil düzgün sosial, iqtisadi və siyasi qərarların qəbul edilməsini təmin edən demokratik idarəetmənin inkişafı üçün perspektivli əhəmiyyətə malikdir.

Demokratik Azərbaycanın inkişafının aktual problem, prinsip və mexanizmlərinin təhlili ölkənin dünya sosial-mədəni məkanında tərəqqipərvər, təhlükəsiz və davamlı inkişaf üçün məntiq və hərəkət şəraitini nəzəri cəhətdən əsaslandırmağa imkan yaradır. Tərəfimizdən hazırlanmış, sosial-mədəni inkişaf qanunauyğunluqların mahiyyət və məntiqini müəyyənləşdirməyə imkan verən kulturoloji formul və sxemlər ölkənin dünya mədəniyyəti və sivilizasiyalarının zaman və məkanında inkişaf dinamikasının yüksək templərinin təmin edilməsinə istiqamətlənmişdir. Bu – mədəniyyətin bütöv sistem, mədəni insan,

mədəni inkişaf faktorları, mədəniyyətin effektivliyi, istehsalın effektivliyi və idarəetmənin effektivliyi formullarıdır. İstehsalatda və idarəetmədə effektivliyin idarəedilməsinin həlledici amili *fəaliyyətin keyfiyyətidir.* Beynəlxalq təcrübənin yaradıcı istifadəsi və ictimai inkişafın kulturoloji texnologiyalarına əsaslanan sosial fəaliyyətin yüksək keyfiyyəti cəmiyyətin effektiv inkişafını və insanların həyat keyfiyyətini təmin edir. Fəaliyyətin ketfiyyəti elmin və istifadə olunan texnologiyaların səviyyəsi ilə; işçilərin intellektual, istehsalat, etik və idarəetmə mədəniyyəti – onların peşə bilikləri, şəxsi təcrübə, istedad, beynəlxalq təcrübənin innovasiyalı istifadə bacarığı, məsuliyyəti, ləyaqəti və vətənpərvərliyi; lider tərəfindən fəaliyyətlərin düzgün stimullaşdırılması ilə şərtlənən, kollektivin hər bir üzvünün yaxşı işləmək istəyi ilə müəyyən edilir.

Bütöv sosial sistem olan mədəniyyətin elmi anlamı, Azərbaycanın sosial inkişafının məqsədi, vasitəsi və göstəricisi, mədəniyyəti "ikinci süni təbiət" kimi görmək, onun sosial institutlarını, eyni zamanda *iqtisadiyyatına* qiymət verməyə və ona yeni nəzərlə baxmağa imkan verir. İqtisadiyyat Lütvi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsinin köməyi ilə daha parlaq təsvir edilən ruhi və maddi mədəniyyətin bütöv sisteminin ayrılmaz hissəsidir. Məlum olduğu kimi, iqtisadiyyat anlamı altında insani münasibətlər, paylama münasibətləri, mübadilə, maddi nemət və xidmətlərin istehlakından ibarət istehsal münasibətlərinin məcmuunu, həmçinin – ruhi və maddi istehsalın proses, komponent və şəraitini, eləcə də idarəetməni öyrənən elm başa düşülür. İqtisadiyyat mədəniyyətin strateji sosial institutu kimi cəmiyyətin keyfiyyətli həyatı vəyüksək rifah səviyyəsinin əldə edilməsi üçün fundamental əhəmiyyətə malikdir. Mədəniyyət kimi, iqtisadiyyat da ruhi və maddi komponentlərə malik olsa da, maddi istehsal və nəticədə alınan hazır məhsulun əsasını "ruhi istehsal" təşkil edir. Deməli, iqtisadiyyat ruhi istehsalın maddi nəticəsi prosesidir və ya insanın maddi tələblərinin ödənilməsinə istiqamətlənən ruhi mədəniyyətin maddi təcəssümüdür. Dünya təcrübəsi göstərir ki, fundamental tədqiqatlara əsaslanan özəl elmi biliklərin istehsalı yüksək elmhəcmli texnologiyaların və iqtisadi rəqabətin, qiymətli səhmlərin mədaxil həcmi və dövlətin real müstəqillik səviyyəsinin artırılmasına imkan verir. Belə bir gözəl ifadə var: "Rəssam məşhur

əsərlərin üzünü köçürərək yaranır". Öz iqtisadiyyatımızı yüksək texnologiyaların lisenziyası əsasında inkişaf etdirə-etdirə, biz, öz fundamental elmimizi yadfdan çıxarmamalıyıq. Cəmiyyətin strateji potensialı olan qabaqlayıcı inkişafına artıq bu gün şüurlu şəkildə investisiya qoyulmalı, bunun üçün vasitələri isə, digər az istegsala malik xərclərdən ayırmaq lazımdır. Bizim gələcəyimiz, ilk növbədə, bəşəriyyətin ruhi mədəniyyətinin iki bayraqdarından – elm və təhsildən asılıdır, çünki onlar olmadan, nə yüksək rifah, nə də dövlət və cəmiyyətin keyfiyyət və təhlükəsizliyini əldə etmək mümkün deyil.

Mədəniyyəti bütöv sistem kimi görmək, iqtisadiyyatı mədəniyyətin əsas komponenti kimi nəzərdən keçirməyə imkan verir. Bunun üçün iqtisadiyyatın formalaşması prosesinə insan fəaliyyətinin bir sahəsi kimi diqqət yetirmək kifayətdir. Kulturoloji baxımdan, bu proses, intellektual kapitalın maddi kapitala, ruhi istehsalın maddiyə çevrilməsi prosesidir. İqtisadi fəaliyyətin məntiqini aşağıdakı ardıcıllıqla ifadə etmək olar :

- Ideya
- Ruhi istehsal (elm)
- Texnologiyalar
- Maddi istehsal
- Hazır məhsul (əmtəə və xidmətlər)
- Reallaşdırma (ticarət)

*İqtisadi fəaliyyətin ilkin şərtləri aşağıdakılardır:*

1. İnsan kapitalı (peşə bilikləri və istehsal vərdişləri)
2. Xammal
3. Material, texnika və təchizat
4. Enerji
5. İstehsal sahələri
6. Maliyyə kapitalı (investisiya)
7. Effektiv menecment
8. İqtisadi fəaliyyətin hüquqi təminatı

Adı çəkilən formulların təhlili yuxarıda nəzərdən keçirilən materialla birlikdə aşağıdakı qanunauyğunluğu söyləməyə imkan verir: bilik və etikanın birliyindən ibarət olan yüksək ruhi mədəniyyət bütün ruhi və maddi fəaliyyət və onun məhsullarının, eyni zamanda ona xərclənən vəsait və istehsal müddətinin azalması şərti ilə,

keyfiyyətinin yüksəlişinə yardım edir. Bundan çıxış edərək, vətəndaşların yüksək həyat keyfiyyəti və rifah səviyyəsinin əldə edilməsi üçün Azərbaycanın sosial-mədəni siyasətində cəmiyyətin intellektual və mənəvi inkişafını, vətəndaş cəmiyyəti və dövlət quruculuğunun müxtəlif sahələri üçün şəxsiyyət və lüderlərin formalaşdıdırlması, onların fəaliyyəti üçün əlverişli həyat fəaliyyəti şəraiti yaradılmasını təmin edən yeni prioritetlər müəyyənləşdirmək lazımdır. Birinci prioritet – *intellektual mədəniyyət*dir. İntellektual mədəniyyət əlverişli şəraitdə dövlətin strateji prioriteti, istehsal qüvvələri inkişafının, təbiət və cəmiyyətin dəyişdirilməsinin, insan üçün zəruri olan həyati nemətlərin yaradılmasının mühüm faktoruna çevrilir. İkinci prioritet – *etik mədəniyyət*dir. Yüksək mənəviyyat, xeyirxah məram, insanpərvərlik olmadan, intellektual mədəniyyət nəinki qurucu, əksinə, cəmiyyət üçün təhlükə olan dağıdıcı qüvvəyə çevrilə bilər. Etik mədəniyyət insan münasibətlərinin dəyər tənzimləyicisi olmaqla bərabər, həm də, mövcud qanunların icrasını təmin edən hüquq mədəıniyyətinin əsasını təşkil edir. Üçüncü prioritet – *idarəetmə mədəniyyətidir.* İdarəetmə mədəniyyəti, xalqın həyat keyfiyyəti və rifahının, dövlətin davamlı sosial, siyasi və iqtisadi durumunun onun inkişaf səviyyəsindən asılı olduğu, strateji prioritetlərdən biridir. Dördüncü prioritet – *hüquqi mədəniyyətdir.* Hüquqi mədəniyyət insan hüquqlarının müdafiəsini, cəmiyyətin sosial, iqtisadi və siyasi həyatının təhlükəsizliyini təmin edərək, ictimai münasibətlərin mühüm tənzimləyici faktorudur.

Azərbaycanın keçid dövründə demokratik cəmiyyət və hüquqi dövlət quruculuğunun mürəkkəb problemini diqqətə alaraq, təbiət və texniki elmlərlə bərabər, sosial elmlər, xüsusilə də, yüksək mənəviyyatlı şəxsiyyətlərin formalaşdırılmasını təmin edən kulturolojiya sahəsində fundamental tədqiqatların aparılması dövlətin xüsusi qayğısı ilə əhatə olunmalıdır. *Bu sosial kapitalın keyfiyyətinə təsir göstərən faktorlar : irsi faktorlar, ailə tərbiyəsi, təhsil, kollektiv və cəmiyyətin sosial mühiti, şəxsiyyətin xarakteridir.* Tolerantlıq baxımından Xeyir və Şəri necə yaxınlaşdırmaq olar? İki bir-birinə əks olan insan xarakterini: yalan, məkr, qarayaxa, ləyaqətsiz, zorakı, nankor olan Şərlə Xeyir necə yaxınlaşdırıb birləşdirmək olar ? Yəqin ki, eqoizmdən altruizmə keçid üçün dəyər və təsəvvürlərin

dəyişilməsi, daha geniş mənada – insanların mədəniyyətini dəyişmək zəruridir. Bu problemin həlli, əhəmiyyətli dərəcədə şəxsiyyətin yüksək təhsili və mənəvi tərbiyəsinin köməyi ilə həll edilə bilər.

Sosial-mədəni siyasətə yeni prioritetlərin daxil edilməsi, cəmiyyətin demokratik mədəniyyət inkişafının tələblərinə cavab verən mədəni dəyər sistemlərinin təkmilləşdirilməsini tələb edir. Xalqın humanizm, böyüklərə hörmət, uşağa sevgi, şərəf və ləyaqət hissi, dözümlülük, qonaqpərvərliklə bağlı pozitiv dəyərlərini qoruyaraq, şəxsiyyətə hörmət, məsulittər mədəniyyəti və dürüstlük kimi prioritetlərin müəyyənləşdirilməsi zəruridir. Bu problemin həllinin mühümlüyünü düşünərək, ölkənin ziyalılarından təhsilin keyfiyyətinin yüksəldilməsi, maarifləndirmə, insanların mənəvi tərbiyəsinə istiqamətlənən praktik fəaliyyət tələb edir.

Azərbaycanda demokratik mədəniyyətin mühüm inkişaf problemlərindən biri *demokratiyanın hüquqi mədəniyyətinin* inkişafıdır. Cəmiyyət və dövlət həyatının demokratikləşdirilməsinə yardım edən bir sıra yeni qanunların qəbul edilməsi ilə yanaşı, demokratik idarəetmə mədəniyyətinin formalaşdırılması məqsədi ilə 2001-2002-ci illərdə Azərbaycanda Ombusman institutunun yaradılması mühüm əhəmiyyət daşımışdır. Ombusmanın mühüm vəzifələrindən biri dövlətin hökumət orqanları tərəfindən qeyri-peşəkar idarəetmə nəticəsində insanların pozulan hüquqlarının bərpasıdır.

Bununla bərabər, Azərbaycanda ölkə həyatında real dəyişiklikləri əks etdirən müasir qanunlar qəbul edilsə də, cəmiyyətdə onların zəif icrası göz qabağıdadır, belə ki, ayrı-ayrı vətəndaş və məmurların kifayət qədər yüksək olmayan intellekt, hüquqi, etik və idarəetmə, eləcə də məsuliyyət mədəniyyətinin aşağı səviyyəsi bu işi əngəlləyən səbəblərdəndir. Pis idarəetmədən qətiyyətlə imtina etmək lazımdir ki, cəmiyyət və dövlət bundan zərər çəkməsin. Düzgün idarəetmə vətəndaşla hökumət arasında, xoş münasibətlərin formalaşmasına yardım edir ki, bu da ölkənin sosial-siyasi inkişafının təhlükəsizliyi üçün zəruri olan şərtlərdəndir. İlk növbədə, *Azərbaycanın hər yerində qanununn aliliyi prinsipinim gözlənilməsinə nail olmaq vacibdir.*

Beynəlxalq təcrübə göstərir ki, demokratiya prinsipləri və dəyərlərinə əsaslanan effektiv sosial və dövlət idarəçiliyi bir sıra hüquqi, etik və idarəetmə məsələlərinin həllini nəzərdə tutur:

√ qanunun aliliyinin təmin edilməsinə cavabdeh olan vətəndaş və vəzifəli şəxslərin qanunu icra mədəniyyətinin və qanunvericiliyinin davamlı olaraq təkmilləşdirilməsi;

√ baza siyasi və inzibati sənədlərin və onların idarəetmə sistemində düzgün istifadəsinin şəffaflığı;

√ vəzifəli şəxslər tərəfindən vəzifədən sui-istifadə, proteksionizm, monopolizm, korrupsiya hallarının aradan qaldırılmasında vətəndaşların ədalətlilik hüququnun müdafiəsi, bölgü münasibətləri mədəniyyətinin inkişafı;

√ ombusman institutunun yardımı ilə dövlət strukturu ilə vətəndaşlar, eləcə də ölkə vətəndaşları arasında ziddiyyət, toqquşma və mübahisələrin etik tənzimlənməsi və yüksək hüquq mədəniyyəti;

√ dövlət quruculuğu və idarəçiliyinin prosesləri effektivliyinin ictimai monitorinq proqramlarının hazırlanıb, reallaşdırılması;

√ məmurlar və əhali üçün demokratiya, sülh, vətəndaş cəmiyyəti, hüquqi, etik, idarəetmə, istehsal, məişət və gender mədəniyyəti problemləri üzrə daim fəaliyyət göstərən kulturoloji maarifləndirmənin təşkili.

Son olaraq, qeyd etmək lazımdır ki, milli mədəniyyətin inkişafında müəyyən nəticələrin əldə edilməsinə baxmayaraq, bu gün həlli tələb olunan bir çox problemlər mövcuddur. Cəmiyyətdə mədəniyyət anlamına məhdud yanaşma, insan inkişafında onun universal rolunun qiymətləndirilməməsi, köhnəm "sovet" mədəniyyət struktur və sistemlərinin üstün fəaliyyəti, bir sıra "sovet" düşüncə stereotiplərinin aradan qaldırılması zərurətiləri, kulturoloji elm və təhsilin inkişafı üçün əlverişli şəraitin olmaması, ölkədə kulturoloq müəllim, tədqiqatçı və idarəçilərinin olamaması və s. bunlara aiddir. Əfsuslar olsun ki, ölkə bürotratiyasının bir hissəsi hələ də, dövlət və cəmiyyətin idarəedilməsi sisteminin effektivliyinə neqativ təsir göstərib, təbii ziddiyyət və çətinlikləri yaradan, sovet inzibati amirlik düşüncələri stereotiplərindən azad olmamışdır. Bunun nəticəsidir ki, bəzi hallarda, ziyalıların dövlət əhəmiyyəti daşıyan tərəqqipərvər təşəbbüsləri

diqqətdən kənarda qalır. Bununla yanaşı, alim və qeyri-hökumət təşkilatlarının cəmiyyətin strateji maraqlarına cavab verən tərəqqipərvər təşəbbüslərinə yardım etmək, demokratik dövlətin vəzifəsi oplaraq qalır. Demokratik dövlətin bürokratiyası cəmiyyətdə tərəqqipərvər yeniliklər uğrunda mübarizəni stimullaşdırmalı və y6aranan tormozlama mexanizmlərini aradan qaldırmalıdır. Bunun üçün, o, demokratik idarəetmə mədəniyyətinə yiyələnməli, sosial-mədəni inkişafın beynəlxalq təcrübəsi və dünya elminin ən yeni nailiyyətlərinə əsaslanan interaktiv kulturoloji təhsil və maarif sisteminin köməyi ilə öz bilik və bacarıq səviyyələrini daim təkmilləşdirməlidirlər. Bu məqsədlə, bütün səviyyələrdəki məmurlar üçün demokratik idarəetmə mədəniyyəti üzrə xüsusi interaktiv treninqlərin təşkil edilməsi mühüm əhəmiyyət daşıyır. Bu, Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı, siyasi stabillik və sosial harmoniyanın əldə edilməsinə yardım edən dövlət quruculuğu və idarəedilməsinin aktual problemlərinin həlli yollarına yeni baxış və yeni həyat fəlsəfəsinin formalaşdırılmasında ağrılı prosesləri əhəmiiyyətli dərəcədə sürətləndirər və tədricən totalitar düşüncə stereotiplərindən azad olmağa kömək edər.

Bu problemlərin kulturoloji təhlili, keçid dövrünün tələblərinə uyğun olaraq, azərbaycan xalqının milli maraqlarına cavab verən, Azərbaycan Respublikasında kulturoloji elm və təhsilin inkişafına hərtərəfli dövlət yardımının zəruriliyini göstərir. Dövlət milli inkişafın mühüm prioritetlərindən biri olan ruhi mədəniyyətin və "ruhi istehsal"-ın qabaqlayıcı inkişafını müəyyən etməlidir. Cəmiyyətin müxtəlif sahələri üçün şəxsiyyət və liderlərin etik və peşə hazırlığlında, eləcə də, milli ideologiyanın formalaşdırılmasında kulturologiyanın əhəmiyyətini vurğulayaraq, bu mühüm fənnin tədrisinin ölkənin ali və orta məktəblərində , həmçinin məktəbəqədər müəssisələrində tədrisinin dərinləşdirilməsi və genişləndirilməsinə qanunvericilik səviyyəsində yardım etmək zəruridir. Dövlət idarəçiliyi strukturlarında çalışmaq üçün ekspert-kulturoloqların cəlb edilməsi, bütün səviyyəli məmurlar və geniş əhali üçün mədəniyyət üzrə daim fəaliyyət göstərən kulturoloji treninqlərin təşkili mühüm məsələlərdən biridir.

Azərbaycan mədəniyyətinin zamanın tələblərinə cavab verən real modernləşdirilməsinə yardım etmək məqsədi ilə, dövlət bir sıra ciddi addımlar atmalıdır. Xüsusilə, Azərbaycanda kulturologiyanın elm və tədris fənni kimi institutlaşdırılmasını və ölkənin əsas sosial-mədəni siyasət prioritetləri olan intellektual, etik, hüquqi və idarəetmə mədəniyyətinin bərqərar olmasını təmin edən qanunun qəbul edilməsi zəruridir. Mədəni dəyişikliklər çərçivəsində "mədəniyyətşünaslıq" fənninin ibtidai və orta məktəb proqramlarına daxil edilməsini, Bakıda və Azərbaycanın regionlarında xüsusi kulturologiya məktəblərinin, eləcə də ölkənin ali məktəblərində kulturoloji təhsil proqramlarının genişləndirilib, dərinləşdirilməsini təmin etmək lazımdır.

Azərbaycanda Şərqin və Qərbin inkişaf etmiş ölkələrinin zəngin sosial-mədəni təcrübəsinin tədqiqi və tətbiqi məqsədi ilə kulturologiya institutunun yaradılması, eləcə də Bakıda Beynəlxalq Dünya Mədəniyyəti Universitetinin açılması aktual əhəmiyyhət kəsb edir.

Mədəniyyətin struktur və sisteminin innovativ islahatı çərçivəsində mədəniyyətin inkişafı problemləri üzrə Milli Şuranın yaradılması, təhsil və mədəniyyət nazirliklərinin vahid Sosial-Mədəni İnkişaf Nazirliyinə inteqrasiyası, eləcə də Azərbaycan mədəniyyəti inkişafının Milli onilliyinin keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bakıda kulturologiya üzrə elmlər namizədi və doktorların hazırlığı üçün milli və dünya mədəniyyətinin tarix və nəzəriyyəsi üzrə sahələrarası Dissertasiya Şurasının yaradılması mühüm vəzifələrdən biridir. Bu Şuraya tarix, fəlsəfə, psixologiya, mədəni antropologiya, sosiologiya, politologiya, məntiq, iqtisadiyyat, etika, estetika, filologiya, pedaqogika, dilçilik, incəsənətşünaslıq sahəsində mədəniyyətin tarixi və nəzəriyyəsi üzrə əsərləri olan ekspertlər daxil olmalıdır.

Mədəniyyətin demokratikləşdirilməsi prinsipinə uyğun olan milli maraqlardan çıxış edərək, ruhi mədəniyyətin modernləşdirilməsi və demokratikləşdirmə problemləri ilə məşğul olan ölkənin aparıcı qeyri-hökumət təşkilatları ilə dövlət strukturları arasında stabil əməkdaşlıq və tərəfdaşlığa nail olmaq vacibdir. Bu məqsədlə, kulturologiya və mədəni siyasətin işlənməsi ilə bağlı problemlərlə məşğul olan aparıcı qeyri-hökumət təşkilatlarına mədəniyyət və təhsil üzrə milli hesabatların surətlərinin göndərilməsi məqsədəuyğundur.

Tərəfimizdən aparılan kulturoloji təhlil göstərir ki, müasir Azərbaycanın dövlət sosial-mədəni inkişaf strategiyalarının əsasını azərbaycan xalqının gələcək pozitiv obrazı qoyulmalıdır. Bu obraz ideoloji kateqoriya olaraq, hər bir şəxs və bütün cəmiyyət üçün, özündə insanın mütləq dəyər prioritetlərini, onun mənəvi kamillik və maddi rifahının birliyini, eləcə də xalqın milli-mədəni dəyər, ideal və maraqlarını əks etdirərək, dünyada qəbul edilən sistemli elmi təhlil əsasında müəyyən edilməlidir. Bizim tədqiqatımız, Azərbaycanın dünya inkişaf səviyyəsindən çoxillik geriləməsini qısa müddətdə aradan qaldırıb, burada paralel olaraq, sənaye və bilik cəmiyyəti qurmağa imkan verən, hansı sosial-mədəni inkişaf yolları və texnologiyaları seçilməlidir, sualına cavab verməyə yardım etmək məqsədi daşıyır[1]. Təhlil göstərir ki, bu məsələnin uğurlu həllinə, yalnız, cəmiyyətin yüksək intellektual mədəniyyətinin qabaqlayıcı inkişafına, aparıcı dünya ölkələrinin zəngin təcrübəsini yaradıcı istifadə edib, dəqiq kulturoloji təhlilini keçirməklə nail olmaq mümkündür. Ölkədə yüksək iqtisadi, texnoloji, etik, hüquqi və idarəetmə mədəniyyətinin qarşılıqlı şərtlənən inkişafı mühüm şərtlərdəndir.

Vətəndaşların ruhi kamilliyi, maddi rifahına istiqamətlənən effektiv milli inkişafa nail olmaq üçün düzgün – beynəlxalq münasibət və dövlət idarəçiliyinin prioritet, strategiya və texnologiyaları, dövlət və cəmiyyətin inkişaf sürəti və əməyin yüksək keyfiyyətli vacibdir. Həyatın dialektikası belədir ki, inkişaf məqsədinin özü və bizim təbiət və cəmiyyət haqındakı bilik səviyyəmiz dəyişir. Deməli, dövlət siyasəti elmin, beynəlxalq təcrübənin, dünya və milli inkişaf tendensiyalarının kulturoloji proqnozlaşdırılmasının son nailiyyətləri üzərində qurulmalıdır. Yalnız bu zaman,o , dünya sivilizasiyası məkanında və zamanında cəmiyyətin və dövlətin rəqabətəqabil, persprktivli, effektiv və davamlı inkişafını təmin edə bilər.

Bütöv sosial sistem olan mədəniyyətin yeni anlamının dərk edilməsi və milli inkişaf, ideologiyanın təkmilləşməsi, yüksək etikalı cəmiyyətin yaradılması, effektiv dövlət quruculuğu və dövlət idarəçiliyinin yaradılmasında onun qeyri-məhdud universal imkanlarını görmə qabiliyyəti müstəqil Azərbaycan Respublikası üçün strateji əhəmiyyət daşıyır. Dövlətin strateji prioriteti olan yüksək ruhi

mədəniyətin qabaqlayıcı inkişafı və modernləşdirilməsi sosial həyatda neqativ hallarla effektiv mübarizə aparmağa, korrupsiya, yoxsulluq, cəhalət, etik və hüquqi savadsızlıq, yerlibazlıq və Azərbaycanın ictimai tərəqqisini buxovlayan digər insani çatışmamazlıqlarla mübarizə aparmağa imkan verəcəkdir.

Respublika mədəniyyətinin struktur və sistemində *qloballaşma şəraitində azərbaycan cəmiyyətinin modernləşdirilməsini təmin edən* effektiv islahatların aparılması zəruridir. Bu islahat çərçuivəsində demokratik Azərbaycanın milli maraqlarına və zamanın tələblərinə cavab verən mədəniyyətin inkişafının idarə edilməsi, eləcə də mövcud strukturların yenidən təşkili və yenilərinin yaradılması sahəsində çalışan kadrların seçilib yerləşdirilməsi və təlimləndirilməsi sisteminin təkmilləşdirilməsi vacibdir.

Belə bir ifadə var: "Cəhənnəmə gedən yol xeyirxah niyyətlərlə döşənmişdir". Bu o deməkdir ki, yalnız xeyirxah niyyətlər kifayət deyil, daha yaxşı bu gün və gələcək naminə fəaliyyət göstərmək lazımdır. Hadisələrin mahiyyətini düzgün görərək, ictimai tərəqqi tələblərinə cavab verən proqressiv proqram və layihələr, kulturoloji inkişaf modelləri, elmi bilik və yüksək texnologiyaların köməyi ilə fəaliyyət göstərmək lazımdır. Antual de Sent Ekzüperi yazır: "Heç zaman demə ki, edərəm, başla və de: mən artıq edirəm".

* *Elm və Cəmiyyət. Elmi məqalələr toplusu, Bakı, №1, 2005, s. 279-288; №1, Bakı, 2006, s. 137-141.*

## DÜNYA MƏDƏNİYYƏTİ VƏ AZƏRBAYCANIN ÖZÜNÜDƏKİ

Müasir sivilizasiya sənaye cəmiyyətindən informasiyası cəmiyyətə keçidlə səciyyələnir. Tarixin noosfer dövrünə qədəm qoyan dünyaya yeni nəzərlə baxış da bu keçidlə əlaqədardır. Texnogen sivilizasiyaları yeni ekoloji mədəniyyət əvəz edir ki, bu da insanlar arasındakı yeni

münasibətlərdən və onların təbiətə münasibətdəki yeni məzmundan qaynaqlanır.

Dünya mədəniyyəti bəşəri dəyərlər - ən yaxşı formalar, fəaliyyət nümunələri, dünya duyumu vasitələri, bəşəriyyətin uzun əsrlər boyu yaratdığı intellektual və maddi dəyərlər üzərində qurulmuşdur. Lakin bəşəri mədəniyyətin təkamülü müxtəlif xalqların mədəniyyətinin eyniləşdirilməsi yox, regional və milli mədəniyyətlərin harmonik qarşılıqlı təsiri, qarşılıqlı fəaliyyəti və qarşılıqlı asılılığıdır. Hər bir mədəniyyətin öz dəyəri, öz spesifik xüsusiyyətləri və unikal nailiyyətləri vardır. Müxtəlif milli mədəniyyət tiplərinin, məsələn, skandinav, roman, anqlosakson, slavyan, türk, asiya, sintoist və digərlərinin nümunəsində görmək olar ki, müasir dünyada milli mədəniyyətlərin əhəmiyyəti artır, onların hər biri dünya inkişaf formalarını spesifik olaraq, yaradıcılıqla mənimsəyir və bəşər mədəniyyətinin təkamül prosesinə öz töhvələrini verir.

Bəşər mədəniyyətində şəxsiyyətin və millətin dəyərini ifadə edən, milli mentalitetini səciyyələndirən əsas tərkib hissəsi – milli şüurdur. O, özünün cəmiyyətdəki və ya beynəlxalq birlikdəki yerini dərk etməyin dünyagörüş formasını əks etdirir. Millət – xalqın mədəni inkişafının məhsuludur. Buna görə də milli şüur milli mədəniyyət və ya mədəni şüurun sinonimidir. Kulturoloji baxımdan, milli şüur mənəvi məkanı, mono- və ya polietnik cəmiyyətin sosial mühitini inteqrativləşdirən, xalqın milli özünütəyininə, onun keçmişi, bu günü və daha uğurlu gələcəyinin dərkinə həlledici təsir göstərən amil kimi çıxış edir. Dünyagörüş, təfəkkür və onunla bağlı olan, dövlət və cəmiyyətin "insan inkişafı texnologiyaları", xalqın sosial-mədəni tərəqqisinin intellektual, etik yollarının seçimi, çox halda, fərdlərin özünüdərkindən, onların müəyyən mədəni irsə, sivilizasiyaya aidiyyət duyumundan asılıdır.

Dövlətin siyasi sistemi, onun daxili və xarici siyasəti ilə müəyyən olunan sosial mühit insanların milli özünüdərkinə ciddi təsir göstərir. Xalqların inkişafının yeni ideoloji əsasını yaradan, millət və müstəqil dövlətləri formalaşdıran Müsəlman İntibahı, Dirçəliş və Reformasiya, Avropada elmi inqilab və Maarifçilik xalqlarda milli özünüdərkin oyanması və milli sivilizasiyaların özəyinin formalaşmasında mühüm rol oynamışdır. Azərbaycan xalqının mədəni inkişafında və milli

şüurunun təsdiqində dünya mədəniyyətinin bu görkəmli hadisələrinin mühüm rolu olmuşdur. Azərbaycan xalqında milli şüurun formalaşması tarixi qədim dövrlərə - Azərbaycan mədəni tarixinin zərdüştlük dövrünə gedib çıxır. Bu dövrdə əcdadlarımızın fəlsəfi fikri mövcudluq dəyərləri və insan həyatı haqqında təsəvvürlər yaradaraq, insanın mütləq dəyərini aşkar etmiş, anlayışları müəyyən rəmzlərlə ifadə edərək, səadətin İşıq, Həqiqət, Bilik və Rifah ideallarından keçən yollarını göstərmişdir. Yəqin ki, əcdadlarımızın şumer mədəniyyətindən götürüb, antik xristianlığa ötürdükləri, sonralar isə, islamın bəşəri xeyirxahlıq, rifah və əbədi həyat rəmzi kimi qəbul etdiyi səkkiz guşəli ulduz da belə rəmzlərdəndir. Bu gün Azərbaycan Respublikasının bayraq və gerbini bəzəyən bu ulduz humanizmin, yaradıcılıq, xalqımızın və bütün bəşəriyyətin işıqlı gələcəyinə inam rəmzidir.

Orta əsrlərdə azərbaycan xalqında özünüdərkin formalaşmasının mühüm mənbəyi görkəmli mədəni abidə olan "Kitabi Dədə-Qorqud", Nizami Gəncəvinin, Nəsirəddin Tusinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin və azərbaycan intibahının digər humanist nümayəndələrinin ölməz əsərləri idi. Bu görkəmli şəxsiyyətlər öz yaradıcılıqları ilə təsdiq etmişlər ki, daha uğurlu gələcəyin yolları ruhi mədəniyyətdən, xalqın rifahı və yaradıcı fəaliyyətinin əsasını təşkil edən inkaredilməz həqiqətlərdən - bilik və elm, yaxşı tərbiyə və müdriklikdən keçir.

XIX əsrdə zərdüşt-midiya, ellin, xristian-alban, oğuz-türk və islam mədəniyyətlərinin çoxəsrlik zəngin sintezindən ibarət olan Azərbaycanın ənənəvi feodal mədəniyyəti dünya mədəniyyətinin tərəqqipərvər nailiyyətlərindən yaradıcılıqla bəhrələnməsi ilə səciyyələnən keyfiyyətcə yeni novasiyalı inkişaf mərhələsinə qədəm qoydu. Öz sələflərinin ənənələrini davam etdirən azərbaycan maarifçiləri və humanistləri yeni və ən yeni dövrdə həll edilməsi üçün tarixi şəraitin yetişdiyi ictimai vəzifələri formulə etməyə çalışaraq, yeni tarixi şəraitdə azərbaycan xalqının ideologiya və özünüdərkinin gələcək formalaşmasına öz tarixi töhfələrini verdilər. XIX əsrin ikinci yarısı və XX əsrin əvvəlləri Azərbaycanın çoxəsrlik tarixinə milli şüurun və milli dövlətçiliyin yaradılması üçün şəraitin formalaşması dövrü kimi daxil oldu. Bu prosesdə azərbaycan ziyalıları, maarifçiləri

və humanistlərinin görkəmli nümayəndələrindən – M.F.Axundov, A.Bakıxanov, Həsəb bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbürrəhim bəy Haqverdiyev, Sultan Məcid Qənizadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, A.M.Topçubaşov, Cəlil Məmmədquluzadə, Miraə Ələkbər Sabir, Üzeyir Hacıbəyov, Məmməd Əmin Rəsulzadə,Nəriman Nərimanov mühüm rol oynadılar. Bu görkəmli insanların xidmətləri ondan ibarətdir ki, onlar ənənəvi azərbaycan mədəniyyətinə dünya mədəniyyətinin tərəqqipərvər ideyalarının üzvi şəkildə daxil edilməsi hesabına milli mədəniyyətin inkişafını təmin edirdilər.

Azərbaycan milli burjuaziyasının formalaşması, feodal cəmiyyətindən kapitalist cəmiyyətinə keçid prosesinə ideya-siyasi əsas verən, azərbaycan milli ideologiyasının təkamülü ilə müşayiət olunurdu. Bu prosesin mühüm hərəkətverici qüvvəsi kimi, XIX əsrin sonunda formalaşan, tərəqqipərvər azərbaycan ziyalıları çıxış edirdilər. Azərbaycan millətinin formalaşmasında "Əkinçi", “Ziya”, “Həyat”, “İrşad”, Tərəqqi”, “Açıq söz” qəzetləri, “Kəşkül”, “Fyuzat”, “Şəlalə”, “Molla Nəsrəddin” jurnalları və digər nəşrlər əhəmiyyətli rol oynayaraq, formalaşmaqda olan milli ziyalıların əlində başlıca olaraq maarifçilik vasitəsi kimi çıxış edirdilər.

İntibah dövründə Avropada baş verən Maarifçilik və Yeni dövr proseslərini xatırladaraq, azərbaycanlıların milli özünüdərki öz formalaşmasında üç dövr yaşamışdır: islam ümumi şüurundan, ümumtürk şüuruna, oradan da azərbaycan milli özünüdərkinə. XX əsrin əvvəllərində panislamçılıq çərçivəsində, xalqların hüquq bərabərliyi, hakimiyyət orqanlarında millətlərin nümayəndələrinin proporsional təmsil edilməsi, Rusiyada müsəlmanların mədəni tərəqqisi üçün şərait yaradılması problemləri gündəmə gətirilirdi. Bu, pantürkizm ideologiyasının formalaşması dövründə, öz milli müqəddəratını təyin etmək yollarının axtarışına yardım edən, xeyriyyə məqsədli mədəni-maarifçi cəmiyyətlər yaradılır, dövri mətbuat təşkil edilir, azərbaycan dilində kitablar buraxılır. Azərbaycan ziyalılarının və liberal burjuaziyanın avropa demokratik hərəkatına qoşulması prosesi başlayır və onların siyasi muxtariyyətə can atması aydın görünür. Bu zaman ziyalılar xalqın şüuruna avropa mahiyyətli milli ideyanı daxil edərək, tərəqqipərvər inkişaf cəhdləri göstərirdilər.

Azərbaycan xalqının öz milli müqəddəratını təyin etməsi özünü, əməli olaraq,I 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının – müsəlman Şərqində ilk demokratik respublikasının yaradılmasında göstərdi. O dövrdən azərbaycan mədəniyyətində əhəmiyyətli dəyişikliklər və xalqın milli özünüdərkinin inkişafı ilə qeyd olunan bir neçə onillik keçmişdir.

Bu gün Azərbaycan yenə də müstəqil dövlət olaraq, öz inkişafının, açıq cəmiyyət və hüquqi dövlət quruculuğu ilə səciyyələnən, keyfiyyətcə yeni postsovet dövrünə qədəm qoyur. Yeni tarixi şərait, qloballaşma prosesləri ilə əlaqədar olan dünya inkişafının yeni reallıqları və tendensiyaları kontekstində milli dəyərlərin tənqidi qiymətləndirilməsini tələb edir. Azərbaycanlıların milli özünüdərki, milli iftixar vasitəsi ola biləcək, xalqın sosial-mədəni inkişafındakı real nailiyyətlərdən bəhrələnməlidir. Bununla bağlı, tarixi dövrün tələbatlarına uyğun qlobal məkanda xalqın rəqabətəqabilliyinin, həmişəyaşarlığının və mobilliyinin yüksəldilməsi məqsədi ilə, onun sosial-mədəni kodunun şüurlu olaraq dəyişdirilməsi zərurəti mühüm əhəmiyyət kəsb etməyə başlayır. Qüvvələri müşühidədən – quruculuğa, mədəni hadisələrin qiymətləndirilməsindən - idraka ətraf aləmin transformasiyasına, və insanın özünün təkmilləşdirilməsi və həyatının yaxşılaşdırılmasına keçirmək vacibdir. Keçmiş nailiyyətlərin fetişləşdirilməsindən imtina edilməsinə, qüvvələri müasir inkişafda cəmləşdirilməsinə və işıqlı gələcəyin qurulmasına istiqamətlənən yeni mentalitetin formalaşdırılması təxirəsalınmaz milli vəzifədir.

• *"Milli özünüdərk" beynəlxalq elmi kollokviumunun tezisləri. Bakı, 1999, s. 153-158.*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDAKI SİYASİ MƏDƏNİYYƏT HAQQINDA

*(ADR Parlamenti təşkilinin 80 illiyinə həsr olunmuş "Müsəlman dünyasında İlkPparlament" adlı elmi-nəzəri konfransda çıxışın mətni. 7 dekabr 1998-ci il)*

Məlum olduğu kimi, hər bir cəmiyyətin siyasi mədəniyyət səviyyəsi siyasi biliklərin xarakter və həcmi, vətəndaşların fəaliyyət və qiymətləndirilməsi, eləcə də, siyasi münasibətləri tənzimləyən sosial dəyər, ənənə və normaların məzmun və keydiyyəti ilə müəyyən olunur. Müasir cəmiyyətdə dövlət, demokratiya, konstitusiya, hüquq, parlament kimi siyasi mədəniyyət institutları mühüm tərbiyəedici, tənzimləyici və müdafiəedici funksiyaları yerinə yetirir. Onlar xalqın ümumi mədəniyyətinin, siyasi şüurunun, vətəndaşların fəallığı və təşəbüskarlığının inkişafına yardım edir, hər şeydən əvvəl, idarəetmə orqanlarına nəzarətdə iştirak, onların demokratiya institutları və siyasi normalara könüllü tabe olmaları, demokratik cəmiyyət və dövlətin tərəqqisi tələblərinə cavab verən, demokratiyanın siyasi dəyərlərinin mühafizəsi yolu ilə siyasi proseslərə təsirini təmin edir. Bu kontekstdə Azərbaycanın demokratik inkişafındakı tarixi yol, forma və nailiyyətlər müəyyən maraq doğurur.

Azərbaycan xalqının tərəqqipərvər mədəni-fəlsəfi ənənələrinin təməli hələ XII-XVI əsrlərdə Azərbaycan İntibahı dövründə qoyulmuş, yeni dövrdə, demokratik prinsiplərə əsaslanan yeni tip cəmiyyətə tədrici keçid üçün şəraitin yaranması ilə öz məntiqi inkişafına çatmışdır. XIX əsr, öz kökləri ilə Müsəlman İntibahına, Oyanma, Avropada Reformasiya və Maarifçiliyinə gedib çıxan dünya mədəniyyətinin novasiyalı proseslərinin ölkədə fəallaşdığı bir zamanda, Azərbaycanda demokratiya mədəniyyətinin əsaslarının formalaşmasının mühüm mərhələsi oldu.

XX əsrin əvvəllərində şiddətli ictimai-siyasi inkişafın nəticəsində, 1917-ci ildə Rusiyada monarxiya çökdü. Postrusiya məkanında keyfiyyətcə yeni vətəndaş cəmiyyətinin quruculuğu, absoklyutizm prinsiplərindən, ilk dəfə hələ XIII əsrdə orta əsr İngiltərəsində təməli qoyulmuş parlamentarizm prinsiplərinə keçidə istiqamətlənən, yeni demokratik mədəniyyətin formalaşdıdırlmasını tələb edirdi. Çoxəsrlik

humanist ənənələrin varisliyini qoruyaraq, azərbaycan mədəniyyəti maariflənmiş Avropanın mədəni standartlarından fəal istifadə etmək yolu ilə demokratik yeniləşmə və tərəqqipərvər inkişaf yoluna qədəm qoydu.

XX əsrin əvvəlində Azərbaycanın siyasi mədəniyyəti, siyasi maraq və ehtiyacların dərki fonunda, azərbaycan xalqının öz milli müstəqilliyi uğrunda mübarizəsi şəraitində, yeni siyasi quruluşa əhalinin müxtəlif qrup və təbəqələrinin ümumi münasibət platformasının yaradılması şəraitində formalaşırdı. Siyasi mədəniyyət öz əksini ölkənin sosial-mədəni institutlarının – demokratik dövlət, parlament, hüquqi institutların fəaliyyətində tapırdı. Bu novasiyalı burjua-demokratik mədəniyyətin daşıyıcısı və ifadəçisi Rusiyada və Qərbi Avropanın müxtəlif ölkələrində təhsil almış, o cümlədən onun Rusiya Dövlət Dumasındakı nümayəndələri, Azərbaycan Dövləti və Parlamentinin rəhbərləri və üzvləri, eləcə də müxalifətçi partiyaların üzvləri, maarifçilər. Yazıçılar, publisistlərdən ibarət qbaqcıl azərbaycan ziyalıları idi.

Yeni dövr qərbi avropa və rusiya mədəniyyətlərinin novasiyalı təsirinə məruz qalmış Azərbaycan parlamentinin 7 dekabr 1918-ci ildə təntənəli açılışı ənənəvi azərbaycan mədəniyyətində inqilabi dəyişikliklərin parlaq nümunəsi oldu. İlk Azərbaycan parlamenti 11 müxtəlif qruplardan 97 üzvlə təmsil olunurdu. Orada müsavatçılar və partiyasızlar, ittihadçılar və sosialistlər, əhrarilər və slavyan-rus cəmiyyəti, milli azlıqlar, erməni fraksiyası və "Daşnaksütyun" partiyası nümayəndələri var idi. İlk Nazirlər Kabinetində 11 portfeldən üçünü azərbaycan millətindən olmayan adamlar aldılar: Protasyev (Maliyyə Naziri), Lizqar ( Ərzaq Naziri) və Gindes (Səhiyyə naziri). Dördüncü Nazirlər Kabinetində 13 nazirdən üçü, yenə də , qeyri-azərbaycanlı, o cümlədən X.Amaspürt, "Daşnaksütyun" nümayəndəsi idi.

Ölkədə siyasi mədəniyyət öz əksini icbari təhsilin tətbiqi istiqamətində aşağı və orta məktəblərin milliləşdirilməsi, rus və ana dilində təhsil alma hüququnu təmin edən, milli azlıqların imtiyazlarının saxlanması, Ermənistan qaçqınlarına yardım və dövlət quruculuğunun digər məsələləri üzrə tədbirlərdə tapırdı. Yaranan ziddiyyətlər demokratik metodlarla, zor və amirlik metodları

işlətmədən, demokratik mədəniyyət prinsipləri, müstəqil dövlətin və cəmiyyətin maraqlarından çıxış edərək, qanunun aliliyi əsasında həll edilirdi. Belə ki, ittifadçılar tərəfindən irəli sürülən hakimiyyətə inamsızlıq votumu F.Xoyski hakimiyyətinin istefası ilə nəticələndi. Ən mühüm prinsiplərdən biri, milli-mədəni özünəməxsusluğun qorunması ilə əlaqələndirilən dini-etiqad azadlığı, Azərbaycanda yaşayan milli azlıqların hüququnun tanınması idi. Azad əmək təminatı verən, fəhlə sinfinin hüquq mədəniyyətinə ciddi fikir verilirdi. Bununla belə, siyasi partiyaların yetgin olmaması, düşünülmüş siyasi proqramların olmaması, ümummilli maraqlarda əməkdaşlıq və siyasi mübarizə təcrübəsinin, qərb demokratiyası mədəniyyəti sahəsində dərin bilik və bacarıqların olmaması halları mövcud idi.

Azərbaycanda yeni burjua-demokratik mədəniyyəti formalaşdırılmasının ən ciddi göstəricisi azərbaycan ziyalı nümayəndələrinin Rusiya dövlət Dumasındakı fəaliyyəti idi. Azərbaycan burjua ziyalıları monarxiyalı Rusiya şəraitində Qərbin demokratik ölkələrinə məxsus metodlarla - milli hüquq bərabərliyi sahəsində dəyişikliklər, siyasi sahədə demokratik islahatların həyata keçirilməsi yolu ilə mübarizə aparırdılar. Azərbaycan Parlamenti tərəfindən respublikanın daxili həyatının demokratikləşdirilməsinə yardım edən Qanunun qəbul edilməsi ölkədə demokratik mədəniyyətin formalaşdırılmasında mühüm addım oldu. 21 iyul 1919-cu ildə qəbul edilmiş " Azərbaycan Respublikasının Təsisedici yığıncağına seçkilər haqqında əsasnamə seçkilərin bərabər, ümumi, birbaşa və gizli keçirilməsinin demokratik prosedurunu müəyyənləşdirdi. 11 avqust 1919-cu il tarixində Parlament tərəfindən, Azərbaycan ərazisində doğulmuş, milliyyəti və dini etiqadından asılı olmayaraq, keçmiş Rusiya imperiyasının hər bir vətəndaşının Azərbaycan vətəndaşı kimi tanıyan " Azərbaycan vətəndaşlığı haqqında qanun"-un qəbul edilməsi demokratiyanın siyasi mədəniyyəti və humanizm prinsiplərinə sədaqəti təsdiq edən göstərici idi.

Azərbaycanın dövlət və siyasi xadimləri – F.Xoyski, M.Ə.Rəsulzadə, A.M.Topçubaşov, H.B.Usubbəyov, D.B.Hacinski, M.B.Hacinski, İ.Ziyadxanov, Ə.Haqverdiyev, X.B.Xasməmmədov, H.Şahtaxtinski, A.Pepinov, C.M.Qənizadə, S.Mehmandarov, H.Məlikaslanov, M.Y.Cəfərov və bir çox başqaları öz şəxsi

nümunələri və həyat fəaliyyətləri ilə yüksək siyasi mədəniyyətin əsası olan dövlət quruculuğu, daxili və xarici siyasətin inkişafına yardım edirdilər. Kütəvi informasiya vasitələri ilə bilik də, təcrübə də əhalinin maariflənmiş hissəsinin, ziyalıların istifadəsinə verilir, xalqın mədəniyyətinin yüksəlməsinə, demokratik dövlət və cəmiyyətin dünyagörüşü və etik dayağı olan yeni demokratik mədəniyyətin formalaşmasına xidmət edirdi. Hökumət dairələrindən başqa, demokratiya mədəniyyətinin formalaşmasına N.Nərimanov, A.Səfikürdski və bir çox başqa ziyalılar , o cümlədən, "Müsavat, "Xalqçı", Hümmət", Əhrar", "İttihad" və digər siyasi partiya nümayəndələri təsir göstərirdilər.

Siyasi mədəniyyət, Azərbaycan dövlətinin hələ gənc diplomatiyasının ölkənin dövlət müstəqilliyinin beynəlxalq aləmdə tanınması uğrunda mübarizəsi ilə təsdiq edən, xarici siyasətində də öz ifadəsini tapırdı. 1 Noyabr 1919-cu il İranın Azərbaycan müstəqilliyini tanıması və 11 Yanvar 1920-ci il tarixində Parisdə keçirilən dünya konfransında Azərbaycan müstəqilliyinin de-fakto tanınması Azərbaycan diplomatiyası siyasi fəaliyyətinin uğurlu nəticələrinin yüksək göstəricisi idi.

Beləliklə, Əsrin əvvəllərində Azərbaycanın sosial, siyasi və iqtisadi həyatında baş verən, yeni kapitalist cəmiyyətinə keçidini şərtləndirən əsaslı dəyişikliklər keyfiyyətcə yeni burjua-demokratik mədəniyyət özülünün qanunauyğun formalaşmasına yardım edirdi. Azərbaycan müsəlman Şərqində demokratiya və parlament mədəniyyətinin istehkamına çevrildi.

• *Müsəlman dünyasında ilk parlament. Bakı:Siyasət, 1998, s. 16-21.*

## MƏDƏNİYYƏT ANLAMINA ELMİ YANAŞMA VƏ AZƏRBAYCAN DİLİNDƏ KULTUROLOJİ TERMİNOLOGİYA HAQQINDA

Insanlarin təfəkkür, davranış və yaradıcı fəaliyyətində tərəqqipərvər dəyişikliklərin əldə edilməsi üçün mədəniyyətin bütöv sosial sistem, ictimai həyatın fenoman və noumeni kimi qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, canlı rus dilinin izahedici lüğətinin müəllifi Vladimir Dal, mədəniyyətin mühüm mahiyyəti kimi, emal etmək, yaymaq, təbiətin yaradılması, təbii mənbələrdən yeni, süni əşyaların yaradılması ilə yanaşı, hər şeydən əvvəl, *insanın əqli və mənəvi təhsilinin də* adını çəkirdi.

Mədəniyyət anlamına elmi yanaşma kulturologiyanın Azərbaycanın ali təhsil və elmi müəssisələrində istifadə olunan kateqorial-anlam aparatının təkmilləşməsini tələb edir. Kulturoloji tyerminlərin azərbaycan dilində istifadə olunan anlam aparatı və metodologiya haqqında məsələlər, ruhi mədəniyyətə aid bir sıra anlayış və kateqoriyaların düzgün qavranılıb, istifadəsi xüsusi əhənmiyyət kəsb edir.

Rusca-Azərbaycanca lüğətdə «нравственный», «моральный» sözləri "əxlaqi" və "mənəvi" kimi tərcümə edilmişdir. Azərbaycanca-Rusca lüğətdə "mənəvi" sözü «моральный», «духовный» kimi, "mənəvi kömək" isə «моральная поддержка» kimi göstərilir. "Mənəviyyat" ruhu, əxlaqi vəziyyəti ifadə edir; "əxlaq" davranış, «мораль», mənəviyyat; «ruh" yenə də qəlbi ifadə edir. Ərəb və fars sözləri lüğətində azərbaycan ədəbi dilində istifadə olunan "məna" mahiyyər, anlayış, ifadə, fikir , "mənəvi" ("mənavi" yox, - F.M.) isə" mənaya aid olan", maddi olmayan", "xəlaqi fikir" və ya "mahiyyətə aid olan qeyri-maddi", "əxlaqi fikir" kimi tərcümə edilmişdir. Bütün mənaların təhlili «духовная культура»-nın "ruhi mədəniyyət" kimi tərcümə edilməsinə məntiqi əsas verir.

Yuxarıda sadalanan söxlərin və onların mənalarının mqayisəli və məntiqi birgə təhlili "mənəvi mədəniyyət" ifadəsini «нравственная культура» kimi nəzərdən keçirməyə və elmi tədavülə "ruhi mədəniyyət" –in rus dilində olan « духовная культура» anlayışına adekvat olub, iki submədəniyyətin birliyini nəzərdə tutan intellektual,

əqli və mənəvi mədəniyyətin birliyindən ibarət yeni anlayışın buraxılmasına əsas verir. Mənəvi mədəniyyət dedikdə "нравственная культура» nəzərdə tutulur. Bura bədii, dini, etik mədəniyyət (мораль), yəni ətraf aləmin emosional, obrazlı, hissi olaraq mənimsənilməsi ilə bağlı submədəniyyətlər aiddir. Təəssüf ki, bu halda, mahiyyət etibatilə həm mənəvi mədəniyyət səviyyəsini, həm də bütövlükdə insanın tərəqqipərvər inkişafını müəyyən edən intellektual mədəniyyət diqqətdən kənarda qalır. Başqa sözlə, mənəvi mədəniyyət özündə intellektual mədəniyyəti ehtiva etmir. Bizim yanaşmamızın düzgünlüyünü təsdiq etmək üçün qeyd edək ki, görkəmli Vladimir Dal, mədəniyyətin mühüm mahiyyəti kimi, yalnız hasil etmək, yaymaq, təbiəti dəyişmək, təbii mənbələrdən yeni süni əşyaların yaradılmasının, o, hər şeydən əvvəl , *insanın əqli və mənəvi təhsilinin* adını çəkir.

Azərbaycan dilində mənəvi mədəniyyətin bir tərəfli təqdim edilməsi uzun müddətli tarixi dövr əraində cəmiyyətin praktik həyatında və dövlətin mədəni siyasətində milli mədəniyyət üçün strateji əhəmiyyət daşıyan intellektual mədəniyyəti diqqətdən kənarda qoyurdu. Bu, "mədəniyyət"-in "incəsənət"-lə eyniləşdirilməsinə səbəb olurdu, Azərbaycan xalqının sosial-mədəni kodunu isə incəsənət, folklor, etika, mədəni ənənələr və mədəni irsin inkişafına istiqamətlənmişdi. Zamanın tələbləri və inkişaf etmiş dövlətlərin təcrübəsindən çıxış edərək, bu gün, dövlət mədəni siyasətinin bir nömrəli prioritetini intellektual mədəniyyət etməklə bu ənənəni kökündən dəyişmək vacibdir. Elmi tədavül və ictimai praktikaya "ruhi mədəniyyət" terminini daxil etməklə, intellektual mədəniyyətin prioritet rolu və azərbaycan cəmiyyətinin siyasi və dinamik sosial-iqtisadi, informativ, texnoloji, elmi inkişafında onun aparıcı faktor olması öz düzgün qiymətini alır. Azərbaycan cəmiyyətində ruhi mədəniyyətin sosial fenomen və noumen kimi tarixi yaradıcı missiyası və ictimai dəyərinin qiymətləndirilməməsi həm xalqın intellektual-dünyagörüş səviyyəsində, həm də müasir mütəxəssislərin peşə hazırlığı səviyyəsində neqativ əks olunur. Bundan çıxış edərək, azərbaycan kulturologiyasının beynəlxalq rəqabətəqabilliyini təmin etmək üçün müstəqil ekspertlərinköməyi ilə ali məktəblərdə mütəmadi olaraq, kulturologiya müəllimlərinin attestasiyasını

keçirmək zəruridir, çünki, onların mənəvi mədəniyyət haqqında elmyanı və ya köhnəlmiş təsəvvürlər əsasında qurularaq, onun insan, cəmiyyət və dövlətin inkişafındakı dəyişdirici imkanları məhdudlaşdırılır.

Mədəniyyətin inkişafının obyektiv qanunauyğunluqlarına düzgün nəzərlə baxmaq və kulturologiyanın anlam-kateqorial aparatının təkmilləşdirilməsi Azərbaycanda kulturoloji elm və təhsilin effektivliyinin artmasına, onun dünya elminin ön planına keçməsinə yardım edəcəkdir.

23 noyabr 2004-cü il

## TÖVSİYYƏ OLUNAN ƏDƏBİYYAT

**Rus dilində.**

1. Абасов Али. Проблемы истории, теории и методологии познания. Баку, 2001.
2. Аббасгулу Ага Бакиханов: Сочинения, записки, письма. Баку, 1983.
3. Агеев А.И. Проблемы собственности и культуры. Москва, 1991.
4. Агости Э.П.,Эктор П.: Нация и культура. Москва.1963.
5. Адам Смит. Исследование о причинах богатства народов. В 2-х томах, Москва, 1935.
6. Аджеми Нахичевани. Баку, 1976.
7. Адмони В.Г., Сильман Т.И. Т. Манн. Очерк творчества. Ленинград, 1960.
8. Азербайджан за 60 советских лет. Баку, 1980.
9. Академия наук Азербайджанской ССР. Баку, 1976.
10. Актуальные направления совершенствования и перестройки управления в сфере культуры. Москва, 1988.
11. Актуальные проблемы культуры XX в. Мосва,1993.
12. Актуальные проблемы семиотики культуры. Тарту, 1987.
13. Александрова Е.Я., Быховская И.М. Культурологические опыты. Москва, 1996.
14. Алексеев В.П. Становление человечества. Москва, 1984.
15. Алексеев В.П. Этногенез. Москва, 1986.
16. Алиев Рафик. Государство и религия. Баку, 2004.
17. Ананьев Б.. Человек как предмет познания. Москва,1969.
18. Ананьев Б.Г. О проблемах современного человекознания. Москва, 1977.
19. Андреев Л.Г. Жан-Поль Сартр. Свободное сознание и XX век. Москва, 1994.
20. Анециферов Н.П. Пути изучения города как социально организма. Ленинград, 1925.
21. Античная цивилизация. Москва, 1973.
22. Антология мировой философии. В 4-х т.. Москва,1969.
23. Антология культурологической мысли (Сост. С.П. Мамонтов, А.С. Мамонтов). Москва, 1996.
24. Антропология и история культуры. Москва, 1993.
25. Анфицеров Н.П. Пути изучения города как социального организама. Ленинград, 1925.

26. Аристотель. О душе. Собрание сочинений в 4-х томах. Т.1. Москва, 1975.
27. Арнольдов А.И. Социализм и культура. Москва,1962.
28. Арон Р. Демократия и тоталитаризм. Москва, 1993.
29. Арсений Гулага. Кант. Москва, 1981.
30. Артановский С.Н. Историческое единство человечества и взаимное влияние культур. Ленинград,1967.
31. Артановский С.Н. На перекрестке идей и цивилизаций. Санкт-Петербург,1994.
32. Асмус В.Ф. Проблема интуиции в философии и математике. Москва, 1963.
33. Аттали Жак. На повороте нового тысячелетия. Москва, 1993.
34. Ахундов М.Д. Концепция пространства и времени: Истоки, эволюция, перспективы. Москва, 1982.
35. Ашин Г.Л. Критика современных буржуазных концепций лидерства. Москва, 1978.
36. Бабаков В. Кризисные этносы. Москва, 1993.
37. Баллер Э.А. Преемственность в развитии культуры. Москва,1969.
38. Бараш С.И. Космический «дирижер» климата и жизни на земле. Москва, 2001.
39. Барбакова К.Г., Мансуров В.А. Интеллигенция и власть. Москва, 1991.
40. Барт Р. Избранные работы. Семиотика. Поэтика. Москва, 1994.
41. Бартольд В.В. Сочинения. т.I, 1963; т.II, ч.2, 1964; т.VI. Москва, 1966.
42. Барулин В.С. Социальная философия. Общество как мир культуры. Москва,1993.
43. Бахманйар ал - Азербайджани: Ат - тахсил (Познание). Баку, 1983.
44. Бахтин М.М. Эстетика словестного творчества. Москва, 1986.
45. Бернал Дж. Наука в истории общества. Москва,1956.
46. Белик А.А. Психологическая антропология. Москва, 1993.
47. Белик. А.А. Психология религии Э. Фромма и А. Маслоу. Религии мира. 1987. Москва, 1989.
48. Белл Д. Грядущее постиндустриальное общество. Москва, 1993.
49. Белый А. Символизм как миропонимание. Москва, 1994.
50. Бенвенист Э. Общая лингвистика. Москва, 1974.

51. Бенедикт Р.Ф. Хризантема и меч: Антология культурной антропологии. Москва,1998.
52. Бергер П., Лукман Т. Социальное конструирование реальности: Трактат по социологии знания. Москва, 1995.
53. Бергсон Анри. Два источника морали и религии. Москва, 1994.
54. Бердяев Н.А. О назначении человека. Москва, 1993.
55. Бердяев Н.А. Смысл истории. Москва, 1990.
56. Бердяев Н.А. Сочинения. Москва,1994.
57. Бердяев Н.А. Философия неравенства. Москва, 1990.
58. Бердяев Н.А. Философия свободы. Смысл творчества. Москва, 1989.
59. Беспалов В.Е., Сальников В.Е. Введение в функционалистику. Свердловск, 1991.
60. Бехбутов Т.Р. Полицейский Этикет. Баку, 2005.
61. Библер Б.С. От наукоучения к логике культуры: Два философских введения в XXI век. Москва, 1991.
62. Бидерманн Г. Энциклопедия символов. Москва, 1996.
63. Блаватская Е.П. Теософский словарь. Москва, 1994.
64. Блок А. Апология истории или ремесло историка. Москва, 1973.
65. Боас Франц. Ум первобытного человека. Москва-Ленинград, 1926.
66. Бобнева М.И. Социальные нормы и регуляция поведения. Москва, 1978.
67. Бог и мировое зло. Москва, 1994.
68. Богданов А.А. Борьба за жизнеспособность. Москва, 1927
69. Богданов А.А. Культурные задачи нашего времени. Москва, 1911.
70. Боголюбова Е.В. Культура и общество. Москва,1978.
71. Бойс Мэри. Зороастрийцы. Москва, 1988.
72. Боноски Ф. Две культуры. Москва, 1978.
73. Бордийяр Ж. Система вещей. Москва, 1995.
74. Борев В.Ю., Коваленко А.В. Культура и массовая коммуникация. Москва, 1986.
75. Борев Ю. Эстетика. Москва, 1988.
76. Бородай Ю.М. Воображение и теория познания. Москва, 1966.
77. Бродель Фернан. Динамика капитализма. Смоленск, 1993.
78. Бромлей Ю. В. Очерки теории этноса. Москва, 1983.
79. Бромлей Ю. В., Подольский Р. Создано человечеством. Москва, 1984.

80. Буржуазные концепции культуры: кризис методологии. Киев, 1980.
81. Быховская И.М. Человеческая телесность в социокультурном измерении: традиции и современность. Москва, 1993.
82. Бэкон Фрэнсис. Сочинения в 2-х т. Москва,1972.
83. Васильев Л.С. История религий Востока. Москва,1983.
84. Введенский А.И. О пределах и признаках одушевления. Санкт-Петербург, 1892.
85. Вербицкий С.И. Япония на пороге XXI века. Москва,1988.
86. Вернан Ж.П. Происхождение древнегреческой мысли. Москва,1962.
87. Вертгеймер. Продуктивное мышление. Москва,1987.
88. Вебер Альфред. Избранное. Кризис европейской культуры. Санкт-Петербург, 1998.
89. Вебер М. Избранное: Образ общества. Москва, 1994.
90. Вебер М. Избранные произведения. Москва, 1990.
91. Вернадский В.И. Начало и вечность жизни. Петроград, 1922.
92. Вернадский В.И. Философские мысли натуралиста. Москва, 1988.
93. Взаимодействие культур Запада и Востока. Москва, 1987.
94. Виндельбанд В. Избранное. Дух и история. Москва, 1995.
95. Виндельбанд В. История новой философии в ее связи с общей культурой и отдельными науками. Т. 1-2. СПб., 1902-1905.
96. Винклер Г. Вавилонская культура в ее отношении к культурному развитию человечества. Москва, 1913.
97. Витгенштейн Людвиг. Логико-философский трактат. Москва, 1958.
98. Владимиров С.В., Волков В.А. Разум против догмы. Москва, 1982.
99. Власть: Очерки современной политической философии Запада. Москва, 1989.
100. Волков Г.Н. Три лика культуры. Москва, 1986.
101. Волков Г.Н. Истоки и горизонты прогресса. Москва, 1976.
102. Вольтер. Философия истории. СПб., 1868.
103. Вольфсон Л.Ф. Теория постиндустриального общества Дэниела Белла: Обзор. Москва, 1975.
104. Восток - Запад. Москва,1988.
105. Вселенная, жизнь, разум. Москва, 1973.
106. Всемирная история. в 13 т-х. Москва, 1955-1965г. 1977.1983.

107. Всемирное писание. Сравнительная антология священных текстов. Москва, 1995.
108. Вундт В.М. Душа и мозг. Санкт-петербург, 1984.
109. Вундт В.М. Индивидуум и общество. Санкт-Петербург, 1896.
110. Вышеславцев Б.П. Кризис индустриальной культуры. Нью-Йорк, 1953.
111. Гадамер Х.-Г. Истина и метод: основы философской герменевтики. Москва, 1988.
112. Гаджибабаев С.Ш.: Культура Азербайджана в период первой русской революции. Баку, 1990.
113. Гайденко П.П. Экзистенциализм и проблема культуры. Москва, 1963.
114. Гасанли С. Проблемы веры и знания в средневековой религиозно-философской мысли Азербайджана (XIII-XVIвв.). Баку,1992.
115. Гачев Г.Д. Национальные образы мира. Общие вопросы. Москва, 1988.
116. Гегель В.Ф. Феноменология духа.Соч.т.IV. Москва,1959.
117. Гегель В.Ф. Философия истории. Введение. Соч.,т.8. Москва-Ленинград,1935.
118. Гейбуллаев А. К этногенезу азербайджанцев. Баку. 1991.
119. Геккель Э. Мировые загадки. С.Петербург, 1906.
120. Генон Р. Кризис современного мира. Москва,1991.
121. Гердер И.Г. Идеи к философии истории человечества. Москва, 1997.
122. Гершензон М.О. Тройственный образ совершенства. Томск, 1994.
123. Гете И.В. Избранные философские произведения. Москва, 1964.
124. Геюшев З.Б. Этическая мысль в Азербайджане. Баку, 1968.
125. Глобальные проблемы современности. Москва, 1981.
126. Гончаренко Н.В. Диалектика прогресса культуры. Киев, 1987.
127. Гончаренко Н.В. Гений в искусстве и науке. Москва, 1991.
128. Гречко П.К. Концептуальные модели истории. Москва, 1995.
129. Григорьева Т.П. Дао и логос (встреча культур). Москва, 2002.
130. Губман В.Л. Западная философия культуры XX века. Тверь, 1997.
131. Гумилев Л. Древние тюрки. Москва, 1967.
132. Гумилев Л. Тысячелетия вокруг Каспия. Баку, 1992.

133. Гумилев Л.Н. Ритмы Евразии: эпохи и цивилизации. Москва, 1993.
134. Гумилев Л.Н. Этногенез и биосфера Земли. Ленинград, 1990.
135. Гумилев Л.Н. Этносфера: история людей и история природы. Москва, 1993.
136. Гуревич А.Я. Исторический синтез и школа «Анналов». Москва, 1993.
137. Гуревич П.С. Культурология. Москва, 1999.
138. Гусев. Культура и цивилизация. Москва,1989.
139. Гусейнов А., Иррлитц Г. Краткая история этики. Москва, 1987.
140. Гусейнов Г. Из истории общественной и философской мысли в Азербайджане XIX века. Баку,1949.
141. Гусенов А.А. Золотое правило нравственности. Москва, 1988.
142. Гуссерль Эдмунд. Собрание сочинений. Москва, 1994.
143. Гуссерль Эдмунд. Философия как строгая наука. Новочеркасск, 1994.
144. Гэлберт Дж. Новое индустриальное общество. Москва, 1969.
145. Давидович В.Е., Жданов Ю.А. Сущность культуры. Ростов на Дону, 1979.
146. Давидюк Г.П., Бобровский В.С. Проблемы «массовой культуры» и «массовых коммуникаций». Минск, 1972.
147. Давыдов Ю.Н., Роднянская И.Б. Социология контркультуры. Москва, 1980.
148. Дадашева С.С., Алиева Е.А. Основы моделирования исторических культур. Баку, 2005.
149. Дадашзаде А. История азербайджанской литературы. Баку, 1971.
150. Данилевский Н.Я. Россия и Европа. Москва, 1991.
151. Декарт Р. Избранные произведения, Москва. 1950.
152. Делёз. Ж. Логика смысла. Москва, 1995.
153. Де-Роберти Е.В. Политико-экономические этюды. Санкт-Петербург, 1989.
154. Де-Роберти Е.В. Социология. Санкт-Петербург, 1880.
155. Джеймс Уильям. Прагматизм. Санкт-Петербург. 1910.
156. Диалоги. Москва, 1979.
157. Дильтей Вильгельм. Описательная психология. Санкт-Петербург, 1996.
158. Добров Г. Наука о науке. Киев, 1989.

159. Добров Г. Прогнозирование науки и техники. Москва, 1977.
160. Дои Такэо, Оцука X., Кавасима Т. Амаэ то сякай гаку («Амаэ» и социальные науки). Токио, 1976.
161. Донини А. Люди, идолы и боги. Москва, 1966.
162. Древние цивилизации. Москва, 1989.
163. Дьюи Джон. Свобода и культура. Лондон, 1968.
164. Дьюи Джон. Школа и общество. Москва, 1907.
165. Дюркгейм Э. О разделении общественного труда: метод социологии. Москва, 1991.
166. Евразия: Исторические взгляды русских эммигрантов. Москва, 1992.
167. Емельянов Ю.Н. Введение в культурантропологию. Санкт-Петербург, 1992.
168. Ерасов Б.С. Культура, религия и цивилизация на Востоке. Москва, 1990.
169. Ерасов Б.С. Социальная культурология. Москва, 1996.
170. Еремин С.Н., Семенов Е.В. Наука и образование в структуре НТР. Новосибирск, 1986.
171. Ефримов Ю.И., Громов И.А. Человеческий фактор и культура. Ленинград, 1989.
172. Ефремов Н.Н. Об основаниях синтеза аспектного знания в культурологии. Ростов на Дону, 1981.
173. Ефремов С.К., Иванова Е.Л. Методические рекомендации по преобразованию системы управления развитием сферы культуры на региональном уровне. Москва, 1991.
174. Зайцев В.И. Управление в Японии. Организация и методы. Москва, 1989.
175. Запад и Восток. Традиции и современность. Москва, 1993.
176. Заратустра. Учение огня. Гаты и молитвы. Москва, 2005.
177. Здравомыслов А.Г. Потребности. Интересы. Ценности. Москва, 1986.
178. Зейгарник Б.В. Теории личности в зарубежной психологии. Москва, 1982.
179. Зеньковский В.В. Социальное воспитание, его задачи и пути. Москва, 1918.
180. Зиммель Георг. Проблемы философии истории. Москва, 1898.
181. Зиммель. Конфликт современной культуры. Петроград,1923.
182. Зинин В., Зайцева Л. Ресурсный потенциал сферы культуры. Москва, 1989.

183. Злобин Н.С. Культура и общественный прогресс. Москва, 1973.
184. Злобин Н.С. Соотношение культуры, экономики и политики. Москва,1966.
185. Злобин Н. Культурные смыслы науки. Москва, 1997.
186. Ибн Сина. О любви. Тбилиси, 1976.
187. Иванов-Разумник Р.В. К вопросу об интеллигенции. СПб., 1908.
188. Иванов-Разумник Р.В. Что такое интеллигенция. Берлин, 1920.
189. Игнатенко А.А. В поисках счастья. Москва, 1989.
190. Игнатенко А.А. Ибн-Халдун. Москва, 1980.
191. Идеология и Культура стран Юго-восточной Азии. Москва, 1973.
192. Из истории культуры средних веков и Возрождения. Москва, 1976.
193. Иконникова С.Н. Диалог о культуре. Ленинград, 1987.
194. Иконникова С.А. История культурологии: Идеи и судьбы. Санкт-Петербург, 1996.
195. Ильенков Э.В. Философия культуры. Москва,1991.
196. Индивидуальность и способности. Москва, 1994.
197. Ион Э. Проблемы культуры и культурная деятельность. Москва, 1969.
198. Ионин Л.Г. Социология культуры. Москва, 1996.
199. Исида Эйитиро. Нихон бунка рон (Японская культура). Токио, 1969.
200. Исида Эйитиро. Тодзай се (Восток и Запад). Токио, 1965.
201. Ислам: Религия, общество, государство. Москва,1984.
202. Историческая география Азербайджана. Баку, 1967.
203. История Азербайджана. В 3-х томах. Баку, 1958-64.
204. История древнего Востока. В 2-х частях. Москва,1988.
205. История древнего мира. Москва, 1981.
206. История дипломатии. В 3-х т. Москва,1941-1945.
207. История международных отношений. В 3-х т. Москва, 1961-1964.
208. История политических учений. Москва, 1960.
209. История стран зарубежной Азии в средние века. Москва,1970.
210. История человечества. Т.5. С.Петербург, 1896.
211. История Японии. Москва, 1988.

212. История Азербайджана (под ред. проф. И.. Алиева). Баку, 1995.
213. История цивилизации в Англии Т.Бокля.С.Петербург,1895.
214. Изнага Сабуро. История японской культуры. Москва,1972.
215. Й. Хейзинга: Две концепции кризиса культуры. Москва, 1989.
216. Йолон П.Ф., Крымский С.Б. Парахонский Б.А. Рациональность в науке и культуре. Киев, 1989.
217. К вопросу об интеллигенции. СПб., 1908.
218. Крамер. История начинается в Шумере. Москва, 1965.
219. Красная книга культуры. Москва, 1989.
220. Крымский А.Е. Низами и его современики. Баку, 1981.
221. Караев Я. Мирза Алекпер Сабир. Баку, 1987.
222. Каган М.С. Философия культуры. СПб., 1996.
223. Каган М.С. Человеческая деятельность. Москва, 1974.
224. Каган М.С., Хилтухина Е.Г. Проблема «Запад-Восток» в культурологии. Взаимодействие художественных культур. Москва, 1994.
225. Камю Альбер. Творчество и свобода. Москва, 1990.
226. Кант и кантианцы. Москва, 1978.
227. Кантор К.М. История против прогресса: Опыт культурно-исторической генетики. Москва, 1992.
228. Карнеги Дейл. Кака завоевывать друзей и оказывать влияние на людей. Москва, 1989.
229. Карцева Е.Н. Массовая культура в США и проблема личности. Москва,1974.
230. Кассирер Эрнст. Избранное: Опыт о человеке. Москва,1993.
231. Кассирер Эрнст. Опыт о человеке. Проблемы человека в западной философии. Москва,1988.
232. Кассирер Э. Познание и действительность. Понятие о субстанции и понятие о функции. СПб., 1912.
233. Касымжанов А., Кельбутанов А. О культуре мышления. Москва, 1981.
234. Каутский К. Происхождение христианства. Москва, 1990.
235. Кашлев Ю.Б. Международное сотрудничество и культурные связи. Москва,1975.
236. Керам К. Боги, гробницы, ученые. Москва, 1986.
237. Кертман Л.Е. История культуры стран Европы и Америки. Москва,1987.

238. Келле В.Ж. Наука как компонент социальной системы. Москва,1988.
239. Кириллин В.А. Страницы истории науки и техники. Москва,1986.
240. Кириллов В.И., Старченко А.А. Логика. Москва, 1982.
241. Ким М.П. Проблемы развития социалистической культуры. Москва,1978.
242. Кини А.Г. Динамика социально-политического действия в традиционном обществе. Ислам. Москва, 1996.
243. Ключевский В.О. Сочинения в 9-ти томах. Москва,1987.
244. Клягин Н.В. Происхождение цивилизации, социально-философский аспект. Москва, 1996.
245. Князева Е.Н., Курдюмов С.П. Основания синергетики. Санкт-Петербург, 2002.
246. Коган Л.Н., Ханова О.В. Культура в исловиях НТР. Саратов, 1987.
247. Коган Л.Н. Социология культуры. Екатеринбург,1993.
248. Коган Л.Н. Теория культуры.Екатеринбург,1993.
249. Кожинов В.В. Загадочные страницы истории XX века. Москва, 1995.
250. Козиков И.А. Диалектика социальной и научно-технической революции. Москва, 1987.
251. Козловская П. Кульура постмодерна. Москва, 1997.
252. Кон Йонас. Руководящие мыслители. Берлин, 1923.
253. Кондрашов А.П., Комарова И.И. Великие мысли великих людей. Москва, 2002.
254. Конрад Н.И. Запад и Восток. Москва, 1972.
255. Концепция самоорганизации в исторической перспективе. Москва, 1994.
256. Корнилов М.Н. Японская национальная психология. Москва, 1981.
257. Кофи А. Аннан Партнерство во имя всемирного сообщества. Нью-Йорк, 1998.
258. Кравченко А.И. Культурология. Москва, 2001.
259. Краткая всемирная история. В 2-х книгах. Москва, 1966.
260. Краткая история США. Москва,1993.
261. Кричевский Р.Л. Организационная культура и предпринимательство. Санкт-Петербкрг, 1994.
262. Кругликов В.А. Образ «человека культуры». Москва, 1988.

263. Крымский С.Б., Парахонский В.С., Мейзерский В. Эпистемиология культуры. Киев,1993.
264. Кузнецов В.Н. Французское неогегельянство. Москва, 1982.
265. Кукаркин А.Б. Буржуазная массовая культура. Москва, 1985.
266. Кули - заде З.А. Из истории азербайджанской философии VII-XVI вв. Баку, 1992.
267. Кули - заде З.А. Теоретические проблемы истории культуры Востока и низамиведение. Баку, 1987.
268. Культура в общественной жизни. Москва, 1976.
269. Культура в общественной системе социализма. Москва, 1984.
270. Культура и личность в капиталистическом обществе. Москва, 1986.
271. Культура и общественная мысль. (Античность. Средние века. Эпоха Возрождения). Москва, 1988.
272. Культура и общество в эпоху становления наций. Москва, 1974.
273. Культура и политика в странах Азии и Африки. Москва, 1986.
274. Культура народов Америки. Ленинград, 1985.
275. Культура средних веков и нового времени. Москва,1987.
276. Культура Советского Азербайджана. Баку, 1980.
277. Культура эпохи Возрождения и Реформация. Ленинград, 1981.
278. Культура, религия, атеизм. Москва,1991.
279. Культура, человек и картина мира. Москва, 1987.
280. Культура в свете философии. Тбилиси, 1979.
281. Культура в советском обществе. Проблемы и перспективы развития. Москва, 1988.
282. Культура в странах Азии и Африки: Вопросы теории и практики. Москва, 1989.
283. Культура: теории и проблемы. Москва, 1995.
284. Культурная антропология. Санкт-Петербург, 1996.
285. Культурная деятельность: Опыт социологического исследования. Москва, 1981.
286. Культурная политика в Азербайджанской Республике. Баку, 2001.
287. Культурная среда и ее освоение. Москва, 1988.
288. Культурология (Под ред. А.А.Радугина). Москва,1997.
289. Культурология (Под ред. В.И.Добрынина), Москва,1993.
290. Культурология сегодня: основы, проблемы, перспективы. Москва,1993.

291. Культурология XX век. Энцикопедия. В 2-х т. Санкт-Петербург, 1998.
292. Культурология. История мировой культуры (Под ред. проф. Марковой А.А.). Москва,1998.
293. Культурология. Основы теории и истории культуры. Учебное пособие. Санкт-Петербург, 1996.
294. Культурология. XX век. Антология. Москва, 1995.
295. Культурология.Учебное пособие и хрестоматия для студентов (Под ред. проф. Драча Г.В.). Ростов-на-Дону,1996.
296. Кун Т. Структура научных революций. Москва, 1977.
297. Курдюмов П.С. Законы эволюции и самоорганизации сложных систем. Москва, 1994.
298. Лакан Ж. Функция и поле речи и языка в психоанализе. Москва, 1995.
299. Ласло Маккаи. Мир ренессанса. Будапешт, 1984.
300. Ле Гофф Жак. Цивилизация средневекового Запада. Москва,1991.
301. Леви-Брюль. Первобытное мышление. Москва, 1930.
302. Левин Д.Б. Дипломатия. Москва, 1962.
303. Леви-Стросс К. Первобытное мышление. Москва, 1994.
304. Леви-Стросс К. Структурная антропология. Москва, 1985.
305. Левяш И.Я. Культурология. Курс лекций. Минск,1998.
306. Лекторский В.А. Субъект, объект, познание. Москва, 1980.
307. Лем С. Сумма технологии. Москва, 1968.
308. Ленин В.И. о культуре. Москва, 1980.
309. Ленин В.И. о культурной революции. Москва, 1967.
310. Леонтьев А.Н. Человек и культура. Москва,1961.
311. Липперт Ю. История культуры. Санкт Петребург, 1908.
312. Лихачев Д.С. Декларация прав культуры. Проект. Москва, 1999.
313. Лихачев Д.С. Избранные работы: В 3 т., Ленинград, 1987.
314. Лихачев Д.С. Прошлое - будущему. Ленинград, 1985.
315. Лихачев Д.С. Проблемы изучения культурного наследия. Москва, 1985.
316. Логика научного познания. Москва, 1987.
317. Лосев А.Ф. Философия. Мифология. Культура. Москва, 1991.
318. Лотман Ю.М. Культура и взрыв. Москва, 1992.
319. Магический кристалл: Магия глазами ученых и чародеев. Москва, 1994.

320. Майоров А. Этика христианства. Москва,1987.
321. Маковельский А.О. Авеста. Баку, 1960.
322. Максудов Ф., Мамедбейли. Мухаммед Насиреддин Туси. Баку,1981.
323. Малюга Ю.Я. Культурология. Учебное пособие. Москва,1998.
324. Мамардашвили М.К. Как я понимаю философию. Москва, 1992.
325. Мамедов А.С. Свободомыслие просветителей Азербайджана. Баку,1987.
326. Мамедов Ф.Т. Культурология. Баку, 2002.
327. Мамфорд Льюис. Техника и природа человека. Новая технократическая волна на Западе. Москва, 1986.
328. Мандельштам О.Э. Слово и культура. Статьи. Москва, 1987.
329. Манхейм Карл. Диагноз нашего времени. Москва, 1994.
330. Маргарет Мид. Культура и мир детства. Москва, 1988.
331. Маркузе Герберт. Одномерный человек. Москва, 1994.
332. Маркузе Герберт. Эрос и цивилизация. Харьков, 1994.
333. Мартинелли А. Рынки, правительства и глобальное управление. Москва, 2003 .
334. Массон В. Первые цивилизации. Ленинград. 1989.
335. Массэ А. Ислам. Москва, 1963.
336. Махалов В.А. Культура и человеческая целостность. Киев, 1984.
337. Махлин В.Л. Я и другой. К истории диалогического принципа в философии XX века. Москва, 1997.
338. Межуев В. Культура и история. Москва, 1977.
339. Межуев В. Прооблемы философии культуры. Москва.1984.
340. Мейер А.А. Философские сочинения. Париж, 1982.
341. Мельников А.П., Силиванчик П.П. Научное управление культурой в социалистическом обществе. Минск, 1988.
342. Мензис А. История религии. СПб., 1897.
343. Мень А.В. Культура и духовное возрождение. Москва, 1992.
344. Мень А.В. Мировая духовная культура. Москва, 1995.
345. Мережковский Д.С. В тихом омуте. Статьи и исследования разных лет. Москва, 1991.
346. Мерло-Понти М. В защиту философии. Москва, 1996.
347. Мерло-Понти. Око и дух. Москва, 1992.
348. Мертон Р.К. и др. Социология сегодня. Проблемы и перспективы. Москва, 1965.

349. Методологические проблемы изучения культуры. Ленинград, 1978.
350. Методологические проблемы теоретико-прикладных исследований культуры. Москва, 1988.
351. Методология и методы исследования культуры. Ленинград, 1984.
352. Механизм культуры. Москва, 1990.
353. Мехти Ниязи. Средневековая мусульманская культура. Баку, 1996.
354. Мец А. Мусульманский Ренессанс. Москва, 1973.
355. Мир через культуру. Москва, 1990.
356. Мирза Казем – бек. Избранные произведения. Баку, 1985.
357. Мирза Фатали Ахундов. Избранные философские произведения. Баку, 1982.
358. Миллс Р. Властвующая элита. Москва, 1959.
359. Милтс А.А. Гармония и дисгармония личности. Москва, 1990.
360. Милюков П.Н. Из истории русской интеллигенции. Сб. статей и этюдов. СПб., 1902.
361. Мифологический словарь. Москва, 1991.
362. Михайлов А.А. Современная философская герменевтика. Минск, 1984.
363. Михайлов А.Я. Язык культуры. Москва, 1997.
364. Михайлова Л.И. Социология культуры. Москва, 1999.
365. Модернизм: Анализ и критика основных направлений. Москва, 1987.
366. Моисеев Н.Н. Алгоритмы развития. Москва, 1987.
367. Моиссев Н.Н. Человек и ноосфера. Москва, 1990.
368. Моль А. Социодинамика культуры. Москва, 1973.
369. Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу. Москва,1976.
370. Морфология культуры. Структура и динамика. Москва, 1994.
371. Мосс Марсель. Общества, обмен, личность. Москва, 1996.
372. Мурзов К.И. Управление и общество. Москва, 1976.
373. Мунье Эмманюэль. Надежда отчаявшихся. Москва, 1995.
374. Мунье Эмманюэль. Персонализм. Москва, 1992.
375. Муравьев В.Н. Овладение временем как основная задача организации труда. Москва, 1924.
376. Мы живем среди людей. Кодекс поведения. Москва, 1989.

377. Мышление, когнитивные науки, искусственный интеллект. Москва, 1988.
378. Мэри Пат Фишер. Живые религии. Москва, 1967.
379. Наджафов Э.А. Соотношение культуры и цивилизации в общественном развитии. Баку, 2000.
380. Наканэ Тиэ. Человеческие отношения в вертикальном обществе. Токио, 1966.
381. Нариман Нариманов. Избранные произведения, т.1. Баку, 1988.
382. Народ и интеллигенция. Москва, 1990.
383. Нарта М. Теория элит и политика. Москва, 1978.
384. Насибзаде Н. Азербайджанская демократическая республика. Баку.1990.
385. Насиреддин Туси. Баку, 1981.
386. Наторп П. Культура народа и культура личности. СПБ,1912.
387. Наука и будущее. Москва, 1990.
388. Наука и ее место в культуре. Новосибирск, 1990.
389. Наука и культура. Москва, 1984.
390. Научно-техническая революция, человек, его природная и социальная среда. Ленинград, 1977.
391. Научные революции в динамике культуры. Минск, 1987.
392. Несмелов В.И. Наука о человеке. Т. 1-2., Казань, 1905-1906.
393. Неру Джавахарлал. Взгляд на Всемирную историю. Москва, 1989.
394. Низами Гянджеви. Сочинения в 3-х томах. Баку, 1990.
395. Ницше Ф. Воля к власти. Опыт переоценки всех ценностей. Москва, 1995.
396. Ницше Фридрих. К генеалогии морали. Фридрих Ницше. Сочинения, т. 2, Москва, 1990.
397. Новейшие течения и проблемы философии в ФРГ. Москва, 1978.
398. Новогородцев П.И. Нравственная проблема в философии Канта. Москва, 1903.
399. Новогородцев П.И. Об общественном идеале. Москва, 1991.
400. Новоселов В.И. Элементы культуры управления. Москва, 1971.
401. Новотный О., Фишер Я. Экономика культуры. Москва, 1987.
402. Организационно-экономические преобразования в сфере культуры: проблемы и перспективы. Москва, 1990.

403. Орлов В.Н. Культура и научно-технический прогресс. Ленинград, 1974.
404. Образование и культура: История и современность (методологический аспект). Томск, 1989.
405. Омаров А. Социальное управление: некоторые вопросы теории и практики. Москва, 1980.
406. Опыт словаря нового мышления. Москва, 1989.
407. Орлов Г.П. Свободное время – условие развиия человека и мера общественного богатства. Свердловск, 1989.
408. Орлова Э.А. Введение в социальную и культурную антропологию. Москва, 1994.
409. Ортега-и-Гассет Х. Дегуманизация искусства. Москва, 1991.
410. Ортега-и-Гассет. Восстание масс. Ортега-и-Гассет Х. Философия. Эстетика, Культура. Москва, 1993.
411. Основы науковедения. Москва,1985.
412. Основы политологии. Москва, 1992.
413. Оствальд Вильгельм. Философия природы. СПб., 1903.
414. Оствальд Вильгельм. Энергия и ее превращения. СПб., 1890.
415. Очерки по истории и теории социологии XX века. Москва, 1994.
416. Правовые системы современности. Москва, 1990.
417. Проблемы управления культурным строительством. Москва,1980.
418. Проблемы Азербайджанского ренессанса. Баку, 1984.
419. Проблемы истории и теории мировой культуры. Москва, 1974.
420. Проблемы системного анализа развития культуры. Москва, 1984.
421. Проблемы теории культуры. Москва, 1980.
422. Паппэ Я.Ш., Шишкин С.В. Перестройка в сфере культуры: переход к новой парадигме социально-экономического управления. Москва, 1990.
423. Парсонс Т. Система координат действия, общая теория систем действия: культура, личность и место социальных систем (Американская социологическая модель). Москва,1994.
424. Петров А.К. Язык, знак, культура. Москва,1991.
425. Платон и его эпоха. Москва,1979.
426. Платон. Государство. Кн.6. Платон Собрание сочинений, в 4-х т. Т.3. Москва, 1994.
427. Плутарх. Избранные жизнеописания. Москва,1987.

428. Поликарпов В.С. Лекции по культурологии. Москва, 1997.
429. Политическая культура: теории и национальные модели. Москва, 1994.
430. Полищук В.И. Культурология. Москва, 1998.
431. Поляков Е.И. Николай Рерих. Москва, 1985.
432. Поршнев Б.Ф. О начале человеческой истории. Москва, 1974.
433. Пригожин И.Р. От существющего к возникающему. Москва, 1985.
434. Пригожин И.Р. Порядок из хаоса. Москва, 1986 (совместно с И.Стенгерсом).
435. Проблемы методологии системного исследования. Сб. ст. Москва, 1979.
436. Проблемы управления развитием культуры. Ленинград, 1978.
437. Программа базового курса по культурологии. Москва, 1996.
438. Психологические законы эволюции народов. СПб., 1906.
439. Психология народов и масс. СПб., 1905.
440. Психология. Москва, 1974.
441. Пуанкаре А. О науке. Москва, 1990.
442. Пучков П.И. Современная география религий. Москва, 1975.
443. Пэнто.Р., Гравитц М., Методы социологических наук. Москва, 1972.
444. Работы Лесли Уайта по культурологии: (Сб. переводов). Москва, 1996.
445. Радаев В.В., Шкаратан О.И. Социальная стратификация. Москва, 1996.
446. Раджабли Али. Нумизматика Азербайджана. Баку, 1997.
447. Раду Д. Идея культурного прогресса в современном мире. Москва, 1984.
448. Радугин А.А., Радугин К.А. Введение в менеджмент: социология организаций и управления. Воронеж, 1995.
449. Разлогов К.Э. и др. Дар или проклятие? Проблемы массовой культуры. Москва, 1994.
450. Разлогов Кирилл. Культурология: от социального запроса к общественному признанию. Москва, 1999.
451. Размышления и афоризмы французских моралистов XVI - XVIII веков. Ленинград, 1987.
452. Смольская Е.П. «Массовая культура»: развлечение или политика?. Москва, 1986.
453. Ратцель Фридрих. Народоведение. Т. 1-2. СПб., 1903.

454. Религия и общественная мысль стран Востока. Москва,1974.
455. Рзаев А.К. Мухаммед Али Мирза Казем - бек. Баку, 1981.
456. Рзаев А.К. Очерки об ученых и мыслителях Азербайджана XIX века. Баку, 1969.
457. Рикёр Поль. Герменевтика. Этика. Политика, Москва, 1995.
458. Риккерт Г. Границы естественно-научного образования понятий. СПб., 1903.
459. Риккерт Г. Науки о природе и науки о культуре. СПб., 1911.
460. Риккерт Г. Философия жизни. Петроград, 1922.
461. Риккерт Г. Философия истории. СПб., 1908.
462. Розанов В.В. Религия, Философия, Культура. Москва, 1992.
463. Розин В. Культуроология. Учебник. Москва,1998.
464. Розин В.М. Культура и проблема ее изучения. Методологические проблемы теоретико-прикладных исследований культуры. Москва, 1988.
465. Рубинштейн С.Л. Основы общей психологии. В 2 т. Москва, 1989.
466. Рубинштейн С.Н. Бытие и сознание. Москва, 1957.
467. Рубинштейн С.Н. О мышлении и путях его исследования. Москва, 1958.
468. Руднев В.П. Словарь культуры XX в. (Ключевые понятия и тексты). Москва, 1991.
469. Руководство по методологии культурно-антропологических исследований. Москва, 1991.
470. Руссо Жан Жак. Избранные сочинения. В 3-х т. Москва, 1961.
471. Рутенбург В.И. Культура эпохи Возрождения и Реформация. Лениград, 1986.
472. Руткевич М.Н., Рубина Л.Я. Общественные потребности, система образования и молодежь. Москва, 1988.
473. Савельев В.В. Очерки прикладной культурологии: Генезис, концепции, современная практика. Ч. 1. Москва, 1993.
474. Сагадеев А.В. Ибн-Рушд. Аверроэс. Москва, 1973.
475. Самосознание европейской культуры XX века: мыслители и писатели Запада о месте культуры в современном обществе. Москва,1991.
476. Сафонов Б.В. Эстетическое сознание и духовный мир личности. Москва, 1984.
477. Семенов Н.Н. Наука и общество. Москва, 1973.
478. Семенов Ю.И. На заре человечской истории. Москва, 1989.

479. Сепир Эдвард. Избранные труды по языкознанию и культурологии. Москва, 1993.
480. Сильвестров В.В. Философское обоснование теории и истории культуры. Москва,1990.
481. Словарь по этике. Москва, 1981.
482. Смелзер Н. Социология. Москва, 1994.
483. Смирнов К.Н. Фауст против Мефистофеля: Диалоги и размышления и нравственные проблемы НТП. Москва, 1987.
484. Сноу Ч. Две культуры. Москва, 1973.
485. Современники о Бакиханове. Баку, 1975.
486. Современники о Зардаби. Баку, 1985.
487. Совершенствование управления развитием культуры. Свердловск,1981.
488. Современная НТР. Москва, 1970.
489. Соколов Э.В. Культура и личность. Ленинград, 1972.
490. Соколов Э.В. Культурология: Очерки теорий культуры. Москва, 1994.
491. Соколов Э.В. Понятие, сущность и основные функции культуры. Ленинград, 1989.
492. Соловьева Г.Г. Негативная диалектика (Два образа критической теории Т.В. Адорно). Алма-Ата, 1990.
493. Сорокин П.А. Человек. Цивилизация. Общество. Москва, 1992.
494. Социальная фиилософия франкфуртской школы. Москва, 1978.
495. Социальное проектирование в сфере культуры. Москва, 1987.
496. Социально-экономические проблемы развития культуры. Москва, 1989.
497. Социология культуры. В 2-х т. Москва, 1975.
498. Спицнадель В. Н. Основы системного анализа. Санкт-Петербург, 2000.
499. Стиль жизни личности. Киев, 1982.
500. Сто великих мыслителей. Москва, 2002.
501. Столяров И.А. Управление культурой: организационно-экономический механизм. Москва,1989.
502. Стоун И. Происхождение. Москва,1985.
503. Структура культуры и человека в современном мире. Москва, 1987.

504. Сумбатзаде А.С. Азербайджанцы: этногенез и формирование народа. Баку, 1990.
505. Супатаев М. Культурология и право. Москва, 1998.
506. Суханов И.В. Обычаи, традиции и преемственность поколений. Москва, 1976.
507. Сущность культуры. Ростов на Дону, 1979.
508. Тайлор Э.Б. Введение к изучению человека и цивилизации (Антропология). Москва, 1924.
509. Тайлор Э.Б. Превобытная культура. Москва, 1989.
510. Тард Г. Социальная логика. Москва, 1996.
511. Тарский А. Введение в логику и методологию дедуктивных наук. Москва, 1948.
512. Тейяр де Шарден П. Божественная среда. Москва, 1994.
513. Тейяр де Шарден П. Феномен человека. Москва, 1987.
514. Теория государства и права. Москва, 1967.
515. Технология власти (философски-политический анализ). Москва, 1995.
516. Тиллих Пауль. Избранное: Теология культуры. Москва, 1995.
517. Тойнби А. Постижение истории. Москва, 1991.
518. Тойнби А. Цивилизация перед судом истории. СПб., 1996.
519. Токарев С.А. Разграничительные и объединительные функции культуры. Москва, 1973.
520. Токарев С.А. Религии в истории народов мира. Москва, 1976.
521. Толстых В.И. Образ жизни: понятие, реальность, проблемы. Москва, 1975.
522. Томилов В.В. Организационная культура и предпринимательство. Санкт-Петербург, 1994.
523. Тоффлер Олвин. Смещение власти: знание, богатство и принуждение на пороге XXI века. Москва, 1991.
524. Тоффлер Олвин. Футуршок. Москва, 1993.
525. Тощенко В.П. Философия культуры диалога. Новосибирск, 1993.
526. Традиционная народная культура: Сб. информационно-аналитических материалов. Москва, 1995.
527. Традиция в истории культуры. Москва, 1978.
528. Трубецкой Е.Н. Смысл жизни. Москва, 1994.
529. Трубецкой Н. С. История. Культура. Язык. Москва, 1995.
530. Тульчинский Г.Л. Проблема осмысления действительности. Ленинград, 1986.

531. Тураев С. От Гуманизма к Просвещению. Москва, 1980.
532. Туровский М.Б. Философсике основания культурологии. Москва, 1967.
533. Тэнасе А. Культура и религия. Москва, 1975.
534. Тэрнер В. Символ и ритуал. Москва, 1986.
535. Уварова Л.И. Наука как производительная сила общества. Москва,1982.
536. Уледов А. Духовная жизнь общества. Москва, 1980.
537. Уотсон Дж. Психология как наука о повденеии. Москва-Ленинград, 1926.
538. Управление персоналом. Москва, 2002.
539. Утченко С.Л. Цицерон и его время. Москва,1986.
540. Фараджева Фидан. Гендер и культура. Курс лекций. Баку, 2003.
541. Фараджева Фидан. Гендерная проблематика в культурной антропологии. Учебное пособие. Баку, 2005.
542. Фарман И.П. Воображение в теории познания. Москва, 1994.
543. Фейнберг Е.Л. Две культуры: Интуиция и логика в искусстве и науке. Москва, 1992.
544. Филиппов Ф.Р. Социология образования. Москва, 1980.
545. Философия и история культуры. Москва,1985.
546. Философия культурной и социальной истории нового времени. СПб., 1893.
547. Фишер Р., Юри У. Путь к согласию, или переговоры без поражения. Москва, 1992.
548. Флиер А.Я. Культурологенез. Москва, 1996.
549. Флоренский П.А. Столп и утверждение исины. Т. 1-2. Москва, 1990.
550. Франк С.Л. Духовные основы общества. Москва, 1992.
551. Франк С.Л. Душа человека. Москва, 1917.
552. Фрейд З. Психоанализ. Религия. Культура. Москва, 1992.
553. Фромм Э. Бегство от свободы. Москва, 1990.
554. Фромм Э. Душа человека. Москва, 1992.
555. Фромм Э. Психоанализ и этика. Москва, 1993.
556. Фрэзэр Д.Д. Золотая ветвь. Москва, 1986.
557. Фуко М. Слова и вещи: Археология гуманитарных наук. СПб., 1994.
558. Хайдеггер М. Время и бытие. Статьи и выступления. Москва, 1993.

559. Хайдеггер М. Работы и размышления разных лет. Москва, 1993.
560. Хейзинга Й. Homo Iudens. В тени завтрашнего дня. Москва, 1992.
561. Хижняк И.А. США: государство, бизнес и культура 60-80г. XX столетия. Киев, 1986.
562. Хоруженко К. Культурология. Энциклопедический словарь. Ростов на Дону,1997.
563. Христос и культура. Избранные труды Х.Ричарда Нибура и Райнхольда Нибура. Москва, 1996.
564. Ценности культуры и современная эпоха. Москва, 1990.
565. Цивилизация и культуры. Россия и Восток: цивилизованные отношения. Вып. 1-3. Москва, 1994, 1995, 1997.
566. Чавчавадзе Н.З. Культура и ценности. Тбилиси, 1984.
567. Человек и культура. Индивидуальность в истории культуры. Москва, 1990.
568. Человек и мир в японской культуре. Москва, 1985.
569. Человек и природопользование. Москва, 1992.
570. Человек и человечество: духовные традиции и перспективы. Москва, 1990.
571. Черри К. Человек и информация. Москва, 1972.
572. Швейцер А. Культура и этика. Москва, 1973.
573. Швейцер Альберт. Упадок и возрождение культуры: Избранное. Москва, 1993.
574. Шелер Макс. Избранные произведения. Москва, 1994.
575. Шестаков В. Мифология XX века. Москва, 1988.
576. Шибутани Т. Социальная психология. Москва, 1969
577. Шкуратов В.А. Историческая психология. Ростов наДону,1994.
578. Шопенгауэр А. Собрание сочинений , в 5 т. Москва, 1992.
579. Шпенглер О. Закат Европы. В 2-х томах. т.1, Москва, 2003, т.2, Москва, 2004.
580. Экономика культуры. Москва, 1972.
581. Элиаде М. Космос и история. Москва, 1987.
582. Энгельс Ф. Диалектика природы. Маркс К. и Энгельс Ф. Соч.,т.20. Москва, 1961.
583. Энгельс Ф. Происхождение семьи, частной собственности и государства. Маркс К. и Энгельс Ф. Соч., т.21. Москва, 1961.
584. Энциклопедия символов, знаков, эмблем. Москва, 2002.

585. Эразм Роттердамский и его время. Москва, 1989.
586. Эриксон Э.Г. Детство и общество. СПб., 1996.
587. Эрн В.Ф. Природа научной мысли. С. Посад, 1914.
588. Эстетическая культура. Москва, 1996.
589. Этнологическая наука за рубежом. Проблемы, поиски, решения. Москва, 1991.
590. Этнология в США и Канаде. Москва, 1989.
591. Это человек. Антология, Москва, 1995.
592. ЮНЕСКО. Современность. Москва, 1966.
593. Юнг К.Г. Архетип и символ. Москва, 1991.
594. Юнг К.Г. Человек и его символы. Санкт-Петербург,1996.
595. Япония. Экономика, политика, история. Москва, 1989.
596. Япония. Экономический справочник. Москва, 1971.
597. Япония: Культура и общество в эпоху НТР. Москва, 1985.
598. Ясперс К. Смысл и назначение истории. Москва, 1991.

**Azərbaycan dilində**

1. Abdulla Kamal. Sirr icində dəstan və yaxud Gizli Dədə Qorqud. Bakı, 1992.
2. Agamirov M. Məhəmməd Hadinin fəlsəfəsi. Bakı, 1987.
3. Agasioglu Firudin. Azər xalqı. Bakı, 2000.
4. Axundov M. F. Nəzm haqqında. Bədii və fəlsəfi əsərləri. Bakı, 1987.
5. Füzuli Məhəmməd. Şikayətnamə. M.Füzuli. Seçilmiş əsərləri. Bakı, 1983.
6. Ismayılov F. Muasir Qərb fəlsəfəsi. Bakı, 1991.
7. Kitabi-Dədə Qorqud. Bakı, 1988.
8. Mehdiyev Elxan. Sülh, munaqişə və munaqişənin həlli haqqında. Bakı, 2000.
9. Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərda fəlsəfi fikir. Bakı, 1978.
10. Məmmədova A.Z. Nəsirəddin Tusinin dünyagörüsü. Bakı, 2000.
11. Nizami Gəncəvi. İsgəndərnamə. Bakı, 1983.
12. Rəsulzadə Məmməd Emin. Əsrimizin Siyavuşu. Bakı, 1991.
13. Şarabski Huseynqulu. Köhnə Bakı. Bakı, 1982.
14. Seyidov Mirəli. Azərbaycan xalqının soykökünü duşünərkən. Bakı, 1989.
15. Abasov Ə., Məmmədov F. Sülh mədəniyyəti nədir?. Bakı, 2002.
16. Azərbayçan Respublikası. 1991-2001. Bakı, 2001.
17. Azərbayçan Respublikasında mədəniyyət siyasəti. Bakı, 2000.

18. Azərbayçanda yeni mədəniyyət siyasətinin formalaşdırılmasına yardım, Bakı, 2001.
19. Azərbaycan Respublikasının qanunu. Mədəniyyət haqqında Azərbaycan Respublikasının qanunu. Bakı, 1998.
20. Azərbaycan tarixi: 7 clddə. Bakı, 1998-2003.
21. Azərbaycanda mədəniyyət siyasəti. Bakı, 2003.
22. Alxasova Elmirə. Məktəbəqədər müəssisələrdə mədəni fəaliyyətin təşkili. Dərs vəsaiti. Bakı, 2001.
23. Alxasova Elmirə. Sadə oyun formaları və onların təsnifləri. Bakı, 2001.
24. Aslanlı Mobil. Fiziki mədəniyyət və mənəvi kamillik. Bakı, 1993.
25. Aslanova R. İslam və mədəniyyət. Bakı, 2002.
26. Aslanova Rəbiyyət. Qloballaşma və mədəni müxtəliflik. Bakı, 2004.
27. Axundov A. Dil və mədəniyyət. Bakı, 1982.
28. Ağaye Ramiz. Azərbaycanın beynəlxalq mədəni əlaqələri. Bakı, 2003.
29. Ağayev ramiz. Azərbaycan xalq yaradıcılığı. Bakı, 1999.
30. Babayev İqbal. Layihələrin idarəedilməsi metodologiyası. Bakı, 2003.
31. Bayramov K. Mədəniyyətdə millilik və beynəlmiləçilik. Bakı, 1974.
32. Bodenştedt Fridrix. Mirzə Şəfi haqqında xatirələr. Bakı, 1987.
33. Qarayev Yaşar. 21 əsr qlobal sivilizasiyası və Şərq dəyərləri. Bakı, 2001.
34. Qarayev Yaşar. Tarix: yaxından və uzağdan. Bakı, 1995.
35. Qasımzadə F. «Qəm karvanı» yaxud zulmətdə nur (Füzulinin dünya görüsü), Bakı, 1968.
36. Qasımov M. Azərbaycan respublikası dünya meridianlarında. Bakı, 1992.
37. Qubatoğlu B. Mədəniyyət tarixi. Bakı, c. I,II. 2002.
38. Quliyev Elşad. Televiziya: nəzəriyyə, inkişaf, meylləri. Bakı, 2004.
39. Quluzadə Musa. Azərbaycanda dövlət və din münasibətləri. Bakı, 2002.
40. Qurbanov Babək. Azərbacan incəsənəti: təriflər, təhriflər. Bakı, 2001.
41. Qurbanov Əsədulla. Beynəlxalq münasibətlərdə din-islam imili. Bakı, 2000.
42. Dünya azərbaycanlıları: tarix və müasirlik. Bakı, 2003.

43. Dönüş mərhələsində qlobal idarəetmə. Bakı, 2005.
44. İsmayılov İ. Dünya Azərbaycanlıları XX əsrdə. Bakı, 1997.
45. Kulturologiya və Azərbaycan gəncləri. Bakı, 2003.
46. Kulturologiya və onun əsas istiqamətləri. Bakı, 2001.
47. Kulturologiya. Dərslik. Bakı, 2003.
48. Mehbaliyev S., İsgəndərov R. Əmək bazarı və əhalinin sosial müdafiəsi. Bakı, 2002.
49. Mehdi Niyazi. Çətin və dolaşıq durumların kulturologiyası. Bakı, 2001.
50. Mirzəyev Ağalar. Bayramlar, mərasimlər, ənənələr. Bakı, 1983.
51. Mirəhmədov Ə. Azərbaycan mütəfəkkirlərinin milli intibah arzuları. Azərbaycan demokratik respublikası. Bakı, 1992.
52. Möhbəddin Səməd. Yaddaşımızın yaşıdları. Bakı, 2003.
53. Mədəniyyət tarixi və nəzəriyyəsi. Dərslik. Bakı, 2006.
54. Məmmədbəyova İradə. Müstəqil Azərbaycan Respublikasında mədəni asudə vaxt: ənənə və varslik. Bakı, 2001.
55. Məmmədov Ələkbər. Milli adət və ənənələr. Bakı, 2000.
56. Məmmədov Ələkbər. Nur karvanı. Bakı, 2003.
57. Məmmədəliyev Y. Azərbaycanda elmin inkişafı. Bakı, 1960.
58. Musayev A.F., Qəhrəmanov A.Q. Vergi mədəniyyəti. Bakı, 2004.
59. Namiq Heydərov. Nümunəvi davranış qaydaları. Bakı, 2005.
60. Norveç mədənyyəti dünya sivilizasiyası kontekstində. Bakı, 2000.
61. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri (Farscadan Azərbayçan dilinə tərçümə, müqəddəmə və şərhi R.Sultanovundur). Bakı, 1980.
62. Paşaev N. Azərbaycanda sosialist mədəniyyətinin inkişafı. (1920-1955). Bakı, 1957.
63. Paşayev V. Mədəniyyət fəlsəfəsi (Kulturologiya). Bakı, 1999.
64. Rəsulzadə M.Ə. Azərbaycan cumhuriyyəti. İstambul, 1990.
65. Sofiyev Xaləddin. 20 əsrin əvvəllərində Azərbaycan mədəniyyətində Ə. Əğa oğlu. Bakı, 2003.
66. Sultanov Oqtay. Mədəni maarif işində sosioloji tədqiqatlar metodikası. Bakı, 1989.
67. Süleymanlı Mübariz. Müasir dövrdə mədəniyyət müəssisələrinin idarəolunması və iqtisadiyyatı. Bakı, 1996.
68. Süleymanlı Mübariz. Novruz və onun tarixi kökləri. Bakı, 1998.
69. Tağıyev Ə., Əliyev . Kulturologiya. Bakı, 1997.
70. Tədbiqi kulturologiya. Dərslik. Bakı, 2004.
71. Ulusel Rəşid. Mədəniyyət və texnosivilizasiya. Bakı, 2003.

72. Usubov Yaşar. Müasir dövrdə mədəniyyət müəssisələrində ünsiyyət prooblemləri və onun həlli yolları. Bakı, 2000.
73. Xəlilov S. Şərq və Qərb. Bakı, 2004.
74. Şükürov A. Qloballaşma mahiyyəti və perspektivləri. Bakı, 2001.
75. Şükürov A., Kulturologiya, Bakı, 2005.
76. Hacızadə H. Demokratiya: Qediləsi uzun bir yol. Demokratiya və antidemokratiya antologiyası. Bakı, 1988.
77. Henrik İbsen. Seçmə dramları. Bakı, 2002.
78. Hüseynov İ., Əmirxanov S. Dünya muzeyləri və tarix mədəniyyət abidələri , Dərslik. Bakı, 1999.
79. Hüseynov İlqar. Azərbaycan milli adət və ənənələrin bədii-estetik mahiyyəti. Bakı, 2002.
80. Hüseynov Sakit. Davamlı insan inkişafının strateji istiqamətləri. Bakı. 2003.
81. Həsənzadə Nəriman. Kulturologiya. Bakı, 2005.
82. Həsənzadə Nəriman. Tariximiz, Talehimiz. Bakı,2002.
83. Həsənli Hacı Sabir. İslam mədəniyyətində din. Bakı, 1998.
84. Cəfərov N. Azərbaycana mədəniyyət məsələləri (Məqalələr toplusu). Bakı, 2000.
85. Cəfərov Nizami. Əzərbaycanlılar: etnokulturoloji işkdşnşt siyasi-ideoloji üfuqları. Bakı, 2001.
86. Gökalp Ziya. Türkçülüyün əsasları. Bakı, 1991.
87. Əlizadə Abdin. Estetik mədəniyyət və varislik. Bakı, 2005.
88. Əlizadə Abdin. Milli mədəniyyətdə tarixilik. Dərs vəsaiti. Bakı, 2000.
89. Əliyev Q., Dadaşzadə H. Konfliktologiyaya giriş. Bakı, 1998.
90. Əliyev Q.C., Tağıyev Ə.M., Bayramov Ğ.İ. Mədəniyətşknaslıq. Bakı, 1999.
91. Əliyev R.Y. İslam və Azərbaycan mədəniyyəti. Bakı, 1998.
92. Ələkbərova N. Mədəniyyət və siyasət. Bakı, 2000.
93. Əfənliyev Teymurçin. Azərbaycan mədəniyyəti və incəsənəti. Təbriz, 2003.
94. Əhməd Ağaoğqu. Üç mədəniyyət (elmi redaktoru Vaqif Sultanlı). Bakı, 2006.

### Xarici dillərdə

1. Abraham Maslow. Motivation and Personality. N.Y., 1987.
2. Benedict R. Pattens of Culture. Boston; N.Y., 1934.
3. Boas F. The Aims of Ethnology. 1888.
4. Brinton. The Shaping of Modern Thought. N.Y., 1965.

5. Cassirer E. Philosophie der symbolischen Formen. Bd. 1-3. Darm., 1980-85.
6. Cultural Pluralism and Culture of Peace. Vilnus, LithuanianNational Comission for UNESCO, 1998.
7. European city of culture in the year 2000. Bergen,1999.
8. Humphreys P., Berkeley D., Jovchelovitch S. Organisational psychology and psychologists in organisations. / Interamerican Journal of Psychology, Vol. 30, N1, 1996.
9. Hungtington S.F. The Clash of Civilizations? Foreign Affairs. 1993. V.72. №3.
10. Xorkheimer M. Kritische Theorie. Bd. I-II. Fr./M., 1968.
11. International conference on cultural policy research. November 10-12 - 1999 Bergen, Norway.
12. J. Grunig. Excellence in Public Relations and Communication Management. L. Erlbaum, 1992
13. Jaeger W.Paideia.Die Formung der griechischen Menschen.Erster Band.Berlin und Leipzig,1936
14. Kroeber A.L. Anthropology. N.Y. 1923.
15. La culture au coer. Contribution a la reflexion sur la culture et le development en Europe. Strasburg, Conseil de L'Europe,1997.
16. La culture au coer. Contribution au debat sur la culture et le development en Europe. Strasburg, Conseil de L'Europe,1998.
17. La politique culturelle de la France. Paris, 1987.
18. Man and Culture. An Evaluation of the Work of Bronislaw Malinowski. P.,1972
19. Marabini J. Marcuse & Mcluhan et la nouvellerevolution mondiale.P., 1973.
20. Margaret Mead. National Character. Anthropology Today. Ed. By A.L. Kroeber. Chi., 1953/
21. Maritain Jaques. Humanisme integral. P., 1968.
22. Maritain Jaques. On the philosophy of History. N.Y., 1957.
23. Maritain Jaques. Religion et culture. P., 1991.
24. Merleau-Ponty M. Phenomenologie de la perception. P., 1945.
25. Merton R.K. Social Theory and Social Structure. Glencoe (III.), 1957.
26. Murdock Dj. P. Culture and Sociery. Pitsburg, 1965.
27. Parsons T. The Social System. Gleoncoe, III., 1951.
28. Plessner H. Die Stufen des Jrganischen und der Mensch. Tinl. In die philosoph. Anthropologie. D., N.Y., 1975.
29. Polenz M.Der hellenisch Mensch Gottingen, 1946

30. Politiqe culturelle: vingt et un enjeux strategiques. Unite de Recherche et de Development sur les Politiques Culturelles. Strasburg, Conseil de L'Europe,1999.
31. Promoting Cultural Researsh for Human Development. Stockholm Sweden, 1998.
32. Radkliffe-Brown A.R. Method in Social Anthropology. Chi., 1958.
33. Redgin D. Culture and the Croud. Philadelphia, 1965.
34. Riesman D. The Academic Revolution. Garden City, 1968 (with Ch. Jencks).
35. Serres Mishel. Le systeme de Leibniz et ses modeles mathemathiques. P., 1969.
36. The challenge of transcultural diversities/ Cultural policy and cultural diversity Kevin Robins. Council of Europe, March, 2006.
37. Toffler A. The Third Wave. N.Y., 1980.
38. Vers une qestion culturelle integree: pratiques et politiques. Unite de Recherche et de Development surles Politiques Culturelles. Strasburg, Conseil de L'Europe,1999.
39. White L. The Science of Culture. N.Y., 1949.
40. Williams R. Culture and Sosiety. L., 1968.
41. Zadeh L.A.. From Computing with Numbers to Computing with Words – From Manipulation of Measurements to Manipulation of Perceptions. In: P.P. Wang (ed.), Computing with Words, Wiley series on Intelligent Systems, Wiley and sons, New York (2001), p.p. 35-68.
42. Zadeh L.A.. Fuzzy Logic = Computing with Words. IEEE – Trans on Fuzzy Systems, 4, 2 (1996), p.p. 103-111.
43. Zadeh L.A.. Probability measures of fuzzy events. Journal Math. Analysis and appl., 10 (1968), p.p. 421-427
44. Zadeh L.A.. The Role of Fuzzy Logic in the Management of Uncertainty in Expert Systems. Fuzzy Sets and Systems, 11 (1983) p.p. 199-227.
45. Zadeh L.A.. Toward a Theory of Fuzzy Information Granulation and its Centrality in Human Reasoning and Fuzzy Logic. Fuzzy Sets and Systems, 90 (1997), p.p. 111-127.

## SUMMARY

In monograph "Culturology as a way to effective life activity" actual problems of culture and culturological development are considered, right understanding and solution of which, by the scheme of the author, opens the way to the comprehension of truth, achievement of stable human development and growth of people's life quality, increase of international affairs' culture, harmonization of cultures and civilizations in the West and in the East.

The author suggests to readers' attention various knowledge about spiritual and material culture, which was systematized by him on the basis of careful study of world culturological thought and creative comprehension of scientific concepts and achievements of known scientists - Culturologists, anthropologists, historians, philosophers, sociologists and other specialists. Together with it he presents his own scientific groundwork – culture and culturological ideas, formulas and concepts. Among them – "the formula of culture efficiency", the idea of "culturological pyramid", "the formula of a cultural person", "the formula of production effectiveness", "the formula of management effectiveness", "the formula of happiness", culturological methodology and practical recommendations of the author, which are aimed at the assistance of individual's spiritual improvement, preparation of individuals and leaders, the formation of right social – culture policy, modernization and stable development of the state. Approaches of the author to principles and tasks of democratic management culture, international social – culture policy international culturological education, periodisation of historical culture in Azerbaijan, etc. can be of practical interest to specialists.

The work also contains separate articles and speeches of the author, including reports, which were made in international congresses, conferences and seminars, which took place in Azerbaijan, Russia, Norway and France. Actual problems of world culture and culturological history, cultural policy, peace culture and management culture, questions, connected with the realization of culture reforms and development of culturological education, democratization and modernization of culture in the Azerbaijan Republic.

The book is intended for students, senior pupils of high schools, grammar schools and licea, teachers, scientists, politicians, experts on the sphere of state administration, managers of culture, heads of nongovernmental organizations, youth and feminine societies, municipalities, trade unions, businessmen, and also for a wide range of readers.

## ABOUT THE AUTHOR

Fuad Teyyub Mammadov is a culturologist, doctor of science, professor of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, academician of the Russian Academy of Pedagogical and Social Sciences and the International Academy of Sciences "Problems of Intellectual Development", winner of "Humay" National public prize.

He was born on the 28$^{th}$ of October, 1946, in Bakı. In 1986 he defended his first thesis on science history in Azerbaijan. In 1989 he was the first in the Republic who began special researches in the sphere of culturology. On the basis of culturological concept, developed by him, in April 1990 the first polybranched nongovernmental organization of culture – "Simurg" Association of culture of Azerbaijan was created in Baku.

He is the author of more than two hundred scientific and scientifically-educational works on history and science and culture theory, including several monographs, the editor of a number culturological collections, scientific concepts and projects, aimed at assistance to cultural reforms and social-cultural progress in Azerbaijan.

He had speeches with scientific papers and notifications on problems of history and theory of culture and science in Azerbaijan, Russia, Germany, Romania, Georgia, Greece, Egypt, Turkey, Costa Rica, Norway, France, the USA, Thailand, Korea and Hungary.

| | |
|---|---|
| Yığılmağa verilmişdir: | 10.05.2008 |
| Çapa imzalanmışdır: | 10.07.2008 |
| Kağız formatı: | 60x90 1/16 |
| Ofset çapı. | |
| Həcmi: | 27 ç.v |
| Tirajı: | 500 |
| Qiyməti müqavilə ilə | |

"Çıraq" nəşriyyatında yığılıb səhifələnmiş və
çapa hazırlanmışdır.



Fuad Teyyub oğlu Məmmədov - kulturoloq, tarix elmləri doktoru, Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyasının professoru, Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, "Simurq" Kulturoloji jurnalın (Dünya mədəniyyəti və sivilizasiyası məsələləri) yaradıcısı və baş redaktoru, "*İntellektual İnkişaf Problemləri*» Beynəlxalq Elmlər Akademiyasının və Rusiya pedaqoji və sosial ellmlər Akademiyasının akademiki,

1946 il oktyabrın 28-də Bakı şəhərində anadan olub. 1986-cı ildə Azərbaycanda elm tarixi üzrə ilk doktorluq dissertasiyasını müdafiə edib. 1989-cı ildə, respublikada ilk dəfə olaraq, kulturologiya sahəsində xüsusi tədqiqatlara başlamışdır. Onun hazırladığı kulturoloji müddaa əsasında 1990-cı ilin aprel ayında Bakıda ilk şoxsahəli qeyri-hokumət təşkilatı - "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası təsis olunmuşdır.

Elmin və mədəniyyətin tarixi və nəzəriyyəsi sahəsində 200-dən artıq elmi və elmi-maarif işlərin, o cümlədən, bir neşə monoqrafiyanın, Azərbaycanın sosial-mədəni cəhətdən modernləşməsinə yönəlmiş, bir sıra məcmualarin, elmi müddaaların və layihələrin müəllifi və tərtibatşısıdır.

Azərbaycan və dünya elminin tarixi, kulturologiya, idarəetmə mədəniyyəti müvzularında Rssiyada, Qərbi Almaniyada, Rumıniyada, Gürcüstanda, Yunanıstanda, Misirdə, Türkiyədə, Cənubi Koreyada, Fransada, Macaarıstanda beynəlxalq konfranslarda, səfirlik və cəmiyyətlərdə məruzələr və çıxışlar etmiıdir.

«Humay» və «İntellekt» Milli ictimai mükafatları, "Simurq" Beynəlxalq medalı, «Sülh səfiri» Beynəlxalq, «Mədəniyyət Səfiri» Milli ictimai fəxri adlarla təltif olunub.

ASSOCIATION OF CULTURE OF AZERBAIJAN

SIMURG